X.M.YAHUDOV

MÜƏSSİSƏNİN İQTİSADİYYATI

Ali texniki məktəblərin «Mühəndis iqtisadiyyatı və idarəetmə» istiqaməti üzrə təhsil alan tələbələri üçün dərslik

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 785 saylı 16.07.2002-ci il tarixli əmri ilə dərslik kimi təsdiq edilmişdir

Western University
Qərb Universiteti
Azərbaycan
№ 374
Elmi Kitabxana Mərkəzi
Scientific Library Centre

BAKI-ELM, 2002

Elmi redaktor: Azərbaycan Dövlət mükafatı laureatı, i.e.d,professor **Ş.Ə.SƏMƏDZADƏ**

Rəyçilər: ADNA-nın «Neft emalı, neft-kimya sahələrin iqtisadiyyatı və menecment» kafedrasının müdiri i.e.d., professor **T.N.ƏLİYEV** ;
AzTU-nun «Xidmət sahələrinin iqtisadiyyatı və menecment» kafedrasının müdiri i.e.d., professor **S.Q.CÜMŞÜDOV**;
Milli Aviasiya Akademiyasının «İqtisadiyyat və hüquq» fakültəsinin dekanı, i.e.n., dosent **İ.H. İSMAYILOV.**

X.M.Yahudov. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı: «ELM», 2002. 548s.

ISBN 5-8066-1081-9

Dərslikdə müəssisə fəaliyyətinin bütün tərəflərinə –təşkilati-hüquqi formaların seçilməsi, material və maliyyə resurslarının formalaşması, məhsulun istehsalı və satışının təşkili, strategiyanın, qiymət siyasətinin, innovasiya və investisiya fəaliyyətinin hazırlanması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, müəssisənin maliyyəsi, xarici iqtisadi və təbiəti mühafizə fəaliyyəti, istehsalın texniki hazırlığı, əməyin və əmək haqqının təşkili, məhsulun maya dəyəri və s. məsələlərə baxılır.

Dərslik ali texniki məktəblərin tələbələri, müəssisə rəhbərləri və mütəxəssislər üçün nəzərdə tutulur.

$Y\frac{0601000000}{655(07)-02}$ qrifli nəşr

© «ELM» nəşriyyatı, 2002

GİRİŞ. FƏNNİN PREDMETİ, MƏZMUNU VƏ METODLARI.

İqtisadiyyat cəmiyyətə lazım olan maddi nemətlər istehsalı,bölgüsü, tədavülü və istehlakı mərhələlərini özündə birləşdirən ictimai-istehsal sistemidir.

«Ekonomika» yunan mənşəli sözdür. O, «təsərrüfat» və «qanun» kimi iki yunan sözünün birləşməsindən əmələ gəlmişdir. İlkin mənasında iqtisadiyyat qanunlar, qaydalar və normalar əsasında aparılan təsərrüfat kimi izah olunurdu. Qədim Yunanıstanda əsasən natural, ev təsərrüfatı mövcud olduğundan iqtisadiyyat ölkənin xalq təsərrüfatı kimi qəbul oluna bilməzdi. Ona görə də həmin dövrdə «iqtisadiyyat» ev təsərrüfatının aparılması sənəti kimi səciyyələnirdi.

İki min ildən artıq bir müddət ərzində «iqtisadiyyat» məfhumu və onun mahiyyəti xeyli dəyişilmiş və zənginləşmişdir. Daha doğrusu, yunan filosofu Ksenofontun bu «iqtisadiyyat» məfhumu indi dünyanın bütün dillərinə daxil olmuş və əvvəlkinə nisbətən daha böyük məna kəsb etmişdir.

Hazırda «iqtisadiyyat» sözü müxtəlif mənalara malikdir.

Birincisi, iqtisadiyyat sözün geniş mənasında təsərrüfatı əks etdirir. Daha doğrusu, iqtisadiyyat –həyat şəraitinin təmin olunması və istehlakın ödənilməsi üçün insanların istifadə etdikləri bütün vəsaitlərin, əşyaların, şeylərin, maddi və mənəvi aləmin substansiyalarının məcmusundan ibarətdir.

İkincisi, iqtisadiyyat-təsərrüfat və onunla əlaqədar insan fəaliyyəti , adamların və cəmiyyətin həyati ləzəbatlarının təmin edilməsi məqsədilə müxtəlif və əsasən məhdud resurslardan istifadə və təsərrüfatçılıq prosesində adamlar arasında meydana gələn münasibətlər haqqında elmdir.

Ümumi halda iqtisadiyyat insan fəaliyyətinin bir sahəsi olub, insanların tələbatlarının ödənilməsinə xidmət edir və bütün iqtisadi elmlər üçün ümumi obyektdir.

İqtisadi həyat proseslərinin və hadisələrinin öyrənilməsi səviyyəsindən asılı olaraq adətən makroiqtisadiyyatı və mikroiqtisadiyyatı fərqləndirirlər.

Makroiqtisadiyyat iqtisadiyyata tam halında baxır, məcmu tələbin və təklifin, milli gəlirin və ümumi milli məhsulun formalaşması proseslərini tədqiq edir, iqtisadiyyatın artımına, inflyasiyaya və işsizliyin səviyyəsinə hökumətin büdcə siyasətinin və Milli Bankın pul siyasətinin təsirini təhlil edir.

Makroiqtisadi təhlilin səviyyəsi bütünlükdə iqtisadiyyatı, ya da onun bölmələrini-milli iqtisadiyyatın sahələrini əhatə edir. Bu sahələri öyrənərkən makroiqtisadiyyatın qarşısında iqtisadiyyatın strukturunun və xalq təsərrüfatının sahələri arasında qarşılıqlı əlaqələrin ümumi mənzərəsini təsvir etmək vəzifəsi durur.

Mikroiqtisadiyyat isə istehsal sahələri və müəssisələr, əmtəə və maliyyə bazarları, banklar, müxtəlif firmalar ,ev təsərrüfatı və s. kimi ayrı-ayrı elementlərin və strukturların vəziyyətini tədqiq edir.

Qeyd etmək lazımdır ki,makro və mikroiqtisadiyyat arasında tam dəqiq sərhəd yoxdur. İqtisadiyyatın bir çox mövzuları bunların hər ikisində öyrənilir.

Müəssisənin iqtisadiyyatı mikro və makroiqtisadiyyat ilə sıx əlaqədardır,lakin onların eyni deyildir. Belə ki, mikroiqtisadi təhlil ayrıca bir müəssisədən deyil, bazarın ayrıca bir müəssisəyə təsirindən bəhs edir. Həqiqətdə isə o, müəssisə səviyyəsində istehsalın iqtisadiyyatı və təşkili məsələlərini tədqiq etmir. Mikroiqtisadiyyat bazarın hər iki tərəfini –tələb və təklifi öyrənir. Müəssisənin iqtisadiyyatı mövqeyindən təhlil zamanı tələb məlum kəmiyyət kimi qəbul edilir.

Digər tərəfdən istehsal amillərinə qiymətin əmələ gəlməsi, istehsal və milli gəlirin bölüşdürülməsi kimi makroiqtisadiyyatın problemləri müəssisə iqtisadiyyatı üçün məlum kəmiyyətdir və o, nəzərə alınır.Xalq təsərrüfatındakı hər cür dəyişikliklər (tələbatın strukturunun dəyişilməsi,demoqrafik dəyişikliklər, texniki tərəqqi, əhalinin gəlirlərinin dəyişməsi) müəssisədə vəziyyətin dəyişilməsinə gətirib çıxarır.

Eyni zamanda müəssisə iqtisadiyyatın tədqiqat obyektlərindən (məsələn, istehsal xərcləri) makroiqtisadiyyat tədqiqatlarda məlumatlar kimi istifadə edir.

Beləliklə, «Müəssisənin iqtisadiyyatı» müstəqil iqtisadi fəndir və o, müəssisənin fəaliyyətini, təsərrüfat qərarlarının hazırlanmasını və qəbul edilməsi prosesini öyrənir.

«Müəssisənin iqtisadiyyatı» anlayışının indiyədək ümumi qəbul olunmuş izahı yoxdur.Bəzi hallarda sözün semantikasına görə təsərrüfatçılıqla eyniləşdirirlər.Digər hallarda isə ona iqtisadi münasibətlər sistemi kimi baxırlar və s. Belə bir vahid tərifin olmaması təsərrüfatçılıq formalarının seçilməsi, onun aparılması məntiqinin başa düşülməsi, iqtisadiyyatın əsas probleminin – resursların məhdudluğu şəraitində artmaqda olan tələbatın ödənilməsi probleminin yerinin və rolunun müəyyən edilməsi işlərinin təşkilini çətinləşdirir.

«Müəssisənin iqtisadiyyatı» anlayışını izah edərkən hər şeydən əvvəl, əsas iqtisadi problemin həllində müəssisənin yeri və rolu müəyyən edilməlidir.

Təsərrüfatçılığın bazar sistemi şəraitində müəssisə onun əsas həlqəsinə çevrilir. Çünki o, təkcə bazarda tələb olunan məhsulu istehsal etmir, həm də əhalinin məşğulluğunu təmin edərək iş yerlərini yaradır, əmək haqqı verir və s.

Vergiləri ödəməklə müəssisə dövlət orqanlarının saxlanmasında və sosial proqramların (təhsil, səhiyyə, mədəniyyət və s.) dəstəklənməsində iştirak edir.

Hər bir müəssisənin rəhbəri malların nə qədər, necə istehsal olunması, onların harada və necə satılması və nəhayət əldə edilmiş mənfəətin bölüşdürülməsi sahəsində müstəqil qərar qəbul edir. Bütün bu məsələlər üzrə müəssisə öz maraqlarına uyğun qərar qəbul edir, səhvlərə və ya düzgün seçilməmiş hərəkətlərə görə öz əmlakı ilə cavab verir.

Müəssisənin maraqlarına daxildir: işçiləri üçün kifayət qədər məqbul həyat səviyyəsinin (əmək haqqı və bir sıra sosial nemətlərin ödənilməsi formalarında) təmin edilməsi; müəssisənin istehsal bazasının dinamik sabit inkişafı; müvafiq vergilərin ödənilməsi.

Müəssisənin maraqlarının təmin edilməsi dərəcəsi onun təsərrüfat fəaliyyətinin nəticələrindən (buraya təkcə məhsulun və xidmətlərin satışından əldə edilən gəlir və mənfəət deyil, həm də tətbiq olunan əsas dövriyyə istehsal fondlarının həcmi, digər istehlak dəyərlərinin (sosial bölmə məcmusu) asılıdır.

Bu elementlərin natural-əşya tərkibi məcmu halında müəssisənin iqtisadiyyatını təşkil edir.

Müəssisənin iqtisadiyyatı-istehsal amillərinin (xüsusi və borc alınmış), qeyri-istehsal amillərinin (uşaq bağçaları, profilaktoriyaları və s.), tədavül fondlarının , hazır məhsulun, müəssisənin bank hesabında və qiymətli kağızlarda olan pul vəsaitlərinin, mülkiyyətin qeyri-maddi fondlarının (patentlər, lisenziyalar və s.), məhsulun satışı və müxtəlif xidmətlərin göstərilməsi nəticəsində əldə edilən gəlirlərin və ya mənfəətin məcmusudur.

Onların dəyərcə qiymətləndirilməsi müəssisənin iqtisadiyyatının inkişafı səviyyəsini və miqyasını xarakterizə edir.Müəssisənin iqtisadiyyatı bir çox amillərdən asılıdır: bir tərəfdən resurs təminatı, buraxılan məhsulun miqdarı və keyfiyyəti, digər tərəfdən isə satışın həcmi, onun satışından əldə edilən gəlirlər və mənfəət arasında optimal nisbət tapmaq qabiliyyəti.

Bu amillərin reallaşdırılmasının xarakteri və dərəcəsi müssisənin inkişafının xarici və daxili şərtlərinin təsirindən və onun nəzərə alınmasından asılıdır. Xarici şərtlərə təsərrüfatçılığın bazar sistemi daxildir.

Son nəticədə bazar şəraitində müəssisələrin fəaliyyəti onlardan hər biri üçün müvafiq inkişaf yolunun axtarışını və hazırlanmasını nəzərdə tutur. Başqa sözlə, təkcə bazarda mövqeyini saxlamaq deyil, həm də inkişaf etmək üçün müəssisə özünün iqtisadi vəziyyətini yaxşılaşdırmalıdır: həmişə istehsal xərcləri ilə nəticələri arasında optimal nisbətə malik olmaq; kapital qoyuluşunun yeni formalarını axtarmaq; məhsulun alıcılara çatdırılmasının daha səmərəli üsullarını seçmək; müvafiq əmtəə siyasətini həyata keçirmək və s.

Bütün bunlar istehsalın inkişafının daxili amillərindən istifadə ilə əlaqələndirilməlidir. Bu amillər məzmununa və təyinatına görə kifayət qədər çoxdur.

Şərti olaraq onları üç qrupa bölmək olar:

1.İstehsalın resurslarla təminatı amilləri.Bu qrupa istehsal amilləri (binalar, tikililər, avadanlıq, alətlər, torpaq, xammal və materiallar, yanacaq, işçi qüvvəsi, informasiya və s.), daha doğrusu, bazarın tələb etdiyi miqdarda və keyfiyyətdə məhsul istehsalı və xidmətlərin göstərilməsi üçün lazım olan hər şey daxildir.

2. Müəssisənin iqtisadi və texniki inkişafının arzu olunan səviyyəsini təmin edən amillər (elmi texniki tərəqqi (ETT), istehsalın və əməyin təşkili, ixtisasın, innovasiyaların, investisiyaların artırılması və s.).

3. Müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin kommersiya səmərəliliyini təmin edən amillər (yüksək səmərəli kommersiya və təchizat fəaliyyətini həyata keçirmək qabiliyyəti).

Bu qruplar arasında ciddi müəyyən olunmuş sərhədlər yoxdur. Məsələn, istehsal vasitələrinin böyük hissəsi təkcə məhsul istehsalı və xidmət göstərilməsinin zəruri şərti

deyil, həm də elmi-texniki tərəqqinin səviyyəsini müəyyən edir.

Bununla bərabər istehsala təsiri dərəcəsinə görə onlar müxtəlifdir. Məsələn, birinci qrup amillər müəssisənin resurslarını, onun imkanlarını müəyyən edir, həmin imkanların həyata keçirilməsi dərəcəsi isə ikinci qrup amillərdən istifadə olunmasından asılıdır.

Üçüncü qrup amillər bir qədər kənarda dururlar. Onların meydana gəlməsi bilavasitə bazar münasiğətləri ilə əlaqədardır. Bu amillərin həyata keçirilməsi aşağıdakıları təmin edir:

- istehsalın ahəngdarlığını;
- istehsal xərclərinin aşağı salınması və ya səmərəli kommersiya işlərini həyata keçirməklə xərclərin müəyyən səviyyədə saxlanmasını;
- müəssisənin texniki və iqtisadi inkişafını təmin edə biləcək həcmdə mənfəətin əldə edilməsini.

Bu, malın marketinqinin həyata keçirilməsi yolu ilə əldə edilir. Malların istehsalında və inkişafında amillərin rolunun müxtəlif olması hər bir qrupdan olan amillərdən istifadənin spesifikliyini müəyyən edir.

Bütün bunlardan sonra deyə bilərik ki,«Müəssisənin iqtisadiyyatı» fənni bir elm kimi iqtisadiyyatın əsas müddəalarını şərh edir, bu müddəaların müəssisə səviyyəsində həyata keçirilməsi vasitələrini öyrənir. Deməli,«Müəssisənin iqtisadiyyatı» fənninin predmeti dedikdə, iqtisadi qanunların müxtəlif sahələrə və müxtəlif mülkiyyət formalarına malik olan müəssisələrdə təzahürü, məhsulun istehsalı və satışı prosesində az resurs xərcləri ilə daha yaxşı nəticələrin əldə edilməsini təmin edən təsərrüfat mexanizmi başa düşülür. İstehsal prosesinin qanunauyğunluqlarının dərk edilməsi əsasında praktiki istehsal məqsədlərinin reallaşdırılmasının təsərrüfat metodlarının hazırlanması imkanları meydana gəlir.

Hər bir müəssisə öz-özünə, təklikdə mövcud ola bilməz, bir tərəfdən istehsal amilləri bazarı vasitəsilə, digər tərəfdən isə satış bazarı vasitəsilə o, bütünlükdə iqtisadiyyatla əlaqədardır. Ona görə də müəssisənin iqtiadiyyatı ayrı-ayrı müəssisələrin digər təsərrüfat vahidlərilə və bazarla münasibətlərini də tədqiq etməlidir. Bu zaman o, təsərrüfat prosesinə həm bütünlükdə, həm də ayrıca bir müəssisənin maraqları nöqteyi-nəzərindən baxır.

«Müəssisənin iqtisadiyyatı» fənninin öyrənilməsi zamanı öyrənilmə obyektinin dəqiq müəyyən edilməsi vacib şərtlərdəndir. Bu və ya başqa sahənin iqtisadiyyatı üçün öyrənilmə obyekti sahə, müəssisənin iqtisadiyyati üçün isə öyrənilmə obyekti müəssisədir.

Sahələrin təsnifatının əsasını ictimai əmək bölgüsü təşkil edir. Xalq təsərrüfatı və müəssisə səviyyələrində əmək bölgüsünü fərqləndirirlər. Əmək bölgüsünün bu iki əsas növü bir-biri ilə qarşılıqlı əlaqədədir və biri digərini doğurur.

Sahəni tədqiqat obyekti kimi səciyyələndirərkən onu müstəqil müəssisələrin məcmusu kimi təsvir etmək olar. Müəssisə öyrənilmə obyekti kimi hüquqi şəxs hüququna malik , məhsulun istehsalı və satışı, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi ilə məşğul olan xüsusləşmiş istehsal-təsərrüfat vahididir.

Müəssisənin başlıca vəzifəsi müəssisə mülkiyyətçisinin maraqlarını təmin etmək üçün mənfəətin əldə edilməsinə yönəldilmiş təsərrüfat fəaliyyətidir. Müəssisələr istehsalın həcminə, təşkilatı strukturuna, ixtisaslaşma dərəcəsinə, istehsal tiplərinə və bir sıra başqa əlamətlərə görə fərqlənirlər.

Hazırda müəssisənin statusu, onun yaradılması və ləvğ edilməsi qaydası, əmlakın əmələ gəlməsi və istifadəsi şərtləri, təsərrüfat , iqtisadi və sosial fəaliyyət,dövlət idarəçiliyi və yerli özünüidarəetmə orqanları ilə müəssisənin

münasibətləri əsasən müstəqil dövlətimizin qanunvericiliyi ilə tənzimlənir.

«Müəssisənin iqtisadiyyatı» fənnindən danışarkən onun əsas vəzifələrini qeyd etmək lazımdır. Onlar aşağıdakı iki müddəadan irəli gəlir.

1) mülkiyyət formasından və sahə mənsubiyyətindən asılı olmayaraq müəssisə xalq təsərrüfatının ilkin həlqəsi və iqtisadi əsası hesab olunur. Çünki bütünlükdə xalq təsərrüfatının inkişafı və adamların rifah halının səviyyəsi son nəticədə məhz müəssisənin işinin səmərəliliyi səviyyəsindən asılıdır;
2) bazar iqtisadiyyatına keçid əvvələr mövcud olmuş təsərrüfat mexanizminin dərk edilməsini, onun strukuturuna sahibkarlıq, rəqabət, təsərrüfat riski, kommersiya hesabı, sertifikatlaşdırma, biznes plan, əməyin motivasiyası, vergiqoyma və s. kimi yeni formaların və kriterilərin daxil edilməsini tələb edir.

Buna uyğun olaraq fənnin qarşısında aşağıdakı vəzifələr durur:

-müəssisələrdə fəaliyyət göstərən təsərrüfat mexanizminin əsas elementlərinə baxılması ;

-bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq təsərrüfatçılığın yeni formalarının və metodlarının mənimsənilməsi;

-müxtəlif mülkiyyət formalarına malik müəssisələrin iqtisadiyyatının və təşkilinin xüsusiyyətlərinin öyrənilməsi.

Müəssisə özünün fəaliyyətində təkcə təsərrüfat problemləri ilə deyil, həm də texniki, hüquqi, sosial, psixoloji, fizioloji və etik məsələlərlə məşğul olur. Bütün bunlar müxtəlif sosial elmlərin və xüsusi iqtisadi fənnlərin öyrənilməsi obyektləridir. Onların nəticələri və tövsiyyələri müəssisənin fəaliyyətinin təşkili və həyata keçirilməsi zamanı nəzərə alınmalıdır.

Müəssisənin iqtisadiyyatının əsas öyrənilmə obyektləri aşağıdakılardır:

- müəssisənin istehsal strukturu, sənaye istehsalının tipləri, istehsal tsiklinin təşkili;
- -müəssisənin idarə edilməsi prosesinin təşkili:
- iqtisadi strateqiyanın seçilməsi, məhsulun istehsalı və satışı planının tərtib edilməsi;
- müəssisənin kapitalının formalaşması və istifadə edilməsi, mənfəətin (gəlirin) yığımı;
- istehsalın maddi-texniki təminatı, xammal və materialların göndərilməsi, ehtiyatların yaradılması və onlardan səmərəli istifadə edilməsi;
- istehsalın texniki hazırlığı və zəruri istehsal infrastrukturunun yaradılması;
- istehsal xərclərinin formalaşması, məhsulun maya dəyərinin kalkulyasiyası,müəssisənin qiymət siyasəti;
- müəssisənin maliyyə resursları, təsərrüfat fəaliyyətinin səmərəliliyi, sahibkarlıqda riskin qiymətləndirilməsi;
- müəssisənin innovasiya fəaliyyəti, məhsulun keyfiyyəti, müəssisənin investisiya siyasəti, ekoloji problemlər;
- kadrların seçilməsi, işə qəbul, əməyin təşkili, əməyin ödənilməsi formaları və sistemləri, əmək məhsuldarlığının yüksəldilməsinin stimullaşdırılması;
- müəssisənin xarici iqtisadi fəaliyyəti.

«Müəssisənin iqtisadiyyatı» fənninin məzmunu da məhz yuxarıdakılarla müəyyən edilir.

Bütün elmlərdə olduğu kimi «Müəssisənin iqtisadiyyatı» fənninin də özünəməxsus tədqiqat metodları vardır. Bu fənn tətbiqi xarakterdə olduğundan tətbiqi iqtisadi elmlərə xas olan metodlardan geniş istifadə edir. Həmin metodlardan bəzilərini göstərək:

1. Statistik müşahidə və müqayisəli təhlil metodları. Bu metodlar xüsusi və ümumiləşdirici iqtisadi göstəriciləri yığmağa və tutuşdurmağa, sahənin dinamikasını təhlil etməyə, ən yaxşı nəticələri aşkar etmək məqsədilə sahənin fəaliyyəti nəticələrini digər təsərrüfat subyektlərinin göstəriciləri ilə müqayisə etməyə imkan verir.

2. Ehtimallı və proqnozlaşdırma metodları. Bu metodların köməyilə sahənin və müəssisələrin təsərrüfat strategiyaları hazırlanır, mühüm sahibkarlıq qərarları qəbul edilir.

3. Riyazi modellər və qrafik təsvir metodları və s. Bu metodlar müxtəlif iqtisadi göstəricilər arasında nisbətləri düzgün dərk etməyə, iqtisadi vəziyyətin təsiri ilə onların «davranışını» qiymətləndirməyə imkan verir. Müəssisənin iqtisadiyyatında iqtisadi-riyazi metodların və modelləşdirmənin tətbiqi zamanı əsasən iki fərziyyə mümkündür: birincisi, müəssisə mənfəətin maksimallaşdırılmasına çalışır; ikincisi, sahibkarın fəaliyyət göstərdiyi bazar mühiti bütün bazar subyektlərinə bilavasitə təsir göstərən fəal mühitdir.

«Müəssisənin iqtisadiyyatı» fənni bir çox iqtisadi, texniki və başqa fənnlərlə əlaqədardır. Məsələn, «Sahibkarlığın əsasları», «Marketinq», «Təhlil», «Sənayenin maliyyəsi», «Statistika», «Menecment», «Maşınqayırma texnoloqiyası» və s.

***

Son illərdə Azərbaycan iqtisadiyyatının təcrübəsini təhlil edən, müəssisələrin fəaliyyətini ümumiləşdirən müəyyən elmi işlər yazılmışdır. Bu gün artıq ölkəmizdə iqtisadi nəzəriyyə, marketinq, menecment, sahibkarlıq, sənayenin iqtisadiyyatı və digər iqtisadi fənnlər üzrə dərsliklər və dərs vəsaitləri vardır. Lakin bazar şəraitində müəssisənin iqtisadiyyatı ilə əlaqədar məsələləri əks etdirən vahid «Müəssisənin iqtisadiyyatı» fənni üzrə dərslik yox idi.

Bu dərslik həmin boşluğu doldurmaq sahəsində ilk cəhddir və aydındır ki, müəyyən nöqsanlardan xali deyildir. Kitab haqda arzu, təklif və iradlarını göndərən hər bir şəxsə müəllif əvvəlcədən minnətdarlığını bildirir.

Dərsliyin işıq üzü görməsində iştirakı olan, onun əlyazmasını oxuyaraq dəyərli təkliflər vermiş bütün şəxslərə müəllif dərin minnətdarlığını bildirir.

I BÖLMƏ

MÜƏSSİSƏ VƏ ONUN İQTİSADİ RESURSLARI

FƏSİL 1. MÜƏSSİSƏ BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ

1.1. Ölkə iqtisadiyyatının inkişafında sənayenin rolu

Azərbaycan lap yaxın gələcəkdə inkişaf etmiş ölkələrdən birinə çevrilə bilər, çünki bunun üçün lazım olan bütün şərait ölkəmizdə mövcuddur. Belə ki, ölkə zəngin təbii ehtiyatlara, kənd təsərrüfatı üçün yararlı olan kifayət qədər torpaq sahələrinə, güclü elmi potensiala və s. malikdir.

Məlumdur ki, ölkənin iqtisadiyyatı bir çox sahələrdən – sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, rabitə və s. – ibarətdir. Lakin ölkə iqtisadiyyatının əsası, bünövrəsi sənayedir.

Sənaye – iri maddi istehsal sahəsi olub, əmək alətlərinin və xalq istehlakı mallarının istehsalı ilə məşğul olur. Sənayedə maşın və avadanlığın bütün növləri, bina və qurğular üçün konstruksiyalar yaradılır, faydalı qazıntılar (yanacaq, filiz, duz, qeyri - filiz materialları) hasil edilir, mineral, bitki və heyvandarlıq xammalı emal olunur, istehlak əşyaları hazırlanır.

Sənaye iki başlıca bölmədən ibarətdir: istehsal vasitələri istehsalı («A» qrupu) və istehlak şeyləri istehsalı («B» qrupu). Ağır sənaye iqtisadiyyatın özülü hesab olunur. Ağır sənaye və onun sahələri (maşınqayırma, kimya, neft - kimya, elektroenergetika və s.) ölkə iqtisadiyyatının möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının inkişafının bütün dövrlərində sənaye aparıcı rol oynamışdır.

Aşağıdakı səbəblərə görə sənaye ölkənin aparıcı sahəsi hesab olunur:

1) sənayenin, xüsusilə onun elektroenergetika, maşınqayırma və kimya sənayesi kimi sahələrinin inkişafı bütünlükdə xalq təsərrüfatında elmi – texniki tərəqqinin (ETT) sürətləndirilməsi üçün əsasdır;

2)sənaye, xüsusilə ağır sənaye, bütün iqtisadiyyatın özülü, ölkənin bütün subyektlərinin iqtisadi inkişafının və geniş təkrar istehsalının əsasıdır;

3)ölkənin müdafiə qabiliyyəti xeyli dərəcədə sənayenin inkişafı səviyyəsi ilə müəyyən edilir;

4)ölkə vətəndaşlarının xalq istehlakı malları ilə təminatı yüngül və yeyinti sənayesinin inkişafından asılıdır.

Beləliklə, sənaye xalq təsərrüfatının aparıcı sahəsi və ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi üçün əsas sayılır.

Sənayenin işi kəmiyyət, keyfiyyət, dəyər və natural göstəricilərlə xarakterizə olunur.

Uzun muddət ölkənin sənayesində tənəzzül meyli mövcud olmuşdur. Bunun əsas səbəbi ölkədə böhran vəziyyətinin olması ilə əlaqədar idi. Bu isə aşağıdakı amillərin təsiri ilə baş vermişdir:

- SSRİ–nin dağılması və bunun nəticəsində ittifaqın keçmiş respublikaları arasındakı kooperativ əlaqələrin pozulması;
- bazar iqtisadiyyatına keçid üçün Azərbaycanda şəraitin yaradılmaması. Bazara keçid inhisarlaşdırılmış iqtisadiyyat şəraitində, zəruri bazar infrastrukturu və müvafiq qanunvericilik yaradılmadan, ölkənin iqtisadi və sosial inkişafının həqiqi və elmi əsaslandırılmış proqramı hazırlamadan başlamışdı;
- dövlətçiliyin zəif olması. Bazar iqtisadiyyatına keçidin birinci mərhələsində dövlət ölkənin iqtisadiyyatına demək

olar müdaxilə etməmiş, onun lazımi istiqamətlərdə inkişafını təmin etməmişdir;
- ölkə iqtisadiyyatında cinayətkar ünsürlərin mövcudluğu. Təsərrüfat qanunvericiliyinin qeyri – mükəmməlliyi, təsərrüfat subyektlərinin fəaliyyətinə dövlət orqanlarının zəif nəzarəti Azərbaycanda gizli iqtisadiyyatın inkişafına gətirib çıxarmışdı;
- cəmiyyətdə mövcud olan sosial və siyasi gərginlik.
- bir çox müəssisələrin, dövlət idarələrinin, o cümlədən hakimiyyətin yüxarı pilləsinin rəhbərləri bazar münasibətlərinə keçid şəraitində idarəetmə təcrübəsinə malik deyildilər;
- sərhədlərin açılması ölkəyə xarici malların, o cümlədən keyfiyyətsiz malların, böyük axınına səbəb oldu ki, bu da bizim müəssisələri şok vəziyyətinə salmışdı və onların məhsulları rəqabət qabiliyyətinə malik deyildi;
- keçid dövründə Azərbaycanda milli iqtisadiyyatın inkişafı üçün ölkə və xarici investorlar tərəfindən sərmayə qoyulması üçün şərait yaradılmamışdı;
- vergi qanunvericiliyinin qeyri – mükəmməlliyi. Bu, bilavasitə məhsul istehsalçılarının fəaliyyətini çətinləşdirirdi.

Təbii ki, Azərbaycanda böhran vəziyyətinin yaranmasına başqa səbəblər də təsir etmişdi. Lakin bütün bunlardan belə nəticə çıxarmaq olar ki, dövlət bazar iqtisadiyyatının bütün iştrakçıları üçün sivil oyun qaydaları hazırlamamışdı, onlara əməl edilməsinə lazımi nəzarəti təmin etməmişdi.

Lakin son illərdə ölkədə aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində 90-cı illərin əvvəllərində iqtisadiyyatda xroniki xarakter almış geriləmə prosisinin qarşısı alınmış, Azərbaycanın iqtisadi inkişafında yeni mərhələnin möhkəm təməli qoyulmuşdur. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatlar aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı istiqamətində inamla irəlilədiyini sübut edir.

Sənayenin sahələrə bölünməsi, yeni-yeni sahələrin yaranması ictimai əmək bölgüsünün inkişafından irəli gələn daimi prosesdir.

İctimai əmək bölgüsünun ümumi, xüsusi və vahid formalarını fərqləndirirlər:

1. Ümumi əmək bölgüsü ictimai istehsalın iri maddi istehsal sferalarına (sənaye, kənd təsərrüfatı, nəqliyyat və s.) bölünməsində ifadə olunur.

2. Xüsusi əmək bölgüsü sənayenin, kənd təsərrüfatının və maddi istehsalın digər sahələrinin tərkibində müxtəlif müstəqil sahələrin əmələ gəlməsi ilə meydana çıxır.

3. Vahid əmək bölgüsü isə bilavasitə müəssisənin özündəki bölgüdə öz əksini tapır.

İctimai əmək bölcüsünün bütün formaları bir-birilə qarşılıqlı əlaqədardır. Ümumi əmək bölgüsünün təsiri ilə xüsusi əmək bölgüsü baş verir . Öz növbəsində vahid əmək bölgüsü də istehsalın təmərküzləşdirilməsi və elmi – texniki tərəqqi ilə əlaqədar olaraq yeni sənaye sahələrinin yaranmasına təsir göstərir.

Qeyd etdik ki, sənaye bir – birilə qarşılıqlı əlaqədə olan çox sayda sahələrdən ibarətdir. Sənaye sahələrini bir - birindən fərqləndirən əsas əlamətlər aşağıdakılardır: istehsal olunan məhsulun iqtisadi təyinatı; istehlak olunan materialların xarakteri ; istehsalın texniki bazası və texnoloji proses; kadrların peşə tərkibi. Ayrı – ayrı istehsallar da bu əlamətlərə görə bir – birindən fərqləndirilir.

Sənaye sahəsi istehsal olunan məhsulun iqtisadi təyinatının vəhdəti, istehlak olunan materialların həmcinsliliyi, texniki bazanın və texnoloji proseslərin ümumiliyi, kadrların xüsusi peşə tərkibi və xüsusi iş şəraiti ilə səciyyələnən müəssisələrin məcmusundan ibarətdir.

Eyni zamanda sənaye və ya xalq təsərrüfatı kompleksləri anlayışları da mövcuddur. Xalq təsərrüfatında aşağıdakı komplekslər fəaliyyət göstərir: aqrar, sənaye

Azərbaycan № 3874

(ASK), hərbi – sənaye (HSK), maşınqayırma, metallurgiya, kimya – meşə, tikinti, yanacaq – energetika (JEK) və s.

Sənaye kompleksi dedikdə, oxşar məhsul buraxılışı və işlərin (xidmətlərin) yerinə yetirilməsi səciyyəvi olan müəyyən qrup sahələrin məcmusu başa düşülür.

Bütün bunlar sahə quruluşunun formalaşmasına təsir edir. Sənayenin sahə quruluşu buraya daxil olan sahələrin və komplekslərin tərkibini, sənaye istehsalının ümumi həcmində onların payını əks etdirir. Sənayenin sahə quruluşu həmişə hərəkətdədir, dəyişmədədir, daha doğrusu, mühüm struktur dəyişiklikləri baş verir.

Sahə quruluşunun formalaşmasına bir sıra amillər təsir göstərir. Həmin amillər aşağıdakılardır:

1. Elmi – texniki tərəqqinin sürətlənməsi. Məhz bu amilin təsiri ilə yeni sənaye sahələri və istehsallar yaranır. Məsələn, ETT-nin təsiri ilə son dövrlərdə qarışıq yem istehsalı sənayesi, enerji maşınqayırma, kosmik texnikanın istehsalı və s. kimi sahələr meydana gəlmişdir.

2. Dövlətin iqtisadi siyasəti. Dövlət öz siyasətini yeridərkən iqtisadi və sosial baxımdan daha əhəmiyyətli sənaye sahələrini dəstəkləyə bilər və bununla da onların inkişaf sürətlərinə təsir edər.

3. Sənaye emalı üçün yararlı olan faydalı qazıntıların ölkədə mövcudluğu. Bu və ya başqa faydalı qazıntılarla ölkə nə qədər zəngin olarsa bütün başqa şərtlər eyni olduqda sənaye istehsalının ümumi həcmində hasilat sahələrinin payı daha çox olar.

4. Xalqın mədəni səviyyəsinin və maddi rifah halının vəziyyəti. Xalq istehlakı mallarını əldə etmək qabiliyyəti xalqın maddi həyat səviyyəsindən asılıdır ki, bu da onları istehsal edən sahələrin inkişafı üçün əsasdır. Ölkədə əhalinin orta təbəqəsinin olması uzunmüddətli istifadə mallarını (avtomobil, soyuducu, videomaqnitafon, radioaparatlar və s.) istehsal edən sahələrin inkişafına yardım göstərir.

5. Ənənəvi formalaşmış ixtisaslaşma.

6. Dövlət büdcəsindən maliyyələşdirilən kapital qoyuluşlarının plan sahə quruluşu.

Maşınqayırma sənayesinin sahə quruluşunu təhlil etmək üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

1) sənaye istehsalının ümumi həcmində ayrıca bir sahənin və ya kompleksin payı və dinamikada onun dəyişilməsi:

$$K=\frac{N_J}{\sum_{j=1}^{m} N_J}\cdot 100\ ,$$

burada N_J - j-ci sahənin müəssisələrində illik ümumi məhsul buraxılışı;

m – sənaye sahələrinin sayıdır.

2) sənaye istehsalının ümumi həcmində mütərəqqi sahələrin payı və dinamikada onun dəyişilməsi. Bütün sənaye sahələrini şərti olaraq mütərəqqi və qeyri – mütərəqqi sahələrə bölmək olar. Mütərəqqi sahələrə bütünlükdə xalq təsərrüfatında ETT – nin sürətlənməsini təmin edən sahələr daxildir. İctimai istehsalın səmərəliliyi xeyli dərəcədə həmin sahələrin inkişafından asılıdır. Mütərəqqi sahələrə adətən maşınqayırma, elektroenergetika və kimya sənayesi sahələri daxil edilir. Dinamikada onun payının artması onu göstərir ki, sahə quruluşunda mütərəqqi dəyişikliklər baş verir. Bu isə ölkə iqtisadiyyatının inkişafına sərfəli təsir göstərir.

3) qabaqlama əmsalı. O, sahənin və ya ayrıca kompleksin artım surətinin bütün sənayenin artım sürətinə nisbətini əks etdirir:

$$K_q=\frac{T_{sah}}{T_{sən}}\ ,$$

burada, K_q - qabaqlama əmsalı;

T_{sah} – sahənin və ya kompleksin inkişafı sürəti;

$T_{sən}$ – sənayenin inkişaf sürəti.

4) hasilat və emal sahələri arasındakı nisbət. Hasilat sahələri ilə müqayisədə emal sahələrinin üstün inkişafı adətən ölkə iqtisadiyyatında müsbət dəyişiklikləri əks etdirir.

5) A və B qrupları arasında nisbət. Ölkənin inkişafının indiki mərhələsində B qrupunun üstün inkişafı müsbət amildir. Belə ki, plan iqtisadiyyatı dövründə əsas diqqət A qrupu sahələrinin genişləndirilməsinə verilirdi.

6) sənaye istehsalının ümumi həcmində HSK – nın payı. SSRİ – də HSK – nın inkişafına həddindən çox fikir verilirdi. Bunun nəticəsində ölkənin sənayesi əsasən HSK üçün işləyirdi və dinc sahələrin inkişafı üçün kifayət qədər vəsait və güc qalmırdı. Bu isə əhalinin maddi rifahına təsir etməyə bilməzdi.

Ona görə də müasir şəraitdə ölkəmizin iqtisadiyyatının vəziyyəti, dünyada xarici iqtisadi və siyasi vəziyyət, ölkənin müdafiə sənayesinin təyinatının dəyişdirilməsi ən aktual problemdir.

Ümumi şəkildə maşınqayırma sənayesinin sahə quruluşu aşağıdakıları əks etdirir:

- ölkənin sənayecə inkişaf səviyyəsi;
- ölkənin texniki inkişafı səviyyəsi;
- ölkənin iqtisadi müstəqilliyinin səviyyəsi;
- ictimai əmək məhsuldarlığının səviyyəsi.

Son illərdə ölkənin iqtisadiyyatında quruluş baxımından həm pozitiv, həm də neqativ hallar baş vermişdir. Ölkədə iqtisadiyyatın əvvəllər ağlagəlməyən bölmələri meydana gəlmişdir. Məsələn, banklar, sığorta, məsləhətverici, auditor və investisiya şirkətləri və s.

Əsas neqativ hal isə sənayenin sahə quruluşunda xammal sahələrinin və aşağı emal dərəcəsinə malik sahələrin payının artmasıdır.

Dinamikada sənayenin sahə quruluşunun dəyişilməsi aşağıdakı cədvəldə göstərilmişdir:

Cədvəl 1.1.1. Sənaye istehsalının sahə quruluşu

	1990	1993	1994	1995	1996
Sənaye: -o cümlədən sahələr üzrə:	100	100	100	100	100
Elektroenergetika	5,0	7,2	8,3	8,3	8,3
Yanacaq	16,0	18,8	21,2	21,4	1,9
Qara metallurgiya	7,9	8,1	8,5	9,6	9,7
Əlvan metallurgiya	9,5	8,4	9,6	10,1	0,1
Kimya və neft kimyası	8,5	7,8	7,0	7,8	7,1
Maşınqayırma	20,1	20,6	16,3	15,1	3,7
Meşə və ağac emalı	4,6	4,6	4,0	3,8	3,2
Tikinti materiallarının istehsalı	3,1	3,2	2,9	3,8	2,2
Yüngül sənaye	8,4	6,5	4,3	3,0	2,3
Yeyinti sənayesi	10,2	11,1	10,9	10,2	9,9

Sənayenin sahə quruluşundakı belə dəyişikliklər aşağıdakı nəticələrə gətirmişdir:

- idxalın quruluşunun pisləşməsi;
- əsas istehsal fondlarının mənəvi və fiziki aşınmasının artması;
- elmi – texniki tərəqqinin sürətləndirilməsinin zəifləməsi və istehsalın texniki səviyyəsinin aşağı düşməsi;
- elmtutumlu məhsulların və texnologiyaların idxalı baxımından ölkəmizin inkişaf etmiş ölkələrdən asılılığının artması.

Sənayenin sahə quruluşunun pisləşməsi son nəticədə ictimai istehsalın səmərəliliyinə mənfi təsir göstərir və ölkə iqtisadiyyatının yaranmış böhrandan çıxarılmasına mane olur. Buradan da belə nəticəyə gəlmək olar ki, özünün yaxın və uzaq perspektivlərinə nail olmaq üçün dövlət iqtisadiyyatında, o cümlədən sənayedə, baş verən quruluş dəyişikliklərini idarə etməlidir.

1.2. Müəsisənin növləri və təşkilati-hüquqi formaları

İstehsalın bütün həlqələrində əsas özək müəssisədir. Məhsulun istehsalı, işçinin istehsal vasitələri ilə bilavasitə əlaqəsi məhz müəssisədə həyata keçirilir.

Müəssisə – mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublkasının – Müəssisələr haqqında Qanununa müvafiq yaradılan, ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan müstəqil təsərrüfat subyektidir.

Müəssisə təşkilati – hüquqi forması göstərilməklə xüsusi ada malik olur.

Müəssisə əmlak mülkiyyətçisinin (mülkiyyətçilərinin), yaxud onun (onların) vəkil etdiyi orqanın, müəssisənin, təşkilatın qərarı ilə Müəssisələr haqqında Qanunla və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə nəzərdə tutulan qaydada yaradıla bilər.

Müəssisə Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyinə müvafiq digər müəssisənin icbari bölünməsi nəticəsində də təsis edilə bilər.

Müəssisə mülkiyyətçinin və ya onun vəkil etdiyi orqanın razılığı olduqda və müəssisə tərəfindən götürülən öhdəliklərin yerinə yetirilməsi təmin edildikdə fəaliyyət göstərən müəssisənin, təşkilatın tərkibindən bir və ya bir neçə struktur bölmənin ayrılması nəticəsində, habelə fəaliyyət göstərən birliklərin struktur vahidlərinin bazasında da yaradıla bilər.

Müəssisənin təsisçisi kimi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakılar ola bilər:

dövlət əmlakının idarə edilməsinə vəkil edilmiş dövlət orqanları;

Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri;

xarici dövlətlər;

xarici dövlətlərin vətəndaşları və hüquqi şəxsləri, vətəndaşlığı olmayan şəxslər;

beynəlxalq təşkilatlar.

Müəssisə bir, yaxud bir neçə təsisçi tərəfindən Qanunla müəyyən olunmuş qaydada yaradılır.

Müəssisə yaradılarkən təsisçilər, habelə müəssisə və təsisçi (təsisçilər) arasındakı qarşılıqlı münasibətləri tənzimləmək məqsədilə təsis müqaviləsi tərtib olunur.

Təsis müqaviləsində müəssisənin adı və növü, təsisçilər haqqında məlumat, nizamnamə fondu, hər təsisçinin bu fonddakı payı, öhdəliklər, mənfəətin bölünməsi qaydası və s. göstərilir.

Fərdi və dövlət müəssisələri təsis edilərkən təsis müqaviləsi tərtib olunmur.

Mülkiyyət və təşkilati – hüquqi formasından asılı olmayaraq bütün müəssisələr nizamnamə əsasında fəaliyyət göstərir.

Müəssisənin nizamnaməsi təsisçi bir fiziki və ya bir hüquqi şəxs olduqda təsisçi tərəfindən, müəssisənin təsisçiləri iki və ya daha çox fiziki və hüquqi şəxs olduqda ümumi təsis yığıncağının qərarı ilə təsdiq edilir.

Müəssisənin nizamnaməsində aşağıdakılar göstərilir:

müəssisənin adı və növü, hüquqi ünvanı, təsisçi (təsisçilər) barədə məlumat, müəssisənin hüquq və vəzifələri, nizamnamə fondu, fəaliyyətinin məzmunu və məqsədi, idarəetmə və nəzarət orqanları, səlahiyyəti, müəssisə əmlakının yaranması və mənfəətin (gəlirin) bölüşdürülməsi qaydası, yenidən təşkil olunmanın şərtləri, müəssisənin fəaliyyətinin dayandırılması və ləğvi.

Nizamnamədə müəssisənin fəaliyyəti ilə bağlı olan,qanunvericiliyə zidd olmayan digər müddəalar da verilə bilər.

Mülkiyyətçinin və yaxud onun vəkil etdiyi orqanın razılığı əsasında müəssisə törəmə müəssisələr yarada bilər. Mülkiyyətçinin və yaxud onun vəkil etdiyi orqanın razılığı

əsasında müəssisə tərəfindən törəmə müəssisəyə əmlak verilir.

Təsisçi törəmə müəssisələrin öhdəliklərinə görə, törəmə müəssisələr isə təsisçinin öhdəliklərinə görə, təsis sənədləri ilə başqa qayda nəzərdə tutulmayıbsa, məsuliyyət daşımır.

Müəssisə filiallar, nümayəndəliklər və müəssisənin digər xüsusi bölmələrini açmaq hüququna malikdir.

Müəssisənin funksiyalarının hamısını və ya bir hissəsini həyata keçirən və onun olduğu yerdən kənarda yerləşən xüsusi bölməsi filialdır.

Müəssisənin maraqlarının müvəkilliyini və müdafiəsini həyata keçirən, onun adından əqdlər bağlayan və digər hüquqi hərəkətlər edən və müəssisənin olduğu yerdən kənarda yerləşən xüsusi bölməsi nümayəndəlikdir.

Filiallar və nümayəndəliklər onları yaradan müəssisənin nizamnaməsində göstərilməlidir.

Filiallar və nümayəndəliklər hüquqi şəxslər deyildir. Filiallara və nümayəndəliklərə onları yaradan müəssisə tərəfindən əmlak verilir və onlar həmin müəssisə tərəfindən təsdiq edilmiş nizamnamə əsasında fəaliyyət göstərir.

Filialların və nümayəndəliklərin rəhbərləri onları yaradan müəssisə tərəfindən təyin edilir.

Törəmə müəssisələr dövlət qeydiyyatı keçdikdən sonra yaradılmış sayılır və hüquqi şəxs statusu əldə edir.

Müəssisənin dövlət qeydiyyatı Azərbaycan Respublikasının müvafiq qanunu ilə nəzərdə tutulan qaydada həyata keçirilir.

Müəssisənin dövlət qeydiyyatı haqqında məlumat Azərbaycan Respublikasının uçot vahidlərinin dövlət reyestrinə daxil edilmək üçün qeydiyyat orqanı tərəfindən on gün müddətində Azərbaycan Respublikası Maliyyə Nazirliyinə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə və müəssisənin yerləşdiyi ərazinin dövlət vergi müfəttişliyi orqanına verilir.

Qeydə alınmayan müəssisənin fəaliyyəti qadağandır.

Qeydə alınmayan müəssisənin fəaliyyətindən əldə edilən gəlir qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qərarı ilə alınır və yerli büdcəyə köçürülür.

Müəssisənin dövlət qeydiyyatına alınması üçün təsisçi tərəfindən aşağıda göstərilən sənədlər təqdim edilir:

a) təsisçinin ərizəsi;

b) müəssisənin nizamnaməsi;

v) müəssisənin yaradılması haqqında qərar və ya təsis müqaviləsi;

q) qeydiyyat rüsumunun ödənilməsi haqqında sənəd.

Müəssisənin dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilməmiş sənədlərin tələb olunması yolverilməzdir.

Müəssisənin dövlət qeydiyyatını həyata keçirən dövlət orqanına müvafiq sənədlər təqdim edildikdən ən geci bir ay keçənədək müəssisə dövlət qeydiyyatına alınmalıdır. Qəbul edilmiş qərar haqqında ərizəçiyə beş gün müddətində yazılı məlumat verilir.

Müəssisənin nizamnaməsində dəyişikliklər edildikdə və ya onun təşkilati-hüquqi forması dəyişdirildikdə müəssisə yenidən dövlət qeydiyyatına alınmalıdır.

Müəssisənin dövlət qeydiyyatına alınmasından imtina yalnız aşağıdakı hallarda mümkündür:

a) müəssisənin yaradılmasına dair Qanunla müəyyən edilmiş qaydalar pozulduqda;

b) müəssisənin təsis sənədləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmadıqda.

Göstərilən hallardan başqa dövlət qeydiyyatından imtina edilməsi qadağandır.

Müəssisə müəyyən edilmiş müddətdə qeydə alınmadıqda və ya onun dövlət qeydiyyatına alınmasından əsassız imtina edildikdə qanunvericiliklə müəyyən edilmiş qaydada iqtisad məhkəməsinə müraciət edilə bilər.

Müəssisənin dövlət qeydiyyatına görə təsisçidən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan məbləğdə dövlət büdcəsinə köçürülən rüsum tutulur.

Müəssisənin ləğvi və yenidən təşkil edilməsi (birləşməsi, bölünməsi, ayrılması, çevrilməsi) əmlak mülkiyyətçisinin, müvafiq müəssisələr yaratmağa vəkil edilən orqanın, yaxud iqtisad məhkəməsinin qərarı ilə həyata keçirilir.

Müəssisə habelə aşağıdakı hallarda ləğv olunur:

a) iflas elan olunduqda;

b) qanunvericilikdə nəzərdə tutulmuş tələblərə riayət edilməməsinə görə müəssisənin fəaliyyəti qadağan olunduqda və qərarla müəyyən edilmiş müddətdə həmin tələblərə riayət olunması təmin edilmədikdə və ya fəaliyyət növü dəyişdirilmədikdə;

v) müəssisə yaratmaq barəsində təsis aktları iqtisad məhkəməsinin qərarı ilə qanunsuz sayıldıqda;

q) Azərbaycan Respublikasının qanunvericilik aktları ilə nəzərdə tutulan digər hallarda.

Müəssisə Azərbaycan Respublikasının dövlət qeydiyyat reyestrindən çıxarıldığı andan ləğv edilmiş və ya yenidən təşkil edilmiş sayılır.

Müəssisə yenidən təşkil edildikdə və ya ləğv edildikdə mövcud qanunvericiliyə uyğun olaraq işdən çıxarılan işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsinə təminat verilir.

Bir müəssisənin digəri ilə birləşdiyi hallarda onların hər birinin bütün əmlak hüquqları və öhdəlikləri birləşmə nəticəsində yaranan müəssisəyə keçir.

Müəssisə bölündükdə onun əmlak hüquqları və öhdəlikləri bölüşdürücü akt (balans) üzrə uyğun hissələrdə yaranan yeni müəssisələrə keçir.

Müəssisədən bir, yaxud bir neçə yeni müəssisə ayrıldıqda bölüşdürücü akt (balans) üzrə onların hər birinə, uyğun hissələrdə bölünmüş müəssisənin əmlak hüquqları və öhdəlikləri keçir.

Bir müəssisə başqasına çevrildikdə əvvəlki müəsssənin bütün əmlak hüquqları və öhdəlkləri yeni yaranan müəssisəyə keçir.

Müəssisənin ləğvi mülkiyyətçinin və ya onun vəkil etdiyi orqanın yaratdığı ləğvetmə komisiyası tərəfindən müəssisə iflas elan olunduqda iqtisad məhkəməsinin qərarına əsasən həyata keçirilir. Onların qərarına əsasən ləğvetməni müəssisə özü onun idarəetmə orqanı şəxsində həyata keçirə bilər.

Ləğvetmə komissiyası yaradıldığı vaxtdan müəssisəni idarə etmək səlahiyyəti ona verilir, müəssisəni idarəetmə orqanları isə ləğvetmə komisiyasının qərarlarını həyata keçirirlər.

Ləğv olunan müəssisəyə kreditorların iddiaları həmin müəssisənin əmlakından ödənilir. Bu halda, ilk növbədə əmək haqqı, büdcəyə borclar ödənilir və ləğv edilən müəssisənin istifadəsində olan torpaqların rekultivasiyası ilə əlaqədar xərclər kompensasiya olunur.

Müəssisə yenidən qurularkən onun hüquqları və öhdəlikləri hüquqi varislərinə keçir.

"Azərbaycan Respublikasında mülkiyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət, kollektiv, xüsusi və qarışıq mülkiyyət formalarına əsaslanan müəssisə növləri fəaliyyət göstərə bilər. Müəssisələr dövlət müəssisəsi, fərdi (ailə), şərikli (tam ortaqlı), payçı və şərikli (komandit ortaqlıqlar), məhdud məsuliyyətli müəssisələr və səhmdar cəmiyyəti kimi təşkilati-hüquqi formalarda fəaliyyət göstərirlər.

Dövlət mülkiyyətinə əsaslanan müəssisələrin aşağıdakı növləri vardır:

əmlakı tamamilə dövlət mülkiyyətində olan müəssisə;

səhmlərinin nəzarət paketi dövlət orqanlarına məxsus olan müəssisə.

Dövlət müəssisəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət əmlakını idarə etməyə vəkil edilən dövlət orqanları tərəfindən yaradılır.

Dövlət müəssisəsi öz öhdəliklərinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada müəssisənin əmlakı ilə məsuliyyət daşıyır.

Müəssisənin öhdəliklərinə görə dövlət, dövlətin öhdəliklərinə görə isə müəssisə məsuliyyət daşımır.

Fərdi (ailə) müəssisə vətəndaşın mülkiyyətində və ya onun ailə üzvlərinin (əgər onlar arasında sazişlə başqa hal nəzərdə tutulmayıbsa) ümumi pay mülkiyyətində olan müəssisədir.

Fərdi (ailə) müəssisə vətəndaşın (ailə üzvlərinin) başqa mülkiyyətçilərə məxsus olan müəssisələri satın alması yolu ilə də yaradıla bilər.

Fərdi (ailə) müəssisənin mülkiyyətçisi müəssisənin öhdəliklərinin yerinə yetirilməsinə görə öz əmlakı (ailə üzvlərinin əmlakı) ilə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada məsuliyyət daşıyır.

Şərikli (tam ortaqlı) müəssisə azı iki fiziki və (və ya) hüquqi şəxs tərəfindən müqavilə əsasında təsis edilir.

Müəssisənin şərikləri onun öhdəliklərinin yerinə yetirilməsinə görə özlərinin bütün əmlakı ilə məsuliyyət daşıyırlar.

Fəaliyyət göstərən müəssisəyə sonradan daxil olan şərik həm də müəssisənin əvvəlki borclarına görə bütün əmlakı ilə məsuliyyət daşıyır.

Müəssisədən çıxan şərik həmin vaxta kimi müəssisənin fəaliyyəti nəticəsində yaranmış borclara görə digər iştirakçılarla birlikdə bütün əmlakı ilə məsuliyyət daşıyır.

Şərik müəssisədən çıxdıqda öz payını geri alır.

Şəriklərin razılığı ilə həmin pay müəssisənin şəriklərinə və ya kənar şəxslərə satıla (verilə) bilər. Müəssisənin şəriklərinin payın alınmasında üstün hüquqlara malikdirlər. Pay satılmadığı halda müəssisənin nizamnamə fondunun həcmi onun məbləğinə uyğun olaraq azaldılır.

Müəssisənin şəriklərindən biri (bir neçəsi) vəfat etdikdə, hüquqi şəxs olan isə ləğv edildikdə onun (onların) varisi şərik kimi müəssisəyə qəbul edilir.

Bütün hallarda payın bir mülkiyyətçidən digərinə keçməsi notarial qaydada təsdiq edilməlidir.

Müəssisənin şəriki olan hər bir hüquqi şəxs öz hüquqi şəxs statusunu saxlayır.

Payçı və şərikli (kommandit ortaqlıqlar) müəssisə azı bir şərikli və bir payçı tərəfindən təsis edilir.

Şərik və payçı həm fiziki şəxs, həm də hüquqi şəxs ola bilər.

Şərik müəssisənin öhdəliklərinə və borclarına görə özünün bütün əmlakı ilə, payçı isə yalnız müəssisəyə verdiyi pay həcmində məsuliyyət daşıyırlar.

Fəaliyyət göstərən müəssisəyə daxil olan şərik (şəriklər) həm də müəssisənin həmin vaxta kimi olan borclarına görə də bütün əmlakı ilə məsuliyyət daşıyır.

Müəssisədən çıxan şərik (şəriklər) həmin vaxta kimi yaranmış borclara görə də digər şəriklərlə birgə öz əmlakı ilə məsuliyyət daşıyır.

Müəssisənin idarə heyəti üzvlərinin seçilməsində və onların səlahiyyətlərini müəyyənləşdirən nizamnamə müddəalarının qəbul edilməsində yalnız şəriklərin səs vermək hüququ vardır.

Payçı və şərik müəssisədən çıxdıqda öz payını geri alır.

Şəriklərin razılığı ilə həmin pay müəssisənin şəriklərinə və ya kənar şəxslərə satıla (verilə) bilər.

Məhdud məsuliyyətli müəssisə bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxs tərəfindən yaradılan, nizamnamə fondu təsis müqaviləsi ilə müəyyən edilən həcmdə paylara bölünən müəssisədir.

Müəssisənin təsisçiləri onun öhdəliklərinə görə ancaq nizamnamə fondundakı payları həcmində məsuliyyət daşıyırlar.

Müəssisənin nizamnamə fondunda nəzərdə tutulan pay şərik tərəfindən qismən ödənildikdə, müəssisənin öhdəliklərinə görə həmin şərik payın qalan hissəsinin üzərinə düşən öhdəlik üçün özünün əmlakı ilə payın qalan hissəsi həcmində məsuliyyət daşıyır.

Şərik müəssisədən çıxdıqda öz payını geri alır.

Şəriklərin razılığı ilə həmin pay müəssisənin şəriklərinə və ya kənar şəxslərə satıla (verilə) bilər.

Bütün hallarda payın bir mülkiyyətçidən digərinə keçməsi notarial qaydada təsdiq edilməlidir.

Səhmdar cəmiyyəti təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə nizamnamə fondunu səhm buraxmaq yolu ilə formalaşdıran fiziki və (və ya) hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan müəssisədir.

Səhmdar cəmiyyəti azı üç fiziki və (və ya) hüquqi şəxs tərəfindən təsis edilir.

Səhmdar cəmiyyətinin öhdəliklərinə görə səhmdarlar özlərinin verdikləri pay həcmində (onlara məxsus olan səhm paketi hüdudunda) məsuliyyət daşıyırlar.

Səhmdar cəmiyyəti səhmdarların əmlak öhdəliklərinə görə məsuliyyət daşımır.

Səhmdar cəmiyyəti «açıq tipli səhmdar cəmiyyəti» və ya «qapalı tipli səhmdar cəmiyyəti» formasında yaradılır.

Cəmiyyətin üzvü olan hüquqi şəxslər öz hüquqi şəxs statusunu saxlayırlar.

Müəssisələr fəaliyyətlərinin əlaqələndirilməsi, hüquqlarının müdafiə edilməsi, ümumi mənafelərin dövlət və digər orqanlarda, təşkilatlarda, habelə beynəlxalq təşkilatlarda təmsil olunması və digər məqsədlər ilə könüllülük əsasında sahə, ərazi və başqa prinsiplərə əsasən ittifaqlar, konsernlər, şirkətlər və digər birliklər yarada bilərlər. Ayrı-ayrı istehsal-təsərrüfat işlərinin və digər funksiyaların mərkəzləşdirilmiş

qaydada yerinə yetirilməsi müəssisələrin razılaşdırılmış qərarı əsasında birliyə həvalə oluna bilər.

Birlik təsisçilərin təsdiq etdikləri nizamnamə əsasında fəaliyyət göstərir.

Birlik Qanunla müəyyən olunmuş qaydada qeydə alınır və ləğv edilir.

1.3. Müəssisənin yaradılması və inkişafının məqsədi, vəzifələri və əsas funksiyaları

Müəssisə müstəqil surətdə öz fəaliyyətini həyata keçirir, buraxılan məhsuldan, mənfəətin vergilər və məcburi ödənişlər çıxıldıqdan sonra müəssisənin sərəncamında qalan hissəsindən istədiyi kimi istifadə edir.

Müəssisə hüquqi şəxs kimi aşağıdakı əlamətlərə malikdir: müstəqil əmlak məsuliyyəti; mülkiyyəti əldə etmək,ondan istədiyi kimi istifadə etmək, eləcə də qanun çərçivəsində digər fəaliyyəti həyata keçirmək; məhkəmədə və iqtisad məhkəməsində iddiaçı və cavabdeh kimi çıxış etmək hüququnun olması; müstəqil mühasibat balansının, bankda hesablaşma və digər hesabların olması; möhürün olması.

Müəssisələrin daxili və xarici mühiti ətraflı öyrənilməlidir. Müəssisənin daxili mühitini aşağıdakı kimi təsvir etmək olar:

Daxili mühit

Deməli, daxili mühitin elementlərinin (insanlar, istehsal vasitələri, informasiya və pul) qarşılıqlı fəaliyyətinin nəticəsi hazır məhsuldur (görülmüş işdir, göstərilmiş xidmətdir).

Müəssisənin normal fəaliyyəti xarici mühitin təsirinə də məruz qalır, çünki bu, müəssisənin işinin səmərililiyini bilavasitə təyin edir. Müəssisənin xarici mühiti aşağıdakı sxemdə göstərilir:

Təsərrüfatçılığın istənilən formasında müəssisə ölkənin iqtisadiyyatında mühüm rol oynayır. Makroiqtisadi mövqedən müəssisə aşağıdakıların təmin olunması üçün əsasdır:

- milli gəlirin, ümumi daxili məhsulun və ümumi milli məhsulun artırılması;
- bütünlükdə dövlətin mövcudluğu və öz funksiyalarını yerinə yetirmək imkanı;
- dövlətin müdafiə qabiliyyətinin təmin edilməsi;
- sadə və geniş təkrar istehsal;
- milli iqtisadiyyatın inkişafı və ETT-nin sürətləndirilməsi;
- ölkə əhalisinin bütün təbəqələrinin maddi rifahının yüksəlməsi;
- səhiyyənin, təhsilin və mədəniyyətin inkişafı;
- məşğulluq probleminin həlli;
- bir çox digər sosial problemlərin həlli.

Qeyd etmək lazımdır ki, müəssisələr səmərəli fəaliyyət göstərməzlərsə bu rolu yerinə yetirə bilməzlər.

İctimai istehsalın inkişafının bütün tarixi göstərmişdir ki, sivil bazar şəraitində müəssisə daha səmərəli fəaliyyət göstərir. Bu halda müxtəlif mülkiyyət formaları, sağlam rəqabət, iqtisadiyyatın inhisarsızlaşdırılması, müstəqil qiymət qoyma, inkişaf etmiş bazar infrastrukturu, istehsalçılarla müqayisədə istehlakçıların üstünlüyü və digər zəruri atributlar mövcud olur.

Planlı və ya inzibati-amirlik iqtisadiyyatında rəqabətin olmaması, sahibkarlıq fəaliyyətində müstəqilliyin olmaması kiçik biznesin və maliyyə-kredit münasibətlərinin zəif inkişafı, müəssisələrin fəaliyyətinə dövlətin həddsiz müdaxiləsi və digər səbəblər müəssisələrin səmərəli fəaliyyətinə imkan vermir.

Plan iqtisadiyyatı şəraitində müəssisənin əsas məqsədi illik planda nəzərdə tutulan nomenklaturada və çeşiddə məhsul buraxmaq idi. Bu planı yerinə yetirmək üçün müəssisəyə lazım olan ehtiyatlar, konkret malgöndərənlər, eləcə də məhsulun istehlakçıları yuxarı təşkilat tərəfindən müəyyən edilirdi. Ona görə də müəssisə məhsulunu kimə və neçəyə satacağını da əvvəlcədən bilirdi. Bütün məsələləri Dövlət plan komitəsi və Dövlət maddi-texniki təchizat komitəsi timsalında dövlət özü müəyyən edirdi.

Plan iqtisadiyyatı şəraitində müəssisələr aşağıdakı sxem üzrə işləyirdi

Bu sxemə görə əsas ehtiyatlardır, çünki məhz onlar məhsul buraxılışı həcminin həddini müəyyən edir. Deməli, məhsul buraxılışının həcmi dövlətin müəssisəyə ayıracağı ehtiyatın ölçüsündən asılı idi. Müəssisələr əsas diqqəti dövlət planının yerinə yetirilməsinə yönəldirdilər. Ona görə

məhsulun keyfiyyəti lazımi səviyyədə olmurdu, çünki rəqabət yox idi və müəssisənin məhsulunun satışı üçün əvvəlcədən təminat var idi. Müəssisənin müflisləşməsi təhlükəsi yox idi.

Planın hər vəchlə yerinə yetirilməsi istehsala yeni texnika və texnologiyanın tətbiqinə, istehsalın daha yaxşı təşkilinə, istehsal xərclərinin aşağı salınması tədbirlərinin tətbiqinə və s. mane olurdu.

Müəssisənin və onun rəhbərinin fəaliyyətinin, o cümlədən işçilərin mükafatlandırılmasının əsas meyarı planın yerinə yetirilməsi səviyyəsi idi.

Ölkəmizin müəssisələrinin bazar iqtisadiyyatına keçidi vəziyyəti kökündən dəyişmişdir. Müəssisələr aşağıdakı sxem üzrə işləməyə məcbur oldular:

Bu sxemə görə əsas alıcıların tələbidir, daha doğrusu, öz məhsulunu satmaq imkanıdır. Bunun üçün bazarın konyukturasını, alıcıların tələblərini, bazarın tutumunu, potensial rəqibin məhsulunun keyfiyyətini və bazar münasibətləri üçün səciyyəvi olan digər məsələləri öyrənmək lazımdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın müəssisələri bir çox səbəblərə görə belə şəraitdə işləmək üçün hazır deyildilər. Əsas səbəblər aşağıdakılardır:

- müəssisə rəhbərlərinin səviyyəsi və bazar şəraitində işləmək üçün hazır olmaması;
- SSRİ-nin dağılması nəticəsində istehsal və kooperasiya əlaqələrinin pozulması;
- ölkə müəssisələrinin məhsullarının rəqabət qabiliyyətinə malik olmaması;
- inflyasiyanın olması;

- müəssisələrin bazar münasibətlərinə çətin uyğunlaşması və ya uyğunlaşmaması;
- ölkə bazarının xarici mallarla dolması;
- keçid mərhələsində Azərbaycanda sivil bazarın fəaliyyəti üçün dövlət lazımi şəraiti yaratmamışdı.

Bütün bunlar və digər səbəblər müəssisələrin maliyyə vəziyyətinin pisləşməsinə və ölkədə böhran vəziyyətinin yaranmasına gətirib çıxarmışdır. Buna həmçinin ölkədə uzun müddət mövcud olmuş siyasi və sosial gərginlik də təsir etmişdir. Nəticədə isə Azərbaycanda bazar iqtisadiyyatına keçid xeyli uzanmışdır.

Bazar iqtisadiyyatına keçid şəraitində işləyən müəssisələrin qarşısında aşağıdakı vəzifələr durur:

- gəlirin əldə edilməsi;
- istehlakçıların məhsulla təmin edilməsi;
- müəssisənin işçilərinin əmək haqqı və normal iş şəraiti ilə təmin edilməsi, habelə onların peşəkarlıq səviyyəsinin artırılması imkanı;
- müəssisənin yaxınlığında yaşayan əhali üçün iş yerlərinin yaradılması;
- ətraf mühitin (torpaq, hava və su hövzəsi) mühafizəsi;
- müəssisənin fasiləsiz və ahəngdar işinin təmin edilməsi.

Qeyd etmək lazımdır ki, müəssisənin vəzifələri müəssisə sahibinin marağından, kapitalın ölçüsündən, müəssisədaxili vəziyyətdən və xarici mühitdən asılıdır.

Müasir müəssisə mürəkkəb təşkilat quruluşuna malikdir. Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisəsinin təşkilinin üç əsas istiqamətinin əhəmiyyəti artır:

- istehsalın elmi təşkili;
- əməyin elmi təşkili;
- idarəetmənin elmi təşkili.

İstehsalın elmi təşkili müəssisədə optimal texniki-texnoloji sistemin yaradılması məqsədini güdür. Buraya eti-

barlı və səmərəli fəaliyyət göstərən istehsal avadanlığı və texnologiyalar, eləcə də işçilər arasındakı nizamlı və qarşılıqlı texniki-təşkilati əlaqələr daxildir.

Əməyin elmi təşkilinin (ƏET) əsas vəzifəsi kollektivdə sağlam və normal münasibətlərin yaradılmasıdır. O, yüksək məhsuldar və səmərəli yaradıcı əmək üçün şəraitin yaradılması üzrə tədbirlər sistemini əhatə edir. Lakin ƏET-in imkanları müəssisənin texniki-texnoloji vəziyyəti, onun maliyyə və iqtisadi durumu ilə məhdudlaşır.

İdarəetmənin elmi təşkili – müəssisənin maddi və insan yarımsistemlərinə məqsədyönlü təsirləri təmin edən texniki, iqtisadi və humanitar vasitələr sistemidir. O, ən yaxşı mənəvi, texnoloji və iqtisadi səmərənin əldə edilməsi məqsədilə həmin vasitələrin qarşılıqlı fəaliyyətini təmin edir.

İstənilən sahibkarlıq fəaliyyəti adamlar arasında qarşılıqlı əlaqələrin təşkilindən ibarətdir. O, nə qədər əsaslandırılmış olarsa və bacarıqla tənzimlənərsə iqtisadi səmərənin alınmasına, çəkilmiş xərclərin mənfəətlə ödənilməsinə daha çox ümid yaranar.

Bazar iqtisadiyyatında mühüm amil yarışmaq ruhunun olmasıdır. O, insanların təsərrüfat fəaliyyəti formalarını xeyli dərəcədə müəyyən edir. Yarışın ən parlaq təzahür forması rəqabətdir. Rəqabət bazar sistemində mühüm nəzarət vasitəsidir. Bazarın tələb və təklif mexanizmi alıcıların istəklərini məhsul istehsal edən müəssisələrə, onlar isə öz növbəsində ehtiyatları göndərənlərə çatdırırlar. Lakin istehlakçıların həmin istəklərini lazımi şəkildə ödəmək üçün istehsalçı müəssisələri və ehtiyatları göndərən müəssisələri məhz rəqabət məcbur edir.

Rəqabətin iqtisadiyyata və onun səmərəliliyinə müsbət təsiri bununla bitmir. Rəqabət müəssisələri məcbur edir ki, elmi-texniki nailiyyətlərdən geniş istifadə etsin, səmərəli texnikanı, texnologiyanı, istehsalın və əməyin təşkilinin müasir metodlarını tətbiq etsin.

Rəqabətə əks olan anlayış isə inhisardır. İnhisar zamanı bazarda bir satıcı və çox sayda alıcı olur. Məhsulun yeganə istehsalçısı olduğu üçün inhisarçı öz məhsuluna yüksək inhisar qiyməti müəyyən edir. İnhisarçının fəaliyyət dairəsini məhdudlaşdırmaq üçün azad rəqabət tətbiq edilir.İnhisarçı qiyməti müəyyən etməzdən əvvəl bazarın tələbini öyrənir, özünün istehsal xərclərini təhlil edir. Çünki yüksək qiyməti o, həmişə saxlaya bilməz, hər an rəqibi peyda ola bilər. Klassik iqtisadi ədəbiyyatda (əsasən Adam Smitin əsərlərində) görünməyən əl məhfumu işlədilir. Bunun mahiyyəti ondadir ki, öz mənfəətlərini artırmaq istəyən və kəskin rəqabətli bazar sistemində fəaliyyət göstərən istehsalçı müəssisələr və ehtiyatları göndərənlər sanki görünməyən əl tərəfindən elə istiqamətləndirilirlər ki, həm dövlət, həm də ictimai maraqlar təmin olunur.

Bazar münasibətləri şəraitində əsas fiqur kimi sahibkar çıxış edir. Sahibkarın statusu müəssisə dövlət qeydiyyatından keçdikdən sonra təmin edilir. Bu zaman sahibkarlıq fəaliyyətinin subyekti həm ayrı-ayrı vətəndaşlar, həm də vətəndaşlar birliyi ola bilər. Beləliklə, müəssisə ictimai tələbatı təmin etmək və mənfəət əldə etmək məqsədilə məhsulun istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi üçün sahibkar və sahibkarlar birliyi tərəfindən yaradılmış müstəqil təsərrüfat subyektidir.

Müəssisəni yaradarkən hər bir sahibkar və ya sahibkarlar qrupu qarşısına dəqiq və aydın məqsəd qoyur. Bu məqsəd müəssisənin məhsuluna və ya xidmətlərinə sifarişlərin həmişə alınması sistemi ilə təmin olunmalıdır. Məhsul buraxılışının və göstəriləcək xidmətlərin nəzərdə tutulan həcmi bütün zəruri maddi ehtiyatlarla təmin olunmalıdır. Nəhayət, yeni işə başlayarkən öz kapitalının daim artırılması imkanlarını da fikirləşmək lazımdır. Bütün bu məsələləri əsas sənəddə – sahibkarın biznes planında kifayət qədər ətraflı əks etdirmək lazımdır.

Müasir müəssisənin istənilən sahibkarının mühüm keyfiyyəti situasiyanın (vəziyyətin) dəyişilməsinə çevik cavab vermək qabiliyyətidir. Bunun üçün həmin fəaliyyət sahəsində sərişteli olmaq, zəruri xassələrə (məqsədyönlülük, inadcıllıq, uğursuzluqlara hazır olmaq, öz səhvlərini öyrənmək və onlardan nəticə çıxarmaq və s.) malik olmaq lazımdır. Etibarlı şəriklərə və işçiləri toplamaq və rəqabət mübarizəsinə hazır olmaq lazımdır. Marketinqi dəqiq təşkil etməyi, sonrakı mərhələlərdə isə malgöndərənlərlə və istehlakçılarla (sifarişçilərlə) rəsmi münasibətləri qurmağı bacarmaq lazımdır.

Sahibkarlıq aşağıdakı mühüm cəhətlərə malik olmalıdır:

- təsərrüfat subyektlərinin müstəqilliyi və qeyri-asılılığı. Hər bir sahibkar bu və ya başqa məsələ üzrə qərar qəbul etməklə qanun hədlərində sərbəstdir.
- iqtisadi maraq. Sahibkarlığın əsas məqsədi mümkün qədər çox mənfəət əldə etməkdir. Bununla bərabər, sahibkar həm də ictimai maraqların təmin olunmasına yardım göstərir.
- təsərrüfat riski və məsuliyyət. Hesablamalar nə qədər dəqiq aparılsa da qeyri-müəyyənlik və risk ehtimalı qalmaqdadır.
- bu qeyd etdiyimiz cəhətlər qarşılıqlı əlaqədədir və eyni vaxtda həyata keçirilir.

Müəssisədə sahibkarlıq fəaliyyəti üçün müəyyən iqtisadi, sosial və hüquqi şərtlər olmalıdır.

İqtisadi şərtlərə daxildir: mallara tələb və təklif; istehsalçıların alacağı malların növləri; malların alınması üçün alıcıların pul vəsaitlərinin həcmi; işçilərin əmək haqqının səviyyəsinə, yəni onların malları almaq imkanlarına təsir edən amillər (iş yerlərinin və iş qüvvəsinin artıqlığı və ya çatışmaması)

Sosial amillər isə alıcıların zövqü, moda, əxlaqi və dini normalar, sosial-mədəni mühitin səviyyəsi, kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması, işindən razılıq dərəcəsi və s. məsələləri əhatə edir.

Hüquqi şərtlərə isə ilk növbədə sahibkarlıq fəaliyyətini tənzimləyən və onun inkişafına daha əlverişli şərait yaradan qanunların olması aiddir. Həmin qanunlar aşağıdakılara imkan verməlidir: müəssisənin yaradılması və qeydiyyatı üçün sadə və sürətli qayda; sahibkarlığın dövlət bürokratiyasından müdafiəsi; vergi qanunvericiliyinin təkmilləşdirilməsi. Sahibkarlıq fəaliyyətinin hüquqi təminatı məsələləri, o cümlədən mülkiyyət hüququ və müqavilə öhdəliklərinə əməl edilməsi üzrə qanunvericilik aktlarının hazırlanması da böyük əhəmiyyətə malikdir.

Sahibkarlıq fəaliyyəti dövlət tərəfindən müvafiq qaydada tənzimlənməlidir. Çünki elə səbəblər mövcuddur ki, onları tənzimləmək üçün dövlət mütləq müvafiq qanunvericilik aktlarını qəbul etməlidir. Əsas səbəblər aşağıdakılardır:

- müəssisələri bir-birindən müdafiə etmək;
- istehlakçıları vicdansız sahibkarlardan müdafiə etmək;
- cəmiyyətin ali maraqlarını sahibkarların özbaşınalığından müdafiə etmək.

Bazar iqtisadiyyatı özünün müsbət keyfiyyətlərinə baxmayaraq bütün iqtisadi və sosial prosesləri bütün cəmiyyətin və hər bir vətəndaşın maraqları baxımından avtomatik tənzimləmək qabiliyyətinə malik deyildir. O, gəlirlərin sosial ədalətli bölgüsünü təmin etmir, əmək hüququna təminat vermir, əhalinin sosial müdafiəsiz qalmış təbəqələrini dəstəkləmir. Bazar iqtisadiyyatı bir çox digər aktual probremləri də həll etmir.

Bütün bunları sahibkarlıq fəaliyyətinə dövlət təsiri mexanizmi ilə dövlət təmin etməlidir. Qeyd etmək lazımdır ki, başqa dövlətlərin on illərlə vaxt sərf etdikləri məsələni, yəni bazar iqtisadiyyatına keçidi, Azərbaycan çox qısa bir müddətdə həyata keçirməlidir.

İstehsal müəssisəsinin əsas funksiyaları aşağıdakılardır:

- istehsal və şəxsi istehlak ehtiyacları üçün məhsulun istehsalı;
- istehlakçıya məhsulun satılması və çatdırılması;
- məhsula satışdan sonrakı xidmət;
- müəssisədə istehsalın maddi-texniki təminatı;
- müəssisədə idarəetmə və işçilərin əməyinin təşkili;
- müəssisədə istehsalın həcminin hərtərəfli inkişafı və artımı;
- sahibkarlıq;
- vergilərin ödənilməsi, büdcəyə və digər maliyyə orqanlarına məcburi və könüllü haqqların ödənilməsi;
- mövcud standartlara, normativlərə və dövlət qanunlarına əməl edilməsi.

1.4. Kiçik müəssisələr və onların inkişafı

Azərbaycanın iqtisadiyyatında strukturlaşmanın müasir mərhələsinin əsas problemi dövlət inhisarında olan əmlakın dövlətsizləşdirilməsi və özəlləşdirilməsidir. Bu problem əsas etibarilə çox kiçik, kiçik və orta müəssisələrin yaradılması yolu ilə həll edilir. Ölkə iqtisadiyyatının bütün sahələrində və bölmələrində kiçik bazar strukturlarının yaradılması iqtisadi proseslərin dünya təsərrüfat ənənələrinə cavab verir, çünki dünyanın bütün ölkələrində kiçik biznes sahəsində çox böyük sayda olduqca müxtəlif profilli kiçik müəssisələr fəaliyyət göstərir.

Hazırda Azərbaycanın iqtisadiyyatında eyni vaxtda iri, orta və kiçik müəssisələr fəaliyyət göstərir. Eyni zamanda şəxsi və ailənin əməyinə əsaslanan fəaliyyət həyata keçirilir.

Müəssisələrin ölçüləri sahələrin xüsusiyyətlərindən, onların texnoloji xassələrindən, miqyasından asılıdır. İstənilən ölkənin iqtisadiyyatının səmərəli fəaliyyəti üçün iri,

orta və xırda müəssisələri (biznesi) optimal uzlaşdırmaq lazımdır.

Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də kiçik biznesə əhəmiyyət verilmirdi. Əsas diqqət iri və orta müəssisələrə verilirdi. Bu isə nəticədə sənaye istehsalının inhisarlaşdırılmasına gətirib çıxardı. Bazar iqtisadiyyatına keçərkən isə bu, ölkədə bazar münasibətlərinin inkişafına güclü maneçilik törətmişdir.

Əksər ölkələrdə müəssisələrin kiçik müəssisələrə aid edilməsi zamanı əsas kriteri kimi işləyənlərin sayı və satışın həcmi götürülür. Məsələn, ABŞ-da müəssisələri beş qrupa bölürlər:

- ən kiçik – 1 nəfərdən 20 nəfərədək;
- kiçik – 25-dən 99-nəfərədək;
- aralıq – 100 –dən 499 nəfərədək;
- iri – 500 –dən 999 nəfərədək;
- ən iri – 1000 nəfərdən çox.

Əvvəlki iki qrup müəssisələr kiçik müəssisələr adlanır.

Yaponiyada isə işçilərin sayı 20 nəfərədək olan sənaye müəssisələrini kiçik müəssisələrə aid edirlər.

Azərbaycanda kiçik biznes 1990-cı ildən daha intensiv inkişaf etməyə başlamışdır. İlkin mərhələlərdə işçilərin sayı 200 nəfərədək olan, sonralar isə 100 nəfərədək olan müəssisələr kiçik müəssisələrə aid edilirdi.

Azərdaycanda kiçik biznesin inkişafı aşağıdakı səbəblərə görə böyük xalq təsərrüfat əhəmiyyətinə malikdir:

1) kiçik biznes bizim bütün bazarlarımızı doldurmağa, istehlak mallarına və xidmətlərə əhalinin tələbatını daha tam ödəməyə imkan verir;

2) kiçik müəssisələrin yaradılması üçün iri investisiyalar və uzun müddət tələb olunmur;

3) kiçik biznesin inkişafı antiinhisar siyasətin və rəqabət mühitinin təmin edilməsinin təsirli istiqamətlərindən biridir.

4) kiçik müəssisələrin idarə edilməsi sadədir, burada mürəkkəb idarəetmə strukturlarının yaradılmasına ehtiyac yoxdur;

5) kiçik müəssisələr tez və ucuz yolla yenidən silahlana, yeni texnologiyanı tətbiq və sınaqdan keçirə bilər, istehsalı qismən avtomatlaşdirar, mexanikləşdirilmiş və əl əməyinin optimal əlaqələndirilməsini təmin edər;

6) kiçik biznesin inkişafı işsizlik problemini müəyyən qədər həll etməyə və ya yumşaltmağa imkan verir;

7) kiçik biznesin inkişafı ilə dövlət iqtisadiyyatın sabitləşməsində və ölkədə elementar qayda-qanunun yaradılmasında maraqlı olur, orta sinif və kiçik mülkiyyətçilər sinfi meydana gəlir.

Kiçik biznesin inkişafında başqa müsbət keyfiyyətlər də mövcuddur. Ona görə də təsadüfi deyil ki, inkişaf etmiş bazar iqtisadiyyatına malik olan bir çox ölkələrdə kiçik biznesin inkişafına böyük diqqət verilir və dövlət tərəfindən yardım göstərilir. Məsələn, 1953-cü ildə Amerikada kiçik biznesə kömək etmək məqsədilə müstəqil hökumət təşkilatı – kiçik biznes üzrə idarə və müxtəlif ştatlarda isə onun şöbələri yaradılmışdı. O, kiçik biznesə maliyyə yardımı göstərir, menecer kurslarını təşkil edir, idarəetmə probleminə həsr olunmuş materiallar və s. hazırlayır.

Yaponiyada isə kiçik biznesin müdafiəsi sistemi iflasa uğramış müəssisələrin sayının azaldılmasına yönəlmişdir və yüksək nəticəliliyə malikdir. Əgər ABŞ-da il ərzində kiçik müəssisələrin 30%-i iflasa uğrayırsa, Yaponiyada bu 5%-təşkil edir. Yapon kiçik biznesinin dövlət müdafiəsi biznesin kooperasiyasını, amortizasiyanın xüsusi qaydasını, təminatlı istiqrazları, güzəştli vergiyə cəlb olunmasını əhatə edir.

Kiçik müəssisələrə göstərilən məsləhətlərin xeyli hissəsini mühasibat uçotu, maliyyələşdirmə, vergilərin ödənilməsi və menecment məsələləri təşkil edir.

Hazırda Azərbaycanda da kiçik sahibkarlığın müdafiəsinin təşkili işləri aparılmaqdadır. Bu sistemin əsasını

«Azərbaycanda kiçik sahibkarlığın dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu təşkil edir. Bu qanunla kiçik biznesin dövlət müdafiəsi və inkişafının başlıca istiqamətləri, kiçik sahibkarlığın subyektlərinin fəaliyyətinin dövlət idarə edilməsi və tənzimlənməsinin əsas formaları və metodları müəyyən edilir. Bu tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Antiinhisar siyasəti və sahibkarlığa yardım Departamentinə həvalə edilmişdir.

Qanuna görə dövlət sifarişlərinin müəyyən hissəsi kiçik müəssisələrdə yerləşdiriləcəkdir. Hökumət hər il kiçik biznesə dövlət yardımı proqramını hazırlamalı və təsdiq olunmaq üçün Milli Məclisə təqdim etməlidir. Eyni zamanda kiçik sahibkarlığa yardım fondu yaradılmışdır. Bu fondun vəsaitindən kiçik müəssisələrə güzəştli kreditlər verilməsi üçün istifadə olunacaqdır.

Kiçik müəssisələrdə güzəştli və sadələşdirilmiş vergi sistemi nəzərdə tutulmuşdur. Lakin bəzi kiçik müəssisələrə bü güzəştlər şamil edilmir. Məsələn, aksizli məhsulların istehsalı ilə məşğul olan təşkilatlar; fəaliyyətdə olan müəssisələrin ləğv olunmuş struktur bölmələri əsasında yaradılmış təşkilatlar; kredit təşkilatları; sığorta təşkilatları; investisiya fondları; oyun və əyləncə biznesi müəssisələri və s.

Vergi ödənilməsinin, uçotun və hesabatların sadələşdirilmiş sisteminə keçmək üçün kiçik müəssisələr qeydiyyata alındığı yerində vergi orqanlarına ərizə ilə müraciət edirlər. Sadələşdirilmiş sistemin tətbiqi hüququnu təsdiq edən rəsmi sənəd patentdir. Patentin illik dəyəri kiçik müəssisənin fəaliyyəti növündən asılıdır. Patentin illik dəyərinin ödənilməsi rüblər üzrə həyata keçirilir və vahid verginin ödənilməsi üzrə təəhhüdlər hesabına daxil edilir. Fərdi sahibkarlar yalnız patentin dəyərini ödəyirlər.

Kiçik müəssisələrin vergiyə cəlb edilməsinin növbəti xüsusiyyəti ondadır ki, onlar digər kommersiya təşkilatları ilə müqaisədə vergiyə cəlb edilmə üzrə əlavə güzəştlərə malik olurlar.

Bütün kiçik müəssisələr uçun aşağıdakı əlavə güzəştlər müəyyən edilir:

1.Xidmət müddəti 3 ildən artıq olan avadanlığın istismarının birinci ilində onun ilk dəyərinin 50%-ə qədərini amortizasiya ayırmalarına əlavə olaraq silə (keçirə) bilər. Bundan əlavə bütün kiçik müəssisələr sürətləndirilmiş amortizasiyanı həyata keçirmək hüququna malikdir. Bütün bunlar kiçik müəssisələrə lazım olduqda əsas fondların aktiv hissəsini tənzimləyə və mənfəətdən daha az məbləğdə vergi ödəməyə imkan verir.

2. Əlavə dəyər vergisini hər rübdə bir dəfə hesabat ayından sonrakı ayın 20-dən gec olmamaqla ödəyə bilər.

3. Rüb ərzində mənfəətdən vergi haqqlarının ödənilməsindən azad olunur.

4. Kiçik müəssisənin yaradıldığı andan 4 il ərzində onun vergiyə cəlb olunması vəziyyəti pisləşə bilməz.

Kənd təsərrüfatı məhsullarını istehsal və emal edən, xalq istehlakı mallarını, tibb dərmanlarını və preparatlarını istehsal edən, yaşayış, istehsal, sosial və təbiəti mühafizə təyinatlı obyektlərin tikintisi və təmiri ilə məşğul olan kiçik müəssisələr ilk iki il mənfəət vergisindən azad olur. Bu zaman əsas şərt satışın ümumi həcmində həmin məhsulların xüsusi çəkisi 70%-dən az olmamalıdır. Fəaliyyətin üçüncü və dördüncü illərində mənfəət vergisi azaldılmış stavkalar üzrə ödənilir: üçüncü il stavka 25%, 4-cü il isə 50%, bir şərtlə ki, satışın ümumi həcmində güzəştli məhsulun xüsusi çəkisi 90%-dən az olmasın.

Kiçik sahibkarlığı dolayı yolla stimullaşdıran tədbirlər içərisində kiçik müəssisələrə xidmət göstərən banklar və sığorta təşkilatları üçün mənfəət vergisi üzrə güzəştləri də göstərmək olar.

«İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən kiçik müəssisələr investisiya vergi kreditini (yəni, vergi ödənişləri üçün dövlət hakimiyyəti və ya vergi orqanları tərəfindən müddətin uzadılması) almaq hüququna malikdirlər.

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, kiçik müəssisələr kifayət qədər vergi güzəştlərinə malikdir. Bu isə təbii olaraq kiçik biznesin inkişafına kömək edir.

Dövlət mülkiyyətinin özəlləşdirilməsi və kiçik və orta sahibkarlığın inkşafi sahəsində həyata keçirilən dövlət köməyi tədbirlərinin nəticəsində özəl bölmə ölkə iqtsadiyyatında payına görə hakim mövqeyə yiyələnmişdir. 2000-ci ilin yekunlarına görə ümumi daxili məhsulda qeyri-dövlət bölmənin payı 69,0%, o cümlədən kiçik və orta sahibkarlığın payı isə 42,7% təşkil etmişdir. Sənaye istehsalının 43,6%-i özəl bölmənin payına düşmüşdür.

Son illərin müsbət meylləri sırasında özəl bölmənin sənayedə rolunun əhəmiyyətli dərəcədə artması diqqəti cəlb edir. 2000-ci ildə ölkə sənayesində 3548 qeyri-dövlət müəssisəsi fəaliyyət göstərmiş, bu müəssisələr tərəfindən 6955,9 mlrd. manatlıq məhsul istehsal olunmuşdur. Sənaye sahəsindəki qeyri-dövlət müəssisələrinin 94%-i emal, 5,4%-i hasilat və 0,6%-i elektrik enerjisi, qaz və su təchizatı sahəsində fəaliyyət göstərir. Bu bölmədə çalışanların sayı 46,6 min nəfəri keçmiş və ölkə sənayesində çalışanların 23,2%-ni təşkil etmişdir.

Sahibkarlıq fəaliyyəti aşağıdakı əlamətlərə görə təsnifləşdirilə bilər: fəaliyyət növlərinə və ya təyinatına görə; mülkiyyət formalarına görə; mülkiyyətçilərin sayına görə; təşkilati-hüquqi və təşkilati iqtisadi formalarına görə; muzdlu əməkdən istifadə dərəcəsinə görə və s. Onlardan bəzilərinə baxaq.

Mülkiyyət formalarına görə müəssisənin əmlakı xüsusi, dövlət, bələdiyyə, eləcə də ictimai təşkilatların (birliklərin) mülkiyyətində ola bilər. Bu zaman dövlət mülkiyyət formasından asılı olmayaraq mülkiyyət hüququnun həyata keçirilməsi sahəsində heç bir məhdudiyyət və ya üstünlük müəyyən edə bilməz.

Mülkiyyətçilərin sayına görə fərdi və kollektiv sahibkarlıq mövcuddur.

Təşkilati-hüquqi formalarına görə təsərrüfat yoldaşlıqları, cəmiyyətlər və kooperativlər fəaliyyət göstərir.

Sahibkarlığın əsas təşkilati-iqtisadi formalarına isə aşağıdakılar daxildir: konsern, assosiasiya, konsorsium, sindikat, kartel, maliyyə-sənaye qrupları.

Fəaliyyət növlərinə və təyinatına görə sahibkarlıq fəaliyyəti istehsal, kommersiya, maliyyə, məsləhət və s. növlərə bölmək olar. Bütün bu fəaliyyət növləri ayrı-ayrılıqda və ya birlikdə fəaliyyət göstərə bilər. Sahibkarlıq fəaliyyətinin növləri şəkil 1.4.1-də göstərilir.

Konsern-iştirak sistemi ilə müəssisəyə nəzarət edən səhmdar cəmiyyətidir. Konsern özünə görə qız müəssisələri hesab olunan müxtəlif şirkətlərinin səhmlərinin nəzarət paketini alır. Qız şirkətləri də öz növbəsində başqa səhmdar cəmiyyətlərinin (hətta xarici ölkələrdə yerləşən) səhmlərinin nəzarət paketinə malik ola bilərlər.

Assosiasiyalar – iqtisadi cəhətdən müstəqil müəssisələrin, təşkilatların könüllü birliyinin yumşaq formasıdır, çünki bu halda həmin müəssisə və təşkilatlar eyni zamanda başqa qurumlara da daxil ola bilərlər. Bir qayda olaraq assosiasiyaların tərkibinə müəyyən ərazidə yerləşən və bir ixtisaslaşmaya malik müəssisə və təşkilatlar daxil olur. Assosiasiyaların yaradılmasının əsas məqsədi elmi-texniki, istehsal, sosial və digər məsələlərin birgə həllindən ibarətdir.

Konsorsium – iri maliyyə əməliyyatını (məsələn, iri sənaye və ya neft layihəsinə investisiyaların həyata keçirilməsi və s.) birgə həyata keçirmək üçün sahibkarların birləşməsidir. Sahibkarların belə birliyi iri layihələrə vəsait qoymaq imkanına malik olur və iri qoyuluşlar üçün xas olan riski xeyli azaldır. Çünki məsuliyyət çox sayda iştirakçılar üzrə parçalanır. Elmi-texniki inqilab şəraitində konsorsiumlar yeni sahələrdə və müxtəlif sahələrin qovşağında yaranır və birgə elmi tədqiqatların aparılmasını nəzərdə tutur.

Şəkil 1.4.1. Sahibkarlıq fəaliyyətinin növləri.

Sindikat – aralarındakı lüzumsuz rəqabəti ləğv etmək məqsədilə eyni sahənin sahibkarlarının məhsul satışı üzrə birliyidir.

Kartel – məhsulun və xidmətlərin qiyməti, satış bazarlarının bölüşdürülməsi, istehsalın ümumi həcmindəki payı və s. üzrə eyni sahənin müəssisələri arasındakı razılaşmadır (müqavilədir).

Maliyyə – sənaye qrupları sahibkarlığın yeni təşkilati-iqtisadi formasıdır. Bu qruplar sənaye, bank, sığorta və ticarət kapitallarının, eləcə də müəssisə və təşkilatların intellektual potensiallarının birləşdirilməsindən ibarətdir.

1.5. Bazar şəraitində müəssisələrin fəaliyyətinin səmərəliliyinə təsir edən amillər

Bazar iqtisadiyyatı şəraitində müəssisənin işinin səmərəliliyinə müxtəlif amillər təsir edir. Həmin amilləri müəyyən əlamətlərə görə təsnifləşdirmək olar.

Fəaliyyət istiqamətindən asılı olaraq amilləri iki qrupda birləşdirmək olar: pozitiv və neqativ. Pozitiv amillər müəssisənin fəaliyyətinə səmərəli təsir göstərir, neqativ amillər isə əksinə.

Yaranma yerindən asılı olaraq amillər daxili və xarici amillərə bölünür. Daxili amillər müəssisənin öz fəaliyyətindən asılıdır, yəni onları müəssisə özü doğurur. Daxili amillər o qədər müxtəlifdir ki, istehsal ehtiyatlarını yaxşı anlamaq, uçota almaq, təhlil etmək üçün onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) rəhbərin şəxsiyyəti və onun komandasının bazar şəraitində müəssisəni idarə etmək qabiliyyəti ilə əlaqədar olan amillər;

2) ETT-nin sürətlənməsi və müəssisənin innovasiya siyasəti ilə əlaqədar olan amillər;

3) istehsalın, əməyin və müəssisənin idarə edilməsinin təşkilinin təkmilləşdirilməsi ilə əlaqədar olan amillər;

4) təsərrüfatçılığın təşkilati-hüquqi formaları ilə əlaqədar olan amillər;

5) kollektivdə əlverişli sosial-psixoloji mühitin yaradılması ilə əlaqədar olan amillər;

6) istehsalın və sahələrin xüsusiyyətləri ilə əlaqədar olan amillər;

7) məhsulun keyfiyyəti və rəqabət qabiliyyəti, xərclərin idarə edilməsi və qiymət siyasəti ilə əlaqədar olan amillər;

8) amortizasiya və investisiya siyasəti ilə əlaqədar olan amillər.

Bu təsnifat tam şərtidir və o, amillərin bütün müxtəlif təzahürlərini əks etdirir, lakin daxili amilləri və istehsalın səmərəliliyinə onların təsirini dəqiq təsəvvür etməyə imkan verir.

Bundan əlavə daxili amillər obyektiv və subyektiv amillərə bölünür. Obyektiv amillər elə amillərdir ki, onların yaranması idarəetmə subyektlərindən asılı deyildir.

Subyektiv amillər isə bütünlükdə idarəetmə subyektindən asılıdır və onlar diqqət mərkəzində olmalıdır.

Bazar şəraitində müəssisənin işinin səmərəliliyi xarici amillərin təsirindən də çox asılıdır. Xarici amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) daxili və dünya bazarının konyukturasının dəyişilməsi ilə əlaqədar olan amillər;

2) istər ölkə daxilində, istərsə də daha qlobal miqyasda siyasi vəziyyətin dəyişilməsi ilə əlaqədar olan amillər;

3) inflyasiya prosesləri ilə əlaqədar olan amillər;

4) dövlətin fəaliyyəti ilə əlaqədar olan amillər.

Müasir şəraitdə respublikada müəssisələrin fəaliyyətinin səmərəliliyi xeyli dərəcədə dövlətdən asılıdır. Burada sivil bazarın və bu bazarda oyun qaydalarının, daha doğrusu, hüquqi əsasların yaranması, ölkədə lazımi qayda qanunun və onun təhlükəsizliyinin təmin edilməsi, iqtisadiyyatın sabitləşdirilməsi, sosial müdafiənin və sosial təminatların yaradılması, rəqabətin müdafiəsi, təsərrüfat qanunvericiliyinin hazırlanması, qəbul edilməsi və yerinə yetirilməsinin təmin edilməsi əsas yer tutur.

FƏSİL 2. MÜƏSSİSƏNİN ƏSAS FONDLARI (VƏSAİTLƏRİ)

2.1. Əsas fondların (vəsaitlərin) mahiyyəti, onların tərkibi və strukturu

Müəssisənin əsas əlaməti – onun mülkiyyətində, təsərrüfat fəaliyyətində və ya operativ idarə edilməisində xüsusi **əmlakın olmasıdır.** Müəssisənin fəaliyyətinin maddi-texniki imkanları, onun iqtisadi müstəqilliyi və etibarlılığı məhz bunun vasitəsilə təmin olunur. İstər iri və istər kiçik müəssisələr, istərsə də fərdi sahibkarlıq müəyyən əmlaka malik olmadan fəaliyyət göstərə bilməz.

Müəssisələrin, təşkilatların və idarələrin mülkiyyətində olan əmlak daşınmaz və daşınan əmlaka bölünür.

Daşınmaz əmlaka yerin təki, torpaq sahələri, xüsusiləşmiş su obyektləri və torpaqla bağlı olan hər şey, daha doğrusu, təyinatına ölçüyə gəlməz ziyanvurulmadan yerdəyişməsi mümkün olmayan obyektlər, o cümlədən meşələr, çoxillik əkmələr, binalar və tikililər daxildir. Buraya həmçinin dövlət qeydiyyatından keçəcək hava və dəniz gəmiləri, daxili sularda üzən gəmilər və kosmik obyektlər də daxildir.

Daşınan əmlaka daşınmayan əmlaka aid edilməyən hər şey, o cümlədən pul və qiymətli kağızlar daxildir.

Müəssisənin əmlakı daşınan və daşınmaz əmlaka bölünməklə yanaşı o, həmçinin **dövriyyədənkənar və dövriyyə aktivlərinə** bölünür ki, onlar bir birindən təkcə fiziki formasına görə deyil, həm də istehsal prosesindəki roluna və yerinə, müəssisə iqtisadiyyatına təsirinə görə fərqlənirlər.

İri və orta müəssisələrin əmlakında dövriyyədənkənar aktivlər 65-85% təşkil edir. Onların tərkibini aşağıdakı kimi təsvir etmək olar:

Dövriyyədənkənar aktivlərin ümumi əlaməti uzun həyat tsiklinə (bir ildən az olmamaqla) malik olmasıdır. Amortizasiya prosesinin uzunluğu və aşağı sürətlə dövr etməsi məhz onlara xas olan xüsusiyyətlərdir. Onları həmçinin səfərbər edilmiş fondlar da adlandırırlar.

Müəssisələrdə dövriyyədənkənar aktivlərin tərkibi və strukturu əhəmiyyətli dərəcədə fərqlənir. Lakin bir qayda olaraq əksər müəssisələr üçün başlıca tərkib element uzun muddətə səfərbər edilmiş fondlardır. Onların içərisində **əsas yeri əsas fondlar** tutur.

Müəyyən amortizasiya dövrü (bir ildən artıq) ərzində müəssisə tərəfindən müxtəlif fəaliyyət sahələrində istifadə olunan real qiymətlilər və qeyri-maddi aktivlər uzunmüddətli səfərbər edilmiş fondlar hesab olunur.

Əsas fondlar uzun vaxt müddəti ərzində natural forması dəyişilmədən fəaliyyət göstərən və dəyərini hissə hissə itirən maddi-əşya qiymətliləridir.

İstehsal prosesində iştirakının xarakterindən asılı olaraq əsas fondlar istehsal və qeyri-istehsal əsas fondlarına bölünür.

İstehsal əsas fondları uzun müddət istehsal prosesində iştirak edən, öz dəyərini hazır məhsulun üzərinə aşınma dərəcəsindən asılı olaraq hissə-hissə və tədricən keçirən və bu halda özünün natural formasını saxlayan əmək vasitələridir. Bu fondlar kapital qoyuluşları hesabına tamamlanır.

Qeyri-istehsal əsas fondlarına müəssisənin balansında olan yaşayış evləri, uşaq və idman müəssisələri, zəhmətkeşlərə mədəni – məişət xidməti göstərən digər obyektlər daxildir. İstehsal fondlarından fərqli olaraq onlar istehsal prosesində iştirak etmir və öz dəyərini hazır məhsulun üzərinə keçirmir, çünki qeyri-istehsal fondları məhsul yaratmırlar. Onların dəyəri istehlak prosesində sərf olunur.

Qeyri-istehsal əsas fondları istehsalın həcminə və əmək məhsuldarlığının artımına bilavasitə təsir göstərməsə də onların daim artırılması müəssisə işçilərinin rifahının yaxşılaşdırılması, onların maddi və mədəni həyat səviyyəsinin yüksəlməsi ilə qırılmaz surətdə bağlıdır. Bu isə son nəticədə müəssisənin fəaliyyəti nəticələrinə təsir göstərir.

Əsas istehsal fondları istehsalın maddi-texniki bazasıdır. Müəssisənin istehsal gücü, əməyin texnika ilə silahlanması səviyyəsi onların həcmindən asılıdır. Əsas fondların yığımı və əməyin texnika ilə silahlanmasının yüksəlməsi əmək prosesini zənginləşdirir, əməyə yaradıcı xarakter verir, cəmiyyətin mədəni-texniki səviyyəsini yüksəldir.

Bazar iqtisadiyyatına keçid şəraitində əsas fondlar istehsalın intensivləşdirilməsinin bütün amilləri hesabına gələcək iqtisadi artımı təmin edən başlıca zəmindir.

Cəmiyyətin maddi resurslarının ən mühüm hissəsi məhz əsas fondlarda təcəssüm olunur.

Əsas fondların başlıca hissəsini (65%-dən çoxu) əsas istehsal fondları təşkil edir. Ölkə sənayesinin əsas istehsal fondları 2000-ci ildə 28614,9 mlrd.man təşkil etmişdir.

Müəssisənin əsas istehsal fondları küllü miqdarda əmək vasitələrindən ibarətdir ki, onlar da özlərinin iqtisadi həmcinsliliyinə baxmayaraq məqsədli təyinatına və xidmət müddətlərinə görə fərqlənirlər. Elə buradan da fondların müxtəlif növlərinin istehsal təyinatlarının xüsusiyyətlərini nəzərə alan müxtəlif qruplar üzrə əsas fondların təsnifatı zərurəti yaranır.

Mövcud təsnifata görə müəssisənin əsas istehsal fondları aşağıdakı qruplara bölünür:

- mülkiyyət hüququ əsasında müəssisəyə məxsus olan torpaq sahələri və təbiətdən istifadə obyektləri (su, yerin təki, digər təbii resurslar);
- binalar (istehsal-texniki, xidməti və s.);
- tikililər (istehsala xidmət edən mühəndis-inşaat obyektləri);
- ötürücü qurğular (elektrik şəbəkələri, istilik şəbəkələri);
- maşınlar və avadanlıq (iş maşınları və avadanlıq, güc maşınları və avadanlıq);
- ölçücü və tənzimləyici cihazlar, qurğular və laboratoriya avadanlığı;
- hesablama texnikası;
- nəqliyyat vasitələri (daxili və istehsaldankənar);
- alətlər və tərtibatlar (dəyəri 50 minimal əmək haqqı məbləğindən artıq olanlar);
- istehsal və təsərrüfat inventarları;
- təsərrüfatdaxili yollar;
- torpaqların və icarəyə götürülmüş binaların, əsas avadanlığın və əsas fondlara aid edilən digər obyektlərin yaxşılaşdırılması üçün kapital qoyuluşları.

Əsas fondların ayrı-ayrı qruplarının onların ümumi həcmində tutduğu yeri əsas fondların **istehsal strukturu**

adlanır. Əsas fondların hansı qruplarına vəsait qoyulması cəmiyyət üçün çox əhəmiyyətlidir. Cəmiyyət maşın və avadanlığın, fondların aktiv hissəsinin xüsusi çəkisinin optimal ölçüdə artırılmasında maraqlıdır. Çünki fondların bu hissəsi istehsalın həlledici sahələrinə xidmət edir, bu və ya başqa məhsul buraxılışı üzrə müəssisənin istehsal imkanlarını əks etdirir.

Əsas fondların aktiv elementlərinin normal fəaliyyətini təmin edən binalar, tikililər, inventar əsas fondların passiv hissəsinə aiddir.

Əsas fondların dəyərində avadanlığın payı nə qədər yüksək olarsa bütün başqa şərtlər eyni olduqda məhsul buraxılışı çox, fondverimi göstəricisi yüksək olar. Ona görə də əsas fondların strukturunun yaxşılaşdırılmasına istehsalın artımının, maya dəyərinin aşağı salınmasının, müəssisələrin pul yığımların artırılmasının şərti kimi baxılır.

Əsas istehsal fondlarının istehsal strukturu müxtəlif sənaye sahələrinin müxtəlif müəssisələrində eyni deyildir. Məsələn, əsas fondların ümumi dəyərində binaların xüsusi çəkisi yüngül və yeyinti sənayesində, tikililər-yanacaq sənayesində, ötürücü qurğular-elektroenergetika, maşın və avadanlıq-maşınqayırma kompleksinin müəssisələrində üstünlük təşkil edir.

Əsas istehsal fondlarının istehsal strukturuna müəyyən amillər təsir edir. Bu amillərə daxildir: buraxılan məhsulun xarakteri; məhsul buraxılışının həcmi; mexanikləşdirmə və avtomatlaşdırma səviyyəsi; ixtisaslaşma və kooperativləşdirmə səviyyəsi; müəssisələrin yerləşdirilməsinin iqlim və coğrafi şərtləri.

Birinci amil binaların kəmiyyəti və dəyərinə, nəqliyyat vasitələrinin və ötürücü qurğuların xüsusi çəkisinə təsir edir. Buraxılan məhsulun həcmi nə qədər çox olarsa mütərəqqi iş maşınları və avadanlığın xüsusi çəkisi bir o qədər yüksək olur. Fondların strukturuna üçüncü və dördüncü amillərin

təsiri də əsasən bunun kimidir. İqlim şəraitindən isə binaların və qurğuların xüsusi çəkisi asılıdır.

Əsas istehsal fondlarının strukturunun yaxşılaşdırılması aşağıdakılara imkan verir:

- avadanlığın yeniləşməsi və modernləşdirilməsi;
- dəzgahların və maşınların mütərəqqi növlərinin (finiş əməliyyatların yerinə yetirilməsi üçün dəzgahlar, universal aqreqat dəzgahlar, avtomat axın xətləri, rəqəmli proqramla idarə olunan dəzgahlar) xüsusi çəkisinin artırılması nəticəsində avadanlığın strukturunun təkmilləşdirilməsi;
- bina və qurğulardan yaxşı istifadə, sərbəst (boş) sahələrdə əlavə avadanlığın quraşdırılması;
- tikinti layihələrinin düzgün hazırlanması və müəssisələrin tikinti planlarının yüksək keyfiyyətlə yerinə yetirilməsi;
- artıq və az istifadə olunan avadanlığın ləğv edilməsi və ayrı-ayrı qruplar arasında daha düzgün nisbəti təmin edən avadanlığın quraşdırılması.

2.2. Əsas fondların qiymətləndirilməsi metodları

Əsas fondların uçotu və planlaşdırılması natural və dəyər ifadələrində aparılır. Əsas fondları natural ifadədə qiymətləndirmək üçün maşınların sayı, onların məhsuldarlığı, gücü, istehsal sahələrinin ölçüsü və digər kəmiyyət göstəriciləri müəyyən edilir. Bu məlumatlar müəssisələrin və sahələrin istehsal güclərinin hesablanması, istehsal proqramının planlaşdırılması, avadanlığın məhsuldarlığının yüksəldilməsi ehtiyatlarının müəyyən edilməsi, avadanlıq balansının tərtib edilməsi üçün istifadə olunur. Bu məqsədlə avadanlıq inventarlaşdırılır və pasportlaşdırılır, onların sıradan çıxmasının və yenilərinin istifadəyə verilməsinin uçotu aparılır.

Əsas fondların pul və ya dəyər ifadəsində qiymətləndirilməsi əsas fondların geniş təkrar istehsalının planlaşdırılması, aşınmanın dərəcəsinin və amortizasiya ayırmalarının ölçüsünün, özəlləşdirmə həcminin müəyyən edilməsi üçün lazımdır.

Əsas fondların qiymətləndirilməsinin bir neçə növü mövcuddur. Bu, onların uzun müddət istifadədə olması, istehsal prosesində tədricən aşınması, həmin dövr ərzində onların təkrar istehsalı ilə əlaqədardır. Əsas fondlar əsasən ilk, bərpa və qalıq dəyərinə görə qiymətləndirilir.

Əsas istehsal fondlarının ilk dəyərinə fondların yaradılması və ya əldə edilməsi, daşınması və quraşdırılması xərclərinin məbləği daxildir. Bu göstəricilər amortizasiya normasını və amortizasiya ayırmaları ölçüsünü, müəssisə aktivlərinin mənfəətini və rentabelliyini, onlardan istifadə göstəricilərini təyin etmək üçün tətbiq olunur.

Elmi- texniki tərəqqi əsas fondların istehsalı şərtlərinin və amillərinin dəyişilməsinə, deməli, onların istehsalı xərclərinin və uyğun olaraq cari bazar qiymətlərinin və tariflərinin dəyişilməsinə təsir edir. Hazırda inflyasiya əsas fondların alınması üçün cari qiymətlərinə və tariflərinə güclü təsir göstərir.

Vaxt keçdikcə müəssisənin balansında əsas fondlar qarışıq qiymətlərlə, daha doğrusu, onların yaradılması və ya əldə edilməsinin cari bazar qiymətləri ilə əks etdirilir. Deməli, müasir təsərrüfatçılıq şəraitində əsas fondların yenidən qiymətləndirilməsi onların həqiqi dəyərini əks etdirir. Ona görə də əsas fondların yenidən qiymətləndirilməsi və onların vahid dəyər ölçülərinə gətirilməsi zərurəti yaranır. Bu məqsədlə əsas fondların bərpa dəyərinə görə qiymətləndirilməsi lazım gəlir.

Bərpa dəyəri – müasir şəraitdə əsas fondların təkrar istehsalı üçün lazım olan xərcləri əks etdirir. Bir qayda olaraq o, fondlar yenidən qiymətləndirilərkən müəyyən edilir. Əsas

fondlar axırıncı dəfə 1 iyun 1996-cı ildə yenidən qiymətləndirilmişdir.

Əsas fondların yenidən qiymətləndirilməsi nəticəsində onların bərpa dəyəri kəskin şəkildə artır və bunun nəticəsi kimi müəssisənin maliyyə-iqtisadi göstəriciləri pisləşir. Ona görə də fondların yenidən qiymətləndirilməsi nəticəsində maliyyə göstəriciləri nisləşəcək müəssisələrə amortizasiyanın indeksləşdirilməsi üçün azaldıcı əmsallar tətbiq edilir.

İstismar prosesində əsas fondlar aşınırlar və özünün ilk (bərpa) dəyərini tədricən itirirlər. Onların həqiqi kəmiyyətini qiymətləndirmək üçün fondların dəyərinin aşınmış hissəsini çıxmaq lazımdır. Bu, əsas fondların qalıq dəyərini təşkil edəcəkdir. **Qalıq** dəyəri əsas fondların ilk və ya bərpa dəyəri ilə onların aşınması məbləği arasındakı fərqi əks etdirir.

2.3. Əsas fondların aşınması və amortizasiyası

Əsas istehsal fondları onların istismarı prosesində aşınırlar. Aşınmanın iki növünü göstərmək olar – fiziki və mənəvi.

Fiziki aşınma əsas fondların ilkin istehlak dəyərinin tədricən itirilməsini əks etdirir. Belə aşınma təkcə əsas fondların fəaliyyəti prosesində deyil, fəaliyyətsiz qaldığı dövrdə də baş verir (ətraf təsirlərin, atmosfer təsirin, korroziya nəticəsində dağılma). Əsas fondların fiziki aşınması əsas fondların keyfiyyətindən, texniki mükəmməlliyindən (konstruksiyası, materialın növü və keyfiyyəti, binaların keyfiyyəti və dəzgahların quraşdırılması); texnoloji prosesin xüsusiyyətlərindən (kəsmənin sürətinin və qüvvəsinin kəmiyyəti və s.); əsas fondların fəaliyyəti vaxtından (ildəki iş günlərinin sayı, sutkadakı növbələr, növbədə iş saatları); əsas fondların xarici şərtlərdən müdafiə dərəcəsindən; əsas

fondlara xidmətdən; fəhlələrin ixtisas səviyyəsindən və əsas fondlara onların münasibətindən asılıdır.

Əsas fondların hətta oxşar elementləri üzrə də fiziki aşınma eyni dərəcədə baş vermir. Əsas fondların tam və qismən aşınması baş verir. Tam aşınma zamanı əsas fondlar ləğv edilir və yeniləri ilə əvəz edilir (əsaslı tikinti və ya aşınmış əsas fondların cari əvəz edilməsi). Qismən aşınma təmir yolu ilə aradan qaldırılır.

Əsas fondların fiziki aşınması faktiki xidmət müddətinin (T_{ϕ}) normativ xidmət müddətinə (T_H) nisbəti kimi tapılır:

$$İ_{\phi} = \frac{T_{\phi}}{T_H} \cdot 100.$$

Obyektin vəziyyətinin natural ifadədə müayinəsi ən düzgün yoldur.

Mənəvi aşınmanın iki formasını fərqləndirirlər. Mənəvi aşınmanın **birinci forması** maşın və avadanlığın təkrar istehsalı üçün ictimai – zəruri xərclərin ixtisar edilməsi hesabına onların dəyərinin azalmasını əks etdirir:

$$İ_{M_1} = \frac{F_N - F_B}{F_N} \cdot 100,$$

burada F_N - əsas fondların ilk dəyəri, man;

F_B - əsas fondların bərpa dəyəridir, man.

Mənəvi aşınmanın **ikinci forması** yeni, daha məhsuldar və iqtisadi cəhətdən səmərəli maşın və avadanlığın tətbiqi nəticəsində əsas fondların dəyərinin azalmasını ifadə edir:

$$İ_{M_2} = \frac{M_j - M_M}{M_j} \cdot 100,$$

burada M_M və M_j – fəaliyyətdə olan (mövcud) və yeni əsas fondların məhsuldarlığıdır.

Mənəvi aşınmanın bu formalarının təsiri ilə əsas fondlar texniki xarakteristikasına və iqtisadi səmərəliliyinə görə geri qalmış olur.

Müasir şəraitdə mənəvi aşınmanın nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Yeni, daha mükəmməl və yüksək məhsuldarlığa, ən yaxşı xidmət və istismar şərtlərinə malik avadanlıq növlərinin meydana gəlməsi hələ fiziki aşınmamış köhnə əsas fondların dəyişilməsini iqtisadi cəhətdən məqsədəuyğun edir. Mənəvi cəhətdən aşınmış texnikanın vaxtında dəyişdirilməsi daha mükəmməl avadanlıq və maşında istehsal edilən məhsulla müqayisədə baha və keyfiyyətsiz məhsul istehsalına gətirib çıxarar. Bazar rəqabəti şəraitində buna qəti yol vermək olmaz.

Bazar iqtisadiyyatına keçid şəraitində əsas fondların təzələnməsi ilə əlaqədar olan xərclərin ödənilməsinin, müəssisənin özünü maliyyələşdirilməsinin əsas mənbəyi müəssisənin xüsusi vəsaitidir. Bu vəsait əsas fondların bütün xidməti müddətində amortizasiya ayırmaları şəklində yığılır.

Amortizasiya əsas fondların fiziki və mənəvi aşınmasının pul ilə ifadəsidir. Amortizasiya əsas fondlar sıradan çıxdıqda onları tam dəyişmək məqsədilə həyata keçirilir. Amortizasiya ayırmalarının məbləği amortizasiya normasına görə müəyyən edilir. Amortizasiya norması əsas fondların hazırlanan məhsulun üzərinə hər il keçirilən hissəsini əks etdirir. Amortizasiya norması aşağıdakı düsturla hesablanır:

$$N_a = \frac{F_I - F_L}{T_N \times F_I} \cdot 100,$$

burada F_I – əsas fondların ilk dəyəri, man.;

F_L - əsas fondların ləğvetmə dəyəri, man.;

T_N - əsas fondların normativ xidmət müddətidir (amortizasiya müddəti), il.

Amortizasiya normasının səviyyəsi əsas fondların aşınmış hissəsinin bərpa edilməsi üçün lazım olan resursların həcmini müəyyən edir. Amortizasiya normasının köməyilə əsas fondların dövretmə sürəti tənzimlənir, onların təkrar istehsalı prosesi intensivləşdirilir. Amortizasiya norması və əsas fondların qrupları üzrə bu normaların diferensiallaşdırılması vasitəsilə müəssisədə texniki və istehsal siyasəti həyata keçirilir.

Əsas fondların tam bərpası üçün amortizasiya ayırmalarının məbləği aşağıdakı düsturla hesablanır:

$$A_a = N_a \cdot F,$$

burada F – əsas fondların orta illik dəyəridir, man.

Amortizasiya ayırmalarının kəmiyyəti üç metodla müəyyən edilir: bərabər, bərabər sürətləndirilmiş və sürətləndirilmiş (və ya qeyri-bərabər). Bərabər metodla amortizasiya ayırmaları belə hesablanır: əsas fondların orta illik dəyəri amortizasiya ayırmalarının illik normasına vurulur. Məsələn:

Əsas fondların növü	Orta illik dəyər, mln. man.	Amortizasiya ayırmalarının illik norması, %	Amortizasiya ayırmalarının illik məbləği, mln. man. (2x3).
1	2	3	4
Avadanlıq	50	12	6
Binalar	200	5	10
Nəqliyyat	5	20	1,0
Cəmi			17,0

Amortizasiya ayırmalarının hesablanmasının bərabər metodu əsas fondların fiziki və mənəvi cəhətdən bərabər aşınmasına əsaslanır. Belə istisna fiziki aşınma üçün tam qanunauyğundur. Lakin mənəvi aşınma üzrə vəziyyət tamamilə başqa cürdür, çünki elm, texnika, istehsal texnologiyası qeyri-bərabər inkişaf edir. Əsas fondların mənəvi aşınması əksər hallarda amortizasiya normasında nəzərdə tutulduğu kimi bərabər sürətlə deyil, sürətləndirilmiş qaydada baş verir. Ona görə də əsas fondların sürətləndirilmiş mənəvi aşınması baş verdikdə sahibkar onların dəyişdirilməsini təmin edən amortizasiya ayırmalarına malik olmalıdır. Həmin problemi **əsas fondların sürətləndirilmiş amortizasiyası** metodundan istifadə etməklə həll etmək olar. Bu zaman ilk üç ildə artırılmış normalar tətbiq edilir ki, bu da əsas fondların ilk dəyərinin 2/3 hissəsinə qədərinin məhsulun maya dəyərinə keçirilməsinə imkan verir. Bundan sonra dəyərin qalan hissəsi qəbul olunmuş amortizasiya müddəti hədlərində yerdə qalan hər bir xidmət ili üçün eyni (sabit) amortizasiya normaları üzrə keçirilir.

Hazırda **qeyri-bərabər amortizasiya** geniş yayılmaqdadır. Bu zaman avadanlığın dəyərinin əsas hissəsi istismarın ilk illərində istehsal xərclərinə daxil edilir. Məsələn, birinci il 50%, ikinci il 30%, üçüncü il-20%. Bu isə inflyasiya şəraitində çəkilmiş xərcləri daha tez ödəməyə və onu avadanlıq parkının yeniləşdirilməsinə yönəltməyə imkan verir.

Sənaye müəssisələri amortizasiya ayırmalarından müstəqil istifadə edirlər. Onlar bu vəsaiti müəssisənin elmi-texniki və istehsal inkişafına, əsas fondların geniş təkrar istehsalına və təkmilləşdirilməsinə yönəldirlər.

Amortizasiyanın aşağıdakı qaydası geniş tətbiq edilir:

1.Amortizasiyaya məruz qalacaq əmlak aşağıdakı kateqoriyalar üzrə birləşdirilir:

- binalar, tikililər və onların struktur komponentləri;
- minik avtonəqliyyatı, yüngül yük avtonəqliyyatı, kontor avadanlığı və mebel, kompüter texnikası, informasiya sistemləri və məlumatların işlənməsi sistemləri;
- enerji, nəqliyyat və digər texnoloji avadanlıq, eləcə də birinci və ikinci kateqoriyaya daxil edilməyən maddi aktivlər;

- qeyri-maddi aktivlər.

Vergiyə cəlbolunmanı asanlaşdırmaq üçün amortizasiyaya məruz qalacaq əmlakın tərkibinə faydalı xidmət müddəti bir ildən çox olan, dəyəri əməyin ödənilməsinin aylıq minimal ölçüsünün 100 mislindən artıq olan əmlak daxil edilir. Torpaq sahələri, yerin təki və meşələr, eləcə də maliyyə aktivləri amortizasiyaya məruz qalacaq əmlaka daxil edilmir.

2. Amortizasiyanın illik normaları: birinci kateqoriya üçün-5%, ikinci üçün-25%, üçüncü kateqoriya üçün 15% müəyyən edilir. Dördüncü kateqoriya üçün amortizasiya ayırmaları müvafiq qeyri-maddi aktivlərin mövcud olması müddəti ərzində bərabər hissələrlə həyata keçirilir. Qeyri-maddi aktivin istifadə müddətini müəyyən etmək mümkün deyildirsə amortizasiya müddəti 10 il qəbul edilir.

3.İkinci və üçüncü amortizasiya kateqoriyasına aid edilən əmlak üçün amortizasiya ayırmalarını müəyyən etmək üçün əmlakın cəmi dəyərini amortizasiya normasına vurmaq lazımdır. Birinci və dördüncü kateqoriyadan olan əmlak üzrə isə amortizasiya ayırmaları hər bir avadanlıq vahidi üçün ayrı-ayrılıqda hesablanır.

4.Amortizasiya ayırmaları hesablanarkən istismar şərtlərini nəzərə alan əmsaldan istifadə olunur. Bu əmsal ayrı-ayrı istehsal növlərinin xüsusiyyətlərini, maşın və avadanlığın istismar rejimlərini, əsas fondların istismarının sürətləndirilməsinə təsir edən təbii şərtləri və ətraf mühiti əks etdirir. Amortizasiya ayırmaları aşağıdakı düsturla hesablanır:

$$A_a = N_D \cdot K_G \cdot F,$$

burada K_G -istismar şərtlərini nəzərə alan əmsaldır.

5. Müəssisələr əsas fondların sürətləndirilmiş amortizasiyasını tətbiq edə bilərlər. 1 yanvar 1991-ci ildən istifadəyə verilmiş maşınlar,avadanlıq və nəqliyyat vasitələri sürətləndirilmiş amortizasiyaya cəlb oluna bilər. Sürətləndirilmiş amortizasiya zamanı aşınmanın hesablanmış illik məbləği təsdiq olunmuş və iki dəfəyədək artırılmış normalar üzrə təyin edilə bilər.

2.4. Əsas fondların təkrar istehsalı

Əsas fondların sadə və geniş təkrar istehsalının müxtəlif formaları mövcuddur. Sadə təkrar istehsal zamanı köhnəlmiş əmək vasitələri yenilər ilə əvəz edilir və əsaslı təmir həyata keçirilir. Müəssisələrin təmir fondu yaratmaq hüququ vardır. Təmir fonduna illik ayırmaların məbləği müəssisələrin özləri tərəfindən müstəqil surətdə tətbiq edilmiş normativlər üzrə müəyyən edilir. Bu fondun vəsaitindən əsas fondların təmirinin bütün növlərinin maliyələşdirilməsi üçün istifadə olunur.

Təmir fondu yaradılmaya da bilər. Bu zaman təmir xərcləri bilavasitə məhsulun maya dəyərinə daxil edilir, qeyri-istehsal fondları üzrə isə mənfəət hesabına ödənilir. Təmir fondu təmir xərclərini daha bərabər silməyə imkan verir.

Əsas fondların geniş təkrar istehsalı formalarına daxildir: yeni tikinti, mövcud müəssisələrin genişləndirilməsi, onların yenidən qurulması və texnika ilə yenidən silahlandırılması, avadanlığın modernləşdirilməsi.

Bu formalardan hər biri müəyyən məsələləri həll edir, müəyyən üstünlüklərə və nöqsanlara malikdir. Yeni tikinti hesabına yeni müəssisələr istifadəyə verilir ki, bunlarda da əsas fondların bütün elementləri texniki tərəqqinin müasir tələblərinə uyğun gəlir, ölkə ərazisi üzrə məhsuldar qüvvələrin düzgün yerləşdirilməsi problemini həll edir. Lakin istehsalın həcminin azalmasına və vəsait çatışmazlığına görə bir çox müəssisələrin fəaliyyətinin dayandırıldığı bazar iqtisadiyyatına keçid dövründə mövcud müəssisələrin yenidən qurulması və texnika ilə yenidən silahlandırılmasına üstünlük verilir. Yenidənqurma zamanı kapital qoyuluşlarının əsas hissəsi köhnə istehsal binalarından, tikililərdən

istifadə etməklə əsas fondların aktiv hissəsinin təkmilləşdirilməsinə yönəldilir. Kapital qoyuluşunun həcmində avadanlıq üçün xərclərin payının artması istehsalı artırmağa və bunun əsasında əmək məhsuldarlığını yüksəltməyə və maya dəyərini aşağı salmağa imkan verir.

Əsas fondların geniş təkrar istehsalının bir forması kimi avadanlığın modernləşdirilməsi mənəvi aşınmanı tam və ya qismən aradan qaldırmaq məqsədilə avadanlığın yeniləşdirilməsini, onun texniki-iqtisadi göstəricilərinin daha mükəmməl konstruksiyalı oxşar avadanlığın səviyyəsinə çatdırılmasını əks etdirir.

Avadanlıq aşağıdakı istiqamətlər üzrə modernləşdirilə bilər:

- rejim xarakteristikalarını və texniki imkanlarını artırmaq məqsədilə mövcud maşınların kostruksiyalarının təkmilləşdirilməsi;
- dəzgahların və mexanizmlərin mexanikləşdirilməsi və avtomatlaşdırılması;
- avadanlığın proqramla idarə olunmasına keçirilməsi.

Avadanlığın modernləşdirilməsi nəticəsində istehsalın illik həcmi artarsa,əmək məhsuldarlığı yüksələrsə və məhsulun maya dəyəri aşağı düşərsə, onda modernləşdirmə iqtisadi cəhətdən səmərəli hesab olunur. Bu zaman elə etmək lazımdır ki, istehsalın səmərəliliyi yüksəlsin. Bunun üçün əldə edilən mənfəətin ümumi məbləği modernləşdirmə üçün xərclər hesabına əsas istehsal fondlarının dəyərinin artımından çox olmalıdır.

2.5. Müəssisədə əsas fondlardan istifadə göstəriciləri və istifadənin yaxşılaşdırılması yolları

Texniki səviyyənin və əsas istehsal fondlarının mövcud vəziyyətində məhsul buraxılışının artırılması, maya dəyərinin aşağı salınması və müəssisədə yığımın artımı əsas istehsal fondlarından istifadə dərəcəsindən asılıdır.

Əsas istehsal fondlarından istifadənin bütün göstəricilərini iki qrupa bölmək olar:

1) əsas istehsal fondlarından istifadənin xüsusi göstəriciləri;

2) əsas istehsal fondlardan istifadənin ümumiləşdirici göstəriciləri;

Birinci qrupa aşağıdakı göstəricilər daxildir: avadanlıqdan ekstensiv istifadə göstəriciləri; avadanlığın işinin növbəlilik əmsalı; avadanlığın yüklənməsi əmsalı; avadanlığın iş vaxtının növbəlilik rejimi əmsalı; avadanlıqdan intensiv istifadə əmsalı, avadanlıqdan inteqral istifadə əmsalı.

Avadanlıqdan ekstensiv istifadə əmsalı (K_{eks}) aşağıdakı düsturla hesablanır:

$$K_{eks} = t_f / t_{pl},$$

burada t_f - avadanlığın faktiki iş vaxtı, saat;

t_{pl} - avadanlığın plan (norma) üzrə iş vaxtıdır, saat.

Avadanlığın işinin növbəlilik əmsalı gün ərzində müəyyən növ avadanlığın işlədiyi dəzgah növbələrin ümumi sayının ən böyük növbədə işləyən dəzgahların sayına nisbəti kimi tapılır. Bu qayda ilə hesablanmış növbəlilik əmsalının ən sadə üsulu belədir: növbələr üzrə istiifadə olunmuş avadanlığın cəmi quraşdırılmış bütün avadanlığın sayına bölünür.

Müəssisələr avadanlığın növbəlilik əmsalını hər vasitə ilə artırmalıdır, çünki bu, eyni miqdarda əsas fondlarla daha çox məhsul buraxmağa imkan verir.

Avadanlığın işinin növbəliliyi aşağıdakı istiqamətlər üzrə yüksəldilə bilər:

- iş yerlərinin ixtisaslaşdırılması səviyyəsinin yüksəldilməsi;
- işin ahəngdarlığının artırılması;

- iş yerlərinə xidmət, dəzgahçıların pəstahlarla və alətlərlə təminatının təşkilindəki nöqsanlar ilə əlaqədar olan boş dayanmaların azaldılması;
- təmir işinin yaxşı təşkili, təmir işlərinin təşkilində qabaqcıl metodların tətbiqi;
- əsas və köməkçi fəhlələrin əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması.

Avadanlığın yüklənməsi əmsalı əsas istehsalda olan bütün maşın parkı üçün müəyyən edilir. Bu əmsalı hesablamaq üçün müəyyən avadanlıqda bütün məmulatların hazırlanmasının əməktutumunu həmin avadanlığın iş vaxtı fonduna bölmək lazımdır. Beləliklə növbəlilik əmsalından fərqli olaraq avadanlığın yüklənməsi əmsalı məmulatın əməktutumu haqqında məlumatları nəzərə alır. Adətən təcrübədə yüklənmə əmsalını müəyyən etmək üçün növbəlilik əmsalını ikiyə bölürlər.

Avadanlığın növbəlik iş rejimindən istifadə əmsalı da avadanlığın növbəlilik əmsalına görə hesablanır. Bunun üçün müəyyən vaxt dövrü ərzində avadanlığın işinin növbəlilik əmsalı müəssisədə (sexdə) növbənin uzunluğuna bölünür.

Bütün bu göstəricilər avadanlıqdan vaxta görə istifadəni əks etdirir. Bu göstəricilərin yüksək olması hələ avadanlıqdan səmərəli istifadə olunması demək deyildir. Ona görə də bu göstəricilər avadanlığın gücə (məhsuldarlığa) görə istifadəsi göstəriciləri ilə tamamlanmalıdır. Bu göstəricilərdən ən mühümü avadanlıqdan intensiv istifadə əmsalıdır və o, aşağıdakı düsturla hesablanır:

$$K_{int} = V_f / V_N,$$

burada V_f - vaxt vahidi ərzində avadanlıqda istehsal olunan məhsulun faktiki miqdarı;

V_N - vaxt vahidi ərzində avadanlığın texniki əsaslandırılmış hasilatıdır (bu, avadanlığın pasport göstəricilərinə əsasən hesablanır).

Avadanlıqdan inteqral istifadə əmsalı avadanlıqdan ekstensiv və intensiv istifadə əmsallarının hasili kimi müəyyən olunur:

$$K_{inteqr} = K_{eks} \cdot K_{int}.$$

Bu əmsal avadanlıqdan həm vaxta, həm də məhsuldarlığa görə kompleks istifadə olunmasını xarakterizə edir. Eyni vaxtda hər iki əmsalın nöqsanlarını nəzərə aldığına görə bu əmsalın qiyməti onlardan kiçik olur.

İkinci qrupa isə aşağıdakı göstəriciləri aid etmək olar: *fondverimi, fondtutumu, fondlarla silahlanma və s.*

Əsas fondlardan səmərəli istifadənin nəticəsi, hər şeydən əvvəl, istehsalın həcminin artmasıdır. Ona görə də əsas fondların səmərəliliyinin ümumiləşdirici göstəricisi istehsal olunmuş məhsulun onun hazırlanması üçün istifadə olunmuş bütün əsas fondların məcmusu ilə tutuşdurulmalıdır. Bu isə fondverimi göstəricisidir. O, aşağıdakı düsturla hesablanır və əsas fondların bir manatına düşən məhsulun miqdarını əks etdirir:

$$F_v = N / F_{or}$$

burada N - məhsulun (əmtəəlik, ümumi və ya satlıq) həcmi, man;

F_{or} - müəssisənin əsas istehsal fondlarının orta illik dəyəridir, man.

Əsas istehsal fondlarının orta illik dəyəri aşağıdakı kimi hesablanır:

$$F_F = F_1 + \frac{F_{is} \times n_2}{12} - \frac{F_{s.ç} \times n_2}{12},$$

burada $F_{is}, F_{s.ç}$ - uyğun olaraq il ərzində istifadəyə verilən və sıradan çıxan əsas istehsal fondlarının dəyəri, man;

n_1, n_2 - əsas fondların istifadəyə verilməsi və ya sıradan çıxması anından keçən tam ayların miqdarı;

12- ildəki ayların miqdarıdır.

Fondveriminin artırılması ölkənin bazar iqtisadiyyatına keçməsi dövründə mühüm xalq təsərrüfatı əhəmiyyətli vəzifədir. Ona görə də fondveriminin artırılmasına təsir edən amilləri müəyyən etmək lazımdır. Bu amillər sırasına aşağıdakılar daxildir:

- mövcud müəssisələrin texnika ilə yenidən silahlandırılması (yenidən qurulması) və yeni müəssisələrin tikilməsi nəticəsində avadanlığın məhsuldarlığının artırılması;
- avadanlığın işinin növbəlilik əmsalının yüksəldilməsi;
- vaxtdan və güclərdən istifadənin yaxşılaşdırılması;
- yeni istifadəyə verilmiş güclərin mənimsənilməsinin sürətləndirilməsi;
- əl əməyinin maşınla əvəz edilməsi;
- müəssisələrin vahid güclərinin dəyərinin aşağı salınması.

Məhsulun fondtutumu fondveriminin tərsi olan kəmiyyətdir və buraxılan məhsulun bir manatına düşən əsas istehsal fondlarının dəyərini əks etdirir:

$$F_f = F_{or} / N.$$

Fondverimi artdıqca fondtutumu aşağı düşür və ya əksinə.

Müəssisədə əsas fondlardan istifadəni aşağıdakı yollarla yaxşılaşdırmaq olar:

- artıq avadanlıqdan, maşınlardan və digər əsas fondlardan müəssisənin azad edilməsi və ya onların icarəyə verilməsi;
- yüksək keyfiyyətli əsas fondların əldə edilməsi;

- xidmətedici heyətin ixtisas səviyyəsinin yüksəldilməsi;
- əsas fondların, xüsusilə onların aktiv hissəsinin vaxtında təzələnməsi;
- müəssisədə avadanlığın işinin növbəlilik əmsalının yüksəldilməsi;
- xammal və materialların istehsal prosesi üçün hazırlanmasının keyfiyyətinin yaxşılaşdırılması;
- istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi;
- iqtisadi cəhətdən məqsədəuyğun olan hallarda təmir xidmətlərinin mərkəzləşdirilməsi;
- istehsalın təmərküzləşdirilməsi, ixtisaslaşdırılması və kombinələşdirilməsi;
- yeni texnikanın və mütərəqqi texnologiyanın (aztullantılı, tullantısız, enerjiyə və yanacağa qənaət edən) tətbiqi;
- maşınların və avadanlığın işindəki boşdayanmaları və iş vaxtı itkilərini azaltmaq yolu ilə istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi.

Əsas istehsal fondlarından istifadənin yaxşılaşdırılması yolları bu və ya başqa vaxt anında müəssisədə yaranmış konkret şəraitdən asılıdır.

FƏSİL 3. MÜƏSSİSƏNİN DÖVRİYYƏ VƏSAİTLƏRİ

3.1. Dövriyyə vəsaitlərinin mahiyyəti, tərkibi və strukturu

İstehsal prosesinin ahəngdar və fasiləsiz gedişini təmin etmək üçün əsas istehsal fondları ilə yanaşı əmək predmetləri, maddi resurslar da lazımdır. Əmək predmetləri əmək vəsaitləri ilə birlikdə əmək məhsulunun, onun istehlak dəyərinin və dəyərinin yaradılmasında iştirak edir. Əmək predmetlərinin dövriyyəsi əmək prosesi və əsas istehsal fondları ilə üzvi surətdə bağlıdır. İstehsal fondlarının müəyyən hissəsini dövriyyə fondları təşkil edir. Dövriyyə fondları istehsal prosesinin məcburi elementi, məhsulun maya dəyərinin əsas hissəsidir. Məhsul vahidi üçün xammal, material, yanacaq və enerji sərfi nə qədər az olarsa, onların hasilatı və istehsalı üçün sərf olunmuş əmək daha qənaətlə işlənər, yəni məhsul bir o qədər ucuz başa gələr.

Müəssisədə kifayət qədər dövriyyə vəsaitlərinin olması bazar iqtisadiyyatı şəraitində onun normal fəaliyyəti üçün zəruri şərtdir.

Sənaye müəssisələrinin dövriyyə istehsal fondları dedikdə, bir istehsal tsiklində tamamilə sərf olunan, öz dəyərini hazır məhsulun üzərinə birdəfəlik və bütünlükdə keçirən və bu halda özünün natural formasını itirən əmək predmetləri başa düşülür.

Müəssisənin dövriyyə fondları üç hissədən ibarətdir:

- istehsal ehtiyatları;
- bitməmiş istehsal və özünün istehsalı olan yarımfabrikatlar;
- gələcək dövrlərin xərcləri.

İstehsal ehtiyatları istehsal prosesinə buraxılmaq üçün hazırlanmış əmək predmetləridir; onlar xammaldan, əsas və köməkçi materiallardan, yanacaqdan, satın alınmış yarımfabrikatlardan və komplektləşdirici məmulatlardan, tara və tara materiallarından, əsas fondların cari təmiri üçün ehtiyat hissələrindən ibarətdir.

Bitməmiş istehsal və özünün istehsalı olan yarımfabrikatlar istehsal prosesinə daxil olmuş əmək predmetlərini əhatə edir. Buraya daxildir: emal və ya yığılma prosesində olan materiallar, detallar, qovşaqlar və məmulatlar, eləcə də müəssisənin bir sexində istehsalı başa çatmamış və həmin müəssisənin digər sexlərində emala məruz qalacaq yarımfabrikatlar.

Gələcək dovrlərin xərcləri indi çəkilən, lakin gələcəkdə ödənilləcək xərcləri əhatə edir. Bu xərclərə daxildir: yeni məhsulun hazırlanması və mənimsənilməsi üçün lazım olan xərclər, səmərələşdirmə və ixtiralar üçün xərclər, layihəaxtarış işləri üçün xərclər, avadanlığın yerinin dəyişdirilməsi üçün xərclər və s.

Dövriyyə istehsal fondları öz hərəkətində tədavül dairəsinə xidmət edən tədavül fondları ilə əlaqədardır. Tədavül fondlarına aşağıdakılar daxildir: müəssisənin anbarında olan hazır məhsul; yüklənib göndərilmiş, lakin pulu ödənilməmiş məhsul (yolda olan məhsul); pul vəsaiti və məhsulun istehlakçıları ilə hesablaşmalarda olan vəsait, o cümlədən debitor borcları. Dövriyyə fondlarının və tədavül fondlarının yaradılması üçün nəzərdə tutulan pul vəsaitlərinin məcmusu müəssisənin dövriyyə vəsaitlərini təşkil edir. Deməli, dövriyyə vəsaitləri dövriyyə fondları ilə tədavül fondlarının pul ifadəsində məcmusundan ibarətdir.

Müəssisənin dövriyyə vəsaitlərinin tərkibini və strukturunu aşağıdakı kimi təsvir etmək olar(Şəkil 3.1.1):

Şəkil 3.1.1. Müəssisənin dövriyyə vəsaitlərinin tərkibi.

Dövriyyə vəsaitlərini təşkil edən elementlər onun tərkibini, həmin elementlərdən hər birinin xüsusi çəkisi (faizlə) isə dövriyyə vəsaitlərinin strukturunu əks etdirir.

Müəssisədə dövriyyə vəsaitlərinin strukturunu bilməklə və onu təhlil etməklə müəssisənin fəaliyyətinin bu və ya başqa dövründə maliyyə vəziyyətini xarakterizə etmək olar. Dövriyyə vəsaitlərinin strukturu sabit qalmır, bir çox səbəblərin təsiri ilə dinamikada dəyişilir.

Sənayenin müxtəlif sahələrinə məxsus müəssisələrdə dövriyyə vəsaitlərinin strukturu müxtəlif olur. Bu, aşağıdakı amillərdən asılıdır:

1. Müəssisənin xüsusiyyəti. İstehsal tsikli uzun olan müəssisələrdə (məsələn, gəmiqayırma) bitməmiş istehsal qalığının, dağ-mədən müəssisələrində isə gələcək dövrlərin xərclərinin payı daha böyükdür. Məhsul istehsalı prosesi çox tez başa çatan müəssisələrdə isə istehsal ehtiyatlarının xüsusi çəkisi çox olur.

2. Hazır məhsulun keyfiyyəti. Əgər müəssisədə aşağı keyfiyyətli məhsul buraxılırsa və istehlakçıların bu məhsula tələbi azdırsa müəssisənin anbarında hazır məhsulun payı kəskin surətdə artır.

3. İstehsalın təmərküzləşdirilməsi, ixtisaslaşdırılması, kooperativləşdirilməsi və kombinələşdirilməsi səviyyəsi.

4. Elmi-texniki tərəqqinin sürətləndirilməsi.

Dövriyyə vəsaitlərinin strukturuna başqa amillər də təsir edir. Qeyd etmək lazımdır ki, bu amillərdən bəziləri uzunmüddətli, digərləri isə qısamüddətli təsir xarakterinə malikdir.

Yaranması mənbələrinə görə dövriyyə vəsaitləri xüsusi və borc alınmış vəsaitlərə bölünür. Xüsusi vəsaitlər həmişə müəssisənin özünün resursları (mənfəət və s.) hesabına yaradılan vəsaitlərdir. Hərəkəti prosesində xüsusi dövriyyə vəsaitləri xüsusi vəsaitlərin bir hissəsi olan, əməyin ödənilməsi üçün avans götürülmüş, lakin müvəqqəti sərbəst olan vəsaitlər hesabına da örtülə (əvəz oluna) bilər. Bu vəsaitlər xüsusi vəsaitlərə bərabərləşdirilmiş vəsaitlər və ya dayanıqlı passivlər adlanır.

Borc alınmış dövriyyə vəsaitləri isə bank kreditlərindən, kreditor borclarından (kommersiya krediti) və sair passivlərdən ibarətdir.

Dövriyyə vəsaitləri normalaşdırılan və normalaşdırılmayan vəsaitlərə bölünür. Dövriyyə vəsaitlərinin təxminən 80%-i normalaşdırılır. Normalaşdırılan dövriyyə vəsaitləri

üçün yuxarı təşkilat müəyyən limit (norma) müəyyən edir. Müəssisədə dövriyyə vəsaitlərinin həmin normadan arıtq olması müəssisənin fəaliyyətinin lazımi səviyyədə qurulmadığını göstərir. Bütünlükdə dövriyyə fondları və müəssisənin anbarında olan hazır məhsul normalaşdırılır. Dövriyyə vəsaitlərinin yerdə qalan elementləri normalaşdırılmır.

3.2. Dövriyyə vəsaitlərinin dövranı və normalaşdırılması

Dövriyyə vəsaitləri həmişə hərəkətdə olur. Bir istehsal tsikli ərzində onların bir dövranı baş verir ki, bunu aşağıdakı kimi ifadə etmək olar:

$$\Pi - Ə...M...Ə' \rightarrow \Pi',$$

burada Π və Π' -dövriyyə vəsaitlərinin pul forması;

Ə və Ə'-əmtəə forması;

M –məhsuldar (bitməmiş istehsal) formasıdır.

Dövriyyə vəsaitlərinin dövranı cəmiyyətin iqtisadi qanunlarına uyğun olaraq baş verir. Bu zaman dövriyyə vəsaitləri formasını dəyişir. Dövriyyə vəsaitlərinin **dövranı üç mərhələni** əhatə edir.

Birinci mərhələdə müəssisələr pul vəsaitlərini əmək predmetlərinin alınmasına yönəldir. Bu mərhələdə dövriyyə vəsaitləri pul formasından əmtəə formasına, pul vəsaitləri isə tədavül dairəsindən istehsal dairəsinə keçir.

İkinci mərhələdə əldə edilmiş dövriyyə fondları bilavasitə istehsal prosesinə keçir və əvvəlcə istehsal ehtiyatlarına və yarımfabrikatlara, istehsal prosesi başa çatdıqdan sonra isə hazır məhsula (əmtəə forması) çevrilir.

Üçüncü mərhələdə isə hazır məhsul satılır. Nəticədə dövriyyə fondları istehsal dairəsindən tədavül dairəsinə keçir və yenidən pul formasına düşür. Bu vəsaitlər yeni əmək predmetlərinin alınmasına yönəldilir və yeni dövran başlanır və s. Lakin bu o demək deyildir ki, dövriyyə vəsaitləri dövranın bir mərhələsindən digərinə ardıcıl surətdə keçmir.

Əksinə onlar eyni vaxtda dövranın hər üç mərhələsində olur. Hər bir vaxt anında nə isə alınır, istehsal edilir, satılır və yenidən alınır... Məhsul istehsalının və satışının fasiləsizliyi və ahəngdarlığı məhz bununla təmin olunur.

Qeyd etmək lazımdır ki, dövriyyə vəsaitlərinin hər bir mərhələdən keçməsi vaxtları eyni deyildir. Bu, istehlak və texnoloji xassələrindən, onun istehsalı və satışı xüsusiyyətlərindən asılıdır.

Yuxarıda qeyd etdik ki, dövriyyə vəsaitlərinin bir hissəsi müvafiq qaydada normalaşdırılır. Dövriyyə vəsaitlərinin normalaşdırılması dedikdə, onların müəssisədə istehsal prosesinin normal gedişi üçün lazım olan minimal və kafi miqdarı başa düşülür. Planlı iqtisadiyyat zamanı yuxarı təşkilat müəssisələr üçün dövriyyə vəsaitlərinin ümumi normativini müəyyən edirdi. Bu halda müəssisələr həmin normativə nəzarət etməyə məcbur idilər.

Bazar iqtisadiyyatına keçildikcə müəssisələrdə dövriyyə vəsaitləri üzrə normativi heç kim qoymur və nəzarət etmir. Lakin bu o demək deyildir ki, bazar şəraitində müəssisələr dövriyyə vəsaitlərinə özləri normativi müəyyən etməməli və bu iş nəzarətdən kənarda qalmalıdır. Bazar münasibətləri şəraitində dövriyyə vəsaitlərinin normalaşdırılmasının əhəmiyyəti kəskin şəkildə artır, çünki son nəticədə bu, müəssisənin tədiyyə qabiliyyəti və maliyyə vəziyyəti ilə əlaqədardır.

Dövriyyə vəsaitlərinin ümumi normativi ($H_{üm}$) xüsusi normativlərin məbləğindən ibarətdir:

$$N_{üm} = H_{u.e} + H_{\delta.i} + H_{h.m} + H_{g.x},$$

burada $H_{u.e}$ - istehsal ehtiyatları normativi;

$N_{\delta.i}$ - bitməmiş istehsal normativi;

$N_{h.m}$ - hazır məhsul normativi;

$H_{g.x}$ - gələcək dövrlərin xərclərinin normatividir.

İstehsal ehtiyatları normativi aşağıdakı düsturla hesablanır:

$$H_{u.e} = Q_{sut}(H_{c.e} + H_{t.e} + H_{sığ}),$$

burada Q_{sut} - materialların orta sutkalıq istehlakı;

$H_{c..}$ - cari ehtiyat norması, gün;

$H_{t.e}$ - texnoloji (hazırlıq) ehtiyatı norması, gün;

$H_{sığ}$ - sığorta ehtiyatı normasıdır, gün.

Cari ehtiyat materialların müəssisəyə gətirilməsi dövrləri arasında istehsalın normal gedişini təmin etmək üçün lazım olan xammal və material ehtiyatını əks etdirir. Maşınqayırma müəssisələrində bu ehtiyat 20-30 günə bərabərdir.

Texnoloji (hazırlıq) ehtiyatı materiallar müəssisəyə daxil olduqdan sonra onların istehsal prosesinə buraxılması üçün vaxt tələb olunan hallar (qurutma, biçilmə, təbii və ya süni köhnəlmə) üçün yaradılır. Bu ehtiyatın ölçüsü texnoloji proseslərin xarakterindən asılı olur.

Müəssisənin materiallarla təchizatı zamanı baş verən ləngimələrin təsirini aradan qaldırmaq və istehsal prosesinin normal gedişini təmin etmək məqsədilə sığorta ehtiyatı yaradılır. Bu ehtiyatın ölçüsü 3-5 gün olur.

Bəzi müəssisələrdə mövsümi ehtiyat da yaradılır.

Bitməmiş istehsal normativini hesablamaq üçün aşağıdakı düsturdan istifadə olunur:

$$H_{b.i} = V_{sut} \cdot T_{ts} \cdot K_{x.a},$$

burada V_{sut} - istehsal maya dəyərinə görə məhsul buraxılışının plan həcmi;

T_{ts} -istehsal tsiklinin uzunluğu;

$K_{x.a}$ -xərclərin artması əmsalıdır.

Bərabər həcmdə məhsul buraxan müəssisələrdə xərclərin artımı əmsalı aşağıdakı kimi müəyyən edilir:

$$K_{x.a} = \frac{a + 0{,}5b}{a + b},$$

burada a -istehsal prosesinin əvvəlində çəkilən birdəfəlik xərclər;

b -hazır məhsul istehsalı başa çatanadək çəkilən sonrakı xərclərdir.

Beləliklə, bitməmiş istehsalda olan dövriyyə vəsaitlərinin normativi sutkalıq məhsul buraxılışının həcmindən, istehsal tsiklinin uzunluğundan və xərclərin artması əmsalından asılıdır. O, məmulatın hazırlıq dərəcəsini xarakterizə edir və bitməmiş istehsalın maya dəyərinin hazır məhsulun maya dəyərinə nisbəti kimi müəyyən edilir.

Hazır məhsul ehtiyatındakı dövriyyə vəsaitləri normativi aşağıdakı düsturla tapılır:

$$H_{h.m} = B_{sut}(T_{f.p} + T_p),$$

burada B_{sut} - istehsal maya dəyərinə görə hazır məhsulun sutkalıq buraxılışı;

$T_{f.p}$ -istehlakçıya göndərmək üçün hazır məhsul partiyasının hazırlanması (formalaşdırılması) üçün lazım olan vaxt, gün;

T_p -yüklərin istehlakçıya göndərilməsi sənədlərinin rəsmiyyətə salınması üçün lazım olan vaxtdır, gün.

Müəssisədə dövriyyə vəsaitlərinin normalaşdırılması və müəyyən olunmuş normativlərə nəzarət bütünlükdə müəssisənin idarə edilməsinin mühüm tərkib elementlərindən biridir. Orta və iri müəssisələr üçün bu problem daha aktualdır.

3.3. Dövriyyə vəsaitlərindən istifadə göstəriciləri və onların dövretməsinin sürətləndirilməsi yolları

Müəssisələrdə dövriyyə vəsaitlərindən istifadəni xarakterizə etmək üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

1. Dövriyyə vəsaitlərinin dövr etməsi əmsalı ($K_д$). Bu əmsal təhlil olunan dövrdə (rüb, yarım il, il) dövriyyə vəsaitlərinin neçə dəfə dövr etdiyini göstərir və aşağıdakı düsturla hesablanır:

$$K_d = \frac{V_p}{O_{op}},$$

burada V_p -hesabat dövründə məhsul satışının (reallaşdırılmasının) həcmi;

O_{op} -hesabat dövründə dövriyyə vəsaitlərinin orta qalığıdır.

2. Bir dövrün uzunluğu (günlərlə) (D). Bu, dövriyyə vəsaitlərinin məhsulun satışından əldə edilən gəlir kimi müəssisəyə hansı müddətdə qayıtdığını əks etdirir. Onu aşağıdakı düsturla təiyn etmək olar:

$$D = \frac{T}{K_d} \quad \text{və ya} \quad D = \frac{TO_{op}}{V_p},$$

burada T - hesabat dövründəki günlərin sayıdır.

3. Dövriyyədə olan vəsaitlərin yüklənməsi əmsalı (K_j). Bu əmsal məhsulun satışından əldə edilən gəlirin bir manatı üçün sərf olunmuş dövriyyə vəsaitlərinin məbləğini əks etdirir. Başqa sözlə, dövriyyə fondtutumunu, daha doğrusu, satılmış məhsulun (işin, xidmətin) bir manatı üçün dövriyyə vəsaitlərinin sərfini (qəpiklərlə) göstərir. O, aşağıdakı düsturla hesablanır:

$$K_j = \frac{O_{op}}{V_p} \cdot 100,$$

burada 100 - manatın qəpiklərə çevrilməsidir.

Dövriyyədə olan vəsaitlərin yüklənməsi əmsalı dövretmə əmsalının tərsidir. Vəsaitlərin yüklənməsi əmsalı nə qədər aşağı olarsa, müəssisədə dövriyyə vəsaitlərindən bir o

qədər yaxşı istifadə olunur, müəssisənin maliyyə vəziyyəti yaxşılaşır.

Dövriyyə vəsaitlərindən istifadənin yaxşılaşdırılması onların dövretməsi sürətinin artırılmasından çox asılıdır. Dövriyyə vəsaitlərinin dövretməsi aşağıdakı yollarla sürətləndirilə bilər:

1) əsas məhsulun istehsalı tsiklinin qısaldılması;
2) müəssisənin anbarında material ehtiyatlarının ixtisar edilməsi;
3) satılmayan məhsulun keçici qalığının ixtisar edilməsi;
4) istehsalın ahəngdarlığının təmin edilməsi;
5) məhsul satışının həcminin artırılması.

FƏSİL 4. MÜƏSSİSƏNİN ƏMƏK RESURSLARI

4.1. Müəssisənin kadrları, onların tərkibi və strukturu

Müəssisənin əmək resursları müəssisə rəhbərliyinin daimi qayğısının obyektidir. Bazar münasibətləri şəraitində əmək resurslarının rolu əhəmiyyətli dərəcədə artmışdır. İstehsalın investisiya xarakteri, onun yüksək elmtutumuna malik olması, məhsulun keyfiyyəti məsələlərinə üstünlük verilməsi əməyə yaradıcı münasibətin və yüksək peşəkarlığın əhəmiyyətini artırmış, işçilərə tələbkarlığı kökündən dəyişdirmişdir. Bütün bunlar müəssisədə heyətin idarə edilməsi prinsinlərində, metodlarında və sosial-psixoloji məsələlərdə xeyli dəyişikliklərə gətirib çıxarmışdır.

Əmək kollektivinin düzgün seçilməsi sahibkarın əsas vəzifələrindən biridir. Bu, müəssisə rəhbərliyinin fikirlərini dərk etmək, anlamaq və həyata keçirmək əzminə malik olan həmfikirlər və tərəfdaşlar komandası olmalıdır. Yalnız belə bir əmək kollektivi sahibkarlıq fəaliyyətinin müvəffəqiyyətinin, müəssisənin möhkəmlənməsinin və çiçəklənməsinin rəhni ola bilər.

Əmək münasibətləri müəssisənin işinin ən mürəkkəb tərəflərindən biridir. Texniki və texnoloji nasazlıqları aradan qaldırmaq dəfələrlə asandır, nəinki kollektivdə baş verən münaqişə vəziyyətlərini həll etmək. Çünki bu halda fərdi meylləri, şəxsi keyfiyyətləri və psixoloji amilləri nəzərə almaq lazım gəlir.

Müəssisə qarşısında nə qədər böyük texniki imkanlar təşkilatı-idarə üstünlükləri açılsa da müvafiq insan resursu olmasa səmərəli fəaliyyət göstərə bilməz. Axı son nəticədə hər şey adamlardan, onların ixtisasından, işləmək qabiliyyətindən və marağından asılıdır. Təsadüfi deyil ki, qərb mütəxəssisləri müəssisənin strukturuna cisim və insan kapitallarının məcmusu kimi baxırlar.

Yeni istehsal sistemləri təkcə səhvsiz işləyən mükəmməl maşın və mexanizmləri deyil, həmçinin sıx qarşılıqlı əlaqədə işləyə biləcək, hər an yeni ideyaları hazırlamağa və həyata keçirməyə qadir olan adamları da əhatə edir. Rəqabət qabiliyyətinin, iqtisadi artımın və səmərəliliyin məhək daşı zadovlar, avadanlıq və istehsal ehtiyatları deyil, məhz insan kapitalıdır.

Müəssisənin işinin səmərəliliyinə insan amilinin təsirinin əsas tərəfləri aşağıdakılardır:

– kadrların seçilməsi və irəli çəkilməsi;

– kadrların hazırlanması və onların fasiləsiz öyrədilməsi;

– işçilərin tərkibinin sabitliyi və çevikliyi;

– işçilərin əməyinin maddi və mənəvi qiymətləndirilməsinin təkmilləşdirilməsi.

İşçinin seçilməsi və irəli çəkilməsinin iki başlıca kriterisi mövcüddür: 1) yüksək peşə-ixtisas səviyyəsi və təhsilini artırmaq qabiliyyəti; 2) ünsiyyət təcrübəsi və əməkdaşlığa hazır olmaq.

Kadrlar seçilərkən əmək müqaviləsi və ya kontrakt mühüm əhəmiyyət kəsb edir. Bu, bilavasitə sahibkarla işə düzələn şəxs arasındakı razılıqdır. Kontrakt sistemi xaricdə geniş yayılıb və ölkəmizin təcrübəsində də tətbiq olunmaqdadır. Əmək müqaviləsində əmək funksiyaları, iş yeri, vəzifə öhdəlikləri, ixtisası, peşəkarlıq səviyyəsi, vəzifənin adı, əmək haqqının ölçüsü və işin başlanması vaxtı göstərilir. Müddətinə görə əmək müqavilələri müxtəlifdir: üç ilədək; müəyyən işin yerinə yetirilməsi müddətinədək və qeyri-müəyyən müddət üçün.

Əmək müqaviləsindən fərqli olaraq podrat müqaviləsi müqavilədə göstərilən qiymətin müqabilində müəssisənin tapşırığı üzrə işin yerinə yetirilməsini nəzərdə tutur. Ödəniş sərf olunmuş əməyin kəmiyyət və keyfiyyətindən asılı olmayaraq son nəticəyə görə həyata keçirilir.

Müəssisədə işləyənlər iki kateqoriyaya bölünür:

1) istehsal və ona xidmətlə məşğul olan sənaye-istehsal heyəti;

2) qeyri-sənaye təşkilatlarının heyəti (buraya əsasən müəssisənin sərəncamında olan mənzil-kommunal təsərrüfatı, uşaq və həkim-sanitar müəssisələri və digər qeyri-sənaye obyektlərinin işçiləri daxildir).

Sənaye-istehsal heyəti də öz növbəsində fəhlələrə (kiçik xidmət heyəti və mühafizəçilər də daxil olmaqla), mütəxəssislərə və rəhbərlərə, eləcə də qulluqçulara bölünür.

Fəhlələrə müəssisənin bilavasitə maddi dəyərlilərinin yaradılması və ya istehsal və nəqliyyat xidmətlərinin göstərilməsi ilə məşğul olan işçiləri daxildir. Fəhlələr əsas və köməkçi fəhlələrə bölünürlər. Əsas fəhlələr bilavasitə məhsul istehsalı ilə məşğul olanları, köməkçi fəhlələr isə istehsala xidmət edənləri əhatə edir. Qeyd etmək lazımdır ki, bu bölgü sırf şərtidir, çünki təcrübədə bəzən onları fərqləndirmək mümkün olmur. Onların nisbəti müəssisənin işinin analitik göstəricisidir.

Əsas fəhlələrin sayı əmsalı ($K_{o.p}$) aşağıdakı düsturla müəyyən edilir:

$$K_{o.p}=1 - P_{b.p}/P_p,$$

burada $P_{b.p}$ - müəssisədə olan köməkçi fəhlələrin orta siyahı sayı, nəfər;

P_p - müəssisədə olan bütün fəhlələrin sayıdır, nəf.

Mütəxəssislər və rəhbərlər istehsal proseslərinin təşkilini və onlara rəhbərliyi həyata keçirirlər.

Mütəxəsislərə daxildir: mühasiblər, iqtisadçılar, texniklər, mexaniklər, sosioloqlar, rəssamlar, əmtəəşünaslar, texnoloqlar, konstruktorlar və s.

Rəhbərlərə isə xətti və funksional rəhbərlər daxildir. Xətti rəhbərlərə istehsal bölmələrinin, müəssisələrin, birliklərin, sahələrin kollektivlərinə rəhbərlik edən şəxslər və onların müavinləri aiddir. Funksional rəhbərlərə isə funksional xidmətlərin (şöbələr, idarələr) başçıları və onların müavinləri daxildir. İdarəetmə sistemində tutduğu səviyyəyə görə aşağı, orta və yuxarı səviyyə rəhbərlərini fərqləndirirlər.

Qulluqçulara aiddir: təchizat agentləri, makinaçılar, katibə-makinaçılar, xəzinədarlar, kargüzarlar, tabelçilər, ekspeditorlar və s.

İşçinin ixtisas dərəcəsi xüsusi biliklərin və təcrübi vərdişlərin səviyyəsi ilə müəyyən edilir və onun yerinə yetirdiyi konkret iş növünün mürəkkəbliyi dərəcəsini xarakterizə edir. Qabiliyyətin, fiziki və psixi keyfiyyətlərin bu və ya başqa peşə uyğunluğu işçinin peşə yararlılığını əks etdirir.

Müəssisədə işçilərin siyahı sayını və həqiqi sayını fərqləndirmək lazımdır. İşçilərin siyahı sayı müəssisənin ştatında olan bütün işçilərin sayını əks etdirir. İşçilərin həqiqi sayı isə həqiqətən işə çıxanları, müəssisənin işi ilə əlaqədar ezamiyyətdə olanları və dövlət tapşırıqlarının yerinə yetirilməsi ilə əlaqədar işdə olmayanları əhatə edir.

Yuxarıdakı kateqoriyalar üzrə təsnifat kadrların tərkibini əks etdirir. Hər bir kateqoriyadan olan kadrların ümumi kadların sayında tutduğu yer (xüsusi çəki) kadrların strukturu adlanır:

$$dP_i=P_i/P, \text{ və ya } P_i=(P_i x100)/P ,$$

burada P_i - i-ci kateqoriyadan olan işçilərin orta siyahı sayı, nəfər;

P - bütün işçilərin orta siyahı sayıdır, nəfər.

Kadrların strukturu hər bir bölmə üzrə təyin və təhlil edilir. Eləcə də kadrların strukturuna müxtəlif əlamətlər (yaş, normanın yerinə yetirilməsi dərəcəsi və s.) üzrə də baxıla bilər.

Müəssisədə kadrların strukturuna bir sıra amillər təsir edir: istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi; istehsal tipi; müəssisənin ölçüləri; təsərrüfatçılığın təşkilati-hüquqi forması; buraxılan məhsulun mürəkkəbliyi və elmtutumluluğu; müəssisənin sahə mənsubiyyəti və s.

Müəssisədə kadr siyasəti sənaye-istehsal heyətinin bütün kateqoriyalarının optimal əlaqələndirilməsinə yönəldilməlidir.

Say tərkibinə və ixtisas səviyyəsinə görə əmək kollektivi sabit kəmiyyət deyildir. O, həmişə dəyişilir: işçilərin bir qismi işdən çıxır, digər qismi işə qəbul edilir. Bu qəbildən olan dəyişikliklər kadr axıcılığı ilə xarakterizə olunur.

Müəssisədə kadrların vəziyyəti aşağıdakı əmsalların köməyi ilə müəyyən oluna bilər:

1. Kadrların işdən çıxması əmsalı ($K_{b.k}$). Bu əmsal müəyyən dövr ərzində bütün səbəblərə görə işdən azad olunanların sayının (P_{yb}) həmin dövr üçün işçilərin orta siyahı sayına (P) nisbəti kimi hesablanır:

$$K_{b.k}=P_{yb}/P\cdot 100\ ,\ (\%).$$

2. Kadrların qəbul edilməsi əmsalı ($K_{n.k}$). Bu əmsal müəyyən dövr ərzində işə qəbul edilən işçilərin sayının (P_n) həmin dövrdə bütün işçilərin orta siyahı sayına (P) nisbəti kimi hesablanır:

$$K_{n.k}=(Pn/P)\cdot 100.$$

3. Kadrların sabitliyi əmsalı ($K_{c.k}$). Bu əmsaldan bütünlükdə müəssisənin, eləcə də onun ayrı-ayrı bölmələrinin idarə edilməsi səviyyəsini qiymətləndirmək üçün istifadə oluna bilər. Əmsal aşağıdakı düsturla hesablanır:

$$K_{c.k}=1-P'_{yb}/P+Pn\ ,$$

burada P'_{yb} - hesabat dövründə öz xahişi ilə və əmək intizamını pozduğuna görə müəssisədən işdən çıxarılanların sayı, nəfər;

P_n - hesabat dövründə işə yeni qəbul olunan işçilərin sayı, nəfər;

P - hesabat dövründən əvvəlki dövrdə müəssisədəki işçilərin orta siyahı sayıdır (nəfər).

4. Kadr axıcılığı əmsalı ($K_{t.k}$). Bu əmsalı hesablamaq üçün müəyyən dövr ərzində işdən getmiş (ölənlər, təqaüdə gedənlər, işdən çıxarılanlar və s.) işçilərin sayını (P_{yb}) həmin

dövrdə müəssisənin işçilərinin orta siyahı sayına (P) bölmək lazımdır:

$$K_{t.k}=(P_{yb}/P)\cdot 100.$$

Müəssisədə kadr axıcılığının qarşısını almaq üçün geniş miqyaslı təşkilati, iqtisadi və sosial tədbirləri həyata keçirmək lazımdır. Bu məsələ rəhbərliyin həmişə diqqət mərkəzində olmalıdır.

4.2. Əməyin təşkili və normalaşdırılması

Müasir şəraitdə müəssisənin əmək kollektivinin formalaşmasına yeni münasibət tətbiq olunmalıdır. Bu halda müəssisə kollektivinin əməyinin və idarə edilməsinin təşkili aşağıdakı məsələləri əhatə etməlidir:

– natamam məşğulluq şəraitində əməkdaşların muzdla tutulması;

– mövcud istehsal sisteminə uyğun olaraq işçilərin yerləşdirilməsi;

– işçilər arasında vəzifələrin bölüşdürülməsi;

– kadrların hazırlanması və yenidən hazırlanması;

– əməyin stimullaşdırılması;

– əməyin təşkilinin təkmilləşdirilməsi;

– müxtəlif səbəblərə görə müəsssisədə artıq qalmış işçilərə qayğı.

Qeyd etmək lazımdır ki, əmək kollektivi mövcud istehsal prosesləri sisteminə uyğunlaşma qabiliyyətinə malik olmalıdır. İstehsal prosesləri sisteminin strukturu əməyin təşkilinin elmi prinsiplərinə əsaslanmalıdır. Həmin prinsiplərə aşağıdakıları aid etmək olar:

1) istehsal prosesinin məqsədəuyğun şəkildə parçalanması əsasında əmək bölgüsünün dərinləşdirilməsi və əmək kooperasiyasının yaxşılaşdırılması;

2) fəhlələrin peşə-ixtisas tərkibinin səmərəli seçilməsi və onların yerləşdirilməsi;

3) əməyin ən səmərəli metodlarının və fəndlərinin hazırlanması və tətbiqi yolu ilə əmək proseslərinin təkmilləşdirilməsi;

4) hər bir xidmət funksiyasını dəqiq reqlamentləşdirmək yolu ilə iş yerlərinə xidmətin yaxşılaşdırılması;

5) kollektiv işin səmərəli formalarının tətbiqi, çoxaqreqatlı xidmətin və peşələrin əvəzlənməsinin inkişaf etdirilməsi;

6) ehtiyatlardan istifadə edilməsi, əmək məsrəflərinin azaldılması və avadanlığın işinin ən səmərəli rejimləri əsasında əməyin normalaşdırılmasının təkmilləşdirilməsi;

7) müntəzəm istehsal təlimatlarının təşkili və keçirilməsi, fəhlələrin ixtisasının artırılması, təcrübə mübadiləsi və qabaqcıl əmək metodlarının yayılması;

8) sanitar-gigiyenik, psixofizioloji və estetik baxımdan daha əlverişli əmək şəraitinin yaradılması, işin təhlükəsizliyinin təmin edilməsi, istehsalda səmərəli iş qrafikinin, əmək və istirahət rejimlərinin tətbiq edilməsi.

Bu prinsiplərin həyata keçirilməsinin səmərəliliyini əks etdirən ümumiləşdirici göstəricilərə aşağıdakıları aid etmək olar:

– əmək məhsuldarlığının artımı;

– sanitar-gigiyenik və psixofizioloji əmək şəraitinin vəziyyətindən razılıq;

– əməyin məzmunundan və onun cəlbedici olmasından razılıq.

Bazar iqtisadiyyatı şəraitində əməkdaşların müzdla işə götürülməsi təhsil müəssisələri ilə daimi əlaqəni, işə qəbul zamanı ərizə və zəmanət sistemindən istifadəni, imtahan və müsahibələrin aparılmasını, zəmanət və rəylərin qiymətləndirilməsini, sınaq müddətlərinin müəyyən edilməsini nəzərdə tutmaq lazımdır. Müəssisəyə kadrların cəlb edilməsinin əsas mənbələri bütün növlərdən olan tədris müəssisələri, oxşar peşələrə malik müəssisələr və əmək birjalarıdır. Müəssisələrdə əmək ehtiyatlarına tələbat təbii itkilər və istehsalın inkişafı zamanı yaranır.

Fəhlələrin yerləşdirilməsi və onlar arasında məsuliyyətlərin bölüşdürülməsi yaranmış əmək bölgüsü sisteminə əsaslanır. Əmək bölgüsünün aşağıdakı formaları daha geniş yayılmışdır:

1. Texnoloji, yəni işlər, peşələr və ixtisaslar üzrə əmək bölgüsü.

2. Əməliyyatlar üzrə, yəni texnoloji prosesin ayrı-ayrı əməliyyatları üzrə əmək bölgüsü.

3. Yerinə yetirilən işlərin funksiyaları üzrə, yəni əsas, köməkçi və yardımçı funksiyalar üzrə əmək bölgüsü.

4. İxtisas, yəni işçilərin ixtisaslarına uyğun olan əmək bölgüsü.

Müəssisədə əməyin düzgün təşkili üçün bu və ya başqa işin yerinə yetirilməsinə nə qədər əmək məsrəfləri lazım olduğunu bilmək, başqa sözlə, hər bir işçinin əmək məsrəfləri ölçüsünü, daha doğrusu, əmək normasını müəyyən etmək lazımdır. Əməyin normalaşdırılması mövcud istehsal şəraitində konkret işin və ya əməliyyatın yerinə yetirilməsi üçün maksimal vaxt miqdarının (vaxt vahidi (saat, növbə) ərzində hazırlanan məhsulun minimal mümkün miqdarının) təyin edilməsidir.

Müəssisədə əməyin normalaşdırılması əməyin və əmək haqqının düzgün təşkilinin əsasıdır. O, mütərəqqi, texniki əsaslandırılmış normalar əsasında aparılmalıdır.

Əməyin normalaşdırılmasının təcrübi-statistik və analitik metodlarını fərqləndirirlər. Analitik metod daha mütərəqqidir, çünki o, normaların hazırlanmasına elmi yanaşmanı nəzərdə tutur. Təcrübi-statistik metodlar isə yalnız ötən dövrlərdə myəssisədə yaranmış vəziyyəti əks etdirir və ona yeni dövr üçün müqayisə bazası kimi baxılır.

Analitik metod aşağıdakı əməliyyatları əhatə edir:

– tərkib elementlərinə bölünməklə əmək prosesinin tədqiq edilməsi;

– əmək məsrəflərinə təsir edən bütün amillərin öyrənilməsi;

– əməliyyatın daha mükəmməl tərkibinin və onun yerinə yetirilməsi metodlarının layihələndirilməsi;

– iş yerinə xidmətin yaxşılaşdırılması tədbirlərinin hazırlanması;

– işin yerinə yetirilməsi üçün vaxtın hesablanması;

– normaların istehsalata tətbiqi.

Analitik metod analitik-hesablama və analitik-tədqiqat metodlarına bölünür. Birinci halda hazır vaxt normalarından istifadə olunur. İkinci halda isə iş vaxtının müşahidə metodları ilə bilavasitə öyrənilməklə normalar hazırlanır. Müşahidə metodları aşağıdakılardır: xronometraj, iş gününün fotoloşdırılması, ani müşahidələr, fotoxronometraj, kino çəkilişi və s.

Xronometraj - hər bir məmulatın istehsalı üçün əməliyyatın ayrı-ayrı, təkrar olunan elementlərinin uzunluğunu müşahidə etmək və ölçmək yolu ilə operativ vaxt məsrəflərinin öyrənilməsi metodudur.

İş gününün fotolaşdırılması isə bütün iş gününün və ya onun bir hissəsinin bütünlükdə öyrənilməsini əks etdirir, daha doğrusu, zəngdən-zəngədək işçinin bütün fəaliyyəti qeyd olunur, sanki fotosu çəkilir.

Müşahidə üsulları vaxt normasını aşkar etməyə və əsaslandırmağa imkan verir. Vaxt norması məhsul vahidinin istehsalı və ya müəyyən işin yerinə yetirilməsi üçün ayrılmış vaxtı əks etdirir. Vaxt norması müəyyən edilərkən növbə ərzində iş vaxtından necə istifadə olunduğunu və vaxt məsrəflərinin tərkibini bilmək lazımdır. İş yerində sərf edilən bütün iş vaxtı normalaşdırılan və normalaşdırılmayan vaxta bölünür. Əməliyyatın, istehsal tapşırığının yerinə yetirilməsi üçün lazım olan vaxt normalaşdırılan vaxt adlanır. Bu vaxt bütündükdə vaxt normasının tərkibinə daxil edilir. Normalaşdırılmayan vaxt isə müxtəlif texniki və təşkilati na-

sazlıqlar baş verdikdə yaranır və vaxt normasına daxil edilmir.

İş vaxtı məsrəflərini aşağıdakı kimi təsvir etmək olar: (Şəkil 4.2.1)

Şəkil 4.2.1. İş vaxtı məsrəflərinin təsnifatı

Vaxt norması adam-saat və ya adam-dəqiqə ilə müəyyən edilir.

İşlər əl, maşın-əl və maşın ilə yerinə yetirilən zaman vaxt norması aşağıdakı düsturla hesablanır:

$$t_n=t_o+t_b+t_{ob}+t_{n-z}+t_{ot}+t_{n.t.}$$

burada $t_{n.t}$ - texnologiyada və istehsal prosesinin təşkilində nəzərdə tutulan və ləğv edilməsi mümkün olmayan fasilələr vaxtıdır.

Müəssisələrdə normalara vaxtaşırı yenidən baxılır. Bu iş həm müdiriyyətin planı, həm də fəhlələrin təşəbbüsü ilə həyata keçirilə bilər.

4.3. Əmək məhsuldarlığı, onun artırılması amilləri və ehtiyatları

Müəssisədə əmək resurslarından səmərəli istifadə əmək məhsuldarlığının dəyişilməsində ifadə olunur. Əmək məhsuldarlığı vaxt vahidi ərzində istehsal olunmuş məhsulun miqdarı və ya məhsul vahidinin istehsalı üçün sərf edilmiş vaxtın miqdarı ilə ölçülən kəmiyyətdir. Canlı və ictimai əmək məhsuldarlığını fərqləndirmək lazımdır.

Canlı əmək məhsuldarlığı müəyyən bir istehsalda, müəssisədə çəkilmiş iş vaxtı məsrəfləri ilə müəyyən edilir. İctimai əmək məhsuldarlığı isə canlı və cisimləşmiş əmək məsrəfləri ilə ölçülür. Elmi-texniki tərəqqi və istehsalın təkmilləşdirilməsi nəticəsində ictimai əmək məsrəflərinin payı artır, çünki işçilərin ən yeni əmək vasitələri ilə təchizatı səviyyəsi artır.

Lakin əsas meyl belədir ki, məhsul vahidi üçün istər canlı, istərsə də ictimai əmək məsrəflərinin mütləq kəmiyyəti azalır. İctimai əmək məhsuldarlığının mahiyyəti də məhz bundadır.

Əmək məhsuldarlığının səviyyəsi iki göstərici ilə xarakterizə olunur:

1) vaxt vahidi ərzində məhsulun hasilatı (müstəqim göstərici);

2) hazırlanan məhsulun əmək tutumu (əks göstərici).

Bu göstəricilər aşağıdakı düsturlarla hesablana bilər:

$$b=B/T, \quad t=T/B,$$

burada b - vaxt vahidi ərzində məhsulun hasilatı;

t - məhsulun hazırlanmasının əmək tutumu;

B - istehsal olunmuş məhsulun həcmi, man.;

T - məhsulun istehsalı üçün canlı əmək məsrəfləri, man.

Məhsulun hasilatı əmək məhsuldarlığının ən geniş yayılmış və universal göstəricisidir. Məhsulun həcminin hansı göstəricilərlə ifadə olunmasından asılı olaraq hasilat **natural, dəyər və normalaşdırılmış** iş vaxtı göstəriciləri ilə müəyyən edilir.

Natural göstəricilərdə ifadə olunmuş hasilat əmək məhsuldarlığını daha əyani xarakterizə edir. Bu halda ölçü vahidləri kimi ton, metr, ədəd və s. götürülür. Bunlar həmcins məhsul buraxan müəssisələr üçün xarakterikdir. Əgər müəssisə və ya sex bir neçə növdən və ya markadan olan həmcins məhsul buraxırsa, onda hasilat şərti vahidlərlə ifadə olunur (məsələn, sement şərti-portlandsementə gətirilir və s.).

Müxtəlif məhsul istehsal edən müəssisələrdə əmək məhsuldarlığını müəyyən etmək üçün dəyər ifadəsindən istifadə olunur.

Normalaşdırılmış iş vaxtından istifadə olunarkən norma-saatlardan istifadə olunur. Bu göstəricidən əsasən ayrı-ayrı iş yerlərində, briqadalarda, istehsal sahələrində və sexlərdə müxtəlif və istehsalı başa çatmamış məhsul buraxılışını ölçmək üçün istifadə olunur. Çünki belə halda həm natural, həm də dəyər göstəricilərindən istifadə etmək qeyri-mümkündür.

Hasilat göstəricisi iş vaxtının ölçü vahidindən asılı olaraq saatlıq, günlük, aylıq, rüblük və illik ola bilər.

Məhsulun əmək tutumu məhsul vahidinin istehsalı üçün iş vaxtı məsrəflərini ifadə edir. Əmək tutumu məmulatların və xidmətlərin bütün nomenklaturası üzrə natural ifadədə məhsul vahidi üçün müəyyən edilir. Müəssisədə məhsulun çeşidi böyük olduqda tipik məmulatlara görə müəyyən edilir, yerdə qalan bütün məmulatlar tipik məmulata gətirilir. Hasilat göstəricisindən fərqli olaraq əmək tutumu göstəricisinin bir sıra üstünlükləri vardır: istehsalın

həcmi ilə əmək məsrəfləri arasında birbaşa asılılığı yaradır; kooperasiya üzrə malgöndərişlərinin həcmindəki dəyişikliklərin əmək məhsuldarlığına təsirini aradan qaldırır; əmək məhsuldarlığının ölçülməsini onun artımı ehtiyatlarının aşkar edilməsi ilə sıx əlaqələndirməyə imkan verir; müəssisənin müxtəlif sexlərində eyni məmulatlar üçün əmək məsrəflərini müqayisə etməyə imkan verir.

Daxil edilən əmək məsrəflərinin tərkibindən asılı olaraq əməktutumunun aşağıdakı növlərini fərqləndirirlər:

– texnoloji əməktutumu əsas fəhlələrin, işəmuzdçuların və vaxtamuzdçuların bütün xərclərini (t_{tex}) əhatə edir;

– istehsala xidmətin əməktutumu köməkçi fəhlələrin əmək məsrəflərini (t_{obs}) əhatə edir;

– istehsal əməktutumu - bütün fəhlələrin həm əsas, həm də köməkçi əmək məsrəfləri;

– istehsalın idarə edilməsinin əməktutumu (buraya mühəndis-texniki işçilərin (MTİ), qulluqçuların, xidmətedici heyətin və mühafizəçilərin əmək məsrəfləri daxildir), t_{upr};

– tam əməktutumu (sənaye-istehsal heyətinin bütün kateqoriyalarının əmək məsrəfləri) t_{pol}:

$$t_{pol}=t_{tex}+t_{obs}+t_{upr}$$

Müəssisədə analitik işin mühüm mərhələsi əmək məhsuldarlığının artırılması ehtiyatlarının axtarışı, bu ehtiyatların həyata keçirilməsi üçün təşkilati-texniki tədbirlərin hazrlanması və həmin tədbirlərin bilavasitə tətbiqidir. Əmək məhsuldarlığının artırılması ehtiyatları dedikdə, canlı və cisimləşmiş əmək məsrəflərinə qənaətin hələ istifadə olunmamış imkanları başa düşülür. İstehsaldaxili ehtiyatlar texnikadan və iş qüvvəsindən daha səmərəli istifadədən, iş vaxtının ixtisar edilməsindən, xammal və materiallara qənaətdən, avadanlıqdan səmərəli istifadədən asılıdır. İstehsaldaxili ehtiyatlar əməktutumunun aşağı salınması ehtiyatları, iş vaxtının yaxşılaşdırılması və ondan istifadə ehtiyatları, kadrların strukturunun təkmilləşdirilməsi ehtiyatları, əmək predmetlərinə qənaət ehtiyatları və əmək vasitələrinə qənaətin ehtiyatları daxildir.

Əmək məhsuldarlığının artırılmasına bir sıra amillər təsir edir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

I. İstehsalın texniki səviyyəsinin yüksəldilməsi (istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması; avadanlığın yeni növlərinin tətbiqi; yeni texnoloji proseslərin tətbiqi; məmulatların konstruktiv xüsusiyyətlərinin yaxşılaşdırılması; xammalın və yeni konstruksiya materiallarının keyfiyyətinin yaxşılaşdırılması).

II. İstehsalın və əməyin təşkilinin yaxşılaşdırılması (xidmət zonalarının və normalarının yüksəldilməsi; normaları yerinə yetirməyən fəhlələrin sayının azaldılması; idarəetmənin strukturunun sadələşdirilməsi; uçot və hesablama işlərinin mexanikləşdirilməsi; iş dövrünün dəyişdirilməsi; istehsalın ixtisaslaşdırılması səviyyəsinin yüksəldilməsi).

III. Xarici və təbii şəraitin dəyişilməsi (kömür, neft, filiz və torf hasilatının dağ-geoloji şəraitinin dəyişilməsi; faydalı maddələrin məzmununun dəyişilməsi).

IV. İstehsalda struktur dəyişikliklər (ayrı-ayrı məhsul növlərinin xüsusi çəkilərinin dəyişilməsi; istehsal proqramının əməktutumunun dəyişilməsi; satın alınmış yarımfabrikatların və komplektləşdirilmiş məmulatların xüsusi çəkisinin dəyişilməsi; yeni məhsulun xüsusi çəkisinin dəyişilməsi).

İstehsalın həcminin artması və işçilərin sayının dəyişilməsi nəticəsində əmək məhsuldarlığının artımı aşağıdakı düsturla hesablanır:

$$\Delta P=\frac{100\Delta B+\Delta P_n}{100-P_n}$$

burada ΔB - müəyyən dövrdə müəssisədə buraxılan məhsulun artımı faizi;

ΔP - müəssisənin işçilərinin sayının azaldılması faizidir.

Məhsulun kooperasiya üzrə göndərilməsinin xüsusi çəkisinin artması nəticəsində müəssisədə işçilərin əmək məhsuldarlığının artımı *(ΔP)* aşağıdakı düsturla müəyyən edilir:

$$\Delta P = \frac{d_{k1} - d_{k0}}{100 - d_{k1}},$$

burada d_{k1}, d_{k0} - bazis və plan dövründə uyğun olaraq müəssisənin kooperasiya üzrə malgöndərişlərinin və ümumi məhsulunun xüsusi çəkisidir, %.

İş vaxtı fondundan daha yaxşı istifadə edilməsi nəticəsində əmək məhsuldarlığının artımı aşağıdakı düsturla hesablanır:

$$\Delta P = \frac{F_{g1} - F_{g0}}{100 - F_{g0}} \cdot 100,$$

burada F_{g1}, $F_{g.0}$ - bazis və plan dövründə uyğun olaraq bir işçinin səmərəli illik vaxt fondudur (adam-saat).

Qeyd etmək lazımdır ki, əməyin məhsuldarlıq həddi göstəricisi istehsal amillərindən və əmək bazarının olmasından asılıdır.

Ayrıca bir müəssisə özünə nə qədər işçi lazım olması məsələsini həll edərkən əməyə tələbin qiymətini, daha doğrusu, əmək haqqı səviyyəsini müəyyən etməlidir. İstənilən istehsal amilinə (o cümlədən əməyə) tələbin qiyməti əməyin məhsuldarlıq həddindən asılıdır.

Əməyin məhsuldarlıq həddi digər şərtlər dəyişilməz qalmaqla əlavə əmək vahidindən istifadə nəticəsində məhsul buraxılışı həcminin əlavə artımıdır. Müəssisənin rəhbərliyi bütün cəlb edilən resursların optimallaşdırılması zərurətindən asılı olaraq məhsuldarlıq həddi səviyyəsini əldə etmək üçün əməyi cəlb edə və ya sıxışdırıb çıxara bilər. Heç kim rəhbəri bu fikrindən döndərməz, çünki rəqabət mühiti şəraitində müəssisənin yaşaması hər şeydən üstündür.

Belə vəziyyətdə artıq iş qüvvəsi, daha doğrusu, işsizlik, natamam məşğulluq problemi ortaya çıxır. İş qüvvəsindən

səmərəli istifadə problemi həm müəssisə rəhbərləri, həm də dövlət idarə orqanları üçün eyni dərəcədə vacibdir. Ona görə də onlar müvəqqəti işsiz qalmış adamların sosial müdafiəsi məsələlərini həll etməlidirlər.

4.4.Əhalinin məşğulluğu problemi

Əhalinin məşğulluğu problemi bazar iqtisadiyyatının mühüm məsələsidir. Ölkəmizdə bazar iqtisadiyyatına keçid qanunvericilik bazasının və statistik göstəricilərin dəyişilməsini tələb etmişdir. Bizim iqtisadiyyat üçün əvvəllər xas olmayan yeni məfhumlar (işsizlik səviyyəsi, işsizlik müddəti, muzdlu işçi, iqtisadi fəal əhali,işəgötürən və s.) yaranmışdır.

Dövlət orqanları müəssisə rəhbərləri qarşısında aşağıdakı tələbləri qoyurlar:

1. İşəgötürənlər əhalinin məşğulluğunun dövlət orqanlarına və müvafiq həmkarlar ittifaqı orqanlarına mümkün kütləvi işdən çıxarılma haqqında vaxtında, azı üç ay əvvəl məlumat verməlidirlər.

2. İşəgötürənlər müəyyən olunmuş formada məşğulluq xidməti orqanlarına konkret bir işçinin işdən çıxarılması haqqında məlumatı azı iki ay əvvəl təqdim etməlidirlər.

3. İşəgötürənlər kollektiv müqaviləni bağlayarkən aşağıdakılara əməl etməlidirlər:

– işçilərin sayını ixtisar etmədən iş vaxtının ixtisar edilməsinə yönəldilmiş tədbirləri hazırlamaq;

– qanunvericilikdə nəzərdə tutulduğundan çox azad olunan işçilərə güzəştlərin və müavinətlərin verilməsi;

– əmək müqaviləsi pozulanadək azad olunacaq işçilərin peşə hazırlığının, yenidən hazırlanmasının və ixtisasının artırılmasının təşkili;

– azad işçilərin ayrı-ayrı kateqoriyalarının işə düzəlməsi üçün yardım göstərilməsi;

– işi itirmək halı üçün fəhlələrin və qulluqçuların dövlət sığortası orqanları ilə müqavilə bağlanması üzrə öhdəlik;

– kütləvi işdən çıxarılan işçilərin sosial müdafiəsinə yönəldilmiş digər tədbirlərin hazırlanması.

İstehsalın həcmi qısa müddət üçün azaldıldıqda işçilərin ixtisar olunmasının qarşısını alan tədbirlər görmək lazımdır. Məsələn:

– boş yerlərə işçi qəbul edilməsinin müvəqqəti dayandırılması;

– müəssisə işçilərinin natamam iş vaxtı rejiminə keçirilməsi;

– əmək haqqı saxlanılmamaqla işçilərə məzuniyyətin verilməsi.

Bütün bu tədbirlər kompleksi müvəqqəti işdən çıxarılan işçilərin sosial müdafiəsi, əvvəlki ixtisas üzrə işçilərə yeni iş tapmaq imkanının verilməsi və ya yenidən hazırlanma kurslarını keçməsi məqsədini güdür.

İşsiz statusunun alınması bizim cəmiyyət üçün yeni hal olduğundan belə vəziyyətə düşən adamın psixoloji gərginliyini götürmək üçün bir sıra təminat tədbirlərini həyata keçirmək lazımdır.

BÖLMƏ 2

MÜƏSSİSƏNİN İSTEHSAL VƏ TƏŞKİLAT STRUKTURU

FƏSİL 5. MÜƏSSİSƏDƏ İSTEHSALIN TƏŞKİLİNİN ƏSASLARI

5.1. İstehsal və istehsal prosesi anlayışı

İstehsal – cəmiyyətin yaşaması və inkişafı üçün lazım olan maddi nemətlərin yaradılmasıdır. İstehsal üç elementin məcmusundan ibarətdir:

- məqsədyönlü iş və ya əmək;
- əmək əşyası, daha doğrusu, insan əməyinin yönəldiyi hər şey;
- əmək vasitələri (alətləri) –bunların vasitəsilə insan əmək əşyalarına təsir edir (məsələn, maşınlar, avadanlıq, alətlər və s.).

Maddi istehsalın nəticəsi müəyyən istehlak xassələrinə malik son məhsulun hazırlanmasıdır.

Müasir istehsal elmi-texniki inqilab şəraitində inkişaf edir. Bu inqilabın əsas məzmunu ətraf mühitə dəyən zərərin minimumlaşdırılması şərtilə istehsalın avtomatlaşdırılmasıdır.

İstehsal-istehsal proseslərinin məcmusudur. İstehsal prosesi – müəyyən məhsulun hazırlanmasına yönəldilmiş və bir-birilə qarşılıqlı əlaqədə olan əmək və təbii proseslərin məcmusudur.

İstehsal prosesinin əsasını texnoloji proses təşkil edir. Texnoloji prosesin həyata keçirilməsi zamanı əmək əşyalarının həndəsi formaları,ölçüləri və fiziki-kimyəvi xassələri dəyişilir. Bu proses əmək əşyası üzərində ardıcıl

yerinə yetirilən əməliyyatlardan ibarətdir. Əməliyyat istehsal prosesinin eyni bir iş yerində bir və ya bir neçə fəhlə tərəfindən yerinə yetirilən hissəsidir.

İstehsal proseslərinə texnoloji proseslərlə yanaşı, qeyri-texnoloji proseslər də daxildir (məsələn, nəqliyyat, yükləmə-boşaltma, nəzarət-sınaq, komplektləşdirmə və başqa əməliyyatlar).

İstehsal prosesləri əsas, köməkçi və xidmətedici proseslərə bölünür.

Əsas istehsal prosesləri tapşırıqda nəzərdə tutulmuş məhsulun istehsalına yönəldilmiş texnoloji proseslərdən ibarətdir.

Köməkçi proseslər əsas istehsal proseslərinin normal və fasiləsiz gedişini təmin edən prosesləri əhatə edir (məsələn, alət, təmir, enerji və s.).

Xidmətedici proseslər isə həm əsas, həm də köməkçi proseslərə xidmət edir və məhsul yaratmır (məsələn, anbar, nəqliyyat, tara və s).

Əsas istehsal prosesləri də öz növbəsində hazırlıq, emal və yığma fazalarından ibarətdir. Hazırlıq – pəstahalma proseslərini əks etdirir. Emal – pəstahların hazır məmulatlara çevrilməsi prosesidir. Yığma isə əsas texnoloji prosesin yekun mərhələsidir. Burada qovşaqların, hazır məhsulun yığılması və sınanması prosesləri həyata keçirilir.

5.2. İstehsal porseslərinin vaxta görə təşkili (istehsal tsikli)

İstehsal prosesləri müvafiq qaydada vaxta və məkana görə təşkil olunur. İstehsal proseslərinin vaxta görə təşkili istehsal tsikli adlanır. İstehsal tsikli məhsulun istehsalı üçün lazım olan və vaxta görə müəyyən şəkildə təşkil olunmuş əsas, köməkçi və xidmətedici proseslərin kompleksidir. İstehsal tsiklinin quruluşunu və uzunluğunu fərqləndirmək lazımdır.

İstehsal tsiklinin quruluşu məhsulun istehsalı üçün əsas və köməkçi proseslərin yerinə yetirilməsi və fasilələr vaxtını əks etdirir.

İstehsal tsiklinin uzunluğu isə materialın, pəstahın və ya əşyanın istehsal prosesinin bütün əməliyyatlarından və ya onun müəyyən hissəsindən keçməklə hazır məhsula çevrilməsi üçün lazım olan təqvim vaxt müddətidir. İstehsal tsiklinin uzunluğu təqvim günləri və ya saatlarla ifadə olunur.

İstehsal tsiklinin uzunluğu iş vaxtı dövründən və fasilələr vaxtından ibarətdir.

Ümumi halda istehsal tsiklini aşağıdakı kimi ifadə etmək olar:

$$T_{ts} = T_t + T_{h.t} + T_{təb} + T_{nəz} + T_{nəq} + T_ə + T_f,$$

burada T_t - texnoloji əməliyyatların yerinə yetirilməsi vaxtı;

$T_{h.t}$ - hazırlıq-tamamlama işlərinin yerinə yetirilməsi vaxtı;

$T_{təb}$ - təbii proseslərin yerinə yetirilməsi vaxtı;

$T_{nəz}$ - nəzarət-ölçmə əməliyyatlarının yerinə yetirilməsi vaxtı;

$T_{nəq}$ - əmək predmetlərinin əməliyyatlar üzrə nəql edilməsi vaxtı;

$T_ə$ -əməliyyatlararası boş dayanma vaxtı;

T_f -əmək rejimi ilə müəyyən olunmuş fasilələr vaxtıdır.

İstehsal tsiklinin uzunluğu əmək predmetlərinin bir əməliyyatdan digərinə ötürülməsi üsulundan çox asılıdır. Məhsulun hazırlanması prosesində əmək predmetlərinin hərəkətinin üç növü mövcuddur: ardıcıl, paralel və ardıcıl-paralel (qarışıq).

Ardıcıl hərəkət zamanı növbəti əməliyyat dəstədəki bütün detallar üzərində əvvəlki əməliyyat yerinə

yetirildikdən sonra başlanır. Bu halda istehsal tsikli aşağıdakı düsturla hesablanır:

$$T_{ar} = n\sum_{i=1}^{m} t_{ə d.i} \quad \text{və ya} \quad T_{ar} = n\sum_{i=1}^{m} t_{ə d.i} / c_i ,$$

burada n - partiyadakı detalların sayı, ədəd;

m - texnoloji prosesdə əməliyyatların sayı;

$t_{ə d.i}$ - hər bir əməliyyatın yerinə yetirilməsi vaxtı;

c_i - i-ci əməliyyat üzrə iş yerlərinin sayıdır.

Paralel hərəkət zamanı üzərində bir əməliyyat yerinə yetirilən kimi qalan partiyanın hazırlıq dərəcəsindən asılı olmayaraq əmək predmetləri növbəti əməliyyata ötürülür. Detallar bir əməliyyatdan digərinə bir-bir və ya ötürücü (nəqliyyat) partiyaları şəklində verilir. Bu halda istehsal tsikli aşağıdakı kimi hesablanır:

$$T_{par} = \sum_{i=1}^{m} t_{ə d.i} + (n-1) t_{ə d.baş} \quad \text{və ya}$$

$$T_{par} = \sum_{i=1}^{m} t_{ə d.i} / c_i + (n-1) t_{ə d.baş} / c ,$$

burada $t_{ə d.baş}$ - texnoloji prosesdə vaxta görə ən uzun əməliyyatın yerinə yetirilməsi vaxtıdır.

Ardıcıl-paralel hərəkət zamanı məmulatların növbəti əməliyyatda emalı bütün partiya üzərində əvvəlki əməliyyat başa çatmamış elə aparılır ki, bütünlükdə həmin detal partiyasının emalı fasiləsiz davam etsin. Burada paralel hərəkətdən fərqli olaraq qarışıq əməliyyatların yerinə yetirilməsi vaxtları qismən üst-üstə düşür. İstehsal tsikli aşağıdakı düsturla hesablanır:

$$T_{ar.par} = n\sum_{i=1}^{m} t_{ə d.i} - \sum_{i=1}^{m-1} \tau_i \quad \text{və ya}$$

$$T_{ar.par} = n\sum_{i=1}^{m} t_{ə d.i} / c_i - \sum_{i=1}^{m-1} \tau_i ,$$

burada τ_i - qarışıq əməliyyatların paralel yerinə yetirildiyi vaxt kəsiyidir.

Müəssisələr istehsal göstəricilərini yaxşılaşdırmaq üçün istehsal tsiklinin qısaldılması üzrə müvafiq tədbirləri həyata keçirməlidir. Bunu aşağıdakı yollarla etmək olar:

1) bilavasitə məmulatın istehsalı vaxtının ixtisar edilməsi;

2) iş rejimində nəzərdə tutulmayan fasilələr vaxtının ixtisar edilməsi;

3) köməkçi proseslərin yerinə yetirilməsi vaxtının ixtisar edilməsi;

4) əmək predmetlərinin hərəkətinin istehsalın konkret şəraitinə cavab verən formasının seçilməsi.

5.3. İstehsal proseslərinin məkana görə təşkili (istehsal strukturu)

Sənaye müəssisəsi istehsal bölmələrindən (sexlərdən, sahələrdən, habelə xidmətedici təsərrüfatlardan, idarəetmə orqanlarından, təşkilatlardan və idarələrdən) ibarətdir. Onlar müəssisə işçilərinin və onların ailə üzvlərinin ehtiyaclarını təmin etmək üçün nəzərdə tutulmuşdur.

İstehsal bölmələrinin, müəssisələrin idarə edilməsi və işçilərə xidmət üzrə təşkilatların kompleksi, onların sayı, onlar arasındakı qarşılıqlı əlaqələrin və nisbətlərin kompleksi müəssisənin (firmanın) ümumi strukturunu təşkil edir.

Müəssisənin məcmu halında götürülmüş istehsal bölmələri (sexlər, sahələr, xidmətedici təsərrüfatlar) və xidmətlər (istehsal proseslərində bilavasitə və ya dolayı iştirak edən) müəssisənin istehsal strukturunu təşkil edir. Daha doğrusu, istehsal strukturu dedikdə, müəssisənin tərkibinə daxil olan istehsal vahidlərinin məcmusu və onlar arasındakı qarşılıqlı əlaqə formaları başa düşülür.

Müəssisənin səmərəli istehsal strukturu aşağıdakı qaydada qurulur:

1. Müəssisənin sexlərinin və sahələrinin sayı, verilmiş məhsul buraxılışını təmin edən ölçülərdə onların gücü müəyyən edilir. müəssisənin Sənaəyə istehsal qurulusu

2. Hər bir sex və anbar üçün sahə hesablanır, müəssisənin baş planında onların məkanca yerləşdirilməsi müəyyən edilir.

3. Müəssisə daxilindəki bütün nəqliyyat əlaqələri, lazımi xarici kommunikasiyalar planlaşdırılır.

4. İstehsal prosesinin gedişi üzrə əmək predmetlərinin ən qısa hərəkət marşrutu nəzərdə tutulur.

Müəssisənin istehsal strukturunun xarakteri, sex və xidmətlərin tərkibi buraxılan məhsulun və onun hazırlanması üçün texnoloji proseslərin xüsusiyyətləri, sahədə ixtisaslaşmanın səviyyəsi və istehsalın həcmi ilə müəyyən edilir.

Müəssisənin tərkibində əsas, köməkçi və xidmətedici sexləri və istehsal təyinatlı təsərrüfatları fərqləndirirlər.

Əsas sexlər tapşırıqda nəzərdə tutulan əsas məhsulun istehsalı ilə məşğul olur. Onlar da öz növbəsində hazırlıq, emal və yığma sexlərinə bölünür.

Köməkçi sexlər müəssisənin daxilində istehlak olunan məhsulları istehsal edir. Belə sexlərə alət, təmir, enerji, model, qeyri-standart avadanlıq və nəqliyyat sexləri daxildir.

Xidmətedici sexlərə və istehsal təyinatlı təsərrüfatlara tara sexi, anbar təsərrüfatı, nəzarət-ölçmə xidməti və s. aiddir.

Müəssisənin istehsal strukturunda konstruktor və texnoloji bölmələr, təmizləyici qurğular və mühəndis kommunikasiyaları (tunellər, körpülər, estakadalar və s.) mühüm yer tutur.

Sexlərin tərkibinə əsas və köməkçi istehsal sahələri daxildir. Əsas istehsal sahələri texnoloji və ya əşya prinsipi üzrə yaradılır. Texnoloji prinsip üzrə təşkil olunmuş

sahələrdə müəyyən növdən olan texnoloji əməliyyatlar yerinə yetirilir.

Köməkçi sahələrə isə avadanlığın cari təmiri və onlara cari xidmət üzrə sahələr; nəqliyyat xidməti; alətlərin təmiri və bərpası emalatxanaları və s. daxildir. Müəssisədə xidmətin və cari təmirin təşkilinin mərkəzləşdirilmiş sistemindən istifadə edildikdə sexlərdə köməkçi sahələr yaradılmır.

İstehsal strukturu əsasında müəssisənin baş planı hazırlanır. Baş plan dedikdə, bütün sexlərin və xidmətlərin, eləcə də yolların və kommunikasiyaların müəssisənin ərazisində məkanca yerləşdirilməsi başa düşülür. Baş plan hazırlanarkən material axınlarının düzaxınlılığı təmin olunmalıdır. Sexlər istehsal prosesinin yerinə yetirilməsi ardıcıllığı üzrə yerləşdirilməlidir. Bir-birilə əlaqədar olan sexlər və xidmətlər bilavasitə bir-birinə yaxın yerləşdirilməlidir.

Sənaye müəssisəsinin istehsal strukturunun üç tipi mövcuddur: əşya, texnoloji və qarışıq (əşya-texnoloji).

Əşya strukturunda müəssisənin əsas sexləri, onların sahələri müəyyən məhsulun və ya onun ayrı-ayrı hissələrinin hazırlanması əlaməti üzrə qurulur. Əşya strukturu əsasən iri seriyalı və kütləvi istehsal müəssisələrinin sexlərində tətbiq edilir.

Texnoloji struktur dəqiq texnoloji xüsusiləşməni nəzərdə tutur. Məsələn, tökmə, dəmirçi-ştamplama, mexaniki və yığma sexləri.

Qarışıq (əşya-texnoloji) struktur eyni bir müəssisədə həm əşya, həm də texnoloji prinsip üzrə təşkil olunmuş əsas sexlərin olması ilə xarakterizə olunur. Məsələn, maşınqayırma müəssisələri kütləvi istehsal zamanı hazırlıq sexləri texnoloji, mexaniki yığma sexləri isə əşya prinsipi ilə təşkil edilir.

Müəssisənin istehsal strukturuna aşağıdakı amillər təsir göstərir:

- müəssisənin sahə mənsubiyyəti – buraxılan məhsulun nomenklaturası, onun konstruktiv xüsusiyyətləri, istifadə edilən materiallar;
- məmulatın konstruksiyasının sadəliyi və texnolojiliyi;
- istehsal tipi, onun ixtisaslaşdırılması və kooperativləşdirilməsi səviyyəsi;
- avadanlığın və texnoloji tərtibatların tərkibi – universal, xüsusi, qeyri-standart avadanlıq, konveyerli və ya avtomatik xəttlər;
- avadanlığa xidmətin, onun cari təmirinin təşkili;
- bazar iqtisadiyyatı şəraitində istehsalın yeni məhsul buraxılışına operativ keçirilməsi qabiliyyəti;
- əsas, köməkçi, yardımçı və s. sexlərdə istehsal prosesinin xarakteri.

Müxtəlif sahələrdə müəssisənin istehsal strukturu əsas istehsalın xarakterindən irəli gələn müəyyən xüsusiyyətlərə malikdir.

Toxuculuq fabriklərində əksər hallarda ayrı-ayrı istehsal sahələrində ixtisaslaşdırma ilə bir vaxtda texnoloji struktur fəaliyyət göstərir. Fabirklərin böyük əksəriyyəti parça istehsalının bütün mərhələlərinə (əyirmə, toxuma və s.) malik olur. Fabriklərin bir hissəsi isə yalnız bu mərhələlərdən bir və ya ikisi üzrə ixtisaslaşır.

Metallurgiya zavodlarında texnoloji struktur üstünlük təşkil edir. Domna, poladtökmə, prokat sexləri yaradılır. Metallurgiya kombinatlarının tərkibinə bəzən aqlomerat fabriki və koks sexləri daxil olur.

Müəssisənin (birliyin) istehsal strukturunun seçilməsi və yaxşılaşdırılması məsələsi həm yeni müəssisələrin yaradılması, həm də mövcud müəssisələrin yenidən qurulması zamanı həll edilməlidir.

İstehsal strukturunu aşağıdakı əsas yollarla təkmilləşdirmək olar:

1) müəssisələrin və sexlərin iriləşdirilməsi;

2) sexlərin qurulmasının daha mükəmməl prinsiplərinin axtarışı və həyata keçirilməsi;
3) əsas, köməkçi və xidmətedici sexlər arasında səmərəli nisbətlərə əməl olunması;
4) müəssisənin səmərəli planirovkası üzrə işlərin daim davam etməsi;
5) müəssisənin bütün sexləri arasında proporsionallığın təmin olunması;
6) bazar iqtisadiyyatı şəraitində istehsalın profilinin cəld dəyişilməsi, ixtisaslaşmanın və kooperativləşmənin təkmilləşdirilməsi;
7) istehsalın kombinatlaşdırılmasının inkişafı;
8) geniş vahidləşdirmə və standartlaşdırma nəticəsində məhsulun konstruktor-texnoloji həmcinsliyinin əldə edilməsi;
9) mümkün olan yerlərdə müəssisənin idarə edilməsinin sexsiz strukturunun yaradılması.

Əsas, köməkçi və xidmətedici sexlərin və sahələrin arasında səmərəli nisbətlərin gözlənməsi fəhlələrin sayına, əsas fondların dəyərinə, müəssisənin mənfəətindəki payına görə əsas sexlərin xüsusi çəkisinin artırılmasına yönəldilməlidir.

Struktur baxımdan müəssisənin iqtisadiyyatı ayrı-ayrı manqaların və sexlərin iqtisadiyyatı kimi formalaşır. Müəssisənin tərkibinə daxil olan manqaların proporsionallığı son məhsulun birgə istehsalı üçün bir-birilə əlaqədar olan sexlərin və sahələrin istehsal güclərinin səmərəli nisbətləri ilə xarakterizə olunur.

Kombinələşdirmənin inkişafı xammal və materiallardan kompleks istifadəyə, canlı və cisimləşmiş əməyə qənaətə, eləcə də ətraf mühitə zərərli təsirlərin azaldılmasına gətirib çıxarır.

Məhsulun konstruktor-texnoloji həmcinsliyi istehsalın dərin ixtisaslaşdırılması, məmulatların axınlı və avto-

matlaşdırılmış istehsalı, onların keyfiyyətinin yaxşılaşdırlması, xərclərin aşağı salınması üçün yaxşı şərait yaradır.

Müəssisənin idarə edilməsinin sexsiz strukturu onun bölmələrinin idarə edilməsinin təkmilləşdirilməsinə, xidmətedici və idarə aparatının ixtisar edilməsinə, deməli, istehsal xərclərinin aşağı salınmasına və məhsula tələbatın dəyişilməsinə yaxşı cavab verilməsinə gətirib çıxarır. Düzgün qurulmuş istehsal strukturu müəssisənin bütün sex və xidmətlərin proporsionallığını müəyyən edir. Bu isə müəssisənin aşağıdakı texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına müsbət təsir göstərir: ixtisaslaşma və kooperativləşmənin səviyyəsi; məhsulun hazırlanmasının ahəngdarlığı; əmək məhsuldarlığının artımı; məmulatın keyfiyyətinin yaxşılaşdırılması; idarəetmə kadrlarıoın sayının ixtisar edilməsi; əmək, maddi və maliyyə resurslarından daha məqsədəuyğun istifadə edilməsi; mənfəətin artırılması.

FƏSİL 6. İSTEHSALIN TƏŞKİLİ FORMALARI, TİPLƏRİ VƏ METODLARI

6.1. İstehsalın təşkili formaları

6.1.1. İstehsalın təmərküzləşdirilməsi

Təmərküzləşdirmə iri istehsalların və müəssisələrin yaradılması və inkişafı, hər bir sahənin məhsulunun çox hissəsinin ixtisaslaşdırılmış müəssisələrdə cəmləşməsi ilə ifadə olunur. O, yüksək məhsuldar texnikadan daha səmərəli istifadə etməyə və ictimai əmək məhsuldarlığının dönmədən artırılmasına imkan verir. Müəssisədə təmərküzləşdirmənin aşağıdakı formalarından istifadə olunur:

- həmcins məhsul buraxılışının artırılması (ixtisaslaşdırılmış müəssisələr);
- müxtəlif məhsulların buraxılışının artırılması (universal müəssisələr);
- istehsalın kombinələşdirilməsi əsasında təmərküzləşmənin inkişafı (müəssisə-kombinatlar);
- istehsalın diversifikasiyası əsasında təmərküzləşmənin inkişafı. Bu, təmərküzləşmənin ən mürəkkəb formasıdır. Belə ki, bu halda təmərküzləşmənin inkişafı həm yuxarıda göstərilən formalar əsasında, həm də müəssisənin daha geniş fəaliyyəti hesabına həyata keçirilə bilər.

Müəssisədə istehsalın təmərküzləşdirilməsi aşağıdakı yollarla əldə oluna bilər:

1. Əvvəlki texniki səviyyəyə malik maşın, avadanlıq və texnoloji xətlərin sayının artırılması.
2. Böyük vahid gücə malik maşın və avadanlığın tətbiqi.
3. Həm əvvəlki, həm də müasir texniki səviyyəyə malik maşın və avadanlığın sayının eyni vaxtda artırılması.

4. Qarşılıqlı əlaqədar istehsalların kombinələşdirilməsinin inkişafı.

Təmərküzləşmənin inkişafının iqtisadi cəhətdən ən məqsədəuyğun yolu yeni texnika və texnologiyanın tətbiqi, eləcə də maşın və avadanlığın vahid gücünün artırılmasından ibarətdir, yəni intensiv yoldur.

Təmərküzləşmənin səviyyəsini təhlil etmək üçün həm mütləq, həm də nisbi göstəricilərdən istifadə olunur. Ona görə də mütləq və nisbi təmərküzləşməni fərqləndirirlər.

Mütləq təmərküzləşmə ayrı-ayrı müəssisələrdə istehsalın ölçülərini xarakterizə edir, onun səviyyəsi isə aşağıdakı göstəricilərlə müəyyən edilir: məhsul buraxılışının həcmi; əsas istehsal fondlarının orta illik dəyəri; işləyənlərin orta siyahı sayı. Məhsul buraxılışının həcmi göstəricisi daha obyektivdir. Təmərküzləşmə səviyyəsinin digər göstəriciləri isə istehsalın təmərküzləşdirilməsi səviyyəsinin daha ətraflı təhlili üçün istifadə olunur.

Nisbi təmərküzləşmə sahədə istehsalın ümumi həcminin müxtəlif ölçülü müəssisələr arasında bölüşdürülməsini xarakterizə edir. Ona görə də nisbi təmərküzləşmənin səviyyəsi aşağıdakı göstəricilərlə müəyyən edilir: bütünlükdə sahədə buraxılan məhsulun ümumi həcmində ayrıca bir müəssisənin məhsul buraxılışının payı; satış bazarında müəssisənin payı və s. Nisbi təmərküzləşmə səviyyəsinin göstəriciləri müəyyən dərəcədə müəssisənin inhisarlaşması dərəcəsini əks etdirir.

Təmərküzləşmənin inkişaf etməsi ilə müəssisənin işinin iqtisadi göstəriciləri də bir qayda olaraq yaxşılaşır. Bu proses təmərküzləşmənin optimal ölçüsünə qədər davam edir, sonra isə pisləşə bilər.

Sənayedə istehsalın optimal ölçüsü dedikdə, müəyyən olunmuş müddətlərdə minimum xərclərlə müqavilələrdə və öhdəliklərdə nəzərdə tutulan məhsulun istehsalını təmin edən ölçülər başa düşülür.

Müəssisənin ölçüsü isə onun tərkibinə daxil olan əsas, köməkçi, xidmətedici və başqa struktur vahidlərinin sayı ilə müəyyən olunur. Ölçülərinə görə kiçik, orta və iri müəssisələr mövcuddur. Hər bir konkret sahədə yüksək texniki-iqtisadi göstəriciləri təmin edən müvafiq optimal ölçülər mövcuddur.

Bazar iqtisadiyyatına keçid kiçik və orta ölçülü müəssisələrin əhəmiyyətini artırır, çünki onlar istehsalı daha çevik dəyişməyə və əlavə iş yerlərinin təşkilinə imkan verir.

İri müəssisələrin həm üstünlükləri, həm də nöqsanları vardır. Belə müəssisələr aşağıdakı üstünlüklərə malikdir:

- iri miqyaslı elmi-tədqiqat, axtarış və tətbiqi işlərin, layihə-konstruktor işlərinin aparılması, yeni texnikanın yaradılması və onun tətbiqi üçün geniş imkanlara malik olması;
- daha müasir və yüksək məhsuldar avadanlığın asanlıqla tətbiq edilməsi və yaxşı istifadəsi;
- istehsalın daha mükəmməl təşkili;
- istehsalın həcminin artması ilə məhsulun bir vahidinə düşən xərclərin az olması;
- əməyin dərin bölgüsü və kooperasiyası üçün daha böyük imkanların olması;
- hesablama texnikası vasitələrinin daha böyük səmərə ilə tətbiqi.

İri müəssisələr üçün aşağıdakı nöqsanlar xasdır:

- daşınma radiusunun artması hesabına xammal, materiallar və komplektləşdirici məmulatların müəssisəyə gətirilməsi və hazır məhsulun istehlakçılara göndərilməsi üçün nəqliyyat xərclərinin artması;
- iri müəssisələrin tikilməsi üçün böyük məbləğdə investisiyaların tələb olunması və tikinti müddətlərinin uzun olması;
- müəssisənin miqyasının artması ilə onun idarə edilməsinin mürəkkəbləşməsi;

- ətraf mühitə mənfi təsirin çox olması;
- istehsalın və məhsuldar qüvvələrin ölkə ərazisində bərabər yerləşdirilməsi və ölkənin ayrı-ayrı rayonlarının kompleks inkişafı prinsipinin pozulması;
- istehsalın inhisarlaşdırılması imkanının mövcud olması və s.

Müəssisənin optimal ölçüsü gətirilmiş xərclərə görə müəyyən edilir:

$$Z_i = C_i + E_n K_i + Z_{n.i} \rightarrow \min,$$

burada C_i - i-ci variant üzrə məhsulun maya dəyəri;

K_i - i-ci variant üzrə kapital qoyuluşları;

E_n - kapital qoyuluşlarının normativ səmərəlilik əmsalı;

$Z_{n.i}$ - i-ci variant üzrə nəqliyyat xərcləridir.

Minimal gətirilmiş xərclərə uyğun olan ölçü müəssisənin optimal ölçüsü hesab edilir.

Sənayedə təmərküzləşdirmə səviyyəsi müəyyən edilərkən istehsaldaxili və xarici amilləri nəzərə almaq lazımdır.

İstehsaldaxili amillər istehsal resurslarından maksimal istifadə nöqteyi-nəzərindən məhsul istehsalının və müəssisələrin optimal ölçüləri müəyyən edilir.

Xarici amillərə nəqliyyat, xammal bazasının ölçüləri, iş qüvvəsinin mövcudluğu və ya cəlb olunması imkanı, su resursları, iqlim şəraiti və s. daxildir.

İstehsalın diversifikasiyası təmərküzləşmənin inkişafının ən mürəkkəb formalarından biridir. Bu, bir-birilə əlaqədar olmayan istehsalların eyni vaxtda inkişaf etdirilməsi, bir şirkətin, müəssisənin, firmanın daxilində buraxılan məhsulun nomenklaturasının və çeşidinin genişləndirilməsi deməkdir. Diversifikasiya müəssisələrin fəallığının artmasını ifadə edir. Bu halda müəssisələr öz vəsaitini təkcə əsas biznesi saxlamaq və inkişaf etdirmək

üçün deyil, həm də yeni məhsul növlərinin mənimsənilməsi, yeni istehsalların yaradılması və hər cür xidmətlərin göstərilməsi üçün sərf edir. Ölkəmizin bazar iqtisadiyyatına keçdiyi indiki şəraitdə istehsalın diversifikasiyasının aktuallığı kəskin surətdə artacaqdır. Bu, təsərrüfat subyektlərinin, ilk növbədə sənaye müəssisələrinin müflisləşmədən qorunmaq və maksimal mənfəət əldə etmək cəhdləri ilə əlaqədardır. İstehsalın diversifikasiyası bir çox amillərdən, ilk növbədə istehsalın tipindən asılıdır. Bizim şəraitdə istehsalın diversifikasiyası istehsalın kombinələşdirilməsi əsasında aparılmalıdır.

Təmərküzləşmənin inkişafı istehsalın inhisarlaşdırılması ilə sıx bağlıdır. Ona görə də Azərbaycan dövləti inhisarçı müəssisələrin yaranmasına imkan verməmək məqsədilə təsirli antiinhisar siyasəti aparmalıdır.

6.1.2. İstehsalın ixtisaslaşdırılması və kooperativləşdirilməsi

İxtisaslaşdırma əmək bölgüsünün dərinləşdirilməsi prosesi olub, eyni cinsli məhsulun istehsalının bir müəssisədə cəmləşməsini əks etdirir. Daha doğrusu, ixtisaslaşma zamanı sənayenin ayrı-ayrı sahələrində, müəssisələrində və onun istehsal bölmələrində müəyyən növ məhsul buraxılışı həyata keçirilir və ya ayrı-ayrı texnoloji əməliyyatlar yerinə yetirilir.

Sənayedə ixtisaslaşmanın aşağıdakı formalarını fərqləndirirlər:

1. Əşya üzrə ixtisaslaşma. Bu halda müəssisələr istehlak üçün tam hazır olan məhsul istehsalı ilə məşğul olurlar. Məsələn, traktorlar, avtomobillər, təyyarələr, televizorlar və s.

2. Detal üzrə ixtisaslaşma. Bu halda müəssisə ayrı-ayrı detalların, qovşaqların və aqreqatların istehsalı ilə məşğul olur. Məsələn, diyircəkli yastıq, karbürator və s.

3. Texnoloji və ya mərhələli ixtisaslaşma. Bu halda müəssisələr texnoloji prosesin yalnız ayrı-ayrı mərhələlərinin yerinə yetirilməsi ilə məşğul olur. Məsələn, toxuculuq sənayesində sap istehsalı müəssisəsi, maşınqayırmada tökmə, dəmirçi-pres və yığma istehsalı və s.

4. Köməkçi istehsalların ixtisaslaşdırılması. Belə ixtisaslaşmaya tara və qablaşdırıcı materialları, alətləri, tərtibatları istehsal edən və təmir işlərini görən müəssisələri aid etmək olar.

Miqyasından asılı olaraq sahədaxili, sahələrarası və dövlətlərarası ixtisaslaşmanı fərqləndirirlər. Hazırda ölkəmiz üçün dövlətlərarası ixtisaslaşmanın inkişafı xüsusilə vacibdir. Azərbaycan həm yaxın, həm də uzaq xaric ilə ixtisaslaşma əlaqələrini yaratmalı və onları genişləndirməlidir.

İxtisaslaşmanın təhlili və onun səviyyəsinin müəyyən edilməsi üçün bir sıra göstəricilərdən istifadə olunur:

- istehsalı əhatə əmsalı. Bu əmsal ixtisaslaşdırılmış sahənin məhsulunun həmin növdən olan məhsulun ümumi buraxılışındakı payını göstərir;
- ixtisaslaşma əmsalı. Bu, sahənin, müəssisənin və sexin ümumi məhsul buraxılışında əsas (profil) məhsulun payını əks etdirir;
- detal üzrə ixtisaslaşma əmsalı. Bu əmsal detal üzrə ixtisaslaşmış müəssisələrin və sexlərin məhsulunun sahədə, müəssisədə və sexdə məhsulun ümumi buraxılışında payını ifadə edir;
- buraxılan məhsulun nomenklaturasının və çeşidinin genişliyi. Müəssisədə və sexdə buraxılan məhsulun nomenklaturası və çeşidi nə qədər geniş olarsa, ixtisaslaşma səviyyəsi bir o qədər aşağı olar.

İxtisaslaşma istehsalın kooperativləşdirilməsi ilə sıx əlaqədardır. Mahiyyətinə görə bunlar bir prosesin iki tərəfidir və ona görə də iqtisadi baxımdan onlar vəhdətdə öyrənilməlidir.

Kooperativləşdirmə – hər hansı mürəkkəb məhsulun birgə istehsalı ilə məşğul olan ixtisaslaşdırılmış müəssisələr arasındakı uzunmüddətli istehsal əlaqələridir.

İxtisaslaşmanın formalarına uyğun olaraq sənayedə kooperativləşdirmənin üç formasını fərqləndirirlər:

1. Əşya üzrə kooperativləşdirmə. Bu o deməkdir ki, bir çox müəssisələr maşın və avadanlığın buraxılışı ilə məşğul olan baş zavoda müxtəlif məmulatlar (elektrik mühərrikləri, reduktorlar və s.) göndərirlər.

2. Detal üzrə kooperativləşdirmə. Bu zaman bir sıra ixtisaslaşdırılmış müəssisələr baş zavoda qovşaqları və detalları (diyircəkli yastıq, porşenin halqaları və s.) göndərirlər.

3. Texnoloji və ya mərhələli kooperativləşdirmə. Bu o deməkdir ki, müəssisələrin bir qismi baş zavodlara yarımfabrikatları (toxuculuq sənayesi üçün sap, maşınqayırma zavodları üçün pəstahlar və s.) göndərir.

Kooperativləşdirmənin səviyyəsini müəyyən etmək üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

- müəssisənin məhsulunun ümumi dəyərində kooperasiya qaydasında başqa müəssisələrdən alınan yarımfabrikatların, pəstahların, detalların və qovşaqların dəyərinin xüsusi çəkisi (payı);
- baş müəssisə ilə kooperasiya əlaqəsində olan müəssisələrin sayı;
- kooperasiyanın orta radiusu və s.

Sahə mənsubiyyəti və ərazicə yerləşməsi baxımından bir-birilə kooperativləşən müəssisələr arasında aşağıdakı kooperasiya əlaqələri mövcuddur:

1. Rayondaxili. Bu zaman sahə mənsubiyyətindən asılı olmayaraq eyni bir iqtisadi (inzibati) rayonda yerləşən müəssisələr kooperasiya əlaqəsində olurlar.

2. Rayonlararası. Bu, müxtəlif iqtisadi (inzibati) rayonda yerləşən müəssisələrin kooperasiyasıdır.

3. Sahədaxili. Bu zaman bir sahənin müəssisələri kooperativ əlaqəyə girirlər.

4. Sahələrarası, yəni müxtəlif sahələrin müəssisələri arasında kooperasiya əlaqələri.

Malgöndərənlərin istehlakçılara yaxınlaşdırılması və nəqliyyat xərclərinin azaldılması baxımından rayondaxili kooperativləşdirmə daha əlverişlidir. Lakin elm və texnikanın inkişafının, dərin ictimai əmək bölgüsünün mövcud olduğu indiki şəraitdə təkcə rayondaxili kooperativləşdirmə ilə keçinmək qeyri-mümkündür. Ona görə də konkret texniki-iqtisadi hesablamalar əsasında kooperativləşdirmənin optimal variantı seçilməlidir.

İxtisaslaşma və kooperativləşdirmənin inkişafı ictimai istehsalın və ayrıca müəssisənin səmərəliliyinə çox əhəmiyyətli təsir göstərir. Bu, aşağıdakı xüsusiyyətlərlə əlaqədardır:

- ixtisaslaşma istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması üçün əsasdır;
- qeyri-ixtisaslaşdırılmış müəssisələrə nisbətən ixtisaslaşdırılmış müəssisələrdə, bir qayda olaraq, məhsulun keyfiyyəti yüksəkdir;
- ixtisaslaşdırılmış müəssisələrdə yüksək məhsuldar texnikanın və texnologiyanın tətbiqi, eləcə də onlardan daha səmərəli istifadə imkanı böyükdür;
- ixtisaslaşma əməyin mexanikləşdirilməsi və avtomatlaşdırılması, yüksək ixtisaslı iş qüvvəsindən istifadə edilməsi və istehsalın təmərküzləşdirilməsi əsasında məhsul istehsalı xərclərinin aşağı salınmasına imkan verir;
- ixtisaslaşmanın inkişafı istehsalın standartlaşdırılması və vahidləşdirilməsinin obyektiv inkişafını zəruri edir;
- ixtisaslaşma hətta kiçik müəssisələrdə də istehsalı mexanikləşdirməyə və avtomatlaşdırmağa, eləcə də yüksək səmərəliliyi təmin etməyə imkan verir.

İxtisaslaşma və kooperativləşdirmədən əldə edilən illik iqtisadi səmərəni aşağıdakı düsturla hesablamaq olar[35]:

$$Э = [(C_1 - C_2) - (З_{n2} - З_{n1})]V_2 - E_n \Delta K + \Delta П,$$

burada C_1, C_2 - ixtisaslaşmadan (kooperativləşmədən) əvvəl və sonra məhsul vahidinin maya dəyəri;

$З_{n2}, З_{n1}$ - ixtisaslaşmadan (kooperativləşmədən) əvvəl və sonra məhsul vahidi üçün nəqliyyat xərcləri;

V_2 - ixtisaslaşmadan sonra məhsul buraxılışının həcmi;

E_n - kapital qoyuluşlarının normativ səmərəlilik əmsalı;

ΔK - istehsalın ixtisaslaşdırılması üçün lazım olan əlavə kapital qoyuluşları;

$\Delta П$ - istehsalın ixtisaslaşdırılması (kooperativləşdirilməsi) nəticəsində məhsulun keyfiyyətinin yaxşılaşdırılması hesabına əldə edilən əlavə mənfəətdir.

İstehsalın ixtisaslaşdırılması və kooperativləşdirilməsinin inkişafı təkcə müsbət deyil, həm də mənfi səmərə verə bilər. İxtisaslaşma və kooperativləşdirmə aşağıdakı nöqsanlara malikdir:

- kooperativləşdirmə radiusunun artması nəticəsində məhsulun vahidinə düşən nəqliyyat xərclərinin artması;
- işdəki monotonluq. Ona görə də bu halda həmin hadisənin işçiyə mənfi təsirini azaltmaq üçün müəyyən tədbirləri görmək lazımdır.

İxtisaslaşdırma və kooperativləşdirmənin planlaş--dırılması və inkişafı zamanı optimal variantı tapmaq üçün yuxarıda göstərilmiş bütün müsbət və mənfi tərəfləri nəzərə almaq lazımdır.

6.1.3. İstehsalın kombinələşdirilməsi

İstehsalın kombinələşdirilməsi bir müəssisədə müxtəlif növ məhsulların istehsalı prosesindən ibarətdir. Kombinələşdirmənin aşağıdakılara əsaslanan formaları vardır:

- xammalın emalının texnoloji mərhələlərnin ardıcıl yerinə yetirilməsi (məsələn, metallurgiya kombinatında aşağıdakı texnoloji mərhələlər yerinə yetirilir: dəmir filizi-çuqun-polad-prokat);
- istehsal tullantılarından istifadə;
- xammaldan, materiallardan, enerjidən və tullantılardan kompleks istifadə (məsələn, neft-kimya kombinatı; dağ-mədən kombinatı və s.).

Kombinələşdirmənin inkişafı ilk növbədə müəssisələrin xüsusiyyətlərindən asılıdır. Kombinələşdirmə metallurgiya, kimya və başqa sənaye sahələrində geniş yayılmışdır. Maşınqayırmada isə kombinələşdirmədən çox cüzi istifadə olunur.

Müəssisədə kombinələşdirmənin səviyyəsi aşağıdakı göstəricilərlə qiymətləndirilə bilər:

- müəssisədə buraxılan məhsulun ümumi həcmində istehsalın kombinələşdirilməsi nəticəsində alınan məhsulun payı:
- ilkin xammaldan faydalı komponentlərin çıxarılması dərəcəsi;
- müəssisədə istehsal tullantılarından istifadə dərəcəsi. Bu, istifadə olunan tullantıların miqdarının onların ümumi miqdarına nisbəti kimi hesablanır;
- istehsalın kombinələşdirilməsi hesabına müəssisədə buraxılan yardımçı məhsulların adlarının miqdarı.

Kombinələşdirmə səviyyəsinin təhlili üçün başqa göstəricilərdən də istifadə oluna bilər.

İqtisadi baxımdan kombinələşdirmə və təmərküzləşdirmənin sənaye istehsalının təşkilinin mütərrəqi

formalarından biridir, çünki o, müəssisənin bütün resurslarından daha tam istifadə etməyə imkan verir.

Kombinələşdirmə sənayenin xammal bazasını genişləndirməyə, məhsulun material tutumunu azaltmağa, nəqliyyat xərclərini azaltmağa, istehsal tsiklinin uzunluğunu ixtisar etməyə, hasilat sənayesinin inkişafına investisiyaları azaltmağa, istehsal tullantılarını azaltmağa və s. imkan verir. Bütün bunların hesabına istehsalın səmərəliliyi təmin olunur. İstehsalın kombinələşdirilməsindən əldə edilən səmərə aşağıdakı düsturla hesablanır[35]:

$$Э = [(C_{ix} - C_k) + (З_{n1} - З_{n2}) + (K_{ix} - K_k)E_n]V_k + E_n \Delta K,$$

burada C_{ix}, C_k - ixtisaslaşdırılmış müəssisədə buraxılan məhsulun maya dəyəri və kombinələşdirmə hesabına həmin məhsulun buraxılışı;

$З_{n1}, З_{n2}$ - kombinələşdirmədən əvvəl və sonra məhsul vahidi üçün nəqliyyat xərcləri;

K_{ix}, K_k - ixtisaslaşdırılmış müəssisədə və kombinələşdirmə hesabına məhsul buraxılışı üçün xüsusi kapital qoyuluşları;

V_k - istehsalın kombinələşdirilməsi hesabına məhsul buraxılışının həcmi;

ΔK - hasilat sahələrinin inkişafı üçün lazım olan kapital qoyuluşlarına qənaətdir.

Beləliklə, müəssisədə kombinələşdirmənin inkişafı məhsul buraxılışının artırılması, müəssisənin bütün resurslarından istifadənin yaxşılaşdırılması, məhsulun maya dəyərinin aşağı salınması və müəssisədə mənfəətin artırılması üçün təsirli istiqamətlərdən biridir.

6.2. İstehsalın təşkili tipləri

İstehsalın təşkili tipi dedikdə, sənaye istehsalının təşkilinin və texniki səviyyəsinin xüsusiyyətlərinin kompleks xarakteri başa düşülür. İstehsalın təşkili tiplərinə bir sıra

amillər təsir edir: ixtisaslaşma səviyyəsi; istehsalın miqyası; bazar iqtisadiyyatı şəraitində hazırlanan məmulatların nomenklaturasının dayanıqlılığı.

İstehsalın üç əsas tipini fərqləndirirlər:

- fərdi
- seriyalı
- kütləvi

Fərdi istehsal tipi müxtəlif, qeyri-sabit və məhdud nomenklaturada məmulatların ədədlə buraxılışını nəzərdə tutur. Bu istehsal tipinin əsas xüsusiyyətləri aşağıdakılardır:

- çox nomenklaturada az təkrar olunan məhsul buraxılışı;
- iş yerlərinin texnoloji ixtisaslaşma üzrə təşkili;
- universal avadanlıqdan və texnoloji tərtibatlardan istifadə;
- çox sayda əl ilə yığma və tamamlama əməliyyatlarının mövcud olması;
- istehsal prosesində çalışan yüksək ixtisaslı universal fəhlələrin böyük xüsusi çəkisi;
- istehsal tsiklinin xeyli böyük olması;
- bitməmiş istehsalın həcminin böyük olması;
- operativ-istehsal planlaşdırmanın və istehsala rəhbərliyin qeyri-mərkəzləşdirilməsi;
- istehsal tullantılarının nisbətən çox olması;
- canlı əmək məsrəflərinin nisbətən böyük olması.

Seriyalı istehsal eyni cinsli və uzun müddət ərzində təkrar olunan seriyalar şəklində geniş nomenklaturada məhsulun eyni vaxtda hazırlanmasını nəzərdə tutur.

Seriya dedikdə, müəyyən vaxt intervalında istehsala partiyalarla, eyni vaxtda və ya ardıcıl və fasiləsiz buraxılan, konstruksiya baxımından eyni olan məhsulların buraxılması başa düşülür.

Seriyalı istehsal proseslərinin təşkili aşağıdakı əsas xüsusiyyətlərə malikdir:

- xeyli miqdarda hazırlanan və təkrarlanan nisbətən böyük nomenklaturada məhsul buraxılışının sabitliyi;
- təhkim olunmuş bir neçə əməliyyatın yerinə yetirilməsi üçün iş yerlərinin ixtisaslaşdırılması;
- məmulatın seriyalarla hazırlanmasının dövriliyi, detalların partiyalarla emalı;
- xüsusi və ixtisaslaşdırılmış avadanlığın və texnoloji tərtibatların üstünlük təşkil etməsi;
- əl ilə yığma və tamamlama əməliyyatlarının cüzi həcmdə olması;
- orta ixtisas dərəcəli fəhlələrin xüsusi çəkisinin çox olması;
- istehsal tsiklinin kiçik olması;
- istehsalın operativ-istehsal planlaşdırılmasının və istehsala rəhbərliyin mərkəzləşdirilməsi;
- hazırlanan məhsulun keyfiyyətinə nəzarətin avtomatlaşdırılması;
- məhsulun keyfiyyətinin idarə edilməsinin statistik metodlarının tətbiqi;
- konstruktor detallarının və məmulatların vahidləşdirilməsi;
- texnoloji proseslərin və tərtibatların tipləşdirilməsi.

Seriyada eyni vaxtda hazırlanan məmulatlardan asılı olaraq kiçik, orta və iri seriyalı istehsalı fərqləndirirlər. Bunun üçün seriyalılıq əmsalından istifadə olunur:

$$K_c = \frac{C_{d.ə}}{C_{i.y}},$$

burada $C_{d.ə}$ - detal-əməliyyatların sayı;

$C_{i.y}$ - iş yerlərinin sayıdır.

Əgər $K_c \leq 5$ olarsa iri seriyalı;

$K_c \leq 20$ olarsa orta seriyalı;

$K_c \leq 40$ olarsa kiçik seriyalı istehsaldır.

Kütləvi istehsal məhdud nomenklaturada və böyük həcmdə məhsulun fasiləsiz və nisbətən uzun müddət ərzində hazırlanması ilə xarakterizə olunur. Kütləvi istehsal – istehsalın ixtisaslaşdırılmasının yüksək forması olub, eyni adlı məmulatların bir və ya bir neçə tip ölçülərinin buraxılışının bir müəssisədə cəmləşdirilməsinə imkan verir. Kütləvi istehsalın ayrılmaz şərti detalların, qovşaqların və aqreqatların standartlaşdırılması və vahidləşdirilməsinin yüksək səviyyəsidir.

Kütləvi istehsalın təşkilinin aşağıdakı xüsusiyyətləri vardır:

- çox da böyük olmayan miqdarda kiçik nomenklaturada ciddi müəyyən olunmuş həcmdə məmulatların buraxılışı;
- təhkim olunmuş bir əməliyyatın yerinə yetirilməsi üçün iş yerlərinin ixtisaslaşdırılması;
- iş yerlərinin əməliyyatların gedişi qaydasında yerləşdirilməsi;
- xüsusi və ixtisaslaşdırılmış avadanlığın və texnoloji proseslərin yüksək faizi;
- əməliyyat üçün hazırlıq-tamamlama vaxtının az olması;
- əl ilə yığma və tamamlama işlərinin həcminin kəskin şəkildə ixtisar edilməsi;
- yalnız təhkim olunmuş bir əməliyyatı yerinə yetirən və çox da yüksək ixtisasa malik olmayan fəhlələrin xüsusi çəkisnin böyük olması;
- seriyalı istehsalla müqayisədə istehsal tsiklinin uzunluğunun kiçik olması;
- istehsalın idarə edilməsi və planlaşdırılmasının mərkəzləşdirilməsi;
- istehsalın fasiləsiz və uzaq məsafədən dispetçerləşdirilməsi;
- müəssisənin avtomatlaşdırılmış idarə edilməsi sisteminin (MAİS) tətbiqi;

- məmulatların keyfiyyətinə nəzarətin avtomatlaşdırılmasının yüksək səviyyəsi;
- məhsulun keyfiyyətinin idarə edilməsinin statistik metodlarının geniş tətbiqi.

İstehsalın tipi müəssisənin strukturunun, istehsalın səmərəli təşkili şəraitinin tələblərinin və kriterilərinin formalaşmasına böyük təsir göstərir.

Fərdi istehsal zamanı müəssisənin strukturunda bir qayda olaraq dəmirçi və tökmə sexləri, hazırlıq sahələri, qeyri-standart avadanlığın və texnoloji tərtibatların hazırlanması üçün müstəqil sexlər nəzərdə tutulmur.

Seriyalı istehsalda isə əksinə, demək olar ki, müəssisənin strukturunda dəmirçi və tökmə sexləri, qeyri-standart avadanlıq və texnoloji tərtibatlar istehsal edən sexlər, plan və plan-dispetçer şöbəsi yaradılır.

Kütləvi istehsala əsas və köməkçi istehsal sexlərinin, xidmətedici təsərrüfatların və xidmətlərin geniş ixtisaslaşdırılması xasdır. Detallar, bir qayda olaraq, istehsalı mərkəzləşdirilmiş qaydada istehsal edilən səmərəli pəstahlardan hazırlanır. Qeyri-standart avadanlığın və texnoloji tərtibatların istehsalı da bu üsulla həyata keçirilir.

6.3. İstehsalın təşkili metodları

İstehsal proseslərinin və tiplərinin xüsusiyyətlərindən asılı olaraq istehsalın təşklinin müəyyən metodu tətbiq olunur.

İstehsalın təşkili metodu istehsal prosesinin həyata keçirilməsi üsulu olub, onun reallaşdırılmasının vasitələri və fəndləri məcmusundan ibarətdir. O, bir sıra əlamətlərlə xarakterizə olunur ki, onlardan başlıcaları aşağıdakılardır: texnoloji prosesin əməliyyatlarının yerinə yetirilməsi ardıcıllığının dəzgahların yerləşdirilməsi qaydası ilə qarşılıqlı əlaqəsi və istehsal prosesinin fasiləsizliyi dərəcəsi.

İstehsalın təşkilinin üç metodu mövcuddur:

1) axınsız (fərdi);
2) axınlı;
3) avtomatlaşdırılmış.

Axınsız istehsal aşağıdakı əlamətlərlə səciyyələnir:

- bütün iş yerləri əməliyyatların yerinə yetirilməsinin ardıcıllığı ilə müəyyən əlaqəsi olmadan birtipli avadanlıq qrupları üzrə yerləşdirilir. Məsələn, maşınqayırma müəssisələrində bunlar torna, frez, burğu, pardaqlama və s. dəzgah qruplarıdır;
- iş yerlərində hazırlanması konstruksiyasına və texnologiyasına görə müxtəlif olan əmək predmetləri emal olunur;
- texnoloji avadanlıq əsasən universaldır, lakin konstruksiyasına görə xüsusilə mürəkkəb olan detalların, iri qabaritli detalların emalı üçün proqramla idarə olunan dəzgahlar, emaledici mərkəzlər və s. tətbiq oluna bilər;
- istehsal prosesində detallar mürəkkəb marşrutlar üzrə hərəkət edir. Bununla əlaqədar olaraq həmin detalların aralıq anbarlarda emalı gözləməsi və texniki nəzarət şöbəsinin (TNŞ) bölmələrində ləngiməsi nəticəsində böyük fasilələr yaranır. Hər bir əməliyyatdan sonra detal, bir qayda olaraq, ya sexin aralıq anbarına, ya da TNŞ nəzarətçisinin iş yerinə daxil olur. Sexlərarası (mexaniki sexdən termik və ya qalvanik sexə və əksinə) gözləmələr zamanı daha böyük fasilələr müşahidə olunur. Hər bir fəhlə növbəti əməliyyatı yerinə yetirmək üçün detalı əvvəlki əməliyyatdan deyil, aralıq anbardan və ya TNŞ-nin nəzarətçisindən alır.

Axınsız metod əsasən fərdi və kiçik seriyalı istehsalda tətbiq edilir və təcrübi, təmir-mexaniki və müəssisənin digər xüsusi sexləri (məsələn, çevik istehsal sistemlərinin (ÇİS) avadanlığı olan sexlər və s.) üçün səciyyəvidir.

Axınsız metoddan istifadə etməklə istehsalın təşkili şəkil 6.3.1.-də göstərilir.

Şəkil 6.3.1. İstehsal sahələrinin texnoloji ixtisaslaşması zamanı axınsız istehsalın mexaniki sexində avadanlıq qruplarının yerləşdirilməsi və detallardan birinin hərəkəti sxemi

Hər bir məmulat və detal üçün texnoloji prosesin hazırlanması fərdi xarakterə malikdir və adətən sifarişlər əsasında sexin texnoloji hissəsi tərəfindən yerinə yetirilir.

Təşkilati baxımdan axınsız istehsal çox mürəkkəbdir və tam dərəcədə istehsal prosesinin təşkili prinsiplərinə uyğun gəlmir.

Axınsız istehsalın səmərəli təşkili üçün detalların və məmulatların istehsalı üzrə sifarişləri onların emalı vaxtına görə komplektləşdirmək və detalların istehsala qrup halında buraxılmasını həyata keçirmək lazımdır. Belə hallarda istehsalın təşkilinin axınsız metodunu bəzən qrup metodu da adlandırırlar və kiçik seriyalı istehsal tipində tətbiq edirlər.

İstehsal prosesinin təşkilinin ən mütərəqqi və səmərəli metodu axınlı istehsaldır. O, aşağıdakı mühüm əlamətlərə malikdir: bir və ya məhdud miqdarda məmulat növlərinin müəyyən qrup iş yerlərinə təhkim edilməsi; vaxta görə uzlaşdırılmış texnoloji və köməkçi əməliyyatların

ahəngdar surətdə təkrar olunması; hər bir iş yerində bir və ya az miqdarda əməliyyatların yerinə yetirilməsi (iş yerlərinin məhdud ixtisaslaşdırılması); avadanlığın və iş yerlərinin texnoloji prosesin gedişi üzrə (ərazicə yaxın olmaqla) yerləşdirilməsi; xüsusi nəqliyyat vasitələrinin köməyi ilə minimal fasilələrlə məmulatların bir əməliyyatdan digərinə tək-tək və ya kiçik nəqliyyat partiyaları şəklində ötürülməsi.

Axınlı istehsalın ilkin həlqəsi axın xəttidir. Axın xətti dedikdə, axınlı istehsalın xarakterik xüsusiyyətlərinə uyğun olaraq istehsal prosesinin həyata keçirildiyi iş yerləri qrupu başa düşülür.

İstehsal binasının quruluşundan, buraxılan məmulatın və istifadə edilən avadanlığın növündən asılı olaraq ellips şəkilli, T-şəkilli, П-şəkilli, dairəvi və s. axın xətləri ola bilər.

Axınlı istehsalda müxtəlif nəqliyyat vasitələrindən istifadə edilir (konveyerlər, transportyorlar (lentşəkilli və asma), pnevmonəqliyyat vasitələri, sənaye robotları, proqramla idarə olunan universal manipulyatorlar, qaldırıcı-nəqledici vasitələr və s.).

Axın xətləri layihələndirilərkən və təşkil edilərkən bir sıra göstəriciləri hesablamaq lazım gəlir. Onlar axın xətlərinin işinin reqlamentləşdirilməsini və texnoloji əməliyyatların yerinə yetirilməsi metodlarını müəyyən edir. Onlardan bəzilərinin hesablanmasına baxaq.

İki eyni adlı detal və ya məmulatın axın xəttindən ardıcıl buraxılışı arasındakı vaxt intervalı takt adlanır. Axın xəttinin taktını hesablamaq üçün illik (aylıq və ya növbəlik) istehsal tapşırığını, həmin dövr ərzində plan üzrə iş vaxtı fondunu və əməliyyatlar üzrə planlaşdırılan itkiləri bilmək lazımdır. Axın xəttinin taktı aşağıdakı düsturla hesablanır:

$$r = \frac{F_h}{N_b},$$

burada F_h - planlaşdırılan dövrdə axın xəttinin həqiqi iş vaxtı fondu, dəq;

N_b - həmin dövr üçün plan üzrə məhsul buraxılışıdır, ədədlə.

Əmək predmetləri əməliyyatlar üzrə partiyalarla ötürülən axın xətlərində ritmi də hesablamaq lazımdır. Axın xəttinin ritmi dedikdə, iki qarışıq ötürücü partiyanın ardıcıl surətdə verilməsi arasındakı vaxt intervalı başa düşülür:

$$R = rp,$$

burada p - ötürücü (nəqliyyat) partiyasının ölçüsüdür, ədədlə.

Axın xəttinin tempi onun məhsuldarlığını, daha doğrusu, vaxt vahidi ərzində buraxılan məmulatın miqdarını xarakterizə edir. O, taktın tərs kəmiyyətidir:

$$T = \frac{N_b}{F_h}.$$

Axın xəttində olan avadanlığın və iş yerlərinin miqdarı texnoloji prosesin hər bir əməliyyatı üzrə hesablanır. Bunun üçün aşağıdakı düsturdan istifadə edilir:

$$C_{pi} = \frac{t_{mi}}{r},$$

burada t_{mi} - əməliyyat üçün vaxt normasıdır, dəq.

Hər bir əməliyyat üçün iş yerlərinin və ya avadanlığın qəbul edilmiş sayı (C_{pr}) onların hesabi sayını (C_r) yuvarlaqlaşdırmaqla tapılır (axın xətləri layihələndirilərkən iş yerlərinin və avadanlığın əlavə yüklənməsi 10-12% hədlərində ola bilər).

İş yerlərinin yüklənməsi əmsalı

$$K_y = \frac{C_{pi}}{C_{pri}}$$ düsturu ilə tapılır.

Bütün axın xəttindəki iş yerlərinin və ya avadanlığın miqdarı aşağıdakı düsturla tapılır:

$$C_л = \sum_{i=1}^{m} C_{pri},$$

burada m - texnoloji prosesdə olan əməliyyatların miqdarıdır.

Fəhlələrin həqiqi sayı çoxdəzgahlı xidmət nəzərə alınmaqla axın xəttindəki iş yerlərinin sayına bərabərdir. Axın xətlərindəki fəhlələrin ümumi sayı aşağıdakı düsturla hesablanır:

$$C_{p.сп} = \left(1 + \frac{b}{100}\right) \sum_{i=1}^{m} C_{p.яв.i} d_{см},$$

burada b - iş vaxtı itkilərinin əlavə faizi (növbəti və təhsillə əlaqədar məzuniyyət, xəstəliklər, dövlət vəzifələrinin yerinə yetirilməsi);

$C_{p.яв.i}$ - fəhlələrin həqiqi sayı (iş yerlərinin miqdarına bərabərdir), adam;

$d_{см}$ - növbələrin sayıdır.

Konveyeri layihələndirərkən onun uzunluğunu və hərəkət sürətini təyin etmək lazımdır. Konveyerin uzunluğu aşağıdakı düsturla tapılır:

$$L = li,$$

burada l - iki qarışıq iş yerinin oxları arasındakı məsafə, m;

i - konveyerdə olan iş yerlərinin sayıdır.

Fasiləsiz hərəkət edən konveyerin sürəti

$$V = \frac{l}{r}$$ düsturu ilə hesablanır.

Fasiləli (pulsasiyalı) konveyerin sürəti iki iş yerinin oxları arasındakı məsafə və əmək predmetlərinin yerdəyişməsinin mümkün sürəti ilə təyin edilir:

$$V = \frac{l}{t_{tr}},$$

burada t_{tr} - məmulatların bir əməliyyatdan digərinə daşınması vaxtıdır, dəqiqə ilə.

Axın xətlərində istehsal proseslərinin fasiləsizliyini təmin etmək üçün pəstahların və məmulatın tərkib hissələrinin istehsal ehtiyatı olmalıdır. Fasiləsiz axın xətlərində texnoloji, nəqliyyat və sığorta ehtiyatları yaradılır.

Axın xətlərini bir sıra əlamətlərə görə təsnifləşdirmək olar.

Texnoloji əməliyyatların mexanikləşdirilməsi dərəcəsinə görə axın xətləri mexanikləşdirilmiş, kompleks-mexanikləşdirilmiş, yarımavtomat və avtomat axın xətlərinə bölünür.

Eyni vaxtda emal edilən və yığılan məmulatların miqdarından asılı olaraq bir predmetli və çoxpredmetli (çox nomenklaturalı) axın xətləri fərqləndirilir.

İstehsal prosesinin əməliyyatları üzrə məmulatın hərəkətinin xarakterindən asılı olaraq fasiləli-axın və fasiləsiz-axın xətləri mövcuddur. Fasiləsiz-axın xəttində bütün əməliyyatlar bərabərdir və ya xəttin ritminə qalıqsız bölünür, daha doğrusu, vaxta görə sinxronlaşdırılır.

Əməliyyatın uzunluğunun axın xəttinin taktı ilə uzlaşdırılması prosesi sinxronlaşdırma adlanır. Sinxronluq şərti aşağıdakı kimi yazıla bilər:

$$\frac{t_1}{c_1} = \frac{t_2}{c_2} = \ldots = \frac{t_m}{c_m} = r_{nl},$$

burada t - əməliyyatlar üzrə vaxt norması, dəq;

c - əməliyyatda olan iş yerlərinin miqdarı;

r_{nl} - fasiləsiz axın xəttinin taktıdır, dəq/ədəd.

Sinxronlaşdırma əməliyyatların quruluşunun və onların yerinə yetirilməsinin təşkilati şərtlərinin dəyişdirilməsi yolu ilə həyata keçirilir. Prosesin sinxronlaşdırılmasının iki mərhələsini fərqləndirmək lazımdır: 1) xəttin layihələndirilməsi zamanı yerinə yetirilən

ilkin sinxronlaşdırma; 2) sex şəraitində xəttin sazlanması zamanı həyata keçirilən yekun sinxronlaşdırma.

Fasiləsiz-axın xətlərinin ritmi məcburi (reqlamentləşdirilmiş) və ya sərbəst (fəhlələr tərəfindən gözlənilən) ola bilər. Bu cür axın xətləri əl əməyinin xüsusi çəkisi yüksək olduqda tətbiq edilir (məsələn, kondensator, rezistor və s. istehsalı).

Fasiləli-axın xətlərində isə əməliyyatlar (hamısı və ya bir hissəsi) xəttin ritminə görə hamarlaşdırılmır. Fasiləli-axın xətləri daha geniş tətbiq edilir ki, bu da aşağıdakı xüsusiyyətlərlə əlaqədardır: planlaşdırılan texnoloji itkilərin olması (onların həcmi ehtimallı kəmiyyətdir); məmulatları tək-tək və partiyalarla emal etməklə əməliyyatların növbələşdirilməsi; çox sayda nəzarət-ölçü əməliyyatlarının mövcud olması və s. Bütün bu səbəblər istehsal prosesinin gedişində müəyyən fasilələrə gətirib çıxarır və vaxta görə texnoloji əməliyyatların sinxronlaşdırılmasına imkan vermir.

Bundan başqa bir axınlı və çox axınlı xətlər də vardır.

Fasiləsiz-axın və fasiləli-axın xətləri birnomenklaturalı və çoxnomenklaturalı olur. Çox nomenklaturalı axın xətlərində müxtəlif adlı və müxtəlif ölçülü məmulatlar ardıcıl surətdə təkrar olunan partiyalarla istehsal edilir. Bu cür axın xətlərinin təşkilinin əsas şərtlərinə daxildir: məmulatların texnoloji vəhdəti və xətdə olan avadanlığın konstruksiyasının universal (çevik) olması. Onlar həmin axın xəttini yeni məmulatın buraxılışı üçün tez bir zamanda hazırlamağa imkan verir.

Çoxnomenklaturalı axın xətlərinin spesifik xüsusiyyəti xəttin vahid taktının (ritminin) və hər bir addan olan məmulatın hazırlanması üzrə xüsusi taktların (ritmlərin) təyin edilməsindən ibarətdir.

Axınlı istehsalın inkişafı proseslərin avtomatlaşdırılması yolu ilə aparılır. Avtomat axın

xətlərində, avtomat sexlərdə və zavod-avtomatlarda istehsal proseslərinin fasiləsizliyi onların avtomatik yerinə yetirilməsi ilə uzlaşdırılır.

Maşınqayırma müəssisələrində konstruksiyalarına, texnoloji və təşkilati cəhətlərinə görə fərqlənən çox sayda avtomat axın xətlərindən istifadə edilir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) ixtisaslaşma dərəcəsinə görə – bir predmetli və çox predmetli;
b) eyni vaxtda emal edilən detalların miqdarına görə – tək-tək və çox detallı;
c) detalların daşınmasının xarakterinə görə – fasiləsiz və dövri hərəkət xətləri;
d) daşınma vaxtının texnoloji vaxtla örtülməsi dərəcəsinə görə – örtülən və örtülməyən nəqliyyat vaxtına malik xətlər;
e) kinematik əlaqənin xarakterinə görə – avadanlıqlar arasında möhkəm və çevik əlaqələri olan axın xətləri;
f) ilkin materialın xəttə verilməsi və məmulatın alınması üsullarına görə (ilkin materialın verilməsi üsulları: tək-tək pəstahlar, porsiyalar, fasiləsiz şəkildə; məmulatın alınması üsulları: tək-tək, partiyalarla, fasiləsiz).

Məmulatların daşınmasının xarakterinə, eləcə də bunker qruplarının olması və yerləşdirilməsinə görə avtomat xətlərin aşağıdakı beş əsas növü vardır:

1. Düzaxınlı avtomat xətləri (bir iş mövqeyindən digərinə bilavasitə yarımfabrikatları verməklə qarşılıqlı əlaqədar və avtomatik hərəkət edən mexanizmlər sistemi). Burada texnoloji ehtiyat yaradılır.
2. Avtomat axın xətləri (yenə də həmin mexanizmlər sistemi, lakin burada yarımfabrikat transportyor üzərində tədriclə yerini dəyişir). Belə xətlərdə texnoloji ehtiyatla yanaşı nəqliyyat ehtiyatı da mövcud olur.
3. Bunkerli avtomat xətlər (bir-birindən asılı olmayaraq işləyən ayrı-ayrı avtomat maşınları sistemi. Bu halda hər

bir bunkerin yanında qəbuledici yığıcılar və avtomat transportyorlarla əlaqələndirilən yükləyicilər qoyulur).

4. Bunkerli-düzaxınlı avtomat xətlər (bunkerlərlə bir-birindən ayrılmış və avtomatik qaydada qarşılıqlı əlaqədar işləyən bir neçə sahənin məcmusu). Yarımfabrikat iş mövqeləri üzrə onlar arasındakı məsafə qədər dəyişir.
5. Bunkerli avtomat axın xətləri (4-dəki mexanizmlər sistemi, lakin burada yarımfabrikatlar iş mövqeləri üzrə tədriclə yerini dəyişir (bir gedişdə məmulatın qabariti qədər)).

Üçüncü, dördüncü və beşinci növ xətlərdə texnoloji və nəqliyyat ehtiyatı ilə yanaşı, əməliyyatlararası (bunker) ehtiyatları da yaradılır.

Bunkerli avtomat xətlərində bir aqreqat dayandıqda bunkerdə olan ehtiyatlar hesabına başqa aqreqatlar işləyə bilər.

6. Rotorlu axın xətləri. Bu, texnoloji əməliyyatları yerinə yetirən işçi əməliyyat rotorlarından və məmulatların əməliyyatlararası yerdəyişməsini təmin edən nəqliyyat rotorlarından ibarətdir. Həmin rotorlar bir-birilə möhkəm əlaqədədir. İşçi rotorların sayı texnoloji əməliyyatların sayına bərabərdir. Detalların emalı və ya məmulatların yığılması dayanmadan həyata keçirilir. Onlar əməliyyatdan-əməliyyata fasiləsiz ötürülür. Avtomatlardan biri dayandıqda axın xəttinin bütün aqreqatları da dayanır.

Axınlı istehsalın təşkili nəticəsində:

✓ əmək məhsuldarlığı yüksəlir;
✓ istehsal tsiklinin uzunluğu ixtisar edilir;
✓ bitməmiş istehsalın ölçüsü azalır və dövriyyə vəsaitlərinin dövretmə sürəti artır;
✓ əsas fondlardan istifadə səviyyəsi yüksəlir;
✓ məhsulun keyfiyyəti yaxşılaşır və zay məhsul azalır;

✓ məhsulun maya dəyəri aşağı düşür.

Avtomat axın xətlərinin iqtisadi səmərəliliyini hesablamaq üçün onlar fərdi dəzgahlar qrupu ilə müqayisə edilir.

İstehsal proseslərinin avtomatlaşdırılması sahəsində sənaye robotlarının layihələndirilməsi, istehsalı və tətbiqi, robot texnikası komplekslərinin tətbiqi, istehsalın və texnologiyanın kompüterləşdirilməsi və çevik istehsal sistemləri xüsusi əhəmiyyət kəsb edir.

FƏSİL 7. İSTEHSALA TEXNİKİ HAZIRLIĞIN TƏŞKİLİ

7.1. İstehsala texniki hazırlığın və elmi-tədqiqat işlərinin mahiyyəti

Müasir elmi-texniki tərəqqinin fərqləndirici cəhəti elmin bilavasitə cəmiyyətin məhsuldar qüvvəsinə çevrilməsidir. Yeni maşın və texnoloji proseslərin yaradılmasına və mövcud olanların təkmilləşdirilməsinə, maddi nemətləri yaradanların ixtisasının yüksəldilməsinə şərait yaratmaqla elm, cəmiyyətdə canlı və cisimləşmiş əməyə xeyli qənaət edir. Yalnız maşınlara, cihazlara, aparatlara çevrildikdə elmi kəşflər məhsuldar qüvvələrin bir elementi olur. Sənayenin yeni məmulatları – ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi sahəsində elmin imkanlarının maddi təcəssümündən ibarətdir.

Yeni maşın, cihaz və aparat növlərinin yaradılması və mənimsənilməsi prosesi istehsalın müstəqil, hazırlıq mərhələsini təşkil edir və yeni məmulatların istehsalının texniki hazırlığı adını almışdır.

İstehsalın texniki hazırlığı dedikdə, yeni məhsul növlərinin yaradılması, mənimsənilməsi və modernləşdirilməsinə yönəldilmiş, layihəqabağı işlərdən başlamış məmulatın istismara verilməsinə qədər həyata keçirilən və yeni məmulatların həm istehsalatda, həm də istismarda texniki səviyyəsini, keyfiyyətini və səmərəliliyini təyin edən elmi, texniki və təşkilati xarakterli proseslərin məcmusu başa düşülür.

Sənaye müəssisələrində istehsalın texniki hazırlığının əsas vəzifələrinə daxildir:

- daha mükəmməl maşın konstruksiyalarının və texnoloji proseslərin yaradılması, qənaətli materiallardan istifadə edilməsi yolu ilə xalq təsərrüfatının bütün sahələrində fasiləsiz texniki tərəqqinin təmin edilməsi;
- müəssisələrin rentabelli və ahəngdar işi üçün şəraitin yaradılması;
- istehsalın texniki hazırlığı üzrə bütün konstruktor, texnoloji, təcrübi və başqa işlərin müddətinin, əməktutumunun və dəyərinin hər vasitə ilə azaldılması.

Bu vəzifələrə uyğun olaraq istehsalın texniki hazırlığına daxildir: məhsulun yeni növlərinin yaradılması; buraxılan məhsulun modernləşdirilməsi və onun istehsalının texnoloji üsullarının təkmilləşdirilməsi; istehsala cari texniki rəhbərlik.

İşlənməsi yerinə görə istehsalın texniki hazırlığı zavoddankənar və zavoddaxili hazırlığa bölünür. İstehsalın zavoddankənar hazırlığı ilə sahə layihə və elmi-tədqiqat institutları, konstruktor büroları məşğul olur. Zavoddaxili hazırlıq isə bilavasitə yeni məhsul buraxan zavodlar tərəfindən həyata keçirilir.

Sənayedə vahid texniki siyasət həyata keçirilərkən istehsalın zavoddankənar hazırlığı üstünlük təşkil edir.

İstehsalın texniki hazırlığı aşağıdakı mərhələləri əhatə edir:

- elmi-tədqiqat işləri;
- istehsalın konstruktor hazırlığı;
- istehsalın texnoloji hazırlığı;
- təşkilati-iqtisadi hazırlıq.

Texniki hazırlıq kompleksinə daxil olan bütün işlər həmin mərhələlər arasında bölüşdürülür.

Zavodlarda texniki hazırlığın əsasən üç təşkilati forması mövcuddur: mərkəzləşdirilmiş, qeyri-mərkəzləşdirilmiş və qarışıq.

Birinci halda bütün iş zavod idarəsi aparatı tərəfindən həyata keçirilir.

İkinci halda texniki hazırlıq işlərinin əsas həcmi istehsalın hazırlığı üzrə sex orqanlarına həvalə edilir.

Üçüncü halda isə istehsalın hazırlığı işləri zavod və sex orqanları arasında bölüşdürülür.

İri sənaye müəssisələrində (əsasən kütləvi və iri seriyalı) yeni məmulatların istehsalına hazırlıq mərkəzləşdirilmiş qaydada həyata keçirilir və bütün bu işlərə baş mühəndis rəhbərlik edir. Baş konstruktor, baş texnoloq, zavod laboratoriyasının rəisi, istehsalın texniki hazırlığının planlaşdırılması şöbəsinin (bürosunun) rəisi baş mühəndisin tabeliyində olur.

Fərdi və xırda seriyalı istehsal zavodlarında isə bir qayda olaraq, istehsalın texniki hazırlığının ya qeyri-mərkəzləşdirilmiş, ya da qarışıq sistemindən istifadə edilir.

Bu halda zavod orqanları məmulatların konstruksiyasını verir, sexlərdəki istehsalın hazırlığı büroları isə texnoloji hazırlıqla məşğul olur. Belə müəssisələrdə istehsalın texniki hazırlığı üzrə işləri zavodun plan-istehsalat şöbəsi tərəfindən planlaşdırılır. Kiçik müəssisələrdə isə bütün bu işlər baş mühəndisin tabeliyində olan texniki şöbədə cəmləşdirilir.

Yeni texnikanın həyat tsiklinin ilk mərhələsi elmi-tədqiqat işləridir. Bu mərhələdə yeni texniki mülahizələr irəli sürülür və yoxlanılır. Elmi-tədqiqat işləri nəzəri axtarış, əsaslı nəzəri və tətbiqi xarakterli işlərə bölünür.

Elmi-tədqiqat işlərinin təşkili formaları, onların xarakteri və həcmi çox müxtəlifdir.

Sənaye müəssisələrində aparılan elmi-tədqiqat işləri adətən aşağıdakı mərhələləri əhatə edir:

1. Xarici və daxili informasiyanın öyrənilməsi, texniki tapşırığın hazırlanması və təsdiq edilməsi. Texniki tapşırıq elmi-tədqiqat işlərinin icraçısı olan baş müəssisə elmi-tədqiqat institutu (ETİ) və ya digər elmi təşkilat tərəfindən tərtib edilir. Onu həm sifarişçi, həm də ETİ-nin elmi rəhbəri imzalayır.

Bu mərhələdə elmi-tədqiqat işlərinin (ETİ) ümumi dəyəri müəyyən olunur, texniki tapşırıqda dəyişikliklərin, əlavələrin və düzəlişlərin aparılması qaydası razılaşdırılır.

2.Tədqiqatların,hesablama və təcrübi işlərin, patent təhlilinin yerinə yetirilməsi. Burada həmçinin mövzu texniki-iqtisadi cəhətdən əsaslandırılır və məmulatın patent təmizliyi üzrə tələblər müəyyən edilir.

3. Təcrübi nümunələrin layihələndirilməsi, hazırlanması və sınaqdan keçirilməsi. Bu mərhələdə aşağıdakı işlər görülür: sınaq metodlarının hazırlanması; sınaqların aparılması üçün lazım olan cihaz və qurğuların layihələndirilməsi və hazırlanması; təcrübi nümunələrin sınaqdan keçirilməsi.

4. ETİ-nin qəbul edilməsi. Bu mərhələdə ETİ-nin təhvil verilməsi, onun dövlət komissiyası tərəfindən qəbul edilməsi haqqında aktın imzalanması, aktın yuxarı təşkilat tərəfindən təsdiq edilməsi və aktların ünvanlarına göndərilməsi həyata keçirilir.

ETİ-nin mərhələlərindən hər birində müvafiq metodlardan (empirik tədqiqat metodları – müşahidə, müqayisə, ölçmə, təcrübə; empirik və nəzəri tədqiqat metodları – analiz və sintez, modelləşdirmə və s.; nəzəri təqiqat metodları – mücərrəddən konkretə, formalaşdırma və s.) istifadə edilir.

7.2. İstehsalın konstruktor hazırlığı

Elmi-tədqiqat işləri mərhələsində başlanmış işlərin təbii davamı konstruktor-sınaq işləridir. Bu işlər istehsalın konstruktor hazırlığı adlanır və vahid konstruktor sənədləri sistemi ilə tənzimlənir.

Konstruktor hazırlığının mahiyyəti yeni maşınların layihələndirilməsi, mövcud tip və modellərin təkmilləşdirilməsi, onların istehsalını konstruktor sənədləri ilə təmin etməkdir. İri seriyalı və kütləvi istehsalda

konstruktor hazırlığı təcrübi nümunələrin istehsalı, onların stend və istismar şəraitində sınaqdan keçirilməsi, aşkar edilmiş qüsurların aradan qaldırılmasına şərait yaratmalıdır.

İstehsalın konstruktor hazırlığı işlərinin mahiyyəti və həcmi layihələndirilən məhsulların növü, yenilik və mürəkkəblik səviyyəsi, eləcə də istehsalın növü ilə müəyyən olunur.

İri və orta həcmli müəssisələrdə istehsalın konstruktor hazırlığı baş konstruktor şöbəsi, kiçik müəssisələrdə isə texniki şöbənin konstruktor bürosu tərəfindən yerinə yetirilir. Bəzən iri maşınqayırma müəssisələrində iki konstruktor şöbəsi yaradılır. Bunlardan biri yeni məhsulların layihələndirilməsi, ikincisi isə mövcud məhsulların modernləşdirilməsi, cari konstruktor işləri ilə məşğul olur.

Seriyalı və kütləvi istehsal müəssisələrində baş konstruktor şöbəsinin tərkibində təcrübi-istehsal sexi yaradılır. Bu sexlərdə işlənmiş texnologiya üzrə təcrübə nümunəsi üçün yeni məhsulun orijinal hissələri hazırlanır. Bəzən maşınqayırma və cihazqayırma sahələrində, elektronika, radiotexnikada təcrübə nümunələrini (seriyaları) təcrübə zavodları hazırlayır.

İstehsalın konstruktor hazırlığına tələblər, işlərin tərkibi, əsas göstəriciləri dövlət standartları ilə nizama salınır.

Konstruktor hazırlığının aparılma ardıcıllığı, onun mərhələlərinin məzmunu, konstruktor sənədlərinin növləri, onlardan istifadə və düzəlişlər verilmə qaydası vahid konstruktor sənədlər sistemi ilə tənzimlənir.

İstehsalın konstruktor hazırlığı bir neçə mərhələdə aparılır. Mürəkkəb və orijinal məmulatların layihələndirilməsində istehsalın konstruktor hazırlığı beş mərhələdə aparılır:

1. Texniki tapşırığın hazırlanması.

2. Texniki təkliflərin tərtibi.
3. Eskiz layihələndirilməsi.
4. Texniki layihə.
5. İşçi layihənin tərtibi.

Sadə məhsullar layihələndirildikdə göstərilən mərhələlər birləşdirilə bilər.

Texniki tapşırıqda konstruksiyanın təyinatı, texniki tələblər, keyfiyyət göstəriciləri, onun istismar ediləcəyi istehsalın xarakteri, iqtisadi göstəricilər, eləcə də konstruktor sənədləri və onların tərkibi müəyyən edilir.

Texniki tapşırıq sifarişçi tərəfindən müstəqil və ya layihə təşkilatı ilə birlikdə hazırlanır.

Texniki tapşırıqda konstruktiv-texnoloji məsələlər səmərəli həll edilmədikdə eskiz layihəsinə qədər texniki təkliflər hazırlanır. Texniki təkliflərdə məhsulun layihələndirilməsinin texniki və texniki-iqtisadi məqsədəuyğunluğu əsaslandırılır, mümkün olan variantlar müqayisəli qiymətləndirilir. Sifarişçi ilə razılaşdırıldıqdan və təsdiq edildikdən sonra növbəti eskiz layihəsinin tərtibi üçün baza təşkil edir. Eskiz layihəsinə məmulatın quruluşu və iş prinsipi üzrə ümumi təsəvvür yaradan prinsipial konstruktiv məsələlərin həlli üzrə sənədlər daxildir. Burada məmulatın prinsipial sxemi, kinematik və başqa sxemləri, ümumi görünüşünün layihəsi, onun parametr və qabaritləri öz əksini tapır, konstruksiyanın iqtisadi səmərəliliyinə qiymət verilir. Eskiz layihəsi sifarişçi təşkilatda müdafiə edilir. Sadə konstruksiyalar layihələndirildikdə bu mərhələ olmaya da bilər.

Texniki layihəyə yə texniki məsələlərin son həllini əks etdirən konstruktor sənədləri daxildir. Məmulatın ayrı-ayrı qovşaqları və aqreqatlarının konstruktor işlənməsi ən çox əməktutumludur. Bunlar layihələndirilən məmulatın quruluşu haqqında tam təsəvvür yaradır və işçi sənədlərin tərtibinin əsasını təşkil edir. Bu mərhələdə kampanovka cizgiləri, aqreqat, yığma vahidləri və məsuliyyətli hissələrin cizgiləri, istismarın texniki şərtləri və spesifikasiyalar tərtib

edilir, layihənin iqtisadi əsaslandırılması aparılır. Yuxarıdakılar əsas hissələrin möhkəmliyə hesablanmasına, onların ölçüsünə, materialın növünə, hazırlanma texnologiyasına tələbləri müəyyən etməyə imkan verir. Texniki layihəyə texniki- iqtisadi şurada baxılır və texniki tapşırığı verən təşkilat tərəfindən təsdiq edilir.

İşçi layihə texniki layihənin dəqiqləşdirilmiş halıdır. İşçi layihəyə maşının istehsalı, quraşdırılması və istismarı üzrə bütün sənədlər daxil edilir. Texniki layihədə məlumatlar tam araşdırılır, əvvəlcədən aparılmış hesablamalar yoxlanılır. Bu mərhələdə cizgilərə texnoloji və standartlaşdırılmış nəzarət həyata keçirilir, maşının maya dəyəri və onun iqtisadi səmərəliliyi təyin olunur, bütün istismar və təmir sənədləri, eləcə də texniki şərtlər müəyyən edilir.

Seriyalı və kütləvi istehsalda işçi konstruktor sənədləri üç mərhələdə (təcrübə nümunəsi, nəzarət seriyası və kütləvi istehsal) tərtib olunur. Konstruktor hazırlığı uzun müddətli, mürəkkəb və baha proseslər kompleksindən ibarətdir. Ona görə də konstruktor işlərinin yerinə yetirilmə müddəti və xərclərinin həddindən çox ixtisar edilməsi yaradılan konstruksiyanın keyfiyyətini pisləşdirir. Dəqiq, uzunmüddətli konstruktor hazırlığı, çoxlu miqdarda sınaqların keçirilməsi, onun istehsala verilənədək mənəvi köhnəlməsinə səbəb ola bilər.

Avtomatlaşdırılmış layihə sisteminin tətbiqi istehsalın konstruktor hazırlığının sürətlənməsinə və xərclərin azalmasına imkan verir.

Məhsulun konstruksiyası hazırlandıqda konstruktor və texnoloqların qarşılıqlı əlaqəsi yaradılır. Belə əlaqə nəticəsində konstruksiyanın texnolojiliyi əldə edilir. Texnolojilik konstruksiyanın elə xüsusiyyətinə deyilir ki, o, zavodun konkret istehsal-texniki şəraitində maşının minimum xərclə istehsalını təmin edir.

Bu, hissələrin həndəsi formasının sadəliyi, emal ediləcək hissədə olan elementlərin sayının minimum olması, daha əlverişli və emalı asan materialların tətbiqi, konstruksiyanın vahidləşdirilməsi, material tutumunun azaldılması və s. ilə əldə edilir.

Konstruktor sənədlərinə texnoloji nəzarət konstruktor hazırlığının bütün mərhələlərində həyata keçirilir. Hazırlıq prosesləri baxımından yüksək məhsuldarlıqlı üsulların köməyilə tədarükün forma və ölçülərinin hazır hissəninkinə maksimal yaxınlaşdırılması material tutumunu azaldır. Nəticə etibarilə mexaniki emalda əmək tutumu və maya dəyəri aşağı düşür.

Məmulatın yığma vahidlərinə (qovşaq, komplekt və s.) bölüşdürülməsi istehsalın təşkilinə müsbət təsir göstərir. Ayrı-ayrı yığma vahidlərindən təşkil edilən konstruksiyanın istehsalı, hətta müxtəlif məhsullar buraxılışı şəraitində mexaniki və yığma sexlərində istehsal sahələrini əşya üzrə ixtisaslaşdırmağa şərait yaradır.

Konstruksiyanın texnolojiliyi müəyyən göstəricilər sistemi ilə xarakterizə olunur. Bunlara məmulatın material tutumu, əmək tutumu, maya dəyəri, istehsal tsikli aid edilə bilər. Texnolojilik göstəricilərini əhəmiyyətinə (əsas və əlavə), xarakterizə etdiyi əlamətlərin miqdarına (xüsusi və kompleks), ifadə üsuluna (mütləq və nisbi), təzahür sferasına (istehsal və istismar) görə qruplaşdırmaq olar. Konstruksiyanın texnolojiliyinin əsas göstəricilərinə əmək tutumu, material tutumu, maya dəyəri aid edilə bilər. Əlavə texnolojilik göstəricilərinə konstruksiyanın oxşarlıq, təkrarolunma, standartlaşdırma, vahidləşdirmə və materiallardan istifadə əmsalları daxildir.

Məmulat və onun elemenlərinin çəkisi, materialların sərfi norması, hazırlanma dəqiqliyi, hissələrin ümumi miqdarı, əmək tutumu və i.a. mütləq göstəricidir. İstehsal texnolojiliyinin ümumiləşdirici göstəricisi maya dəyəridir.

Vahidləşdirmə, standartlaşdırma, oxşarlıq, materiallardan istifadə əmsalları nisbi göstəricilərdir.

7.3. İstehsalın texnoloji hazırlığı

Müəyyən olunmuş müddətlərdə, həcmdə və xərclərlə lazımi keyfiyyət səviyyəsində olan məmulatın buraxılması üçün müəssisənin texnoloji cəhətdən hazırlığını təmin edən qarşılıqlı əlaqədar proseslərin məcmusu istehsalın texnoloji hazırlığı adlanır. Müəssisənin tam texnoloji hazırlığı dedikdə, məmulatın istehsalını təmin edən texnoloji sənədlərin və tərtibatların tam komplektinin olması başa düşülür. Onun məzmunu və işlərin həcmi məmulatın texnoloji-konstruktiv xüsusiyyətlərindən və istehsalın tipindən asılıdır. Bu hazırlıq dövlət standartları, istehsalın texnoloji hazırlığının Vahid sisteminin (İTHVS) qaydaları və müddəaları əsasında həyata keçirilir. İTHVS-in əsas təyinatı istehsalın texnoloji hazırlığı prosesinin təşkili və idarə edilməsinin vahid sistemini müəyyən etməkdən ibarətdir. O, aşağıdakıları təmin etməlidir:

1. İstehsalın texnoloji hazırlığı metodları və vasitələrinin seçilməsinə və tətbiqinə sistem baxımı;
2. Yüksək keyfiyyət kateqoriyalı yeni məmulatların qısa müddətlərdə, az əmək və maddi məsrəflərlə istehsalı və buraxılışı;
3. Yüksək çevikliyə malik istehsalın təşkili (onun daim təkmilləşdirilməsi və yeni məmulat buraxılışı üçün tez bir zamanda hazırlanması);
4. Mühəndis-texniki və idarəetmə işləri kompleksinin mexanikləşdirilmiş və avtomatlaşdırılmış qaydada yerinə yetirilməsinin səmərəli təşkili;
5. İstehsalın hazırlığının digər mərhələləri ilə texnoloji hazırlığın qarşılıqlı əlaqələri.

Adətən istehsalın texnoloji hazırlığı məmulatın konstruksiyasının yaradılması prosesində başlanır.

Texnoloji hazırlıq aşağıdakı mərhələlərdən ibarətdir:

1) texnoloji proseslərin hazırlanması;
2) texnoloji tərtibatların layihələndirilməsi və hazırlanması;
3) layihələndirilmiş texnoloji proseslərin sazlanması və tətbiqi;
4) əməyin və material sərfinin normalaşdırılması.

Texnoloji prosesləri hazırlamaq üçün əvvəlcə məmulatları, yığma vahidlərini və detalları konstruktiv və texnoloji əlamətlərinə görə təsnifləşdirmək lazımdır. Bu halda müxtəlif texniki-iqtisadi informasiya növlərindən istifadə edilir (klassifikatorlar, standartlar, normativlər və s.).

Texnoloji proseslərin layihələndirilməsi texnoloji sənədlərdə qeyd edilir: marşrut xəritələri; texnoloji prosesin xəritələri; əməliyyat xəritələri; texnoloji təlimatlar; birtipli texnoloji proseslərin xəritələri.

İlk növbədə konstruksiyanın texnolojiliyi, yəni verilmiş həcmdə məmulatlar istehsalını minimum canlı və əşyalaşmış əmək sərfi ilə təmin edən istehsal-texniki şəraitə uyğunluğu yoxlanılır. Konstruksiyanın texnolojiliyi konstruktor tərəfindən aparılır. Məmulatın konfiqurasiyası və ölçüləri təyin edildikdə, istehsalın xüsusiyyətləri və imkanları nəzərə alınmalıdır. Texnoloqun vəzifəsi isə məmulatın konstruksiyasının müəssisənin resurslarına və imkanlarına uyğun olmasını təmin etməkdir.

Texnoloji proseslərin layihələndirilməsi işlərinin tərkibi və ardıcıllığı məmulatın mürəkkəbliyindən və istehsalın növündən asılıdır. Texnoloji proses məmulatın istehsalı metodlarını və vasitələrini təyin edir, istehsalın texniki və təşkilati səviyyəsini xarakterizə edir. Bu mərhələdə tədarük və texnoloji baza, birtipli texnoloji proseslər seçilir, texnəloji əməliyyatların ardıcıllığı və mahiyyəti, emal rejimi təyin olunur və bütün texnoloji

proseslərin işçi sənədləri tərtib edilir. Göstərilən işlər qabaqcadan tərtib olunmuş sexlərarası texnoloji marşrutları, tədarük, hissə və qovşaqların bölmələr üzrə keçmə ardıcıllığını təyin edir.

Hissələrin emalının əsas metodları və onların istehsalı sexləri müəyyən edilir. Hissələrin sexlərarası texnoloji marşrutu sxemi ilə birlikdə hər bir sexin istehsal proqramı, eləcə də onun əsasında zavodun əsas sexlərinin ixtisaslaşması və kooperasiyası təyin edilir.

Layihələndirilmiş texnoloji proseslər texnoloji xəritələrdə öz əksini tapır. İstehsalın növündən və məhsulun hissələrə bölüşdürülmə dərəcəsindən asılı olaraq marşrut, əməliyyat və əməliyyat-təlimat xəritələri fərqləndirilir. Bu xəritələrdə texnoloji əməliyyatların siyahısı və ardıcıllığı, dəzgahların növü, tərtibatlar, əməliyyatın vaxt norması göstərilir. Fərdi və kiçik seriyalı istehsalda marşrut xəritələri əsas texnoloji sənəddir. Əməliyyat xəritələri seriyalı istehsalda tətbiq edilir; avadanlıq, tərtibat, işin ixtisas dərəcəsi və vaxt norması göstərilən keçidlərin siyahısıdır.

Əməliyyat-təlimat xəritələri ayrı-ayrı texnoloji əməliyyatdan kiçik iş vərdişlərinin yerinə yetirilməsinədək olan məlumatlara malikdir. Burada avadanlığın tənzimlənməsi eskizi, hissələrin bərkidilməsi və ölçülməsi, iş yerlərinin təşkili kimi məlumatlar da verilir. Ən çox kütləvi istehsalda tətbiq edilir.

Deməli, marşrut texnologiyası işçi qüvvəsi, avadanlıq, istehsal sahələri və s. tələbatı təyin etməyə imkan verir.

Texnoloji hazırlığın mühüm mərhələsi texnoloji tərtibat və standart olmayan avadanlığın layihələndirilməsi və istehsalının təşkilidir. Bu mərhələ texnoloji hazırlığın ən çox əmək tutumlu mərhələsidir.

Maşınqayırma zavodlarında istifadə olunan tərtibatların növü və miqdarı – konstruksiyanın keyfiyyət xüsusiyyətləri, istehsalın növü və məhsul buraxılışı həcmindən asılıdır.

Konstruksiyanın keyfiyyət xüsusiyyətləri tərtibatların dəqiqliyinə və onun texniki imkanlarına tələblər irəli sürür. Maşının cizgilərində texniki tələblər elə ola bilər ki, onları yalnız xüsusi tərtibatlarla yerinə yetirmək mümkündür. Məhsul buraxılışının həcmi, istehsalın növü isə texnoloji prosesin diferensiasiya səviyyəsini, iş yerlərinin ixtisaslaşma dərəcəsini müəyyən edir. Bütün bunlar öz növbəsində lazım olan xüsusi tərtibatların miqdarını qabaqcadan təyin edir. Belə ki, istehsal növü kütləviliyə yaxınlaşdıqca hissənin emalı müddətinin azaldılması problemi ortaya çıxır və xüsusi tərtibatların konstruksiyası bu tələbləri nəzərə almalıdır. Texnoloq tərtibatların layihələndirilməsi üçün texniki şərtləri hazırlayıb, baş texnoloq şöbəsinin konstruktor bürosuna verir. Konstruktor bürosu layihələndirilmiş tərtibatı sifarişçi ilə razılaşdırdıqdan sonra layihəni alət sexinə verir. Yeni məhsul istehsalının mənimsənilməsi, çoxlu miqdarda müxtəlif standart olmayan avadanlıq tələb edir. Onların layihə edilməsi ilə xüsusi şöbə və baş texnoloq şöbəsi tərkibində mexanikləşdirmə və avtomatlaşdırma bürosu məşğul olur.

Nəhayət, son mərhələdə layihələndirilmiş texnoloji proseslər yoxlanılır, tətbiq və tənzim olunur.

Texnoloji prosesin layihələndirilməsi ilə eyni vaxtda məmulatın material sərfi norması müəyyən olunur. Bu halda konstruktor şöbəsi tərəfindən tərtib edilmiş materialların spesifikasiya sənədi əsas təşkil edir. Material normativləri qrupu tərtib edilmiş texnoloji prosesə tədarükün alınma metodundan asılı olaraq material sərfi normasını təyin edir. Eləcə də texnoloq məhsulun keyfiyyətinə texniki nəzarət metodlarını təyin etməlidir.

İstehsalın növü və həcmindən asılı olaraq mərkəzləşdirilmiş, qeyri-mərkəzləşdirilmiş və qarışıq

sistemli texnoloji hazırlığın təşkili fərqləndirilir. Mərkəzləşdirilmiş formada texnoloji hazırlığın təşkili ən geniş yayılmışdır. Mərkəzləşdirilmiş sistemdə texnoloji hazırlıq və onun planlaşdırılması zavodun baş texnoloq şöbəsi tərəfindən həyata keçirilir. Texnoloji şöbə prosesləri işləyib hazırlayır, tətbiq edir və texnoloji tərtibatları layihələndirir. Bu halda sex texnoloji büroları proseslərin tətbiqi və tənzimlənməsində iştirak edir. Texnoloji hazırlığın belə təşkili, əsasən, iri seriyalı və kütləvi istehsalda geniş tətbiq olunur.

Qeyri-mərkəzləşdirilmiş sistemdə istehsalın texnoloji hazırlığı sex texnoloji büroları tərəfindən aparılır. Burada zavodun texnoloji xidmətləri sex bürolarına metodik rəhbərliklə bərabər, bəzən xüsusi mürəkkəb və prinsipial texnoloji proseslərin işlənməsində iştirak edir. Bu sistemdə baş texnoloq şöbəsi texnoloji hazırlığın planlaşdırılması, texnoloji marşrutların tərtibi, eləcə də xüsusi tərtibatların layihələndirilməsi funksiyalarını yerinə yetirir. Texnoloji hazırlığın belə təşkili fərdi və kiçik seriyalı istehsalda tətbiq olunur. Burada texnoloji proseslərin tipləşdirilməsi, tərtibatların normallaşdırılması, elmi-tədqiqat və təcrübə işlərini zavodun texnoloji şöbəsi yerinə yetirir.

Qarışıq sistemdə texnoloji hazırlığın təşkilində istehsalı daimi olan məhsulların texnoloji prosesləri zavod texnoloji xidmətləri, istehsalı tez-tez dəyişən məhsullar üzrə isə həmin işləri sex büroları yerinə yetirir. Sex büroları texnoloji intizama nəzarət etməlidir.

İstehsalın səmərəliliyi baxımından tərtib edilmiş texnoloji proses minimum xərclə məhsul buraxılışını təmin etməlidir. Xərclərin azaldılmasının mühüm istiqaməti texnoloji hazırlıq dövrünün qısaldılmasıdır. Bu isə vahid texnoloji hazırlıq sisteminin təşkilati-texniki tədbirləri ilə əldə edilir.

Bu tədbirlərə texnoloji standartlaşdırma və vahidləşdirmə, texnoloji proseslərin layihələndirilməsinin avtomatlaşdırılması sistemlərinin tətbiqi aid edilə bilər.

Texnoloji standartlaşdırma və vahidləşdirmənin texnoloji əməliyyat və proseslərin tipləşdirilməsi, texnoloji sənədlərin vahidləşdirilməsi, avadanlığın standartlaşdırılması, texnoloji tərtibatların vahidləşdirillməsi və standartlaşdırılması istiqamətləri fərqləndirilir.

Birtipli texnoloji proseslərin maşınqayırma müəssisələrində istifadə olunması texnoloji sənədləri 8-10 dəfə azaltmağa, xərcləri isə 2-3 dəfə ixtisar etməyə imkan yaradır.

Texnoloji proseslərin tipləşdirilməsi hissələrin konstruktiv-texnoloji oxşarlığına görə aparılır. Bu halda hər bir oxşar hissə və yığma vahidlərinin təsnifat qrupları üzrə birtipli texnoloji proseslərin işlənib hazırlanması nəzərdə tutulur.

Konstruktiv-texnoloji oxşar hissələr təyinatına görə siniflərə (gövdə, val və i.a.) bölünür. Hissələrin təsnifatı onların formasına, ölçüsünə, səthinin emalı təmizliyinə və materialına görə aparılır. Hər bir qrup üçün texnoloji proses və onun tənzimlənməsi üsulu müəyyən edilir. Texnoloji proseslərin tipləşdirilməsi yeni texnoloji proseslərin layihə edilməsində işlərin həcmini azaltmağa və texnoloji hazırlığı sürətləndirməyə imkan yaradır. Texnoloji proseslərin tipləşdirilməsi əşya üzrə qapalı istehsal sahələrinin yaradılmasını asanlaşdırır, texnoloji proseslərin müxtəlifliliyinin azaldılması seriyalı istehsalda qrup texnoloji proseslərin əsasında çoxpredmetli axın xətlərinin tətbiqinə imkan verir. Nəticə etibarilə texnoloji sənədlərin həcmi azalır və texnoloji hazırlığın əmək tutumu azalmış olur.

Texnoloji sənədlərin vahidləşdirilməsi sənədlərin ümumi miqdarını azaldır, texnoloqların əməyini yüngülləşdirir və proseslərə düzəlişlər etməyə imkan verir.

Texnoloji hazırlığın səmərəliliyinin təmin edilməsində texnoloji tərtibatların standartlaşdırılması mühüm əhəmiyyətə malikdir. Texnoloji tərtibatların standartlaşdırılması onların növləri və ölçülərinin məqsədəuyğun minimuma endirilməsini nəzərdə tutur.

Texnoloji tərtibatların layihə olunması və istehsalı baha, əməktutumlu və uzun dövr tələb edən prosesdir. Ona görə də tərtibatların vahidləşdirilməsi və standartlaşdırılması iqtisadi cəhətdən səmərəlidir. Qeyd etmək lazımdır ki, kütləvi və iri seriyalı istehsalda hər hansı əməliyyat üzrə xüsusi tərtibatların yaradılması iqtisadi əlverişli olmasına baxmayaraq, seriyalı, kiçik seriyalı və xüsusilə fərdi istehsalda belə tərtibatların yaradılması istehsalın hazırlığı müddətini uzadır. Texnoloji tərtibatların standartlaşdırılması onların layihələndirilməsinə vaxtı və xərcləri azaldır, onun istehsal dövrünü qısaldır.

Müəssisələrdə yığılan-sökülən, universal yığılan və universal tənzimlənən tərtibatlar geniş yayılmışdır.

Texnoloji hazırlıq aparıldıqda məhsul istehsalının ən səmərəli texnoloji prosesi seçilməlidir. Bu məqsədlə texnoloji prosesin müqayisəli texniki-iqtisadi təhlili aparılır.

Texnoloq texnoloji prosesi bir neçə varinatda tərtib edir. Bu variantlar məmulatın eyni keyfiyyətini təmin etməli və texniki tapşırığın tələblərinə müvafiq olmalıdır. Optimal variantın seçilməsində istehsalın dayanıqlığı, mürəkkəbliyi və əməliyyatların məsuliyyətliliyi kimi amillər nəzərə alınmalıdır.

Texnoloji proseslərin texniki-iqtisadi təhlilində üç hala rast gəlmək olar:

- müəyyən avadanlıqda texnoloji keçidlərin ardıcıllığının təhlili;
- müxtəlif avadanlıq, tərtibat, materiallar və i.a. istifadə edilən texnoloji proseslər müqayisə olunur;

- avadanlığın alınması, yenidənqurma işləri, əlavə kapital qoyuluşu tələb edən texnoloji proseslər müqayisə edilir.

Göstərilən hallarda optimal texnoloji prosesin seçilməsi metodları bir-birindən fərqlənir.

Texnoloji keçidlərin ardıcıllığının təhlilində variantlar üzrə vaxtı normalaşdırmaq kifayətdir.

Texnoloji proseslərdə müxtəlif avadanlıq, tərtibat, pəstahlar istifadə edildikdə iqtisadi əlverişli variant minimum maya dəyərinə görə seçilir. Lakin bu halda bütün xərc maddələrini hesablamaq lazım deyildir. Yalnız texnoloji proseslə əlaqədar olaraq dəyişən xərclər hesablanır. İdarəetmə, təsərrüfat və bir sıra xərclər əksər hallarda qəbul edilmiş texnoloji prosesdən bilavasitə asılı deyildir. Ona görə də texnoloji proseslər müqayisə edildikdə onlar nəzərə alınmır.

Texnoloji proseslərin seçilməsində məhsulun texnoloji maya dəyərinə daxil olan xərclər nəzərə alınır. Bunlara əsas materiallar, istehsal fəhlələrinin əmək haqqı, texnoloji avadanlığın saxlanması və istismarı xərcləri, tez aşınan alətlərin xərci, zavod və sex, idarə və xidmətedici heyətin saxlanması, qızdırma, işıqlandırma xərcləri daxildir.

Texnoloji maya dəyəri illik məhsul buraxılışı həcmindən asılı funksiya kimi təyin edilə bilər. Texnoloji prosesin həyata keçirilməsi ilə əlaqədar olan istehsal xərclərinin bir qismi məhsul buraxılışı həcminə düz mütənasib qaydada artır. Xammal, materiallar, istehsal fəhlələrinin əmək haqqı, avadanlığın saxlanması və istismarı xərcləri, enerji xərcləri, alətlərin saxlanması xərcləri məhsul həcmindən asılı olaraq dəyişən xərclərdir.

İkinci qrup xərclər istehsalın həcmindən az asılı sabit adlanır. Bunlara zavod və sex, idarə və xidmətedici heyətin saxlanması, binaların qızdırılması və işıqlandırılması, xüsusi tərtibatların amortizasiya xərcləri daxildir.

Məhsul buraxılışının texnoloji maya dəyəri

$$S'_t = vN + f,$$

burada v - şərti-dəyişən xərclər;

f - sabit xərclər;

N - məhsul buraxılışı həcmidir.

Bu halda məhsul vahidinin texnoloji maya dəyəri

$$S'_t = v + \frac{f}{N}.$$

Müqayisə edilən texnoloji proseslərin tətbiqinin iqtisadi məqsədəuyğunluğu aşağıdakı şərtə əsasən təyin edilir:

$$v_1 N + f_1 \le v_2 N + f_2.$$

Deməli, müqayisə edilən variantlardan minimum texnoloji maya dəyərinə malik olan variant iqtisadi əlverişli sayılır.

Müqayisə edilən texnoloji proseslər əlavə kapital qoyuluşu tələb etdikdə iqtisadi əlverişli variant gətirilmiş xərclərə görə seçilməlidir:

$$Z_1 = S'_{t1} + E_n K'_1 \to \min,$$

burada S'_{t1} - müqayisə edilən variantlar üzrə məhsul vahidinin texnoloji maya dəyəri, man/ədəd;

E_n - normativ iqtisadi səmərəlilik əmsalı;

K'_1 - xüsusi kapital qoyuluşudur, man. il/ədəd.

7.4. İstehsalın təşkilati-iqtisadi hazırlığı

İstehsalın təşkilati-iqtisadi (plan) hazırlığı yeni məhsulun istehsalının təşkili və planlaşdırılması, eləcə də onun istehsalı prosesini lazım olan hər şeylə təmin edilməsi üzrə tədbirlər kompleksini əhatə edir. İstehsalın təşkilati-iqtisadi hazırlığı aşağıdakı mərhələlərdən ibarətdir:

1) istehsalın texniki hazırlığının plan-qrafikinin və xərclər smetasının tərtib edilməsi;

2) əlavə avadanlığa, fəhlə kadrlarına, material və enerji resurslarına tələbatın müəyyən edilməsi;
3) yeni detalların və məmulatların plan kalkulyasiyasının hazırlanması;
4) malgöndərənlərlə və istehlakçılarla müqavilə münasibətlərinin rəsmiləşdirilməsi;
5) normativ bazanın yaradılması;
6) əməyin və əmək haqqının təşkili;
7) yeni məhsulun iqtisadi səmərəliliyinin (faktiki səmərə) müəyyən edilməsi.

Yeni məhsulun iqtisadi və sosial səmərəliliyi mövcuddur. İqtisadi kriterilər kimi aşağıdakı göstəricilərdən istifadə etmək olar: əməyə qənaət (əməktutumunun azaldılması, əmək məhsuldarlığının artımı); material resurslarına qənaət; məhsulun texniki səviyyəsi və keyfiyyəti; gücün bir vahidinə düşən faydalı səmərə; özünü ödəmə və mənfəətlilik. Sosial kriterilərə isə daxildir:əmək şəraitinin yaxşılaşdırılmasını, istismarda təhlükəsizliyi və əlverişliliyi təmin edən göstəricilər; ətraf mühitin mühafizəsi; adamların həyat fəaliyyəti üçün yaxşı şəraitin yaradılması; əməyin yüngülləşdirilməsi;işçilərin ixtisasının,yeni məhsulun istehsalı və istismarı zamanı əməyin mexanikləşdirilməsi səviyyəsinin artırılması.

Bütün mərhələlərdə sexlərin və istehsal sahələrinin ixtisaslaşdırılması və kooperativləşdirilməsi məsələləri həll olunur, operativ-istehsal planlaşdırılması üçün təqvim-plan normativləri müəyyən edilir, əsas və köməkçi istehsalda iş yerlərinin təşkili və onlara xidmət layihələndirilir, müəssisə işçilərinin əməyinin ödənilməsi formaları və sistemləri seçilir, zəruri material, əmək və maliyyə normativləri hesablanır, təmir, alət, enerji, nəqliyyat və anbar təsərrüfatının təşkili layihələndirilir.

İstehsalın təşkilati-iqtisadi hazırlığı həmçinin istehsalın konstruktor və texnoloji hazırlığınının planlaşdırılması üçün lazım olan normativlərin hazırlanmasını da nəzərdə tutur. Bu işlər konstruktor və texnoloji hazırlıqla qarşılıqlı

əlaqədardır və onunla paralel həyata keçirilir və müəssisənin demək olar ki, bütün funksional bölmələri (marketinq, plan-iqtisad, kadrlar, maddi-texniki təminat, istehsal-dispetçer, satış, əmək və əmək haqqı şöbələri, mühasibatlıq, laboratoriyalar, xidmətlər və s.) tərəfindən yerinə yetirilir.

Müəssisələr səviyyəsində bu mərhələnin iqtisadi tərəflərinə həm də plan-iqtisad informasiyasına, norma və normativlərə, sənədləşdirmə formalarına, planlaşdırmanın, uçotun və yeni məhsulun xüsusiyyətləri nəzərə alınmaqla müəssisə bölmələrinin fəaliyyətinin qiymətləndirilməsinin mövcud sisteminə yenidən baxılması, yeni məmulatın mənimsənilməsi dövrləri üzrə əmək məsrəfləri normativlərinin hazırlanması və s. daxildir.

İstehsalın təşkilati-iqtisadi hazırlığı mərhələsində yeni məhsulun yaradılması və istehsalına müəssisə işçilərinin sosial-psixoloji hazırlığını təmin edən (xüsusilə konversiya şəraitində) sosial- psixoloji xarakterli işlər də həyata keçirilir. Buraya bazar şəraitində müəssisənin yaşaması və sabit işi üçün yeni məhsulun yaradılması və mənimsənilməsinin zəruriliyi haqqında kollektivdə izahat işlərinin aparılması; yeni məhsulun yaradılması və mənimsənilməsi zamanı peşəkar, ixtisas və təşkilati dəyişikliklərin aparılmasının zəruriliyi haqqında işçilərin məlumatlandırılması; ən az canlı və cisimləşmiş əmək xərcləri ilə ən qısa müddətlərdə yeni, rəqabətqabiliyyətli məmulatların yaradılması və buraxılışı üçün işçilərin bütün yaradıcılıq imkanlarının müdiriyyət tərəfindən səfərbər edilməsi daxildir. Bu işlərin aparılması kollektivdə əlverişli sosial-psixoloji iqlimin yaradılmasına və istehsalın səmərəliliyinin yüksəldilməsinə imkan verir.

FƏSİL 8. İSTEHSAL İNFRASTRUKTURUNUN TƏŞKİLİ

İstehsala xidmətin təşkili müəssisələrin istehsal-təsərrüfat fəaliyyətinin göstəricilərinə, buraxılan məhsulun keyfiyyətinə bilavasitə təsir göstərir. İstehsala xidmət səmərəli qurulmazsa müəssisənin normal işi qeyri-mümkündür. Ona görə də müəssisələrdə istehsala texniki xidmət üzrə işləri yerinə yetirmək üçün xüsusi təsərrüfatlar yaradılır. Buraya alət, təmir, enerji, nəqliyyat, anbar və başqa təsərrüfatlar daxildir.

8.1. Alət təsərrüfatının təşkili

Alət təsərrüfatı texnoloji tərtibatların və alətlərin bütün növləri ilə müəssisənin vaxtında və komplekt təmin edilməsi funksiyalarını yerinə yetirən ümumzavod və sex bölmələrinin məcmusundan ibarətdir. Müəssisədə alət təsərrüfatının təşkilinin məqsədi istehsalın texnoloji tərtibatlarla təminatı, onların saxlanması, istismarı və təmiri işlərinin aparılmasının və idarə edilməsinin mərkəzləşdirilməsidir.

Alət təsərrüfatının tərkibinə aşağıdakılar daxildir: alət şöbəsi, texnoloji tərtibatları hazırlayan sexlər, universal yığma tərtibatı məntəqələri, mərkəzi alət anbarı, alətlərin itilənməsi və bərpası emalatxanaları, abraziv anbarı, sexlərdəki alət paylaşdırma anbarları.

On minlərlə adda alətlərdən istifadəni asanlaşdırmaq məqsədilə onlar müvafiq qaydada təsnifləşdirilir və indeksləşdirilir. Təsnifat zamanı müəssisədə tətbiq olunan bütün alətlər ən xarakterik əlamətlər üzrə qruplaşdırılır. Alətlər əsasən istifadənin xarakterinə görə və təyinatına görə təsnifləşdirilir.

İstifadənin xarakterinə görə standart və xüsusi alətləri fərqləndirirlər. Ümumi tətbiq üçün nəzərdə tutulan

alətlər standart, müəyyən əməliyyatın yerinə yetirilməsi üçün hazırlanan alətlər isə xüsusi alətlərə aid edilir.

Təyinatına görə alət və tərtibatlar qruplara, yarım qruplara, növlərə, növmüxtəlifliyinə və tiplərə bölünür.

Beynəlxalq normalara uyğun olaraq alətlərin təsnifatı üçün onluq sistem, indeksləşməsi üçün isə rəqəm sistemi tətbiq olunur. Bu indeksləşmə sisteminə görə alətlərin hər bir növü üçün klassifikatorda onun tutduğu yerə uyğun şərti işarə (indeks) verilir.

Müəssisənin alətlərə və tərtibatlara tələbatı məsarif və dövriyyə fondlarının məcmusundan ibarətdir. Məsarif fondu tapşırıqda nəzərdə tutulmuş həcmdə və nomenklaturada məhsul istehsal etmək üçün müəssisənin alətlərə illk tələbatını əks etdirir. Dövriyyə fondu isə mərkəzi alət anbarında və sexlərdəki alət paylaşdırma anbarlarında, iş yerlərində, itilənmədə, təmirdə və yoxlanmada olan alətlərin tələbat ehtiyatını ifadə edir.

Alət və tərtibatlara tələbat onların hər bir növü üzrə ayrı-ayrılıqda təsdiq olunmuş məsarif normalarına və illik istehsal proqramına uyğun olaraq müəyyən edilir. Məsələn, hər bir əməliyyat üzrə kəsici alətin sərfi aşağıdakı düsturla hesablanır:

$$Q_{pl.r.n} = N_{il} \cdot H_{r.n},$$

burada N_{il} - illik məhsul buraxılışının həcmi, min ədəd;

$H_{r.n}$ - 1000 məmulat üçün alət sərfi normasıdır, ədəd.

Alətlərin və tərtibatların sərfi normaları 1000 detal (məmulat) və ya avadanlığın işinin 1000 dəzgah-saatı üçün müəyyən edilir.

Alətlərin iş yerlərinə verilməsi marka sistemi ilə həyata keçirilir. Bir markalı və iki markalı sistemlərdən daha geniş istifadə olunur.

Alət təsərrüfatının təşkili aşağıdakı əsas istiqamətlər üzrə təkmilləşdirilir:

1) texnoloji tərtibatların standartlaşdırılması və vahidləşdirilməsi, birtipli texnoloji proseslərin daha geniş tətbiqi;

2) alət istehsalının ixtisaslaşdırılmış müəssisələrdə təmərküzləşdirilməsi;

3) iş yerlərinin alətlərlə təchizatının mütərəqqi formalarının tətbiqi.

8.2. Təmir təsərrüfatının təşkili

Müəssisədə təmir təsərrüfatı aşağıdakı vəzifələri yerinə yetirir: avadanlığın daimi iş qabiliyyətinin və onun modernləşdirilməsinin təmin edilməsi; təmir üçün lazım olan ehtiyat hissələrinin və qovşaqlarının hazırlanması; fəaliyyətdə olan avadanlığın istismarı mədəniyyətinin yüksəldilməsi; təmirin keyfiyyətinin yaxşılaşdırılması və onun yerinə yetirilməsi xərclərinin aşağı salınması.

Təmir işlərinin və avadanlığa xidmətin təşkilinin səmərəliliyi planlı-xəbərdarlıq təmiri (PXT) və planlı-xəbərdarlıq xidməti (PXX) sistemləri vasitəsilə təmin edilir.

Texnoloji avadanlığın PXT sistemi aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur: təmirlərarası xidmət; vaxtaşırı baxışlar; vaxtaşırı planlı təmirlər (kiçik, orta və əsaslı təmir).

PXT sisteminin bütün tədbirləri müəyyən olunmuş müddətlərdə əvvəlcədən hazırlanmış plan-qrafik üzrə həyata keçirilir. Vaxta görə təmirlərin planlaşdırılması normativ bazaya əsaslanır. Belə normativlərin tərkibinə aşağıdakılar daxil olur:

1) təmir tsiklinin strukturu və uzunluğu;
2) təmirlərarası və baxışlararası dövrlərin uzunluğu;
3) təmirlərin müddəti;
4) təmirin mürəkkəblik dərəcəsi (kateqoriyası);
5) təmir işlərinin əməktutumu və materialtutumu normativləri.

Təmir tsikli avadanlığın istismara verildiyi andan onun ilk əsaslı təmirinədək olan (və ya iki əsaslı təmir arasındakı) iş vaxtı müddətidir. Təmir tsikli müəyyən struktura və uzunluğa malikdir. Təmir tsiklinin strukturu baxışların və müxtəlif təmirlərin müvafiq qaydada növbələşmiş ardıcıllığını əks etdirir. Metalkəsən dəzgahlar üçün təmir tsiklinin strukturu aşağıdakı kimidir:

$$Ə - K_1 - K_2 - O - K_3 - K_4 - Ə,$$

burada K, O və Ə – uyğun olaraq kiçik, orta və əsaslı təmirlərdir.

Təmir tsiklinin uzunluğu isə aşağıdakı düsturla hesablanır:

$$T_{ts} = 16800\beta_o\beta_p\beta_t\beta_u\beta_d\beta_k,$$

burada $\beta_o, \beta_p, \beta_t, \beta_u, \beta_d, \beta_k$ - uyğun olaraq materialın növünü, tətbiq edilən aləti, avadanlığın dəqiqlik sinfini, avadanlığın yaşını, uzunömürlülüyünü, dəzgahın kütləsinin kateqoriyasını əks etdirən əmsallardır.

16800 – normativ təmir tsiklidir, saat.

Müxtəlif sinifli avadanlığın təmirinin mürəkkəbliyini qiymətləndirmək üçün etalon kimi 16K20 torna-vintkəsən dəzgahın təmirinin mürəkkəbliyi qəbul edilmişdir. Etalon-dəzgahın təmirinin mürəkkəblik kateqoriyası 11-dir.

Avadanlığa planlı-xəbərdarlıq xidməti sistemi aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur: avadanlığa aylıq texniki xidmət; avadanlığın texniki vəziyyətinin müfəttiş qiymətləndirilməsi; müfəttiş qiymətləndirilməsinin nəticələrinə görə avadanlığın plandankənar təmiri; planlı əsaslı təmirlərin həyata keçirilməsi.

Təmir təsərrüfatını aşağıdakı yollarla təkmilləşdirmək olar: xüsusi texnoloji avadanlığın ehtiyat hissələrinin istehsalının mərkəzləşdirilməsi; əsaslı təmirlərin ixtisaslaşdırılmış müəssisələrdə aparılması; sexlərdəki təmir bazalarının ləğv edilməsi və s.

8.3. Enerji təsərrüfatının təşkili

Müasir istehsal böyük həcmdə elektrik enerjisinin, yanacağın və digər enerji daşıyıcılarının (buxar, sıxılmış hava, isti su, qaz, bərk və maye yanacaq və s.) istehlakı ilə əlaqədardır. Müəssisələrdə enerji təminatı məsələlərini müvəfəqiyyətlə həll etmək üçün enerji təsərrüfatı yaradılır. Enerji təsərrüfatının əsas vəzifəsi enerjinin bütün növləri ilə müəssisənin minimal xərclərlə etibarlı və fasiləsiz təmin edilməsindən ibarətdir. Enerji avadanlığının istismarı qaydalarına əməl edilməsi, onun təmirinin və ona xidmətin təşkili, enerji daşıyıcılarından qənaətlə istifadəyə, eləcə də enerji təsərrüfatının təkmilləşdirilməsi və inkişafına yönəldilmiş tədbirlərin həyata keçirilməsi bu təsərrüfatın vəzifələrindəndir.

Müəssisədə ümumzavod və sex üzrə enerji təsərrüfatı fəaliyyət göstərir.

Enerji resurslarına tələbat onların sərfi normaları (a_i) və illik istehsal proqramı (N_i) əsasında müəyyən edilir:

$$U_3 = a_i N_i.$$

Enerji daşıyıcılarının sərfi onların ayrı-ayrı növləri üzrə müəyyən edilir. Məsələn, avadanlıq qrupu üzrə güc enerjisinin sərfi aşağıdakı düsturla hesablanır:

$$U_s = \frac{R_ç F_h K_z K_{or}}{\eta_1 \eta_2},$$

burada $R_ç$ - avadanlıq qrupu üzrə quraşdırılmış cəmi güc, kVt;

F_h - avadanlığın həqiqi iş vaxtı fondu, saat;

K_z - avadanlığın yüklənməsi əmsalı;

K_{or} - avadanlığın eyni vaxtda işləməsini nəzərə alan əmsal;

$\eta_1 \eta_2$ - mühərrikin faydalı iş əmsalını və şəbəkədəki itkiləri nəzərə alan əmsallardır.

Enerji təsərrüfatı aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilə bilər: mərkəzləşdirilmiş enerji təminatına keçid; sənaye müəssisələrinin enerji təsərrüfatının irilləşdirilməsi; daha qənaətcil enerji daşıyıcılarından istifadə, maye yanacağın qaz şəkilli yanacaqla əvəz edilməsi; enerji avadanlığının və şəbəkələrinin təmirinin və onlara xidmətin təşkilinin səmərəli metodlarının tətbiqi; enerji daşıyıcılarının sərfinin texniki əsaslandırılmış normalarından geniş istifadə və s.

8.4. Nəqliyyat və anbar təsərrüfatlarının təşkili

Müəssisədə nəqliyyat təsərrüfatı aşağıdakı vəzifələri yerinə yetirir: nəqliyyat vasitələrinin zəruri tiplərinin seçilməsi və onlara tələbatın hesablanması; nəqliyyat axınlarının səmərəli təşkili; yüklərin mühafizəsinin və keyfiyyətinin təmin edilməsi; yükləmə-boşaltma və qaldırıcı-nəqliyyat işlərinin təşkilil. Ümumiyyətlə nəqliyyat təsərrüfatının təşkili müəssisənin və onun bölmələrinin fasiləsiz və səmərəli işini təmin etməlidir.

Nəqliyyat proseslərinin həyata keçirilməsi sahələrinə görə daxili və xarici nəqliyyatı fərqləndirirlər. Daxili nəqliyyat da öz növbəsində sexlərarası və sexdaxili nəqliyyata bölünür. Xarici nəqliyyat müəssisənin onu əhatə edən mühitlə (başqa müəssisələr, yük stansiyaları, limanlar, təchizat bazaları və s.) əlaqələrini təmin edir.

Nəqliyyat təsərrüfatının strukturu bir çox amillərdən asılıdır: zavoddaxili və xarici yük daşımaları; müəssisənin istehsal strukturu; istehsalın tipi; buraxılan məhsulun ölçüləri və kütləsi; nəqliyyat təşkilatları ilə kooperasiyanın səviyyəsi. Nəqliyyat vasitələrinin növləri və onların miqdarı məhz bu amillərdən asılı olaraq müəyyən edilir.

Yük daşımalarını səmərəli təşkil etmək üçün müəssisə, onun ayrı-ayrı sexləri və anbarları miqyasında yük dövriyyəsi və yük axınları öyrənilir. Yük dövriyyəsi vaxt vahidi ərzində (növbə, gün, ay, il) daşınan yüklərin

ümumi miqdarını əks etdirir. Yük axınları isə vaxt vahidi ərzində iki məntəqə arasında daşınan yüklərin həcmini göstərir. Deməli, yük dövriyyəsi ayrı-ayrı yük axınlarının məbləğindən ibarətdir.

Nəqliyyat vasitələrinin səmərəli işi hərəkət marşrutunun seçilməsindən də çox asılıdır. Əsasən rəqsli və dairəvi marşrutlardan istifadə olunur.

Anbar təsərrüfatı aşağıdakı əsas vəzifələri yerinə yetirir:

1) material, kimyəvi maddələr, bitməmiş istehsal, alət və texnoloji tərtibatların optimal ehtiyatlarının yaradılması;

2) istehsal prosesinin qidalandırılmasının təşkili;

3) hazır məhsulun saxlanması və yüklənib göndərilməsi.

İstehsal prosesindəki yerinə görə təchizat, istehsal və satış anbarları mövcuddur.

Anbarlara daxil olan yüklərin kəmiyyəti və keyfiyyəti texniki nəzarət şöbəsi tərəfindən əvvəlcədən yoxlanılır.

Material qiymətliləri anbardan sexlərə limit kartları əsasında buraxılır. Limit kartlarında material qiymətlilərinin hər bir növü üzrə sexlərin aylıq limiti göstərilir. Limitdən artıq material qiymətlilərinin alınması üçün əlavə tələbnamə yazılır.

Nəqliyyat və anbar təsərrüfatlarını aşağıdakı yollarla təkmilləşdirmək olar:

1) qaldırıcı-nəqliyyat və nəqliyyat maşınları parkının strukturunun yaxşılaşdırılması;

2) yükləyicilər parkının artırılması;

3) avtomatlaşdırma vasitələrinin geniş tətbiqi;

4) yük daşımalarının və anbar proseslərinin təşkilinin təkmilləşdirilməsi və s.

FƏSİL 9. MÜƏSSİSƏNİN TƏŞKİLAT STRUKTURLARI

9.1. Təşkilat strukturlarının formalaşması və növləri

İdarəetmə sisteminin səmərəliliyi xeyli dərəcədə idarəetmənin təşkilat strukturlarından, onların qurulması prinsiplərindən və təkmilləşdirilməsindən asılıdır. Məhz ona görə də idarəetmənin bütün səviyyələrində və iqtisadiyyatın bütün bölmələrində idarəetmənin təşkilat strukturlarının təkmilləşdirilməsi olduqca zəruridir.

Sənaye istehsalının idarə edilməsi funksiyalarının yerinə yetirilməsi üçün idarəedici sistem – idarəetmə orqanı yaradılır. İdarəetmə orqanının strukturu dedikdə, idarəetmə həlqələri və pillələrinin miqdarı və tərkibi, onların tabeçiliyi və qarşılıqlı əlaqəsi başa düşülür. İdarəetmə orqanının (aparatının) strukturu idarəetmə sahəsində əmək bölgüsünün bir forması kimi, idarəetmə sisteminin fəaliyyəti prosesinə və onun gələcək inkişafına fəal təsir edir. Daha doğrusu, idarə etmə aparatının quruluşu nə qədər mükəmməl olarsa, idarəetmənin istehsal prosesinə təsiri bir o qədər faydalı olar. İdarəetmənin strukturuna aşağıdakı tələblər verilir:

1. İdarəetmə aparatı struktunun optimallığı, yəni idarəetmənin bütün səviyyələrində onun müxtəlif həlqələri və pillələri arasında səmərəli əlaqələr yaradılmalıdır.

2. İdarəetmə aparatının operativliyi. Aparatın strukturu elə çevik və sadə olmalıdır ki, qərarın qəbul olunması anından onun idarəetmə sistemində həyata keçirilməsinədək olan müddətdə əsaslı dəyişikliklər baş verməsin. Çünki bu halda həmin qərarın həyata keçirilməsi lazımsız olur.

3. İdarəetmə aparatının etibarlılığı, yəni idarəetmə aparatının strukturu bütün ötürülən informasiyanın doğruluğunu təmin etməli, idarəedici əmrlərin və verilən

digər məlumatların təhrif olunmasına yol verməməli və idarəetmə sistemində əlaqənin kəsilməzliyini təmin etməlidir.

4. İdarəetmənin qənaətcilliyi, yəni idarəetmədən əldə edilən səmərə az miqdarda idarəetmə xərcləri ilə başa gəlsin. Burada kriteri olaraq ehtiyatların sərfi ilə faydalı nəticə arasındakı nisbət götürülə bilər.

İdarəetmə aparatı strukturunun təşkili zamanı bütün bu qeyd etdiyimiz amillər nəzərə alınmalıdır. Maddi-texniki bazanın vəziyyəti və məhsuldar qüvvələrin inkişafının əldə edilmiş səviyyəsi də idarəetmə aparatının quruluşuna təsir edir. Ümumi amillərlə yanaşı, sırf idarəetmə xarakterli amillər də mövcuddur. Bunlar aşağıdakılardır: idarəetmə formaları arasındakı nisbət; idarəetmə aparatı strukturunun istehsalın iyerarxiya quruluşuna uyğunluğu dərəcəsi; mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş idarəetmə formaları arasındakı nisbət; sahə və ərazi üzrə idarəetmə formaları arasındakı nisbət; eynicinsli idarəetmə prinsiplərinin təmərküzləşdirilməsi və idarəetmə proseslərinin ixtisaslaşdırılması arasında uzlaşma; idarəetmə işlərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi, işçilərin ixtisası, onların əməyinin faydalılığı; tabeçilikdəkilərin sayı ilə rəhbərlik tərəfindən onların fəaliyyətinə nəzarət imkanları arasında asılılıq.

Sənaye istehsalının idarə edilməsinin səmərəliliyi onun təşkili formalarından da çox asılıdır. İdarəetmənin aşağıdakı təşkilat formaları mövcuddur:

1) xətti təşkilat forması;

2) funksional təşkilat forması;

3) kombinələşdirilmiş, yəni xətti-funksional təşkilat forması. Bəzən buna xətti-qərargah forması da deyilir;

4) matris forması;

5) məqsədli-proqram forması;

6) şöbə təşkilat forması.

Xətti təşkilat formasında istənilən miqyaslı istehsal özəyinin başında rəhbər durur. O, tabeçiliyindəki işçilərə təkbaşına rəhbərlik edir və bütün idarəetmə funksiyalarını öz əlində cəmləşdirir. Rəhbərin özü isə fəaliyyətinin bütün məsələləri üzrə yuxarıda duran rəisə tabedir. Bunun əsasında da həmin idarəetmənin rəhbərlik iyerarxiyası (uyğun olaraq idarəetmə pillələrinin ayrılması) yaradılır. Məsələn, sahə ustası – sex rəisi – müəssisə direktoru. Bu zaman ayrı-ayrı idarəetmə funksiyalarının yerinə yetirilməsi üzrə hər hansı bir mütəxəssislər aparatı olmur.

İdarəetmənin xətti təşkilat strukturu şəkil 9.1.1.-də göstərilir.

Şəkil 9.1.1. İdarəetmənin xətti təşkilat strukturu (P-rəhbər; X-xətti idarəetmə orqanı və ya xətti rəhbərlər; И-icraçılar)

Xətti təşkilat sistemi aydın, dəqiq və sadə qarşılıqlı əlaqələrinə görə çox səmərəlidir. Məhz ona görə də min illər ərzində müxtəlif sosial idarəetmə sistemlərində bu formadan istifadə olunmuşdur. Lakin xətti təşkilat formasının ciddi nöqsanları vardır. Buraya mütəxəssislərin və yaxşı informasiyanın olmaması daxildir. Belə ki, fəhlələri əlaqələndirmək üçün əmri direktor verməlidir və bu əmr mütləq «sex rəisləri və ustalar» səviyyələrindən keçməlidir. Aydındır ki, bu zaman informasiya yavaş dövr edir və səviyyədən-səviyyəyə keçdikcə müəyyən dərəcədə təhrif olunur. Xətti təşkilat formasında rəhbər geniş biliyə malik

olmalı və tabeliyində olan bütün həlqələrin işindən eyni dərəcədə baş çıxarmalıdır. Belə bir nəticəyə gəlmək olar ki, xətti təşkilat forması məzmununa görə kifayət qədər sadə idarəetmə fəaliyyəti üçün tətbiq oluna bilər. Əmrlər və informasiya az olduqda bu sistem səmərəli olur.

Xətti təşkilatın mürəkkəb problemlərindən biri rəhbərlik səviyyələri üzrə məsələlərin bölüşdürülməsidir. İyerarxiya səviyyələri üzrə problemlərin bacarıqla bölüşdürülməsi rəhbərliyin səmərəliliyini artırır. Lakin bu bölgü olduqca mürəkkəbdir, çünki onun kriteriləri idarəetmə strukturunun özündən kənarda yerləşir.

Funksional təşkilat forması irəliyə doğru böyük addım olmuşdur. Onun məqsədi istehsalın mürəkkəbləşməsi şəraitində xətti təşkilatın nöqsanlarını aradan qaldırmaqdır. Funksional təşkilatın mahiyyəti ondan ibarətdir ki, idarəetmənin ayrı-ayrı funksiyaları ixtisaslaşdırılır, onların həyata keçirilməsi üçün idarəetmə aparatının xüsusi funksional bölmələri, yaxud ayrı-ayrı funksional icraçılar ayrılır. Funksional orqanın göstərişlərinin yerinə yetirilməsi istehsal bölmələri üçün məcburidir. Bu halda funksional təşkilat xətti təşkilatla yanaşı mövcud olur, daha doğrusu, icraçılar üçün ikili tabeçilik yaranır. Məsələn, fəhlə birbaşa sahə ustasının tabeliyində olsa da iş rejimləri üzrə texnoloqun, avadanlığa xidmət üzrə mexanikin və s. göstərişlərini də sözsüz yerinə yetirməlidir. Sex rəisi isə bilavasitə müəssisə direktoruna tabe olmaqla zavod idarəsinin müvafiq funksional şöbələrinin göstərişlərini də yerinə yetirməlidir. Funksional təşkilat strukturu şəkil 9.1.2.-də göstərilir.

Funksional idarəetmənin üstünlükləri aşağıdakılardır: xüsusi məsələlərin daha düzgün həlli, xətti rəhbərlərin imkanlarının genişləndirilməsi, funksional fəaliyyətin çoxsaylı məsələləri üzrə məlumatların hazırlanması tələbindən rəhbərlərin azad edilməsi.

Buna baxmayaraq funksional təşkilatın da bir sıra nöqsanları vardır: icraçıların iş üçün məsuliyyətinin azalması, çünki hər bir işçi bir neçə rəhbərdən göstəriş ala bilər və s.

Şəkil 9.1.2. İdarəetmənin funksional təşkilat strukturu (Ф-funksional idarəetmə orqanı və ya funksional rəhbərlər)

İdarəetmə strukturunun qurulmasının funksional prinsipi istehsalın idarə edilməsində təkbaşçılıq prinsipi ilə uzlaşır, ona görə də müəssisələrin idarə edilməsi sistemlərində tətbiq edilir. ABŞ iri firmalarının 25%-də funksional formadan istifadə olunur.

Xətti-funksional təşkilat sistemi istər xətti və istərsə də funksional idarəetmənin nöqsanlarını müəyyən dərəcədə aradan qaldırmağa imkan verir. Bu cür strukturda funksional xidmətlərin vəzifəsi xətti rəhbərlik üçün lazımi məlumatları hazırlamaqdır. Belə ki, həmin məlumatlar əsasında rəhbərlik istehsal və idarəetmə məsələlərinin daha düzgün həlli üçün qərarlar qəbul edir. Bu sistemin əsasını xətti təşkilat təşkil edir. Lakin hər bir rəhbərlik səviyyəsində qərargah yaradılır. Qərargahlarda rəhbərliyin qarşılaşacağı müxtəlif problemlər üzrə mütəxəssislər cəmlənir. Bəzi hallarda isə qərargahlarda müəyyən bölmələr və ya şöbələr

yaradılır ki, onlar da ayrı-ayrı problemlər üzrə ixtisaslaşır. Xətti-funksional struktur şəkil 9.1.3.-də göstərilir.

Yuxarıda qeyd etdik ki, bu sistemin əsasını xətti təşkilat təşkil edir. Lakin idarəetmə pilləsi nə qədər yüksək olarsa, onda funksional idarəetmənin rolu bir o qədər böyük olur. Əgər iş sahəsinin idarə edilməsində onun rolu azdırsa, bütünlükdə müəssisənin idarə edilməsində funksional orqanların rolu artır. İstehsalın texniki hazırlığı, istehsal proseslərinə rəhbərliklə əlaqədar olan məsələlərin həlli variantlarının hazırlanması və s. onlar tərəfindən həyata keçirilir.

Şəkil 9.1.3. İdarəetmənin xətti-funksional strukturu

Funksional orqanlar idarəetmə aparatının digər bölmələrinə sərəncamlar vermək hüququna malik deyildir. Belə idarəetmə strukturlarında xətti və funksional strukturların xassələri sintezləşir. Qəbul edilən qərarların və sərəncamların keyfiyyətinin yüksəlməsi və təkbaşçılıq prinsipinə əməl edilməsi bu sistemin üstünlüklərindəndir.

İdarəetmə aparatının xətti-funksional strukturu üstünlüklərinə baxmayaraq müəyyən nöqsanlara da malikdir ki, bunlar da istehsala rəhbərliyin orta və aşağı həlqələrində özünü göstərir. Bu nöqsanların ən başlıcası sistemin müxtəlif funksional bölmələri arasında üfüqi əlaqələrin zəif olmasıdır. Bunun nəticəsində də bir-birinə

yaxın olan idarəetmə funksiyaları bir-birilə kifayət qədər əlaqələndirilmədən həyata keçirilir. Bəzi hallarda sistemin manevretmə qabiliyyəti zəifləyir və s.

İdarəetmənin xətti-funksional strukturu maşınqayırma müəssisələrinin idarə edilməsində daha geniş yayılmışdır. Lakin aşağı idarəetmə pillələri (usta-fəhlə) üçün xətti, şöbələrə rəhbərlikdə isə funksional prinsip saxlanılır.

İstehsalın miqyasının artması və avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə idarəetmə aparatının qurulmasının yeni təşkilati formalarının inkişafını tələb edir. Bu inkişafın əsas istiqaməti istehsalatda baş verən hər cür dəyişikliyə çevik cavab verən struktura keçməkdir. İdarəetmənin xətti-funksional strukturunun digər idarəetmə formaları ilə birlikdə daha da inkişaf etdirilməsi bu prosesi sürətləndirir. Bu əsasda matris, məqsədli-proqram strukturları və digər formalar inkişaf etməkdədir.

Matris (məhsul növləri üzrə) idarəetmə strukturu böyük həcmdə mürəkkəb, qeyri-həmcins məhsulu bir vaxtda istehsal edən iri müəssisələrdə yaradılır. Bu zaman sexlərin bir qrupu, məsələn, hazırlıq və bir sıra mexaniki sexlər, bütün məhsul növləri üçün pəstahlar və detallar istehsal edir, başqa sexlər isə müəyyən növ məhsulun çox əmək tutumlu və mürəkkəb hissələrinin hazırlanması və ya müəyyən növ məmulatın yığılması üzrə ixtisaslaşdırılır. Belə təşkilat strukturu idarəetmənin operativliyini yüksəldir, lakin istehsal strukturunu genişləndirir, deməli, idarə aparatı işçilərinin sayını artırır (Şəkil 9.1.4).

Məqsədli-proqram strukturu hər bir sistemin müəyyən məqsədin əldə edilməsinə yönəldilmiş kompleks idarə edilməsi ilə səciyyələnir. Bu məqsədi həyata keçirmək üçün, bir qayda olaraq, qoyulmuş məqsədin əldə edilməsi ilə əlaqədar olan bütün bölmələrin fəaliyyətini əlaqələndirən və tənzimləyən xüsusi idarəetmə orqanı yaradılır. Məqsədli-proqram strukturu ya təkcə işlərin əlaqələndirilməsi, ya da

onlara direktiv rəhbərlik hüququna malik ola bilər. Müəssisələrdə məqsədli-proqram strukturunun funksiyalarının xətti-funksional strukturunun funksiyaları ilə birləşdirilməsi idarəetmə bölmələrində ixtisaslaşdırılmış əlaqələrin, daha doğrusu, idarəetmənin matris quruluşunun yaranmasına gətirib çıxarır. Bu strukturlarda funksional bölmələrin rəhbərləri ilə yanaşı ayrı-ayrı problemlər üzrə işlərin rəhbəri nəzərdə tutulur. Məsələn, istehsal bölmələrinin qarşısında qoyulmuş məqsədin (tədqiqatın)

Şəkil 9.1.4. Matris təşkilat strukturu

yerinə yetirilməsi ilə əlaqədar olan işləri əlaqələndirən layihələrin rəhbərliyi. Belə struktur, idarəetmə ştatını bir qədər artırsa da elmi-texniki tərəqqinin yüksək sürətlərini təmin edir, idarəetmənin operativliyini və keyfiyyətini yüksəldir, onun manevretmə qabiliyyətini artırır, inkişafın daha əsaslandırılmış proqnozunu təmin edir.

Şöbə idarəetmə strukturu (istehsal şöbələri üzrə). Bu halda məqsədli-proqram idarəetmə strukturunun elementlərindən istifadə olunur. İstehsal şöbəsinin rəhbərinə istehsalın planlaşdırılması və nəzarət funksiyaları həvalə olunur. Daha doğrusu, istehsal şöbəsinin rəhbəri aşağıdakı məsələlərin həllinə cavabdehdir: buraxılan məhsula tələbin dəyişilməsi meyli nəzərə alınmaqla zavodun planının əsas göstəricilərinin müəyən edilməsi; istehsal və satış xərclərinin səviyyəsinin təyin edilməsi; məhsul satışının genişləndirilməsi imkanları və satış sisteminin təkmilləşdirilməsi barəsində yuxarı rəhbərlərə tövsiyyələrin hazırlanması; funksional xidmətlər fəaliyyətinin əlaqələndirilməsi.

İstehsal şöbəsinin müdiri aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- istehsalın dəqiq hazırlanması;
- əməyin səmərəli təşkili;
- xammal, material və enerjidən optimal istifadə;
- istehsal güclərinin (avadanlığın) tam yüklənməsinin təmin edilməsi;
- texnoloji əməliyyatların yerinə yetirilməsi keyfiyyətinin yaxşılaşdırılması;
- tabeliyində olan işçilər tərəfindən öhdəliklərin yerinə yetirilməsi.

İstehsal şöbəsinin rəhbəri istehsal, əmək və maddi ehtiyatlardan tam istifadə etməklə az xərclərlə yüksək keyfiyyətli məhsul buraxılmasını təmin etməlidir.

Şöbə strukturu ABŞ firmalarında çox tətbiq olunur. Ölkəmizin maşınqayırma müəsisələrində isə bu strukturdan demək olar ki, istifadə olunmur.

Qeyd etmək lazımdır ki, idarəetmə aparatının təşkilat strukturu xətti rəhbərlərdən və onların tabeliyində olan funksional bölmələrdən ibarətdir. Xətti rəhbərlər sırasına birliyin baş direktoru, müəssisənin direktoru, istehsalat rəisi, sex rəisi, usta və briqadir daxildir. Birlik və

ya müəssisə miqyasında xətti rəhbərlərin sayı istehsal quruluşundan asılıdır. Müəssisələr, istehsallar, sexlər, sahələr və briqadalar nə qədər çox olarsa, xətti rəhbərlər bir o qədər çox olar. Ona görə də bölmələrin iriləşdirilməsinə, idarəetmə pillələrinin (xətti rəhbərlərin) sayının azalıdılmasına çalışmaq lazımdır. Xətti rəhbərlər istehsal quruluşunun müəyyən pilləsinin idarə edilməsi üzrə ixtisaslaşırlar. Ona görə də onlar bu pillə üçün xarakterik olan biliklərə və təcrübəyə malik omalıdırlar. Məsələn, briqadir və usta hər şeydən əvvəl, əməyin elmi təşkilinin, avadanlığın düzgün istismarı və onlara xidmətin mütərəqqi metodlarının fəhlələrə öyrədilməsi texnikasını və metodikasını bilməli, sex rəisi isə sahələrin və sexlərin təşkilinin, işlərin normalaşdırılması və planlaşdırılmasının mütərəqqi metodlarını bilməlidir. İdarəetmə pilləsi nə qədər yüksək olarsa, onun rəhbərindən həmin pillədə yerinə yetirilən və artmaqda olan funksiyalar üzrə daha böyük həcmdə bilik tələb edir.

Funksional rəhbərlər sırasına sexdə sex bürolarının (texnoloji, alət, plan-iqtisad, istehsal-dispetçer, əmək və əmək haqqı) rəisləri, sex mexaniki və başqa funksional bölmələrin rəhbərləri, birlik və ya müəssisə miqyasında isə baş mütəxəssislər və normalaşdırma, planlaşdırma, təchizat, uçot və s. funksional şöbələrin rəisləri daxildir.

Funksional bölmələrə metodiki rəhbərliyi və onlar tərəfindən işlərin yerinə yetirilməsinə nəzarəti müəssisənin idarəetmə aparatının funksional şöbələri həyata keçirir. Müəssisələrin təşkilat strukturlarında və idarəetmə aparatının ştatlarında kəskin fərqlərin yaranmasına yol verməmək üçün sahələrdə istehsal edilən məhsulun növləri, istehsalın tipləri və həcmləri üzrə analoji olan müəssisələr üçün birtipli strukturlar yaradılır.

İdarəetmə aparatının təşkilat strukturu aşağıdakı əsas tələblərə cavab verməlidir: müəyyən sahə üçün qəbul edilmiş birtipli struktur ona müvafiq gəlməlidir; idarəetmə

səviyyələri üzrə funksiyalar və idarə işlərinin həcmi dəqiq bölüşdürülməlidir; hər bir funksiyanın mərkəzləşdirilməsi və qeyri-mərkəzləşdirilməsi dərəcəsi səmərəli əlaqələndirilməlidir; istehsalın dəyişkən məqsədlərinə və şərtlərinə uyğun çevikliyə malik olmalıdır; idarəetmənin hər bir səviyyəsi və bölməsi üçün işlərin təşkili sistemi, onların yerinə yetirilməsi üçün təlimatlar, normativlər və normalar olmalıdır, yəni kifayət qədər informasiya təminatına malik olmalıdır.

Funksiyalar üzrə aparatın ixtisaslaşması dərəcəsini xarakterizə edən idarəetmə pillələrinin sayı; idarəetmənin mərkəzləşdirilməsi dərəcəsini xarakterizə edən idarənin sayı; sistemin fəaliyyəti prosesində meydana gələn əlaqələrin sayı, təşkilat strukturlarının mürəkkəbliyi və onların qurulmasının düzgünlüyü göstəriciləri kimi götürülə bilər.

9.2. Təşkilat strukturlarının layihələndirilməsi

İdarəetmənin təşkilat strukturunun layihələndirilməsi idarəetmə obyektinin vəziyyətinin və onun fəaliyyətinin xarakterinin öyrənilməsini; idarəetmə məqsədlərinin və vəzifələrinin müəyyən edilməsini; idarə funksiyaları dairəsinin, idarəetmə heyətinin və texniki vasitələrin tələb edilən sayının müəyyən edilməsini; bölmələrin və vəzifəli şəxslərin tərkibinin müəyyən edilməsini; funksiyaların və işlərin həcminin bölmələr üzrə bölüşdürülməsini; bölmələr üzrə əlaqələrin və tabeliyin reqlamentləşdirilməsini əhatə edir.

Təşkilat strukturunun layihələndirilməsi və təhlili üçün bir sıra metodlar tətbiq edilir:

1) analogiya metodu, bu zaman qabaqcıl oxşar müəssisənin strukturuna analoji olan və ya sahənin müəssisələri üzrə nazirliyin hazırladığı təşkilat strukturu layihələndirilir;

2) ekspert metodu, bu halda mövcud sistem təhlil edilir, sonra isə ekspertlərin rəyi nəzərə alınmaqla strukturun təkmilləşdirilməsi və ya yenidən qurulması haqqında qərar qəbul edilir; bu zaman yaxın profilli ən yaxşı mövcud müəssisələrin təşkilat strukturları üzrə çoxlu statistik material lazımdır;

3) məqsədlərin strukturlaşdırılması metodu, bu metod əvvəlcədən idarəetmənin məqsədinin müəyyən edilməsini və onun məqsədlər sisteminə (məqsədlər ağacı) qrafiki parçalanmasını (idarəetmə pillələrinin sayı buradan üzə çıxır) nəzərdə tutur. Məqsədlər qrafikinə nəzərən struktur elə qurulur ki, bütün məqsədlərin yerinə yetirilməsi təmin edilsin, lakin bu halda idarəetmə aparatının hər bir pilləsi bir məqsədi və ya bir neçə qarşılıqlı əlaqədar məqsədləri yerinə yetirir;

4) idarəetmə proseslərinin qrafik modelləşdirilməsi metodu; bu metod idarəetmə proseslərinin və sistemin bölmələri arasındakı əlaqələrin təşkilat strukturları, operatorlar, sənəd axını, xətti qrafiklər, şəbəkə qrafikləri və s. şəklində qrafik təsvirinə əsaslanır. Həmin metoddan başqa metodlara əlavə kimi istifadə edilir; o, təşkilat strukturlarının təhlilini yüngülləşdirir və təklif edilən layihə qərarlarının doğurduğu dəyişiklikləri aşkara çıxarmağa imkan verir;

5) riyazi modelləşdirmə metodu; bu, təşkilat strukturunda səlahiyyətlərin və məsuliyyətin bölüşdürülməsinin formalaşdırılmasına (modelləşdirilməsinə), strukturun səmərəlilik dərəcəsinin kəmiyyət kriterilərinin müəyyən edilməsinə əsaslanır; həmin metoddan strukturların variantlarının müqayisəli qiymətləndirilməsi üçün istifadə edilir.

Bu metodlardan kompleks istifadə edildikdə onlar optimala yaxın həlli almağa imkan verir.

Müəssisənin idarə edilməsinin təşkilat strukturları istehsalın quruluşundan asılıdır ki, bu da istehsal

bölmələrinin ixtisaslaşdırılmasını və sayını (deməli, xətti rəhbərlərin sayını və tərkibini), onların yüklənməsinin xarakterini, informasiya axınlarının məzmununu, bölmələr arasında əlaqələri (detallar, pəstahlar, materiallar, informasiya, sənədlər ilə mübadilə) və s. müəyyən edir. İdarəetmənin səmərəliliyi təkcə idarəetmənin təşkilat strukturunun optimallığından deyil, həm də idarəolunan sistemin, yəni istehsal bölmələrinin mükəmməlliyindən asılıdır.

Təşkilat strukturlarını qurmaq üçün istehsal bölmələrinin ölçüsü optimal olmalı (istehsal sahəsi 60-100 nəfər, sex üçün 400-800 nəfər); bölmədə istehsal prosesi qapalı olmalı; qarşılıqlı əlaqədar istehsalların birləşdirilməsi yolu ilə iriləşdirilməlidir. Bölmələrin bu cür iriləşdirilməsinə uyğun olaraq rəhbərin (onların aparatının da) sayı azalır, idarəetmə proseslərində istifadə olunan informasiya axınları ixtisar olunur və nizamlanır. İdarəetmə prosesi son hesabda informasiyanın işlənməsi prosesi olduğundan idarəetmə aparatının əmələ gəlməsi informasiyanın nizamlanmasına əsaslanır. İdarəetmə proseslərinin informasiya təminatı istehsalın idarə edilməsinin bütün səviyyələrində əsaslandırılmış idarəetmə qərarlarının qəbul edilməsi üçün vaxtında verilməli, doğru və kafi olmalıdır.

İdarəetmə aparatında işləyənlərin sayı təşkilat strukturuna təsir edən mühüm amildir: işləyənlərin sayı çox olduqca təşkilat strukturu və informasiya təminatı bir o qədər mürəkkəb olar. Ona görə də idarəetmə aparatında işləyənlərin sayı əsaslandırılmalı, görülən işlərin həcminə uyğun gəlməlidir. İdarəetmə aparatında işləyənlərin sayını təyin etmək üçün vaxt və hasilat normalarından, xidmət normalarından, hər hansı bir funksiyanı yerinə yetirmək üçün lazım olan heyətin sayı normativlərindən və idarəolunanlıq normalarından istifadə olunur. İdarəetmə aparatı strukturunun əmələ gəlməsində idarəolunanlıq normaları xüsusi rol oynayır, çünki o, bölmədə işləyənlərin

sayı ilə yanaşı tabeli rəhbərlərin, deməli, idarəetmə aparatının struktur bölmələrinin sayını da təyin etməyə imkan verir. Məsələn, müəssisənin direktoru və baş mühəndis üçün idarəolunanlıq norması 5-6 nəfər bilavasitə tabeli aşağı rəhbər, sex rəisləri üçün 6-8 nəfər tabeli, böyük ustalar üçün 2-3 növbə ustası, növbə ustası üçün seriyalı istehsalda 25-35 nəfər fəhlə və s. təşkil edir.

Müəssisənin idarəetmə aparatı strukturunun prinsipial sxemi şəkil 9.2.1.-də verilmişdir.

Bu halda müəssisə istehsal proseslərinin idarə edilməsinin dörd pilləli strukturuna malik olur: zavod idarəsi – korpusun (istehsalın) idarə edilməsi aparatı – sexin rəhbərliyi – sahənin rəhbərliyi.

Bu cür ixtisaslaşma bütün həmcins sexlərin funksional aparatını birləşdirməyə, sex rəisinin tabeliyində yalnız operativ rəhbərlik xidmətlərini, məsələn, istehsal planlaşdırılması bürosunu saxlamaqla onu bilavasitə istehsalat rəisinə tabe etməyə imkan verir. Korpus sistemi funksiyaların təmərküzləşdirilməsi hesabına idarəetmənin funksional aparatı işçilərinin sayını xeyli ixtisar etməyə imkan verir.

İdarəetmənin filial strukturunda istehsal sahələrindən, sexlərdən və bəzi hallarda isə korpuslardan başqa filiallar da yaradılır. Bu halda filial əlavə idarəetmə pilləsi deyil, istehsalın idarə edilməsinin xüsusi həlqəsi olur. Filialların meydana gəlməsi bəzi sexlərin və ya müstəqil istehsal sahələrinin baş müəssisədən ərazicə uzaq olmasından irəli gəlir. Korpusun statusundan fərqli olaraq filiallar əlavə hüquqlara və funksiyalara malik olur.

Birliyin tərkibinə daxil olmayan müstəqil müəssisənin təşkilat strukturu birliyin strukturu ilə oxşardır, lakin bu struktur az inkişaf etmiş olur və ona müəssisə direktoru başçılıq edir. Direktor müavinlərinin tərkibi, onların funksiyaları üzrə ixtisaslaşma və onların tabeliyində olan şöbələr birliklərdə olduğu kimidir.

Şəkil 9.2.1. Müəssisənin idarəetmə aparatı strukturunun prinsipial sxemi

Müəssisənin təşkilat strukturu və idarəetmə aparatı müəssisə qarşısında duran vəzifələrin yerinə yetirilməsi məqsədi nəzərə alınmaqla qurulur.

Sənaye müəssisəsi bir qayda olaraq sexlərə, sexlər isə sahələrə bölünür. Müəssisənin idarə edilməsinin təşkilat strukturunun dörd növü vardır: sexsiz; sexli; korpuslu və ya istehsal; filial.

İdarəetmənin sexsiz strukturunda əsas inzibati istehsal vahidi müstəqil sahələrdir. Bu isə müəssisədə ən sadə iki pilləli struktur yaratmağa imkan verir: zavod idarəsi – sahənin rəhbərliyi.

Sexsiz struktur əsas istehsal fəhlələrinin sayı 1000 nəfərdən az olan kiçik müəssisələrdə tətbiq edilir; bu halda istehsal sexlərə deyil, bilavasitə müəssisənin direktoruna tabe olan böyük ustaların rəhbərlik etdikləri istehsal sahələrinə bölünür. Sahələrə xidmət üzrə bütün funksiyaları zavod idarəsi aparatı yerinə yetirir.

Sexli strukturda əsas inzibati-istehsal vahidi (özəyi) sexlərdir. Bu halda üç pilləli idarəetmə strukturu yaradılır: **zavod idarəsi-sexin** idarə aparatı – sahənin rəhbərliyi.

Sex müəssisənin struktur bölməsi olub, məhsulun müəyyən hissəsini istehsal edir və ya müəyyən texnoloji prosesi həyata keçirir. Sexin başlıca vəzifəsi müəyyən olunmuş texniki-iqtisadi göstəricilərə əməl etməklə planda nəzərdə tutulmuş miqdarda və çeşiddə müvafiq keyfiyyətli məmulatları istehsal etməkdən ibarətdir.

Sexlər və onların bölmələri müəssisənin direktoru tərəfindən təsdiq edilmiş əsasnaməyə uyğun olaraq işləyirlər.

Müəssisələrdə əsas istehsal sexləri bilavasitə direktora, təcrübə sexləri – baş mühəndisə, köməkçi sexlər – baş mexanikə, nəqliyyat, təsərrüfat və başqa xidmətedici sexlər isə kommersiya (və ya ümumi) məsələlər üzrə direktor müavininə tabe olur.

Korpuslu və ya istehsal strukturunda istehsal sahələri və sexləri ilə yanaşı idarəedici sistemdə əlavə pillə – korpus (istehsal) yaradılır. Korpus adətən bir binada yerləşən və bir-biri ilə qarşılıqlı əlaqədə olan, yaxud birtipli sexləri birləşdirir.

Müəssisənin marketinq xidmətinin təşkilat strukturunu üç əsas qrupa ayırmaq olar. Birinci qrupa funksional əlamət üzrə qurulmuş marketinq xidməti daxildir. İkinci qrup bazar əsasında qurulmuş marketinq xidmətini əhatə edir. Üçüncü qrupda qarışıq tipli marketinq xidmətləri (mallar və bazarlar, funksiyalar və mallar, funksiyalar və bazarlar, funksiyalar və regionlar üzrə matris xidmətləri) cəmləşmişdir.

İdarəetmənin mövcud strukturu və metodları üçün nəhəng və fasiləsiz artmaqda olan aparat səciyyəvidir. Bu aparat iqtisadiyyata iqtisadi vasitələrdən və maraqlardan istifadə etməklə deyil, ətraflı və operativ sərəncamlar vermək və xırda nəzarət yolu ilə rəhbərlik etməyə çalışır. Nəticədə idarəetmə sistemi tədricən səmərəliliyini itirir.

Hazırda müəssisələrdən başlamış, regionlara və xalq təsərrüfatınadək bütün səviyyələrdə təşkilat strukturlarının yenidən qurulması zəruri hesab olunur.

Müəssisənin (birliyin) təşkilat strukturlarının əmələ gəlməsi və inkişafını təmin etmək, ictimai istehsal prosesini, onun təmərküzləşməsini, ixtisaslaşmasını və kombinələşdirilməsini, iqtisadiyyatda müxtəlif inteqrasiya proseslərinin inkişafınıləngidən məhdud idarəçilik və yerliçilik maneələrini dəf etmək lazımdır.

İstehsal birliyinin idarə edilməsinin təşkilat strukturunun təkmilləşdirilməsi idarəetmə funksiyalarının mərkəzləşdirilməsinin optimal dərəcəsinin, yəni bu və ya başqa qərarın qəbul edildiyi səviyyənin müəyyən edilməsi ilə əlaqədardır. Bu zaman qərarların sayı və əhəmiyyəti, onun əhatə etdiyi funksiyaların sayı, həmin qərarlara nəzarətin formaları və s. nəzərə alınır. İdarəetmənin səmərəli

mərkəzləşdirilməsi müəyyən edilərkən elə şərait yaratmaq lazımdır ki, idarə heyətinin hər bir orqanı ona həvalə olunmuş idarəetmə sahəsi üçün cavab vermək imkanına malik olsun.

İstehsalın intensiv inkişafına keçid iqtisadi xidmətlərin iş səviyyəsinə xüsusilə yüksək tələblər qoyur. İdarəetmə strukturlarında onların yerini və istehsalın səmərəliliyinin yüksəldilməsində rolunu dəqiq müəyyən etmək lazımdır.

İstehsal birliyinin təşkilat strukturu işlərin bircinsliliyini, buraxılan məhsulun mürəkkəbliyini, istehsalın tipini və istehlakçılara xidmətin növünü nəzərə almalıdır. İstehsal birliklərində idarəetmənin təşkilat strukturları layihələndirilərkən kapitalist konsernlərinin təcrübəsindən istifadə oluna bilər.

Son illərdə istehsal birliklərində idarəetmənin təşkilat strukturlarının inkişafının başlıca meylləri sırasına aşağıdakıları aid etmək olar: elmi-texniki xidmətlərin təmərküzləşdirilməsi əsasında idarəetmənin mərkəzləşdirilməsi; elmi-texniki xidmətin yeni-yeni funksiyalarının ixtisaslaşdırılması; funksional şöbələrə sərəncamverici hüquqların verilməsi; konkret elmi-texniki proqramların həyata keçirilməsi üçün təsərrüfatlararası müvəqqəti birilklərin yaradılması; şöbələrin hesabi mənfəətinin hesablanması üçün əsas kimi götürülən firmadaxili hesabi qiymətlər sisteminin yayılması; idarəetmənin başqa funksiyaları içərisində proqnozlaşdırmanın və kadrların yenidən hazırlanmasının rolunun artması.

Müəssisələrin tam təsərrüfat hesabına və öüzünü maliyyələşdirmə formasına keçirilməsi ilə əlaqədar olaraq onlar ümumi müştərək istehsalları yaratmaq, birləşmək, hətta tam qovuşmaq imkanına malik olmuşlar.

İnkişaf etmiş kapitalist ölkələrində idarəetmənin təşkilat strukturları, istehsal-satış tsiklinin idarə edilməsi

formaları və metodları aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilir:

- istehsal və satış əməliyyatlarının qeyri-mərkəzləşdirilməsi;
- yeniliyin tətbiqi, yeni bazarların axtarışı;
- kollektivin yaradıcı və istehsal imkanlarının (veriminin) müntəzəm artırılması;
- məhdud ixtisaslaşdırmadan idarəetmə fəaliyyətinin xarakterində və idarəetmə üslubunda inteqrasiyaya keçid;
- idarəetmənin piramida şəkilli təşkilat strukturlarından hamar, yəni ali rəhbərlik ilə bilavasitə icraçılar arasında səviyyələrin minimal sayına malik strukturlara keçid;
- əlaqələndirmə və nəzarət üçün inzibati vasitələrdən istifadə olunmasından imtina edilməsi;
- istehsal-satış problemlərinin həllində firma rəhbərlərinə ən geniş səlahiyyətlərin verilməsi.

Bazar iqtisadiyyatına keçid dövründə ölkəmizin sənaye müəssisələrində də ən səmərəli və uzun illərin sınağından çıxmış idarəetmə strukturlarını tətbiq etmək istehsalın tənzimlənməsinə və sabit istehsal həcminin təmin edilməsinə imkan verər.

BÖLMƏ 3

MÜƏSSİSƏ FƏALİYYƏTİNİN İQTİSADİ MEXANİZMİ

FƏSİL 10. MÜƏSSİSƏNİN İQTİSADİ STRATEGİYASI

10.1. İqtisadi strategiyanın formalaşdırılması

Təsərrüfat strategiyasının formalaşmasını ümumi şəkildə müəyyən vaxt dövründə müəssisənin inkişafı və fəaliyyəti məqsədlərinin, eləcə də qarşıya qoyulmuş məqsədlərin əldə edilməsi üçün vəsaitlərdən istifadə üsullarının hazırlanması prosesi kimi göstərmək olar.

Təsərrüfat strategiyasının seçilməsi bir çox şərtlərdən asılıdır: rəqabət mübarizəsinin formaları və onun gərginliyi dərəcəsi; inflyasiyanın sürəti və xarakteri; hökumətin iqtisadi siyasəti; dünya bazarında milli iqtisadiyyatın müqayisəli üstünlükləri; müəssisənin xarici və daxili mühiti (amilləri).

Müəssisənin seçdiyi təsərrüfat strategiyasının sahibkarlıq mühitində baş verən ümumi meyllərə uyğunluğu dərəcəsi onun rəqabət qabiliyyətini də həlledici dərəcədə müəyyən edir.

Təsərrüfat təcrübəsində müəssisələrin rəqabət qabiliyyətinin dörd səviyyəsini fərqləndirirlər:

1. Bazar «taxçasında» yer almış kiçik müəssisələr. Onlar öz vəzifələrini istehlakçılar və rəqiblər üçün heç bir sürpriz vermədən müəyyən növ məhsul buraxmaqda və istehsal planını dəqiq yerinə yetirməkdə görürlər. Lakin, bu cür müəssisələr böyüməyə, öz istehsalının miqyasını artırmağa başladıqda ya bazarda malik olduğu «taxçanı» aşaraq bazarın digər seqmenti uğrunda rəqabətə başlayır, ya da bazardakı ilkin «taxça» çiçəklənən bazara

çevrilir və digər istehlakçılar üçün daha cəlbedici olur. Bu halda keyfiyyət, qiymət, malların göndərilməsi dəqiqliyi, istehsal xərcləri, xidmət səviyyəsi və s. sahələrdə rəqiblərin təklif etdikləri standartları ötüb-keçmək üçün müəyyən üstünlüyü əldə etməyə çalışmaq lazımdır. Ona görə də bu səviyyənin müəssisələri üçün təsərrüfat strategiyasının ən yaxşı variantı bazarda yeni-yeni «taxçaları» axtarmaqdan ibarətdir. Müəssisələrdə istehsalın və təsərrüfat fəaliyyətinin diversifikasiyasının sadə formasını əks etidirən bu cür yanaşma rəqabət qabiliyyətini saxlamağa imkan verir.

2. «Liderin dalınca gedən». Belə müəssisələr sahənin aparıcı müəssisələrində mövcud olan texniki priyomlardan, texnologiyadan, xammaldan, istehsalın təşkili metodlarından və s. maksimal dərəcədə əxz etməyə çalışırlar. Lakin sahədaxili rəqabət azacıq dəyişilən kimi bu cür müəssisələr çətin vəziyyətə düşürlər.
3. İdarəetmə sistemi istehsal sistemlərinə fəal təsir etməyə, onun inkişafına və təkmilləşdirilməsinə yardım göstərməyə başlayan müəssisələr. Belə müəssisələrdə rəqabət mübarizəsindəki uğuru istehsal funksiyalarının deyil, idarəetmə funksiyalarının müvəffəqiyyəti hesab olunur.
4. Rəqiblərini bir neçə il qabaqlayan müəssisələr. Faktiki olaraq bunlar dünya səviyyəli müəssisələrdir və məhsulunun yüksək keyfiyyəti ilə bütün ölkələrdə nüfuz qazanmışdır.

Rəqabət mühitinin mövcud olduğu bazar şəraitində istehsalın səmərəliliyinin artırılması üçün elə təsərrüfat strategiyaları lazımdır ki, onlar uzunmüddətli mənfəətin əldə edilməsinə, müəssisənin maliyyə vəziyyətinin dayanıqlılığının və rəqabət qabiliyyətinin nisbətən uzun müddət üçün yüksəldilməsinə yönəlmiş olsun.

Qısamüddət üçün yüksək mənfəətliliyi təmin etmək üçün müəssisə istehsalın səmərəliliyini artırmaya da bilər,

lakin bu halda gələcək rəqabət mübarizəsində öz mövqelərini itirəcəkdir. Əksinə o, uzun müddət özünün rəqabət qabiliyyətini təmin etmək, bir neçə il (7-12 il) daha çox mənfəət əldə etmək üçün daim istehsalın səmərəliliyini yüksəltməlidir.

İstehsalın səmərəliliyinin yüksəldilməsi, onun daha da intensivləşdirilməsi üzrə tədbirlər son nəticədə istehsalın texniki cəhətdən modernləşdirilməsini, elmi-texniki tərəqqinin (ETT) nailiyyətlərinin tətbiqini, idarəetmə sisteminin və əməyin təşkilinin yenidən qurulmasını tələb edir. Bu isə öz növbəsində kapitalın uzun müddət dövr etməsini, xərclərin ödənilməsini və nisbətən uzun müddət ərzində daha yüksək mənfəətin əldə edilməsini təmin edəcəkdir. Yeni sənaye tikintisi üçün iri miqyaslı investisiyaların, elmi-tədqiqat və layihə-konstruktor (ETLKİ) üçün iri həcmli xərclərin ödəmə müddəti böyükdür və orta hesabla 7-8 ildən sonra mənfəət gətirir. Təşkilat strukturlarının və idarəetmə sistemlərinin yenidən qurulması, kadrların hazırlanması və tədrisinin təşkili, fəhlələrin ixtisasının artırılması yüksək keyfiyyətli insan kapitalının geniş təkrar istehsalı tədbirləri, habelə yeni texnikanın tətbiqi və mənimsənilməsi tədbirləri də bir ildən çox ödəmə müddətinə malikdir. Bundan əlavə yeni məhsulun işlənib hazırlanması və istehsalı əksər hallarda satış şəbəkəsində radikal dəyişiklikləri tələb edir, lakin bu şəbəkənin formalaşması isə orta hesabla 3-5 il təşkil edir. Beləliklə, istehsalın səmərəliliyinin artımını və rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edən tədbirlərin həyata keçirilməsi yalnız uzunmüddətli mənfəətin əldə edilməsinə yönəldilmiş təsərrüfat strategiyası hədlərində mümkündür. Kapitalın geniş təkrar istehsalını təmin edən belə strategiyalar birinci tip strategiyalar adlanır. Bu tip strategiyaları həyata keçirmək təkcə ilkin iri investisiyalarla əlaqədar deyildir, həm də fərdi kapitalın özünün

dəyişilməsinə gətirib çıxarır ki, buna da müəssisənin rəhbərliyi müvafiq qaydada cavab verməyə məcburdur.

İkinci tip strategiyalar müəssisənin təsərrüfat strukturunda manevr etmək (onun aktivlərilə), kapital bazarında möhtəkirlik və məhsulun qiymətini süni surətdə qaldırmaq yolu ilə cari maliyyə göstəricilərin optimallaşdırılmasına, qısamüddətli mənfəətin maksimallaşdırılmasına yönəlmişdir.

Bazar şəraitində təsərrüfat strategiyasının hər iki tipi müəssisənin idarə edilməsində çulğalaşır və onların ayrılması kifayət qədər şərti xarakter daşıyır. Ona görə də istehsalın səmərəliliyinin dinamikası üçün ən vacibi müəssisə rəhbərliyinin yalnız təsərrüfat strategiyasının bu və ya başqa tipinə ciddi əməl etmək deyildir. Eyni zamanda müəssisə rəhbərliyi firmadaxili idarəetmədə onların nisbətinə, seçilmiş strategiyanın bazarda müəssisənin rəqabət qabiliyyətinin möhkəmləndirilməsi vəzifələrinə uyğunluğuna, deməli, həmin anda konkret müəssisənin malik olduğu texnoloji uklada, təsərrüfatın xüsusiyyətinə və müqayisəli üstünlüklərinə əməl etməlidir.

Təbiidir ki, strategiyanın hər bir tipində müəyyən müəssisənin təsərrüfat və istehsal xüsusiyyətlərinə uyğun gələn çox sayda müxtəlif növlərini ayırmaq olar. Bu baxımdan birinci tip strategiyalara aşağıdakıları aid etmək olar:

- istehsal xərclərinin minimallaşdırılması strategiyası;
- müəssisənin nəzarət etdiyi satış bazarı payının artırılması strategiyası («bazar payı» strategiyası);
- ETLKİ-nin innovasiya planlaşdırılması strategiyası.

İstehsal xərcləri minimallaşdırılarkən avans olunmuş əsaslı xərclərin azalması nəticəsində mənfəət artır. İstehsalın səmərəliliyinin artımı məcmu əmək məsrəflərinin azalması, istehsalda daha məhsuldar texnikanın, xammal və materialların da qənaətcil növlərinin tətbiqi, istehsalın

təmərküzləşdirilməsinin artımı, böyük vahid gücə malik avadanlıqdan istifadə etməklə məmulatların seriyalı buraxılışının artırılması hesabına əldə edilir.

Satış bazarı payının artırılmasına yönəlmiş strategiya satlıq məhsulun ümumi həcmində yeni yaradılmış dəyərin (şərti-xalis məhsul) daha yüksək payı, müəssisədə dövriyyənin artım sürəti hesabına istehsalın səmərəliliyinin yüksəldilməsinə şərait yaradır. Satış bazarı payının artırılması bilavasitə rəqiblər üzərində üstünlüyü təmin olunması ilə əlaqədardır. Bu isə xeyli dərəcədə məhsulun istehlak keyfiyyətlərinin, texniki səviyyəsinin yüksəlməsi, istehlakçılara xidmət keyfiyyətinin yaxşılaşdırılması və digər müqayisəli üstünlüklərin həyata keçirilməsi ilə bağlıdır. Bu strategiyanın həyata keçirilməsi həmçinin məhsulun satışı üzrə xüsusi xərclərin azaldılması hesabına (yəni mal ehtiyatlarının, məmulatların saxlanması və s. üzrə xərclərin azaldılması hesabına) da istehsalın səmərəliliyinin artırılmasına yardım edə bilər.

Yeniliklərin yaradılmasına və istehsalının mənimsənilməsinə yönəlmiş ETLKİ-nin innovasiya planlaşdırılması (proqramlaşdırılması) strategiyası çərçivəsində təkcə mütərəqqi texnologiyaların yaradılması və tətbiqi həyata keçirilmir, həm də bazarda yaxın analoqu olmayan prinsipcə yeni, daha yüksək keyfiyyətli məhsul növləri hazırlanır. Bu strategiya istehsalın səmərəliliyinin dinamikasına həm xərclərin azaldılması (yeni texnologiyaların mənimsənilməsi), həm də nəticənin artırılması hesabına müsbət təsir göstərir. Bazar şəraitində ETT-nin yüksək sürətlərində müəssisələr rəqiblərlə uğurla mübarizə aparmaq üçün yaranmış məhsul strukturuna sadəcə uyğunlaşmamalı, onu kökündən dəyişməyə, yeni mallar və xidmətlər bazarının formalaşdırılmasına çalışmalıdırlar.

Aydındır ki, real təsərrüfat təcrübəsində birinci tip strategiyaların göstərdiyimiz növləri bir-birilə sıx surətdə

əlaqələnir. Belə ki, yeni məhsulların istehsalının artırılması, bu məhsulların istehsalının rəqiblər tərəfindən mənimsənilməsi yenilikçi müəssisələri (pioner müəssisələr) məcbur edir ki, bazarı əldə saxlamaq və onun payını artırmaq üçün istehlakçıları qane edən qiymət səviyyəsinə keçsin, deməli, istehsal xərclərini minimallaşdırsın.

İkinci tip strategiyalara aşağıdakıları aid etmək olar:

- istehsal xərclərinin maksimallaşdırılması (süni surətdə artırılması) strategiyası;
- istehsal xərclərinin artımının istehlakçılara keçirilməsi strategiyası;
- ETLKİ-nin imitasiya proqramlaşdırılması;
- «kapital qoyuluşları portfeli» ilə manipulyasiyalar strategiyası.

İstehsal xərclərinin maksimallaşdırılması birbaşa (sahədaxili) qiymət rəqabətinin olmaması şəraitində dövlətin və ya digər subsidiyaların hesabına mənfəətin artırılmasına yönəlmişdir. Məsələn, ABŞ-da bu strategiyadan hərbi-sənaye kompleksinin müəssisələrində daha geniş istifadə olunur.

İstehsal xərclərinin artımının istehlakçılara keçirilməsi strategiyası çərçivəsində istehsal xərclərinin artımı (xammal və materiallara qiymətlərin artması nəticəsində) bilavasitə məhsulun qiymətində nəzərə alınır, deməli istehlakçıların üzərinə keçirilir. İnflyasiyanın yüksək sürəti və ödəmə müddəti uzun olan investisiyaların tez qiymətdən düşməsi şəraitində müəssisələr qiymətləri artmış resursları dəyişməyə və əgər iri kapital qoyuluşları tələb olunursa, yeni, resurslara qənaət edən texnologiyaların tətbiqinə başlamağa cəhd göstərmirlər. Bu halda yalnız istehsalın səmərəliliyinin səviyyəsi dəyişilməz qalmaqla yalnız buraxılış qiymətləri təshih edilir.

ETLKİ-nin imitasiya proqramlaşdırılması zamanı iqtisadi nəticə bazarda olan məhsullar üzərində müəyyən «kosmetik» yaxşılaşdırmalar aparmaqla məhsulun çeşidinin

təzələnməsi hesabına əldə edilir. Belə strategiya çərçivəsində qısamüddətli mənfəət əldə etmək olar, lakin çətin ki, o, uzun perspektiv üçün müəssisənin rəqabət qabiliyyətini təmin edə bilsin. Eyni zamanda istehsalın səmərəliliyinin səviyyəsində və artım sürətlərində əhəmiyyətli dəyişikliklər baş verməyəcəkdir, çünki xərclərlə nəticələr arasındakı nisbətlər dəyişilmir. Mahiyyətcə imitasiya proqramlaşdırılması da əvvəlki strategiyanın təzahürlərindən biridir və əsas etibarilə rəqabətin qeyri-qiymət formasıdır.

«Kapital qoyuluşları portfeli» ilə manipulyasiyalar strategiyası çərçivəsində fəaliyyətdə olan müəssisələrin (eləcə də onların aktivlərinin) alqı-satqısı, müəssisələrin birləşməsi və fond birjalarında qiymətli kağızlarla əməliyyatlar yolu ilə müəssisələrin digər müəssisələr tərəfindən udulması baş verdiyindən kapitalın qeyri-məhsuldar yayındırılması nəticəsində istehsalın səmərəliliyinin dinamikasına neqativ təsir göstərir. Belə ki, istehsal güclərinin texniki modernləşdirilməsi, istehsalın inkişafına kapital qoyuluşlarının artımı baş vermir, maliyyə resursları isə yalnız mövcud istehsal aparatının istehsal vasitələrinin mülkiyyətçiləri arasında yenidən bölüşdürülməsi üçün istifadə olunur. Bu halda əsas diqqət müəssisənin cari maliyyə vəziyyətinin yaxşılaşdırılmasına, səhmdarların müəssisənin qiymətli kağızlarının dəyərinin artırılmasına deyil, hər şeydən əvvəl sabit qaydada yüksək dividendlər almaq və ya səhmlərin məzənnəsinin dəyişilməsi oyunlarında maraqlı olan hissəsinin tələbatını təmin etmək qabiliyyətinin yüksəldilməsinə yönəldilir.

Strategiya tiplərinin hər birinin üstünlüyü müəssisənin təsərrüfat fəaliyyətinin bir sıra amillərinin təsiri ilə müəyyən edilir. Məsələn, aparıcı yapon firmalarının strategiyası üçün hər şeydən əvvəl istehsalın artan diversifikasiyası səciyyəvidir. Bu, yeni ideyaların və texnologiyaların meydana gəlməsi (ETLKİ-nin innovasiya

proqramlaşdırılması), yeni bazara çıxışın zəruriliyi («bazar payı» strategiyası) və ya firmanın artım sürətlərinin zəifləməsi təhlükəsinin yaranması ilə əlaqədardır. Hökumətin sənaye siyasəti istehsalın diversifikasiyasını dəstəkləyir. Belə ki, yeni sənaye sahələrini, yeni satış bazarlarını mənimsəyən şirkətlərə əlavə stimullar verilir və s.

Bu zaman ilkin olaraq diqqət təsərrüfat strategiyalarının bir növünə, sonra isə digərlərinə yönəldilə bilər. Yaponiyanın sənaye şirkətləri yeni bazarları (sahələri) mənimsəyərkən əvvəlcə istehsal xərcləri üzrə liderlik etməyə çalışırdılar, çünki bu, onlara bazarın kiçik bir hissəsini ələ keçirməyə və sonradan onu tədricən genişləndirməyə imkan verirdi. Bazarın müəyyən payını əldə etdikdən sonra isə innovasiya fəallığı və istehsalın təkmilləşdirilməsi daha çox əhəmiyyət kəsb edirdi. Məhsulun maya dəyərində əmək haqqı xərclərinin xüsusi çəkisi azaldıqca şirkətlər yeni texnikaya kapital qoyuluşunu artırmırdılar və investisiya proqramlarının iqtisadi səmərəliliyini dəqiq hesablamağa, mövcud istehsal avadanlığından maksimal dərəcədə istifadəyə çalışırdılar.

Bütünlükdə strategiyaların nisbətlərindəki dəyişikliklər makroiqtisadi səviyyədə idarəetmədən və müəssisələrin uzaqgörənliyindən, daha yüksək, uzunmüddətli mənfəəti əldə etmək naminə qısamüddətli mənfəətdən imtina etməyə hazır olmasından asılıdır.

Təsərrüfat strategiyasının iki tipinin nisbətini müəyyən edən mühüm amillərə bazar rəqabətinin dərəcəsi və əsas formaları daxildir. Bir sahə daxilində istehsalçıların mükəmməl qiymət rəqabəti müəssisə rəhbərlərini istehsal xərclərini azaltmaq və bunu təmin edən yenilikləri həyata keçirmək məcburiyyətində qoyur. Beləliklə, sahədaxili qiymət rəqabətinin yüksək dərəcəsi istehsalın səmərəliliyinin yüksəldilməsinə, təsərrüfat fəaliyyətinin diversifikasiyasına yardım edən vacib şərtdir.

Lakin sahədaxili rəqabətdə əyintilərə səbəb olan müəyyən hallarda (inflyasiyanın yüksək sürəti, hökumətin vergi siyasəti, istehsalın həcmində dövlət sifarişlərinin payı və s.) müəssisələr diversifikasiyanın başqa yollarına üstünlük verə bilərlər. Daha doğrusu, yeni məhsulları yaratmaq əvəzinə müəssisələr digər sahələrdə artıq mövcud olan müəssisələri və istehsal güclərini satır və ya alır.

Təsərrüfat strategiyasının bu və ya başqa tipinin üstünlüyünü müəyyən edən digər mühüm amil kimi işçi qüvvəsinin artım sürətinin əsas kapitalın bilavasitə canlı əməyi əvəz edən aktiv hissəsinə nisbəti götürülə bilər. Bu nisbət müəssisədə istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılmasının, əməyə qənaət edən yeni texnika və texnologiyaların tətbiqini hansı miqyaslarda həyata keçiriləcəyini xeyli dərəcədə müəyyən edir. Əgər əmək haqqı əsas kapitalın fəal hissəsinin dəyərinə nisbətən daha yüksək sürətlə artarsa, onda yeni texnikaya və texnologiyalara investisiyaların artırılması üçün firmaların müdiriyyətində stimul yaranır, çünki bu, istehsal xərclərinin səviyyəsinin ümumilikdə azalmasına gətirib çıxarır.

Bazar şəraitində təsərrüfat strategiyalarının formalaşması prosesi üçün vaxt amilinin də böyük əhəmiyyəti vardır. Əsas kapitalın dövretmə müddətinin nisbətən uzun olması, istehsal avadanlığına, yeni məhsulların və texnologiyaların hazırlanmasına investisiya qoyuluşundan mənfəətin əldə edilməsi üçün xeyli vaxt tələb olunması ilə əlaqədar olaraq strategiyanın birinci tipinin üstünlük təşkil etməsi müəyyən inflyasiya ilə yanaşı, həm də təsərrüfat konyukturasının məlum dayanıqlığını, yeni kapital qoyuluşlarının nisbətən az risk dərəcəsini nəzərdə tutur.

Təsərrüfat strategiyalarının iki tipinin nisbətlərinə müəssisənin aktivlərinin strukturu da təsir göstərə bilər. Belə ki, müəssisənin aktivlərində səhmdar kapitalının payının yüksək olması müəssisə rəhbərlərini ikinci tip

strategiyanı seçməyə və qısamüddətli mənfəət əldə etməyə məcbur edə bilər. Burada hökumətin iqtisadi siyasəti və bazarın dövlət tərəfindən tənzimlənməsinin səmərəliliyi də mühüm təsir göstərə bilər.

Müasir şəraitdə sənayedə struktur yenidənqurmanın dövlət tərəfindən həvəsləndirilməsi, əməyin və kapitalın sahələrarası intensiv axınının təmin edilməsi və ən yeni sahələrin üstün inkişafı mühüm əhəmiyyət kəsb edir.

İstehsalın səmərəliliyinin real artımı üçün təkcə müəssisə rəhbərlərinin əsas kapitalın geniş təkrar istehsalına investisiya qoyuluşunda maraqlı olması və strategiyanın birinci tipinə səmtlənmə kifayət deyildir, necə ki, son məhsulu əldə etmək üçün sadəcə texnikanın əldə edilməsi kifayət etmir. Bunun üçün avadanlığın tətbiqi və istifadə olunması prosesini təşkil etmək lazımdır. İstehsalın səmərəliliyinin səviyyəsi və dinamikası firmadaxili planlaşdırmadan, idarəetmə sistemlərindən və strukturlarından, əməyin təşkili və stimullaşdırılması formalarından asılı olacaqdır. Firmadaxili planlaşdırmanın inkişafı və təkmilləşdirilməsi isə öz növbəsində təsərrüfat strategiyasının hansı tipinin üstün mövqedə olmasından asılıdır. Birinci tip strategiya üstünlük təşkil edəndə inkişaf daha intensiv sürətlə həyata keçirilir, daha böyük həcmdə resursların (hər şeydən əvvəl kadrların) cəlb edilməsi tələb olunur, strategiyanın ikinci tipi üstün olanda isə inkişaf daha zəif sürətlə baş verir.

10.2. Müəssisənin iqtisadi strategiyasının hazırlanması mərhələləri

Hər bir müəssisə fəaliyyət sferasından və istehsalın həcmindən asılı olmayaraq öz fəaliyyətini planlaşdırmalıdır. Planlaşdırma – məqsədlərin formalaşdırılması, prioritetlərin, onların əldə edilməsi vasitələrinin və metodlarının müəyyən edilməsi prosesidir. Planlaşdırma prosesi bir neçə

istiqaməti əhatə edir. Onlardan biri proqnozlaşdırmadır, daha doğrusu, müəssisənin strateji məqsədlərinin əldə edilməsi planlarının (perspektiv və strateji planlaşdırma) hazırlanmasıdır.

Strateji planlaşdırma idarəetmənin yuxarı səviyyəsində cəmləşir və müəssisə fəaliyyətinin müxtəlif tərəflərinin inkişafı meyllərini müəyyən etmək, onun fəaliyyəti üçün ən əlverişli şəraitin hesablanması və seçilməsi məqsədini daşıyır. Strateji planlaşdırmanın fərqləndirici cəhəti plan üfüqlərinin (daha doğrusu, perspektiv siyasətin hazırlandığı vaxt dövrləri) dəyişkənliyindən irəli gələn çevikliyidir. Plan üfüqünün təiyn edilməsi üçün müxtəlif kriterilərdən istifadə edilir: məhsulun həyat tsikli; buraxılan məhsula tələbin köklü surətdə dəyişdirilməsi; strateji məqsədlərin həyata keçirilməsi üçün vaxt dövrü və s. Plan üfüqü müəssisənin miqyasından və onun ölçülərindən asılıdır.

Strateji planlaşdırmanın başlıca vəzifəsi müəssisənin son maliyyə və bazar məqsədlərindən asılı olaraq kapital qoyuluşları strategiyasını, strukturunu, həcmini və istiqamətlərini hazırlamaqdan ibarətdir. Strateji planlaşdırmanın mənası bazarın təhlilinin müasir metodlarının tətbiqi əsasında investisiyaların, istehsal-satış və elmi-texniki qərarların əsaslandırılması səviyyəsini yüksəltməkdir. Bazar şəraitində strateji planlaşdırma yalnız istehsal həcminin artırılmasına və məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına deyil, həm də konkret istehlakçı qruplarının tələbatlarının öyrənilməsinə yönəlmişdir.

Strateji planlaşdırma vasitələrindən biri kimi məqsədli istehsal-satış proqramlarının formalaşdırılması təcrübəsi daha geniş istifadə olunur. 70-ci illərin sonları 80-ci illərin əvvələrində strateji planlaşdırma yeni, daha mənfəətli satış bazarlarının axtarılmasına səmtlənirdi və resurslara istiqamətlənirdi. Resurslara istiqamətlənmə kompleks planların hazırlanmasından ibarətdir. Bu

planlara uyğun olaraq bütün resurs növləri müəssisənin son nəticələrinin əldə edilməsinə yönəldilir ki, bu da müəssisənin uzunmüddətli kommersiya uğurlarına şərait yaradır. Bu halda situasiyalı planlaşdırmadan istifadə olunur və müəssisənin rəhbərliyinə strateji inkişaf planının bir neçə variantı təqdim olunur. Həmin planlar resursların bölüşdürülməsində müxtəlif prioritetlərlə və risklə təminatlı səmərə arasında eyni olmayan nisbətlərlə səciyyələnir. Uzunmüddətli proqnozlar 5 ildən yuxarı dövr üçün tərtib edilir. Onlar mürəkkəb texnologiyalı sahələrdə iri miqyaslı ETLKİ-lərin aparılması zamanı müəssisələr üçün çox lazımdır. Strateji planlaşdırma ETT-nin proqnozlaşdırılması ilə sıx bağlıdır.

Strateji planlaşdırma ilə məşğul olarkən müəssisə həmişə xarici mühitin təsirini nəzərə almalıdır. Xarici mühitin təhlili müəssisəyə imkanlarının proqnozlaşdırılması, mümkün təhlükələr zamanı əvvəlcədən xəbərdarlıq sisteminin hazırlanması, nəzərdə tutulmayan hallar üçün planın tərtibi və strategiyanın hazırlanması üçün vaxt verir ki, bunlar da əvvəlki təhlükələri əlverişli imkanlara çevirməyə şərait yaradır. Müəssisənin qarşılaşdığı təhlükələri və imkanları adətən yeddi sahəyə bölürlər: iqtisadiyyat, siyasət, bazar, texnologiya, rəqabət, beynəlxalq vəziyyət və sosial davranış (Şəkil 10.2.1).

Xarici mühit amillərinin təhlili, müəssisənin güclü və zəif tərəfləri haqqında tam təsəvvürün əldə edilməsi satış proqnozunu hazırlamağa imkan verir ki, bu da bütün firmadaxili proqnozlaşdırmanın əsasını təşkil edir.

Əksər müəssisələr maliyyə və ya təqvim ili üçün satışın qısamüddətli proqnozlarını hazırlayırlar. Bu proqnozlar maliyyəyə, işçi qüvvəsinə və digər resurslara tələbatı planlaşdırmaq, istehsal xərcləri smetasını tərtib etmək və s. üçün əsas kimi istifadə olunur. Belə proqnozlar yarım illik və rüblük dövrlər üçün tərtib edilir. Ortamüddətli proqnozlar 2 ildən 5 ilədək dövrü əhatə edir.

Şəkil 10.2.1. Xarici mühit amilləri

Ortamüddətli proqnozlar iqtisadi konyukturada, əhalinin sayında və tərkibində mümkün dəyişikliklərin təsirini nəzərə almağa kömək edir.

Satışın proqnozlaşdırılması üçün bir çox metodlardan istfadə olunur. Bu metodlar içərisində ən çox yayılanları aşağıdakılardır:

1. Müəssisənin müxtəlif xidmətlərinin və şöbələrinin rəhbərləri arasında sorğu keçirilməsi.
2. Müəssisənin ayrı-ayrı ticarət agentlərinin və onun satış şöbələri rəhbərlərinin qiymətlərinin (təkliflərinin) ümumiləşdirilməsi.
3. Keçmiş dövrlərin dövriyyəsi əsasında proqnozlaşdırma.
4. Satışın həcmində dəyişikliklərə səbəb olmuş meyllərin, tsikllərin və amillərin təhlili.
5. Korrelyasiya təhlili, yəni müəssisədə məhsulun satışına təsir edən statistik amillərin müəyyən edilməsi.
6. Müəssisədə satışın «bazar payı» əsasında proqnozlaşdırılması.
7. Son istifadənin təhlili. Burada proqnoz müəssisənin əsas sifarişçilərinin sifarişlərinin nəzərdə tutulan həcminə əsaslanır.
8. Malların çeşidinin təhlili.
9. Marketinq tədqiqatları.

10. Ehtimalların standart paylaşdırılması metodları, daha doğrusu, şəbəkə modellərindən, planlaşdırma və idarəetmə metodlarından istifadə etməklə planların qiymətləndirilməsi və onlara yenidən baxılması metodu.

10.3. Müəssisənin əmtəə strategiyası. Məhsul istehsalı və satışı planı

Əmtəə strategiyası məhsul istehsalçısının müəyyən fəaliyyət xəttinin və ya əvvəlcədən düşünülmüş davranış prinsiplərinin olmasını nəzərdə tutur. Bu strategiyanın vəzifəsi malların çeşidinin formalaşması və rəqabət qabiliyyətinin saxlanması, optimal mal seqmentlərinin (taxçalarının) axtarılması üzrə qərarların və tədbirlərin varisliliyinin təmin edilməsindən ibarətdir. Bundan başqa buraya malların qablaşdırılması, markalanması və onlara xidmət strategiyasının hazırlanması və həyata keçirilməsi də daxildir. Əsaslandırılmış əmtəə strategiyası müəssisə rəhbərliyi üçün cari situasiyaları təshih etmək iqtidarında olan ümumi fəaliyyət istiqamətinin bir növ göstəricisidir.

Əmtəə strategiyası müəssisənin təsərrüfat və marketinq siyasətinin tərkib hissəsidir. Ona görə də «mal istehlakçını seçir» prinsipi alıcılara geniş seçmə imkanı verilməklə bilavasitə istehsalda nəzərə alınmalı, onun əsas meyarına çevrilməlidir. Konstruksiyaetmə, dizayn və modelləşdirmə sistemləri, istehsalın həvəsləndirilməsi və təşkili mexanizmləri konkret potensial alıcıya istiqamətlənməlidir.

Əmtəə strategiyası formalaşdırılarkən bir sıra şərtlərə əməl etmək lazımdır: perspektivdə istehsal, satış və ixrac məqsədləri, müəssisənin istehsal-satış strategiyası haqqında dəqiq təsəvvürə malik olmaq; bazarı və onun tələblərinin xarakterini yaxşı bilmək; hazırda və perspektivdə imkanlarını və resurslarını tam dərk etmək.

Həmçinin həyat tsikli; «yeni» və «köhnə» məmulatların nisbəti, yeni və mənimsənilmiş bazarlar, malların yeniləşməsi səviyyəsi və s. nəzərə alınmaqla bütünlükdə məhsulun və onun ayrı-ayrı növlərinin yeniləşdirilməsi sürətlərini aydın təsəvvür etmək lazımdır. Bu məsələlər bazarla, onun tələblərilə və rəqiblərin davranışı ilə sıx əlaqədə həll edilir.

Bazar müvəffəqiyyəti müəssisənin fəaliyyətinin qiymətləndirilməsinin başlıca kriterisi olduğundan, bazar imkanları isə düzgün hazırlanmış və həyata keçirilən əmtəə siyasəti ilə müəyyən edildiyindən, məhz bazarı və onun inkişafı perspektivlərini öyrənməklə müəssisə özünün formalaşması, idarə edilməsi və təkmilləşdirilməsi ilə əlaqədar olan məsələlərin həlli üçün lazım olan ilkin informasiyanı əldə edir.

İstənilən təsərrüfat səviyyəsində əmtəə strategiyası məsələlərini həll etmək üçün strateji yanaşma tələb olunur. Əmtəə strategiyası müəssisənin perspektiv üçün nəzərdə tutulmuş və prinsipial məsələlərin həllini nəzərdə tutan uzunmüddətli fəaliyyət xəttini müəyyən edir. Bu və ya başqa dövr (3-5 il və daha çox) üçün hazırlanmış əmtəə strategiyası həmin vaxt dövründə əsasən dəyişikliksiz qalır.

Əmtəə siyasəti hazırlanarkən əmtəənin onun mübadiləsi və istehlakı prosesində üzə çıxan iki xassəsini nəzərə almaq lazımdır:

a) müəyyən kəmiyyət nisbətlərində insanın müəyyən tələbatlarının ödənilməsi ilə bilavasitə əlaqədar olan faydalı xassələrin məcmusu kimi ictimai faydalılığı, istehlak dəyəri;
b) müəyyən kəmiyyət nisbətlərində başqa mallarla (pul) mübadilə xassəsi kimi mübadilə dəyəri.

Əmtəə siyasətinin əsasında əmtəə kompleksi anlayışı dura bilər (Şəkil 10.3.1).

Şəkil 10.3.1. Əmtəə kompleksinin elementləri və onlar arasındakı qarşılıqlı əlaqələr

Əmtəə anlayışına ikili yanaşma əmtəə siyasətinə də iki aspektdən – istehlak və mübadilə dəyərləri mövqeyindən baxışları tələb edir (Şəkil 10.3.2).

Şəkil 10.3.2. Müəssisədə əmtəə siyasətinin formalaşması

Şəkildən göründüyü kimi əmtəə siyasətinin formalaşması bir tərəfdən məhsulun güclü və zəif tərəfləri, əmtəə strategiyası, yeni məhsulların hazırlanması və bazara çıxarılması, digər tərəfdən isə satış üçün buraxılan məmulatların istehsalı proqramının (çeşidinin) dəyərcə

qiymətləndirilməsi, strukturu və optimallaşdırılması mövqeyindən həyata keçirilməlidir.

Çeşidin formalaşması və onun idarə olunması probleminin müvəffəqiyyətlə həlli müəssisə üçün mühüm əhəmiyyətə malikdir.

Çeşidin planlaşdırılması, formalaşdırılması və idarə edilməsinin mahiyyətini əmtəə istehsalçısının vaxtında özünün istehsal fəaliyyətinin profilinə uyğun və alıcıların müəyyən kateqoriyasının tələbatını daha tam ödəyə biləcək müəyyən əmtəə məcmusunu təklif etmək qabiliyyətini əks etdirir.

Çeşid – istehsalçı müəssisənin bazarda təklif etdiyi mallar (əmtəələr) yığınıdır. Nomenklatura isə müəssisənin istehsal etdiyi məhsulların adbaad siyahısı və ya bütün məcmusudur. Malın növü (dəzgah, avtomobil, traktor və s.) funksional xüsusiyyətlərinə, keyfiyyətinə və qiymətinə uyğun olaraq çeşid qruplarına (tiplərə) bölünür. Hər bir qrup çeşid mövqelərindən (növmüxtəlifliyi və ya markaları) ibarətdir və onlar təsnifatın aşağı pillələrini təşkil edir. Məsələn, soyuducular bir, iki və üç kameralı modellərlə və soyuducu kameralarla təmsil olunur. Soyuducu kameraların isə həcminə və bir sıra texniki göstəricilərinə görə fərqlənən markaları vardır.

Çeşidin formalaşdırılması konkret malların, onların ayrı-ayrı seriyalarının problemidir. Bu zaman «köhnə» və «yeni» mallar, fərdi və seriyalı istehsal malları, «elmtutumlu» və «adi» mallar, ya da lisenziyalar və nou-hau arasında nisbətlərin müəyyən edilməsi həyata keçirilir.

Çeşidin formalaşmasından əvvəl müəssisədə çeşid konsepsiyası hazırlanmalıdır. Bu konsepsiya müəyyən məhsul növünün çeşidinin optimal istehsalı imkanlarını müəyyən etməyə imkan verir. Çeşid konsepsiyalarının məqsədi müəssisəni konkret alıcıların tələblərinin strukturuna və rəngarəngliyinə daha çox uyğun gələn məhsul buraxılışına səmtləndirməkdən ibarətdir.

Konsepsiyanın hazırlanması prosesində müxtəlif göstəricilər müəyyən edilir: malların növləri və növ müxtəlifliyi; çeşidin səviyyəsi və onun təzələnməsi tezliyi; müəyyən növ məhsullara qiymətlərin səviyyəsi və nisbətləri və s. Adətən çeşidin inkişafı meyli proqnozlaşdırılır. Məhsulun çeşidinin planlaşdırılması, formalaşdırılması və idarə edilməsi fasiləsiz prosesdir və məhsulun bütün həyat tsikli (məhsulun hazırlnması ideyasının yaranmasından onun istehsaldan çıxarılmasınadək) ərzində davam edən fasiləsiz prosesdir. Məhsulun çeşidinin planlaşdırılması sənəti artıq mövcud olan və (və ya) potensial texnologiyaları və maddi imkanları məhsullarda təcəssüm etdirmək qabiliyyətindən ibarətdir. Bu məhsullar istehsalçıya müəyyən mənfəət gətirməklə istehlakçıları təmin edən istehlak keyfiyyətlərinə də malik olur. Başqa sözlə, istehsalçı sadəcə malların yaradılması və istehsalı ilə deyil, həm də müştərilərin formalaşdırılması və onların spesifik tələbatlarının ödənilməsi məsələləri ilə də məşğuldur.Mövcud çeşidi tamamlamaq və ya buraxılan məhsulu əvəz etmək üçün nəzərdə tutulan yeni və ya təkmilləşdirilmiş məhsuldan söhbət gedirsə, onda növbəti addım bazarın tədqiq edilməsi nəticəsində əldə edilmiş ideyaların (təkliflərin) ilkin qiymətləndirilməsindən ibarət olmalıdır. Əgər bu ideya perspektivlidirsə, istehlakçının tələblərindən asılı olaraq məhsul üçün spesifikasiyalar tərtib edilir. Təsdiq olunduqdan sonra spesifikasiya istehsal və ya layihə-konstruktor şöbəsinə verilir. Burada nümunələr hazırlanır, istehsal güclərinin imkanları, mühəndis-texniki heyətin ixtisası və iş təcrübəsi, eləcə də yeni materiallara, komplektləşdirici məmulatlara, avadanlığa və s. tələbat nəzərə alınmaqla kütləvi istehsal imkanları yoxlanılır.

Əgər istehsal xərclərinin ilkin kalkulyasiyası münasib mənfəət normasının əldə ediləcəyi imkanı göstərirsə, onda potensial istehlakçıların köməyilə sınaq üçün müəyyən miqdarda məhsul buraxılır. Eyni zamanda ilkin planlar hazırlanır, satış və reklam büdcələri müəyyən edilir. Burada

məqsəd yeni məhsulun satışının müəssisə üçün əlverişliliyini yoxlamaqdır. Sınaqların nəticələrinə görə yeni məhsulda bazara çıxarılmazdan əvvəl hər hansı dəyişikliyin aparılması zəruriliyi müəyyən edilir.

Sınaqların nəticələrinə və mütəxəssislərin qiymətlərinə görə məhsulun həyat qabiliyyəti və müəssisənin əmtəə çeşidinə uğurlu əlavəyə çevrilməsi imkanları müəyyən edilir. Müsbət qərar qəbul edildikdə məhsula və onun satışına aid olan bütün təkliflər necə, nə vaxt, harada və hansı maya dəyəri və mənfəət səviyyəsi ilə bazara buraxılacağı ətraflı şərh olunmaqla təsdiq üçün müəssisənin rəhbərliyinə təqdim olunur. Rəhbərlik tərəfindən təsdiq olunmuş tövsiyyələr malların bazara yeridilişi planı tərtib edilərkən istifadə olunur. Bu plan müəssisənin bütün bölmələrinin işinin əlaqələndirilməsi üçün əsas rolunu oynayır.

Müəssisənin məhsul satışı planında buraxılan məhsulun göndərilməsinin həcmi və strukturu, eləcə də məhsulun satışından planlaşdırılan mədaxilin və mənfəətin məbləği müəyyən edilir.

Məhsulun satışı planının tərtibi üçün əsas mənbələr aşağıdakılardır: sifarişlər portfeli və bunun əsasında malgöndərilməsi üzrə hazırlanmış müqavilələr; plan dövrünün əvvəlinə və axırına müəssisənin anbarlarında olan məhsul ehtiyatlarına dair məlumatlar; satılacaq məmulatların topdansatış qiymətləri və maya dəyəri; yeni məhsul növlərinin mənimsənilməsi müddətləri; istehsalın səmərəliliyinin yüksəldilməsi üzrə tədbirlər; istehsal güclərinin mənimsənilməsi və istifadə edilməsi üzrə hesablamalar; əvvəlki il üçün plan texniki-iqtisadi normalar və normativlər.

Məhsulun satışı planlaşdırılarkən hər şeydən əvvəl məhsula tələbatı nəzərə almaq lazımdır, çünki bu, müəssisənin ixtisaslaşdırılmasının predmetini təşkil edir. Tələbatların miqyası mövcud istehsal gücləri ilə müqayisə

edilir. Bunun nəticəsində müəssisənin genişləndirilməsi və ya yenidən qurulması zərurəti, məhsulun istehsalı və satışının mümkün miqyasları müəyyən edilir.

Məhsulun istehsalı və satışı həcmini müəyyən etmək üçün natural, əmək və dəyər göstəricilərindən istifadə olunur. Natural göstəricilər həmcins məhsul buraxılışı zamanı tətbiq oluna bilər. Natural ölçülər bu və ya başqa göstəricilərin kəmiyyət ifadəsini və keyfiyyət xarakteristikalarını əldə etməyə imkan verir və müəssisənin işçi qüvvəsinə, xammala, yanacağa, elektrik enerjisinə, avadanlığa, istehsal sahələrinə və s. tələbatını təyin etmək üçün ilkin kəmiyyətlər rolunu oynayır. Lakin natural ölçülərdən istifadə zamanı xarakterinə görə müxtəlif olan natural göstəriciləri ümumiləşdirmək qeyri-mümkündür.

Natural göstəricilərin tətbiqi dairəsini genişləndirmək üçün şərti natural göstəricilərdən istifadə olunur. Bu zaman şərti vahid kimi həmcins məmulatlardan biri qəbul edilir, yerdə qalan məmulatlar isə əməktutumlu, materialtutumlu və ya hər hansı bir digər əlamət üzrə həmin məmulata gətirilir (məsələn, 1 ton şərti yanacaq və s.).

İstehsalın həcminin əmək göstəriciləri, bir qayda olaraq, norma-saatlarla ifadə olunur. Onlar əmək məhsuldarlığının, əməyin ödənilməsi ölçüsünün natural göstəricilərlə uzlaşdırılmış qaydada istifadə olunur.

İstehsalın həcminin dəyər göstəriciləri ümumiləşdirici xarakterdədir və müəssisənin planının bütün bölmələrinin qarşılıqlı əlaqələndirilməsi zamanı universal göstəricilər hesab olunur. Əmtəəlik, ümumi, satlıq (reallaşdırılan) və xalis məhsul məhz dəyər göstəriciləri ilə ifadə olunur.

Əmtəəlik məhsulun həcmi aşağıdakı düsturla müəyyən olunur:

$$N_{əm} = T_h + T_ə + T_y + F,$$

burada T_h - kənara satılmaq üçün nəzərdə tutulmuş hazır məmulatların (işlərin, xidmətlərin) dəyəri;

$T_ə$ - müəssisənin özünün əsaslı tikintisinin və qeyri-sənaye təsərrüfatlarının ehtiyacları üçün hazır məmulatların dəyəri;

T_y - kənara satılmaq üçün nəzərdə tutulmuş və müəssisənin özünün istehsalı olan yarımfabrikatların, köməkçi və yardımçı təsərrüfatların məhsullarının dəyəri;

F - müəssisənin özünün xüsusi istehsalı olan əsas fondların dəyəridir.

Ümumi məhsulun həcminə istehlakçının yerindən və məhsulun hazırlıq dərəcəsindən asılı olmayaraq yerinə yetirilmiş və ya yerinə yetirilməsi nəzərdə tutulan işlərin ümumi həcmi daxildir:

$$N_{üm} = N_{əm} + (H_a - H_ə) + (И_a - И_ə),$$

burada $H_a, H_ə$ - uyğun olaraq müvafiq dövrün axırına və əvvəlinə bitməmiş istehsalın dəyəri. Bitməmiş məhsul üzərində müəyyən tamamlama işlərinin aparılması tələb olunan məhsuldur;

$И_a, И_ə$ - uyğun olaraq müvafiq dövrün axırına və əvvəlinə müəssisənin özünün istehsalı olan xüsusi alətlərin, yarımfabrikatların və tərtibatların dəyəridir.

Satlıq məhsulun həcmi müəssisənin istehsal təsərrüfat fəaliyyətinin nəticələrini qiymətləndirmək üçün əsas göstəricilərdən biridir. O, yüklənib istehlakçılara göndərilmiş və pulu ödənilmiş məhsulun həcmini əks etdirir və aşağıdakı düsturla müəyyən olunur:

$$N_c = N_{əm} + (P_ə - P_a) + (T_ə - T_a),$$

burada $P_ə, P_a$ - uyğun olaraq müəyyən dövrün əvvəlinə və axırına satılmayan məhsul qalığının dəyəri;

$T_ə, T_a$ - uyğun olaraq müəyyən dövrün əvvəlinə və axırına alıcının məsuliyyətli mühafizəsində olan məhsulun dəyəridir.

Xalis məhsul müəssisədə yaradılan yeni dəyərdir. Buraya əmək haqqı (işçilərə ödənilmiş və ödənilməmiş, lakin vergi və müxtəlif ödənclər şəklində maya dəyərinə daxil edilmiş) və mənfəətin məbləği daxildir. Başqa müəssisələrdə yaradılmış və məhsulun üzərinə keçirilən dəyər (xammal, materiallar, enerji və yanacaq üçün xərclər, amortizasiya ayırmaları) xalis məhsula daxil edilmir:

$$N_x = N_c - M_m - A,$$

burada M_m - məhsulun tərkibindəki maddi məsrəflərin dəyəri;

A - əsas fondların amortizasiya ayırmalarının məbləğidir.

Bəzən şərti-xalis məhsul göstəricisindən də istifadə olunur. Şərti-xalis məhsul yeni yaradılmış dəyərlə amortizasiya ayırmalarının məbləğini əks etdirir. O, aşağıdakı düsturla hesablanır:

$$N_{şx} = N_c - M_m.$$

Xalis və şərti-xalis məhsul göstəriciləri məhsulun (işlərin, xidmətlərin) strukturunun təhlili və əməyin ödənilməsi fondunun planlaşdırılması üçün istifadə olunur.

Xalis məhsul normativi məhsulun qiymətinin bir hissəsi olub işçilərin əsas və əlavə əmək haqqını, sosial ehtiyaclar üçün ayırmaları və normativ mənfəəti əhatə edir.

Buraxılan məhsulun strukturunda və ya kooperativləşdirilmiş mal göndərişlərinin həcminin dəyişilməsi zamanı istehsalın həcminin əsaslandırılması üçün ümumi dövriyyə anlayışından da istifadə oluna bilər. Ümumi məhsul göstəricisindən fərqli olaraq ümumi dövriyyə müəssisənin istehsal fəaliyyətinin həcmini daha dəqiq müəyyən edir. Ümumi dövriyyəyə müəssisənin əsas,

köməkçi və xidmətedici sexlərin hazırladığı ümumi məhsulun dəyəri və təyinatından asılı olmayaraq sənaye xarakterli xidmətlərin və işlərin dəyəri daxildir. Ümumi dövriyyə müəssisənin bütün sexlərinin ümumi məhsulunun məbləğinə bərabərdir və müəssisənin ümumi məhsulundan zavoddaxili dövriyyə qədər çoxdur. Zavoddaxili dövriyyəyə daxildir: özünün istehsalı olan məhsulun dəyəri, özünün istehsal etdiyi alətlərin və bütün növ enerjinin sərf olunmuş hissəsinin dəyəri, zavod nəqliyyatının və təmir sexlərinin xidmətləri və s. Ümumi və zavoddaxili dövriyyələrin hesablanması hər bir sexin məhsula və digər sexlərin (köməkçi və xidmətedici sexlər [illegible] olmaqla) xidmətlərinə tələbatın aşkar edilməsi əsasında [illegible]sablanır.

10.4. Müəssisənin istehsal proqramı və ist[illegible]sal gücü

İstehsal proqramı müxtəlif tələbatları təmin etmək üçün nəzərdə tutulan və müəyyən olunmuş nomenklaturada, çeşiddə və keyfiyyətdə məhsul buraxılışı üzrə plan tapşırıqları sistemidir.

İstehsal proqramının tərtibi üzrə işlər müxtəlif istehsal tipləri üçün müəyyən xüsusiyyətlərə malikdir. Fərdi və xırda seriyalı istehsal üçün istehsal proqramı məhsulun istehlakçılara təhvil verilməsi üçün təsdiq olunmuş müddətlərə uyğun olaraq məmulatların istehsalı qrafiki əsasında hazırlanır. Məmulatların istehsala və istehsaldan buraxılmasının təqvim qrafikləri texnoloji prosesin gedişinin əksi istiqamətində tərtib edilir. Bu, bütün iş növləri (sınaqlar, yığma, mexaniki emal, pəstahların verilməsi) üzrə istehsal tsiklinin uzunluğuna görə hesablanır.

Seriyalı istehsal üçün il ərzində məhsul buraxılışı həcminin planlaşdırılması istehsal prosesinin bütün

mərhələlərində bitməmiş istehsalın həcmi və istehsala buraxılan məmulatların nomenklaturasının dəyişilməsi nəzərə alınmaqla həyata keçirilir.

Kütləvi istehsal adətən axın metodu ilə həyata keçirilir və bununla əlaqədar olaraq istehsal proqramı rublər və aylar üzrə bölünməklə müəssisə və bütün əsas sexlər üzrə eyni vaxtda hazırlanır.

Müəyyən məhsul növlərinin hazırlanması (verilməsi) müddətlərinin sifarişçilərlə müqavilələr əsasında müəyyən edilməsinə baxmayaraq müəssisə avadanlığı və iş yerilərinin tam və bərabər yüklənməsini təmin etmək məqsədilə istehsal proqramına vaxta görə müxtəlif variantlarını hazırlamaq imkanına malik olur. İstənilən istehsal tipində məmulatların buraxılışının bölüşdürülməsinin (kombinasiyalarının) sayı çox olabilər. Riyazi proqramlaşdırma metodlarının köməyilə istehsal proqramının optimal variantını əldə etmək olar.

İstehsal proqramının əsas göstəriciləri aşağıdakılardır: miqdarı, keyfiyyəti və təhvil verilməsi müddətləri göstərilməklə məhsulun nomenklaturası; əmtəəlik məhsul; bitməmiş istehsal; ümumi məhsul.

Natural ifadədə məhsul buraxılışının hesablamalar əsasında müəyyən edilmiş ölçülərinə hələ onun istehsalı üzrə real tapşırıq, daha doğrusu, istehsal proqramı kimi baxmaq olmaz. Planlaşdırılmış məhsul həcminin buraxılışı müvafiq istehsal güclərinin olmasını tələb edir.

Əsas istehsal fondlarının potensial imkanlarının və istifadə dərəcəsinin mühüm xarakteristikası sahənin, sexin və müəssisənin istehsal gücüdür. İstehsal gücü dedikdə, müəyyən dövr ərzində (əsasən bir il) müəssisədə mövcud olan bütün resurslardan ən yaxşı istifadə olunmaqla müəyyən nomenklaturadan və çeşiddən olan məhsulun maksimal buraxılışı başa düşülür.

Müəssisənin istehsal gücü, bir qayda olaraq, əsas (aparıcı) sexlərin, sahələrin və ya aqreqatların, daha

doğrusu, məhsulun istehsalı üzrə əsas texnoloji əməliyyatları yerinə yetirən struktur vahidlərinin gücünə görə hesablanır.

Plan dövrü üçün istehsal gücü planda nəzərdə tutulan nomenklaturadan və çeşiddən asılı olaraq hesablanır. Hesabat dövründə mövcud olan istehsal gücü faktiki məhsul buraxılışına uyğun olan nomenklaturada və çeşiddə hesablanır.

Müəssisələrin istehsal gücü aşağıdakı amillərdən asılıdır: fəaliyyətdə olan avadanlığın şayı və keyfiyyəti; hər bir avadanlıq vahidinin mümkün maksimal məhsuldarlığı və vaxt vahidində istehsal meydançalarının buraxılış qabiliyyəti; iş rejimi (növbəlilik, bir növbənin uzunluğu və s.); məhsulun nomenklaturası və çeşidi; hazırlanan məhsulun əməktutumu; ayrı-ayrı sexlərin, sahələrin, aqreqatların və avadanlıq qruplarının istehsal sahələrinin proporsionallığı; zavoddaxili və zavodlararası ixtisaslaşdırma və kooperativləşdirmə; əməyin və istehsalın təşkili səviyyəsi.

Müəssisənin (sexin) istehsal gücü ümumi şəkildə aşağıdakı düsturla hesablana bilər:

$$M = \frac{T_c}{t},$$

burada T_c - müəssisənin (sexin) səmərəli iş vaxtı fondu;

t - məhsul vahidinin hazırlanmasının əməktutumudur.

İstehsal gücünü təyin etmək üçün istehsal prosesi (fasiləli və fasiləsiz) nəzərə alınmaqla avadanlığın mümkün maksimal iş vaxtı fondu götürülür.

Eyni tipli avadanlıqla təchiz olunmuş sexin (sahənin) istehsal gücü aşağıdakı düsturla hesablana bilər:

$$M = \frac{T_c \cdot k \cdot n}{t_b},$$

burada k - maşının (avadanlığın, aqreqatın, dəzgahın) istehsal gücündən istifadə səviyyəsini nəzərə alan əmsal;

n - eyni tipli avadanlığın sayı;

t_b - avadanlıqda məhsul vahidinin emalı üçün vaxt normasıdır.

Müxtəlif cinsli avadanlıqla təchiz olunmuş sexin (sahənin) istehsal gücü müəssisənin istehsal gücünün hesablanması qaydası ilə, yəni aparıcı avadanlıq qrupu parkının məhsuldarlığına görə müəyyən edilir.

Tökmə, yığma və ona bənzər sexlərin (sahələrin) istehsal gücü bir qayda olaraq, həmin sexlərdə (sahələrdə) mövcud olan istehsal sahələrinin buraxılış qabiliyyətindən və onlardan istifadə səviyyəsindən asılıdır. O, aşağıdakı düsturla hesablanır:

$$M = \frac{S \cdot T_ə}{t_h},$$

burada S - sexin faydalı sahəsi, m^2;

$T_ə$ - sexin istehsal sahəsindən istifadənin səmərəli vaxt fondu,saat;

t_h - məhsul vahidinin istehsalı (yığma, tökmə və s.) üçün lazım olan kvadratmetr-saatların miqdarıdır.

Beləliklə, müxtəlif sahələrin müəssisələrinin istehsal güclərinin hesablanması müəyyən xüsusiyyətlərə malikdir və hər bir konkret halda onlar nəzərə alınmalıdır.

Müxtəlif sexlərin (sahələrin, aqreqatların) güclərinin uyğunluq dərəcəsini müəyyən etmək üçün müəssisənin aparıcı bölməsinin yerdə qalan istehsal bölmələri ilə uyuşanlığı əmsalından istifadə olunur.

Uyuşanlıq əmsalı aparıcı sexin (sahənin, aqreqatın) güclərinin yerdə qalan sexlərin güclərinə, o cümlədən köməkçi və xidmətedici istehsalların buraxılış qabiliyyətinə nisbəti kimi hesablanır. Bu əmsal «zəif» yerləri aşkara

çıxarmağa və onların aradan qaldırılması tədbirlərini hazırlamağa imkan verir.

İstehsal proqramını istehsal gücləri ilə əsaslandırmaq, istehsalı ixtisaslaşdırmaq və kooperativləşdirmək, habelə hər bir müəssisədə istehsal güclərini artırmaq üçün lazım olan investisiyaların həqiqi kəmiyyətini müəyyən etmək üçün istehsal gücləri balansı hazırlanır.

İstehsal gücləri balansına aşağıdakılar daxildir:

1) planlaşdırılan dövrün əvvəlinə müəssisənin gücü ($M_ə$);

2) müxtəlif amillər (modernləşdirmə, yenidənqurma, texnika ilə yenidən silahlandırma və s.) hesabına istehsal güclərinin artımının ölçüsü (M_{ar});

3) əsas istehsal fondlarının sıradan çıxması, başqasına verilməsi və satılması, məhsulun nomenklaturasının və çeşidinin dəyişdirilməsi, müəssisənin iş rejiminin dəyişilməsi və digər amillər nəticəsində istehsal güclərinin azalmasının ölçüsü (M_c);

4) çıxış istehsal güclərinin ölçüsü, daha doğrusu, planlaşdırılan dövrün axırına güclərin ölçüsü (M_r);

5) müəssisənin orta illik istehsal gücü ($M_{or.il}$):

$$M_{or.il} = M_ə + \frac{M_{ar} \cdot t_{pr}}{12} - \frac{M_c \cdot t_{ub}}{12},$$

burada t_{pr} - il ərzində istifadəyə verilmiş əlavə güclərdən istifadə aylarının miqdarı, ay;

t_{ub} - istehsal güclərinin sıradan çıxdığı andan ilin axırına qədər olan ayların miqdarıdır;

6) orta illik istehsal güclərindən istifadə əmsalı (K_i):

$$K_i = \frac{V_{pl(fakt)}}{M_{or.il}},$$

burada $V_{pl(fakt)}$ - məhsul buraxılışının plan və ya faktiki həcmidir.

Əgər $V_{pl(fakt)} < M_{or.il}$ olarsa, müəssisənin istehsal proqramı istehsal gücləri ilə təmin olunmuş olur.

Müəssisənin dayanıqlı işi, eləcə də buraxılan məhsulun keyfiyyətinin yaxşılaşdırılması, məhsulun təzələnməsi və başqa məqsədlər üçün o, istehsal güclərinin optimal ehtiyatına malik olmalıdır. Bu ehtiyatın ölçüsü müəssisənin xüsusiyyətindən asılıdır və 10-20% arasında dəyişilir.

10.5. Müəssisənin biznes planı

Müasir şəraitdə planlaşdırmanın mühüm vasitələrindən biri biznes plandır.

Ənənəvi olaraq biznes plan təklikdə həyata keçirə bilmədikləri layihələri reallaşdırmaq üçün xarici köməyə (tərəfdaş və ya investor) ehtiyacı olan kiçik və orta biznesin əsas vasitəsi idi. Bu gün biznes planlar ənənəvi təyinatını itirməmiş və bütün aparıcı xarici şirkətlər tərəfindən müntəzəm olaraq hazırlanır. Biznes planlar bütün firmadaxili planlaşdırma sisteminin özəyini təşkil edir. Onlar müəssisələr, şöbələr, istehsal bölmələri və filiallar tərəfindən hazırlanır. Struktur bölmələrin biznes planları təhlil edilir və şirkətin biznes planlarında ümumiləşdirilir.

Planlaşdırmada biznes planların rolu son onillikdə xüsusilə artmışdır. Bu, aşağıdakı səbəblərlə əlaqədardır:

1. Xarici təsərrüfat mühitinin mürəkkəbləşməsi şirkətlərdən idarəetmədə çevikliyi artırmağı, idarəetmə qərarlarının bütün amilləri nəzərə almaqla çox sayda variantlarının hazırlanması bacarığını tələb edir.

2. Strateji marketinqin, təsərrüfat fəaliyyətinin yeni, daha perspektivli istiqamətlərini tapmaq və qiymətləndirmək bacarığının rolu artmışdır. Lakin bazarda perspektiv imkanı tapmaq hələ azdır, onun neçəyə başa gələcəyini qiymətləndirmək lazımdır. Biznes plan məhz bu məqsəd üçün lazımdır.

3. İstehsal bölmələrinin müstəqilliyi genişlənmişdir. Müasir şəraitdə təsərrüfatın inkişafının bütün variantlarını yalnız aşağı səviyyələrdə görmək olar, onların cəlbediciliyini bütünlükdə korporasiya baxımından qiymətləndirmək, kapital sahiblərinin maraqları nəzərə alınmaqla təhlil etmək yuxarı səviyyələrdə də mümkündür. İnvestisiya siyasəti sahəsində qərarların inteqrasiyasının zəruriliyi zamanı təsərrüfat sistemlərinin ayrılması (xüsusiləşməsi) biznes planları biznesi planlaşdırmağın populyar vasitəsinə çevirmişdir.

Azərbaycan Respublikasında əvvəlki plan-iqtisad şöbələrinin funksiyalarının əsaslandırılmış qaydada dəyişdirilməsi, onlarda biznes planların hazırlanması təcrübəsinin tətbiqi əvəzinə müəssisələrdə təsərrüfat planlaşdırılmasının funksiyaları əsassız olaraq tam ləğv edilmiş, qeyri-müəyyən bazar şəraitində guya lazımsız və qeyri-mümkün şey kimi atılmışdı. Bu isə müəssisənin təsərrüfat inkişafının perspektiv istiqamətlərinin müəyyən edilməsi, istehsalın inkişafı və diversifikasiyası üçün səmərəli yolların axtarılması, kapital qoyuluşu baxımından daha sərfəli layihələrin seçilməsi məsələlərini olduqca çətinləşdirmişdir.

Biznes plan gələcək (növbəti) dövr üçün biznesin inkişafı planıdır. Bu planda təsərrüfat fəaliyyətinin predmeti, əsas ideyaları, strategiyaları, istiqamətləri və coğrafi rayonları əks etdirilir, qiymət siyasəti, bazarın tutumu və strukturu, mal göndərişlərinin və alışlarının həyata keçirilməsi, malların daşınması, sığortalanması və emalı şərtləri, müəssisə fəaliyyətinin predmetini təşkil edən

mal və xidmət qrupları üzrə gəlirlərin və xərclərin artmasına (azalmasına) təsir edən amillər müəyyən edilir.

Biznes plan həmişə ehtimallı xarakterdədir və müəssisənin işgüzar fəaliyyətinin müxtəlif variantlarının mümkünlüyünü nəzərdə tutur. Texniki-iqtisadi əsaslandırmadan biznes planın fərqi də məhz bundadır, çünki texniki-iqtisadi əsaslandırmada müəyyən texnologiya ilə ciddi əlaqələndirmə mövcuddur, konkret layihə-smeta sənədləri olur və s. Biznes plan müəssisənin bazarda mümkün fəaliyyəti planıdır. Biznes planda verilmiş istənilən informasiya (təsərrüfat strategiyası, mənfəətin bölüşdürülməsi düsturları, malgöndərənlərlə və subpodratçılarla iş sxemi və s.) müzakirə və gələcək təhlil obyekti ola bilər.

Biznes plan həmişə ünvana malikdir. Ünvan kimi tərəfdaş, investor, yuxarı rəhbərlik və ya dövlət idarəetmə orqanları çıxış edə bilər. Ona görə də istənilən halda biznes planda ünvanlandığı şəxsin (fiziki və ya hüquqi) maraqları nəzərə alınmalıdır.

Standart biznes plan müəyyən struktura, bölmələrin ardıcıllığına malikdir. Biznes plan aşağıdakı məzmun bloklarından ibarətdir:

Xülasə – biznes planın predmetinin qısa şərhindən, daha doğrusu, biznes planın ünvanlandığı şəxs üçün yeni biznesin, kommersiya təklifinin və ya investisiya layihəsinin cəlbedici olmasının əsaslandırılmasından ibarətdir. Ən əvvəl biznes planda yeni biznes üçün hansı resursların və ya köməyin lazım olduğu və biznes planın təmin edəcəyi səmərə əsaslandırılır.

Ümumi hissədə biznes planın məqsədləri (maliyyə və qeyri-maliyyə), strategiyası və predmeti, məhsulun və ya xidmətlərin özünə məxsusluğu, satış bazarının cari vəziyyəti, layihəçi firmanın tarixi və yeni biznesin yaranmasına və inkişafına təkan verən ödənilməmiş tələbat

nümayiş etdirilir; layihə ilə məşğul olacaq idarəetmə komandası göstərilir. Biznes planın bu hissəsinin başlıca təyinatı biznes planın ünvanlandığı şəxsə həmin firmanın (struktur bölməsinin), onun rəhbərlərinin biliyinə, iş təcrübəsinə görə yeni biznesin məqsədlərini ən yaxşı şəkildə həyata keçirmək iqtidarında olduğunu və buna görə də investorun pullarının, tərəfdarının və ya yuxarı rəhbərliyin digər resurslarının onlara etibar edilməsinin mümkünlüyünü nümayiş etdirir.

Marketinq planı yeni biznes üçün bazar tədqiqatlarının nəticələrini göstərir, istehlakçının profilini, rəqiblərin güclü və zəif tərəflərini, bazarın coğrafi və digər amillərini qiymətləndirir. Burada biznes planın əsasını təşkil edən marketinq tədqiqatlarının nəticələri əks etdirilir.

Biznes planın bu bölməsinin təyinatı məhsulun bazarda kifayət qədər alıcısının olduğunu göstərməkdən, istehlakçının məhz bu məhsulu seçəcəklərini və ya onun ticarət markasını rəqiblərdən üstün tutacağını əsaslandırmaqdan, reklam və məhsulun satışı strategiyasında, qiymət siyasətində əsas diqqətin haraya yönəldilməsindən ibarətdir.

Operativ planlar biznes planın predmeti olan malların və xidmətlərin istehsalının yaradılması və inkişafı planlarıdır. Burada yeni biznesin işə salınması mexanizmi, istehsal güclərinin yaradılmasının ardıcıllığı, satış kanallarının təşkili, reklamın formaları və büdcəsi, təchizat şəbəkələri, lazımi işçi qüvvəsinin tərkibi, sayı və s. şərh edilir.

Biznes planın tərkibinə həmçinin kapital qoyuluşları planı (xərc növləri üzrə ətraflı hesablanmış), tədqiqatlar, məhsulun və xidmətlərin texniki tamamlanması, istehsal texnologiyasının modernləşdirilməsi planı da daxildir.

Biznes planın hər bir bölməsinin maliyyə bölməsinə çıxışı olmalıdır, daha doğrusu, maliyyə planlarının müvafiq mövqelərinin hesablanması üçün lazım olan rəqəmləri və məlumatları olmalıdır.

Biznes planın maliyyə bölməsi mütləq üç əsas sənədi əhatə etməlidir: gəlirlər və xərclər planı; pul vəsaitlərinin hərəkəti planı; hesabi balans. Bundan əlavə bu bölməyə ilkin qeydlər, daha doğrusu, biznesin maliyyə şərtlərinin (malgöndərənlərlə və istehlakçılarla hesablaşmalar qaydası, kreditlərin qaytarılması müddətləri və onlar üzrə faizlər, məhsulun maya dyərinin təyin edilməsi metodları və s.) şərhi də daxil edilir.

Maliyyə nəticələrinin ən çox ehtimal olunan optimist və pessimist proqnozlarını tərtib etmək, eləcə də istehsala hazırlıq xərclərini hesablamaq da xüsusi əhəmiyyət kəsb edir (Cədvəl 10.5.1).

Cədvəl 10.5.1. İstehsala hazırlıq xərcləri

Xərc maddələri	Məbləği, man
Birdəfəlik xərclər:	
Avadanlıq, maşınlar və daşınan əmlak	
Avadanlığın quraşdırılmasının dəyəri	
Ərazinin abadlaşdırılması və istehsal binalarının yenidən qurulması	
Xammal və materialın başlanğıc ehtiyatı	
Müxtəlif cinsli birdəfəlik ödənişlər	
Lisenziyalar və s. üçün haqq	
Qeydiyyat və təqdimetmə	
Gözlənilməz xərclər üçün nağd pul	
Birdəfəlik xərclərin yekunu	
Üç ay üçün cari (təkrar olunan) xərclər	
Bütün əmək haqqı və mükafatlar	
İcarə	
Reklam	
Nəqliyyat xərcləri	
İstismar xərcləri	
Bütün tiplərdən olan sığortalar	
Vergilər (dövlət və ya yerli)	
İstiqrazlar və kreditlər üzrə faizlərin ödənilməsi	

Təmir və profilaktika	
Heyətin hazırlanması xərcləri	
Gözlənilməz xərclər	
Cari xərclərin yekunu	
İstehsala hazırlıq xərclərinin yekunu	

Maliyyə bölməsinin əsas sənədlərindən biri gəlirlər və xərclər planıdır (Cədvəl 10.5.2). O, satış və ona uyğun olan istehsal xərcləri proqnozlarından istifadə etməklə yeniliyin həyata keçirilməsinin maliyyə baxımından mümkünlüyünü və hazırlığını göstərir.

Cədvəl 10.5.2. Gəlirlər və xərclər planı

Gəlirlər və xərclər	Aylar					
	1	2	3	4	...	12
Satışdan əldə edilən gəlirlər						
Satılmış məhsulun maya dəyəri						
Ümumi mənfəət						
İstismar xərcləri, cəmi						
O cümlədən:						
Əmək haqqı						
Amortizasiya						
Vergilərin ödənilməsinədək mənfəət qalığı						
Vergilər						
Xalis mənfəət						

Gəlirlər və xərclər planını tərtib etmək üçün hər şeydən əvvəl satışın həcmini (aylar üzrə) hesablamaq, bütün mümkün xərc maddələrini nəzərə almaq və aylar üzrə onların dinamikasını düzgün planlaşdırmaq lazımdır. Ümumi müəssisə xərcləri proqnozlaşdırılarkən xərclərin azaldılmış qiymətləri deyil, müəyyən mənada artırılmış qiymətləri götürülməlidir. Əgər maliyyə planı göstərsə ki, hətta belə

xərclərlə mənfəət əldə etmək mümkündür, onda müvəffəqiyyət üçün müəssisənin müvafiq şansı vardır.

Bu planı tərtib edərkən zərərsizlik nöqtəsini də müəyyən etmək lazımdır. Zərərsizlik nöqtəsi elə bir vəziyyəti əks etdirir ki, bu halda bütün xərclərin və gəlirlərin fərqi sıfıra bərabərdir. Daha doğrusu, müəssisə mənfəət əldə etməsə də heç bir zərər çəkmir. Zərərsizlik nöqtəsi aşağıdakı düsturla hesablanır:

$$З_н = X_{üm} / Г_м - X_д,$$

burada $З_н$ - satış həcminin zərərsiz kəmiyyəti;

$X_{üm}$ - ümumi nəzərə alınmış xərclər;

$Г_м$ - məhsul vahidinin qiyməti;

$X_д$ - məhsul vahidi üçün dəyişən xərclərdir.

Növbəti addım kassa planının, başqa sözlə, pul vəsaitlərinin hərəkəti planının tərtib edilməsidir (Cədvəl 10.5.3).

Cədvəl 10.5.3. Kassa planı

Mədaxil və məxaric	Aylar					
	1	2	3	4	...	12
İlkin kassa balansı						
Kassa mədaxili: Satışdan əldə edilən nağd pul Kreditlə satış üzrə ödənişlər İstiqrazlar						
Ümumi nağd pul						
Nağd vəsaitlərin məxarici: Materialların alınması üçün Əmək haqqı üçün İnzibati-idarəetmə xərcləri üçün						
Ayın axırına nağd vəsaitlər balansı						

Əməliyyatların birinci ili üçün aylar üzrə, sonrakı iki il üçün isə rüblər üzrə (gözlənilən gəlirlərin və xərclərin miqdarı və vaxtı aydın göstərməklə) kassadakı nağd pulların hərəkəti proqnozlaşdırılmalı; əlavə maliyyələşdirməyə tələbat və müddətlər, eləcə də həmin əlavə maliyyələşdirmənin

(səhmdar maliyyələşdirmə, bank krediti və s.) necə və hansı şərtlərlə əldə edilməsi və onların necə ödənilməsi göstərilməlidir.

Nəhayət üçüncü sənəd balans planıdır (Cədvəl 10.5.4). Bu plan gəlirlər və xərclər planı ilə kassa planları tərtib edildikdən sonra hazırlanır.

Balans planı (və ya balans cədvəli) müəyyən tarixə müəssisənin maliyyə şərtlərini əks etdirir. O, müəssisənin mülkiyyətinin elementlərini (aktiv) və öhdəliklərin kəmiyyətini (passivlər) dəqiq göstərir. Eyni zamanda o, müəssisənin xalis dəyərini və likvidliyini (nağd pula çevrilməsi) xarakterizə edir. Bu sənəd növbəti 3-4 il üçün hazırlanmalıdır.

Bu bölmənin axırında müəssisənin fəaliyyətinin aşağıdakı əsas maliyyə nəticələrinə qiymət vermək lazımdır:

a) xalis gəlirin satışa nisbəti. Bu göstəricini hesablamaq üçün mənfəətin vergilər çıxıldıqdan sonra qalan hissəsini il ərzində satışın həcminə bölmək lazımdır.

b) firmanın aktivlərinin və passivlərinin vəziyyətinin cari əmsalı. Bu əmsalı tapmaq üçün cari aktivləri cari öhdəliklərə bölmək lazımdır. Əmsal 2-yə bərabər və ondan yuxarı olarsa müəssisə maliyyə cəhətdən sağlam hesab olunur.

v) rentabellik. Bu göstərici xalis mənfəətin investisiya olunmuş kapitala nisbəti kimi hesablanır.

Əgər biznes planın yekun variantı xülasə ilə başlamalıdırsa, planın hazırlanması prosesi adətən xülasə ilə başa çatır. Burada başlıca məsələ biznes planın məqsədlərinin, kəmiyyət və keyfiyyət, maliyyə və qeyri-maliyyə göstəricilərinin düzgün formalaşdırılması, eləcə də müvafiq marketinq tədqiqatlarının köməyilə onların əsaslandırılmasıdır.

Cədvəl 10.5.4. 200_ il üçün balans cədvəli

Aktivlər Cari aktivlər: Nağd pul Ehtiyat Qəbul olunmuş hesablar	
Cəmi cari aktivlər	
Qeyd olunmuş aktivlər: Torpaq Tikililər Avadanlıq	
Cəmi qeyd olunmuş aktivlər	
Yığılmış amortizasiya	
Hiss olunmayan aktivlər Patentlərin əldə edilməsi Digər hiss olunmayan aktivlər	
Cəmi hiss olunmayan aktivlər	
Cəmi aktivlər	
Passivlər Cari passivlər: Ödəniş üçün təqdim olunmuş hesablar Ödəniş üçün təqdim olunmuş veksellər	
Cəmi cari passivlər	
Qeyd olunmuş passivlər: Uzunmüddətli istiqrazlar Girovlar	
Cəmi qeyd olunmuş passivlər	
Cəmi passivlər	
Kapitalın strukturu: Mülkiyyətçilərin kapitalı Digər səhmdarların kapitalı	
Cəmi kapital	

FƏSİL 11. İŞÇİLƏRİN ƏMƏYİNİN ÖDƏNİLMƏSİ

11.1. Əməyin ödənilməsinin sosial-iqtisadi mahiyyəti və onun təşkilinin əsasları

Əmək haqqının əsasını istehsal amili kimi əməyin qiyməti təşkil edir ki, bu da əməyin məhsuldarlıq həddinə gətirib çıxarır. Məhsuldarlıq həddi nəzəriyyəsinə görə işçi onun əmək haqqını ödəyə biləcək məhsul istehsal etməlidir. Deməli, əmək haqqı işçinin əməyinin səmərəliliyi ilə düz mütənasibdir.

Əmək haqqı işçinin sərf etdiyi əməyinin kəmiyyət və keyfiyyətinə görə milli gəlirdən pul formasında aldığı və onun şəxsi istehlakına gedən hissəsidir. Əmək haqqı müəyyən mənada əməyə görə mükafatdır. İşçilərin əməyinin ödənilməsi isə istehsal prosesinə cəlb olunmuş əmək resurslarının qiymətidir. Belə də demək olar ki, əmək haqqı məhsulun istehsalı və satışı üçün xərclərin bir hissəsi olub, müəssisə işçilərinin əməyinin ödənilməsinə sərf olunur.

Sosial-iqtisadi kateqoriya kimi əmək haqqına işçi və işəgötürən üçün onun rolu və əhəmiyyəti baxımından yanaşılmasını tələb edir. İşçi üçün əmək haqqı onun şəxsi gəlirinin başlıca və əsas maddəsi, özünün və ailə üzvlərinin rifah halının yaxşılaşdırılması vasitəsidir. Əməyin nəticələrinin yaxşılaşdırılması hesabına alacağı mükafatın ölçüsünün artırılması üçün əmək haqqının stimullaşdırıcı rolu məhz bununla əlaqədardır. İşəgötürən üçün isə işçinin əmək haqqı istehsal xərclərini əks etdirir və o, həmin xərclərin məhsul vahidinə düşən hissəsinin minimallaşdırılması üçün çalışır.

Əmək haqqı təkrar istehsal və motivasiya funksiyalarını yerinə yetirir, çünki o, əməyin ödənilməsi formasıdır və müəssisənin işçiləri üçün mühüm stimuldur.

Müəssisədə əmək haqqının təşkili mexanizmi bilavasitə iş qüvvəsi qiymətinin əmək haqqına çevrilməsi prosesini əks etdirir. Əmək haqqının əsas funksiyalarının yerinə yetirilməsi məhz bunun müasir bazar həqiqətlərinə nə dərəcədə uyğun gəlməsindən asılıdır. İşçinin və işəgötürənin maraqları arasında kompromis əmək haqqının təşkili ilə əldə edilir ki, bu da bazar iqtisadiyyatının iki hərəkətverici qüvvəsi arasında sosial əməkdaşlıq münasibətlərinin inkişafına şərait yaradır.

Əmək haqqının kəmiyyəti təkcə işçinin ala biləcəyi pulun miqdarı ilə deyil, həm də bu pula nə ala biləcəyi ilə müəyyən olunur. Daha doğrusu, pulun alıcılıq qabiliyyəti nominal və real əmək haqqının nisbəti ilə müəyyən olunur.

Nominal əmək haqqı müəyyən dövrdə işçilərə onların əməyinə görə hesablanmış və verilmiş əmək haqqıdır.

Real əmək haqqı isə nominal əmək haqqı hesabına işçinin əldə edə biləcəyi malların və xidmətlərin kəmiyyətini əks etdirir. Real əmək haqqı nominal əmək haqqının «alıcılıq qabiliyyətidir». Deməli, real əmək haqqı nominal əmək haqqının kəmiyyətindən, eləcə də alınacaq malların və xidmətlərin qiymətindən asılıdır.

Əməyin ödənilməsi sahəsində müəssisənin siyasəti aşağıdakı amillərlə müəyyən olunmalıdır:

- müəssisənin maliyyə vəziyyəti;
- regionda işsizliyin səviyyəsi;
- əmək haqqı sahəsində dövlət tənzimlənməsinin səviyyəsi;
- həmkarlar ittifaqlarının və işəgötürənlərin birliklərinin təsiri.

Müəssisədə əmək haqqının təşkili aşağıdakıları əhatə edir:

1. Əsaslandırılmış əmək normalarının (vaxt norması, hasilat norması, xidmət norması, işçilərin sayı norması, idarəolunanlıq norması) müəyyən edilməsi.
2. Tarif sisteminin hazırlanması.

3. Əməyin ödənilməsi formalarının və sistemlərinin müəyyən edilməsi.

4. Əmək haqqı fondunun əmələ gəlməsi.

Əmək normaları ayrı-ayrı əmək növləri arasında optimal nisbətlərin müəyyən edilməsi üçün əsasdır. Onlar konkret işlərin yerinə yetirilməsi üçün əmək məsrəflərinin kəmiyyətcə obyektiv qiymətləndirilməsi üçün lazımdır.

Əməyin ödənilməsinin tarif sistemi müxtəlif işçi qruplarının və kateqoriyalarının əmək haqqını onların əməyinin keyfiyyət xarakteristikalarından asılı olaraq differensiallaşdırılmasını və tənzimlənməsini həyata keçirməyə imkan verən normativlərin məcmusudur. Tarif sisteminə aşağıdakı elementlər daxildir: tarif cədvəli, tarif-maaş dərəcəsi (stavkası) və tarif-ixtisas sorğu kitabçası.

Tarif cədvəli – dərəcələr şkalasıdır və bu dərəcələrdən hər birinə əməyin ödənilməsi üzrə müvafiq əmsal verilmişdir. Əmsal müəyyən dərəcədən olan işçinin əməyinin birinci dərəcədən olan işçinin əməyindən neçə dəfə yüksək ödənilməsini göstərir.

Sənayedə fəhlələrin əksər hissəsi 6 əsas dərəcə üzrə tarifləşdirilir. Maşınqayırmada, qara metallurgiyada və elektrik energetikasında məhdud sayda işlər dairəsi üçün 8 dərəcəli cədvəldən istifadə olunur.

Tarif dərəcələri	1	2	3	4	5	6	7	8
Tarif əmsalları	1,0	1,17	1,37	1,54	1,71	1,92	2,13	2,33

Dərəcədən dərəcəyə əmsalların artırılması qaydasını (bərabər və ya süni sürətləndirilmiş) müəssisələr sərbəst müəyyən edə bilərlər.

Hazırda dövlət büdcəli təşkilatlar üçün 19 dərəcəli cədvəl tətbiq olunur və bütün işçi kateqoriyaları üçün əmək haqqının ölçüsü onun əsasında müəyyən olunur.

Tarif stavkası iş vaxtı vahidi ərzində müxtəlif fəhlə qruplarının əməyinin ödənilməsinin ölçüsünü müəyyən edir. Tarif stavkaları saatlıq, günlük və aylıq ola bilər. Başlanğıc nöqtə birinci dərəcənin tarif stavkasıdır və bu, ən sadə əməyin ödənilməsi səviyyəisni əks etdirir.

Tarif-ixtisas sorğu kitabçaları işçilərin ixtisas xarakteristikalarını əks etdirən normativ sənədlər toplusudur. O, mürəkkəblikdən, dəqiqlikdən, işlərin yerinə yetirilməsi şəraitindən, peşəkarlıq səviyyəsi və praktiki vərdişlər baxımından qoyulmuş tələblərdən asılı olaraq peşələr üzrə işlərin dərəcələrinin müəyyən edilməsi üçün lazımdır.

Mərkəzləşdirilmiş planlı iqtisadiyyat şəraitində tarif sistemi əmək haqqının təşkilinin əsas elementlərindən biri idi. Hazırda, müəssisələr əməyin ödənilməsi sahəsində müstəqil siyasət yeritdikləri bir vaxtda tarif sistemi sırf tövsiyyə xarakterli normativlər sisteminə çevrilməlidir. Belə halda tarif sistemi mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrdə tətbiq oluna bilər.

Əməyin ödənilməsi fondu müəssisədə işçilərin əməyinin ödənilməsi və sosial xarakterli ödənclərin verilməsi üçün lazım olan xərclərin ümumi məbləğini təşkil edir.

11.2. Əməyin ödənilməsinin formaları və sistemləri

Tarif sisteminin mühüm elementi əməyin ödənilməsinin formaları və sistemləridir. Müxtəlif mülkiyyət formalarına məxsus müəssisələrdə əməyin ödənilməsinin iki forması geniş yayılmışdır: işəmuzd və vaxtamuzd. Bu formaların köməyilə əməyin ödənilməsi onun kəmiyyət və keyfiyyət nəticələri ilə əlaqələndirilir. Müəssisədə əməyin ödənilməsinin bu və ya başqa forması seçilərkən məhsul istehsalının xüsusiyyətləri, texnoloji prosesin xüsusiyyətləri, istehsalın və əməyin vəziyyəti və digər xüsusiyyətlər nəzərə alınır.

Əməyin ödənilməsinin hər iki forması müəyyən sistemlərə malikdir (Şəkil 11.2.1).

Ümumi şəkildə işəmuzd əmək haqqı forması müəyyən olunmuş tarif stavkalarına və hasilat (vaxt) normalarına görə vaxt vahidi ərzində hazırlanmış məhsulun miqdarına görə haqqdır.

Şəkil 11.2.1. Əmək haqqının formaları və sistemləri

şəmuzd əmək haqqının tətbiqi aşağıdakı hallarda mümkündür:

- işin bilavasitə konkret işçidən asılı olan kəmiyyət göstəricilərinin mövcud olması;
- yerinə yetirilən işlərin həcminin dəqiq uçotunun mümkünlüyü;
- fəhlələrdə konkret istehsal sahəsində hasilatı və ya yerinə yetirilən işlərin həcminin artırılması imkanının olması;
- məhsul hasilatının və işlərin həcminin daha da artırılması üçün fəhlələrin stimullaşdırılmasının zəruriliyi;
- əməyin texniki normalaşdırılmasının mümkünlüyü.

Əgər işəmuzd əmək haqqı formasının tətbiqi aşağıdakılara səbəb olarsa, onun tətbiqi məsləhət görülmür:

- məhsulun keyfiyyətinin pisləşməsinə;
- texnoloji rejimlərin pozulmasına;
- avadanlığa xidmətin pisləşməsinə;
- texniki təhlükəsizlik tələblərinin pozulmasına;
- xammal və materialların artıq sərfinə.

Müəssisələrdə vaxtamuzd əmək haqqı formasının tətbiqi aşağıdakı hallarda daha səmərəlidir:

- məhsul buraxılışının artırılması imkanının olmaması;
- istehsal prosesinin ciddi reqlamentləşdirilməsi;
- fəhlənin funksiyası texnoloji prosesin gedişinə nəzarətdən ibarət olduqda;
- axınlı və konveyer tipli istehsalların ciddi müəyyən edilmiş ritmlə fəaliyyət göstərməsi;
- məhsul buraxılışının artması zay məhsul buraxılışına və ya onun keyfiyyətinin pisləşməsinə səbəb olması.

Hər bir konkret müəssisədə buraxılan məhsulun xarakterindən, bu və ya başqa texnoloji proseslərin olmasından, istehsalın və əməyin təşkili səviyyəsindən asılı olaraq əməyin ödənilməsinin bu və ya başqa forması tətbiq oluna

bilər. Məsələn, əgər təkcə işəmuzd-mükafatlı və işəmuzd-mütərəqqi sistemləri tətbiq olunarsa, işəmuzd əmək haqqı forması səmərəsiz ola bilər. Lakin akkord sistemindən istifadə olunarsa səmərəlilik arta bilər. Hətta eyni bir müəssisədə konkret növ məhsul buraxılışından asılı olaraq sexlər üzrə əməyin ödənilməsi üçün müxtəlif variantlardan istifadə oluna bilər.

İndi isə bu və ya başqa formada əməyin ödənilməsinin müəyyənləşdirilməsinə baxaq.

Müəssisədə mövcud olan xüsusiyyətlərdən, texniki-təşkilati şərtlərdən, həll edilən məsələlərdən, eləcə də hesablanması metodlarından asılı olaraq işəmuzd əmək haqqının sadə işəmuzd, işəmuzd-mükafatlı, dolayı işəmuzd, akkord və işəmuzd-mütərəqqi sistemləri tətbiq olunur. Hesablanma obyektinə görə işəmuzd əmək haqqı forması fərdi və kollektiv sistemlərinə bölünür.

Sadə (birbaşa) işəmuzd sistemdə əmək haqqı buraxılan məhsulun miqdarı və məhsul vahidi üçün işin qiyməti əsasında hesablanır:

$$C\text{Əh} = N \cdot P,$$

burada *C*Əh - işəmuzdçunun sadə işəmuzd əmək haqqı;

N - istehsal olunmuş məhsulun miqdarı;

P - məhsul vahidi üçün işin qiymətidir.

Məhsulun və ya işin bir vahidi üçün işin qiyməti aşağıdakı düsturla hesablanır:

$$P = T_c \cdot H_e \quad \text{və ya} \quad P = T_c : H_h$$

burada T_c - müvafiq dərəcədən olan fəhlənin tarif stavkası;

H_e - məhsul vahidinin istehsalı üçün vaxt norması;

H_h - vaxt vahidi üçün hasilat normasıdır.

İşəmuzd-mükafatlı sistemdə fəhlənin əməyi sadə işəmuzd qiymətləri ilə ödənilir və əlavə olaraq fəhləyə mükafat da verilir. Lakin bunun üçün hansı göstəricilər əsasında mükafatlandırmanın həyata keçiriləcəyi dəqiq müəyyən olunmalı və onlar hər bir icraçıya çatdırılmalıdır.

İşə təzə qəbul olunmuş fəhlələrə də bu barədə məlumat verilməlidir. Bundan əlavə həmin göstəricilərin yerinə yetirilməsi və artıqlaması ilə yerinə yetirilməsi üçün mükafatın ölçüsü də müəyyən olunmalıdır. Bu göstəricilərə aşağıdakıları aid etmək olar: əmək məhsuldarlığının artımı; istehsal həcminin artırılması; texniki əsaslandırılmış hasilat normalarının yerinə yetirilməsi və normalaşdırılan əmək tutumunun azaldılması; istehsal tapşırıqlarının, şəxsi planların yerinə yetirilməsi; məhsulun keyfiyyətinin və sortunun yaxşılaşdırılması; defektsiz məhsul istehsalı; zay məhsulun qarşısının alınması; normativ-texniki sənədləşmələrə və standartlara əməl olunması; xammala, materiallara, alətlərə, sürtgü materiallarına və digər maddi dəyərlilərə qənaət.

Bu göstəricilərin sayını artırmaq da olar. Hər hansı bir göstəricinin tətbiqi həmin müəssisədə mövcud olan konkret istehsal şəraitindən asılı olaraq müəyyən edilir. Lakin bu göstəricilərin sayını çox da artırmaq olmaz. 5-7 göstəricidən istifadə edilməsi daha məqsədəuyğundur, çünki göstəricilərin sayı çox olduqda onu fəhlələr dərk etmirlər və yadda saxlamırlar.

Dolayı işəmuzd sistemdə fəhlənin əmək haqqının ölçüsü onların xidmət etdikləri işəmuzd fəhlələrin əməyinin nəticələrindən birbaşa asılı olur. Bu sistemdən əsas fəhlələrin deyil, köməkçi fəhlələrin əməyinin ödənilməsi üçün istifadə olunur.

Dolayı işəmuzd sistemdə işin qiyməti (P_d) aşağıdakı düsturla hesablanır:

$$P_d = T_x : H_c \cdot p,$$

burada T_x - xidmət göstərilən fəhlənin saatlıq tarif stavkası;

H_c - xidmət göstərilən bir fəhlənin (oğyektin, aqreqatın) saatlıq hasilat norması (məhsul vahidlərilə);

p - xidmət göstərilən fəhlələrin (obyektlərin, aqreqatların) sayıdır.

Fəhlənin ümumi əmək haqqı iki yolla müəyyən edilə bilər:

1. Köməkçi fəhlənin stavkası xidmət göstərilən işəmuzd fəhlələr tərəfindən normaların yerinə yetirilməsinin orta faizinə vurulması yolu ilə:

$$Əh_{üm} = T_c \cdot \Phi_к \cdot Y : 100,$$

burada $Əh_{üm}$ - fəhlənin ümumi əmək haqqı, man;

T_c - köməkçi fəhlənin dolayı işəmuzd əmək haqqı sisteminə gətirilmiş saatlıq tarif stavkası, man;

$\Phi_к$ - həmin köməkçi fəhlənin faktiki sərf etdiyi adam-saatların miqdarı;

Y - həmin köməkçi fəhlənin xidmət göstərdiyi bütün fəhlələr (obyektlər, aqreqatlar) tərəfindən hasilat normalarının yerinə yetirilməsinin orta çəkili əmsalıdır.

2. Dolayı işəmuzd işin qiymətinin xidmət göstərilən fəhlələrin faktiki məhsul buraxılışına vurulması yolu ilə:

$$Əh_{üm} = \sum P_{dy} \cdot N_{fy},$$

burada P_{dy} - xidmət göstərilən y-ci fəhlənin istehsal etdiyi məhsulun bir vahidi üçün dolayı işəmuzd işin qiyməti, man;

N_{fy} - həmin dövrdə xidmət göstərilən y-ci fəhlənin istehsal etdiyi məhsulun faktiki miqdarıdır (müvafiq ölçü vahidlərilə).

İşəmuzd əmək haqqının akkord sistemində işin qiyməti mövcud vaxt normaları və ya hasilat normaları , eləcə də işin qiyməti ayrı-ayrı əməliyyatlar üçün deyil, işlərin bütün həcmi üçün müəyyən edilir. Əməyin ödənilməsinin bu sistemində fəhlələr işlərin yerinə yetirilməsi müddətlərinin qısaldılmasına görə mükafatlandırılır ki, bu da əmək məhsuldarlığının artırılmasında həmin sistemin həvəsləndirici rolunu gücləndirir.

Hazırda belə sistemin tətbiqi müəyyən problemlərlə əlaqədardır, çünki inflyasiya şəraitində işlərin bütün həcmi

üçün əməyin ödənilməsi fondunun müəyyən edilməsi çətinləşir.

İşəmuzd-mütərəqqi sistemdə fəhlələrin əməyi hasilat normasının yerinə yetirilməsi sadə (müstəqim) işəmuzd işin qiymətinə görə ödənilir, normadan artıq hasilat üçün isə artırılmış işin qiymətləri tətbiq edilir. İşəmuzd-mütərəqqi əlavələr ay ərzində başlanğıc bazadan artıq keyfiyyətli məhsul buraxılışının nəticələrinə görə hesablanır. İşəmuzd-mütərəqqi əmək haqqının ölçüsü aşağıdakı düsturla hesablanır:

$$İMƏH = CƏh + CƏh(n - n_b) : n \cdot K_i,$$

burada İMƏH - işəmuzd-mütərəqqi əmək haqqı;

n - hasilat normasının yerinə yetirilməsi faizi;

n_b - mütərəqqi əmək haqqının hesablanması üçün hasilat normasının yerinə yetirilməsi faizi ilə ifadə olunmuş başlanğıc baza;

K_i - mütərəqqi əmək haqqı şkalası üzrə götürülmüş müstəqim işəmuzd işin qiymətinin artırılması əmsalıdır.

Əməyin ödənilməsinin işəmuzd-mütərəqqi sistemindən istifadə zamanı normativ başlanğıc bazanın müəyyən edilməsinə, işin qiymətlərinin yüksəldilməsinin səmərəli şkalasının hazırlanmasına, məhsul istehsalının və faktiki sərf olunmuş vaxtın uçotuna xüsusi fikir verilməlidir.

İşəmuzd-mütərəqqi sistem sadə işəmuzd sistemə nisbətən hasilatın artırılmasına çox dərəcədə həvəsləndirir. Lakin o, hasilata nisbətən əmək haqqının artırılmasına gətirib çıxarır. Ona görə də bu sistem nadir hallarda və qısa müddətlərdə əmək məhsuldarlığının artımını ləngidən «zəif» istehsal sahələrində tətbiq olunur.

Əməyin ödənilməsinin işəmuzd forması həm hər bir konkret işçi üçün fərdi, həm də kollektiv formada tətbiq oluna bilər.

Əməyin ödənilməsinin podrat sistemindən də geniş istfadə olunur. Onun mahiyyətini tərəflər arasında bağlanan müqavilə təşkil edir. Bu müqaviləyə əsasən tərəflərdən biri

müəyyən həcmdə işlərin yerinə yetirilməsini, digəri isə (sifarişçi) həmin iş başa çatdıqdan sonra onun ödənilməsini üzərinə götürür. Fəhlə briqadasının əmək haqqı ($Əh_{br}$) aşağıdakı düsturla hesablanır:

$$Əh_{br} = P^{i}_{br} \cdot N^{f}_{br},$$

burada P^{i}_{br} - buraxılan məhsulun (görülən işin) bir vahidi üçün briqada üzrə işəmuzd işin qiyməti;

N^{f}_{br} - briqadanın yerinə yetirdiyi işin faktiki həcmidir.

Əgər briqada müxtəlif işləri həyata keçirirsə və bu işlər müxtəlif işin qiymətləri ilə qiymətləndirilirsə, onda briqadanın ümumi əmək haqqı aşağıdakı düsturla hesablana bilər:

$$Əh_{br} = \sum_{i=1}^{n} P^{i}_{br} \cdot N^{f}_{br},$$

burada i - işlərin konkret növlərinin və həmin iş növünün konkret işin qiymətini əks etdirir.

Vaxtamuzd əmək haqqı formasından istifadə zamanı işçi sərf etdiyi vaxtın miqdarına görə əmək haqqı alır. Lakin əmək sadə və mürəkkəb, az və yüksək ixtisaslı olduğundan əmək normalaşdırılmalıdır.

Vaxtamuzd əmək haqqının iki sistemi mövcuddur: sadə vaxtamuzd və vaxtamuzd-mükafatlı.

Sadə vaxtamuzd sistemdə fəhlənin əmək haqqı ($Əh_{vs}$) müvafiq dərəcədən olan fəhlənin saatlıq (günlük) tarif stavkasını (T_c) həmin dövrdə sərf olunmuş vaxtın miqdarına ($t_{iş}$) vurmaqla hesablanır:

$$Əh_{vs} = T_c \cdot t_{iş}.$$

Əmək aylıq ödənildikdə fəhlənin vaxtamuzd əmək haqqı aşağıdakı düsturla hesablanır:

$$Əh_{v} = Ə_{am} : t' \cdot t,$$

burada $Ə_{am}$ - ciddi aylıq vaxtamuzd əmək haqqı (maaş), man;

t - həmin ayda qrafik üzrə fəhlənin iş saatlarının miqdarı;

t' - fəhlənin faktiki sərf olunmuş saatlarının miqdarıdır.

Vaxtamuzd mükafatlı sistemdə sadə vaxtamuzdla yanaşı əldə olunmuş kəmiyyət və keyfiyyət göstəricilərinə görə stavkaya (maaşa) əlavələr nəzərdə tutulur. Fərz edək ki, fəhlənin aylıq maaşı 200 min manatdır, bütün nəzərdə tutulmuş iş günlərini işləyərsə və fəhlənin mükafatının maaşın 20%-i təşkil etdiyini qəbul etsək, onda fəhlənin vaxtamuzd mükafatlı əmək haqqı 240 min manat təşkil edəcəkdir.

Mükafatlandırma həm fərdi, həm də kollektiv əməyin nəticələrinə görə həyata keçirilir. Mükafatlandırma göstəriciləri və şərtləri işlərin və fəhlələrin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilir və onlara ciddi əməl olunmalıdır.

Normalaşdırılmış tapşırıqlı vaxtamuzd əmək haqqı sistemindən sənaye müəssisələrində daha geniş istifadə olunur. Bu sistemə işəmuzd-vaxtamuzd sistem də deyilir. Həmin sistemdən fəhlələrin funksiyaları dəqiq reqlamentləşdirildikdə və hər bir əməliyyat üzrə vaxt normasının hesablanması mümkün olduqda istifadə edilir. Ona görə də bu sistem əməyin ödənilməsinin həm işəmuzd, həm də vaxtamuzd formalarını birləşdirir.

İstehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəlməsi ilə əlaqədar əmək haqqının vaxtamuzd forması daha perspektivlidir. Belə şəraitdə fəhlədən məhsul buraxılışının (yerinə yetirilən əməliyyatların sayının) artırılması deyil, texnoloji proseslərə, avadanlığın işinə nəzarətin həyata keçirilməsi və nasazlıqların vaxtında aradan qaldırılması tələb olunur.

Rəhbər işçilər, mütəxəssislər və qulluqçular üçün vəzifə maaşları sistemindən istifadə olunur. Vəzifə maaşı əmək haqqının işçinin tutduğu vəzifəyə görə müəyyən olunmuş mütləq ölçüsüdür. Bu və ya başqa maaşın müəyyən edilməsinin səmərəliliyini artırmaq üçün analitik hesablamaları aparmaq lazımdır.

Müəssisələrin əksəriyyəti əsas əmək haqqının təşkili üçün Vahid tarif cədvəlindən istifadə edir. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 1994-cü il tarixli «Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər» haqqında fərmanına əsasən 15 oktyabr 1994-cü il tarixdən respublikada əməyin ödənilməsinin minimum məbləği 4000 (minimum əmək haqqının məbləği hazırda 5500 manatdır) olmaqla Vahid tarif cədvəli tətbiq olunur (Cədvəl 11.2.2).

Stavka və maaşların göstərilən həcmi işçinin müvafiq ixtisas səviyyəsinə uyğun olaraq əməyin ödənilməsi üçün mütləq minimal təminatdır.

Əməyin ödənilməsinin minimum məbləği mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar üçün məcburidir.

Təsərrüfat hesablı müəssisələr kollektiv müqavilələrə əsasən əməyin ödənilməsinə yönəldilən vəsait hesabına fəhlə və qulluqçulara bu minimum məbləğdən əlavə daha yüksək məbləğdə stavka və maaş təyin edə bilərlər.

11.3. Əməyin ödənilməsinin tarifsiz və qarışıq sistemləri

Əmək haqqının təşkilinin tarifsiz sistemi bu sahədə irəliyə doğru atılmış addımdır. Çünki tariflərə və maaşa görə əməyin ödənilməsi zamanı bərabərçilikdən qaçmaq, ayrıca bir işçinin və bütün kollektivin maraqları arısındakı ziddiyətləri aradan qaldırmaq kifayət qədər çətindir. Bu baxımdan əməyin ödənilməsinin tarifsiz sistemi əməyin təşkili

və stimullaşdırılmasının təkmilləşdirilməsinin mümkün variantı kimi tətbiq oluna bilər.Bazar iqtisadiyyatına keçid zamanı bu sistemdən bir çox müəssisələrdə istifadə olunur.

Cədvəl11.2.2.Vahid tarif cədvəlinə əsasən tarif stavkalarının (vəzifə maaşlarının) hesablanması

Əməyin ödənilməsi dərəcələri	Tarif əmsalları	Aylıq tarif stavkası (vəzifə maaşı), manat
0	1,0	4000
1	1,82	7280
2	2,15	8600
3	2,53	10120
4	2,81	11240
5	3,12	12480
6	3,46	13840
7	3,84	15360
8	4,26	17040
9	4,73	18420
10	5,25	21000
11	5,83	23320
12	6,47	25880
13	7,18	28720
14	7,97	31880
15	8,85	35400
16	9,82	39280
17	10,9	43600
18	12,1	48400
19	13,43	53720

Bu halda hər bir işçinin əmək haqqının ölçüsü aşağıdakı amillərdən asılı olur:

- işçinin ixtisas səviyyəsi;
- işçinin əməkdə iştirak əmsalı;
- işçinin faktiki sərf etdiyi vaxt.

İşçinin ixtisas səviyyəsi (K) hər bir işçi üçün müəyyən edilir. Bunun üçün ötən dövrdə işçinin faktiki əmək haqqının məbləği həmin dövr üçün müəssisədə mövcud olan minimum əmək haqqı məbləğinə bölünür.

Sonra müəssisənin bütün işçiləri 10 ixtisas qrupuna bölünür. Hər bir qrup üçün özünün ixtisas səviyyəsi müəyyən edilir:

Sıra sayı	İxtisas qrupu	İxtisas balı
1.	Müəssisənin rəhbəri	4,5
2.	Baş mühəndis	4,0
3.	Direktorun müavini	3,6
4.	Bölmələrin rəhbərləri	3,25
5.	Aparıcı mütəxəssislər	2,65
6.	Yüksək ixtisaslı mütəxəssislər və fəhlələr	2,5
7.	İkinci kateqoriyalı mütəxəssislər və ixtisaslı fəhlələr	2,1
8.	Üçüncü kateqoriyalı mütəxəssislər və ixtisaslı fəhlələr	1,7
9.	Mütəxəssislər və fəhlələr	1,3
10.	İxtisassız fəhlələr	1,0

İşçinin ixtisas səviyyəsi bütün əmək fəaliyyəti müddətində yüksəldilə bilər. Bu məsələni əmək kollektivi Şurası həll edir.

Əməkdə iştirak əmsalı (ƏİƏ) direktor da daxil olmaqla müəssisənin bütün işçiləri üçün müəyyən edilir və əmək kollektivi Şurası tərəfindən təsdiq edilir. Bu əmsalın hesablanması müddətlərini və onu hesablamaq üçün lazım olan göstəricilərin tərkibini müəssisənin direktoru müəyyən edir.

Əməyin ödənilməsinin tarifsiz sistemində əmək haqqı aşağıdakı ardıcıllıqla hesablanır:

1. Hər bir işçinin topladığı balların miqdarı təyin edilir:

$$M_i = K \cdot T \cdot \text{ƏİƏ},$$

burada K - ixtisas səviyyəsi;

T - sərf olunmuş adam-saatların miqdarıdır.

2. Müəssisənin (bölmənin) bütün işçilərinin topladıqları balların ümumi məbləği hesablanır:

$$M = \sum_{i=1}^{m} M_i .$$

3. Əməyin ödənilməsi fondunun (ƏÖF) bir balın ödənilməsinə gedən hissəsi hesablanır:

$$d = \text{ƏÖF} : \text{M} .$$

4. Bu göstəricilər əsasında ayrı-ayrı işçilərin əmək haqqı (Əh) hesablanır:

$$\text{Əh} = \text{M}_i \cdot \text{d} .$$

Məsələn, sexdə işçilərin faktiki əmək haqqının hesablanması qaydasını aşağıdakı kimi göstərə bilərik (Cədvəl 11.3.1):

Cədvəl 11.3.1. Faktiki əmək haqqının hesablanması

İxtisas səviyyəsi, K	Sərf olunmuş adam-saatların miqdarı, T	Əməkdə iştirak əmsalı, ƏİƏ	Balların miqdarı, M_i	Əmək haqqı fondundan bir balın ödənilməsinə gedən hissə, min manatla d	Faktiki əmək haqqı, min manatla
1,3	180,5	1,1	258,1	1,086	280,3
2,1	123,1	0,9	232,6	1,086	252,66
1,7	180,5	1,04	319,1	1,086	346,57

Əməyin ödənilməsinin belə sistemi hətta eyni bir ixtisas səviyyəsindən və dərəcədən olan işçilər arasında da əmək haqqı fondunun bölüşdürülməsi nisbətlərini fərqləndirir. İşçilərin bir hissəsinin əmək haqqı artacaq, digər hissəsininki isə azalacaqdır. Nəticədə işçilər arasında əmək haqqının bölüşdürülməsində sosial ədalət təmin edilir.

Məlumdur ki, bazar iqtisadiyyatında işin mühüm göstəricisi məhsul (xidmətlər) satışının həcmidir. Ona görə də satışın həcmi nə qədər yüksək olarsa, müəssisə bir o qədər səmərəli işləmiş olur. Deməli, əmək haqqı satışın həcmindən asılı olaraq da təshih olunmalıdır. Bu idarəetmə işçiləri və köməkçi fəhlələr üçün xüsusilə vacibdir, çünki müəssisədə işçilərin bu iki kateqoriyası məhsul buraxılışının həcmi ilə o qədər də əlaqədar deyildir.

İdarəetmə işçilərinin əməyinin ödənilməsinin satışın həcminə görə təshih edilməsi üçün xüsusi şkaladan istifadə oluna bilər (Cədvəl 11.3.2).

Bu variantda inzibati-idarəetmə heyəti üçün möhkəm maaş müəyyən olunmur və əməyin ödənilməsi məhsul satışının həcmindən asılı olaraq hər ay dəyişilir.

Əməyin ödənilməsinin tarifsiz sisteminin bir növü də müqavilə (kontrakt) sistemidir. Bu halda işəgötürən və işçi arasında müəyyən müddət üçün müqavilə bağlanır. Müqavilədə əmək şərtləri, tərəflərin hüquq və vəzifələri, iş rejimi və əməyin ödənilməsi səviyyəsi, eləcə də müqavilənin fəaliyyət müddəti müəyyən edilir. Eyni zamanda həmin müqavilədə bu və ya başqa səbəbdən tərəflərdən hər biri tərəfindən müqavilənin vaxtından əvvəl pozulması üçün məsuliyyət məsələləri də əks etdirilir. Müqavilədə həm işçinin müəssisədə olması müddətini (vaxtamuzd əmək haqqı), həm də müəyyən vaxt ərzində işçinin yerinə yetirəcəyi konkret tapşırıq (işəmuzd əmək haqqı) göstərilə bilər. Müqavilə sisteminin əsas üstünlüyü həm işçilərin, həm də müəssisə rəhbərliyinin hüquq və vəzifələrinin dəqiq bölüşdürülməsidir. Bazar şəraitində bu sistem kifayət qədər səmərəlidir.

Cədvəl 11.3.2. İdarəetmə işçilərinin əməyinin ödənilməsinin satışın həcminə görə təshih edilməsi şkalası

Sıra sayı	Vəzifəsi	Ödəniş faizi	Qeyd
1.	Müəssisənin direktoru	1,5	Satışın həcmindən
2.	İstehsal üzrə direktor müavini	80	Direktora hesablanmış əmək haqqı məbləğindən
3.	Maddi-texniki təchizat üzrə direktor müavini	80	Direktora hesablanmış əmək haqqı məbləğindən
4.	Baş mühasib	80	Direktora hesablanmış əmək haqqı məbləğindən
5.	Mal-material qiymətlilərinin uçotu üzrə mühasib	80	Baş mühasibin əmək haqqı məbləğindən
6.	Mühasib-kassir	80	Baş mühasibin əmək haqqı məbləğindən
7.	İqtisadçı	75	Direktora hesablanmış əmək haqqı məbləğindən

Əmək haqqının təşkilinin yeni sistemləri arasında qarışıq sistemlər də xüsusi əhəmiyyət kəsb edir. Belə sistemlərə əməyin ödənilməsinin komission sistemi və diler mexanizmi daxildir.

Komission sistemi müəssisə adından hər hansı bir sövdələşməni (müqaviləni) bağlayan işçinin əməyinin sövdələşmənin ölçüsündən asılı olaraq komission faizi şəklində ödənilməsini nəzərdə tutur. Əmək haqqının hesablanmasının belə metodu müəssisənin daxilində də mümkündür. Mə-

sələn, xarici iqtisadi xidmətin, satış bölməsinin və s. işçiləri üçün bu sistem tətbiq oluna bilər.

Diler mexanizmində işçi müəssisənin məhsulunun müəyyən hissəsini öz hesabına satın alır. Bu halda işçi məhsulu satdıqdan sonra əvvəlcədən razılaşdırılmış qiymətlə müəssisə ilə haqq-hesabı həyata keçirir. Başqa sözlə, bu, işçiyə «natura» şəklində avansın verilməsidir. Belə mexanizm ölkəmizin müəssisələrində (kimya, yerli və toxuculuq sənayesi və s.) tətbiq olunur.

11.4. Əmək haqqı fondunun müəyyən edilməsi

Müəssisənin əmək haqqı fondu sənaye-istehsal və qeyri-sənaye istehsal heyətləri üzrə ayrı-ayrılıqda müəyyən edilir.

Sənaye istehsal heyətinin əmək haqqı fondu işçilərin kateqoriyaları (fəhlələr (işəmuzd və vaxtamuzd), mütəxəssislər, qulluqçular və rəhbərlər) üzrə ayrı-ayrılıqda hesablanır.

Əmək haqqı fondu həm əsas, həm də əlavə əmək haqqını əhatə edir.

Əsas əmək haqqına yerinə yetirilən işlər üçün haqq daxildir. Buraya daxildir: işəmuzd əmək haqqı; əmək haqqının tarif fondu; mükafatlar (əmək haqqı fondunun hesabına), əlavələr, kompensasiya və stimullaşdırıcı əlavələr və güzəştlər.

Əlavələr, güzəştlər əmək haqqının tarif sistemi əsasında təşkilinin mühüm elementləridir. Bu elementlərdən hər biri müəyyən funksiyanı yerinə yetirir. Əlavələr və güzəştlər hər şeydən əvvəl konkret işçinin işinin xüsusi şəraitini xarakterizə edir. Məsələn, peşələrin əvəzlənməsinə görə əlavə həmin işçinin əməyinin xüsusiyyətini əks etdirir. Bu əlavələr və güzəştlər işçini öz ixtisasını artırmaq üçün həvəsləndirir. İxtisas səviyyəsi əsasən sabit amil olduğundan

əlavələr və güzəştlər də sabit xarakter daşıyır. Bununla yanaşı həmin əlavələr fərdidir.

Əlavələrdən və güzəştlərdən fərqli olaraq mükafatlar hər hansı konkret nəticənin əldə edilməsini stimullaşdırır. Ona görə də mükafatı bütün işçilər deyil, həmin nəticəni əldə etmiş işçilər ala bilərlər. Mükafat cari xarakterdə olub dəyişkəndir. Mükafatlandırma hər hansı konkret vəzifənin yerinə yetirilməsi üçün tətbiq edilir. Həmin vəzifələr yerinə yetirildikdən sonra bu mükafatların tətbiqinə ehtiyac qalmır, çünki digər vəzifələri həvəsləndirmək lazım gələcəkdir.

Əgər əlavələr və güzəştlər fərdi idisə, mükafatlar geniş fəaliyyət diapazonuna malikdir. Ona görə də əməyin nəticələri baxımından əlavələrin və güzəştlərin bütün növlərini iki böyük qrupa bölmək olar: kompensasiyaedici əlavələr və güzəştlər və stimullaşdırıcı əlavələr və güzəştlər.

Kompensasiyaedici əlavələr və güzəştlər əlavə əmək məsrəflərinin əvəzini ödəmək üçün müəyyən edilir. Öz növbəsində bütün kompensasiyaedici əlavələr və güzəştlər də iki qrupa bölünür:

- əmək fəaliyyəti dairəsində məhdudlaşdırılmayan əlavələr və güzəştlər. Onlar müəssisələrin bütün təşkilati-hüquqi formaları üçün məcburidir;
- əmək fəaliyyətinin xüsusi sahələrində tətbiq edilən əlavələr və güzəştlər. Bunların da əksəriyyəti məcburidir, lakin onların ölçüsünü müəssisə özü müəyyən edir.

Birinci qrupa aşağıdakı əlavələr və güzəştlər daxildir:

- istirahət və bayram günlərində iş üçün. Bu halda işçilərin əməyi iki qat ödənilir:
- iş vaxtından artıq iş üçün. İlk iki saat üçün əmək haqqı 1,5 dəfə, sonrakı saatlar üçün isə 2 qat ödənilir. İş vaxtından artıq iş gün ərzində 4 saatdan, ay ərzində isə 120 saatdan çox olmamalıdır. Otqullara kompensasiya düşmür:
- həddi-büluğa çatmamış işçilərə iş gününün ixtisar edilməsi ilə əlaqədar güzəştlər;

- malik olduqları tarif dərəcəsindən aşağı dərəcəli işi yerinə yetirən fəhlələrə əlavələr. Belə fəhlələrə fəhlənin tarif stavkası ilə onun yerinə yetirdiyi işin stavkası arasındakı fərq ödənilir;

- işçidən asılı olmayan səbəbdən hasilat normasını yerinə yetirmədiyinə və zay məhsul buraxdığına görə əlavələr (əlavələr hasilat hədlərinədək müəyyən edilir);

- qanunvericilikdə nəzərdə tutulduğu hallarda orta əmək haqqı səviyyəsinədək əlavələr;

- işlərin yerinə yetirilməsinin normal şərtlərindən kənarlaşmalar ilə əlaqədar fəhlələrə verilən əlavələr.

Kompensasiyaedici əlavələrin ikinci qrupu məhdud tətbiq dairəsinə malikdir. Belə məhdudiyyətlər müxtəlif ola bilər. Məsələn, onlardan bir qismi işçinin bilavasitə əsas istehsal funksiyaları ilə əlaqədar işlərin yerinə yetirilməsi (əsas işindən ayrılmamaqla briqadirin funksiyalarını yerinə yetirdiyinə görə) üçün əlavə işin kompensasiyası kimi müəyyən olunur. Digər qismi isə yerinə yetirilən işin xüsusi xarakterindən (işlə əlaqədar başqa yerə getməsi üçün) irəli gəlir. Bu əlavələr məcburidir, lakin onların ölçüləri işəgötürənlə razılaşdırılmalıdır.

Stimullaşdırıcı xarakterli əlavələrə daxildir:

- peşələrin (vəzifələrin) əvəzlənməsi üçün;

- xidmət zonasının genişləndirilməsi və yerinə yetirilən işlərin həcminin artırılması üçün;

- işdə olmayan işçinin vəzifələrinin yerinə yetirilməsi üçün;

- peşə ustalığı üçün;

- yüksək ixtisas səviyyəsinə və əməkdə yüksək nailiyyətlərinə görə mütəxəssislər üçün;

- uçotun və kargüzarlığın aparılması üçün;

- hesablama texnikasına xidmət üçün.

Əvvəllər bu əlavələrin ölçüləri dövlət tərəfindən müəyyən olunurdu.Bu gün isə həmin problemi müəssisələr özləri həll edirlər. Bunun üçün müəssisələrdə xüsusi əsasnamələr hazırlanır.

Mükafatlandırma sistemi də müəssisələr tərəfindən müstəqil şəkildə tənzimlənir. Bunun üçün xüsusi mükafat əsasnamələri hazırlanır və məcburi qaydada kollektiv müqaviləyə daxil edilir.

Mükafatlandırma sisteminin tərkibinə aşağıdakı elementlər daxildir:

- mükafatlandırma göstəriciləri və şərtləri;
- mükafatlandırılan işçilərin sayı;
- mükafatın ölçüsü;
- mükafatlandırmanın dövriliyi;
- mükafatların ödənilməsi mənbələri.

Mükafatlandırma sisteminin bütün elementləri hazırlanan zaman aşağıdakı əsas tələbləri nəzərə almaq lazımdır:

1) mükafatlandırma göstəriciləri istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsini təmin edən vəzifələrin həllinə səmtlənməlidir;
2) göstəricilərin və şərtlərin sayı 2-3-dən çox olmamalıdır;
3) göstəricilər və şərtlər arasında ziddiyyət olmamalıdır;
4) mükafatlandırma göstəricilərinin gərginliyi nəzərə alınmalıdır;
5) mükafatlandırılacaq işçilərin sırasına göstəricilərin yerinə yetirilməsi bilavasitə onlardan asılı olan işçilər daxil edilir;
6) mükafatın ölçüsü müvafiq mənbə ilə təmin olunmalıdır.

Rəhbər işçilərin mükafatlandırılması üçün əsas göstərici kimi mənfəət, ayrı-ayrı bölmələr üçün maya dəyərinin aşağı salınması, əmək məhsuldarlığının artımı və s. götürülə bilər. Birdəfəlik xarakterə malik fərdi və kollektiv mükafatlandırma geniş yayılmışdır. Birdəfəlik mükafatlara aşağıdakıları aid etmək olar: ilin yekunlarına görə; xüsusilə vacib tapşırıqların yerinə yetirilməsinə görə; baxışların, müsabiqələrin nəticələrinə görə və s.

Əlavə əmək haqqına ödənclər yerinə yetirilmiş işə görə deyil, mövcud qanunvericiliyə görə həyata keçirilir.

İşəmuzd fəhlələrin əsas əmək haqqı fondu məhsulun vahidi üçün ümumi (yekun) işəmuzd işin qiymətini istehsal proqramı üzrə məhsulun miqdarına vurmaqla hesablanır və ya orta tarif stavkası ilə istehsal proqramının norma saatlarla əmək tutumunun hasili kimi tapılır. Dayanıqlı məhdud nomenklaturada məhsul buraxan müəssisələrdə işəmuzd fəhlələrin əmək haqqı fondu işəmuzd işin qiymətləri ilə müəyyən edilir. Bu məqsədlə detal, qovşaq, məmulat üzrə işin iriləşdirilmiş qiymətindən istifadə olunur.

İşin iriləşdirilmiş qiyməti və istehsal proqramının əsasında işəmuzd fəhlələrin əmək haqqı fondu müəyyən edilir.

Seriyalı və fərdi istehsal müəssisələrində işəmuzd fəhlələrin əmək haqqı fondunu hesablamaq üçün orta saatlıq tarif stavkasını (T_{or}) istehsal proqramını yerinə yetirmək üçün lazım olan norma-saatların miqdarına (T_n) vurmaq lazımdır:

$$ƏhF_i = T_{or} \cdot T_n .$$

Vaxtamuzd fəhlələrin əmək haqqı fondu orta saatlıq tarif stavkası, plan üzrə iş vaxtı fondu (F_n) və vaxtamuzd fəhlələrin sayı (C_b) əsasında müəyyən edilir:

$$ƏhF_v = T_{or} \cdot F_n \cdot C_b .$$

Əmək haqqı planlaşdırılarkən saatlıq əmək haqqı fondu; günlük əmək haqqı fondu və aylıq (rüblük, illik) əmək haqqı fondu hesablanır.

Fəhlələrin saatlıq əmək haqqı fonduna işəmuzd fəhlələrin işəmuzd işin qiyməti ilə, vaxtamuzd fəhlələrin tarif stavkalarına görə hesablanmış əmək haqqı, əmək haqqı fondundan müxtəlif əlavələr və güzəştlər (əmək şəraitinə, ustalığa, gərginliyə görə və s.) daxildir.

İşlə əlaqədar olmayan, lakin qanunvericilik üzrə nəzərdə tutulan əlavələrlə (əlavə əmək haqqı) birlikdə saatlıq fond günlük əmək haqqı fondunu əmələ gətirir.

Fəhlələrin aylıq (illik) əmək haqqı fondu günlük əmək haqqı fondunu, növbəti məzuniyyətlərin və bilavasitə işi ilə əlaqədar olmayan müxtəlif vəzifələrin yerinə yetirilməsi üçün əlavə məzuniyyətlərin ödənilməsini əhatə edir.

Mütəxəssislərin, rəhbərlərin və qulluqçuların əmək haqqı fondu hər bir kateqoriya üzrə ayrı-ayrılıqda müəyyən edilir. Bunun üçün vəzifə maaşlarını həmin kateqoriyadan olan işçilərin sayına vurmaq və əmək qanunvericiliyində nəzərdə tutulan əlavələri və mükafatları üstünə gəlmək lazımdır.

Qeyri-sənaye heyətinin əmək haqqı fondu sənaye-istehsal heyətinin əmək haqqı fondu kimi hesablanır.

Bütünlükdə müəssisə üzrə ümumi əmək haqqı fondu bütün kateqoriyalar üzrə əmək haqqı fondlarının cəmi kimi tapılır. Bu qayda üzrə hesablanmış əmək haqqı fondu müəssisənin xərclərinin bir elementi olub, məhsulun maya dəyərinə daxil edilir.

Əgər müəssisənin əmək haqqı fonduna müəssisənin sərəncamında qalan mənfəətin hesabına ödənilən məbləği əlavə etsək, müəssisədə əməyin ödənilməsi fondunu alarıq.

Əmək haqqı fondunun müxtəlif növlərinə əsasən işçilərin kateqoriyaları üzrə, eləcə də bütünlükdə müəssisə üzrə bir nəfər orta siyahı işçiyə düşən (müəssisənin mənfəətindən mükafatların verilməsi və verilməməsi nəzərə alınmaqla) orta saatlıq, orta günlük və orta aylıq (illik) əmək haqqı hesablanır.

11.5. Əməyin motivasiyası

Bazar iqtisadiyyatı şəraitində müəssisələr ən yaxşı son nəticələrin əldə edilməsində motivasiyanın gücləndiril-

məsi istiqamətləri və stimullaşdırma prosesinin təkmilləşdirilməsi haqqında dəqiq təsəvvürə malik olmalıdırlar. Hazırda əməyin idarə edilməsinin fəallığını təmin edən müxtəlif səmərəli üsulların axtarışı gedir. Bu, ölkədə iqtisadi artımın sabitləşdirilməsinin əsas istiqamətlərindən biridir.

İşçilərin öz fəaliyyətlərinin nəticəliliyinin yüksəldilməsi sahəsində səylərini təmin etmək üçün təsirli motivlərin hazırlanmasının həlledici əhəmiyyəti vardır. Elə etmək lazımdır ki, belə təsir vasitələri daimi xarakter daşısın.

Motivasiyanı təkcə stimullaşdırma ilə məhdudlaşdırmaq olmaz. Hazırda stimullaşdırma qısamüddətli iqtisadi məqsədlərə, müəyyən olunmuş dövrdə müəyyən olunmuş nəticələrin əldə edilməsinə yönəldilmişdir. Belə münasibət işçilərin ixtisaslarını artırmaq, özünü-təkmilləşdirmək sahəsində daimi marağını təmin etmir. Bu halda belə sistem istehsalın səmərəliliyinin yüksəldilməsinin mühüm ehtiyacı kimi çətin ki, müvəffəqiyyətlə istifadə oluna bilər.

Müəssisə rəhbərləri öz fəaliyyətində motivasiyaya fəaliyyətə təhrik edən qüvvə kimi baxmalıdırlar. Motivasiyaya işçilərdə müəssisənin məqsədlərinin əldə edilməsinə yönəldilmiş motivlərin formalaşdırılması prosesi kimi baxılmalıdır.

Tədqiqatlar göstərir ki, bütün qüvvəsini işə sərf etməyə işçini təhrik edən həqiqi səbəblər olduqca mürəkkəb və çoxtərəflidir. Onlardan ən əsasları tələbatlar, maraqlar, motivlər və stimullardır. Ona görə də müəssisələrdə əməyin səmərəliliyinin yüksəldilməsi üçün bu səbəblər ətpaflı öyrənilməli və təmin olunmalıdır.

Motivasiya anlayışı heyətin idarə edilməsi problemi ilə sıx əlaqədardır. Keçid dövrünün doğurduğu yeni iqtisadi münasibətlər heyətə yeni tələblər qoyur. Bu, təkcə kadrların seçilməsi, öyrədilməsi və yerləşdirilməsi deyli, həm də yeni şüurun, mentalitetin, deməli, motivasiya metodlarının formalaşdırılmasını tələb edir.

Hazırda, bazar münasibətlərinə keçid dövründə işçilərin əsas motivasiya amili təminatlı əmək haqqına malik olmaq arzusudur. Bu halda nə əməyin intensivliyi, nə də keyfiyyəti hesaba alınmır, yüksək maaşlı intensiv işdənsə, nisbətən az, lakin təminatlı əmək haqqı olan sakit iş tapmaq arzusu işçilərdə üstünlük təşkil edir.

Bununla yanaşı, kifayət qədər peşəkarlığa və yeni əmək şüuruna malik, daha doğrusu, yaxşı mənəvi əsaslı və əməyi başa düşən işçilər də əmək bazarına gəlirlər. Lakin yaş həddinə (50 və daha çox) və ya təminat xarakteristikası olmamasına (əsasən gənc mütəxəssislər) görə onlarda iş tapmaq şansı çox azdır.

Beləliklə, həm tələbat, həm də əksər işçilərin motivasiyasının dərindən öyrənilməyə və sistemləşdirilməyə ehtiyacı vardır. Bəs motivasiya nə deməkdir?

Motivasiya – kollektivin hər bir işçisini və bütünlükdə işçilərin hamısını öz tələbatlarını ödəmək və təşkilatın məqsədlərini təmin etmək üçün aktiv fəaliyyətə həvəsləndirməkdən ibarətdir.

Motivasiya aşağıdakı əsas vəzifələri yerinə yetirir:

- əmək prosesində motivasiyanın mahiyyəti və əhəmiyyətinin hər bir işçinin şüuruna çatdırılması;
- heyətə və rəhbər işçilərə firmadaxili ünsiyyətin psixoloji əsaslarının öyrədilməsi;
- hər bir rəhbər işçidə müasir motivasiya metodlarından istifadə etməklə heyətin idarə edilməsinə demokratik yanaşmanın formalaşdırılması.

Bu vəzifələrin müvəffəqiyyətlə həlli üçün təşkilatda motivasiya prosesinin; fərdi və qrup motivasiyasının (əgər vardırsa) və onlar arasındakı asılılıqların; bazar münasibətlərinə keçid zamanı insan fəaliyyətinin motivasiyasında baş verən dəyişikliklərin təhlili aparılmalıdır.

Göstərilən vəzifələrin yerinə yetirilməsi prosesində motivasiyanın müxtəlif metodlarından istifadə olunur.

Ən birinci və ən geniş yayılmış metod cəzalandırma və mükafatlandırma metodu idi. Bunu «qamçı və pryanik» siyasəti də adlandırırlar. Arzu olunan nəticələrin əldə edilməsi üçün bu metoddan istifadə olunması inzibati-amirlik şəraitində kifayət qədər uzun müddət mövcud olmuşdur. Tədricən bu metod inzibati və iqtisadi sanksiyalar və stimullar sisteminə çevrilmişdir.

Belə metod təkrar olunan yorucu əməliyyatlar, işin məzmun hissəsinin az olduğu, iş yerini dəyişmək imkanının olmaması (müxtəlif səbəblərdən) zamanı, eləcə də briqada və kollektiv podrat şəraitində səmərəlidir, çünki bu hallarda reqlamentləşdirilmiş əlavələr və tutulmalar tətbiq edilir.

İnsan amilinin rolunun yüksəlməsi ilə motivasiyanın psixoloji metodları meydana gəlmişdir. Bu metodların əsasını həvəsləndirici amillərin təkcə maddi stimullardan deyil, həm də qeyri-maddi motivlərdən ibarət olduğunu işçilərə təlqin etmək təşkil edir. Belə ki, işçilərə özünə hörmət, kollektiv üzvləri tərəfindən qəbul olunması, işdən mənəvi zövq almaq və öz firması üçün qürur hissini aşılamaq lazımdır. Motivasiyanın belə metodları insanların, onların tələbatlarının öyrənilməsinə, yəni nəyin çatışmadığının şüurlu surətdə hiss edilməsinə əsaslanır. Nəyinsə çatışmaması hissi müəyyən məqsəd güdür və tələbatların təmin edilməsi vasitəsi rolunu oynayır.

İnsanın tələbatlarının öyrənilməsi motivasiyanın iki qlobal nəzəriyyəsini meydana gətirmişdir: məzmun nəzəriyyəsi və prosessual nəzəriyyə.

Birinci nəzəriyyə motivasiya nəzəriyyəsinin tədqiqinə əsaslanır. İkinci nəzəriyyə isə işçilərin qüvvələrinin bölüşdürülməsi və konkret məqsədin əldə edilməsi üçün davranışın müəyyən növünün seçilməsinə əsaslanır.

Bir çox xarici müəssisələrdə işçilərin motivasiyası üçün əmək haqqı üç hissəyə bölünür.

Əmək haqqının bir hissəsi yerinə yetirilmiş əmək və vəzifə öhdəliklərinə görə verilir və öhdəlikləri eyni olan işçilərin əmək haqqı eyni olur.

Əmək haqqının ikinci hissəsi xidmət illərinə və həyatın qiyməti amillərinə görə müəyyən edilir. Əmək haqqının bu hissəsini də bütün işçilər alır, lakin onun məbləği avtomatik təshih olunur.

Əmək haqqının üçüncü hissəsi hər bir işçi üçün konkretdir və əvvəlki iş dövrlərində işçilərin əldə etdikləri nəticələrə görə müəyyən edilir. Pis işçi tezliklə görəcək ki, əmək haqqının bu hissəsi onun üçün çox azdır. Yaxşı işçi isə görəcək ki, əmək haqqının üçüncü hissəsi əvvəlki iki hissəsinin cəmindən çoxdur. Lakin qeyd etmək lazımdır ki, əmək haqqının bu hissəsi sabit kəmiyyət deyil, o arta və ya azala bilər.

11.6. Əməyin maddi stimullaşdırılması sahəsində xarici ölkələrin təcrübəsi

Hazırda Azərbaycan Respublikası müəssisələrinin bazar iqtisadiyyatı şəraitində əməyin ödənilməsinin təşkili sahəsində hələ kifayət qədər təcrübəsi yoxdur. Buna görə də işçilərin maddi stimullaşdırılması sahəsində xarici ölkələrin təcrübəsindən istifadə etmək zərurəti yaranır. Sənayecə inkişaf etmiş ölkələrdə son illərdə fəhlənin əmək haqqının əmək məhsuldarlığının artımından asılı olaraq dəyişilməsi əsasında fərdi əməyin stimullaşdırılması sistemləri kifayət qədər üstünlük təşkil edir. Əmək haqqının dəyişilməsi əmək məhsuldarlığına nisbətən ləng baş verir. Bu sistemə əsasən işçi istehsal çətinlikləri yarandıqda eyni əmək məhsuldarlığına malik işəmuzd ödəniş halında olduğundan çox əmək haqqı alacaqdır. Lakin belə istehsal çətinlikləri olmadıqda və fəhlə özünün əmək məhsuldarlığını artırmaq imkanına

malik olduqda müstəqim işəmuzd əmək haqqındakından az alacaqdır.

Xaricdə ən çox istifadə olunan sistemlər bunlardır: Xelsi sistemi, Roven sistemi, Bedo sistemi, İproşeyr sistemi, Skenlon sistemi, Rakker sistemi və s.

Xelsi sisteminə görə işin müəyyən hissəsini başa çatdırmaq üçün lazım olan vaxt norması əvvəlki dövrlərdəki məhsuldarlığın uçotuna görə müəyyən edilir. Əgər fəhlə işin yerinə yetirilmətinə vaxt normasında nəzərdə tutulduğu qədər vaxt sərf etmişdirsə, onda onun əmək haqqı vaxtamuzd stavkanın faktiki sərf olunmuş vaxtın miqdarına hasili kimi müəyyən olunacaqdır. Əgər iş daha qısa müddətdə yerinə yetirilmişdirsə, onda işçinin əmək haqqı əlavə mükafatla (payla) tamamlanacaqdır. Bu mükafatın ölçüsü onun vaxtamuzd stavkası və qənaət olunmuş vaxtın kəmiyyətindən müəyyən faiz ilə müəyyən olunur. Təcrübədə bu, 30-70% arası, əsasən 50% götürülür. Yerdə qalan 50% isə qənaət olunmuş vaxt hesabına işəgötürənin (sahibkarın) mənfəətini təşkil edir.

Məsələn, fəhlənin saatlıq tarif stavkası 0,8 şərti vahidə (ş.v.) bərabərdir, vaxt normasına görə isə bu iş 8 saat ərzində yerinə yetirilməlidir. Əgər fəhlə bütün işlərin həcmini 6 saatda yerinə yetirərsə, o, 4,8 ş.v. $(0{,}8\times 6)$ alacaqdır. Bundan əlavə əgər qənaət olunmuş vaxta görə əldə edilən mənfəət fəhlə və işəgötürən arasında yarıbayarı bölünürsə, onda fəhlə saatlıq tarif stavkasının 1,5 hissəsi qədər (qənaət olunmuş 2 saat üçün 50%), yəni 0,8 ş.v. əlavə gəlir götürəcəkdir. Bu qayda ilə fəhlə 6 saatlıq işinə görə 5,6 ş.v. əldə edəcəkdir. Əgər bu kəmiyyətə görə əks istiqamətdə saatlıq tarif stavkasını hesablasaq, bir saat üçün 0,93 ş.v. təşkil edəcəkdir ki, bu əsas saatlıq tarif stavkasından bir saat üçün 0,8 ş.v. yüksək olacaqdır.

Roven sistemində də müəyyən işin yerinə yetirilməsi üçün vaxt norması müəyyən olunur, lakin mükafatın ölçüsü qənaət olunmuş vaxtın miqdarından asılı deyildir. Mükafat

fəhlənin vaxtamuzd stavkasının vaxt normasından qənaət edilmiş vaxta uyğun gələn hissəsinə bərabər olacaqdır.

Məsələn, əgər fəhlənin saatlıq tarif stavkası 0,8 ş.v., 8 saatlıq normanı 6 saat ərzində yerinə yetirmişdirsə, onda fəhlənin mükafatı 25% təşkil edəcəkdir. Çünki qənaət olunmuş vaxt (2 saat) vaxt normasının (8 saat) 25%-ni təşkil edir. Fəhlə 6 saatlıq işinə görə 4,8 ş.v. (6×0.8) və bu məbləğin 25%-ni alacaqdır. Fəhlə cəmi 6 ş.v. əmək haqqı alacaqdır ki, bu da faktiki olaraq hər saata (6 saat) 1 ş.v. əldə edəcəkdir. Əgər tələb olunan məhsuldarlığı fəhlə əldə etməsə də fəhləyə vaxtamuzd stavka üzrə əmək haqqı alınması üçün təminat verilir.

Bedo sistemi əməyin ödənilməsinin mütərəqqi işəmuzd sisteminin bir nümunəsidir. Onun məqsədi fəhləni normanı yerinə yetirmək üçün həvəsləndirməkdən ibarətdir. Hasilatın müəyyən səviyyəsinədək (normanın 75%-nə qədər) fəhləyə minimal əmək haqqı verilir. Normanı 75%-dən artıq yerinə yetirdikdə fəhlə əlavə ödənişləri almaq hüququ qazanır. Normanı 120%-dən artıq yerinə yetirdikdə fəhləyə minimal əmək haqqının 60%-i qədər əlavə mükafat verilir. Bedo sistemi faktiki olaraq mürəkkəbləşdirilmiş mükafatlandırma sistemini əks etdirir, çünki o, hər hansı fəhlənin məhsuldarlığının müəyyən olunmuş istehsal tapşırığından nə qədər yüksək olduğunu qeyd etməyə imkan verir.

Əməyin ödənilməsinin fərdi məhsuldarlığı stimullaşdıran sistemləri ilə yanaşı inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə mükafatlandırmanın və mənfəətin bölüşdürülməsinin əmək məhsuldarlığının artımı ilə bağlı olan kollektiv sistemlərdən də istifadə olunur. Bu sistemlər əmək məsrəflərinin artımı ilə əlaqədar olmayan sabit xərcləri artırmadan daha yüksək əmək məhsuldarlığını stimullaşdırmaq yolu ilə xüsusi xərcələri azaltmaq üçün layihələndirilir. Məhz Skenlon, Rakker və İmproşeyr sistemləri bu qəbildəndir.

Skenlon sistemi satılmış məhsulun həcmində işçi qüvvəsi üçün məcmu xərclərin payına əsaslanır.Əksər müəssisələrdə (xüsusilə emal sənayesində) göstərilən nisbət (bazis əmsalı) vaxta görə sabitdir. Bazis əmsalından və konkret dövr ərzində realaşdırılmış məhsulun həcmindən istifadə etməklə iş qüvvəsi üçün mümkün xərclər tapılır. Bu xərclər faktiki əmək haqqı ilə müqayisə edilir. Əgər faktiki əmək haqqından az olarsa, onda işçilərə mükafat verilir. Bu mükafat müəssisə ilə işçilər arasında 75:25 nisbətində bölüşdürülür. İşçilərin payının müəyyən hissəsi ehtiyat fonduna köçürülə bilər. Ehtiyat fondu iki əsas funksiyanı yerinə yetirir: o, sonrakı aylarda vəsait çatışmadıqda bufer rolunu oynayır; uzun müddət yüksək nəticələr əldə edildikdə ondan əlavə mükafat kimi istifadə olunur. İlin axırında ehtiyat fondunun qalan hissəsi əvvəlki nisbətdə bölüşdürülür. Yüksək əməktutumlu məhsul buraxan müəssisələrdə bu sistemin tətbiqi daha məqsədəuyğundur, çünki belə müəssisələrdə məhsulun maya dəyərində əmək haqqının xüsusi çəkisi yüksək olur.

Rakker sistemi də əvvəlki sistemə çox oxşayır. Əsas fərqlər fond əmələ gətirən göstəricidədir. Rakker sistemində belə göstərici kimi satılmış məhsulun həcmi deyil, xalis məhsulun həcmi və əlavə dəyər götürülür. Bu, istehsal olunmuş məhsulun bazar dəyəri ilə onun istehsalı üçün sərf olunmuş xammalın, materialların və xidmətlərin dəyəri arasındakı fərqdən ibarətdir. Bir qayda olaraq bu kəmiyyət son üçyeddi il üzrə orta göstərici kimi götürülür. Xalis məhsulun həcmində əmək haqqının payı (Rakker norması) da bir sıra illər üzrə orta kəmiyyət kimi qəbul edilir. Hesablamalar Skenlon sistemindəki kimi aparılır, lakin işçi qüvvəsi üçün mümkün xərcləri almaq üçün Rakker norması ilə xalis məhsulun nisbətindən istifadə olunur. Bu halda mükafat müəssisə ilə işçilər arasında yarıbayarı bölüşdürülür.

İmproşeyr sisteminin əvvəlki sistemlərdən fərqi ondadır ki, əmək məhsuldarlığının yüksəldilməsindən əldə edilən səmərə dollarla deyil, iş saatları ilə ölçülür. Burada norma-saatlardan və məhsuldarlığın bazis əmsallarından istifadə olunur. Mənfəətdən ödənişlər normativlə müqayisədə məhsul vahidi üçün iş vaxtı məsrəflərinin azaldılması hesabına əmək haqqına qənaət edildikdə həyata keçirilir. Lakin bu sistemi tətbiq edərkən nəzərə almaq lazımdır ki, istehsalın texniki bazasında və əməyin təşkilində dəyişikliklər baş verdikdə normativlərə yenidən baxmaq lazımdır.

Hazırda əməyin ödənilməsinin təşkili sahəsində dünya təcrübəsi iki istiqamətdə inkişaf edir. Birincisi, əməyin ödənliməsinin işəmuzd-mükafatlı sisteminin hesabına həyata keçirilən əməyin diferensiallaşdırılmış ödənilməsi sistemi və ciddi hasilat normalarının olmasıdır. İkincisi, əmək haqqının çevik sistemidir. Çevik əmək haqqı sisteminin əsasını əmək haqqının işçinin şəxsi keyfiyyətlərindən və xidmətlərindən asılı olması təşkil edir.

Əməyin ödənilməsi məsələlərində müəssisələrin siyasəti kompleks yanaşmaya əsaslanmalıdır. Təsadüfi deyildir ki, xarici mütəxəssislər bütün bunları nəzərə alaraq işçilərin əməyinin ödənilməsinin ümumi paketi anlayışım qəbul etmişlər. Bu paket aşağıdakı komponentləri əhatə edir: əsas əmək haqqı (vəzifə maaşı və ya tarif üzrə əmək haqqı), mükafatların və digər əlavələrin müxtəlif növləri (əmək haqqının dəyişən hissəsi), müəyyən olunmuş güzəştlər və sosial xarakterli ödənişlər.

FƏSİL 12. İSTEHSAL XƏRCLƏRİ VƏ MƏHSULUN MAYA DƏYƏRİ

12.1. Müəssisənin istehsal xərcləri və onların təsnifatı

Məsrəflər, xərclər və maya dəyəri mühüm iqtisadi kateqoriyalardır. Onların səviyyəsi xeyli dərəcədə müəssisənin mənfəətini və rentabelliyini, onun təsərrüfat fəaliyyətinin səmərəliliyini müəyyən edir. Xərclərin aşağı salınması və optimallaşdırılması hər bir müəssisənin iqtisadi fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biridir.

İstehsal məsrəfləri və istehsal xərcləri anlayışları ölkəmizin və xarici ölkələrin təcrübəsində istər ictimai istehsal, istərsə də mikroiqtisadi səviyyələrdə nəzəri və təcrübi baxımdan bir-birinin eyni deyildir. Cəmiyyət baxımından istehsal xərcləri canlı və cisimləşmiş əmək məsrəflərinin tam həcmini əhatə edir və məhsulun dəyərinə bərabər olur. Ölkəmizin müəssisələrinin istehsal məsrəfləri onların xüsusi pul xərclərindən ibarətdir, xarici müəssisələrin xərcləri isə normativ mənfəəti əhatə edir.

Müəssisənin xərcləri anlayışı onların iqtisadi təyinatından asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir. Təkrar istehsal prosesindəki roluna görə xərclərin dəqiq fərqləndirilməsi nəzəriyyədə və praktiki fəaliyyətdə müəyyənedici andır. Buna uyğun olaraq idarəetmənin bütün səviyyələrində xərclər qruplaşdırılır, məhsulun maya dəyəri formalaşır, maliyyələşdirmə mənbələri müəyyən edilir. Təkrar istehsal əlamətinə görə müəssisənin xərcləri üç növə bölünür:

1. Məhsulun istehsalı və satışı üçün xərclər. Bu, məhsulun maya dəyərini təşkil edir. Belə xərclər dövriyyə kapitalının dövranı vasitəsilə məhsulun satışından əldə edilən mədaxil (gəlir) hesabına ödənilir.

2. İstehsalın genişləndirilməsi və təzələnməsi xərcləri. Bir qayda olaraq bu, yeni və ya modernləşdirilmiş məhsul

üçün birdəfəlik iri kapital qoyuluşlarını əks etdirir. Onlar tətbiq edilən istehsal amillərini genişləndirir, nizamnamə kapitalını artırırlar. Bu xərclər əsas fondlara kapital qoyuluşlarından, dövriyyə vəsaitləri normativinin artımından, yeni istehsal üçün əlavə iş qüvvəsinin formalaşdırılması üçün xərclərdən ibarətdir. Həmin xərclər xüsusi maliyyələşdirmə mənbələrinə (amortizasiya fondu, mənfəət, qiymətli kağızların emissiyası, kredit və s.) malikdir.

3. Müəssisənin sosial-mədəni, mənzil-məişət və başqa oxşar ehtiyacları üçün xərclər. Bu xərclər bilavasitə istehsalla əlaqədar deyildir və əsasən bölüşdürülən mənfəət hesabına yaradılan xüsusi fondlardan maliyyələşdirilir.

Xarici dərsliklərdə istehsal xərcləri anlayışı ən ümumi halda istifadəyə verilən amillər və ya iqtisadi resurslar üçün xərclər kimi müəyyən edilir. Bütün xərclər alternativ kimi qəbul edilir. Bu da onu göstərir ki, istehsal üçün seçilmiş istənilən resursun dəyəri ən yaxşı istifadə zamanı onun qiymətliliyinə bərabərdir. Eyni zamanda bu, bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biridir.

İqtisadi və mühasibat xərclərini fərqləndirirlər. İqtisadi xərclər dedikdə, müəssisənin istifadə etdiyi resursların müqabilində malgöndərənlərə verilmiş bütün ödənişlərin bütün növləri başa düşülür. Onlar xarici (real və ya pul) və daxili (qeyri-real və ya implisitiv) xərclərə bölünürlər. Xarici xərclər resursları göndərənlərə pul ödənişlərini (xammalın, materialların, yanacağın, əmək haqqının və s. ödənilməsi) əks etdirir. Xərclərin bu qrupu ölkəmizin müəssisələrindəki mühasibat xərclərinə uyğundur. Müəssisənin daxili xərcləri isə qeyri-real, implisitiv xarakter daşıyır. Onlar müəssisənin sahibinə məxsus olan və istehsalda istifadə olunan resursları (torpaq, binalar, onların şəxsi əməyi, qeyri-maddi aktivlər və s.) əhatə edir ki, bunlara görə müəssisə formal olaraq heç nə ödəmir. Ümumi anlamda daxili xərclər əlavə olaraq istifadə olunan xüsusi resurslardan (kapital, torpaq, normal faiz və ya renta (pul vəsaiti banka qoyulduqda, torpaq ica-

rəyə verildikdə) hədlərində əmək və s.) əldə edilən gəlirdən və normal mənfəətdən (o, muzdla işləsəydi sahibkarın alacağı əmək haqqını və mükafatı əhatə edir) ibarətdir. Sahibkarlar həqiqətdə bu xərcləri çəkir, lakin real və ya pul formasında sərf etmirlər. Bu isə həmin xərcləri iqtisadi xərclərə daxil etməyə imkan verir.

İqtisadi xərclər anlayışı ümumi qəbul edilmiş anlayışdır, mühasibat xərcləri isə təcrübə əsasında hesablanır. Məsələn, xərclərin həqiqi məbləği, mənfəətin vergiyə cəlb olunan hissəsi və s. hesablanarkən.

Məhsulun (işlərin, xidmətlərin) istehsalı və satışı üçün xərclər aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

- istehsal prosesindəki roluna görə onlar əsas və qaimə xərclərinə bölünür. Əsas xərclər bilavasitə yaradılan məhsulu formalaşdırır, onun fiziki əsasını təşkil edir (xammal, materiallar, yarımfabrikatlar, əmək haqqı və s.). Qaimə xərcləri isə istehsal prosesinə xidmətlə əlaqədardır (avadanlığın, sex və ümumzavod heyətinin və s. saxlanması);

- məhsulun maya dəyərinə daxil edilməsi üsuluna görə müstəqim (birbaşa) və dolayı xərclərə bölünür. Müstəqim xərcləri hər bir məmulat növü vahidinin maya dəyərinə bilavasitə daxil etmək mümkündür (xammal, material, texnoloji məqsədlər üçün enerji, dəzgahçıların əmək haqqı və s.). Dolayı xərclər isə seçilmiş bazaya əsasən mütənasib olaraq ayrı-ayrı məhsul qrupları üzrə bölüşdürülür;

- məhsul buraxılışı həcminin dəyişilməsi ilə əlaqədar xərclərdən asılı olaraq sabit və dəyişən xərclər mövcuddur. Sabit xərclər istehsalın həcmi artdıqda da dəyişilməz qalır (icarə haqqı, amortizasiya, binaların saxlanması və s.). Dəyişən xərclər isə əksinə məhsul buraxılışının dinamikasının təsirindən asılı olaraq artır və ya azalır. Xarici mikroiqtisadiyyat nəzəriyyəsində xərclərin bu qruplaşmasından geniş istifadə olunur.

Sabit (FC) və dəyişən (VC) xərclərin məbləği ümumi xərcləri (TC) təşkil edir:

$$TC = FC + VC.$$

Qaytarılmayan xərclər əvvəl sərf olunmuş və hətta müəssisənin fəaliyyətinin dayandırıldığı halda da ödənilməyən xərcləri əhatə edir;

- xərclərin uçotu və qruplaşdırılması üsullarına görə sadə (xammal, material, əmək haqqı, enerji, aşınma və s.) və kompleks xərclər mövcuddur. Kompleks xərclər ya istehsal prosesindəki funksional roluna (azqiymətli və tez xarab olan əşyalar), ya da xərclərin həyata keçirilməsi yerinə (sex xərcləri, ümumzavod xərcləri və s.) görə qruplaşdırılan xərclərdir;

- istehsalda istifadə müddətlərinə görə gündəlik və ya cari və birdəfəlik (bir aydan az olaraq həyata keçirilən birdəfəlik xərclər) xərclər daxildir.

Müəssisəyə mənfəəti təmin edəcək istehsal həcminin təyin edilməsində xərclər həddinin hesablanması xüsusi əhəmiyyət kəsb edir. Məhsul buraxılışının həcminin bir vahid artırılması üçün lazım olan əlavə xərclər «xərclər həddi» (MC) adlanır. Sabit xərclər məhsul buraxılışının həcminin dəyişilməsi ilə əlaqədar olaraq dəyişikliyə məruz qalmadığından xərclər həddinin səviyyəsi və dinamikası yalnız dəyişilən xərclərlə müəyyən edilir. Deməli, xərclər həddini aşağıdakı kimi hesablaya bilərik:

$$MC = \Delta VC : \Delta Q,$$

burada ΔQ - məhsul buraxılışı həcminin artımıdır.

İstehsal xərclərinin baxdığımız növləri sahibkarlıq fəaliyyətində, biznes planların hazırlanmasında, layihələrin iqtisadi əsaslandırılmasında və maliyyə təhlilinin aparılmasında istifadə olunur.

Ölkəmizin təsərrüfat təcrübəsində və qanunvericilik aktlarında istehsal xərclərinin kəmiyyətini müəyyən etmək üçün adətən «maya dəyəri» anlayışından istifadə olunur.

Maya dəyəri real (mühasibat) xərclər anlayışına daha çox uyğun gəlir. Ona görə də məhsulun maya dəyərinə daxil edilən istehsal xərclərinə ayrıca baxılacaqdır.

«Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında əsasnaməyə» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 16 avqust 111 saylı qərarı ilə təsdiq edilmişdir) görə müəssisə üzrə istehsal xərcləri vergiqoyma məqsədilə müvafiq normativ aktlarla təsdiq edilmiş limitlər, normalar və normativlər əsasında müəyyənləşdrilir.

12.2. Məhsulun maya dəyəri və onun növləri

«Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında əsasnamədə» məhsulun maya dəyərinə belə tərif verilir: «Məhsulun (işin, xidmətin) maya dəyəri istehsal (xidmət) prosesində istifadə olunan təbii ehtiyatların, xammalın, materialın, yanacağın, enerjinin, əsas fondların, əmək ehtiyatlarının qiymətləndirilmiş dəyərini, həmçinin onların istehsalına və satışına sərf edilən digər xərcləri özündə əks etdirir».

Tədris ədəbiyyatında isə maya dəyəri məhsulun istehsalı və satışı ilə əlaqədar olan cari xərclərin pul ilə ifadəsi kimi göstərilir.

Məhsulun maya dəyəri onun istehsal xərcləri və dəyəri ilə sıx əlaqədardır. Maya dəyəri dəyərin bir formasıdır, lakin dəyərlə maya dəyəri arasında kəmiyyət və keyfiyyət xarakterli xeyli fərqlər mövcuddur [12].

Birincisi, maya dəyəri dəyərin yalnız bir hissəsidir. Məlumdur ki, məhsulun dəyəri aşağıdakı kimi hesablanır:

$$M_d = C + V + m,$$

burada C - sərf olunmuş istehsal vasitələrinin məhsulun üzərinə keçirilən dəyəri;

V - zəruri əməyin yaratdığı ictimai zəruri məhsulun dəyəri;

m - izafi əməyin yaratdığı izafi məhsulun dəyəridir.

Deməli, maya dəyərinin obyektiv əsasını dəyərin ilk iki hissəsi ($C+V$) təşkil edir. Deməli, kəmiyyətcə maya dəyəri məhsulun dəyərindən izafi məhsulun dəyəri qədər azdır.

İkincisi, məhsulun maya dəyəri onun dəyərindən bir də onunla fərqlənir ki, maddi xərclərin uçotu mövcud qiymətlərlə aparıldığından onun istehsalı üçün çəkilmiş həqiqi əmək xərclərindən kənarlaşır. Bəzən istehsal vasitələrinin qiyməti və dəyəri də əks istiqamətdə dəyişilirlər: maddi-texniki vasitələrin dəyəri aşağı düşdüyünə baxmayaraq onların qiyməti qalxır.

Üçüncüsü, maya dəyərində yalnız məhsulun istehsalı xərcləri əks etdirilir. İctimai zəruri məhsulun dəyərinin ictimai istehlak fondlarının yaradılmasına yönəldilən hissəsi isə maya dəyərində öz əksini tapmır.

Deməli, məhsulun maya dəyərinə istehsal vasitələrinin və əmək predmetlərinin istehsal prosesində istehlak olunmuş dəyəri (amortizasiya, xammal, materiallar, yanacaq və s.), canlı əməyin dəyərinin bir hissəsi (əməyin ödənilməsi), satın alınmış məmulatların və yarımfabrikatların dəyəri və kənar təşkilatların istehsal xarakterli xidmətlərinin dəyəri daxildir [14].

Qeyd etdik ki, müəssisənin heç də bütün xərcləri məhsulun maya dəyərinə daxil edilmir. Məsələn, qeyri-sənaye təsərrüfatlarının (uşaq bağçası, poliklinika, məktəb, klub, yataqxana və s.) xərcləri maya dəyərinə daxil edilmir.

Fərdi və sahə (orta sahə) maya dəyərini fərqləndirmək lazımdır. Fərdi maya dəyərinə konkret bir müəssisədə məhsulun istehsalı və satışı üçün çəkilmiş xərclər daxildir. Sahə maya dəyəri isə orta hesabla sahə üzrə həmcins (eyni) məhsulun istehsalı və satışı üçün sərf olunmuş xərcləri əks etdirir. Bu göstərici sahənin müəssisələri üzrə fərdi maya dəyərlərinin orta çəkili kəmiyyəti kimi hesablanır.

Yaranması yerinə (ardıcıllığına) görə maya dəyərinin aşağıdakı növləri mövcuddur: texnoloji, sex, istehsal və tam maya dəyəri.

Texnoloji maya dəyərinə xammal və materialların dəyəri, istehsal fəhlələrinin əsas və əlavə əmək haqqı, sosial sığorta ayırmaları, texnoloji məqsədlər üçün yanacaq və enerjinin dəyəri, yeni məhsul növlərinin istehsalının mənimsənilməsi xərcləri, avadanlığın saxlanması və istismarı xərcləri daxildir. Texnoloji maya dəyəri yeni məmulatların variantlarını qiymətləndirmək və onlar içərisindən münasib variantı seçmək üçün onların layihələndirilməsi mərhələsində daha çox istifadə olunur.

Sex maya dəyəri texnoloji maya dəyəri ilə sex xərclərinin məcmusudur:

$$M_{dc} = M + Əh(1 + Əh_c / 100) + C_x,$$

burada M - əsas materiallar, xammal, satın alınmış yarımfabrikatlar və komplektləşdirici məmulatlar üçün xərclər;

Əh - istehsal fəhlələrinin əsas və əlavə əmək haqqı;

$Əh_c$ - sosial sığorta üçün ayırmaların müəyyən edilmiş faizi;

C_x - sex xərcləridir.

Sex xərclərinə sexin binalarının saxlanması, amortizasiyası və cari təmiri xərcləri, sex idarə aparatının saxlanması xərcləri və s. daxildir. Təhlil məqsədilə istehsal sahəsi, növbə və briqada üzrə də maya dəyəri hesablana bilər.

İstehsal (fabrik-zavod) maya dəyəri sex maya dəyərini, ümumzavod xərclərini, eləcə də müəssisənin idarə edilməsi xərclərini əhatə edir:

$$M_{di} = M_{dc} + C_з + C_i,$$

burada $C_з$ - ümumzavod xərclərinin, C_i isə idarəetmə xərclərinin məbləğidir.

Müəssisənin idarə edilməsi xərclərinə aşağıdakılar daxildir:

- idarə aparatı işçilərinin saxlanması, onların fəaliyyətinə maddi-texniki və nəqliyyat xidməti;
- məzuniyyət xərcləri;
- rabitə və hesablama texnikası xidmətlərinin ödənilməsi;
- məsləhət, auditor və informasiya xidmətlərinin ödənilməsi;
- idarəetmənin texniki vasitələrinin saxlanması və onlara xidmət xərcləri;
- digər müəssisələrin (təşkilatların) nümayəndələrinin qəbul edilməsi və onlara xidmət xərcləri (nümayəndəlik xərcləri) və s.

Tam maya dəyərinə istehsal maya dəyəri və istehsaldankənar (kommersiya) xərclər daxildir:

$$M_{dt} = M_{di} + C_k,$$

burada C_k - istehsaldankənar (kommersiya) xərclərdir.

İstehsaldankənar xərclər dedikdə, məhsulun reallaşdırılması prosesi ilə əlaqədar olan xərclər başa düşülür. Belə xərclərin məbləğini təyin etmək üçün xərc maddələrinin ölkə üçün birtipli olan nomenklaturası üzrə smeta tərtib edilir: tara və hazır məhsulun qablaşdırılması xərcləri; daşınma xərcləri (məhsulun göndərilmə stansiyasınadək gətirilməsi və ixtisaslaşdırılmış nəqliyyat-ekspedisiya xidmətlərinin ödənilməsi xərcləri); komission rüsumları (müqaviləyə və müəyyən olunmuş normalara uyğun olaraq vasitəçi təşkilatlara ödənişlərin məbləği); satış üzrə sair xərclər.

Planlaşdırma, uçot və təhlil məqsədlərindən asılı olaraq maya dəyərinin aşağıdakı növlərini fərqləndirirlər: ümumi, əmtəəlik və ya satlıq məhsulun maya dəyəri, müqayisəli əmtəəlik məhsulun maya dəyəri.

Ümumi və əmtəəlik məhsulun istehsal maya dəyəri aşağıdakı düsturla hesablanır:

$$M_{üm} = Z_{is} - Z_x \pm Q_g \pm Q_n;$$

$$M_{əm} = M_{üm} + Q_{bi},$$

burada $M_{üm}$, $M_{əm}$ - ümumi və əmtəəlik məhsulun maya dəyəri;

Z_{is} - istehsal xərcləri;

Z_x - ümumi məhsulun tərkibinə daxil edilməyən xərclər;

Q_g - gələcək dövrlərin xərcləri üzrə qalıqların dəyişilməsi (+ artım, - azalma);

Q_n - gözlənilən xərclər üzrə qalıqların dəyişilməsi (+ artım, - azalma).

Əmtəəlik məhsulun tam maya dəyəri aşağıdakı düsturla hesablanır:

$$M_{t.əm} = M_{əm} + P_x,$$

burada P_x - qeyri-istehsal xərcləridir.

Satlıq məhsulun tam maya dəyəri:

$$M_c = M_{t.əm} \pm Q_h,$$

burada Q_h - müəssisənin anbarında hazır məhsul qalığının dəyişilməsidir.

Müqayisəli əmtəəlik məhsulun maya dəyərini hesablamaq üçün ötən ildə hazırlanmış və hazırki dövrdə hazırlanan məhsullar müqayisə edilir.

Məhsulun maya dəyərinin bütün yuxarıda göstərilən növləri plan, hesabi və hesabat (faktiki) ola bilər.

Plan maya dəyəri növbəti plan ilində xərclərin mümkün maksimal kəmiyyətini əks etdirir. Buraya texnika və texnologiyanın, istehsalın və əməyin təşkilinin mövcud səviyyəsində müəssisə üçün zəruri olan xərclər daxil edilir. Plan maya dəyəri avadanlıqdan, əmək məsrəflərindən, maddi və enerji resurslarından istifadə üzrə mütərəqqi plan normaları və normativləri əsasında müəyyən edilir.

Hesabi maya dəyəri yeni texnikanın və investisiyaların müxtəlif layihələrinin əsaslandırılması üzrə texniki-iqtisadi hesablamalarda istifadə olunur.

Hesabat (faktiki) maya dəyəri müvafiq olaraq onun faktiki əldə edilmiş səviyyəsini və plan tapşırıqlarından nə dərəcədə kənarlaşdığını əks etdirir. Faktiki maya dəyərinin plan maya dəyərindən aşağı olması müəssisədə bütün resurslardan daha səmərəli istifadə olunduğunu təsdiq edir. Bu nailiyyət növbəti dövr üçün plan tapşırıqları hazırlanarkən nəzərə alınmalıdır. Faktiki maya dəyərinin plan maya dəyərindən yüksək olması müəssisənin işi pisləşdikdə baş verir və belə vəziyyətin baş verməsi səbəblərinin ətraflı təhlili tələb olunur.

12.3. Maya dəyərinə daxil edilən xərclərin tərkibi və quruluşu

Əsasnaməyə görə məhsulun (işin, xidmətin) maya dəyərini əmələ gətirən xərclər onların iqtisadi məzmununa görə aşağıdakı elementlər üzrə qruplaşdırılır:

- material xərcləri (qaytarılan tullantıların dəyəri çıxılmaqla);
- əmək haqqı xərcləri;
- sosial ehtiyaclara ayırmalar;
- əsas fondların amortizasiyası (köhnəlməsi);
- sair xərclər.

Material xərcləri elementinə daxildir:

✓ məhsul istehsalına, iş və xidmətlərin həyata keçirilməsinə sərf edilən xammalın, materialın və digər komponentlərin dəyəri;

✓ məhsulun (işin, xidmətin) istehsalı, normal texnoloji proseslərin təmin olunması, məhsulların qablaşdırılması və ya digər istehsalat və təsərrüfat ehtiyacları (avadanlığın, binaların, qurğuların, digər əsas fondların saxlan-

ması, təmiri, istismarı, nəzarəti və sınaqdan keçirilməsi) üçün alınmış və sərf edilmiş materiallar, avadanlığın təmiri üçün sərf olunan ehtiyat hissələri, habelə alətlərin, tərtibatların, inventarların, cihazların, laboratoriya avadanlığının və habelə əsas fondlara aid edilməyən digər əmək vasitələrinin, xüsusi geyimlərin və başqa azqiymətli əşyaların köhnəlməsi;

- ✓ quraşdırma və yenidən emal üçün alınmış yarımfabrikatlar və komplektləşdirici məmulatlar;
- ✓ kənar müəssisələr və ya müəssisənin əsas növ fəaliyyətinə aid olmayan təsərrüfatlar və istehsalatlar tərəfindən yerinə yetirilən istehsal xarakterli işlər və xidmətlər;
- ✓ təbii xammalların istifadəsi ilə əlaqədar olan xərclər;
- ✓ müəssisənin texnoloji məqsədləri, bütün növ enerji hasilatına (elektrik,istilk, sıxılmış hava, soyuq hava və di-gər növlər), binaların qızdırılmasına və öz nəqliyyatı ilə yerinə yetirilmiş istehsalat xarakterli işlərinə sərf edilən kənardan alınmış bütün növ yanacaqlar;
- ✓ müəssisənin texnoloji, energetika məqsədlərinə, mühərriklərin hərəkətinə, habelə digər istehsalat və təsərrüfat ehtiyaclarına sərf edilən (elektrik, istilik, sıxılmış hava, soyuq hava və başqa növlər üzrə) kənardan alınmış bütün növ enerji;

Məhsulun maya dəyərinə daxil edilən material ehtiyatlarına çəkilən xərclərdən qaytarılan tullantıların dəyəri çıxılır. Qaytarılan istehsal tullantıları dedikdə, məhsul (iş, xıdmət) istehsalı prosesində əmələ gələn, ilkin ehtiyatın istehlak keyfiyyətini (kimyəvi və ya fiziki xassələri) tamamilə və ya qismən itirən və nəticədə əlavə xərc çəkməklə istifadə olunan (məhsul çıxışının aşağı düşməsi), yaxud birbaşa təyinatı üzrə istifadə edilməyən xammal, material, yarımfabrikatlar, istilik daşıyıcıları və digər material ehtiyatı növlərinin qalığı başa düşülür.

Müəyyən edilən texnologiyaya uyğun olaraq başda növ məhsulların (işlərin, xidmətlərin) istehsalı üçün tam yararlı materiallar kimi digər sexlərə, bölmələrə verilən material ehtiyatlarının qalığı qaytarılmış tullantılara aid edilmir.

Əmək haqqı xərcləri elementində qanunvericilikdə nəzərdə tutulan hədlər daxilində müvafiq məhsul (iş, xidmət) istehsalında çalışan işçilərə (o cümlədən ştatdankənar) hesablanan əmək haqqı və müavinətlər üzrə xərclər əks etdirilir.

Əmək haqqı xərclərinin tərkibinə daxil edilir: müəssisədə qəbul edilmiş əməyin ödənilməsi sisteminə və formasına uyğun olaraq faktiki görülən işlərə görə, işəmuzd qiymətlər, tarif (vəzifə) maaşları əsasında hesablanan əmək haqqı ödənişləri; iş rejimi və əmək şəraiti ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulan müavinətlər; işçilərə natural ödənclər qaydasında verilən məhsulların dəyəri; müəssisə və təşkilatların yenidən təşkili, ştatların və işçilərin sayının ixtisar edilməsi ilə əlaqədar azad olunan işçilərə ödənişlər; qüvvədə olan qanunvericiliyə müvafiq olaraq uzun müddət işləməyə görə birdəfəlik mükafat (həmin təsərrüfatda ixtisas üzrə iş stajına görə əlavə ödənişlər); əsas və əlavə məzuniyyətlərin ödənilməsi xərcləri; əmək qabiliyyətinin müvəqqəti itirilməsi hallarında qanunvericilikdə müəyyən olunmuş qaydada faktiki əmək haqqına qədər əlavə ödənişlərin verilməsi; kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması ilə əlaqədar xərclər və sair xərclər.Sosial ehtiyaclara ayırmalar elementində qanunvericilikdə nəzərdə tutulmuş normalarla Dövlət Sosial Müdafiə Fonduna, Məşğulluq Fonduna, işçilərə hesablanan əmək ödənişlərinin (sığorta haqqları hesablanmayan ödəniş növlərindən başqa) ümumi məbləğinə mütənasib olaraq hesablanan məcburi ayırmalar əks etdirilir.

Əsas fondların köhnəlməsi (amortizasiyası) elementində əsas istehsal fondlarının balans dəyərinə görə qanunvericilikdə müəyyən edilmiş normalara uyğun hesablanmış (qanunvericilikdə tətbiq edilən artırılma və ya azaldılma

əmsalları da nəzərə alınmaqla) köhənlmə (amortizasiya) məbləğləri əks etdirilir. Öz fəaliyyətini icarə üsulu şəraitində həyata keçirən müəssisələr «Əsas fondların köhnəlməsi (amortizasiyası)» elementi üzrə həm xüsusi, həm də icarəyə götürülən əsas fondların (köhnəlmə) amortizasiya ayırmalarını əks etdirirlər.

Məhsulun (işin, xidmətin) maya dəyəri tərkibindəki «Sair xərclər» elementi üzrə xərclər aşağıdakı kimi qruplaşdırılır:

- ✓ istehsalın hazırlanması və mənimsənilməsinə sərf edilən xərclər;
- ✓ yeni müəssisələrin, istehsalın, sexlərin və aqreqatların mənimsənilməsinə sərf edilən xərclər (işə salma məsrəfləri);
- ✓ kütləvi və ya seriyalı istehsal üçün nəzərdə tutulmayan məhsul istehsalı hazırlığına və mənimsənilməsinə çəkilən xərclər;
- ✓ istehsalın təşkili və texnologiyasının təkmilləşdirilməsi, habelə məhsulun keyfiyyətinin yüksəldilməsi, onun davamlılığının artırılması və istehsal prosesində həyata keçirilən digər istismar xassələrinin təmin olunması ilə əlaqədar olan qeyri ,əsaslı xarakterə malik olan xərclər;
- ✓ ixtiralar və səmərələşdirici təkliflərlə əlaqədar xərclər;
- ✓ istehsal prosesinə xidmət xərcləri;
- ✓ əsas istehsal fondlarının işçi vəziyyətində saxlanılması üzrə (texniki baxış və xidmət, cari, sığorta və əsaslı təmirin aparılmasına çəkilən məsrəflər) xərclər;
- ✓ müəssisədə tibb məntəqələrinin saxlanması üçün lazım olan xərclər;
- ✓ normal iş şəraiti və təhlükəsizlik texnikasının təmin edilməsi üzrə xərclər;
- ✓ təbiəti mühafizə təyinatlı fondların istismarı və saxlanması ilə əlaqədar olan cari xərclər;
- ✓ istehsalın idarə olunması ilə əlaqədar xərclər;

- ✓ qanunvericiliklə müəyyən edilmiş normalara uyğun ezamiyyət, reklam və nümayəndəlik xərcləri;
- ✓ texniki idarəetmə vasitələrinin saxlanması və onlara xidmət göstərilməsi, hesablama mərkəzləri, rabitə qovşaqları, siqnalizasiya vasitələri və digər texniki idarəetmə vasitələri üzrə xərclər;
- ✓ auditor, informasiya və məsləhət xarakterli xidmətlər üzrə ödənişlər;
- ✓ məcburi qaydada beynəlxalq rabitə təşkilatlarına üzv olmaqla əlaqədar ödənilən üzvlük haqqı da daxil olmaqla rabitə xidmətlərinin (istehsal prosesi ilə bilavasitə əlaqəsi olmayan şəxsi danışıqlardan başqa) dəyəri;
- ✓ ümumi istifadədə olan sərnişin nəqliyyatının xidmət etmədiyi istiqamətlərdə işçilərin iş yerinə və geriyə daşınması üzrə xərclər;
- ✓ qanunvericilikdə nəzərdə tutulmuş normalara uyğun məcburi sığorta üzrə ödəmələr;
- ✓ qısa müddətli bank kreditlərinə görə ödənilən faiz məbləğləri və qanunvericilikdə nəzərdə tutulan bank xidmətlərinin dəyəri;
- ✓ məhsulun satılması ilə əlaqədar olan xərclər;
- ✓ Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktları ilə məhsulun (işin, xidmətin) maya dəyərinə aid edilən bütün növ vergilər, rüsumlar, büdcədənkənar fondlara ödəmələr, tədiyyələr və s. xərclər.

Xərc elementlərinin siyahısı, onların tərkibi və məhsul (iş, xidmət) növləri üzrə bölüşdürülməsi üsulları, istehsalın xarakteri və quruluşu nəzərə alınmaqla məhsulların (işlərin, xidmətlərin) maya dəyərlərinin planlaşdırılması, uçotu və kalkulyasiyası məsələləri üzrə sahə metodik tövsiyyələr əsasında müəyyən edilir.

Məhsulun (işin, xidmətin) istehsalına çəkilən xərclər qabaqcadan və ya sonrakı ödənmə vaxtından asılı olmayaraq hesabat dövrünə aid olan məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilir (işçilərə məzuniyyət haqlarına

görə ödənişlər, uzun müddətli iş xidmətinə görə mükafatların ödənilməsi, ilin yekununa görə ödənişlər və s.).

Hansı kalkulyasiya dövrünə aid olması dəqiq müəyyən olunmayan ayrı-ayrı xərc növləri (istehsalın hazırlanması və mənimsənilməsinə çəkilən xərclər, xüsusi alətlərin və tərtibatların köhnəlmə xərclərinin qaytarılması), habelə mövsümi işləyən sənaye sahələrinin xərcləri məhsulun (işin, xidmətin) maya dəyərinin planlaşdırılması, uçotu və kalkulyasiya üzrə sahə metodik təlimatlarında müəyyən olunmuş qaydalara əsasən istehsala çəkilən xərclərə daxil edilir.

Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilməyən digər xərclər başqa mənbələr hesabına həyata keçirilir.

Məhsulun (işin, xidmətin) maya dəyərinə müəssisə işçilərinə pul və natura formasında verilən ödəmələr, habelə onların saxlanması ilə əlaqədar olan müəyyən xərclər (maddi kömək, pensiyalara əlavələr, istirahət və müalicə putyovkaları və s.) də daxil edilir.

Xərclərin siyahısı, onların tərkibi və məhsul növləri üzrə bölüşdürülməsi istehsalın xarakteri və quruluşu nəzərə alınmaqla maya dəyərinin planlaşdırılması, uçotu və kalkulyasiyası məsələləri üzrə sahə metodiki tövsiyyələrdə dəqiqləşdirilir.

Məhsulun maya dəyərinə daxil edilən xərclər uçot, təhlil və planlaşdırma məqsədləri üçün müvafiq qaydada qruplaşdırılır. Belə qruplaşdırma maya dəyərinin aşağı salınması ehtiyatlarını əsaslandırılmış qaydada aşkar etməyə və məhsulun istehsalı və satışı üçün xərclərin azaldılması tədbirlərini hazırlamağa imkan verir. Maya dəyərinə daxil edilən xərclər iqtisadi elementlər və xərc maddələri üzrə qruplaşdırılır.

İqtisadi elementlər üzrə xərclərin uçotunun məqsədi ilkin elementlərinə və ya həmcins xərc maddələrinə (məsələn, əsas materiallar, yanacaq və s.) bölünməklə bütünlükdə

müəssisə üzrə istehsal xərclərinin ümumi məbləğinin və ya smetasının müəyyən edilməsindən ibarətdir. İstehsal xərcləri smetası müəssisə fəaliyyətinin növbəti dövrü üçün maddi və pul vəsaitlərinə tələbatı, onun bütün istehsal və satış fəaliyyəti üçün lazım olan xərcləri müəyyən etmək üçün tərtib olunur.

İstehsal xərcləri smetasına məhsulun istehsalı və satışı üçün əsas və köməkçi istehsalların bütün xərcləri daxil edilir. Bu smeta rublər üzrə bölünməklə il üçün tərtib edilir.

İqtisadi elementlərə görə istehsal xərclərinin öyrənilməsi ayrı-ayrı məmulatların maya dəyərini müəyyən etməyə imkan vermir. Ona görə də xərclər iqtisadi elementlərlə yanaşı kalkulyasiya xərc maddələri üzrə də qruplaşdırılır.

Kalkulyasiya elmi cəhətdən əsaslandırılmış qaydada məhsul vahidinin maya dəyərinin təyin edilməsidir.

Kalkulyasiya maddələri üzrə xərclərin qruplaşdırılması onların istiqamətindən (istehsal və ya xidmət) və yaranması yerindən (əsas istehsal və ya köməkçi xidmətlər) asılı olaraq həyata keçirilir.

Belə qruplaşdırmadan ayrı-ayrı məhsul (iş, xidmət) növlərinin maya dəyərinin təyin edilməsi, habelə ayrı-ayrı xərc növlərinin aşağı salınması üzrə təşkilati-texniki tədbirlər planının formalaşdırılması və hazırlanmasına həmin xərclərin təsiri dərəcəsinin qiymətləndirilməsi zamanı istifadə olunur.

Müəssisənin buraxdığı hər bir məhsul (iş, xidmət) üçün karkulyasiya tərtib edilir. Xərc maddələrinin siyahısı, onların tərkibi, məhsul növləri üzrə bölüşdürülməsi metodları sahə metodiki tövsiyyələr əsasında müəyyən edilir.

Maşınqayırma sahəsinin müəssisələrində kalkulyasiya aşağıdakı xərc maddələri üzrə tərtib edilir:

1. Xammal və materiallar.
2. Qaytarılan tullantılar (çıxılır).

3. Satın alınmış komplektləşdirici məmulatlar, yarımfabrikatlar və xidmətlər.
4. Texnoloji məqsədlər üçün yanacaq.
5. Texnoloji məqsədlər üçün enerji.
6. İstehsal fəhlələrinin əsas və əlavə əmək haqqı.
7. Sosial ehtiyaclara ayırmalar.
8. İstehsala hazırlıq və mənimsənilmə xərcləri.
9. Avadanlığın saxlanması və istismarı xərcləri.
10. Ümumi sex xərcləri.

Məhsulun sex maya dəyəri.

11. Ümumzavod xərcləri.
12. Zay məhsul hesabına itkilər (yalnız hesabat kalkulyasiyalarında).
13. Sair istehsal xərcləri.

Məhsulun istehsal maya dəyəri.

14. İstehsaldan kənar (kommersiya) xərclər.

Məhsulun tam (kommersiya maya) dəyəri.

İqtisadi iş təcrübəsində məhsul vahidinin maya dəyəri kalkulyasiyasının aşağıdakı növlərini fərqləndirirlər: plan; normativ; smeta; sifarişli; layihə və faktiki (hesabat).

Plan kalkulyasiyası müəyyən plan dövrü (ay, rüb,il) və ya perspektiv üçün məhsul vahidinə düşən xərclərin mümkün həddini əks etdirir. Müstəqim xərclər kalkulyasiyaya məmulat üçün plan məsarif normalarına uyğun olaraq daxil edilir. Dolayı xərclərə gəldikdə isə onların kəmiyyətini müəyyən etmək üçün köməkçi sexlərin istehsalı üçün xərclər smetası; avadanlığın saxlanması və istismarı xərcləri smetası; sex və ümumzavod xərcləri smetası; istehsala hazırlıq və mənimsənilməsi xərcləri smetası; nəqliyyat-hazırlıq xərcləri smetası; sair istehsal xərcləri smetası və istehsaldankənar kommersiya xərclər smetası tərtib edilir. Hər bir smeta üzrə hesablanmış dolayı xərclər seçilmiş kriteriyə mütənasib qaydada kalkulyasiyaya daxil edilir. Plan kalkulyasiyaları əsasında bütün məmulat növləri üçün məhsulun istehsalı və

satışı üçün kalkulyasiya maddələri üzrə yekun xərclər smetaları tərtib edilir.

Normativ kalkulyasiya plan kalkulyasiyasının bir növüdür və müəssisənin fəaliyyəti şəraitində real əldə oluna biləcək mütərəqqi norma və normativlərdən, ən müasir texnoloji proseslərdən, mütərəqqi xammal, material növlərindən və s. asılı olaraq istehsal proqramında nəzərdə tutulan bütün məmulat növləri üçün hesablanır. Normativ kalkulyasiyadan istehsalın idarə edilməsi təcrübəsində müəyyən etalon kimi istifadə olunur. Həmin etalonla müqayisə normativ və plan kalkulyasiyaları arasındakı kənarlaşmaları aşkar etməyə və sonuncunun etalona yaxınlaşdırılması yollarını müəyyən etməyə imkan verir.

Smeta kalkulyasiyası yeni mənimsənilən məhsul növləri və ya istehsal tapşırığında (planda) nəzərdə tutulmayan məhsul üçün tərtib edilir.

Məmulatların sınaq nümunələri hazırlanarkən və eksperimental (təcrübi) işlər aparılarkən sifariş kalkulyasiyası tərtib edilir. Bu zaman istehsal xərcləri əvvəlcədən müəyyən olunmuş məmulatların miqdarı (emal mərhələləri üzrə bölüşdürülmədən) üzrə hesablanmış ayrı-ayrı birdəfəlik sifarişlər üzrə qruplaşdırılır.

Kapital qoyuluşlarının və yeni texnikanın səmərəliliyini müəyyən etmək üçün layihə kalkulyasiyaları tərtib edilir ki, bu da ən yaxşı layihə qərarlarını əsaslandırmağa imkan verir.

Faktiki (hesabat) kalkulyasiya isə müəssisənin faktiki göstəriciləri əsasında hesablanır. Plan və normativ kalkulyasiyanın faktiki (hesabat) kalkulyasiya ilə müqayisəsi xərc maddələri üzrə xərclərin kənarlaşmasını aydınlaşdırmağa və maya dəyərinin aşağı salınması yollarını müəyyən etməyə imkan verir.

Ayrı-ayrı məhsul növlərinin maya dəyərini təyin etmək üçün müxtəlif kalkulyasiya metodları tətbiq olunur:

hesab-analitik, normativ, mərhələli, sifariş və örtülmə kəmiyyəti metodu.

Hesab-analitik metod daha geniş yayılmışdır. Bu halda məhsul vahidi üçün müstəqim xərclər normativ əsasında, dolayı xərclər isə seçilmiş əlamətə görə mütənasib qaydada müəyyən edilir.

Normativ metod normalardan kənarlaşmaların vaxtında aşkar edilməsindən, normaların dəyişilməsini nəzərə almaqdan ibarətdir. Müxtəlif mürəkkəb məhsulların kütləvi və seriyalı istehsalı zamanı tətbiq olunur. Bu metod normativ kalkulyasiyanı faktiki kalkulyasiya ilə tutuşdurmaqla faktiki xərclərin fəaliyyətdə olan normalardan kənarlaşmasının səbəblərini aşkar etməyə imkan verir. Bu halda faktiki kalkulyasiya normativ kalkulyasiyaya əlavələr etmək və ya hesabat dövründə aşkar olunan kənarlaşmaları ondan çıxmaq yolu ilə müəyyən edilir.

Kalkulyasiyanın mərhələli metodu ilkin materialı və kütləvi məhsul emalının xarakteri həmcins olan müəssisələrdə tətbiq olunur. Bu halda istehsalda fiziki-kimyəvi və termiki proseslər üstünlük təşkil edir, xammal hazır məhsula fasiləsiz və əsasən qısamüddətli texnoloji proses və ya hər biri müstəqil mərhələni təşkil edən bir sıra ardıcıl istehsal prosesləri şəraitində çevrilir. Mərhələli metoddan istifadə zamanı hər bir sexdə xərclər, o cümlədən əvvəlki sexdə hazırlanmış yarımfabrikatların maya dəyəri də nəzərə alınır. Hər bir sonrakı mərhələnin maya dəyəri onların xərclərini və yarımfabrikatların maya dəyərini cəmləməklə tapılır. Xərclər həm sexlər (mərhələlər), həm də xərc maddələri üzrə nəzərə alınır. Uçot obyekti kimi məhsulun ayrı-ayrı növləri və həmcinslilik əlaməti üzrə birləşdirilmiş qrupları da götürülə bilər.

Sifariş metodu fərdi və kiçik seriyalı, eləcə də təcrübi, sınaq və təmir istehsallarında və başqa işlərdə maya dəyərinin kalkulyasiyasında tətbiq olunur. Fərdi və kiçik seriyalı

istehsalda sifariş metodu normativ metodla uzlaşır. Kalkulyasiya obyekti kimi ayrıca bir sifariş götürülür.

Örtülmə kəmiyyəti metoduna ayrıca bir məmulatın kalkulyasiyasına məhsulun istehsalı və satışı üçün çəkilmiş bütün xərcləri deyil, yalnız örtülmə kəmiyyəti (dəyişən xərclər çıxılmaqla məmulatın qiyməti) daxil edilir ki, bu da normalaşdırmanı, planlaşdırmanı, uçotu və nəzarəti sadələşdirməyə imkan verir. Eyni zamanda xərc maddələri də xeyli azalır. Örtülmə kəmiyyəti metodunun tətbiqi müəssisənin çeşid siyasətini daha düzgün həll etməyə kömək edir.

Maya dəyərinin strukturu (quruluşu) dedikdə, ayrı-ayrı xərc elementlərinin (maddələrinin) nisbəti, ümumi maya dəyərində onların xüsusi çəkisi başa düşülür. Bunu hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$d_i = C_i / C \cdot 100,$$

burada d_i - məhsulun maya dəyərində i-ci xərc elementinin (maddəsinin) xüsusi çəkisi,%-lə;

C_i - i-ci xərc elementi (maddəsi) üzrə xərclərin məbləği, man;

C - məhsulun maya dəyəridir, man.

Maya dəyərinin quruluşu müəyyən amillərin təsirindən asılı olaraq dəyişilir. Bu amillər sırasına müəssisənin xüsusiyyətlərini, elmi-texniki tərəqqinin sürətini, istehsalın təmərküzləşdirilməsinin, ixtisaslaşdırılmasının, kooperativləşdirilməsinin, kombinələşdirilməsinin və diversifikasiyasının səviyyəsini, müəssisənin coğrafi mövqeyini, inflyasiya və bank kreditləri üçün faiz stavkalarının dəyişilməsini, reklamı və s. daxil etmək olar.

Məhsulun maya dəyərinin strukturunu səciyyələndirmək üçün aşağıdakı göstəricilərdən istifadə oluna bilər:

1) canlı və ictimai əmək arasındakı nisbət;
2) tam xərclərdə ayrıca bir elementin və ya xərc maddəsinin payı;

3) sabit və dəyişən xərclər, əsas və qaimə xərcləri, istehsal və qeyri-istehsal (kommersiya) xərcləri, müstəqim və dolayı xərclər və s. arasındakı nisbət.

Müəssisədə maya dəyərinə daxil olan xərclərin quruluşunun müntəzəm müəyyən edilməsi və təhlili xərclərin idarə edilməsi üçün çox böyük əhəmiyyət kəsb edir.

Xərclərin quruluşu onların aşağı salınmasına və bu sahədə konkret tədbirlərin hazırlanıb tətbiq edilməsinə imkan verir.

Xərclərin quruluşuna aşağıdakı amillər təsir edir:

- ✓ az da olsa inflyasiya prosesi;
- ✓ əsas fondların sıradan çıxmasının onların istifadəyə verilməsindən üstün olması. Bu, amortizasiya ayırmalarının xüsusi çəkisinin azalmasına gətirib çıxarmışdır. Eyni zamanda əsas vəsaitlərin dəfələrlə yenidən qiymətləndirilməsi, inflyasiya səviyyəsinə uyğun olmamışdır;
- ✓ kreditlərə görə faiz stavkalarının artması;
- ✓ reklamın rolunun əhəmiyyətli dərəcədə yüksəlməsi. Müəssisələr reklam üçün daha çox xərc qoymağa başlayıblar.

Qeyd etmək lazımdır ki, maya dəyərinin ayrı-ayrı xərc elementləri üzrə təhlili faktiki maya dəyərinin plan (baza) maya dəyərindən kənarlaşmasını və bu kənarlaşmaların səbəblərini aşkar etməyə imkan verirdisə maya dəyərinin quruluşunun təhlili isə maya dəyərinin aşağı salınması ehtiyatlarının başlıca istiqamətlərini müəyyən etməyə və onların aşkar edilməsi üçün təşkilati-texniki tədbirləri hazırlamağa şərait yaradır.

12.4. Maya dəyərinin aşağı salınması ehtiyatları və amilləri

Maya dəyərinin müntəzəm olaraq aşağı salınması eyni miqdarda material, əmək və pul ehtiyatlarından istifadə etməklə məhsul buraxılışını artırmağa imkan verir. Bu

isə istehsalın daha da inkişaf etdirilməsi və xalqın həyat səviyyəsinin yüksəldilməsi üçün zəmin yaradır. Unutmaq olmaz ki, ölkə miqyasında məhsulun maya dəyərinin aşağı salınmasının hər faizi milyard manatlarla qənaət deməkdir.

Ona görə də material, əmək və pul vəsaitlərindən daha yaxşı istifadə etmək üçün məhsulun maya dəyərinin aşağı salınmasının əsas yollarını bilmək lazımdır. Bunlara daxildir:

- ✓ əmək məhsuldarlığının yüksəldilməsi;
- ✓ texnika və texnologiyanın təkmilləşdirilməsi;
- ✓ əməyin təşkilinin yaxşılaşdırılması və iş vaxtına qənaət;
- ✓ əsas istehsal fondlarından səmərəli istifadə edilməsi;
- ✓ xammaldan, materiallardan, yanacaq və enerjidən istifadənin yaxşılaşdırılması və yeni mütərəqqi materialların tətbiqi;
- ✓ inzibati-idarəetmə xərclərinin ixtisar edilməsi;
- ✓ məmulatların və proseslərin standartlaşdırılması, normalaşdırılması və vahidləşdirilməsi;
- ✓ qeyri-məhsuldar xərclərin və itkilərin ləğv edilməsi.

Maya dəyərinin aşağı salınmasının başlıca ehtiyatı ictimai əmək məhsuldarlığının yüksəldilməsidir.

Əmək məhsuldarlığının artımı ilə işləyənlərin sayı və əmək haqqı fondu azalır. Əmək məhsuldarlığının artım sürəti təmin olunan müəssisələrdə orta əmək haqqının artım sürəti, əməyin ödənilməsinin məhsul vahidinə düşən xərcləri azalır:

$$\Delta M_d = \left(J_з / J_н - 1 \right) d_{зп},$$

burada ΔM_d - maya dəyərinin nisbi azalması, %-lə;

$d_{зп}$ - ümumi xərclərin içərisində əmək haqqının və sosial sığorta ayırmalarının payı, %;

$J_н$ - əmək məhsuldarlığının indeksi, %;

$J_з$ - bir işçinin orta aylıq əmək haqqı indeksidir, %.

Əsas istehsal fondlarından istifadənin yaxşılaşdırılması hesabına amortizasiya ayırmalarına nisbi qənaət aşağıdakı düsturla hesablanır[12]:

$$Э_a = \left(A_o / T_o - A_1 / T_1 \right) T_1 = A_o T_1 / T_o ,$$

burada A_o - bazis dövründə amortizasiya ayırmalarının məbləği (yeni istehsalların istifadəyə verilməsi nəzərə alınmadan), man;

A_1 - planlaşdırılan dövrdə yeni istehsalların istifadəyə verilməsi nəzərə alınmaqla amortizasiya ayırmalarının məbləği, man;

T_o - yeni istehsalların istifadəyə verilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi üçün əlavələr və hazır məhsul qiymətinin dəyişilməsi nəzərə alınmadan bazis dövründə əmtəəlik (ümumi) məhsulun faktiki həcmi, man;

T_1 - yeni istehsalların istifadəyə verilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi üçün əlavələr və hazır məhsulun qiymətinin dəyişilməsi nəzərə alınmaqla hesabat dövründə məhsul buraxılışının həcmidir, man.

İstehsalın həcminin dəyişilməsi ilə şərti-sabit (asılı olmayan) xərclərə nisbi qənaət (min manatla):

$$Э_{nn} = (J_T C_{nn})/100 \text{ və ya } Э_{nn} = (J_T C_o d_{nn})/(100 \times 100),$$

burada $Э_{nn}$ - bazis ilində gətirilmiş şərti-sabit xərclər (amortizasiyasız), man;

J_T - bazis ili ilə müqayisədə planlaşdırılan ildə əmtəəlik məhsulun artım sürəti, %;

C_o - bazis ilində əmtəəlik məhsulun maya dəyəri və ya ayrı-ayrı xərc elementləri (xərc maddələri), man;

d_{nn} - bazis ilində əmtəəlik məhsulun maya dəyərində və ayrı-ayrı xərc elementlərində (xərc maddələrində) gətirilmiş şərti-sabit xərclərin xüsusi çəkisidir, %:

$$d_{nn} = [d_{yn}(J_b - J_{yn})] / J_b ,$$

burada d_{yn} - bazis ilində əmtəəlik məhsulun maya dəyərində (və ya ayrı-ayrı xərc elementlərində) şərti-sabit xərclərin xüsusi çəkisi, %;

J_b - əvvəlki bazis ililə müqayisədə cari bazis ilində əmtəəlik məhsulun həcminin artım sürəti, %;

J_{yn} - əvvəlki il ilə müqayisədə bazis ilində şərti-sabit xərclərin artım sürətidir, %.

Təşkilati-texniki tədbirlərin həyata keçirilməsindən əldə edilən keçici qənaəti aşağıdakı düsturla hesablamaq olar:

$$Э_i = \left[(C_{xo} N_o + C_{x1} N_1) / (N_0 + N_1) \right] - C_{x1} N_2 ,$$

burada C_{xo} və C_{x1} - uyğun olaraq təşkilati-texniki tədbirlərin tətbiqindən əvvəl və sonra məhsul vahidi üçün dəyişən xərclər, man;

N_0 və N_1 - uyğun olaraq təşkilati-texniki tədbirlərin tətbiqindən əvvəl və sonra bazis ilində natural ifadədə məhsul buraxılışının həcmi;

N_2 - müvafiq natural vahidlərdə plan ili üçün nəzərdə tutulan məhsul buraxılışının həcmidir.

Şərti-sabit xərclər hesabına məhsul buraxılışı həcminin artırılması nəticəsində maya dəyərinin aşağı salınması (faizlə):

$$\Delta M_{d1} = \left[(100 \times d_{nn}) / 100 + Y_b \right] - d_{nn} ,$$

burada Y_b - bazis səviyyəsinə nisbətən planlaşdırılan (hesabat) dövrdə istehsal həcminin artımıdır, %.

Materialların (xammalın, yanacağın və s.) qiymətinin dəyişilməsi hesabına maya dəyərinin aşağı düşməsi (artması):

$$Э_q = (H_0\Gamma_1 - H_0\Gamma_0)N,$$

$$\Delta M_d = \left[\frac{(H_0\Gamma_1)}{(H_0\Gamma_0)}\right]100,$$

burada H_0 - məhsul (iş) vahidi üçün müəyyən materialın (xammalın, yanacağın və s.) sərfi norması;

Γ_0 və Γ_1 - bazis və hesabat (planlaşdırılan) dövrdə material vahidinin qiyməti, man;

N - hesabat (plan) dövrdə buraxılan məhsulun (işin) miqdarıdır (müvafiq ölçü vahidlərində).

Əmək haqqı və sosial ehtiyaclara ayırmalar üzrə xərclərə qənaət buraxılan məhsulun əmək tutumunun azaldılmasını təmin edən müxtəlif təşkilati-texniki tədbirlərin həyata keçirilməsi nəticəsində əldə oluna bilər:

$$Э_{əh} = (t_0Əh_0 - t_1Əh_1)(1 + Əh_э/100)(1 + Əh_c/100)N,$$

burada t_0, t_1 - tədbirlərin keçirilməsindən əvvəl və sonra məhsul vahidinin əmək tutumu, norma-saat;

$Əh_0, Əh_1$ - tədbirlərin keçirilməsindən əvvəl və sonra fəhlənin orta saatlıq əmək haqqı, man;

$Əh_э$ - həmin kateqoriyadan olan fəhlələr üçün əlavə əmək haqqının orta əmsalı;

$Əh_c$ - sosial ehtiyaclara ayırmalar üzrə müəyyən olunmuş faiz;

N - planlaşdırılan dövrdə tədbirlərin keçirilməsi nəticəsində əmək tutumunun aşağı salındığı məmulatların miqdarıdır.

Bu qayda ilə bütün məmulatlar üzrə əmək tutumunun aşağı salınması hesabına qənaət hesablanır, sonra isə illik ümumi məbləği təyin edilir. Əgər təşkilati-texniki tədbirlər ilin əvvəlindən həyata keçirilməzsə, məhsulun maya

dəyərinin aşağı salınması hesablanarkən həmin dövrdə əldə ediləcək qənaət məbləğinin bir hissəsi nəzərə alınır.

Əməyi vaxtamuzd ödənilən işçilərin ixtisar (azad) edilməsini təmin edən təşkilati-texniki tədbirlər həyata keçirildikdə qənaət aşağıdakı düsturla müəyyən edilir:

$$Э_{əh} = \left[Э_н Əh_{op}\frac{(1+Əh_c)}{100}\right],$$

burada $Э_н$ - azad (ixtisar) olunması gözlənilən işçilərin sayı;

$Əh_{op}$ - həmin kateqoriyadan olan işçilərin orta aylıq əmək haqqıdır, man.

Hər hansı bir amilin təsiri ilə məhsulun maya dəyərinin aşağı salınması faizi aşağıdakı düsturla hesablana bilər:

$$\Delta M_d = \frac{(J_i d_i)}{100},$$

burada J_i - müəyyən dövrdə məhsulun maya dəyərində i-ci maddə üzrə xərclərin dəyişilməsi, %;

d_i - bazis dövründə məhsulun maya dəyərində i-ci maddə üzrə xərclərin xüsusi çəkisidir, %.

Bütün amillərin cəmi üzrə məhsulun maya dəyərinin orta hesabla aşağı düşməsi aşağıdakı düsturla tapılır:

$$\Delta M_d = \sum_{i=1}^{n}\frac{(J_i d_i)}{100} \text{ və ya } M_d = Э \times \frac{100}{C_o},$$

burada $Э$ - planlaşdırılan dövrdə bütün təşkilati-texniki tədbirlərin tətbiqi nəticəsində əldə edilən şərti-illik qənaətin ümumi məbləği, man / il;

C_o - tədbirlərin tətbiqinə qədər bazis dövründə illik məhsul həcminin maya dəyəridir, man.

Bazis dövrü ilə müqayisədə hesabat dövründə məhsulun maya dəyərinin aşağı salınmasından əldə edilən mütləq qənaət

$$Э_c = C_1q_1 - C_0q_1 \text{ olar.}$$

Burada C_0, C_1 - uyğun olaraq bazis və hesabat dövründə müəyyən növ məhsul vahidinin maya dəyəri, man;

q_1 - hesabat dövründə müəyyən növ məhsulun hazırlanmış vahidlərinin miqdarıdır (müvafiq ölçü vahidləri-lə).

Plan tapşırıqları ilə müqayisədə hesabat dövrü ərzində məhsulun maya dəyərinin aşağı salınması hesabına faktiki qənaət aşağıdakı düsturla hesablanır:

$$Э_c = C_1 q_1 - C_2 q_1,$$

burada C_2 - müəyyən növ məhsulun plan maya dəyəridir, man.

Bazis dövrü ilə müqayisədə məhsulun maya dəyərinin aşağı salınması üzrə plan tapşırığının məbləği aşağıdakı kimi tapılır:

$$Э_c = C_2 q_2 - C_0 q_1,$$

burada q_2 - plan döründə buraxılmış məhsul vahidlərinin miqdarıdır (müvafiq ölçü vahidləri ilə).

Maşınqayırmada məhsulun maya dəyərinin aşağı salınması amilləri aşağıdakı kimi qruplaşdırılır:

1. İstehsalın texniki səviyyəsinin yüksəldilməsi. Burada istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması, avadanlığın yeni növlərinin tətbiqi, yeni texnoloji proseslərin tətbiqi, məmulatların konstruktiv xüsusiyyətlərinin yaxşılaşdırılması, xammalın və yeni konstruksiya materiallarının keyfiyyətinin yaxşılaşdırılması kimi amillər nəzərdə tutulur.
2. İstehsalın və əməyin təşkilinin yaxşılaşdırılması (xidmət zonalarının və normalarının yüksəldilməsi; normaları yerinə yetirməyən fəhlələrin sayının azaldılması; idarəetmənin strukturunun sadələşdirilməsi; uçot və hesablama işlərinin mexanikləşdirilməsi; iş dövrünün dəyişdirilməsi; istehsalın ixtisaslaşdırılması səviyyəsinin yüksəldilməsi).

3. Xarici və təbii mühitin dəyişilməsi (kömür, neft, filiz və torf hasilatının dağ-geoloji şəraitinin dəyişilməsi; faydalı maddələrin məzmununun dəyişilməsi; materialların (xammalın və s.) qiymətinin dəyişilməsi və s.).
4. İstehsalda struktur dəyişikliklərin aparılması. Buraya ayrı-ayrı məhsul növlərinin xüsusi çəkilərinin dəyişilməsi; satın alınmış yarımfabrikatların və komplektləşdirici məmulatların xüsusi çəkisnin dəyişilməsi; yeni məhsulun xüsusi çəkisinin dəyişilməsi daxildir.

12.5. Maya dəyərinin planlaşdırılması

Məhsulun (işin, xidmətin) maya dəyəri planı müəssisənin biznes planının tərkib hissəsidir və texniki-iqtisadi hesablamalar sistemindən ibarətdir. Bu hesablamalar buraxılan hər bir məhsul növünün və bütün əmtəəlik məhsulun istehsalı və satışı üçün cari xərclərin kəmiyyətini təyin edir.

Məhsulun maya dəyərinin planlaşdırılmasının məqsədi maddi və əmək resurslarından daha səmərəli istifadə etməklə yüksək keyfiyyətli məhsulun istehsalı və satışı üçün xərclərin optimal səviyyəsini müəyyən etməkdən ibarətdir.

Müəssisənin struktur bölmələri üzrə məhsulun maya dəyərinin planlaşdırılmasına müəssisənin idarə edilməsi sisteminin bir hissəsi və istehsaldaxili təsərrüfat hesabının təşkilinin ayrılmaz şərti kimi baxmaq lazımdır. Bu göstəricinin təsirliliyi onun planlaşdırılmasının metodoloji məsələlərinin həllinin iqtisadi cəhətdən əsaslandırılması dərəcəsindən asılıdır.

Maya dəyəri planının hazırlanması üçün ilkin məlumatlar kimi aşağıdakılar götürülür: natural və dəyər ifadəsində məhsul istehsalının həcmi; məhsul vahidi üçün canlı və cisimləşmiş əməyin sərfi normaları; qiymətlər, tariflər, vergilərin və yığımların stavkaları; əsas fondların tam bərpası üçün amortizasiya ayırmaları normaları; sosial ehti-

yaclar və s. üçün ayırmalar normativi; texniki inkişaf, istehsalın, əməyin və idarəetmənin təşkilinin təkmilləşdirilməsi planları; əvvəlki dövr ərzində təsərrüfat fəaliyyətinin təhlili materialları.

Maya dəyəri planına aşağıdakı bölmələr daxildir:

1. Məhsulun istehsalı xərcləri smetası.
2. Bütün əmtəəlik və satılq məhsulun maya dəyəri.
3. Ayrı-ayrı məmulatların plan kalkulyasiyası.
4. Əmtəəlik məhsulun texniki-iqtisadi amillər üzrə maya dəyərinin aşağı salınmasının hesablanması.

Maya dəyəri planının hazırlanması üçün müəssisənin və onun struktur bölmələrinin təsərrüfat fəaliyyətinin ətraflı texniki-iqtisadi təhlili aparılmalıdır. Təhlilin başlıca məzmununu texnikanın, texnologiyanın, əməyin və idarəetmənin təşkilinin təkmilləşdirilməsi, qeyri-məhsuldar xərclərin və zay məhsul hesabına itkilərin ləğv edilməsi yollarının dərindən tədqiqi təşkil etməlidir.

Məhsulun maya dəyəri planı canlı və cisimləşmiş əməyin, pul vəsaitlərinin sərfinin mütərəqqi normaları əsasında hazırlanmalıdır. Biznes planın bu bölməsi məhsulun istehsalı və satışı planı, əmək, mənfəət, təchizat və istehsalın səmərəliliyinin yüksəldilməsi planları ilə sıx əlaqələndirilməlidir.

Sənaye müəssisələrində məhsulun maya dəyərinin planlaşdırılmasında, bir qayda olaraq, iki metoddan istifadə olunur: normativ və maya dəyərinin mühüm texniki-iqtisadi amillər üzrə hesablanması.

Məhsulun maya dəyəri planının əsaslandırılmasının bu və ya başqa metodiki variantlarının tətbiqi xeyli dərəcədə planın hazırlanması mərhələlərindən asılıdır.Belə ki, perspektiv və illik planların layihələrinin hazırlanması mərhələsində istehsal xərcləri smetasından və plan kalkulyasiyalarından istifadə etməklə maya dəyərinin planlaşdırılmasının ənənəvi qaydası kifayət qədər səmərəli deyildir. Ona görə ki, həmin sənədlər məhsulun maya dəyərinin aşağı salınmasının

əsas istiqamətlərini tam əks etdirmir. Bu mərhələdə məhsulun maya dəyəri planı əsas texniki-iqtisadi amillər üzrə xərclərin dəyişilməsinin hesablanması yolu ilə müəyyən edilir.

Müəssisələrdə genişləndirilmiş illik planların tərtibi zamanı amillər üzrə maya dəyəri hesablamaları ayrı-ayrı məhsul növlərinin maya dəyəri kalkulyasiyalarının və istehsal xərcləri smetasının tərtibi ilə əlaqələndirilir.

Məhsulun maya dəyərinin planlaşdırılmasının birinci metodundan istifadə zamanı aşağıdakılar lazımdır: məhsulun və köməkçi istehsalların xidmətlərinin istehlakçılar üzrə bölüşdürülməsi balansının tərtib edilməsi; yeni məhsul növlərinin hazırlanması və mənimsənilməsi xərcləri smetasının və buraxılış xərcləri smetasının tərtib edilməsi; maşın və avadanlığın saxlanması və istismarı xərcləri smetasının və ümumi istehsal xərcləri smetasının tərtib edilməsi; nəqliyyat-hazırlıq, ümumtəsərrüfat və kommersiya xərcləri smetalarının tərtib edilməsi. Sonra isə məhsul vahidinin maya dəyəri kalkulyasiyalaşdırılır, bütün əmtəəlik məhsulun maya dəyəri hesablanır və istehsal xərcləri smetası tərtib edilir. Məhsulun maya dəyəri planının hesablanması köməkçi sexlər üzrə istehsal xərcləri smetasının hazırlanmasından başlanır, çünki bu sexlərin işləri və xidmətlərinin dəyəri maşın və avadanlığın saxlanması və istismarı xərcləri, ümumistehsal və ümumtəsərrüfat xərcləri, yeni məhsul növlərinin mənimsənilməsi və xüsusi tərtibatların hazırlanması xərcləri smetalarına daxil edilir.

İkinci metodun əsasını istehsal xərcləri ilə istehsalın həcmində, məhsulun strukturunda, texnologiyada, əməyin və istehsalın təşkilində baş verən müxtəlif dəyişikliklər arasındakı asılılıqların kəmiyyət təhlili təşkil edir. Bu metod plan dövrü ərzində iş şəraitinin dəyişilməsinin istehsal xərcləri səviyyəsinə təsirini nəzərə almağa imkan verir.

Xərclərin səviyyəsinə təsir texniki-iqtisadi amillərin qrupları üzrə hesablanır.

FƏSİL 13. MÜƏSSİSƏNİN QİYMƏT SİYASƏTİ

13.1. Qiymətin mahiyyəti və qiymətlərin təsnifatı

Müəssisənin təsərrüfat siyasətinin iqtisadi mexanizminin müxtəlif vasitələri arasında mühüm yeri qiymətlər və qiymətin əmələ gəlməsi tutur, çünki bunlar müəssisənin iqtisadi fəaliyyətinin bütün tərəflərini əhatə edir. Qiymət istehsala, bölgüyə, mübadiləyə və istehlaka bilavasitə təsir göstərir.

Əksər ədəbiyyatda qiymət məhsul vahidinin dəyərinin pul ilə ifadəsi kimi şərh edilir. Qiymətin belə bir tərifi də mövcuddur: «Qiymət alıcının malı ala biləcəyi və istehsalçının isə malı sata biləcəyi pulun məbləğidir» [35]. Ən ümumi halda qiymət maya dəyəri ilə mənfəətin məbləğini əks etdirir.

Qeyd etmək lazımdır ki, aşağıdakılar qiymət səviyyəsindən asılıdır:

- ✓ müəssisənin mənfəətinin kəmiyyəti;
- ✓ müəssisənin və onun məhsulunun rəqabət qabiliyyəti;
- ✓ müəssisənin maliyyə dayanıqlığı.

Düzgün qiymət siyasətinin seçilməsi mürəkkəb məsələdir və maketinq xidmətinin yaradılmasını tələb edir. Qiymət iqtisadi kateqoriya kimi uçot, bölgü, tələb və təklifin balanslaşdırılması, istehsalın səmərəli yerləşdirilməsi vasitəsi və həvəsləndirici funksiyaları yerinə yetirir. Uçot funksiyası məhsulun istehsalı və satışı üçün ictimai zəruri əmək məsrəflərini əks etdirir, istehsal xərclərini və nəticələrini qiymətləndirir.

Bölgü funksiyasının mahiyyəti ondadır ki, dövlət qiymətin əmələ gəlməsi vasitəsilə iqtisadiyyatın sahələri, onun dövlət və digər bölmələri, regionları, yığım və istehlak fondları və əhalinin sosial qrupları arasında milli gəlirin yenidən bölüşdürülməsini həyata keçirir.

Qiymətin bu funksiyası maya dəyərinə bir çox vergilərin (o cümlədən aksiz, əlavə dəyər) əlavə edilməsi yolu ilə həyata keçirilir və yol fondlarının, pensiya fondunun, sosial ehtiyaclar fondunun, əhalinin məşğulluğu fondunun və s. yaradılmasının mənbəyidir.

Tələb və təklifin balanslaşdırılması funksiyası istehsal və istehlak, təklif və tələb arasında əlaqələrin qiymət vasitəsilə həyata keçirilməsini əks etdirir. Qiymət istehsal və tədavül dairələrində baş verən uyğunsuzluqlar (disproporsiyalar) haqqında xəbərdarlıq edir, onların aradan qaldırılması üçün tədbir görülməsini tələb edir. O, tələb və təklifin uyğunsuzluğunun əldə edilməsi üçün çevik vasitə rolunu oynayır.

Qiymətin istehsalın səmərəli yerləşdirilməsi vasitəsi funksyası bazar iqtisadiyyatı şəraitində daha tam üzə çıxır. Qiymət mexanizminin köməyilə kapitalın daha yüksək mənfəət norması ilə iqtisadiyyatın və istehsalın bölmələrinə axını baş verir.

Həvəsləndirici funksiyadan resurslara qənaət edilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, yeni texnologiyaların tətbiqi və s. üçün istifadə olunur. Bu, onunla əlaqədardır ki, qiymətlər istehsalın texniki səviyyəsindən və məhsulun keyfiyyətindən asılı olaraq differensiallaşdırılırlar. Bilmək lazımdır ki, bu amillər qeyri-həvəsləndirici təsir də göstərə bilər.

Ölkənin bazar iqtisadiyyatında mövcud olan qiymətlər aşağıdakı əsas əlamətlər üzrə təsnifləşdirilir:

1. Xidmət göstərilən dövriyyənin xarakterinə görə aşağıdakı qiymətlərdən istifadə olunur:

- ✓ sənaye məhsulu üçün topdansatış qiymətləri. Bu qiymətlərlə müəssisələr istehsal etdikləri məhsulu digər müəssisələrə və satış təşkilatlarına satır;

- ✓ alış qiymətləri. Bu qiymətlərlə kənd təsərrüfatı məhsullarının istehsalçıları məhsulu gələcək (yenidən) emal üçün firmalara, sənaye müəssisələrinə satır;
- ✓ tikintinin məhsulu üçün qiymətlər. Buraya smeta dəyəri, orta smeta dəyəri və müqavilə qiymətləri daxildir. Bazar münasibətləri inkişaf etdikcə müqavilə qiymətlərinin fəaliyyəti dairəsi də genişlənir;
- ✓ pərakəndə qiymətlər. Bu qiymətlərlə ticarət təşkilatları məhsulları əhaliyə, müəssisələrə və təşkilatlara satır;
- ✓ yük və sərnişin nəqliyyatının tarifləri;
- ✓ əhaliyə pullu xidmətlər üçün tariflər;
- ✓ xarici ticarət dövriyyəsinə xidmət edən qiymətlər.

İstənilən qiymət bir-birilə qarşılıqlı əlaqədar elementləri əhatə edir. Qiymətin ayrı-ayrı elementlərinin faizlə ifadə olunmuş nisbəti onun quruluşunu əks etdirir. Bu, qiymətin ayrı-ayrı elementlərinin əhəmiyyəti və onun səviyyəsi haqqında mühakimə yürütməyə imkan verir.

Sənaye məhsuluna qiymətlərin tərkibini aşağıdakı kimi təsvir etmək olar (Şəkil 13.1.1):

Məhsulun maya dəyəri (M_d)	Müəssisənin mənfəəti (M)	Aksiz vergisi (aksiz tətbiq olunan mallar üçün) (A)	Əlavə dəyər vergisi (ƏDV)	Vasitəçi təşkilatların əlavələri ($Ə_v$)	Ticarət əlavələri ($T_ə$)
Müəssisə topdansatış (buraxılış) qiyməti ($Г_м$)					
Sənaye (bazar) topdansatış qiyməti ($Г_c$)					
Pərakəndə satış qiyməti ($Г_п$)					

Şəkil 13.1.1. Sənaye məhsuluna qiymətlərin tərkibi

Deməli, müəssisə topdansatış qiyməti aşağıdakı kimi ifadə oluna bilər:

$$Г_м = M_д + M + A + ƏDV.$$

Sənaye topdansatış qiyməti:

$$Г_c = Г_м + Ə_v.$$

Pərakəndə satış qiyməti isə:

$$Г_п = Г_c + T_ə.$$

Məhsulun qiymətinin əsasını onun maya dəyəri təşkil edir. Məlumdur ki, maya dəyəri məhsulun istehsalı və satışı ilə əlaqədar olan cari xərclərin pul ilə ifadəsidir. Hər bir müəssisə məhsul buraxılışı ilə əlaqədar olan xərclərin ödənilməsinə və kifayət qədər mənfəət məbləğinin əldə edilməsinə çalışmalıdır. Mənfəət təkcə müəssisənin cari xərclərinin maliyyələşdirilməsini deyil, həm də müəssisənin inkişafını təmin etməlidir.

Qiymətin quruluşunda mühüm yeri vergilər tutur. Aksiz və əlavə dəyər vergiləri dolayı vergilərdir və son istehlakçılar tərəfindən ödənilir. Aksiz vergisinə cəlb edilən məhsulların siyahısını hökumət tərtib edir. Buraya alkoqollu içkilər, tütün məmulatı, minik avtomobilləri, mineral xammal və s. məhsullar daxildir. Əlavə dəyər vergisinin əhatə dairəsi isə çox genişdir. Ölkəmizdə onun əsas stavkası 18%-dir. Bununla yanaşı ayrı-ayrı mal qrupları üzrə bu vergi üzrə müəyyən güzəştlər nəzərdə tutulur (məs, ərzaq malları, uşaq malları və s.).

Vasitəçi və ticarət təşkilatlarının əlavələri məhsulların istehsalçılardan istehlakçılara çatdırılması ilə əlaqədar xərclərin ödənilməsi və müəyyən mənfəət məbləğinin alınmasını təmin edir.

2. Tənzimləmə dairəsindən asılı olaraq aşağıdakı qiymətləri fərqləndirirlər:

- ✓ sərbəst qiymətlər. Bu qiymətlər məhsul və xidmət istehsalçıları tərəfindən tələb və təklif əsasında müəyyən edilir. - İstər satıcı, istərsə də alıcı alqı-satqı sövdələşməsindən nə əvvəl, nə də sonra üzərilərinə heç bir öhdəlik götürmürlər;

- ✓ müqavilə (kontrakt) qiymətləri tərəflər arasındakı müqavilə əsasında müəyyən edilir. Bu zaman satıcı və alıcı müqavilə (kontrakt) bağlamaqla üzərilərinə müəyyən öhdəliklər götürürlər;
- ✓ bazarın qismən və ya tam inhisarı şəraitində qiymətlər. Belə halda bir və ya hər iki tərəf müəyyən məcburi şərtləri qəbul etməli olur;
- ✓ tənzimlənən qiymətlər. Bu qiymətlər Azərbaycan dövlətinin və ya onun ayrı-ayrı subyektlərinin nəzarəti altında müəyyən edilir. Tənzimləmənin birbaşa (müstəqim) və dolayı metodlarını fərqləndirirlər. Müstəqim tənzimləmə qeyd olunmuş (qəti) qiymətlərin, hədd qiymətlərinin, əlavələrin, qiymətlərin dəyişilməsinin hədd əmsallarının, rentabellik səviyyəsi həddinin müəyyən edilməsi yolu ilə həyata keçirilir.

Dolayı tənzimləmə isə vergilərin və faiz stavkalarının dəyişdirilməsi yolu ilə qiymətlərə təsir etməyi nəzərdə tutur.

Azərbaycan Respublikasında qiymətin əmələ gəlməsinin dövlət tənzimlənməsi ölkə prezidentinin «Qiymətlərin (tariflərin) dövlət tənzimlənməsinin nizamlaşdırılması tədbirləri haqqında» fərmanı ilə həyata keçirilir. Bu fərmanda həmçinin qiymətlərin dövlət tənzimlənməsinin həyata keçirildiyi məhsulların və xidmətlərin siyahısı da müəyyən olunmuşdur.

3. Fəaliyyət göstərdiyi ərazidən asılı olaraq aşağıdakı qiymətlər mövcuddur:
- ✓ vahid və ya qurşaq qiymətləri;
- ✓ məhəlli (zona) qiymətləri.

Vahid qiymətlər dövlətin mərkəzi icra hakimiyyəti orqanları tərəfindən, məhəlli qiymətlər isə müxtəlif regionların icra hakimiyyəti orqanları tərəfindən təbii-iqlim, coğrafi, sosial-iqtisadi şərtlər və ayrı-ayrı ərazilərin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilir və tənzimlənir.

Vahid (qurşaq) qiymətləri aşağıdakı məhsullar və xidmətlər üçün müəyyən edilir:
- ✓ təbii qaz;
- ✓ atom-yanacaq tsiklinin məhsulları;
- ✓ elektrik və istilik enerjisi;
- ✓ müdafiə sənayesinin məhsulları;
- ✓ qiymətli metallar və ərintilər;
- ✓ dəmiryolu nəqliyyatında yüklərin daşınması, yükləmə-boşaltma işləri;
- ✓ dəmiryolu nəqliyyatında (şəhərətrafı yollardan başqa) sərnişinlərin və baqajın daşınması, poçtanın aparılması və s.
- ✓ mənzil və kommunal xidmətləri və s.

4. Nəqliyyat xərclərinin malın qiymətinə daxil edilməsi metodundan asılı olaraq qiymətlər aşağıdakı kimi təsnifləşdirilir:
- ✓ «malgöndərənin franko-anbar» qiyməti;
- ✓ «franko-göndəriş stansiyası» qiyməti;
- ✓ «istehlakçının franko-anbar» qiyməti və s.

Franklaşdırma sistemi məhsulun satıcıdan alıcıyadək hərəkəti zamanı hansı məntəqəyədək nəqliyyat xərclərinin satıcı tərəfindən ödənildiyini göstərir və bu xərclər məhsulun qiymətinə daxil edilir.

Məsələn, «Malgöndərənin franko-anbar» qiyməti göstərir ki, məhsulun daşınması üzrə bütün xərcləri alıcı ödəyir. «Franko-göndəriş stansiyası» qiymətinə məhsulun alıcıya yola salınacağı stansiyayadək daşınması xərcləri daxildir. «İstehlakçının franko-anbar» qiyməti isə göstərir ki, məhsulun daşınması üzrə bütün xərcləri malgöndərən ödəyir.

5. Fəaliyyəti müddətlərinə görə aşağıdakı qiymətlər mövcuddur:
- ✓ möhkəm (sabit) qiymətlər. Bu qiymətlər müqavilənin (kontraktın) qüvvədə olduğu bütün müddət ərzində dəyişilməz qalır;

- ✓ cari qiymətlər. Bu qiymətlər bir müqavilə çərçivəsində dəyişilir və bazarda vəziyyətin dəyişilməsini əks etdirir;
- ✓ mövsümi qiymətlər. Bu qiymətlər müəyyən vaxt dövrlərində fəaliyyət göstərir;
- ✓ sürüşkən qiymətlər. Bu qiymətlər hazırlanması üçün uzun müddət tələb olunan məmulatlar üçün müəyyən edilir və onlar həmin məhsulun hazırlanması üçün lazım olan vaxt dövründə istehsal xərclərində baş verən dəyişiklikləri nəzərə almağa imkan verir.

6. Statistikada istifadə olunan qiymətlər:
- ✓ cari;
- ✓ orta;
- ✓ müqayisəli;
- ✓ dəyişməz.

Statistik qiymətlər ümumiləşdirilmiş olur. Onlar qiymətləri təhlil etməyə və dinamikada onun meyllərini aşkar etməyə, malların istehsalı və satışının fiziki həcminin dinamikada dəyişilməsini təyin etməyə, eləcə də dəyər göstəricilərinin təhlilini həyata keçirməyə imkan verir.

7. Qiymətlərin digər təsnifatı:
- ✓ hərrac qiymətləri. Hərracda satılan malın qiymətidir. Bu qiymət bazar qiymətlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər, çünki o, malların unikal və nadir xassələrini və əlamətlərini əks etdirir. Hərrac qiyməti hərracı aparan şəxsin ustalığından çox asılıdır;
- ✓ birja qiymətləri. Bu, birjada malların alqı-satqısı üzrə topdansatış sövdələşmələrinin (əqdlərin) həyata keçirildiyi qiymətlərdir. O, sərbəst qiymətdir, tələbdən, sövdələşmənin həcmindən və s. asılı olaraq dəyişilir. Birja qiymətlərinin birtipli səviyyəsi ən xarakterik sövdələşmələrə görə müəyyən edilir. Birja informasiyası müvafiq bülletenlərdə çap edilir.

Bazar iqtisadiyyatı şəraitində rəqabət, oliqapoliya, inhisar, tələb, təklif, soraq, nominal və digər qiymət növlərindən də istifadə olunur.

Müəssisənin səmərəli qiymət siyasətini hazırlamaq üçün qiymət səviyyəsinə təsir edən amilləri hərtərəfli təhlil etmək lazımdır. Bu amillər içərisində əsasları aşağıdakılardır:
- ✓ məhsula tələb;
- ✓ qiymətlərin dövlət tənzimlənməsi;
- ✓ məhsulun istehsalı və satışı xərcləri;
- ✓ rəqabət;
- ✓ digər amillər.

13.2. Müəssisədə qiymət siyasətinin vəzifələri və mexanizmləri

Müəssisədə qiymətin əmələ gəlməsi bir-birilə qarşılıqlı əlaqədar olan aşağıdakı mərhələlərdən ibarət mürəkkəb prosesdir: bazar haqqında informasiyanın yığılması və müntəzəm təhlili; müəyyən vaxt dövrü üçün müəssisənin qiymət siyasətinin əsas məqsədlərinin əsaslandırılması; qiymətin əmələ gəlməsi metodlarının seçilməsi; qiymətin konkret səviyyəsinin müəyyən edilməsi; qiymətə əlavələrin və güzəştlərin formalaşdırılması; mövcud bazar konyukturasından asılı olaraq müəssisənin qiymət fəaliyyətinin (davranışının) təshih edilməsi.

Qiymət siyasəti müəssisənin təsərrüfat fəaliyyətinin məqsədlərinin əldə edilməsi üçün əsas bazar tiplərində müəssisənin davranışı haqqında qərarların qəbul edilməsi mexanizmi və ya modelidir.

Müəssisə qiymət siyasətinin hazırlanması sxemini özünün inkişafı məqsədlərindən və vəzifələrindən, idarəetmənin təşkilat strukturundan və metodlarından, müəssisədə mövcud olan ənənələrdən, istehsal xərcləri səviyyəsindən və digər daxili amillərdən, eləcə də sahibkarlıq mühitinin, daha doğrusu, xarici amillərin

vəziyyətindən və inkişafından asılı olaraq müstəqil surətdə müəyyən edir.

Qiymət siyasəti hazırlanarkən adətən aşağıdakı məsələlər həll edilir:

- ✓ qyimət siyasətini hansı hallarda istifadə etmək lazımdır;
- ✓ rəqiblərin bazar siyasətinə qiymətlərin köməyilə nə vaxt cavab vermək lazımdır;
- ✓ yeni məhsulun bazara daxil edilməsi qiymət siyasətinin hansı tədbirləri ilə müşayiət olunmalıdır;
- ✓ satılan çeşiddən hansı malların qiymətlərini dəyişmək lazımdır;
- ✓ hansı bazarlarda fəal qiymət siyasətini həyata keçirmək, qiymət strategiyasını dəyişmək lazımdır;
- ✓ müəyyən qiymət dəyişikliklərini vaxta görə necə bölüşdürmək lazımdır;
- ✓ hansı qiymət tədbirləri ilə satışın səmərəliliyini gücləndirmək olar;
- ✓ sahibkarlıq fəaliyyətinin mövcud daxili və xarici məhdudluqları və bir sıra başqa amilləri qiymət siyasətində necə nəzərə almaq lazımdır.

Müəssisənin qiymət siyasətinin hazırlanması və həyata keçirilməsi prosesini şəkil 13.2.1.-dəki sxemdə göstərmək olar.

Qiymət siyasətinin hazırlanmasının ilkin mərhələsində müəssisə konkret məhsulu buraxmaqla hansı təsərrüfat məqsədinə çatmaq istədiyini müəyyənləşdirməlidir. Adətən qiymət siyasətinin üç əsas məqsədini fərqləndirirlər: satışın təmin edilməsi; mənfəətin maksimallaşdırılması; bazarın əldə saxlanması.

Satışın təmin edilməsi bazarda analoji məhsulun çox sayda istehsalçıları olduğu halda ciddi rəqabət şəraitində öz fəaliyyətini həyata keçirən müəssisələrin başlıca məqsədidir. Bu məqsədin seçilməsi istehlakçıların tələbinin qiymətə görə elastik olması, eləcə də müəssisədə satış həcminin maksimal artırılması və məhsulun hər vahidindən gəliri azaltmaq yolu

Şəkil 13.2.1. Müəssisənin qiymət siyasətinin hazırlanması və həyata keçirilməsi mərhələləri

ilə məcmu mənfəətin artırılması hallarında mümkündür. Müəssisə belə fərziyyəni əsas götürməlidir ki, satışın həcminin artırılması istehsal və satış üçün nisbi xərcləri azaldacaq ki, bu da məhsulun satışını artırmağa imkan verəcəkdir. Bu məqsədlə müəssisə qiymətləri aşağı salır (nüfuzetmə qiymətlərindən, yəni xüsusi olaraq aşağı salınmış qiymətlərdən istifadə edir) və bununla da satışı genişləndirir və bazarda daha böyük pay əldə edir.

Mənfəətin maksimallaşdırılması məqsədinin qoyulması onu göstərir ki, müəssisə cari mənfəətin

artırılmasına çalışır. O, müxtəlif qiymət səviyyələrinə nəzərən tələbi və xərcləri qiymətləndirir və qiymətin elə bir səviyyəsini seçir ki, bu, xərclərin maksimal dərəcədə ödənilməsini təmin etsin.

Bazarın əldə saxlanması məqsədi müəssisənin bazardakı mövcud vəziyyətinin saxlanmasını və ya özünün fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur ki, bu da təchizatın səviyyəsinin aşağı düşməsinin və rəqabət mübarizəsinin kəskinləşməsinin qarşısının alınması üçün müxtəlif tədbirlərin görülməsini tələb edir.

Qiymət siyasətinin yuxarıda göstərilən məqsədləri uzunmüddətlidir, nisbətən uzun vaxt müddəti üçün nəzərdə tutulur. Uzunmüddətli məqsədlərlə yanaşı müəssisələr qiymət siyasətinin qısamüddətli məqsədlərini də qoya bilər. Belə məqsədlərə adətən aşağıdakıları aid edirlər:

- ✓ bazar vəziyyətinin sabitləşdirilməsi;
- ✓ qiymətlərin dəyişilməsinin tələbə təsirinin azaldılması;
- ✓ qiymətlərdəki mövcud liderliyin saxlanması;
- ✓ potensial rəqabətin saxlanması;
- ✓ məhsulun və ya müəssisənin imicinin yüksəldilməsi;
- ✓ bazarda zəif mövqe tutan malların satışının stimullaşdırılması və s.

Şəkil 13.2.2. Tələb əyrisi

Müəssisənin qiymət siyasətinin hazırlanmasında mühüm mərhələlərdən biri tələbin qanunauyğunluqlarının

tədqiq edilməsidir. Tələbin qanunauyğunluqları tələb və təklif əyrilərinin, eləcə də qiymətin elastikliyi əmsalının köməyilə təhlil edilir.

Tələb əyrisi malın qiyməti ilə ona tələb arasında tərs mütənasib asılılığın olduğunu göstərir (Şəkil 13.2.2).

Tələb nə qədər elastik olarsa, satıcı bir o qədər yüksək qiyməti müəyyən edə bilər.

Təklif əyrisi malın qiyməti ilə ona təklifin səviyyəsi arasındakı asılılığı əks etdirir (Şəkil 13.2.3).

Şəkil 13.2.3. Təklif əyrisi

Tələb və təklifin bərabər olduğu qiymət tarazlaşdırılmış (bərabər çəkili) qiymət adlanır (Şəkil 13.2.4).

Şəkil 13.2.4. Tarazlaşdırılmış qiymət

Təcrübədə müxtəlif amillərin təsiri ilə tələb və təklif arasındakı nisbətlər daim dəyişilir. Bu amillərin təsiri ilə tələb və təklifin dəyişilməsini (tərəddüdlərini) kəmiyyətcə ölçmək üçün elastiklik anlayışından istifadə olunur. Elastiklik qiymətin dəyişilməsi dərəcəsinin tələbin səviyyəsinə necə təsir etdiyini göstərir.

Qiymətin elastikliyi dərəcəsi elastiklik əmsalı ilə ölçülür:

$$K_e = \frac{Q_2 - Q_1}{Q_1 + Q_2} : \frac{P_2 - P_1}{P_1 + P_2},$$

burada Q_1 - əvvəlki qiymətlərlə satışın həcmi;

Q_2 - yeni qiymətlərlə satışın həcmi;

P_1 - məmulatın əvvəlki qiyməti;

P_2 - məmulatın yeni qiymətidir.

Müxtəlif mallara tələb həm elastik, həm də qeyri-elastik ola bilər. Elastik tələb (qiymətin əhəmiyyətsiz dərəcədə dəyişilməsi və tələbin əhəmiyyətli dərəcədə dəyişilməsi) zamanı elastik əmsalının qiyməti vahiddən böyükdür. Qeyri-elastik tələbdə (qiymətin dəyişilməsi həmin məhsula tələbdə böyük dəyişikliklər yaratmadıqda) isə elastiklik əmsalı vahiddən kiçik olur.

İstehlakçıların qiymətlərə həssaslığını müəyyən etmək üçün digər metodlardan da istifadə olunur. Bu metodlar alıcıların bu və ya başqa məhsula tələbinin formalaşmasına təsir edən psixoloji, estetik və başqa tələblərini (iddialarını) müəyyən etməyə imkan verir.

Qiymət siyasətini həyata keçirmək üçün xərclərin səviyyəsini və quruluşunu təhlil etmək, məhsul vahidi üçün orta xərcləri qiymətləndirmək, onları istehsalın planlaşdırılan həcmi və bazarda mövcud olan qiymətlərlə müqayisə etmək lazımdır. Əgər bazarda bir neçə rəqib müəssisə fəaliyyət göstərirsə, onda müəssisənin xərclərini əsas rəqiblərin xərcləri ilə müqayisə etmək lazımdır. İstehsal

xərcləri qiymətin aşağı sərhəddini müəyyən edir. Onlar qiymətin dəyişilməsi və rəqabət mübarizəsi sahəsində müəssisənin imkanlarını müəyyən edir. Qiymət istehsal xərclərini və müəssisə üçün məqbul olan mənfəət səviyyəsini əks etdirən müəyyən həddən aşağı düşməməlidir, əks təqdirdə istehsal iqtisadi cəhətdən sərfəli olmur.

Qiymətin tədiyyə qabiliyyətli tələbi müəyyən edən yuxarı həddi ilə xərclərdən təşkil olunan aşağı həddi arasındakı sahə bəzən qiymətin müəyyən edilməsi üzrə sahibkarın oyun sahəsi adlanır. Müəssisənin istehsal etdiyi bu və ya başqa mal üçün konkret qiymət adətən məhz bu intervalda müəyyən edilir.

Qiymətin müəyyən olunan səviyyəsi analoji və ya oxşar malların qiymətləri və keyfiyyəti ilə müqayisə oluna bilməlidir.

Rəqiblərin məhsullarını və onların qiymət kataloqlarını öyrənməklə, alıcıların rəyini soruşmaqla müəssisə özünün bazardakı mövqelərini obyektiv qiymətləndirməli və bunun əsasında da məhsulun qiymətini təshih etməlidir. Əgər istehsal olunan məhsulun keyfiyyət xarakteristikaları rəqiblərdəkindən üstün olarsa qiymət yüksək və əksinə, məhsulun müvafiq xarakteristikaları rəqiblərin mallarından geri qalırsa qiymət aşağı olmalıdır. Əgər müəssisənin təklif etdiyi mal əsas rəqiblərin malları ilə analojidirsə, onda onun qiyməti rəqiblərin mallarının qiymətlərinə yaxın olacaqdır.

Müəssisə qiymət strategiyasını məhsulun xüsusiyyətlərini, qiymətlərin və istehsal şərtlərinin (xərclərinin), bazardakı vəziyyətin, tələb və təklifin nisbətlərinin dəyişilməsi imkanlarını nəzərə almaqla hazırlayır.

Müəssisə bazardakı «qiymət liderinin» və ya əsas istehsalçılar kütləsinin ardınca gedərək passiv qiymət strategiyasını və ya hər şeydən əvvəl müəssisənin özünün maraqlarını nəzərə alan aktiv qiymət strategiyasını seçə

bilər. Bundan əlavə qiymət strategiyasının seçilməsi müəssisənin bazarda yeni, modifikasiya edilmiş və ənənəvi məhsulu təklif etməsindən asılıdır.

Yeni məhsulu istehsal edərkən müəssisə aşağıdakı qiymət strategiyalarından birini seçir.

«Qaymağın götürülməsi» strategiyası. Bunun mahiyyəti ondadır ki, yeni məhsulun bazarda peyda olmasından başlayaraq ona maksimal yüksək qiymət müəyyən olunur ki, bu da həmin qiymətə məhsulu almağa hazır olan istehlakçılara görə nəzərdə tutulur. Tələbin ilk dalğası aşağı düşdükdən sonra qiymət də aşağı düşür. Bu, satış zonasını genişləndirməyə, yəni yeni alıcıları cəlb etməyə imkan verir.

Belə qiymət strategiyasının bir sıra üstünlükləri vardır:

- ✓ yüksək qiymət qiymətdəki səhvi asanlıqla düzəltməyə imkan verir, çünki alıcılar qiymətin arıtırlmasına deyil, onun aşağı salınmasına daha çox meyllidirlər;
- ✓ yüksək qiymət məhsulun buraxılmasının ilk dövrlərində nisbətən yüksək xərclərin olmasına baxmayaraq kifayət qədər böyük ölçüdə mənfəət əldə etməyə imkan verir;
- ✓ yüksəldilmiş qiymət alıcılıq tələbini ləngitməyə imkan verir ki, bunun da müəyyən mənası vardır. Belə ki, daha aşağı qiymətlə müəssisə özünün istehsal imkanlarının məhdud olması ilə əlaqədar olaraq bazarın tələbatını tam ödəyə bilməzdi;
- ✓ ilkin yüksək qiymət alıcılarda keyfiyyətli məhsul imicini yaratmağa imkan verir ki, bu da gələcəkdə qiymət aşağı salınanda onun satılmasını asanlaşdıra bilər;
- ✓ yüksək qiymət nüfuzlu mal olduqda tələbi artırmağa yardım göstərir.

Qiymətin əmələ gəlməsinin belə strategiyasının əsas nöqsanı ondadır ki, yüksək qiymət rəqibləri – analoji

malların potensial istehsalçılarını cəlb edir. «Qaymağın götürülməsi» strategiyası rəqabətin müəyyən məhdudlaşdırılması zamanı daha sərfəlidir. Kifayət qədər tələbin olması da müvəffəqiyyətin şərtlərindəndir.

Bazara nüfuzetmə strategiyası. Maksimal sayda alıcıları cəlb etmək üçün müəssisə rəqiblərin bazarda analoji mallara qoyduğu qiymətdən xeyli aşağı qiymət müəyyən edir. Bu, müəssisəyə maksimal sayda alıcıları cəlb etməyə və bazarı zəbt etməyə imkan verir. Lakin belə strategiya istehsalın böyük həcmi ayrı-ayrı məmulatlar üçün itkiləri ümumi mənfəət kütləsi hesabına ödəməyə imkan verdiyi hallarda istifadə olunur. Belə strategiyanın həyata keçirilməsi çoxlu maddi xərcləri tələb edir ki, kiçik və orta firmalar bu işin öhdəsindən gələ bilməzlər, çünki onlar istehsalı cəld genişləndirmək imkanına malik deyillər. Strategiya elastik tələb zamanı, eləcə də istehsal həcminin artımı xərclərin azaldılmasını təmin etdiyi hallarda səmərə verir.

Psixoloji qiymətlər strategiyası elə bir qiymətin müəyyən edilməsinə əsaslanır ki, o, alıcıların psixologiyasını, onların qiyməti qəbuletmə xüsusiyyətlərini nəzərə alır. Adətən qiymət onun yuvarlaq məbləğindən aşağı ölçüdə müəyyən edilir. Bu halda alıcıda istehsal xərclərinin çox dəqiq hesablanması və yalanın olmaması təəvvürü yaranır və o, müəyyən uduş qazanmış olur. Digər psixoloji an ondadır ki, alıcılar pulun qalığını almağı xoşlayırlar. Həqiqətdə isə satılan məhsulun miqdarının və uyğun olaraq əldə edilən mənfəətin məbləğinin artırılması hesabına satıcı qazanır.

Sahədə və ya bazarda lideri izləmək strategiyasına görə məhsulun qiyməti əsas rəqibin (bazarda hakim mövqeyə malik müəssisə, firma) təklif etdiyi qiymətdən asılı olaraq müəyyən edilir.

Qiymətin əmələ gəlməsinin neytral strategiyasında yeni məhsulun qiyməti onun istehsalı üçün sərf olunmuş

faktiki xərclər və bazarda və ya sahədə orta mənfəət norması əsasında aşağıdakı düsturla hesablanır:

$$\Gamma = C + A + P(C + A),$$

burada C - istehsal xərcləri;

A - inzibati və satış xərcləri;

P - bazarda və ya sahədə orta mənfəət normasıdır.

Nüfuzlu qiymətin müəyyən edilməsi strategiyası unikal xassələrə malik olan, olduqca yüksək keyfiyyətli məhsullar üçün yüksək qiymətlərin müəyyən edilməsini nəzərdə tutur.

Rəhbərlik yuxarıda göstərilmiş strategiyalardan hər hansı birini aşağıdakı amillərdən asılı olaraq seçir:

- ✓ yeni məhsulun bazara yeridilməsi sürəti;
- ✓ satış bazarının müəssisənin nəzarət etdiyi hissəsi;
- ✓ satılan məhsulun xarakteri (yenilik dərəcəsi, başqa mallarla qarşılıqlı əvəz olunma və s.);
- ✓ kapital qoyuluşlarının ödənilməsi müddəti;
- ✓ bazarın konkret şərtləri (inhisarlaşma dərəcəsi, tələbin qiymət elastikliyi, istehlakçılar dairəsi);
- ✓ sahədə müəssisənin vəziyyəti (maliyyə vəziyyəti, başqa istehsalçılarla əlaqələri və s.).

Nisbətən uzun müddət bazarda reallaşdırılan məhsullar üçün qiymət strategiyaları da qiymətin müxtəlif növlərinə səmtlənə bilər. Burada sürüşkən qiymət, uzunmüddətli qiymət, bazarın istehlak seqmenti qiymətləri, çevik qiymət, üstün qiymət, istehsaldan çıxarılmış məhsullar üçün qiymət, xarici dövriyyəyə xidmət edən qiymətlər strategiyalarından istifadə oluna bilər.

Sürüşkən qiymət strategiyasına görə qiymət tələb və təklifin nisbətlərindən asılı olaraq müəyyən edilir və bazar məhsullarla dolduqca qiymət tədricən aşağı düşür (əsasən topdansatış qiyməti, pərakəndə satış qiyməti isə nisbətən sabitdir). Kütləvi tələb olunan məhsullar üzrə qiymətlər əsasən bu qayda ilə müəyyən edilir. Bu zaman qiymətlər və məhsul buraxılışı sıx qarşılıqlı əlaqədədir: istehsalın həcmi

böyük olduqca müəssisənin istehsal xərclərini, son nəticədə isə qiyməti aşağı salmaq imkanları da çoxalır. Qiymətin bu strategiyasında aşağıdakılar zəruridir:

- ✓ bazarda rəqiblərin yaranmasına mane olmaq;
- ✓ məhsulun keyfiyyətini həmişə yaxşılaşdırmaq;
- ✓ istehsal xərclərini aşağı salmaq.

Uzunmüddətli qiymət kütləvi tələb məhsulları üçün müəyyən edilir. O, əsasən uzun müddət fəaliyyət göstərir və dəyişikliklərə az məruz qalır.

Bazarın istehlak seqmenti qiymətləri əhalinin müxtəlif gəlir səviyyəli müxtəlif sosial qruplarına satılan məhsulların və xidmətlərin növləri üçün müəyyən edilir (məsələn, minik maşınlarının müxtəlif modifikasiyası, aviabiletlər və s. üçün).

Çevik qiymət strategiyası bazarda tələb və təklifin nisbətlərinin dəyişilməsinə cəld cavab verən qiymətlərə əsaslanır.

Üstün qiymət strategiyası hakim mövqeyə malik (bazarın 70-80 %-i) müəssisələrdə məhsulların qiymətinin müəyyən qədər aşağı salınmasını, istehsalın həcminin artırılması və məhsulun satışı xərclərinə qənaət hesabına istehsal xərclərinin aşağı salınmasını nəzərdə tutur.

İstehsaldan çıxarılmış məhsul üçün qiymət strategiyası həmin məhsulların aşağı qiymətlərlə satılmasını deyil, məhz həmin mallara ehtiyacı olan istehlakçılar dairəsinə əsaslanmağı nəzərdə tutur. Bu halda qiymətlər adi mallarda olduğundan yüksək olur (məsələn, ən müxtəlif markalı və modelli (o cümlədən istehsaldan çıxarılmış) minik və yük avtomobilləri üçün ehtiyat hissələrinin istehsalı).

Xarici dövriyyəyə xidmət edən qiymətlərin müəyyən edilməsi bir sıra xüsusiyyətlərə malikdir. Xarici ticarət qiymətləri bir qayda olaraq dünyanın əsas məhsul bazarlarının qiymətləri əsasında müəyyən edilir. İxrac üçün nəzərdə tutulan məhsulların qiymətlərinə müəyyən əlavələr

nəzərdə tutulur. Bir sıra defisit mallar ixrac edilərkən onların qiymətinə gömrük rüsumu əlavə edilir. İdxal olunan istehlak malları üçün əksər hallarda tələb və təklifin nisbətindən asılı olaraq sərbəst pərakəndə satış qiymətləri müəyyən edilir.

Məhsula tələbin formalaşmasının qanuna-uyğunluqları, sahədə ümumi vəziyyət, rəqiblərin qiymətləri və xərcləri haqqında təsəvvürə malik olduqdan və özünün qiymət siyasətini müəyyən etdikdən sonra müəssisə istehsal etdiyi məhsul üçün qiymətin əmələ gəlməsinin konkret metodunun seçilməsinə keçə bilər.

Şübhəsiz ki, düzgün müəyyən edilmiş qiymət məhsulun bütün istehsal, bölgü və satış xərclərini ödəməli, eləcə də müəyyən mənfəət normasının alınmasını təmin etməlidir. Ümumi halda qiymətqoymanın əsasən üç metodundan istifadə olunur:

1. Qiymətin xərclərə əsaslanan minimal səviyyəsinin müəyyən edilməsi.
2. Qiymətin tələbə (bazara) əsaslanan maksimal səviyyəsinin müəyyən edilməsi.
3. Qiymətin optimal səviyyəsinin müəyyən edilməsi.

Qiymətin əmələ gəlməsi prosesində ən çox istifadə olunan metodları da qeyd etmək lazımdır. Bu metodlara daxildir: orta xərclər üstəgəl mənfəət; zərərsizliyin və məqsədli mənfəətin təmin edilməsi; məhsulun hiss edilən dəyərliliyinin nəzərə alınması əsasında qiymətin müəyyən edilməsi; cari qiymətlər əsasında qiymətin müəyyən edilməsi; «bağlı zərf» metodu; qapalı sövdələşmələr əsasında qiymətin müəyyən edilməsi. Həmin metodlardan hər biri müəyyən xüsusiyyətlərə, üstünlüklərə və məhdudluqlara malikdir ki, bunları da qiymətin müəyyən edilməsi zamanı mütləq nəzərə almaq lazımdır.

Ən sadə metodika «orta xərclər üstəgəl mənfəət» metodikasıdır. Bu metodika məhsulun maya dəyərinə əlavələrin hesablanmasından ibarətdir. Əlavələrin ölçüsü

məhsulun hər bir növü üçün standart ola bilər və ya məhsulun növündən, məhsul vahidinin dəyərindən, satışın həcmindən və s. asılı olaraq diferensiallaşdırıla bilər.

Əlavələrin faizi maya dəyərindən və ya satış qiymətindən asılı olaraq hesablanır:

$$M_ə = Ə_m / M_d,$$

$$D_ə = Ə_m / Г,$$

burada $M_ə$ - maya dəyərinə əlavənin faizi;

M_d - maya dəyəri;

$D_ə$ - dəyər ifadəsində satışa əlavənin faizi;

$Ə_m$ - pul ifadəsində əlavənin məbləği;

$Г$ - satış qiymətidir.

İstehsalçı müəssisə bu düsturlardan hansını seçmək lazım olduğunu özü müəyyən edir. Bu metodun nöqsanı ondadır ki, standart əlavələrdən istifadə hər bir konkret halda alıcılıq tələbini və rəqabətin xüsusiyyətlərini nəzərə almağa, deməli, optimal qiyməti təyin etməyə imkan vermir.

Buna baxmayaraq qiymətin əlavələr əsasında təyin edilməsi bir sıra səbəblərdən populyar olaraq qalır. Birincisi, satıcılar tələbə nisbətən xərclər haqqında daha çox bilirlər. Qiyməti xərclərlə əlaqələndirməklə satıcı qiymətqoyma problemini özləri üçün sadələşdirir. Tələbdəki dəyişikliklərdən asılı olaraq o, qiymətdə tez-tez təshihlər aparmalı olmur. İkincisi, qəbul olunmuşdur ki, bu, həm alıcılara, həm də satıcılara nəzərən ən ədalətli metoddur. Üçüncüsü, bu metod qiymət rəqabətini azaldır. Sahənin bütün müəssisələri eyni prinsip («orta xərclər üstəgəl mənfəət») əsasında qiyməti hesablayırlar, ona görə də onların qiymətləri bir-birinə çox yaxındır.

Xərclərə əsaslanmış qiymətqoymanın digər metodu məqsədli mənfəətin əldə edilməsinə (zərərsizlik metodu)

yönəlmişdir. Bu metod müxtəlif qiymətlərdən istifadə zamanı əldə edilən mənfəətin ölçülərini müqayisə etmək imkanı yaradır. Eyni zamanda özü üçün mənfəət normasını müəyyənləşdirmiş müəssisəyə məhsulunu elə qiymətə satmağa imkan verir ki, bu da müəyyən buraxılış proqramı ilə həmin mənfəət normasının əldə edilməsini maksimal dərəcədə təmin edir.

Bu halda müəssisə nəzərdə tutulmuş mənfəətə görə qiyməti dərhal müəyyən edir. Lakin istehsal xərclərini ödəmək üçün həmin qiymətlə və ya daha yüksək qiymətlə məhsulun müəyyən həcmini mütləq satmaq lazımdır. Burada tələbin qiymət elastikliyi mühüm əhəmiyyət kəsb edir.

Qiymətqoymanın belə metodundan istifadə zamanı müəssisədən tələb olunur ki, müxtəlif qiymət variantlarına baxsın, zərərsizlik səviyyəsini aşmaq və məqsədli mənfəəti əldə etmək üçün lazım olan satış həcminə həmin variantların təsirini müəyyən etsin, eləcə də məhsulun hər bir mümkün qiyməti ilə bu məqsədin əldə edilməsi ehtimalını təhlil etsin.

Məhsulun hiss edilən dəyərliliyi əsasında qiymətiin müəyyən edilməsi metodunda xərc oriyentirləri arxa plana keçir, əsas diqqət məhsulun alıcılar tərəfindən necə qəbul olunmasına yönəldilir. İstehlakçıların şüurunda məhsulun dəyərliliyi haqqında təsəvvür yaratmaq üçün satıcılar təsirin qeyri-qiymət vasitələrindən istifadə edirlər. Məsələn, servis xidmətinin göstərilməsi, alıcılara xüsusi təminatların verilməsi, alıcı bu məhsulu satarsa ona mal nişanından istifadə imkanının verilməsi və s.

Cari qiymətlərin səviyyəsinə görə qiyməti müəyyən edərkən müəssisə rəqiblərin qiymətlərindən aralanmağa çalışır və özünün xərclərinə və ya tələbə daha az diqqət verir. Müəssisə əsas rəqiblərinin qiymətlərindən aşağı və ya yuxarı səviyyəni müəyyən edə bilər. Bu metoddan ilk növbədə əsasən həmcins məhsulların satışı bazarında

qiymət siyasətinin bir vasitəsi kimi istifadə olunur. Yüksək rəqabət dərəcəsinə malik bazarda həmcins məhsulu satan müəssisənin qiymətə təsir etmək imkanları çox məhduddur. Ona görə də müəssisələr eyni məhsulu eyni (vahid) qiymətə satmalı olur, məhsuluna tələbdən və xərclərdən asılı olmayaraq bazardakı liderlə ayaqlaşmağa çalışırlar.

«Bağlı zərf» metodu ilə qiymətqoyma müəyyən bir müqavilə (kontrakt) uğrunda mübarizədə bir neçə müəssisə rəqabət apardıqda tətbiq edilir. Bu hal ən çox hökumətin elan etdiyi tenderlərdə iştirak zamanı baş verir. Burada əsas məqsəd tenderdə qalib gəlməkdir. Bunun üçün müəssisə rəqiblərin qiymət siyasəti və istehsal xərcləri haqqında kifayət qədər informasiyaya malik olmalıdır. Çünki o, rəqibinin təklif etdiyi qiymətdən daha aşağı qiyməti təklif etməlidir ki, tenderi uda bilsin. Bəzən müəssisələr istehsalı tam yükləmək xatirinə maya dəyərindən aşağı qiyməti də təklif etməli olurlar. Lakin burada sövdələşmələr qapalı getdiyindən müəyyən olunan qiymət maya dəyərindən aşağı ola bilməz.

Göstərdiyimiz metodikalardan ən münasibini seçərək müəssisə yekun qiymətin hesablanmasına başlayır. Bu zaman müəssisənin məhsuluna qiymətin alıcı tərəfindən psixoloji dərk etmə də nəzərə alınmalıdır. Təcrübə göstərir ki, bir çox istehlakçılar üçün məhsulun keyfiyyətinə dair yeganə informasiya onun qiymətilə ifadə olunur, yəni faktiki olaraq qiymət keyfiyyət göstəricisi kimi çıxış edir. Qiymət yüksəkdirsə, deməli məhsul keyfiyyətlidir.

Müəssisə adətən yeganə bir qiymət deyil, müxtəlif bazar şərtlərindən asılı olaraq qiymətin modifikasiyaları sistemini müəyyən edir. Belə qiymət sistemi məhsulun keyfiyyət xarakteristikalarının xüsusiyyətlərini, məhsulun modifikasiyalarını və çeşiddəki fərqləri, eləcə də satışın xarici amillərini (xərclərdə və tələbdə olan coğrafi fərqlər, mövsümilik və s.) nəzərə alır. Qiymətin modifikasiyasının müxtəlif növlərindən istifadə olunur: güzəştlər və əlavələr

sistemi, qiymət diskriminasiyası, məhsulun təklif olunan çeşidi üzrə qiymətlərin pilləli aşağı salınması və s.

Güzəştlər sistemi vasitəsilə qiymətin modifikasiyası alıcıları həvəsləndirmək üçün istifadə olunur. Məsələn, məhsulun daha iri partiyasının alınması, satışın aşağı düşdüyü dövrdə müqavilənin bağlanması və s. Bu halda güzəştlərin müxtəlif sistemlərindən istifadə olunur: skonto, topdansatış, funksional, mövsümi və s.

Skonto – məhsulun nağd pulla alınması, avans və ya əvvəlcədən ödənilmənin həvəsləndirilməsi üçün qiymətdəki güzəştdir və ya onun aşağı salınmasıdır.

Funksional və ya ticarət güzəştləri istehsalçı müəssisənin satış şəbəkəsinə daxil olan, mal axınlarının saxlanmasını və uçotunu, eləcə də məhsulun satışını təmin edən müəssisələr və ya agentlər üçün verilir. Adətən müəssisənin daimi əlaqədə olduğu müəssisələr və ya agentlər üçün bərabər güzəştlərdən istifadə olunur.

Mövsümi güzəştlər mövsümdənkənar dövrlərdə (məhsula əsas tələb azaldıqda) məhsul satışını həvəsləndirmək üçün tətbiq edilir. İstehsalı sabit səviyyədə saxlamaq üçün istehsal müəssisəsi mövsümdən sonrakı və ya mövsümqabağı güzəştləri edə bilər.

Qiymət diskriminasiyasının mahiyyəti ondadır ki, istehsalçı (satıcı) eyni bir məhsulu müxtəlif qiymətlərlə satır. Qiymət diskriminasiyası müxtəlif formalarda təzahür edə bilər:

- ✓ alıcıların kateqoriyalarına görə. Məsələn, muzeyə giriş qiyməti uşaqlar və böyüklər üçün müxtəlif olur və s.
- ✓ məhsulun (malın) yerinə görə. Məsələn, eyni bir mal şəhərin mərkəzində bir qiymətə, şəhərin kənarlarında isə başqa qiymətə satıla bilər;
- ✓ vaxt amilinə görə. Məsələn, mövsümdən, həftənin günündən, sutkanın saatından asılı olaraq eyni bir məhsulun qiyməti dəyişilə bilər.

Deməli, qiymət diskriminasiyası istehlak seqmentindən, məhsulun və onun tətbiq formasından, müəssisənin imicindən, satışın vaxtından və s. asılı olaraq baş verə bilər.

Məhsulun təklif olunan çeşidinə görə qiymətlərin pilləli aşağı salınmasından müəssisə ayrı-ayrı məhsulları deyil, bütöv seriyaları və ya xətləri istehsal etdikdə istifadə olunur. Müəssisə məhsulun hər bir modifikasiyası üzrə hansı qiymət pilləsinin tətbiq olunması zərurətini müəyyən edir. Bu halda xərclərdə olan fərqlərlə yanaşı rəqiblərin həmin məhsula qiymətləri, alıcılıq qabiliyyəti və tələbin elastikliyi nəzərə alınmalıdır.

Qiymətin modifikasiyası yalnız müəyyən olunmuş qiymətin yuxarı və aşağı sərhədləri daxilində mümkündür.

13.3. Müxtəlif bazar modellərində qiymətin əmələ gəlməsi xüsusiyyətləri

Müəssisənin qiymət siyasəti, onun bazardakı qiymət davranışının səmərəliliyi bazarın rəqabət strukturundan çox asılıdır. Adətən bazarın dörd tipini fərqləndirirlər: azad rəqabət, inhisar rəqabəti, oliqapoliya və xalis inhisar. Bunlardan hər biri sahə qiymətlərinin və ayrıca bir müəssisənin məhsuluna qiymətin formalaşmasının xüsusi şərtləri ilə səciyyələnir.

Qeyd etmək lazımdır ki, azad rəqabət bazarı aşağıdakılarla səciyyələnir:

- ✓ çox sayda müəssisələrin olması. Məhsulun bazar təklifinin həcmində hər bir müəssisənin payı o qədər azdır ki, qiymətin artırılması və ya azaldılması haqqında hər hansı bir qərar bazar tarazlığı qiymətində hiss olunmur;
- ✓ rəqiblərin istehsal etdikləri məhsulların həmcins və qarşılıqlı əvəz olunan olması;

✓ qiymət məhdudiyyətinin olmaması.

Azad rəqabət şəraitində heç bir müəssisə qiymətin əmələ gəlməsinə ciddi təsir göstərə bilmir; məhsulun qiyməti müstəsna olaraq məcmu tələbin və təklifin təsiri ilə əmələ gəlir. Ayrıca bir müəssisənin qiymət siyasəti, daha doğrusu, qiyməti tənzimləmək qabiliyyəti olmur. O, yalnız bazar qiymətinə uyğunlaşa bilər. Rəqib satıcı qiymətlə razılaşır, onu diqtə etmir. İstehsalın həcmi genişləndikdə də adətən qiymət dəyişilmir.

Bununla bərabər təcrübədə qiymətlərin təsadüfən «aşağı» salınması yolu ilə bazarın konyukturasına təsir etmə halları müşahidə olunur. Əvvəlcə qiymətin maksimal yüksək səviyyəsi müəyyən olunur, sonra isə tədricən o, bazar qiymətləri səviyyəsinə endirilir. Çünki heç olmazsa qısa bir müddət ərzində yüksək qiymətlə müəyyən qədər məhsulu sata bilərsə, müəssisə gəlirini arıtra bilər. Yüksək qiymət alıcılarda elə təsəvvür yaratmalıdır ki, müəssisə məhsulun keyfiyyətini yaxşılaşdırmaq üçün əlavə xərclər çəkmişdir. Adətən bu təsəvvür çox tez keçib gedir, çünki alıcı əldə etdiyi məhsulun həqiqi keyfiyyətinin müəyyən olunmuş qiymət səviyyəsinə uyğun gəlmədiyinə əmin olur.

İnhisar rəqabəti bazarı vahid bazar qiyməti ilə deyil, geniş qiymət diapazonundan istifadə etməklə sövdələşmələri həyata keçirən çox sayda alıcılardan və satıcılardan ibarətdir. Qiymət diapazonunun olması satıcıların alıcılara məhsulların müxtəlif variantlarını təklif etmək qabiliyyəti ilə izah edilir. Real məmulatlar bir-birindən keyfiyyəti, xassələri, xarici təsviri ilə fərqlənə bilər. Fərqlər həmcins məhsullarla əlaqədar göstərilən xidmətlərdə də ola bilər. Bəzən istehsalçı müəssisələr istehlak bazarının müxtəlif seqmentləri üçün müxtəlif təkliflər hazırlayır, eləcə də müxtəlif şəxsi satış metodlarından, reklamdan və s. istifadə edir. Alıcılar təkliflərdəki fərqləri görərək qiyməti ödəməyə hazırdırlar.

Rəqiblərin sayının çox olması onlardan hər birinin qiymətə nəzarətini məhdudlaşdırır. İstehsal ounan malların diferensiasiyası müəssisələrin qiymət siyasətləri arasında sıx qarşılıqlı asılılığın olmaması ilə izah olunur və vahid qiymət səviyyəsi üzrə razılaşma imkanını məhdudlaşdırır.

İnhisar rəqabəti şəraitində müəssisələr istehsal etdikləri məhsullara qiymətləri istehlak tələbinin strukturunu, rəqiblərin müəyyən etdikləri qiymətləri, eləcə də özlərinin istehsal xərclərini nəzərə almaqla müəyyən edirlər.

Oliqapoliya şəraitində qiymətin əmələ gəlməsi müəyyən xüsusiyyətlərə malikdir. Oliqapoliya müxtəlif bazar situasiyalarını əhatə edir. Bu halda satıcıların sayı nisbətən az olur, istehsalçılar bir-birindən qarşılıqlı surətdə asılı olur, eyni zamanda ayrıca bir müəssisə qiymətin və ya istehsalın həcminin dəyişdirilməsinə rəqiblərin cavab reaksiyasını yəqinliklə irəlicədən görmək imkanına malik olmur.

Oliqapoliya şəraitində qiymətin əmələ gəlməsinin aşağıdakı ümumi cəhətlərini göstərmək olar:

✓ oliqapoliya qiymətləri mükəmməl rəqabət inhisar rəqabəti və bəzi hallarda isə hətta xalis rəqabət şəraitindəki qiymətlərə nisbətən az dəyişilir;
✓ oliqapoliya şəraitində qiymətlər «ciddi» və qeyri-çevik olur;
✓ bir istehsalçı qiyməti dəyişdirərsə, digər istehsalçıların da qiyməti dəyişdirmək ehtimalı yüksək olur;
✓ müəssisənin oliqapoliya qiyməti davranışı qiymətlərin qoyulması və ya dəyişdirilməsi zamanı stimulların və razılaşdırılmış hərəkətlərin olmasını nəzərdə tutur.

Xalis inhisar zamanı bazarda bir satıcı mövcud olur. Bu halda inhisarçı kimi dövlət təşkilatı, xüsusi tənzimlənən inhisar və ya xüsusi tənzimlənməyən inhisar götürülə bilər. Bunlardan hər birində qiymətqoyma müxtəlif aparılır.

Dövlət inhisarı qiymət siyasətinin köməyilə müxtəlif məqsədlərin əldə edilməsini nəzərdə tuta bilər. Əgər məhsul alıcılar üçün mühüm əhəmiyyət kəsb edirsə və onlar həmin məhsulu tam qiymətə ala bilmirlərsə, onda dövlət qiyməti maya dəyərindən aşağı müəyyən edə bilər. Qiymət xərclərin ödənilməsinə və ya orta gəlirin alınmasına yönəldilə bilər. Nəhayət, bu və ya başqa məhsulun istehlakını ixtisar etmək üçün çox yüksək qiymət müəyyən oluna bilər (məsələn, alkoqollu içkilər, tütün məmulatı və s.).

Tənzimlənən inhisar zamanı dövlət müəssisələrə icazə verir ki, «ədalətli mənfəət normasını» təmin edən qiymətləri və tarifləri müəyyən etsin. Bu, istehsalın əldə olunmuş səviyyəsini saxlamağa, zəruri hallarda isə hətta istehsalı genişləndirməyə imkan verir.

Tənzimlənməyən inhisar qiymət üzərində müəyyən nəzarəti həyata keçirir və bazarda qiyməti diqtə edə bilər. Lakin inhisarçı müəssisə heç də həmişə maksimal qiyməti müəyyən etmir. Bu bir sıra amillərlə izah olunur: dövlət tənzimlənməsinin tətbiqi qorxusu; rəqibləri cəlb etmək istəməməsi; qiymətləri aşağı salmaq hesabına satışın mümkün həcmini genişləndirmək cəhdi.

Real iqtisadi vəziyyətdə göstərilən bazar tiplərindən hər hansı birini təmiz şəkildə müəyyən etmək olduqca mürəkkəbdir. Müəssisə bir məhsul ilə xalis inhisar bazarında, digər məhsul ilə rəqabət bazarında çıxış edə bilər. Oliqapoliyada vəziyyət bir qədər mürəkkəbdir, çünki onun dərinliklərində həm inhisar, həm də azad rəqabət meydana gələ bilər. Bilmək lazımdır ki, bazarın rəqabət strukturunun təhlili özlüyündə qiymətlərin müəyyən edilməsi üçün hazır reseptləri verə bilməz. O, hər şeydən əvvəl tələb və təklifdən asılı olaraq qiymətqoymanın qanunauyğunluqlarını müəyyən etmək üçün lazımdır.

FƏSİL 14. MÜƏSSİSƏDƏ TƏCHİZAT VƏ LOGİSTİKA

14.1. Müəssisədə maddi-texniki təminatın təşkili və idarə edilməsi

Maddi-texniki təminat istehsal prosesinin maddi-texniki resurslarla təminatı üzrə kommersiya fəaliyyətinin bir növüdür və o, bir qayda olaraq, istehsaldan əvvəl həyata keçirilir. Maddi-texniki təminatın əsas məqsədi material resurslarının müqaviləyə uyğun olaraq konkret istehsal müəssisəsinədək çatdırılmasıdır.

Maddi-texniki təminatın əsas və köməkçi funksiyaları vardır və bunlar da öz növbəsində kommersiya və texnoloji funksiyalara bölünür.

Kommersiya xarakterli əsas funksiyalara sənaye müəssisələri tərəfindən material resurslarının bilavasitə alınması və icarəsi daxildir ki, bu da dəyərin formasının dəyişilməsi ilə müşayiət olunur.

Kommersiya xarakterli köməkçi funksiyalara marketinq və hüquq funksiyaları daxildir. Marketinq funksiyaları material resurslarının konkret satıcılarının (mal göndərənlərin) müəyyən edilməsi və seçilməsi məsələlərini əhatə edir. Bəzi hallarda malgöndərənlər kimi vasitəçi strukturlar çıxış edir. Hüquqi funksiyalar isə mülkiyyət hüquqlarının hüquqi təminatı və müdafiəsi, işgüzar danışıqların hazırlanması və aparılması, əqdlərin hüquqi cəhətdən rəsmiləşdirilməsi və onların icrasına nəzarət ilə əlaqədardır.

Texnoloji xarakterli funksiyalar material resurslarının daşınması və saxlanması məsələlərini əhatə edir.

Sənaye müəssisələrində istehlak olunan material resurslarını əsas və köməkçi materiallara bölmək olar. Əsas

materiallara ilkin emaldan keçmiş xam materiallar daxildir. Müəyyən dərəcədə emal keçmiş ilkin materiallar, son məhsulun xeyli hissəsini təşkil edən və əvvəlcədən quraşdırılmış detallar yarımfabrikatlar kateqoriyasına aid edilir. Onların alınması xammal və materialların satın alınmasından fərqlənmir.

Köməkçi materiallar son məhsulun tərkibində adətən az hissə təşkil edir. Buraya hər cür metal məmulatlar, məftil, quraşdırıcı boltlar və s. daxildir.

İstehsal materialları qrupu da mövcuddur və onlar maşın və avadanlığın istismara verilməsini təmin edir. Bu qrupa yanacaq-sürtgü materialları, soyuducu maye, elektrik enerjisi və s. daxildir.

Komplektləşdirici məmulatlar isə əlavə emal tələb etməyən məhsulları əhatə edir.

Xammal, yarımfabrikatlar, köməkçi materiallar ümumi anlayış olan xammal və materiallar kateqoriyasına aid edilir.

Müxtəlif növ materiallar şəkil 14.1.1.-də göstərilir.

Şəkil 14.1.1. Materialların təsnifatı

Buradan da maddi-texniki təminatın aşağıdakı iki vəzifəsi irəli gəlir:

- hər bir iş yerinə materialların gətirilməsinin təmin edilməsi;
- müəssisədə ehtiyatların optimal səviyyəsinin saxlanması.

Bu vəzifələrin yerinə yetirilməsi müəssisənin səmərəli maddi-texniki təchizatı üçün logistik yanaşmanın tətbiqini tələb edir. Logistika material resurslarının vaxta və məkana görə yerdəyişməsi üzrə fəaliyyətinin bütün növlərini əhatə edir. Logistikanın funksiyaları istehsalın və material resurslarının hərəkətinin bütün mərhələlərində həyata keçirilir. Ona görə də istehsal, təchizat və satış logistikasını fərqləndirirlər. Təchizat və satışın logistikası materialların istehsal daxili yerdəyişməsi məsələlərini deyil, xeyli dərəcədə material resurslarının müəssisədən kənar hərəkətini əhatə edir. Ona görə də logistikanın funksiyaları material axınlarının hərəkətinin təmin edilməsi üzrə digər funksiyalarla sıx əlaqədardır. Logistika kompleks funksiyanı yerinə yetirir və müəssisənin fəaliyyətinin bütün mərhələlərində material resurslarının vaxta və məkana görə fiziki yerdəyişməsi problemlərini əhatə edən müstəqil sahədir.

Logistikanın başlıca məqsədi tələbin ödənilməsi, yüklərin vaxtında və minimal xərclərlə daşınmasının təmin edilməsi üçün material ehtiyatlarının və informasiya axınlarının səmərəli idarə edilməsidir. O, logistik sistemin strukturunu və əsas funksiyalarını müəyyən edir. Predmetinə və funksiyalarına görə logistikanın növləri və funksiyaları şəkil 14.1.2.-də göstərilir.

Logistikanın materiallar və satış logistikasına bölünməsi müəssisənin təşkilati strukturunda öz əksini tapır. Materiallar logistikası ilə maddi-texniki təchizat bölmələri, satış logistikası ilə isə satış şöbəsi məşğul olur. Təchizatın əsas təyinatı istehsal üçün ilkin materiallarla müəssisəni təmin etmək olduğundan o, təchizat logistikasının vəzifələrini müəyyən edir. İstehsal logistikasının vəzifələrinin müəyyən edilməsi zamanı da bu yanaşma doğrudur. Təchizatın, maddi-texniki təminatın və istehsal logistikasının vəzifələri arasındakı sərhədlər 14.1.3.-cü şəkildə verilmişdir.

Loqistikanın predmeti \ Loqistika nın funksiyaları			Məkan funksiyası (məkanda yerdəyişmə)	Zaman funksiyası (vaxta görə hərəkət)	Yenidən bölüşdürmə
Heyətin loqistikası			Əməkdaşların yerdəyişməsi	Gözləmənin təşkili	Köçürmələr
Materialların loqistikası	Malların loqistikası	Material loqistikası hazır məhsul loqistikası (hazır məhsulun satışı)	Malların nəql edilməsi	Saxlanma	Çeşidlənmə ,yüklənmə
	Enerji axınlarının loqistikası		Enerjinin ötürülməsi	Enerjinin saxlanması	Enerjinin çevrilməsi
	İnformasiya axınlarının loqistikası		İnformasiyanın ötürülməsi	İnformasiyanın saxlanması	Məlumatların yenidən təşkili (məsələn, yenidən kodlaşdırılma)

Şəkil 14.1.2. Logistikanın predmet və funksiyalar üzrə bölgüsü

Maddi-texniki təminat və təchizat anlayışları da fərqləndirilməlidir. Hər iki anlayış üçün ümumi olanı materialların alınmasının təmin edilməsidir, çünki bu, həm təchizat fəaliyyəti, həm də maddi-texniki təminat baxımından əsas vəzifə hesab olunur. Ona görə də bəzən təcrübədə və ədəbiyyatda bu anlayışlar eyniləşdirilir. Lakin maddi-texniki

təchizat hər şeydən əvvəl real istehsal amillərinin hərəkətinin təmin edilməsi funksiyasıdır. Maddi-texniki təminat isə müəssisədə material aktivlərinə aid olan bütün məsələləri əks etdirir. Maddi-texniki təminat materialların daşınması və saxlanması məsələləri ilə yanaşı istehsal tullantılarının emalının və tullantıların daşınmasının təşkilini də əhatə edir (şəkil 14.1.3.).

Şəkil 14.1.3. Təchizatın, maddi-texniki təminatın və logistikanın sərhədləri

Material resurslarının təminatı sistemindən və onların malgöndərənlərdən istehlakçılaradək hərəkətinin xüsusiyyətlərindən asılı olaraq maddi-texniki təminatın tranzit və anbar formalarını fərqləndirirlər.

Tranzit forması mal göndərişlərinin ümumi həcmində əhəmiyyətli yer tutur. Mal göndərilməsinin tranzit formasının seçilməsi hər şeydən əvvəl istehlak olunan resursların həcmindən və onun üçün müəyyən olunmuş tranzit və ya sifariş normasından asılı olaraq müəyyən edilir. Tranzit norması bir sifariş üzrə istehsalçının istehlakçıya yükləyib göndərdiyi materialların minimal mümkün ümumi miqdarı kimi təyin edilir. Sifariş norması isə bir istehsalçının ünvanına bir neçə həmcins (tip ölçülü) material növlərinin eyni vaxtda qəbul etdiyi sifarişin bir mövqeyi üzrə materialların ən az miqdarı kimi hesablanır.

Müəssisəyə material resursları təchizatın anbar forması zamanı da daxil olur. Bu forma tələb olunan material partiyalarının (dəstələrinin) gətirilməsinin böyük tezliyi ilə fərqlənir. Anbar forması istehsal ehtiyatlarının nisbətən ixtisar edilməsinə imkan verir və mal göndərilməsinin komplektliyini təmin edir. Lakin mal göndərilməsinin bu forması materialların yüklənməsi, boşaldılması və saxlanması ilə əlaqədar olan əlavə xərclər tələb edir.

Beləliklə, material resursları ilə müəssisənin maddi-texniki təminatı aşağıdakı funksiyaların yerinə yetirilməsini əhatə edir:

- materialların tədarük edilməsi və daşınması;
- materialların anbarlaşdırılması və mühafizəsinin təmin edilməsi;
- materialların emalı və onların istehsal istehlakı üçün hazırlanması;
- maddi-texniki təminatın idarə edilməsi.

Müəssisədə maddi-texniki təminatın idarə edilməsinin təşkilinin üç forması mövcuddur: mərkəzləşdirilmiş, qeyri-mərkəzləşdirilmiş və qarışıq. İdarəetmənin mərkəzləşdirilmiş sistemi bütün funksiyaların vahid MTT xidmətində cəmlənməsini nəzərdə tutur. Bu, aşağıdakı amillərlə əlaqədardır: müəssisənin ərazicə tamlığı; müəssisənin istehsal vəhdəti; istehlak olunan materialların nomenklaturasının nisbətən məhdud olması.

İdarəetmənin qeyri-mərkəzləşdirilmiş sistemi funksiyaların paylaşdırılmasını nəzərdə tutur. Bu, müəssisələrin ərazicə dağınıqlığı, bölmələrin istehsal müstəqilliyi və materialların nisbətən geniş nomenklaturası ilə əlaqədardır.

Maddi-texniki təminatın qarışıq sistemi əvvəlki iki strukturu birləşdirir.

Sənaye müəssisələrində MTT xidmətinin təşkilati qurulmasının müxtəlif sistemləri mövcuddur. Bu strukturlar aşağıdakı kimi sistemləşdirilə bilər: funksional, əmtəə prinsipi üzrə və kombinələşdirilmiş.

MTT-nin idarə edilməsinin funksional strukturu ayrı-ayrı bölmələrin konkret funksiyaların yerinə yetirilməsi üzrə ixtisaslaşdırılmasını nəzərdə tutur. Belə struktur əsasən fərdi və xırda seriyalı istehsal tipinə malik, nisbətən məhdud nomenklaturalı, istehlak olunan materialların və buraxılan məhsulun həcmi kiçik olan müəssisələr üçün xarakterikdir.

Əmtəə prinsipi üzrə idarəetmə strukturundan istifadə zamanı MTT xidmətinin ayrı-ayrı bölmələri material resurslarının müəyyən növləri ilə müəssisənin təmin edilməsi üzrə bütün işlər kompleksinin yerinə yetirilməsi üçün ixtisaslaşır. MTT-nin ayrı-ayrı bölmələrinin əmtəə ixtisaslaşması material resurslarının müəyyən növləri ilə müəssisənin təmin edilməsi üzrə bütün funksiyalar kompleksinin yerinə yetirilməsini nəzərdə tutur. Əmtəə ixtisaslaşması iri seriyalı və kütləvi istehsal tipli, nisbətən

geniş nomenklaturalı və çox böyük həcmdə materialları istehlak edən və məhsul buraxan müəssisələr üçün xarakterikdir.

Nəhayət MTT-nin idarə edilməsinin kombinələşdirilmiş strukturu müəssisədə müəyyən bölmələrin olmasını nəzərdə tutur. Bu bölmələrdə funksiyaların bütün spektrini material resursları üzrə mütəxəssislər qrupu həyata keçirir. Eyni zamanda burada xarici resurs təminatı funksiyaları da yerinə yetirilir.

Baş mexanik şöbəsi, baş energetik şöbəsi və s. kimi digər struktur bölmələri onlara təhkim olunmuş materialların istehsaldaxili yerdəyişməsi üzrə bütün funksiyaları yerinə yetirirlər.

14.2. Maddi-texniki təminatın planlaşdırılması

Müəssisədə maddi-texniki təminatın planlaşdırılması material resurslarının alınmasına dair qərarın qəbul edilməsi üçün əsasdır. Müəssisələrdə material resurslarının alınmasının təşkili zamanı plan dövründə xüsusiləşmiş nomenklatura üzrə material resurslarına tələbatı müəyyən etmək lazımdır.

Planlaşdırma prosesi aşağıdakı mərhələləri əhatə edir: xammal və material bazarının tədqiq edilməsi; istehlak olunan materialların bütün nomenklaturası üzrə müəssisənin tələbatının təyin edilməsi: materialların alınması planının tərtib edilməsi və tədarük formasının dəyər təhlili.

Xammal və material bazarının öyrənilməsi konkret material növlərinin təklifinə, xammalın, materialın, yanacağın və yarımfabrikatların çeşidinə və onların qiymətinə dair informasiyanın müntəzəm yığılmasını, işlənməsini, təhlilini və qiymətləndirilməsini nəzərdə tutur. Bu bazarın tədqiqi zamanı müəssisə özünə lazım olan material resurslarının çeşid və təklif olunan qiymətlər üzrə

kəmiyyət qiymətini verməlidir. Xammal və material bazarının öyrənilməsində materialların daşınması xərclərinin təhlili mühüm yer tutur.

Xammal və material göndərənlərin təhlili zamanı sifarişçinin portfelinin vəziyyətinə dair informasiya mühüm əhəmiyyət kəsb edir. Bu bazarın tədqiqi strateji xarakterdədir, çünki material resurslarının alınması məsələsi həll olunur. Təchizat strategiyasını hazırlayarkən müəssisə zəruri detalların istehsalı üçün öz xərclərini analoji detalların malgöndərəndəki qiymətləri ilə müqayisə edir.

Material resurslarına tələbat əsas istehsal üçün resurslara tələbatı, plan dövrünün axırına keçici ehtiyatların yaradılması və saxlanması üçün tələbatı, təsərrüfat fəaliyyətinin digər növləri (o cümlədən qeyri-istehsal) fəaliyyəti üçün tələbatı əhatə edir.

Material resurslarına tələbatı hesablayarkən onların ödənilməsi üçün nağd vəsaitin olmasını nəzərə almaq lazımdır. Ödənilmə mənbələri xüsusi və borc alınmış ola bilər. Material resurslarına tələbat materialların bütün nomenklaturası üzrə dəyər və natural ifadədə planlaşdırılır. Müəssisəyə materialların göndərilməsinin həcmi və müddətləri onların istehsal istehlakı rejimi, istehsal ehtiyatlarının lazımi səviyyəsinin yaradılması və saxlanması ilə şərtlənir.

Tələb olunan material resurslarının həcmi yeni texnikanın tətbiqi üçün, tərtibatların və alətlərin hazırlanması üçün, istismar və texnoloji ehtiyaclar üçün, bitməmiş istehsalın zəruri qalığının yaradılması və keçici ehtiyatların əmələ gəlməsi üçün lazım olan materiallara tələbatdan əmələ gəlir. Material resurslarına tələbat müəssisənin MTT balansı əsasında müəssisədə olan material qalıqları və daxili təminat mənbələri nəzərə alınmaqla müəyyən edilir.

Material resurslarına tələbatı üç metodla təyin etmək olar:

- determinləşmiş (istehsal planları və məsarif normativləri əsasında);
- stoxastik (ötən illərin tələbatı nəzərə alınmaqla ehtimallı proqnoz əsasında);
- qiymətləndirmə (təcrübi-statistik qiymətləndirmə əsasında).

Bu metodlardan hər hansı birinin seçilməsi material resurslarının xüsusiyyətlərindən, onların istehlakı şərtlərindən və zəruri hesablamaların aparılması üçün müvafiq məlumatların olmasından asılıdır.

Birbaşa hesablama metodu daha geniş yayılmışdır. Bu metod məhsul buraxılışı proqramına və buraxılan məhsulun bir vahidi üçün material sərfi normasına əsaslanır və <u>məmulat metodu</u> adlanır. Hesablamalar aşağıdakı düsturla aparılır:

$$R = N_n \cdot P_n,$$

burada R - materiallara ümumi tələbat;

N_n - məmulat üçün məsarif norması;

P_n - həmin məmulatın istehsalı proqramıdır.

Material resurslarına tələbatın hesablanması <u>detal metodu</u> ilə müəyyən edilir:

$$R = N_d \cdot P_d,$$

burada N_d - detal üçün məsarif norması;

P_d - plan dövründə detal istehsalı proqramıdır.

<u>Birtipli nümunələr</u> metodundan istifadə zamanı material resurslarına tələbat aşağıdakı düsturla hesablanır:

$$R = N_{\text{tip}} \cdot P_{\text{üm}},$$

burada N_{tip} - birtipli nümunənin hazırlanması üçün material sərfi norması;

$P_{\text{üm}}$ - bu qrupdan olan məmulatların istehsalının ümumi proqramıdır.

Məmulat və detal metodları buraxılan məhsulun tərkibinə daxil olan xammala, əsas və köməkçi materiallara tələbatı təyin etmək üçün tətbiq olunur. Bu metodlar elektrik energetikasında, maşınqayırmada və metal emalında daha çox istifadə olunur.

Material resurslarına tələbatın proqnozlaşdırılması metodları yeni texnikanın tətbiqi zamanı istifadə olunur. Bu tələbat təcrübə istehsallarının, tədqiqat laboratoriyalarının və texniki şöbələrin materiallara olan tələbatını əhatə edir.

Material resurslarına tələbatın təyin edilməsinin statistik metodları ötən illərdə material resurslarının faktiki sərfinə dair məlumatlardan istifadəyə əsaslanır. Bu zaman istehsalın strukturu və həcmi, eləcə də yeni texnikanın tətbiqi və istehsalın təşkilinin təkmilləşdirilməsi ilə əlaqədar resursların sərfi normaları nəzərə alınır. Bu halda material resurslarına tələbat aşağıdakı düsturla müəyyən edilir:

$$R_p = R_{pr} - K_{pr} \cdot K_p,$$

burada R_p, R_{pr} - plan və ötən dövrlərdə material resurslarının plan tələbatı və faktiki sərfi;

K_{pr}, K_p - uyğun olaraq istehsal proqramında və material resurslarının sərfində baş verən dinamik dəyişikliklər əmsallarıdır.

Bu metoddan əsas etibarilə material resurslarının nomenklaturası böyük və məsarif isə nisbətən az olduqda istifadə olunur.

Avadanlığa (növlər üzrə) tələbat avadanlığın məhsuldarlığından və növlər üzrə məhsul istehsalı planından asılı olaraq aşağıdakı kimi hesablanır:

$$R = \frac{\sum_{i=1}^{n} N_p P_p}{T \cdot K_{sm} \cdot t_{sm} \cdot K_{i.o} \cdot K_{i.n}},$$

burada n - məhsul növlərinin sayı;

N_p - məhsul vahidinin istehsalı üçün vaxt norması;

P_p - məhsul istehsalı proqramı;

T - plan dövründə iş günlərinin sayı;

K_{sm} - iş növbələrinin sayı;

t_{sm} - növbənin uzunluğu;

$K_{i.o}$ - avadanlıqdan istifadə əmsalı;

$K_{i.n}$ - dəyişilmə (normaların artması və ya azalması) əmsalıdır.

Keçici ehtiyatların əmələ gəlməsi üçün material resurslarına tələbat plan dövrünün əvvəlinə ehtiyatlarda gözlənilən material qalıqlarından asılı olaraq aşağıdakı düsturla hesablanır:

$$O_g = O_f + V_g - R_g,$$

burada O_g - ilin axırına gözlənilən qalıq;

O_f - MTT planının hazırlandığı ayın birinə faktiki qalıq;

V_g - fatiki qalığın müəyyən olunduğu vaxtdan plan dövrünün əvvəlinədək müəssisəyə material resurslarının gözlənilən mədaxili;

R_g - həmin dövr ərzində gözlənilən məsarifdir.

Müəssisənin maddi-texniki təminat balansı aşağıdakılar üçün materiallara tələbatı əks etdirir:

- yeni məhsul istehsalı (R_p);
- yeni texnikanın tətbiqi ($R_{n.t}$);
- təmir-istismar ehtiyacları (R_{rg});
- bitməmiş istehsal qalığının əmələ gəlməsi (R_{np});
- keçici ehtiyatların əmələ gəlməsi (R_z).

Bu tələbatın ödənilməsi mənbələri aşağıdakılardır:

- plan dövrünün əvvəlinə gözlənilən qalıq (O_g);
- paln dövrünün əvvəlinə bitməmiş istehsaldakı materiallar (O_{np});
- daxili resursların səfərbər edilməsi (M_{vn});
- kənardan materialların alınması və gətirilməsi (Z_s).

Beləliklə, material balansını aşağıdakı kimi təsvir etmək olar:

$$R_p + R_{nt} + R_{rg} + R_{np} + R_z = O_g + O_{np} + M_{vn} + Z_s.$$

Maddi-texniki təminatın bu balansı sənaye müəssisələrində material resurslarının hərəkətinin logistik idarə edilməsinin vasitəsi hesab olunur.

14.3. Təchizatda və logistikada planlaşdırma metodları

Material ehtiyatlarının yaradılması MTT-nin planlaşdırılmasının əsas məsələsidir. Ona görə də təchizat işçilərinin daimi nəzarəti altındadır.

Materialların gətirilməsi haqqında qərar qəbul edərkən, anbarlaşdırmanı təşkil edərkən və ya yeni alışları həyata keçirərkən ehtiyatların təyinatını, onların müsbət və mənfi tərəflərini bilmək lazımdır.

Ehtiyatların idarə edilməsi bazar şəraitinin tez-tez dəyişilməsi ilə əlaqədar olaraq mürəkkəbləşə bilər. Anbar ehtiyatları həmişə ya artırılmış, ya çox kiçik ola bilər, ya da tələb olunan çeşidə uyğun olmaya bilər. Lakin məlumdur ki, artıq ehtiyatlar onların saxlanması və emalı üzrə xeyli xərclərlə müşayiət olunur.

Ehtiyatların idarə edilməsinin müxtəlif sistemləri vardır ki, onlar ehtiyatların saxlanması və emalı üzrə xərclərin azaldılmasına yönəlmişdir. Xarici ölkələrin (ABŞ,

Yaponiya və s.) təcrübəsi xammal və materiallara tələbatın təyin edilməsi üzrə qurulmuş planlaşdırma sisteminin hazırlanmasını nəzərdə tutur. Yaponiyada "kan-ban" sisteminin tətbiqi anbarlaşdırmanın bütün formalarına istehsalçıların münasibətini dəyişmişdir. Bu sistemin əsasını mal yeridilişi iştirakçılarının fəaliyyətinin bütün istiqamətləri üzrə dəqiq və vaxtında alınmış informasiya təşkil edir. Müasir kompüter proqramları ehtiyatların alınması və onların vəziyyətinə nəzarət prosesini geniş avtomatlaşdırmağa imkan verir.

Ehtiyatların mühafizəsi və saxlanması ilə əlaqədar olan əsas xərclərə daxildir: anbar binalarının saxlanması və icarəsi xərcləri; anbar avadanlığının dəyəri; anbarda materialların saxlanması ilə əlaqədar olan xərclər; xidmətedici heyətin əmək haqqı və istismar xərcləri; material dəyərlilərinin sığortalanması xərcləri və s. Ümumi anbar xərclərinin ölçüsü çox böyük ola bilər və mühafizə edilən malların dəyərinin 25-50%-ni təşkil edir.

Məhsulun planlaşdırılmasının, alınmasının və sifarişçilərə göndərilməsinin çox sayda metodları mövcuddur. Onlardan bir neçəsinə baxaq.

ABC metodu. İtalyan alimi V.Paretto sübut etmişdir ki, ölkəsindən asılı olmayaraq əhalinin az hissəsi rifahın böyük hissəsinə nəzarət edir. Bunun əsasında o, müvafiq əyrini qurmuşdur. Bu prinsip digər vəziyyətlərə, o cümlədən təchizat sisteminə də tətbiq oluna bilər. Paretto əyrisini əksər hallarda 80-20 qaydası və ya ABC metodu adlandırırlar. Bu metodun mahiyyətini sadə misalla izah edək.

Tutaq ki, satın alınan məmulatlar həcminə və xərclərin məbləğinə görə aşağıdakı nisbətlərdədir (Cədvəl 14.3.1.).

Cədvəl 14.3.1. Satın alınan məmulatların həcminin və xərclərinin nisbəti

Sinfi	Materialların alınmasının ümumi həcmi, %	Almaq üçün xərclərin ümumi məbləği, %
A	10	70-80
B	10-20	10-15
C	70-80	10-20

Bu faiz nisbəti materialları alan müxtəlif firmalarda müxtəlif ola bilər. Həmin nisbəti tapmaq üçün alınan materialların ümumi dəyərində xammal və materialların ayrı-ayrı növlərinin payını müəyyən etmək lazımdır.

Fərz edək ki, alışın ümumi illik həcmi 30,4 mln. dollar olan istehsalçı malların aşağıdakı nisbətinə malik olmuşdur (Cədvəl 14.3.2.).

Cədvəl 14.3.2. Malların nisbəti

Məmulatların sayı	Məmulatların faizi	Alışın illik həcmi	Alışın illik həcminin faizi	Sinfi
1095	10,0	21,6	71,1	A
2168	19,9	5,9	19,4	B
7660	70,1	2,9	9,5	C
10923	100,0	30,4	100,0	

14.3.2. cədvəlinin məlumatlarından görünür ki, A qrupunun məmulatları cəmi 10%, alışın illik həcminin dəyərinə görə isə A və C qrupları arasında aralıq mövqedədir. Ona görə də alış zamanı daha baha olan A qrupu məmulatlarına ən çox fikir verilir. Lakin məmulatların ayrı-ayrı növlərinin xüsusiyyətlərinə görə hər bir qrupa nisbəti eyni olmalıdır.

ABC metodu təhlil vasitəsidir və onun köməyilə hər hansı bir çoxluğun ayrı-ayrı elementləri arasında konkret xarakteristikalarının bölüşdürülməsi dərəcəsi müəyyən

edilir. Təchizat baxımından əldə edilən xammal və materialların kəmiyyət və dəyər strukturu təhlil edilir.

Təchizat və logistikanın əsas problemlərindən biri mal göndərişlərinin optimal həcminin təyin edilməsindən ibarətdir. Çünki mal göndərişlərinin həcminin artması ehtiyatların yerləşdirilməsi və mühafizəsi üzrə əlavə xərcləri tələb edir.

Sifarişin həcminin və ehtiyatın səviyyəsinin müəyyən edilməsi üçün müxtəlif modellər mövcuddur. Onların tətbiqi materiallara tələbin asılı və ya qeyri-asılı olmasından asılıdır. Asılı tələb göstərir ki, göndərilən məmulat daha iri məmulatın bir hissəsidir və ondan istifadə həmin iri məmulatın istehsalı qrafikindən asılıdır.

Malgöndərişlərinin qeyd olunmuş həcmi modelinə baxaq. Anbarda ehtiyatların saxlanması üçün əlavə xərclərin çəkilməsi və ya mal göndərişlərinin tezliyini artırmaq yolu ilə (kiçik partiyalarla almaq) həmin xərclərin azaldılması məsələsini həll etmək lazımdır. Ümumi məqsəd ehtiyatların əldə edilməsi və anbarda saxlanması üzrə illik xərclərin azaldılmasıdır.

Tutaq ki, müəyyən dövr ərzində materialların qiyməti C olmaqla materiallara illik tələb R olmuşdur. Sifarişin rəsmiləşdirilməsi xərcləri Z, ehtiyatların saxlanması xərclərinin faizi K təşkil etmişdir. Onda ehtiyatların alınması və anbarda saxlanması üçün ümumi xərcləri aşağıdakı düsturla təyin etmək olar:

$$M = RS + RZ : Q + QKC : 2,$$

burada Q - mal göndərişləri partiyasının qeyd olunmuş həcmidir.

Mal göndərişləri partiyasının minimal həcmi aşağıdakı kimi hesablanır:

$$Q = \sqrt{2RZ : KC}.$$

Hər bir müəssisədə dayanıqlı təchizat bazasının yaradılmasının əsasını malgöndərənin seçilməsi təşkil edir. Konkret malgöndərənə sifarişin verilməsi qərarı bir sıra amillərdən asılıdır. Malgöndərən göndərilən məhsulun miqdarını və həcmini, məhsulun daşınması şərtlərini, qiyməti və xidmət səviyyəsini təmin etməlidir. Malgöndərənin seçilməsində onun texniki səviyyəsi, infrastrukturun inkişafı, maliyyə vəziyyəti, əmək münasibətləri və yeri mühüm əhəmiyyət kəsb edir.

Malgöndərənin seçilməsinə qeyri-müəyyənlik şəraitində seçmə kimi baxmaq olar ki, bu da çox böyük risklə əlaqədardır. Naməlum xammalı, məmulatları və ya avadanlığı alarkən risk daha da artır. Ona görə də əlavə informasiya mənbələrinə (kataloqlar, ticarət jurnalları, reklam elanları, internet və s.) müraciət etmək lazımdır.

Potensial malgöndərəni qiymətləndirərkən aşağıdakı suallara cavab vermək lazımdır:

1) bu malgöndərən qısamüddətli və uzunmüddətli dövrlərdə sifarişçinin tələbatını tam ödəməyə qadirdirmi?
2) bu malgöndərənin qısamüddətli və uzunmüddətli dövrlərdə sifarişçinin tələbatını təmin etməsi haqqında sübut (əsas) vardırmı?

Malgöndərənin maliyyə vəziyyətini də qiymətləndirmək lazımdır. Digər göstəricilərlə yanaşı onun kredit reytinqi, kapitalın strukturu, rentabellik, dövriyyə kapitalı, ehtiyatların vəziyyəti, likvidlik əmsalı, investisiyaların gəlirliliyi və s. də yoxlanılır. Bütün bu göstəricilər malgöndərənin məhsulunun maliyyə dayanıqlılığını və rəqabət qabiliyyətini səciyyələndirir.

Malgöndərənin seçilməsi zamanı nəzərə alınması vacib olan bu amillərdən başqa məhsulun istehsalçılardan və ya distribütorlardan alınması haqqında qərar da mühüm əhəmiyyət kəsb edir. Bu qərarı qəbul etmək üçün maliyyə vəziyyətini, mövcud şöhrətini, göndərilən məhsulun

keyfiyyətini və ona xidməti, malgöndərişlərinin etibarlılığını və qiymətin əsaslandırılmasını tədqiq etmək lazımdır. Təchizatın əlavə mənbələrinin seçilməsi zamanı bütün bu amillər nəzərə alınmalıdır.

FƏSİL 15. MƏHSULUN KEYFİYYƏTİ, STANDARTLAŞDIRILMASI, SERTİFİKATLAŞDIRILMASI VƏ RƏQABƏT QABİLİYYƏTİ

15.1. Keyfiyyət anlayışı, onun göstəriciləri və keyfiyyətə nəzarətin təşkili

Məhsulun keyfiyyəti müəssisə fəaliyyətinin ən mühüm göstəricilərindəndir. Məhsulun keyfiyyətinin yüksəldilməsi bazar şəraitində müəssisənin yaşamasını, texniki tərəqqinin sürətini, innovasiyaların tətbiqini, istehsalın səmərəliliyinin yüksəldilməsini, müəssisədə istifadə olunan bütün resurslara qənaəti xeyli dərəcədə müəyyən edir. Müasir şəraitdə müəssisələr arasındakı rəqabət başlıca olaraq buraxılan məhsulun keyfiyyəti sahəsində aparılır.

Məhsulun keyfiyyəti məmulatın təyinatına uyğun olaraq müəyyən tələbatı ödəmək üçün yararlılığını əks etdirən xassələrin məcmusudur.

Məhsulun keyfiyyətinin tərkibinə daxil olan xassələrinin, onun yaradılmasının və istismarının və ya istehsalının müəyyən şərtlərinə nəzarət edilən kəmiyyət xarakteristikası keyfiyyət göstəricisi adlanır.

Məmulatı səciyyələndirən xassələrin miqdarına görə keyfiyyət göstəriciləri vahid, kompleks və inteqral göstəricilərə bölünür. Məhsulun keyfiyyət göstəriciləri çox müxtəlifdir, hər bir məhsul növünə nəzərən onun keyfiyyətini daha tam səciyyələndirən göstəricilərin müvafiq komplekti seçilməlidir. Məhsulun keyfiyyəti göstəricilərinin qruplaşdırılması dövlət standartları ilə müəyyən edilmişdir.

Məhsulun xassəsi dedikdə, onun yaradılması, istismarı və ya istehlakı zamanı meydana gələn obyektiv xüsusiyyətləridir. Xassələr sadə və mürəkkəb ola bilər. Sadə xassələrə məhsulun kütləsi, tutumu, sürəti və s, mürəkkəb

xassələrə isə texniki vasitələrin etibarlığı, təmirə yararlılığı və s. daxildir.

İfadə olunması üsuluna görə məhsulun keyfiyyət göstəriciləri natural (metr, kq və s.), nisbi (faiz, əmsal, bal, indeks və s.) və dəyər göstəriciləri ola bilər.

Təyin olunması mərhələlərinə görə proqnozlaşdırılan, layihə, normativ və faktiki göstəricilər mövcuddur.

Səciyyələndirilən xassələrinə görə aşağıdakı qrup göstəricilərdən istifadə olunur:

- təyinat göstəriciləri – onun konkret bazarda faydasını, təyinatı üzrə istifadə olunmasını xarakterizə edir;
- etibarlılıq göstəriciləri – keyfiyyətin mürəkkəb xüsusiyyətlərini göstərir və əmtəənin dayanıqlı işləməsi, təmirə yararlı olması, öz xüsusiyyətlərini saxlamaq qabiliyyəti və uzun ömürlü olması ilə səciyyələnir;
- texnolojilik göstəriciləri – obyektin konstruksiyasının, mənimsənilməsinin, istehsalının, nəql edilməsinin və texniki xidmətinin mövcud texnologiyanın və təşkilin tələblərinə nə qədər uyğun olduğunu göstərir. Texnoloji konstruksiya obyektin həyat tsiklinin bütün mərhələlərində işlərin müddətinin və resurs məsrəflərinin ən az olmasını təmin edir;
- ekolojilik göstəriciləri – əmtəənin keyfiyyət səviyyəsini müəyyən edən əsas xassələr toplusudur. Bu göstəricilər toplusu obyektin hava hövzəsinə, torpağa, suya, təbiətə, insana və canlı aləmə zərərli təsirini xarakterizə edir. Zərərli təsirlər obyektin tətbiqi zamanı bilavasitə və gələcəkdə dolayı yolla özünü biruzə verə bilər;
- erqonomik göstəricilər – obyektin erqonomik tələblərə uyğun gəlməsi ilə xarakterizə olunur. Erqonomik göstəricilər kimi əmtəənin ölçüsü, forması, rəngi, onun elementlərinin qarşılıqlı yerləşməsi və s. götürülə bilər;
- estetiklik göstəricisi keyfiyyətin kompleks xassəsidir. O, bütünlükdə məmulatın xarici görünüşü nöqteyi-nəzərindən insan hissiyatına təsirləri aşkar edir. Az

estetik məmulat insanı yorur, onu əsas iş prosesindən yayındırır, onun psixikasına əziyyət verir. Nəticədə məmulatın zamana görə istifadə olunması pisləşir, işdə zay məhsulun miqdarı artır, məhsuldarlıq azalır. Estetik göstəricilər bir sıra sadə xassələrdən, məsələn, formadan, harmoniyadan, kompozisiyadan, stildən və s. asılıdır;

- standartlaşdırma və vahidləşdirmə göstəriciləri obyektin konstruktiv elementlərinin tərkib hissələrinin birtipli ölçülərinin (ölçülərin, birtipli ölçülərin, formaların, örtüklərin və s.) sayının səmərəli ixtisar edilməsini nəzərdə tutur. Vahidləşdirmənin və standartlaşdırmanın göstəricilərinə obyektin standartlaşma əmsalı, obyektin təşkiledici hissələrinin təkrar olunması əmsalı, layihələarası vahidləşmə əmsalı və s. aid edilir;
- patent-hüquqi göstəricilər məhsulun patent-hüquqi səviyyəsi, patent mühafizəsi (və ya patent qabiliyyətliliyi) göstəricisi və patent təmizliyi göstəricisi vasitəsilə qiymətləndirilir. Patent mühafizəsi göstəricisi ölkənin həmin məhsulda realizə olunmuş yeni ixtiralarının miqdarını və xüsusi çəkisini xarakterizə edir. Parent təmizliyi göstəricisi daxili və xarici bazarda məhsulun maneəsiz realizə olunması imkanını, onların istifadə edilməsi üçün hüquqi əsası olmadan tərtib edilmiş səlahiyyət haqqında başqa qərarların olmamasını xarakterizə edir;
- nəql olunanlıq göstəriciləri, yəni buraxılan məhsulun daşınma üçün uyğunluğu təmin olunmalıdır.
- təhlükəsizlik göstəriciləri məhsulun quraşdırılması, ona xidmət, onun təmiri, saxlanması, daşınması və istehlakı zamanı alıcıların və xidmət heyətinin müdafiəsini səciyyələndirir.

Bu göstəricilərlə yanaşı məmulatın qiyməti də mühüm əhəmiyyət kəsb edir. Məhsulun keyfiyyətinin iqtisadi cəhətdən optimal və ya səmərəli olması məsələsi, məhz qiymətlə əlaqədar olaraq ortaya çıxır. Alıcı, məhsulu alarkən həmişə müqayisə edir ki, məhsulun qiyməti onun

malik olduğu xassələr toplusunu ödəyir, yoxsa yox. Qiymətlə yanaşı məhsulun istismar xarakteristikaları da vacibdir, çünki istismar və təmir xərclərini onlar doğurur. Əgər məmulat uzun xidmət müddəti ilə səciyyələnirsə, onda bu xərclər qiymətlə tam müqayisə olunur. Bəzi məmulatlarda isə həmin xərclər satış qiymətindən yüksək olur.

Keyfiyyət göstəricilərinin əksəriyyəti olduqca spesifikdir və yalnız müəyyən məhsul növünü səciyyələndirir.

Məhsulun keyfiyyətinin səviyyəsi baza göstəricilərinin müvafiq məzmununa nisbətən bəzi göstəricilərin nisbi xarakteristikasıdır. Məhsulun keyfiyyət səviyyəsini bir sıra göstəricilərlə (bəzən birgə, ümumiləşdirici göstərici ilə) və ya məhsulu müəyyən keyfiyyət kateqoriyasına aid etməklə səciyyələndirmək olar.

Məhsulun keyfiyyət səviyyəsini qiymətləndirmək zərurəti yeni məhsulun planlaşdırılması və proqnozlaşdırılması, onun yaradılması variantının seçilməsi, normativ sənədlərin işlənib hazırlanması, keyfiyyətinə nəzarət edilməsi, məhsulun keyfiyyətini yüksəltmək üçün işçilərin həvəsləndirilməsi, keyfiyyət attestasiyasından keçirilməsi, məlumat toplanmasının təşkil edilməsi və i.a. zamanı meydana çıxır. Buraxılan məhsulun keyfiyyət səviyyəsi müəssisənin texniki və təşkilati mükəmməllik dərəcəsini, eləcə də onun kollektivinin yüksək keyfiyyətli rəqabət qabiliyyətinə malik məhsul buraxma qabiliyyətini xarakterizə edir. Buradan aydın olur ki, məhsulun keyfiyyəti əməyin və müəssisənin bütün kollektivinin yerinə yetirdiyi işin keyfiyyətindən asılıdır.

Məhsulun keyfiyyəti istismar və istehsal-texniki göstəricilər sistemi ilə xarakterizə olunur. Keyfiyyət göstəricilərinin nomenklaturası məhsulun növündən və təyinatından asılıdır. Bu göstəriciləri üç qrupa ayırmaq olar:

1) vahid göstəricilər;

2) kompleks göstəricilər;
3) inteqral (ümumiləşdirici) göstəricilər.

Birinci və ikinci qrup göstəricilər məhsulun xassələrini, üçüncü qrup göstəricilər isə məhsulun keyfiyyətinin səviyyəsini əks etdirir.

Məhsulun xassələrindən birini səciyyələndirən keyfiyyət göstəricisi vahid göstərici (güc, kalorilik və s.) adlanır. Kompleks göstərici məhsulun bir neçə xassəsini əhatə edir. Vahid göstəricilərin məcmusu qrup göstəricilərini təşkil edir. Etibarlılıq üzrə qrup göstəricisi (K) bir sıra vahid göstəricilərdən ($a_1, a_2, \ldots a_n$) asılıdır:

$$K = f\,(a_1, a_2, \ldots a_n).$$

Məmulatın keyfiyyəti səviyyəsinin kompleks qiymətləndirilməsi inteqral (ümumiləşdirici) göstərici əsasında aşağıdakı düsturla hesablanır:

$$K_i = \text{Э} / (I_s + I_p),$$

burada Э - məhsulun istehsalından əldə edilən cəmi faydalı səmərə (dəzgah üçün – əsaslı təmirə qədər emal olunmuş detalların cəmi götürülür);

I_s - dəzgahın yaradılması üçün xərclər, man;

I_p - istehlakçıda istismar xərcləridir, man.

Yeni məmulatın keyfiyyət səviyyəsi (U_k) aşağıdakı kimi təyin edilir:

$$U_k = K_{i.n} / K_{i.b},$$

burada $K_{i.n}$ və $K_{i.b}$ - uyğun olaraq yeni və baza məmulatın keyfiyyətinin inteqral göstəriciləridir.

Məhsulun iqtisadi cəhətdən optimal keyfiyyəti məhsulun keyfiyyətinin xərclərə və ya keyfiyyət vahidinin qiymətinə nisbəti ilə ifadə olunur:

$$K_{opt} = \frac{Q}{C_\varepsilon},$$

burada K_{opt} - iqtisadi cəhətdən optimal keyfiyyət;

Q - məmulatın keyfiyyəti;

C_{ε} - məhsulun alınması və istismarı xərcləridir,man.

Hesablama zamanı düsturun məxrəci elə bir çətinlik törətmir, çünki o, məmulatın satış qiymətini, onun istismarı, təmiri və utilləşdirilməsi xərclərini əks etdirir. Surəti müəyyən etmək isə çətindir. Belə ki, keyfiyyəti kəmiyyətcə müəyyən etmək çox mürəkkəbdir. Bununla kvalimetriya məşğul olur. Kvalimetriya keyfiyyətin kəmiyyətcə qiymətləndirilməsi üçün kifayət qədər yararlı olan metodları hazırlamış elmdir. Məhz kvalimetriyanın köməyilə xərclərin 1 manatı üçün məhsulun keyfiyyət vahidinin artımını müəyyən etmək mümkündür.

Müəssisələrdə məhsulun keyfiyyətinə fasiləsiz nəzarət təmin olunmalıdır. Keyfiyyətə nəzarətin məqsədi məhsulun müəyyən olunmuş keyfiyyətinin təmin edilməsindən, zay məhsulun qarşısının alınmasından və keyfiyyətsiz məhsul buraxılışına yol verilməməsindən ibarətdir. Məhsulun keyfiyyəti üçün müəssisənin bütün işçiləri məsuliyyət daşıyırlar. Keyfiyyətə nəzarətin bu və ya başqa orqanının və vəzifəli şəxsinin olması müəssisənin ölçülərindən və işçi heyətinin funksional vəzifələrindən asılıdır.

Məhsulun keyfiyyətinə nəzarət etmək üçün nəzarət-ölçmə cihazlarından, alətlərdən və avtomatik nəzarət qurğularından istifadə olunur. Avtomatik nəzarət vasitələri xüsusilə səmərəlidir, çünki onlar texnoloji avadanlığa qoşulur və bilavasitə məhsulun hazırlanması prosesində nəzarəti təmin edir. Bu, həmçinin nəzarətçilərin sayını azaltmağa və zay məhsulun qarşısını almağa imkan verir.

Məhsulun keyfiyyətinə nəzarətin növləri istehsalın xarakterindən və keyfiyyətə verilən tələblərdən asılıdır. Aşağıdakı nəzarət növlərini fərqləndirirlər:

a) qrup nəzarəti. Bu, məmulatın tam və ya qismən emalı ilə əlaqədar olan qarışıq əməliyyat qrupları üzrə nəzarəti əhatə edir;
b) əməliyyatlar üzrə nəzarət, yəni yüksək mürəkkəb və dəqiq məhsulların istehsalında texnoloji prosesin təmin edilməsinə nəzarət;
c) seçmə nəzarət, yəni buraxılan məhsulun içərisindən vaxtaşırı nümunələrin götürülməsi və yoxlanması;
d) bütöv nəzarət, yəni buraxılan hər bir məmulat yoxlanılır.

Təyinatına görə nəzarət aralıq və yekun nəzarətinə bölünür.

Nəzarətin növlərinin təsnifatının digər variantları da mövcuddur.

Məlumdur ki, müəssisələrdə məhsulun keyfiyyətinə nəzarəti nəzarət xidməti həyata keçirir. Bu xidmətin işçilərinin sayı buraxılan məhsulun xarakterindən, istehsalın həcmindən, nəzarət metodundan və istehsalın tipindən asılı olaraq təyin edilir.

Kütləvi və seriyalı istehsal şəraitində nəzarətçilərin sayı aşağıdakı düsturla tapılır:

$$Ç_K = Nnftk / F_Z,$$

burada N – nəzarətdən keçiriləcək detalların sayı;

n – bir detala düşən nəzarət əməliyyatlarının sayı;

f – nəzarətin seçilməsi (vahidin hissələri ilə) dərəcəsi;

t – bir detalın yoxlanması üçün vaxt norması, dəq.;

k – iş yerlərini gəzmək, sənədləri rəsmiləşdirmək və s. üçün nəzarətçiyə lazım olan əlavə vaxtı nəzərə alan əmsal;

F_Z- bir nəzarətçinin illik həqiqi iş vaxtı fondudur, dəq.

Xırda seriyalı və fərdi istehsal şəraitində sahə və ya sex üçün nəzarətçilərin sayı aşağıdakı kimi təyin edilir:

$$Ç_k = Ç_{sp} / N_o,$$

burada $Ç_{sp}$ - istehsal fəhlələrinin orta siyahı sayı;

N_o - nəzarətçinin iş yerlərinə xidmət normasıdır.

Yekun zay məhsul hesabına sexdəki itkilər aşağıdakı düsturla hesablanır:

$$P_b = S_b + Z_b - Z_v,$$

burada S_b - məhsulun maya dəyərinə daxil olan xammalın, materialın və satın alınmış komplektləşdirici məmulatların dəyəri, man.;

Z_v, - zay məhsulun əvəzinin ödənilməsi üçün günahkar şəxslərdən tutulan məbləğdir, man;

Z_b - zay məhsul üçün sərf olunmuş əmək haqqının məbləği, man.

Məhsulun keyfiyyətinə nəzarət müxtəlif metodlarla həyata keçirilir: xarici müşahidə; ölçülərinin yoxlanması; mexaniki və fiziki xassələrinin yoxlanması; ekoloji təmizliyin yoxlanması. Bu metodlar içərisində statistik metodlar xüsusi yer tutur. Statistik metodların əsasını ehtimal nəzəriyyəsi təşkil edir.

Məhsulun keyfiyyətinin statistik nəzarət mərhələsində olan texnoloji proseslər üçün statistik nəzarət metodunu tətbiq etmək olar. Bu metodun əsas səciyyəvi cəhətləri aşağıdakılardır:

a) sistemli müşahidələrin müntəzəmliyi;
b) seçmə nümunələrə nəzarətin həyata keçirilməsi;
c) müşahidə nəticələrinin nəzarət qrafiklərinə (vərəqlərinə) qeyd olunması;
d) nəzarətin nəticələrindən texnoloji prosesin şərtlərinin təshih edilməsi və zay məhsulun qarşısının alınması üçün istifadə edilməsi.

Məhsulun keyfiyyətinin qiymətləndirilməsinin ekspert metodları mütəxəssislərin və məhsul istehlakçılarının ümumiləşdirilmiş təcrübəsindən və intuisiyasından istifadəyə əsaslanır. Daha obyektiv nəzarət metodlarından istifadə mümkün olmadıqda və ya çətin

olduqda bu metodlardan istifadə etmək lazımdır. Məhsulun estetik xassələrini səciyyələndirmək üçün də ekspert metodundan istifadə olunur.

Son illərdə dünya təcrübəsində məhsulun keyfiyyətinə müəssisədaxili nəzarətə xüsusi diqqət verilir. Belə nəzarət keyfiyyətə total nəzarət (TQC) adlanır. Bu sistemin əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Keyfiyyətə nəzarət səlahiyyətlərinin idarəetmənin yuxarı manqalarından aşağı səviyyəli manqalara keçirilməsi.
2. Kiçik kollektivlərdə "keyfiyyət dərnəkləri" hərəkatının inkişaf etdirilməsi.
3. Müştərinin tələblərinin üstünlüyü əsasında bazarda tanınmasına can atması.
4. Ötən dövrlərin təcrübəsinin öyrənilməsi əsasında tədricən inkişafın təmin edilməsi.

Deməli, müasir istehsal şəraitində məhsulun keyfiyyəti istehsalın səmərəliliyinin və rentabelliliyinin mühüm təşkiledicisidir. Ona görə də direktordan tutmuş fəhləyə qədər müəssisənin bütün işçiləri buna xüsusi diqqət verməlidirlər. Keyfiyyətin layihələndirilməsi, təmin edilməsi və saxlanması üzrə bütün proseduralar ümumi bir anlayışda birləşir – keyfiyyətin idarə edilməsi.

15.2. Məhsulun keyfiyyətinin idarə edilməsi sistemi

Hər bir dövlətdə müəyyən səbəblərin təsirilə məhsulun keyfiyyətinin idarə edilməsinin spesifik sistemi formalaşır. Keyfiyyətin idarə edilməsi təcrübəsi bir neçə mərhələdən keçmişdir. XX əsrin 60-cı illərində məhsulun defektsiz hazırlanması və ilk təqdimatdan qəbul sistemi tətbiq olunurdu. Bu sistem yalnız istehsal prosesini əhatə edirdi. 70-ci illərdə defektsiz əmək sistemi yarandı ki, bu da istehsal sferasını, konstruktor-texnoloji sənədləşmələrin

hazırlanmasını və müəssisənin idarə edilməsini əhatə edirdi. 80-ci illərdə məhsulun keyfiyyətinin idarə edilməsinin kompleks sistemi geniş yayılmışdı. Həmin sistem bütün istehsal sferalarını və iqtisadi təsir metodlarını (planlaşdırma, keyfiyyətin yüksəldilməsinə nəzarətin və həvəsləndirmənin təşkili) əhatə edirdi. Baza kimi dünyanın deyil, SSRİ-nin ən yaxşı məhsul nümunələri götürülürdü. Məhsulun əsas kütləsi dünya bazarında rəqabət qabiliyyətinə malik deyildi. Hətta 80-ci illərin sonlarında tətbiq olunmuş "məhsulun Dövlət qəbulu sistemi" də vəziyyəti dəyişdirmədi.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq son illərdə məhsulun keyfiyyətinin təmin edilməsi beynəlxalq İSO 9000 seriyalı standartlara daha çox fikir verilir.

Məhsulun keyfiyyətinin idarə edilməsi sistemi təkcə dövlətdə deyli, hər bir firmada da fərqlənir. Bu sistem ölkə və ya firma qarşısında duran vəzifələrdən, onların xüsusiyyətlərindən və təcrübədən asılı olaraq formalaşır. Məsələn, keyfiyyətin idarə edilməsinin Amerika və Yaponiya sistemlərinin müqayisəsi aşağıdakı xüsusiyyətlərə görə fərqlənirlər:

1. Menecerlərin idarəetmə siyasəti.

Yaponiya: Zay məhsulun profilaktikasının uzunmüddətli planının hazırlanması.

ABŞ: Qısamüddətli plan üzrə işi qurmaq və zay məhsulu işin gedişində aradan qaldırmaq.

2. Sənaye müəssisəsinin idarə edilməsinin əsası.

Yaponiya: məhsulun keyfiyyətinə üstünlük verən idarəçilik planı.

ABŞ: İşin marketinq və maliyyə tərəfləri diqqət mərkəzindədir.

Yapon keyfiyyət menecmenti keyfiyyətə total nəzarətə əsaslanır (Şəkil 15.2.1).

Şəkil 15.2.1. Keyfiyyətə total nəzarət və keyfiyyət menecmentinin yeri

Məhsulun keyfiyyətinin səviyyəsi dinamikdir, o, cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı, elmi-texniki tərəqqinin və insanların həyat tərzinin dəyişməsinin təsiri ilə dəyişilir. Ona görə də məmulatların istehsalı və istismarı zamanı əmək məsrəflərinə, resurslara qənaəti əldə etməklə məhsulun keyfiyyətinin optimal səviyyəsini müntəzəm və vaxtında müəyyənləşdirmək və təmin etmək lazımdır. Odur ki, məhsulun keyfiyyətinin idarə edilməsi dedikdə, istehlakçıların tələblərinə tamamilə müvafiq olan, optimal keyfiyyət xarakteristikalarına malik məmulat buraxılmasını təmin edən aydın məqsədli fəaliyyət nəzərdə tutulur. Keyfiyyətin idarə edilməsi, keyfiyyətin marketinq tədqiqatlarının nəticələri əsasında proqnozlaşdırılmasına, məmulatların layihələndirilməsi, istehsalı və istehlakı proseslərinin idarə edilməsinə əsaslanır. O, görülən işlərin keyfiyyətinə və məmulatların layihələndirilməsinin, istehsalının və tətbiqinin bütün mərhələlərində məhsulun

keyfiyyət göstəricilərinə etibarlı, dəqiq və hərtərəfli nəzarətin təşkilindən ayrılmazdır.

Keyfiyyətin idarə edilməsində iqtisadi amil mühüm rol oynayır. Keyfiyyətin yüksəldilməsi çox vaxt məhsulun hazırlanması üçün əlavə maddi məsrəflərə gətirib çıxarır. Bu, məhsulun qiymətinin əsaslandırılmış qaydada artırılması yolu ilə istehsalçı müəssisənin məhsulun keyfiyyətinin yüksəldilməsi üçün iqtisadi həvəsləndirilməsini tələb edir. Odur ki, müəyyən səviyyəli keyfiyyətdə məmulata olan həqiqi tələbatı nəzərə almadan məhsulun keyfiyyətini əsassız yaxşılaşdırmaq da sual altında qalır. Buna görə də istehlakçıların tələblərini təhlil etmək, məmulatın təyinatını və ondan istifadə edilməsi şəraitini öyrənmək əsasında məhsulun keyfiyyətini yüksəltməyin məqsədəuyğunluğu əsaslandırılır. Bundan əlavə bunu müəyyənləşdirmək üçün məhsulun istehsalı və ondan istifadə məsrəflərinin (o cümlədən layihələndirmə, saxlama, daşıma, satma, təmir məsrəflərinin) ümumi həcmini aşkara çıxarmaq lazımdır. Müxtəlif səviyyəli keyfiyyətdə məhsullar üçün məsrəflər məcmusunun müqayisəsi keyfiyyətin optimal səviyyəsini müəyyən etməyə imkan verir.

Məhsulun keyfiyyəti səviyyəsini səmərəli idarə etmək üçün təkcə göstəricilər sistemi və normativ sənədləri hazırlamaqla kifayətlənmək olmaz. Keyfiyyətin idarə olunması müəssisənin daxilində, həm də ondan kənarda çox müxtəlif fəaliyyət növlərini əhatə edir.

Məhsulun keyfiyyətinin idarə edilməsinin universal sxemi altı blokdan ibarətdir (şəkil 15.2.2).

Keyfiyyətə təsir edən amillərə daxildir: dəzgahlar, maşınlar, digər istehsalat avadanlığı; işçilərin peşə ustalığı, biliyi, vərdişləri, psixo-fiziki sağlamlığı.

Məhsulun keyfiyyətini təmin edən amillər isə daha çoxdur. Buraya daxildir:

- istehsal prosesinin xarakteri, onun intensivliyi, ahəngdarlığı və uzunluğu;

- ətraf mühitin və istehsal binalarının iqlim vəziyyəti;
- interyer və istehsal dizaynı;
- maddi və mənəvi stimulların xarakteri;
- istehsal kollektivindəki mənəvi-psixoloji iqlim;
- informasiya xidmətinin təşkili formaları və iş yerlərinin təchizatı səviyyəsi;
- işləyənlərin sosial-maddi mühitinin vəziyyəti.

Şəkil 15.2.2. Məhsulun keyfiyyətinin idarə edilməsi sxemi (-birbaşa əlaqələr;------əks rabitə).

İSO standartlarına uyğun olaraq məhsulun həyat tsikli (xarici ədəbiyyatda keyfiyyət dairəsi adlanır) 11 mərhələni əhatə edir (Şəkil 15.2.3). Keyfiyyət dairəsinin köməyilə məhsul istehsalçısının istehlakçılarla, məhsulun keyfiyyətinin idarə edilməsi məsələsinin həllini təmin edən bütün sistemlə qarşılıqlı əlaqələr həyata keçirilir.

Məhsulun keyfiyyətinin idarə edilməsi sistemləri ilə yanaşı keyfiyyət proqramlarının öyrənilməsi və həyata keçirilməsində keyfiyyət dərnəkləri (və ya keyfiyyət qru-

pları) də mühüm rol oynayır. Xarici ölkələrin təcrübəsi göstərir ki, keyfiyyət dərnəkləri kapitalı demokratikləşdirmə formasıdır. O, fəhlələri keyfiyyətin yüksəldilməsinə həvəsləndirir, müəssisədə psixoloji iqlimi dəyişdirir.

Keyfiyyət dərnəkləri aşağıdakı prinsiplər əsasında təşkil olunur:

- iştirakın könüllü olması;
- düzgün qərarların axtarışının kollektiv formalarına can atma, onlara operativ baxılması, qəbul olunmuş təkliflərin istehsalata tətbiqi;
- əldə edilmiş müvəffəqiyyətlərə görə mənəvi və maddi təminat, yaradıcı fəaliyyətin nəticələrinin həvəsləndirilməsi;
- müəssisənin idarə edilməsinin bütün səviyyələrində rəhbərlik və ictimai təşkilatlar tərəfindən təşəbbüsün dəstəklənməsi;
- kütləvi informasiyanın bütün formaları və vasitələri ilə keyfiyyət dərnəklərinin fəaliyyətinin aşkarlığının və təbliğatının təmin edilməsi, iş təcrübəsinin ümumiləşdirilməsi və yayılması.

Keyfiyyət dərnəkləri əvvəlcə ABŞ-da meydana gəlmişdi, lakin buna yapon firmaları daha böyük təkan vermişdir. Yaponiyada keyfiyyət dərnəkləri keyfiyyət və kəmiyyətcə inkişaf etmişdir. Sonralar isə bu dərnəklər Avropanı, Asiyanı və Amerikanı əhatə etmişdir.

Keyfiyyət dərnəkləri həm texniki-iqtisadi, həm də sosial-psixoloji vəzifələrin həll edilməsində müəssisələrə kömək edir.

Keyfiyyət dərnəkləri keyfiyyətin idarə edilməsində istehlakçılar cəmiyyəti ilə yanaşı ictimaiyyətin iştirakının mühüm elementidir.

Bütün ölkələrdə keyfiyyətin idarə edilməsi məsələlərinə böyük diqqət yetirilməsinə baxmayaraq, son illərədə keyfiyyətin idarə edilməsinə yeni yanaşmalar, yeni strategiya formalaşmışdır. Bu strategiyada firmaların

məhsul keyfiyyətinin yüksəldilməsi məsələlərində kifayət qədər maraqlı olmamaları qeyd edilməklə keyfiyyətə münasibətin dəyişdirilməsinin zəruriliyi qarşıya qoyulur.

Şəkil 15.2.3. Məhsulun keyfiyyətinin idarə edilməsi

ABŞ-ın Gellap institutu sənaye və xidmət sahələrində işləyən 700-ə yaxın firmanın iştirakı ilə sorğu keçirmişdir. Sorğu nəticəsində məlum olmuşdur ki, müəssisə rəhbərlərinin 57%-i keyfiyyət məsələlərinə daha çox diqqət yetirir. Onlar keyfiyyət məsələlərinin xərclər və mənfəət məsələlərindən daha üstün olduğunu bəyan etmişlər. Lakin rəhbərlərin 32%-i isə birinci yerdə mənfəət olduğunu qeyd etmişlər. Sahibkarların yarıdan çoxu xərclərin azaldılmasının ən etibarlı üsullarından birinin keyfiyyət olduğuna inanmır. Rəhbərlərin 70%-dən çoxu rəhbərlik etdikləri firmaların iqtisadiyyatının əsaslarını bilmədiklərini biruzə vermişdir. Onlardan keyfiyyətin təmin olunması üçün nə qədər xərc çəkildiyini soruşduqda bu xərclərin 5-10% olduğunu söyləmişlər, əslində isə ümumi həcminin 20-30%-ni təşkil edir. Altı rəhbərdən biri məhsulun keyfiyyətinin təminatı üçün lazım olan xərclərin miqdarı haqqında anlayışın olmadığını bildirmişdir.

Sərt rəqabət mübarizəsi şəraitində firmalar yalnız məhsulun keyfiyyətinin sistemli idarə edilməsini tətbiq etdikdə müvəffəqiyyətlə inkişaf edə bilərlər.

Keyfiyyətin yeni strategiyası bir sıra məsələlərlə xarakterizə olunur:

- keyfiyyətin təmin olunması hər hansı bir bölmənin həyata keçirdiyi texniki funksiya kimi deyil, firmanın bütün təşkilati strukturlarından keçən sistemli proses kimi başa düşülür;
- keyfiyyətin yeni anlayışına müəssisənin müvafiq təşkilat strukturu tam cavab verməlidir;
- keyfiyyət məsələləri yalnız istehsal tsikli çərçivəsində deyil, layihələndirmə, konstruksiya edilmə, marketinq və satışdan sonrakı xidmət proseslərində aktuallıq təşkil etməlidir;
- keyfiyyətin yüksəldilməsi layihənin avtomatlaşdırılmasından başlamış keyfiyyətə nəzarət prosesində avtomatlaşdırılmış ölçmələrə qədər istehsalın yeni texnologiyasının tətbiq edilməsini tələb edir;
- keyfiyyətin yüksəldilməsinə yalnız bütün işçilərin birgə marağı və səyi nəticəsində nail olmaq olar.

Bütün bunlar yalnız məhsulun keyfiyyətinin idarə edilməsinin dəqiq təşkil olunmuş, istehlakçıların maraqlarına yönəlmiş və bütün bölmələri əhatə edən və bütün heyət tərəfindən qəbul olunan sisteminin tətbiqi ilə həyata keçirilə bilər.

Məhsulun keyfiyyəti – əməyin, əmək alətlərinin, əmək vasitələrinin, texnologiyanın, idarəetmənin, bütünlükdə istehsal mühitinin keyfiyyətinin nəticəsidir.

15.3. Məhsulun standartlaşdırılması

Məhsulun keyfiyyətinin idarə edilməsi sisteminin zəruri elementi standartlaşdırmadır. Bütün dünyada standartlaşdırma keyfiyyətin və elmi-texniki tərəqqinin (ETT) daşıyıcısıdır, ona görə də ölkədə çox şey onun səviyyəsindən asılıdır.

Standartlaşdırma sahəsində Azərbaycan Respublikasının «Standartlaşdırma haqqında» Qanununda şərh edilmiş əsas anlayışların mahiyyətinə baxaq. Geniş mənada standartlaşdırmanın obyekti dedikdə, məhsullar, proseslər və xidmətlər başa düşülür ki, bunlar da istənilən materiala, komponentə, avadanlığa, sistemə, onların uyuşanlığına, qaydalara, proseduraya, funksiyalara, metoda və ya fəaliyyətə müxtəlif dərəcədə aid edilir.

Standart – standartlaşdırma üzrə bir qayda olaraq əsas məsələlər üzrə maraqlı tərəflərin əksəriyyətində əsas məsələlər üzrə iradların olmaması ilə xarkterizə olunan razılıq əsasında hazırlanmış və səlahiyyətli orqan (və ya nümayəndə) tərəfindən təsdiq olunmuş normativ sənəddir. Həmin normativ sənəddə standartlaşdırmanın müəyyən

obyektlərinə aid olan ümumi və dəfələrlə istifadə olunan qaydalar, ümumi prinsiplər, xarakteristikalar, tələblər və metodlar müəyyən olunur. O, müəyyən sahədə nizamlamanın optimal dərəcəsinin əldə olunmasına yönəlmişdir.

Standartlar elm və texnikanın nəticələrinin və təcrübənin ümumiləşdirilməsinə əsaslanır və cəmiyyət üçün optimal səmərənin əldə edilməsinə yönəldilir.

Azərbaycanda standartlaşdırma üzrə normativ sənədlər aşağıdakı kateqoriyalara bölünür:

- dövlət standartları;
- sahə standartları;
- texniki şərtlər;
- müəssisələrin və birliklərin standartları;
- elmi-texniki və mühəndis cəmiyyətlərin standartları.

Standartlaşdırma obyektinin xüsusiyyətindən və ona verilən tələblərin məzmunundan asılı olaraq standartların aşağıdakı növləri hazırlanır:

- əsas standartlar;
- məhsul və xidmət üçün standartlar;
- proseslər üçün standartlar;
- nəzarət metodları (sınaq, ölçmə, təhlil) üçün standartlar.

Yayılmanın miqyasına görə aşağıdakı standartlar mövcuddur:

- milli;
- regional (məhəlli);
- dövlətlərarası;
- beynəlxalq.

Milli standart – bir ölkənin standartlaşdırma üzrə milli orqanı tərəfindən qəbul olunmuş standartdır.

Regional standart – standartlaşdırma üzrə regional beynəlxalq təşkilatın qəbul etdiyi standartdır.

Dövlətlərarası standart – standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılmasına dair müqaviləyə qoşulmuş dövlətlərin qəbul etdiyi və onlar tərəfindən bilavasitə tətbiq olunan standartdır.

Beynəlxalq standart – standartlaşdırma üzrə beynəlxalq təşkilatın qəbul etdiyi standartdır.

Beynəlxalq standartların əsas təyinatı yeni keyfiyyət sistemlərinin hazırlanması və mövcud keyfiyyət sistemlərinin təkmilləşdirilməsi və onların sertifikatlaşdırılması üçün beynəlxalq səviyyəli vahid metodiki əsasın (bazanın) yaradılmasıdır.

Azərbaycan Respublikasının yeni standartlaşdırma sisteminə aşağıdakılar xarakterikdir: 1) ölkə və beynəlxalq standartların tələblərinin maksimal yaxınlaşdırılması; 2) dövlət standartları tələblərinin göstəricilərinin yalnız qanunla tənzimlənən hissəsinin məcburiliyinin saxlanması. Buraya hər şeydən əvvəl insan və ətraf mühit üçün təhlükəsizlik, texniki və funksional uyuşanlıq və qarşılıqlı əvəzolunma göstəriciləri daxildir. Bundan əlavə sınaq metodlarını və obyektlərin qiymətləndirilməsini reqlamentləşdirən standartlara üstünlük verilir.

Eyni zamanda qeyd etmək lazımdır ki, SSRİ-nin standartlar fondu mühafizə olunmuşdur. Həmin standartlar indi Azərbaycanda və MDB ölkələrində tətbiq olunmaqdadır və onlar artıq dövlətlərarası standart statusunu almışdır. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması probleminin həlli üçün ölkəmizin standartlarına müntəzəm olaraq yenidən baxılmalı, elm və texnikanın inkişafı nəzərə alınmaqla təkmilləşdirilməli, getdikcə beynəlxalq standartlara yaxınlaşmalı və ya onları qabaqlamalıdır.

Standartlaşdırma üzrə beynəlxalq təşkilat (İSO) 1979-cu ildə «Keyfiyyətin idarə edilməsi və keyfiyyətin təmin olunması» adlı texniki komitə yaratmışdır. 1986-cı

ildə bu komitə Böyük Britaniyanın standartlarına və Beynəlxalq elektrotexnika komissiyasının (MEK) təcrübəsinə əsaslanaraq İSO 9000 seriyalı əsas standartları hazırlamış və 1987-ci ildə çap etdirmişdir. Həmin standartlar bütün dünyada tanınmışdır. Hazırda bu standartlar dünyanın 73 ölkəsində, eləcə də Avropa İttifaqında da fəaliyyət göstərməkdədir. 68 ölkədə isə İSO 9000 standartları bilavasitə tətbiq olunmaqdadır. Bunun nəticəsində İSO 9000 standartları məhsulun sertifikatlaşdırılması (qeydiyyatı) və müəssisənin keyfiyyət sistemi üçün normativ baza olmuşdur. Dünyanın 51 ölkəsində belə sistemlər mövcuddur. İSO 9000 standartlarının ideologiyası sınaqlar və sertifikatlar üzrə Avropa təşkilatının (SSAT) işinin əsasında durur. Ona görə də ölkəmizin müəssisələrində standartlaşdırmanın bu sistemlərinin tətbiqi böyük əhəmiyyət kəsb edir.

İSO 9000 standartları müəssisənin bazardakı yeni vəziyyətini müəyyən edir. Hansı istehsalçı bu standartlara uyğun olaraq işlədiyini təsdiq edən sənədləri istehlakçıya birinci təqdim edərsə, o, bazarda üstün mövqeyə malik olur. Onun məhsuluna qiymət müvafiq sertifikatı olmayan istehsalçıların qiymətindən bir qayda olaraq 2-4 dəfə yüksək olur.

İSO 9000 seriyalı standartların tərkibinə aşağıdakılar daxildir:

1. İSO 9000 – «Keyfiyyətə ümumi rəhbərlik və keyfiyyətin təmin edilməsi üzrə standartlar. Seçmə və tətbiq üzrə rəhbər göstərişlər».

2. İSO 9001 – «Keyfiyyət sistemi. Layihələndirmə və (və ya) hazırlanma, istehsal, quraşdırma və xidmət zamanı keyfiyyətin təmin edilməsi modeli».

3. İSO 9002 – «Keyfiyyət sistemi. İstehsal və quraşdırma zamanı keyfiyyətin təmin edilməsi üçün model».

4. İSO 9003 – «Keyfiyyət sistemi. Yekun nəzarət və sınaqlar zamanı keyfiyyətin təmin edilməsi üçün model».

5. İSO 9004 – «Keyfiyyətə ümumi rəhbərlik və keyfiyyət sisteminin elementləri. Rəhbər göstərişlər».

Sənayecə inkişaf etmiş ölkələrin bir çoxunda (Avstriya, AFR, Fransa, Böyük Britaniya, İsveç və s.) bu standartlar milli standartlar kimi qəbul olunmuşdur.

Eyni zamanda Standartlar üzrə Avropa təşkilatı EN№29000 və EN№29004 tipli Avropa standartlarını hazırlamışdır. Bu standartların əsas tələbləri keyfiyyət sistemlərinə beynəlxalq standartların tələbləri ilə eynidir.

Hazırda dünyanın bütün inkişaf etmiş ölkələri beynəlxalq standartları tanıyır və firmalarda mövcud olan keyfiyyət sistemlərini təkmilləşdirmək üçün onlardan istifadə edirlər.

İSO 9000 seriyalı beynəlxalq standartlara uyğun olaraq keyfiyyət sahəsində fəaliyyətin aşağıdakı əsas istiqamətlərini fərqləndirirlər:

- keyfiyyətin planlaşdırılması;
- keyfiyyətin idarə edilməsi;
- keyfiyyətin təmin edilməsi;
- keyfiyyətin yaxşılaşdırılması.

Xarici bazarlara çıxış və birbaşa təsərrüfat əlaqələrinin yaradılması zamanı İSO 9000 seriyalı beynəlxalq standartların mütərəqqi xarakteri və onların tənzimləyici rolu nəzərə alınaraq İSO 9001, İSO 9002 və İSO 9003 standartları Azərbaycanda da tətbiq olunur.

Beynəlxalq standartlar aşağıdakı hallarda tətbiq edilir:

1) müqavilələrdə layihə işlərinə və məhsula tələblərin istismar xarakteristikaları şəklində ifadə olunduğu xüsusi qeyd olunduqda və ya onların təyin edilməsi zərurəti göstərildikdə;

2) istehlakçı gətirilən məhsulun qoyulmuş tələblərə uyğun olduğuna əmin olduqda. Malgöndərən məhsulun

layihələndirilməsi, hazırlanması, istehsalı, quraşdırılması və xidmət sahəsindəki imkanlarını sübut etməlidir. Bunun üçün o, müvafiq sənədlərlə rəsmiləşdirilmiş keyfiyyət sistemini hazırlamalı və saxlamalıdır.

İSO 9000 seriyalı beynəlxalq standartlar müəyyən xüsusiyyətlərə malikdir:

- məhsulun keyfiyyətinin idarə edilməsinə sistem baxımının tətbiqi;
- istehlakçıya səmtlənmə;
- məhsulun həyat tsiklinin bütün mərhələləri üzrə reqlamentləşdirilmiş tələblərin olması;
- məhsulun keyfiyyətinin idarə edilməsi əsas funksiyalar (motivasiya və tənzimləmədən başqa) üzrə həyata keçirilir;
- konkret tələblərin sənədli (yaxşı olar ki, kəmiyyətcə) rəsmiləşdirilməsi;
- tövsiyyə xarakterində olması.

Məhsulun keyfiyyətinin təmin edilməsi sahəsində qazanılmış təcrübə dərindən öyrənilməli, təhlil olunmalı və sistemləşdirilməlidir. Həmin təcrübə məsələləri və onların hüquqi cəhətdən rəsmiləşdirilməsi ilə məhz Standartlaşdırma üzrə beynəlxalq təşkilat (İSO) məşğul olur. İSO-nun əsas vəzifəsi beynəlxalq ticarətə yardım, müxtəlif milli standartların fəaliyyəti və s. ilə əlaqədar meydana gələn «qeyri-gömrük» maneələrinin ləğv edilməsi üçün beynəlxalq standartları hazırlamaqdır. Ölkələr arasında əmək bölgüsünün intensivləşməsi şəraitində beynəlxalq standartların tətbiqi milli bazarların sərhədlərini genişləndirməyə imkan verir. Dünya birliyində istifadə olunan beynəlxalq standartlar şəkil 15.3.1.-də göstərilir.

Standartlaşdırma məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların mürəkkəb və şaxələnmiş sistemi yaranmışdır. Onun tərkibinə 450 ümumdünya və regional (məhəlli) təşkilat daxildir və onları üç qrupa bölmək olar:

Birgə texniki layihələrin hazırlanması

Beynəlxalq tədqiqatların aparılması

Vahid texniki dilin (terminlər və təriflər lüğəti) yaradılması

Sınaq laboratoriyalarının akkreditasiyasının elmi-metodiki təminatı

Xammala və komplektləşdirici materiallara qoyulan texniki tələblərin uzlaşdırılması

Birgə müəssisələrin fəaliyyətinin normativ texniki təminatı

Ticarətdə qeyri-tarif baryerlərinin ləğv edilməsi

Malı müşayiət edən sənədlərə tələblərin harmonikləşdirilməsi

Tədiyyə və bank sənədlərinin vahidləşdirilməsi

Məhsulun standartlara və reqlamentlərə uyğunluğunun sertifikatlaşdırılması

Ətraf mühitin çirklənməsinin mümkün normalarının hazırlanması

Amillərin təhlükəsizliyinə təsir edən təhlükəsizlik səviyyələrinin müəyyənləşdirilməsi

Təbiətdə istifadə olunan materiallara və preparatlara texniki tələblərin uzlaşdırılması

Şəkil 15.3.1. Dünya birliyində beynəlxalq standartlar

1. İxtisaslaşdırılmış ümumdünya təşkilatları. Buraya gündəlik tələbat mallarından tutmuş kosmik avadanlığa və ətraf mühitin mühafizəsinə qədər normativ-texniki sənədləri hazırlayan və bütün kontinentləri əhatə edən ölkələr daxildir. Burada əsas yeri İSO tutur.

2. İxtisaslaşdırılmış regional (məhəlli) təşkilatlar. Onlar müəyyən coğrafi zonanın xüsuiyyətlərini nəzərə alan normativ – texniki sənədləri hazırlayırlar.

3. Ümumdünya və regional qeyri-ixtisaslaşdırılmış təşkilatlar. Buraya müvafiq sahədəki əsas fəaliyyətlə yanaşı standartlaşdırma məsələləri ilə məşğul olan elmi-texniki, peşəkar, sosial və digər təşkilatlar daxildir.

Bu qrupa 300-dən çox təşkilat daxildir. Onlar həm hökumət, həm də qeyri-hökumət səviyyələrdə fəaliyyət göstərirlər. Onun tərkibinə BMT-nin iqtisadi komissiyaları və ixtisaslaşdırılmış idarələri (EKOSOS, EKA, FAO, YUNİDO, YUNESKO, MAQATE, İKAO və s.), ölkələr arası təşkilatlar (Avropa kömür və polad birliyi – AKİB, Ümumdünya intellektual mülkiyyət təşkilatı – ÜİMT), eləcə də qeyri-hökumət beynəlxalq təşkilatları (Beynəlxalq ticarət palatası, Bynəlxalq dəmiryolu ittifaqı və s.) daxil olur. Standartlaşdırma məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların təsnifatı şəkil 15.3.2-də göstərilir.

15.4. Məhsulun sertifikatlaşdırılması

İstər daxili, istərsə də dünya bazarında malların müvəffəqiyyətlə satışının vacib şərti onların həmin ölkələrdə fəaliyyət göstərən normaların, qaydaların və qanunların tələblərinə uyğunluğudur.

Məhsulların ixracının genişləndirilməsi onları sertifikatlaşdırmadan qeyri-mümkündür.

Şəkil 15.3.2. Standartlaşdırma məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların təsnifatı

Məhsulların, işlərin və xidmətlərin sertifikatlaşdırılması haqqında rəsmi sənədlər əsasən aşağıdakı üç bölmədən ibarət olur:

1. Ümumi müddəalar.
2. Məcburi sertifikatlaşdırma.
3. Könüllü sertifikatlaşdırma.

Birinci bölmədə sənədin fəaliyyət dairəsi göstərilir, tətbiq olunan əsas anlayışlar açılır, sertifikatlaşdırmanın məqsədləri və sistemləri şərh edilir.

Mülkiyyət formasından və fəaliyyət növlərindən asılı olmayaraq bütün müəssisələrin, idarələrin və təşkilatların məhsulları sertifikatlaşdırılmalıdır.

Sertifikatlaşdırma – məhsulun müəyyən olunmuş tələblərə uyğunluğunun təsdiq edilməsi üzrə fəaliyyətdir.

Başqa sözlə sertifikatlaşdırma alınmış məhsulun milli normativ-texniki sənədlərə və ya beynəlxalq tələblərə cavab verməsi barədə istehlakçıya təminat verilməsi vasitəsidir.

Sertifikatlaşdırmanın əhəmiyyəti çox böyükdür. Birincisi, bu, istehlakçı üçün yüksək keyfiyyət təminatı, istehsalçılar üçün isə reklamın təsirli vasitələrindən biridir.

İkincisi, sertifikatlaşdırma insanların sağlamlığına və ya ətraf mühitə təhlükə yaradan malların bazara daxil olmasının qarşısını almaq vasitəsidir.

Üçüncüsü, sertifikatlaşdırma milli bazarları xarici mallardan müdafiənin təsirli vasitəsidir.

Dördüncüsü, sertifikatlaşdırma beynəlxalq ticarətdə istehsalçıların (satıcıların) iştirakına şərait yaradır.

Beşincisi, sertifikatlaşdırma elmi-texniki tərəqqinin sürətləndirilməsinə imkan verir. Satış bazarlarının genişləndirilməsinə can atan müəssisələr məmulatların yeni konstruksiyalarının fasiləsiz hazırlanması, mütərəqqi texnologiyaların, avadanlığın, materialların tətbiqi, istehsalın təşkilinin təkmilləşdirilməsi məcburiyyətində qalırlar.

Sertifikatlaşdırmanın əsas vəzifəsi ölkədə verilən sertifikatların xarici tərəfdaşlar tərəfindən tanınmasına nail olmaq və bununla da ölkənin məhsullarına xarici bazara yol açmaqdan ibarətdir.

Məhsulunu sertifikatlaşdırmağı planlaşdıran müəssisə sertifikatlaşdırmanı aparmaq üçün müvəkkil olunmuş orqana ərizə ilə müraciət edir. Ərizəni alandan sonra həmin orqan istehsalın hansı təşkilat tərəfindən yoxlanılacağını və məhsulun sınaqlarının hansı laboratoriyada aparılacağını müəssisəyə bildirir.

Əgər yoxlama və sınaqlar məhsulun dövlət standartlarının tələblərinə uyğun gəldiyini təsdiq edirsə, protokol tərtib edilir və sonradan Dövlət standartları orqanlarına göndərilir. Həmin təsdiqedici sənədlər əsasında Dövlət standartı istehsalçı müəssisəyə maksimum 3 il müddətinə uyğunluq sertifikatını verir.

Məhsulun sertifikatlaşdırılması prosesi ilə əlaqədar olan bütün xərclər ərizəçi müəssisə tərəfindən ödənilir ki, sonradan həmin xərclər istehsal xərclərinə daxil edilir.

Qərbi Avropanın demək olar ki, bütün ölkələrində, ABŞ-da və Yaponiyada məcburi sertifikatlaşdırma geniş yayılmışdır və bir qayda olaraq, təhlükəsizliklə, sağlamlığın qorunması ilə və ətraf mühitin mühafizəsi ilə əlaqədardır.

Sertifikatlaşdırma aşağıdakı məqsədlər üçün həyata keçirilir:

- ölkənin vahid əmtəə bazarında müəssisələrin, idarələrin, təşkilatların və sahibkarların fəaliyyəti, eləcə də beynəlxalq iqtisadi, elmi-texniki əməkdaşlıqda iştirak etmək üçün şəraitin yaradılması;
- vicdansız tədarükçülərdən (satıcılardan, icraçılardan) istehlakçının müdafiə edilməsi;

- ətraf təbii mühit, həyat, sağlamlıq və əmlak üçün məhsulun təhlükəsizliyinə nəzarət edilməsi;

- məhsulun keyfiyyəti üzrə istehsalçının bildirdiyi göstəricilərini təsdiq etmə;

- məhsulun sərişləliklə seçilməsində istehlakçılara yardım göstərilməsi;

- məhsulun ixracına və rəqabət qabiliyyətinin yüksəldilməsinə yardım göstərilməsi.

Sertifikatlaşdırma aşağıdakı əsas prinsiplərə əsaslanır:

1) məhsulun təhlükəsizliyi və onun keyfiyyəti haqqında informasiyanın doğruluğunu qiymətləndirərkən dövlət maraqlarını təmin etmək;

2) könüllülük və ya məcburilik;

3) obyektivlik, yəni, istehsalçı və istehlakçıdan asılı olmamaq;

4) doğruluq (mötəbərlik), yəni, peşəkar-sınaq bazasından istifadə edilməsi;

5) ölkə və xarici istehsalçıların (və ya ayrı-ayrı firmaların) məhsulunu sertifikatlaşdırdıqda diskriminasiyaya yol verməmək;

6) sertifikatlaşdırma üzrə orqanın və sınaq laboratoriyasının seçilməsi hüququnu istehsalçının ixtiyarına buraxmaq;

7) sertifikatlaşdırma iştirakçılarının məsuliyyətini müəyyən etmək;

8) sertifikatlaşdırmanın hüquqi və texniki təminatından, eləcə də onun nəticələrindən çox funksiyalar üzrə istifadə etmək;

9) sertifikatlaşdırmanın müsbət nəticələri və ya sertifikatın fəaliyyətinin dayandırılması haqqında informasiyanın açıqlığı;

10) məhsulun və xidmətin sertifikatlaşdırılmasında onların xüsusiyyətləri, istehsalın və istehlakın xarakteri

nəzərə alınmaqla istifadə edilən forma və metodların müxtəlifliyi.

Azərbaycanda məhsulun, xidmətin və digər obyektlərin könüllü və məcburi sertifikatlaşdırılmasının hüquqi əsasları bu sahədəki beynəlxalq normalara cavab verməlidir.

Sertifikatlaşdırmanın təşkili iki mərhələdən ibarətdir:

- sertifikatlaşdırılacaq məhsulun yaradılması və istehsalı üçün şəraitin təmin edilməsi və həyata keçirilməsi;

- normativ-texniki sənədlərin tələblərinə uyğunluğunun təsdiqi kimi məhsulun sertifikatlaşdırılmasının təşkili və aparılması.

Sertifikatlaşdırma iqtisadi və təşkilati-texniki aspektləri əhatə edir. İstehsalların və məhsulların sertifikatlaşdırılması ilə yanaşı İSO məhsulun sertifikatlaşdırılmasını həyata keçirəcək sınaq mərkəzlərinin sertifikatlaşdırılmasını və ya akkreditələşdirilməsini həyata keçirir. Belə mərkəzlərə İSO sertifikatlaşdırma üçün lisenziya verir.

Məhsulun, xidmətlərin və digər obyektlərin məcburi və könüllü sertifikatlaşdırılmasının hüquqi əsasları Azərbaycanda 10 iyun 1993-cü ildə qəbul olunmuş «Məhsulların və xidmətlərin sertifikatlaşdırılması haqqında» Qanunla tənzimlənir.

İştirakçılar dairəsindən asılı olaraq sertifikatlaşdırma beynəlxalq, regional (məhəlli), çoxtərəfli, ikitərəfli və milli ola bilər.

Hüquqi əlamətinə görə sertifikatlaşdırma məcburi və könüllü ola bilər.

Məcburi sertifikatlaşdırma – məhsulun vətəndaşların həyatı, sağlamlığı və əmlakı, eləcə də ətraf mühitin mühafizəsi üçün təhlükəsizliyi təmin edən göstəriciyə və qanunvericiliklə müəyyən olunmuş digər göstəricilərə uyğun gəlməsinin - təsdiq edilməsi sahəsində təsərrüfatçılıq subyektlərinin fəaliyyətidir. Bu, «İstehlakçıların

hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gəlir. Azərbaycanda sertifikatlaşdırma 1 yanvar 1993-cü ildən tətbiq edilir. Qida məhsulları, elektrik avadanlığı, avtomobillər, tikinti materialları, təyyarələr və başqa məhsullar məcburi sertifikatlaşdırılır.

Məcburi sertifikatlaşdırılmalı məhsul sertifikatlaşdırılmamışdırsa, onun satışı qadağandır.

Könüllü sertifikatlaşdırma – məhsulun qanunvericilikdə məcburi sertifikatlaşdırılması nəzərdə tutulmayan göstəricilərə uyğunluğunun təsdiq edilməsi üzrə müvafiq təsərrüfat orqanlarının və subyektlərinin fəaliyyətidir.

Könüllü sertifikatlaşdırma əsas etibarilə məhsulun etibarlılığını, uzunömürlülüyünü, bir məhsulu digər məhsuldan əlverişli şəkildə fərqləndirən erqonomik, estetik, iqtisadi və başqa xarakteristikalarını əhatə edir.

Aparılması proseduralarına görə öz-özünü sertifikatlaşdırmanı və üçüncü tərəfin vasitəsilə sertifikatlaşdırmanı fərqləndirirlər.

Öz-özünü sertifikatlaşdırma və ya İSO-nun terminologiyasına görə «malgöndərənin məhsulun uyğunluğuna dair bəyanatı» məhsulun standartların tələblərinə uyğunluğunu təmin etmək üzrə istehsalçı müəssisələrin və ya kənar təşkilatların iştirakı olmadan müxtəlif birliklərin (assosiasiyaların) həyata keçirdiyi tədbirlərdir. Öz-özünü sertifikatlaşdırma Yaponiyada, ABŞ-da, Kanadada, Almaniyada, Hollandiyada və başqa ölkələrdə geniş yayılmışdır.

Üçüncü tərəfin vasitəsilə sertifikatlaşdırma, daha doğrusu, vasitəçilərlə sertifikatlaşdırma kənar təşkilatların iştirakını nəzərdə tutur. Həmin təşkilatlar aparılan tədbirləri qiymətləndirir və onların qəbul olunmuş qaydalara uyğun şəkildə düzgün aparıldığını təsdiq edir,

nümunələrin sınaqlarını və texnoloji prosesin vəziyyətinə nəzarəti həyata keçirirlər.

Sertifikatlaşdırmanı keçmiş məhsullara uyğunluq sertifikatı verilir, məhsula uyğunluq nişanı vurulur, o, sertifikatlaşdırma mərkəzində satışına icazə verilmiş məmulatların siyahısına daxil edilir və müəssisəyə sertifikatın tanınması haqqında şəhadətnamə verilir.

Uyğunluq sertifikatı – sertifikatlaşdırma sisteminin qaydalarına görə verilmiş və sertifikatlaşdırılan məhsulun normativ aktların, konkret standartların və ya standartlaşdırma üzrə digər normativ sənədlərin tələblərinə uyğunluğunu təsdiq edən sənəddir.

Uyğunluq nişanı – müəyyən qaydada qeydiyyatdan keçmiş nişandır və o, sertifikatlaşdırma sisteminin qaydaları üzrə onların markaladıqları məhsulun normativ aktların, konkret standartların və ya standartlaşdırma üzrə digər normativ sənədlərin tələblərinə uyğunluğunu təsdiq edir.

Sertifikat – müəssisədə standartların bütün tələblərinə uyğun gələn məhsulun buraxıldığını təsdiq edən sənəddir.

Sertifikatlaşdırma sistemi – məhsulun sertifikatlaşdırılmasının aparılması üçün xüsusi prosedura qaydalarına və idarəetməyə malik olan sistemdir.

İstehsalçıların assosiasiyaları, xüsusi və ya hökumət orqanları sertifikatlaşdırma sisteminə daxildir. Ən geniş yayılmış sistem sertifikatlaşdırma (standartlaşdırma) üzrə milli təşkilatdan ibarət olan sistemdir.

Sertifikatlaşdırma sistemi müstəqildir, çünki o, nə istehsalçıya, nə də istehlakçıya məxsus deyildir.

Sertifikatlaşdırma sisteminə aşağıdakılar daxildir:məhsulun və istehsalın sertifikatlaşdırılması; istehsalçıların attestasiyası; sınaq laboratoriyalarının, həmcins məhsulların sertifikatlaşdırılması orqanlarının, keyfiyyət sistemlərinin sertifikatlaşdırılması və müəssisələrin attestasiyası orqanlarının, standartlara və ölçmə vasitələrinə

nəzarət üzrə ekspert-auditorların və dövlət müfəttişlərinin öyrənilməsi mərkəzlərinin akkreditə edilməsi.

Sertifikatlaşdırma sisteminin mühüm elementi sertifikatlaşdırma orqanının tərkibinə məcburi qaydada daxil olmayan, lakin məcburi qaydada akkreditə edilən sınaq orqanıdır (mərkəz və ya laboratoriyadır).

Müəssisə məhsulun sertifikatlaşdırılması üçün müvafiq təşkilata ərizə verdiyi andan sertifikatlaşdırma prosedurası başlanır. Məhsulun mövcud normativ-texniki sənədlərə uyğunluğunun ilkin yoxlanmasından sonra ərizəni təmin etmək haqqında qərar qəbul edilir.

Materialı öyrəndikdən sonra hər iki tərəfin hüquq və vəzifələrini təyin edən birgə sənəd və sınaqlarda və məhsulun keyfiyyətinə nəzarət zamanı istifadə olunan texniki nəzarət vasitələrinin göstərildiyi əlavə sənədlər qəbul edilir.

Həmcins məhsulun sertifikatlaşdırılması sisteminin prinsipial sxemi şəkil 15.4.1.-də verilir.

Sertifikatlaşdırma prosesində aşağıdakı funksiyalar həyata keçirilir:

- texniki funksiyalar, daha doğrusu, analizlərin, nəzarət ölçmələrinin, sınaqların və s. keçirilməsinin köməyilə uyğunluğun bilavasitə müəyyən edilməsi;
- qeyri-texniki funksiyalar, daha doğrusu, məhsulun fəaliyyətdə olan standartlara uyğunluğuna daimi nəzarət edilməsi.

MDB ölkələrinin bazar münasibətlərinə keçilməsi və xarici iqtisadi əlaqələrin genişləndirilməsi ilə məhsulun sertifikatlaşdırılması üzrə işlər fəallaşmışdır. Perspektivdə sertifikatlaşdırma bütün müəssisələri əhatə edəcəkdir.

Şəkil 15.4.1. Həmcinç məhsulun sertifikatlaşdırılması sisteminin prinsipial sxemi

15.5. Məhsulun rəqabət qabiliyyəti və onun göstəriciləri

Bazar şəraitində konkret istehlakçının malların təklif olunan xassələrlə təmin olunması alqı-satqı aktında öz əksini tapır. İstehsalçının və istehlakçının maraqları gözlənilməklə malların xassələrinin, xarakteristikalarının və alıcıların tələblərinin bu yolla üst-üstə düşməsi malların bazarın tələblərinə tam uyğunluğunu göstərməklə məhsulun rəqabət qabiliyyətliliyini əks etdirir.

Beləliklə, mallar təkcə texniki, estetik, erqonomik və digər xassələr yığınına malik olmamalı, həm də onların satışı şərtlərinə (qiymət, malların göndərilməsi müddətləri, servis, firmanın nüfuzu, reklam və s.) cavab verməlidir. Məhsulun rəqabət qabiliyyətliliyi bazarın xüsusi şərtlərinin ödənilməsinə imkan verən istehlak (keyfiyyət və kəmiyyət) xarakteristikalarının kompleksi ilə müəyyən olunur.

Rəqabət qabiliyyətli məhsul ən az xərc tələb edən satış kanalları vasitəsilə bazarda asanlıqla və tez reallaşdırılır. Faktiki olaraq mallar ictimai tələbatı təmin etmək dərəcəsi üçün yoxlamadan keçir. Bu, müəyyən qrup alıcıların (bazar seqmenti) zövqləri və üstünlük verməsi ilə əlaqədardır. Ona görə rəqabət qabiliyyəti anlayışı həmişə konkretdir. Malın kommersiya baxımından əlverişli olması yalnız konkret bazarda müəyyən rəqabət şərtlərində mümkündür.

Hər bir alıcı onun şəxsi tələbatlarını maksimal dərəcədə təmin edən malı alır. Ümumiyyətlə alıcılar elə malları alırlar ki, həmin mallar başqalarına nisbətən ictimai tələbata daha tam uyğun gəlir. Ona görə də alıcının mallardan razılıq dərəcəsi də tək-tək alıcıların rəylərinin məcmusundan yaranır və mal bazara gəlməmiş, məmulatın həyat tsiklinin utilləşdirilməsinə qədər bütün mərhələlərində formalaşır. Məhz bu zaman istehlakçı uğrunda kəskin rəqabət mübarizəsi baş verir. Rəqabət qabiliyyəti alıcının maldan razılıq dərəcəsindən asılıdır.

Malların rəqabət qabiliyyəti (keyfiyyətdən fərqli olaraq) onların xassələrinin alıcıların müəyyən qrupu üçün şübhəsiz maraq doğuran hissəsi ilə müəyyən edilir və həmin tələbatın ödənilməsini təmin edir. Məhsulun digər xarakteristikaları və xassələri nəzərə alınmır. Daha yüksək keyfiyyət səviyyəli mal daha az rəqabət qabiliyyətli ola bilər, çünki malın nəzərdə tutulduğu alıcıların tələb etmədikləri digər xassələrin mallara verilməsi nəticəsində onların qiyməti əhəmiyyətli dərəcədə artır. Bundan əlavə eyni bir məhsul daxili bazarda rəqabət qabiliyyətli olsa da xarici bazarda rəqabət qabiliyyətli ola bilməz və ya əksinə.

Sənayecə inkişaf etmiş ölkələrin (Yaponiya, ABŞ, Fransa, AFR) bir çox şirkətlərində malların daxili bazarda rəqabət qabiliyyətinin təmin olunmasına çalışırlar, çünki belə olarsa malların xarici bazarda da satılacağına əminlik yaranır.

Beləliklə, malın keyfiyyət xarakteristikaları dəyişilməz qaldıqda da onun rəqabət qabiliyyəti bazarın konyukturasına, reklamın təsirinə, daxili və xarici amillərə nəzərən digər təzahürlərə cavab olaraq geniş ölçülərdə dəyişilə bilər.

Malın rəqabət aparmaq qabiliyyəti təhlil edilən məhsulun parametrlərini baza parametrləri ilə müqayisə etmək yolu ilə qiymətləndirilir. Müqayisə bazası kimi ya alıcının tələbatı, ya da nümunə götürülür. Adətən nümunə olaraq maksimal satış həcminə və gələcəkdə ən yaxşı satış perspektivinə malik olan analoji mal götürülür. Əgər baza kimi tələbat götürülərsə, onda rəqabət qabiliyyətinin vahid göstəricisi aşağıdakı düsturla hesablanır:

$$g_i = \frac{P_i}{P_{in}} \cdot 100,$$

burada g_i - i-ci parametrə görə rəqabət qabiliyyətinin vahid parametrik göstəricisi;

P_i - təhlil edilən məhsul üçün i-ci parametrin kəmiyyəti;

P_{in} - tələbatın tam ödənilməsi zamanı i-ci parametrin kəmiyyəti;

n - təhlil edilən parametrlərin sayıdır.

Əgər müqayisə bazası kimi nümunə götürülərsə, onda kəsrin məxrəcində nümunə kimi götürülmüş məmulat üçün i-ci parametrin kəmiyyəti yazılır.

Bəzən məhsulun parametri fiziki ölçüyə gəlməyə bilər. Bu halda həmin xarakteristikaların qiymətləndirilməsi üçün ballarla qiymətləndirmə metodlarından istifadə olunur.

Yuxarıda şərh olunmuş metod yalnız rəqabət qabiliyyətini təmin etmək üçün məhsulun parametrlərinin yüksəldilməsi və ya azaldılması faktını təsdiq edir və

istehlakçının malı seçərkən hər bir parametrə təsirini əks etdirir.

Bunun üçün kompleks metoddan istifadə olunur. Kompleks metod qrup, ümumiləşdirici və inteqral göstəricilərin tətbiqinə əsaslanır. Məsələn, texniki parametrlər üzrə qrup göstəricisi aşağıdakı düsturla hesablanır:

$$T_{tn} = \sum_{i=1}^{n} g_i \alpha_i ,$$

burada T_{tn} - texniki parametrlər üzrə rəqabət qabiliyyətinin qrup göstəricisi;

g_i - i-ci texniki parametr üzrə rəqabət qabiliyyətinin vahid göstəricisi;

α_i - tələbatı xarakterizə edən texniki parametrlərin ümumi yığımında i-ci parametrin çəkisi;

n - qiymətləndirmədə iştirak edən parametrlərin sayıdır.

İqtisadi parametrlər üzrə qrup göstəricisi aşağıdakı düsturla hesablanır:

$$T_{gn} = \frac{Z}{Z_o},$$

burada Z, Z_o - uyğun olaraq qiymətləndirilən məhsul və nümunə üzrə istehlakçının tam xərcləridir.

İstehlakçının tam xərcləri məhsulun əldə edilməsi üçün birdəfəlik xərclərdən (Z_e) və məhsulun istismarı üçün orta məcmu xərclərdən ibarətdir:

$$Z = Z_e + \sum_{i=1}^{T} S_i ,$$

burada T - xidmət müddəti;

i - sıra qaydasında illərdir.

Qarışıq metod malın bazarın müəyyən şərtlərində rəqabət aparmaq qabiliyyətini kompleks kəmiyyət göstəricisi – rəqabət qabiliyyəti əmsalı ilə ifadə etməyə imkan verir:

$$K_j = \sum_{ij=1}^{n} \alpha_i \left(\frac{P_{ij}}{P_{in}} \right)^{\beta_i} ,$$

burada $i = 1,2,3,....,n$ - məhsulun qiymətləndirmədə iştirak edən parametrlərinin sayı, $j = 1,2,3,...,n$ - məhsulun növləri; α_i - məhsulun digər parametrləri ilə müqayisədə alıcı üçün i-ci parametrin əhəmiyyətliliyi (vacibliyi, üstünlüyü) əmsalı; P_{ij} - j-ci məhsul üçün i-ci parametrin rəqabət qiyməti; P_{in} - alıcının tələbatını tam təmin etməyə imkan verən i-ci parametrin arzuolunan qiyməti; $\beta_i = +1$, əgər P_{ij} parametrinin artırılması məhsulun rəqabət qabiliyyətinin artmasına kömək edərsə (məsələn, məhsulun etibarlılığı, məhsuldarlığı və s.); $\beta_i = -1$, əgər P_{ij} parametrinin qiymətinin artması məhsulun rəqabət qabiliyyətinin azalmasına gətirib çıxararsa (məsələn, çəkisi, ölçüləri, qiyməti və s.).

Hər bir məhsul növü üzrə ümumi həcmdə baxılan göstəricilərdən hər birinin «xüsusi çəkilərinin» məbləğinin vahiddən və ya 100%-dən artıq ola bilməyəcəyini nəzərə alsaq α_i əhəmiyyətlilik əmsalı üçün zəruri şərt $\sum_{i=1}^{n} \alpha_i = 1$ olacaqdır.

Rəqabət qabiliyyətliliyi əmsalı malın yalnız hesablamalar üçün baza olan xassələr qrupunu nəzərə alır. Bununla belə bu hesablamalar zamanı müəyyən dərəcədə alıcının üstünlük dərəcəsini müəyyən edən xarakteristikaların böyük məcmusuna baxılır: satış qiyməti,

istehlak qiyməti, firmanın nüfuzu, gücü, məhsuldarlığı, resursları və s. Keyfiyyət göstəricilərini kəmiyyət göstəricilərinə çevirmək üçün adətən 1-dən 5-dək balı olan çevirici şkaladan istifadə olunur.

Rəqabət qabiliyyəti göstəricisi məmulatın tələb olunan xassələri layihələndirilən, məhsulun istehsalının potensial imkanlarının müqayisəsi, qiymətin müəyyən edilməsi, eləcə də digər problemlərin həlli zamanı olduqca vacibdir.

Məhsulun keyfiyyəti göstəriciləri məmulatın xassələrinin və xarakteristikalarının bütün məcmusunun müəyyən edilməsi üçün lazımdır. Məhsulun keyfiyyəti əməyin məhsulu olduğundan o, həm məhsulun dəyəri, həm də istehlak dəyəri ilə sıx surətdə əlaqədardır. Alıcını məhsulun təbiəti deyil, məhsulun əmtəəyə çevrilməsi, istehlak dəyərinə malik olması maraqlandırır. Alqı-satqı aktı baş verən zaman alıcı həmin məhsulun bazarın şərtlərinə uyğunluğunu təsdiq edir. Belə uyğunluğu nə qədər çox alıcı təsdiq edərsə, məhsulun rəqabət qabiliyyəti bir o qədər yüksək olar.

Azərbaycanda bazara keçid məhsulun keyfiyyəti və rəqabət qabiliyyəti probleminə başqa cür baxmağı tələb edir. Yaxın vaxtlarda inkişaf etmiş rəqabət bazarı məhsulun keyfiyyətinin səviyyəsini və inkişaf dinamikasını diqtə edəcəkdir. Bununla əlaqədar olaraq məhsul istehsalçıları qarşısında keyfiyyətin planlaşdırılması və idarə edilməsi, xərclərin uçotu, onun müəyyən səviyyəsinin əldə edilməsinin daha qənaətcil variantının və keyfiyyətin təmin edilməsi prosesinin təşkilinin ən yaxşı üsulunun seçilməsi vəzifələri durur. Bütün bu problemlər məhsul anlayışına, onun ölçülməsi üsullarına və metodlarına vahid yanaşma olduqda müvəffəqiyyətlə həll oluna bilər. Belə yanaşma yalnız müəssisədə keyfiyyət standartları sisteminin tətbiqi vasitəsilə təmin oluna bilər.

FƏSİL 16. MÜƏSSİSƏNİN İNNOVASİYA FƏALİYYƏTİ

16.1. İnnovasiya anlayışı, onun növləri və həyat tsikli

Müəssisənin innovasiya fəaliyyəti dedikdə, bütünlükdə yeniliklərə fərdi tələbi, eləcə də cəmiyyətin tələbatını ödəmək üçün yeni və ya yaxşılaşdırılmış məhsulların (xidmətlərin) və onların istehsalının yeni üsullarının alınması məqsədilə elmi, elmi-texniki və intellektual potensialdan istifadə üzrə tədbirlər sistemi başa düşülür.

Texniki-texnoloji yeniləşmə üsulunun və variantının seçilməsinin məqsədəuyğunluğu konkret situasiyadan, yeniliyin xarakterindən, onun müəssisənin profilinə, resurs və elmi-texniki poetnsialına, bazarın tələblərinə, texnika və texnologiyanın həyat tsiklinin mərhələlərinə, sahə mənsubiyyəti xüsusiyyətlərinə uyğunluğundan asılıdır.

Texnoloji innovasiyaların iki tipini fərqləndirirlər: məhsul və proses. Yeni məhsulun tətbiqi radikal məhsul innovasiyası kimi müəyyən edilir. Belə yeniliklər prinsipcə yeni texnologiyalara, ya da mövcud texnologiyaların yeni qaydada tətbiqi ilə əlaqələndirilməsinə əsaslanır. Məhsulun təkmilləşdirilməsi (inkremental məhsul innovasiyası) mövcud məhsulun keyfiyyət və ya dəyər xarakteristikalarının dəyişilməsini əks etdirir.

Proses innovasiyası istehsal və texnologiyanın yeni və ya xeyli təkmilləşdirilmiş üsullarının mənimsənilməsindən, avadanlıqda və ya istehsalın təşkilində dəyişikliklərdən ibarətdir.

Yenilik dərəcələrinə görə innovasiyalar prinsipcə yeni (daha doğrusu, əvvəllər ölkədə və xarici ölkələrdə analoqu olmayan) və nisbi yeniliyə malik innovasiyalara bölünür.

Məhsulun, texnologiyanın və xidmətlərin prinsipcə yeni növləri üstünlüyə, mütləq yeniliyə malik olur və orijinal nümunələr adlanır. Bu nümunələrin əsasında çoxaldılaraq yenilik-imitasiyalar, surətlər əldə edilir.

İnnovasiya-imitasiyalar arasında bazar yeniliyinə, yeni tətbiq sahələrinə malik texnikanı, texnologiyanı və məhsulu, müqayisəli yeniliyə malik yenilikləri (xarici ölkələrin və ölkəmizin yaxşı müəssisələrində analoqu olan) və yeniliklər-təkmilləşdirmələr əşya-məzmun strukturuna görə sıxışdırıcı, əvəzləyici, tamamlayıcı, yaxşılaşdırıcı və s. olur.

İnnovasiyalar müvafiq həyat tsiklinə malik olur. İnnovasiyaların həyat tsikli yeniliklərin yaradılmasının qarşılıqlı əlaqədar proseslərinin və mərhələlərinin məcmusudur. İnnovasiyaların həyat tsikli ideyanın yaranmasından onun reallaşdırılması əsasında hazırlanan innovasiya məhsulunun istehsaldan çıxarılmasınadək olan vaxt kəsiyidir.

İnnovasiyanın həyat tsiklinin ümumiləşdirilmiş sxemi 16.1.1.-ci şəkildə göstərilir.

İnnovasiyanın həyat tsikli aşağıdakı mərhələləri əhatə edir:

- ideyanın yaranması. Bu, lazımi həcmdə elmi-tədqiqat və layihə-konstruktor işlərinin yerinə yetirilməsi, yeniliyin təcrübə partyasının hazırlanması ilə müşayiət olunur;
- artım (bazara çıxışla bir vaxtda məhsulun sənaye istehsalının mənimsənilməsi);
- yetkinlik (seriyalı və ya kütləvi istehsal mərhələsi və satış həcminin artırılması);
- bazarın doldurulması (istehsalın və satışın maksimal həcmi);
- enmə (istehsalın azaldılması və məhsulun bazardan getməsi).

İnnovasiya fəaliyyəti mövqeyindən həm istehsalın, həm də yeniliyin tədavülünün həyat tsikllərini fərqləndirmək lazımdır. İstehsalın həyat tsiklinin qrafik təsvirini göstərmək olar (Şəkil 16.1.1.)

Şəkil 16.1.1. İnnovasiyanın həyat tsiklinin ümumi sxemi

Birinci mərhələ – yeniliyin tətbiqi – ən çox əməktutumlu və mürəkkəb mərhələdir. Məhz burada yeni məhsulun istehsalının mənimsənilməsi və sınaq partiyasının buraxılması üçün xərclərin həcmi daha böyükdür. Birinci mərhələdə texnologiya hazırlanır və təkmilləşdirilir, istehsal prosesinin reqlamenti işlənir. Məhsulun yüksək maya dəyəri

və güclərin yüklənməməsi də məhz bu mərhələdə müşahidə olunur.

İkinci mərhələ – istehsalın sənaye mənimsənilməsi – məhsul buraxılışının artırılması yavaş və vaxta görə uzun dövrü ilə səciyyələnir.

Şəkil 16.1.2. İnnovasiya məhsulunun istehsalının həyat tsikli

Üçüncü mərhələ – yüksəliş mərhələsi – istehsalın sürətli artımı, istehsal güclərinin yüklənməsinin xeyli artırılması, texnoloji prosesin və istehsalın təşkilinin nizamlılığı ilə fərqlənir.

Dördüncü mərhələ – yetkinlik və sabitləşmə mərhələsi – dayanıqlı sürətlə böyük həcmdə məhsul buraxılışı və istehsal güclərinin mümkün maksimal yüklənməsi ilə səciyyələnir.

Beşinci mərhələ – solma və ya enmə mərhələsi – güclərin yüklənməsinin aşağı düşməsi, həmin məhsulun

istehsalının azaldılması və mal ehtiyatlarının sıfıradək kəskin azaldılması ilə əlaqədardır.

Yeni texnika və texnologiyanın həyat tsiklinin tərkibi və strukturu istehsalın inkişafı parametrləri ilə sıx əlaqədardır. Belə ki, yeni texnika və texnologiyanın həyat tsiklinin birinci mərhələsində əmək məhsuldarlığı aşağı, məhsulun maya dəyəri çox yavaş aşağı düşür, müəssisənin mənfəəti zəif artır və ya iqtisadi səmərə hətta mənfi olur. Məhsul buraxılışının sürətlə artdığı dövrdə maya dəyəri xeyli aşağı düşür, ilkin xərclər ödənilir.

Texnika və texnologiyanın tez-tez dəyişilməsi istehsalda böyük çətinliklər və qeyri-sabitlik yaradır. Yeni texnikaya və yeni texnoloji proseslərin mənimsənilməsinə keçid dövründə müəssisənin bütün bölmələrinin səmərəliliyi göstəriciləri aşağı düşür. Buna görə də texnoloji proseslər və əmək alətləri sahəsindəki innovasiyalar qoyulmazdan əvvəl təşkilin və idarəetmənin yeni formaları yaradılmalı, iqtisadi səmərəliliyin əməliyyatlar, proseslər və detallar üzrə hesablanması həyata keçirilməlidir.

İnnovasiyaların həyat tsikli konsepsiyası həm məhsul buraxılışının maksimal həcminin, satışın və mənfəətin həcminin, həm də konkret yeniliyin həyat tsiklinin uzunluğunun müəyyən edilməsində çox mühüm rol oynayır.

Yeni texnika və texnologiyanın həyat tsiklinin uzunluğunun təhlili aşağıdakı ardıcıllıqla aparılır:

- müəyyən növ texnikanın və ya texnoloji prosesin tsiklinin dayanıqlı kəmiyyətini (o cümlədən, mərhələlər üzrə) müəyyən etmək üçün bütün dövrlərdə bu ailədən, nəsildən olan məmulatların həyat tsikllərinin ümumi uzunluğunun müəyyən edilməsi;
- həyat tsikllərinin və onların mərhələlərinin uzunluqlarının mərkəzi meyl ətrafında paylaşmasının müəyyən edilməsi, çünki bu, növbəti yeniliklərin həyat tsiklinin uzunluğunun proqnozu üçün əsas sayılır;

- yeni texnika və texnologiyanın həyat tsiklinin mərhələlərinin uzunluğuna uyğun olaraq istehsalın artımı strategiyası və taktikası üçün bazanın hazırlanması;

- gələcək nümunələrin tsikllərinin uzunluğu ehtimallarının və onlara mütənasib olaraq növbəti tsiklin vaxtına görə resursların bölüşdürülməsi;

- əvvəlki tsikllərin uzunluğuna təsir edən amillərin ətraflı təhlili və gələcək məmulatların həyat tsiklinə onların təsiri proqnozuna nəticələrin ekstropolyasiyası;

- ilkin məmulatların yığılması metodlarının formalaşdırılması və hesablamanın ekonometrik modellərinin tətbiqi.

Həyat tsikllərinin uzunluğunun təhlili metodikası istehsalın texniki-iqtisadi göstəricilərinin dinamikası haqqında fikir yürütməyə kömək edir. Birincisi, bu, maksimal səviyyəyə qədər istehsalın artımı dövrünü təyin etməyə imkan verir. Belə ki, bu dövrdə gətirilmiş xərclərin iqtisadi səmərəliliyi, məhsulun maya dəyəri, əmək məhsuldarlığı və rentabellik kimi əsas göstəricilərin ən yaxşı səviyyəsi əldə edilir. İkincisi, buraxılışın artımının texniki-iqtisadi göstəricilərin ekstremumundan və satış həcmindən asılılığını müəyyən etmək lazımdır, çünki onlar bir qayda olaraq üst-üstə düşmür. Üçüncüsü, buraxılışın həcmi iki dəfə artdıqda texniki-iqtisadi göstəricilərin dəyişilməsi meylini təhlil etmək, mütənasibliyin, ətalətin, gecikmə effektinin və s. olması haqda cavab vermək lazımdır. Bu metodikadan aydın olur ki, həyat tsikli mərhələlərinin uzunluğunun dinamikasının texniki-iqtisadi göstəricilərdən və satışın həcmindən asılı olaraq tədqiq edilməsi yeni texnika və texnologiyanın təhlilinin mühüm müasir metodlarından biridir.

Yenliklərin hazırlanması, tətbiqi, mənimsənilməsi və kommersiyalaşdırılması üzrə müəssisənin innovasiya fəaliyyəti aşağıdakıları əhatə edir:

- yenilik ideyalarının hazırlanması, laboratoriya tədqiqatlarının aparılması, yeni məhsulun, yeni texnikanın, yeni konstruksiyaların və məmulatların növlərinin, laboratoriya nümunələrinin hazırlanması üzrə elmi-tədqiqat və konstruktor işlərinin həyata keçirilməsi;

- yeni məhsul növlərinin hazırlanması üçün xammal və materialların lazımi növlərinin seçilməsi;

- yeni məhsulun istehsalının texnoloji prosesinin hazırlanması;

- məhsulun istehsalı üçün lazım olan yeni texnika nümunələrinin layihələndirilməsi, istehsalı, sınaqdan keçirilməsi və mənimsənilməsi;

- yeniliyin reallaşdırılmasına yönəlmiş yeni təşkilati-idarəetmə qərarlarının hazırlanması və tətbiqi;

- lazımi informasiya resurslarının tədqiqi, hazırlanması və ya alınması və innovasiyanın informasiya təminatı;

- ETLKİ-nin həyata keçirilməsi üçün lazım olan kadrların hazırlanması, tədrisi, ixtisasının artırılması və heyətin seçilməsinin xüsusi metodları;

-nou-hauların lisenziyalaşdırılması, patentləşdirilməsi və alınması üzrə işlərin aparılması və ya lazımi sənədlərin əldə edilməsi;

- innovasiyaların yeridilişi üzrə marketinq tədqiqatlarının təşkili və aparılması və s.

Müəssisənin innovasiya fəaliyyətinin inkişafı üçün onun elmi-texniki potensialının kəmiyyət və keyfiyyət göstəriciləri mühüm əhəmiyyət kəsb edir. Belə göstəricilər sırasına maddi-texniki, kadr, elmi-nəzəri, informasiya, təşkilati-idarəetmə, innovasiya, bazar, iqtisadi və maliyyə göstəriciləri daxildir.

Maddi-texniki göstəricilər ETLKİ-nin inkişafı səviyyəsini, təcrübə-sınaq avadanlığı, materiallar, cihazlar, təşkilat texnikası, kompüterlər, avtomatik qurğular və s. ilə təchizatı xarakterizə edir.

Kadr göstəriciləri ETLKİ-nə xidmət edən heyətin tərkibini, sayını, strukturunu və ixtisasını əks etdirir.

Elmi-nəzəri göstəricilər müəssisədə olan elmi işlərin əsasını təşkil edən axtarış və nəzəri-fundamental tədqiqatların nəticələrini xarakterizə edir.

İnformasiya göstəriciləri informasiya resurslarının, elmi-texniki informasiyanın, cari elmi dövri ədəbiyyatın, hesabatlar, reqlamentlər, texniki layihələr və digər layihə-konstruktor sənədləri şəklində olan elmi-texniki sənədlərin vəziyyətini xarakterizə edir.

Təşkilati-idarəetmə göstəricilərinə ETLKİ, innovasiya layihələrinin, informasiya axınlarının təşkili və idarə edilməsi metodları daxildir.

İnnovasiya göstəriciləri aparılan işlərin elmtutumunu, yeniliyini və üstünlüyünü, eləcə də patentlər, lisenziyalar, nou-haular, səmərələşdirici təkliflər, ixtiralar və s. şəklində olan intellektual məhsulu əhatə edir.

Bazar göstəriciləri yeniliklərin rəqabət qabiliyyəti səviyyəsini, ETLKİ-yə tələbin və sifarişlərin olmasını, bazara yeniliklərin yeridilməsi üzrə lazımi marketinq tədqiqatlarını və s. əks etdirir.

İqtisadi göstəricilər yeniliklərin iqtisadi səmərəliliyini, aparılan tədqiqatlar üçün xərcləri, intellektual məhsulların bazar dəyərini, müəssisənin özünün və kənar təşkilatların patentlərinin, lisenziyalarının, nou-hauların və intellektual mülkiyyətin digər növlərinin dəyərini göstərir.

Maliyyə göstəriciləri ETLKİ üçün investisiyaları, qeyri-maddi aktivləri, maliyyələşdirmə mənbələrini (səhmlərin və istiqrazların buraxılması imkanı, xarici və xüsusi investorların cəlb edilməsi və s.) xarakterizə edir.

16.2. Texniki səviyyə göstəriciləri və yeni texnika və texnologiyanın səmərəliliyi

Müəssisənin innovasiya fəaliyyətinin cari istehsaldan prinsipial fərqi ondadır ki, müəssisənin cari vəziyyəti, o cümlədən texniki və texnoloji vəziyyət əvvəlki illərin təcrübəsi və mövcud ənənələri əsasında müvəffəqiyyətin şərtlərinin aşkar edilməsinə əsaslanır. Belə təhlil üçün təsərrüfat fəaliyyətinin yekunları ilə xərclər arasındakı retrospektiv korrelyasiyanın tətbiqi səciyyəvidir. Bu zaman həmçinin aşağıdakı yanaşmalar da istifadə olunur: təsərrüfat fəaliyyətinin kompleks iqtisadi təhlili; istehsalın texniki-təşkilati səviyyəsinin təhlili; istehsal resurslarından istifadənin təhlili; maya dəyərinin, məhsulun həcminin və mənfəətin qarşılıqlı əlaqələrinin təhlili.

Müəssisənin innovasiya fəaliyyətinin təhlili üçün qeyri-müəyyənlik şəraitində müvəffəqiyyətin gələcək amillərinin təhlil-proqnozu və gələcək dövrlərin xərclərinin əsaslandırılması lazımdır. Cari istehsalın determinləşmiş iqtisadi proseslərdən fərqli olaraq sonralar kommersiyalaşdırılması da nəzərə alınmaqla yeni texnika və texnologiyanın tətbiqi stoxastik xarakter daşıyır. Ona görə də mənfəətə təsirin təhlili proqnozlaşdırma, ekspert qiymətləri, çox reqressiya təhlili metodları, eləcə də situasiya və imitasiya modelləşdirilməsi əsasında qurulmalıdır.

Bazar iqtisadiyyatı şəraitində innovasiya fəaliyyətinin səmərəliliyinin təhlili mürəkkəbləşir, çoxpilləli və çoxmərhələli xarakter alır. Yeni texnika və texnologiyanın səmərəliliyinin təhlilinin birinci mərhələsində yeni texnika və texnologiyanın texniki səviyyəsinin və səmərəliliyinin ənənəvi ümumiləşdirici və xüsusi göstəricilərindən istifadə etmək lazımdır. Yeniliyin texniki səviyyəsi göstəricilərinin təsnifatı 16.2.1.-ci şəkildə verilir:

Şəkil 16.2.1. Yeni texnika və texnologiyanın texniki səviyyəsi göstəricilərinin təsnifatı

Yenliklərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün adekvat texnoloji qərarı, təşkilin və istehsal aparatının müvafiq səviyyəsini seçmək lazımdır. Tətbiq edilən texnika və texnologiyanın səviyyəsinin təhlili təkcə yenilik və prioritetlik deyil, həmçinin mövcud şəraitə uyğunlaşma, istehsal aparatının yenidən sazlanma qabiliyyəti kimi mühüm xassələr tədqiq olunmalıdır. Texnika, texnologiya

və təşkilin çeviklik xassəsini xüsusilə fərqləndirmək lazımdır.

Bazar məkanının genişlənməsi, çox sayda diversifikasiyalar şəraitində yeniləşmə sürəti güclənir və məhsul növlərinin müxtəlifliyi və onların istehsalı üçün tətbiq edilən texnika və texnologiyalar artır. Müxtəlif modellərə və nəsillərə aid və həyat tsiklinin müxtəlif mərhələlərində olan mallar, texnika və texnologiya eyni vaxtda istehsal olunur. Bununla əlaqədar olaraq texnologiyanın dəyişilməsi və istehsal aparatının həmin dəyişikliklərə uyğunlaşması zərurəti kəskin surətdə artır.

Metodoloji baxımdan texniki-təşkilati səviyyənin iqtisadi səmərəliliyi göstəricilərini səviyyənin özünün göstəricilərindən (texnikanın, texnologiyanın, təşkilin, idarəetmənin və ETLKİ-nin vəziyyəti) fərqləndirmək lazımdır. İstehsalın əldə olunmuş texniki-təşkilati səviyyəsinin mühüm göstəriciləri 16.2.2.-ci şəkildə verilmişdir.

İstehsalın texniki-təşkilati səviyyəsinin yüksəlməsi son nəticədə istehsal prosesinin əsas elementlərindən (əmək, əmək vasitələri və əmək predmetləri) istifadə səviyyəsində təzahür olunur. Məhz buna görə də istehsal resurslarından istifadənin intensivliyini əks etdirən əmək məhsuldarlığı, fondverimi, materialtutumu, dövriyyə vəsaitlərinin dövr etməsi kimi iqtisadi göstəricilər tətbiq edilən yeni texnika və texnologiyanın səviyyəsinin yüksəlməsinin iqtisadi səmərəliliyi göstəriciləri hesab olunur.

Yuxarıda göstərdiyimiz göstəricilər (əmək məhsuldarlığı, fondverimi, materialtutumu və dövriyyə vəsaitlərinin dövretməsi) intensivləşdirmənin xüsusi göstəriciləri adlanır. Onların təhlilini texniki-təşkilati səviyyə amilləri üzrə aparmaq lazımdır. Xüsusi göstəricilərlə yanaşı ümumiləşdirici göstəricilərdən də istifadə olunur.

Şəkil 16.2.2. İstehsalın texniki-təşkilati səviyyəsi göstəriciləri

Texniki və təşkilati inkişaf üzrə tədbirlərin iqtisadi səmərəliliyinin yüksəldilməsini xarakterizə edən bütün ümumiləşdirici göstəriciləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əmək məhsuldarlığının artımı, işləyənlərin sayının və əmək haqqı fondunun nisbi kənarlaşması.

2. Materialveriminin (materialtutumunun azaldılması) artımı, maddi resursların sərfində nisbi kənarlaşma.

3. Əsas istehsal fondlarının fondverminin artımı (fondtutumunun azaldılması), əsas istehsal fondlarının nisbi kənarlaşması.

4. Dövriyyə vəsaitlərinin dövretmə sürətinin artımı, dövriyyə vəsaitlərinin nisbi kənarlaşması.

5. Əmək, maddi və maliyyə resurslarından intensiv istifadə hesabına məhsul buraxılışı həcminin artımı.

6. Mənfəətin və ya məhsulun maya dəyərinin artımı.

7. Müəssisənin maliyyə vəziyyəti və tədiyyə qabiliyyəti göstəricilərinin artımı.

Bu göstəricilər sistemi maddi istehsalın bütün sahələri üçün eynidir.

Tətbiq olunan texniki və texnoloji qərarların mütərəqqiliyi istehsal imkanlarının səviyyəsi və istehsalın texnoloji səviyyəsi ilə sıx əlaqədardır.

İstehsalın texnoloji səviyyəsi maddəyə təsirin texnoloji metodundan, prosesin texnoloji intensivliyindən, prosesin texnoloji idarəolunanlığından, onun uyğunlaşma-təşkilati səviyyəsindən daha çox asılıdır.

Texnoloji təsir səviyyəsi təsirin növü və dərəcəsi texniki vasitələrdən istifadə üzrə xarakterizə olunur.

Prosesin texnoloji intensivliyi səviyyəsi texnoloji prosesin maddi, energetik və vaxt parametrlərindən istifadə dərəcəsinə görə xarakterizə olunur.

Texnoloji idarəolunanlıq səviyyəsi prosesin çevikliyini və maksimal səmərəlilik məqsədilə xarici şərtlərin tələblərinin təsiri ilə onun parametrlərinin dəyişilməsi imkanını göstərir.

Prosesin texnoloji təşkil səviyyəsi proseslərin fasiləsizliyi, bölünməzliyi, tullantısızlığı və s. prinsipi üzrə texnoloji prosesdəki optimal struktur əlaqələrin yaradılması dərəcəsinə görə müəyyən edilir.

Texnoloji prosesin adaptasiyası səviyyəsi artıq mövcud olan istehsalla və ətraf mühitlə qarşılıqlı əlaqədə

verilmiş rejimə əməl olunmaqla texnologiyanın fəaliyyətinin maksimal real imkanları ilə xarakterizə olunur.

Texnoloji prosesin keyfiyyəti onun yeniliyi yaratmaq qabiliyyəti ilə reallaşır. O, həm texniki-texnoloji xarakteristikalar, həm də iqtisadi göstəricilər sistemi mövqeyindən qiymətləndirilir. Təhlilin geniş tətbiq olunan texniki-iqtisadi və funksional-dəyər metodları proseslərin texniki və iqtisadi göstəriciləri arasında asılılığı müəyyən etməyə və istehsal sistemlərinin optimal fəaliyyəti alqoritmini axtarmağa imkan verir.

Qeyd etmək lazımdır ki, müəssisələrin innovasiya fəaliyyəti ardıcıl surətdə həyata keçirilən istehsal və kommersiya tədbirləri sistemidir. Burada innovasiyaların keyfiyyəti tamamilə istehsal mühitinin vəziyyətindən və texniki-təşkilati səviyyəsindən asılıdır.

Digər tərəfdən isə innovasiyaların seçilməsində bazar arbitr rolunu oynayır. Əgər kommersiya baxımından faydalı deyildirsə və müəssisənin rəqabət mövqelərinin saxlanmasına imkan vermirsə, bazar ən üstün yenilikləri də rədd edir. Məhz buna görə də texnoloji yeniliklər iki qrupa bölünür:

- ölkənin iqtisadi və texnoloji təhlükəsizliyi üçün vacib olan üstün (prioritet) yeniliklər;
- bazara keçid şəraitində müəssisələrə lazım olan kommersiya innovasiyaları.

Yeni texnologiyaların texniki səviyyəsi və səmərəliliyi kriteriləri dövlətin elmi-texniki siyasətinin tələblərinə və kommersiya baxımından məqsədəuyğunluğuna və müvafiq maliyyələşdirmə mənbələrinə uyğun olmalıdır.

Məsələn, müəssisənin rentabelliyi və maliyyə dayanıqlılığı göstəriciləri üçün yeni texnologiya əksər hallarda arzuolunmazdır. Bundan əlavə həyat tsiklinin uzunluğu ilə xarakterizə olunan sahələrdə, kapitaltutumlu və fondtutumlu istehsallarda texnologiyaların dəyişkənliyi

düzgün proqnozlaşdırılmadıqda və istismar olunmadıqda çox böyük ziyan vura bilər.

Elmtutumlu, mütərəqqi sahələrdə isə əksinə texnoloji dəyişikliklər və yeni texnologiyaların tətbiqi müəssisənin rəqabət qabiliyyətini kəskin surətdə artırır və uzunmüddətli dövrdə mənfəətin maksimallaşdırılmasına gətirib çıxarır. Bundan əlavə 90-cı illərin əvvələrindən iri şirkətlərin rəqabət statusu təkcə yeni mallarla deyli, həm də firmada yeni texnologiyaların olması ilə əlaqədardır.

Yeni sistemlərin və yeni məhsul növlərinin buraxılışına keçid yalnız yeni texnologiyalar əsasında mümkündür. Bu halda təşkilin, idarəetmənin və marketinqin adaptasiyasının xüsusi metodları lazımdır.

Prinsipcə yeni texnoloji qərarların tətbiqi zamanı təkcə qısamüddət ərzində deyil, həm də uzunmüddətli dövrdə istehsal fəaliyyəti zərərlə yekunlaşa bilər. Bu, aşağıdakı səbəblərə görə baş verir:

- yeni texnologiyadan istifadə xərclərinin real qiymət səviyyəsilə uyğunlaşdırılmasından əvvəl başlanmışdır;
- müəssisə yeni texnologiyanın tətbiqi və istismarı sahəsində kifayət qədər təcrübəyə malik olmur;
- yeni texnologiyaların hazırlanmasının əsasında duran ETLKİ-lər rəqabət qabiliyyətli deyildir;
- iqtisadi konyukturanın, firmanın strukturunun və bazarın seqmentəlşdirilməsinin real təhlili aparılmamışdır;
- potensial tələb yoxdur;
- marketinq strategiyası düzgün seçilməmişdir;
- mümkün rəqiblərin davranışı nəzərə alınmamışdır;
- firma amilləri (firmanın imici, onun əmtəə nişanı, sahə mənsubiyyəti və s.) aşkar edilməmişdir.

Sonuncunun əlavə izaha ehtiyacı vardır, çünki strukturuna görə zəif və ya köhnə sahələrdə yüksək keyfiyyətli və qiyməti uyğun gəlməyən yeniliyin peyda olması tələbin, o cümlədən əvvəlki nəsildən olan modellərə də tələbin kəskin azalmasına səbəb ola bilər. Tətbiq olunan

texnoloji qərarların qeyri-səmərəliliyini aradan qaldırmaq üçün tətbiq olunan texnologiyaların firmanın rəqabət qabiliyyəti və davranışı ilə qarşılıqlı əlaqəsini aşkar etmək lazımdır. Belə qarşılıqlı əlaqə aşağıdakı strateji texnoloji amilləri aşkar edir:

1) ETLKİ-yə investisiyaların qoyulması (mənfəətdə ETLKİ üçün xərclərin payı, satış həcmində xərclərin payı);

2) rəqabətdəki mövqe (ETLKİ-də liderlik, məhsulda liderlik, texnologiyada liderlik);

3) yeni məhsulun dinamikası (həyat tsiklinin uzunluğu, yeni məhsulun yaranması tezliyi, məhsulun texnoloji yeniliyi);

4) texnologiyanın dinamikası (həyat tsiklinin uzunluğu, yeni texnologiyaların yaranması tezliyi, rəqabət aparan texnologiyaların sayı);

5) rəqabət qabiliyyətinin dinamikası (məhsulun istehsalındakı texnoloji fərqlər, texnologiya rəqabət vasitəsi kimi, rəqabətin intensivliyi).

Bu strateji texnoloji amillər firmanın bazar strategiyasının ETLKİ-dən və tətbiq olunan texnologiyalardan asılılığı müəyyən edir. Müvəffəqiyyət üçün yeni texnologiyanın adaptivlik, çeviklik, köhnə istehsala «qoşulma» qabiliyyəti, sinerkizm imkanı, dəqiq ETLKİ strategiyası, texnologiya üçün patentlər və lisenziyalar, yüksək ixtisaslı işçilər, adekvat təşkilati-idarəetmə strukturları kimi keyfiyyətləri vacibdir. Bütün bu anlayışları hər hansı vahid bir göstəriciyə gətirmək mümkün deyildir, ona görə də bazar iqtisadiyyatında texnologiyanın keyfiyyətinin arbitri və eksperti kimi bazar çıxış edir. Bütün çox saylı xassələrin kriterisi isə yalnız iqtisadi səmərəlilik ola bilər.

16.3. Yeni texnika və texnologiyanın müqayisəli iqtisadi səmərəliliyi

Təsərrüfatçılıq subyektlərinə ənənəvi yanaşmalar şəraitində yeni texnika və texnologiyanın layihələndirilməsi, hazırlanması və tətbiqi zamanı həmin tədbirlərin iqtisadi səmərəliliyinin təyin edilməsi prosedurası dörd mərhələdən ibarətdir:

1. İnnovasiya tədbirlərinin həyata keçirilməsi üçün lazım olan xərclərin müəyyən edilməsi.

2. Maliyyələşdirmənin mümkün mənbələrinin müəyyən edilməsi.

3. Yeni texnika və texnologiyanın tətbiqindən əldə edilən iqtisadi səmərənin qiymətləndirilməsi.

4. İqtisadi göstəricilərin müqayisə edilməsi yolu ilə yeniliyin müqayisəli səmərəliliyin qiymətləndirilməsi.

İqtisadi səmərəlilik il ərzində əldə edilmiş iqtisadi səmərənin həmin tədbirin tətbiqi üçün xərclərin nisbəti ilə müəyyən edilir. Yeni texnika və texnologiyanın müxtəlif variantları müqayisə edilərkən ümumi və xüsusi kapital qoyuluşları, məhsul vahidinin maya dəyəri və s. müqayisə edilir. Yeniliklər zamanı daha az xərclər təkcə yeniliyin texniki səviyyə və keyfiyyət qeyri-müvafiq göstəricilərlə deyli, həmçinin daha böyük xüsusi kapital qoyuluşları ilə müşayiət oluna bilər. Texniki-iqtisadi göstəricilərin sadə müqayisəsi ən yaxşı variantı aşkar etməyə imkan vermir. Bu halda variantların müqayisəli səmərəliliyin ümumi göstəricisi gətirilmiş xərclərlə qənaətin məlumatlarının müqayisəsi əsasında təyin etmək tələb olunur.

Texnika və texnologiyanın baza variantının seçilməsini xüsusi qeyd etmək lazımdır. Bazanın seçilməsi müqayisəsi və onların müqayisə olunan şəklə gətirilməsi üçün lazımdır. Belə ki, istehsal texnologiyası səviyyəsinin qiymətləndirilməsi və texnoloji qərarların seçilməsi zamanı

texnologiyanın növlərini aşağıdakı kimi təsnifləşdirmək lazımdır:

- köhnəlmiş;
- baza;
- modernləşdirilmiş və yaxşılaşdırılmış;
- prinsipcə yeni.

Texnika və texnologiyanın baza variantının seçilməsi zamanı mövcud qərarların bütün məcmusu müşahidə olunmalıdır. Sonra isə qərarların baş məcmusu keyfiyyətcə həmcins olan qruplara bölünür və hər bir qrup üzrə seçmə aparılır. Bəzən vahid baza modelini almaq üçün kiçik texnoloji qərarların iri qruplaradək aqreqatlaşdırılmasına əl atırlar.

Yeni texnika və texnologiyanın başlanğıc göstəricilərini müqayisə etmək üçün bazanın seçilməsi iqtisadi səmərənin müəyyən edilməsi zamanı mühüm əhəmiyyət kəsb edir, çünki yeni texniki və texnoloji qərarların variantının müqayisəli iqtisadi səmərəlilik tətbiq olunan və baza variantlarının göstəricilərinin müqayisə edilməsi əsasında müəyyən edilir. Bu zaman aşağıdakıları nəzərə almaq lazımdır:

- bazanın seçilməsi yeni texnika və texnologiyanın həyat tsiklinin mərhələsindən asılıdır;
- bazanın və yeni qərar variantının seçilməsi həyat tsiklinin müxtəlif mərhələlərində həyata keçirilməlidir;
- ETLKİ mərhələsində baza ilə müqayisədə yeni konstruksiyanın (nümunənin) səmərəliliyi göstəricilərini qiymətləndirmək lazımdır;
- istər yeniliyin tətbiqi, istərsə də istehsalı və istismarı mərhələlərində yeni qərarların səmərəliliyini təhlil etmək lazımdır.

Bütün yuxarıda göstərilən prinsiplər innovasiyaların sistemli təhlili, daha doğrusu, yeniliyin iqtisadi səmərəliliyinin müqayisəli şəklə salınmış göstəricilərlə qiymətləndirilməsi zamanı mühüm əhəmiyyət kəsb edir.

Göstəriciləri müqayisəli şəklə salmaq üçün aşağıdakı əlamətlərdən istifadə olunur: buraxılan məhsulun həcmi; nomenklaturanın quruluşu; məhsulun keyfiyyəti; gətirilmiş xərclər; hazırlanma müddətləri; sosial və ekoloji səmərəlilik. Bundan əlavə yeni qərarların variantlarını istehsal resurslarının eyni tərkibinə gətirmək, daha doğrusu, yeniliyin tətbiqi üçün əlavə avadanlığı, əlavə işçi qüvvəsini, əlavə istehsal sahələrini və s. aşkar etmək lazımdır. Bunun əsasında yeni texniki və texnoloji qərarların həyata keçirilməsi üçün əlavə kapital qoyuluşları da nəzərdə tutulmalıdır.

Ümumi kapital qoyuluşu və məhsulun maya dəyəri kəmiyyətinin gətirilməsi və təshih edilməsi ilə yanaşı nəzərə almaq lazımdır ki, müxtəlif xərc maddələri istehsalın həcminin və satışın həcminin dəyişilməsindən asılı olaraq müxtəlif dəyişilir. Sabit və dəyişən xərclərin dəyişilməsi dinamikasında bu daha aydın üzə çıxır.

Yeni texnikanın tətbiqi üçün xərclərin hesablanması kapital qoyuluşlarının, dövriyyə fondlarının və canlı əməyin məcmusu nəzərə alınmalıdır. İqtisadi səmərə aşağıdakı düsturla hesablanır:

$$Э_T = R_T - Z_T$$

burada $Э_T$ - «T» hesabi dövr ərzində yeni texnika və texnologiyanın tətbiqindən əldə edilən iqtisadi səmərə, man;

R_T - «T» hesabi dövr ərzində nəticələrin dəyərlə qiymətləndirilməsi, man;

Z_T - «T» hesabi dövr ərzində yeni texnika və texnologiyanın hazırlanması, tətbiqi və mənimsənilməsi üzrə tədbirlər üçün xərclərin dəyərlə qiymətləndirilməsidir, man.

Yeniliklərin tətbiqinin bütün dövrü ərzində müxtəlif vaxtların xərclərinin gətirilməsi aşağıdakı kimi həyata keçirilir:

$$R_T = \sum_{t=1}^{l} p_t \alpha_t,$$

burada p_t - t-ci ildə dəyərlə qiyməti, man;

α_t - xərclərin gətirilməsi əmsalıdır.

Variantlar üzrə sonrakı illərin xərcləri və kapital qoyuluşları vaxt amili, daha doğrusu, xərclərin gətirilməsi əmsalı (α_t) nəzərə alınmaqla həyata keçirilməlidir:

$$\alpha_t = (1+E)^T,$$

burada E - müxtəlif ölçülü xərclərin gətirilməsinin qəbul edilmiş normativi;

T - xərclər və nəticələr ilini onun gətirildiyi ildən fərqləndirən vaxt dövrüdür.

Gətirilmə normativi (E) tətbiq edilən metodikadan, sahədən, müəssisənin təsərrüfat fəaliyyətinin tipindən və mülkiyyət formasından asılı olaraq müxtəlif qaydalarda hesablanır. Ənənəvi yanaşmada $E = 0{,}08 \div 0{,}10$ götürülür, layihə yanaşmasında isə E diskont norması kimi hesablanır. Bu diskont norması investor üçün kapitalına olan gəlir normasıdır.

Hesablamanın «T» kəsiyində yeri olan xərclərin, nəticələrin və səmərənin bazis vaxt anına gətirmək üçün diskontlaşdırma (gətirilmə) əmsalından istifadə etmək texniki cəhətdən məqsədəuyğundur:

$$K_d = \frac{1}{(1+E)^T}$$

Mövcud metodikaya görə innovasiya üçün gətirilmiş kapital qoyuluşlarını da hesablamaq olar. Adətən yeni texnikanın istehsalı və istifadə edilməsi üçün gətirilmiş xərclər maya dəyəri ilə normativ mənfəətin məbləği kimi müəyyən edilir:

$$Z_T = S_T + E_N K_X,$$

burada S_T - «T» dövründə maya dəyəri, man;

E_N - normativ səmərəlilik əmsalı;

K_X - məhsul vahidi üçün kapital qoyuluşu, man;

$E_N K_X$ - normativ mənfəətdir, man.

Yeni texnika və texnologiyanın illik iqtisadi səmərəsi aşağıdakı düsturla hesablanır:

$$Э_{NT'} = (Z_{baz} - Z_{nov}) N_{nov} =$$
$$= [(S_{baz} + E_N K_{baz}) - (S_{nov} + E_N K_{nov})] N_{nov}$$

burada Z_{baz} - texnika və texnologiyanın baza variantının köməyi ilə məhsul vahidinin istehsalı üçün gətirilmiş xərclər, man;

Z_{nov} - yeni texnikanın və texnologiyanın köməyilə məhsul istehsalı üçün gətirilmiş xərclər, man;

N_{nov} - yeni texnika və texnologiyanın köməyilə məhsul istehsalının illik həcmi, vahid;

S_{baz} - baza variantında məhsulun maya dəyəri, man;

S_{nov} - yeni texnika və texnologiyanın köməyilə buraxılan məhsulun maya dəyəri, man;

K_{baz} - baza variantda məhsul vahidi üçün kapital qoyuluşu, man;

K_{nov} - yeni texnika və texnologiyanın əsasında buraxılan məhsulun vahidi üçün kapital qoyuluşu, man;

E_N - normativ səmərəlilik əmsalıdır.

Yuxarıdakı düstur xalq təsərrüfatının bütün sahələrində yeni texnikanın iqtisadi səmərəsinin hesablanması üçün əsas sayılır.

Yeni texnikanın tətbiqindən əldə edilən illik iqtisadi səmərənin hesablanması zamanı kapital qoyuluşlarının tərkibində yeni texnikanın yaradılması, hazırlanması, tətbiqi və istifadə edilməsinin bütün mərhələləri üçün xərclər nəzərə alınır. Bu xərclərə aşağıdakılar daxildir:

- elmi-tədqiqat, konstruktor, sınaq və sınaq-sənaye qurğusu üçün xərclər (K_{NR});

- avadanlığın alınması, daşınması, quraşdırılması sökülməsi, istehsalın texniki hazırlığı, sazlanması və mənimsənilməsi xərcləri (K_{TP});

- yeni texnikanın yaradılması və istifadə edilməsi ilə əlaqədar olan dövriyyə vəsaitlərinin tamamlanması üçün müəssisənin xərcləri (K_{ob});

- hesabi ildən əvvəl istehsalın mənimsənilməsi dövründə məhsulun istehsalı və satışı üçün xərclər (mənfəət) (K_{osv}).

Bu zaman cəmi kapital qoyuluşları aşağıdakı düsturla hesablanır:

$$K_{sum} = K_{NR} + K_{TP} + K_{ob} + K_{osv}.$$

Uzunmüddətli istifadə üçün nəzərdə tutulan yeni əmək vasitələrinin istehsalından və onların xidmət müddətində istifadəsindən əldə edilən iqtisadi səmərə aşağıdakı düsturla hesablanır [50]:

$$Э_{NT} = \left[Z_{baz} \cdot \frac{N_2}{N_1} \cdot \frac{a_1 + E_N}{a_2 + E_N} + \frac{(I_1 - I_2) - E_N(K_{n2} - K_{n1})}{a_2 - E_N} - Z_{nov} \right] N_2$$

burada Z_{baz}, Z_{nov} - baza və yeni əmək vasitəsinin vahidi üçün gətirilmiş xərclər, man;

N_1, N_2 - baza və yeni əmək vasitəsi əsasında istehsal olunmuş məhsulun illik həcmi, vahid;

a_1, a_2 - baza və yeni əmək vasitəsinin renovasiya üçün ayırmaların payı;

$a_2 + E_N, a_2 - E_N$ - baza və yeni əmək vasitəsinin mənəvi aşınma nəzərə alınmaqla xidmət müddətinin uçotu əmsalı;

$\dot{I}_1, \dot{I}_2$ - baza və yeni əmək vasitəsindən istifadə zamanı illik istismar xərcləri, man;

K_{n1}, K_{n2} - baza və yeni əmək vasitəsindən istifadə zamanı istehlakçının əlavə kapital qoyuluşlarıdır, man.

Yeni və təkmilləşdirilmiş əmək predmetlərinin (xammal, material, yanacaq) tətbiqindən əldə edilən iqtisadi səmərə aşağıdakı kimi hesablana bilər [50]:

$$Э_{NTP} = \left[Z_{baz} \cdot \frac{R_1}{R_2} + \left(\frac{\dot{I}_1}{R_1} - \frac{\dot{I}_2}{R_2} \right) - E_N \left(\frac{K_{n2}}{R_2} - \frac{K_{n1}}{R_1} \right) - Z_{nov} \right] N_2,$$

burada Z_{baz}, Z_{nov} - baza və yeni əmək vasitəsinin vahidi üçün gətirilmiş xərclər, man;

$\dot{I}_1, \dot{I}_2$ - baza və yeni əmək vasitəsindən istifadə zamanı iş vahidi üçün istehlakçının xərcləri, man;

K_{n1}, K_{n2} - baza və yeni əmək vasitəsindən istifadə zamanı istehlakçıda iş vahidi üçün kapital qoyuluşları, man;

R_1, R_2 - yerinə yetirilmiş işin bir vahidi üçün baza və yeni əmək predmetinin xüsusi məsarifi, vahid;

N_2 - istehsalın illik həcmidir, vahid.

Bu göstəricilərlə yanaşı yeniliklərin tətbiqi hesabına əmək məhsuldarlığının artımı, materialtutumunun və enerjitutumunun aşağı salınması, işçilərin azad edilməsi və s. göstəricilər də geniş istifadə olunur. Məsələn, yeni texnikanın tətbiqi nəticəsində işçilərin sayının azalmasının proqnozlaşdırılan səviyyəsi aşağıdakı düsturla hesablanır:

$$P_1 = \frac{\Gamma_t N_t}{q_1} - \frac{\Gamma_t N_t}{q_t},$$

burada P_1 - işçilərin azad olması, nəfər;

Γ_t - t-ci ildə məhsul vahidinin qiyməti, man;

q_1 - yeni texnikanın tətbiqinə qədər bir işçiyə düşən məhsul buraxılışı;

q_t - t-ci ildə bir işçiyə düşən məhsul buraxılışı;

N_t - t-ci ildə natural vahidlərlə istehsalın həcmidir.

Yeniliklərin istehsalı və istismarının iqtisadi səmərəliliyinin mühüm göstəriciləri ilə yanaşı yeniliklərin satışı həcminin və yeniliklərin satışı üzrə müəssisənin kommersiya fəaliyyətinin nəticələri də mühüm əhəmiyyət kəsb edir. Belə ki, yeni məhsulun tətbiqindən və satışından əldə edilən mənfəətin planlaşdırılan artımı aşağıdakı düsturla hesablanır [50]:

$$\Pi = (\Gamma_t - C_t) \cdot N_t - (\Gamma_1 - C_1) N_1,$$

burada Γ_t - t-ci ildə məhsulun vergisiz topdansatış qiyməti, man;

Γ_1 - baza ilində əvəz edilən məhsulun topdansatış qiyməti, man;

C_t - t-ci ildə yeni məhsulun maya dəyəri, man;

C_1 - baza ilində əvəz edilən məhsulun maya dəyəri, man;

N_1 - baza ilində əvəz edilən məhsulun illik istehsalı həcmi, vahid;

N_t - t-ci ildə yeni məhsulun illik istehsalı həcmidir, vahid.

16.4. İnnovasiya layihəsinin səmərəliliyi

Bazar iqtisadiyyatında yeniliklərin hazırlanması və tətbiqi zamanı normativ deyil, layihə yanaşması daha çox istifadə olunur.

Müəssisənin fəaliyyətinə, o cümlədən innovasiya və investisiya fəaliyyətinə layihə yanaşmasının əsasını pul axınları prinsipi təşkil edir. İnnovasiya layihəsinin

səmərəliliyinin aşağıdakı əsas göstəriciləri müəyyən edilməlidir:

- layihə iştirakçıları üçün maliyyə nəticələrini nəzərə alan maliyyə (kommersiya) səmərəliliyi;
- bütün səviyyələrdən olan büdcələr üçün maliyyə nəticələrini nəzərə alan büdcə səmərəliliyi;
- layihə iştirakçılarının birbaşa maliyyə maraqları həddini aşan və dəyər ifadəsində olan xərcləri və nəticələri nəzərə alan xalq təsərrüfatının iqtisadi səmərəliliyi.

Şübhəsiz ki, dəyərlə ifadə olunmayan xərclər və nəticələr (sosial, siyasi, ekoloji və s.) də əlavə olaraq nəzərə alınmalıdır.

İnnovasiya layihəsinin təhlilinin ümumiləşdirilmiş sxeminin bir variantı şəkil 16.4.1.-də verilmişdir.

İnnovasiya layihəsinin maliyyə səmərəliliyini hesablamaq üçün innovasiya təhlilinin dörd başlıca metodu tətbiq olunur: kapital qoyuluşlarının ödəmə müddəti; gəlirlilik indeksi; xalis cari dəyər (bəzən onu xalis diskontlaşdırılmış gəlir metodu da adlandırırlar); gəlirliliyin daxili norması.

Kapital qoyuluşlarının ödəmə müddəti metodundan təcrübədə geniş istifadə olunur. Lakin onun mühüm nöqsanı gələcək gəlirləri nəzərə alınmaqla pulun gələcək dəyərinə etinasızlıqdır, çünki bunun nəticəsində də diskontlaşdırmanı tətbiq etmək mümkün olmur. İnflyasiya, faiz stavkalarının kəskin dəyişilməsi və müəssisənin daxili yığımlarının aşağı normaları şəraitində bu metod kifayət qədər dəqiq deyildir.

Gəlirlilik indeksi metodu (İR) gətirilmiş səmərələrin məcmusunun gətirilmiş kapital qoyuluşlarının kəmiyyətinə nisbətinin təhlilinə yönəlmişdir:

$$IR = \frac{1}{K_1} \cdot \sum_{t=0}^{t} (R_t - S_t) \cdot \frac{1}{(1+E)^t},$$

burada K_t - t-ci il üçün kapital qoyuluşu, man;

R_t - t-ci ildə nəticəlilik (gəlir), man;

S_t - t-ci ildə həyata keçirilən xərclərdir, man.

Şəkil 16.4.1. İnnovasiya layihəsinin təhlilinin ümumiləşdirilmiş sxemi

Əgər gəlirlilik indeksi müsbətdirsə, onda layihə rentabellidir; əgər vahiddən kiçikdirsə, onda layihə səmərəli deyildir.

Xalis cari dəyər (XCD) xalis diskontlaşdırılmış gəlir hesab olunur və bütün hesabi dövr ərzində cari səmərələrin məbləği kimi müəyyən edilir. Bu halda diskontun kəmiyyəti

sabit və ya dəyişən ola bilər. XCD aşağıdakı kimi hesablanır:

$$\text{XCD} = \sum_{t=0}^{t} (R_t - S_t) \cdot \frac{1}{(1+E)^t},$$

burada R_t - t-ci addımda nəticələr (gəlir), man;

S_t - t-ci addım üçün xərclərdir, man.

Layihənin səmərəliliyinə müəyyən diskont norması nəzərə alınmaqla XCD-nin qiyməti əsasında baxılır: o nə qədər böyük olarsa layihə bir o qədər səmərəlidir. XCD vahiddən kiçikdirsə layihə səmərəli deyildir.

Gəlirliliyin daxili norması metodu (GDN) gətirilmiş səmərələrin kəmiyyəti gətirilmiş kapital qoyuluşlarının kəmiyyətinə bərabər olması halındakı diskont normasını (E_{GDN}) aşkar edir.

Əgər GDN investorun öz kapitalı üçün tələb etdiyi gəlir normasına bərabər və ya ondan çox olarsa layihə səmərəli hesab olunur.

GDN və XCD üzrə hesablamalar eyni bir layihə üzrə ziddiyətli nəticələrə gətirib çıxara bilər. Bu, ya tələb olunan diskont normasının seçilməsində səhvlərə, ya da investorun və layihə menecerinin gəlir normasına tələblərin müxtəlif olması ilə izah olunur. Bütün hallarda xalis cari dəyərə üstünlük verilməlidir.

FƏSİL 17. MÜƏSSİSƏNİN İNVESTİSİYA SİYASƏTİ

17.1. İnvestisiya proseslərinin əsas xarakteristikası

Müasir şəraitdə sənaye istehsalının yeni texnoloji bazaya keçidi zamanı kapitalın təkrar istehsalı qanunauyğunluqlarını öyrənərkən yeniliklər və investisiya anlayışları əsasdır.

İstehsalın keyfiyyətcə təkmilləşdirilməsi yeniliklər formasında həyata keçirilir ki, bunlar da bazar şəraitində investisiya prosesinin əsasını təşkil edir. Tələbin inkişafı, onun diversifikasiyası bu tələbin təmin edilməsinin istehsal üsullarının təkmilləşdirilməsi zərurətini doğurur.

Konkret istehsalın texniki və iqtisadi imkanları tələbin inkişafı və mürəkkəbləşməsi sürətindən şübhəsiz ki, geri qalmağa başlayır, çünki istehlakçıya eyni bir qiymətə böyük faydalı səmərə lazımdır.

Yeniliklər tələbatın ödənilməsinin bir qayda olaraq elm və texnikanın nailiyyətlərinə əsaslanan və faydalı səmərənin artımını təmin edən yeni üsuludur. Yeniliklərin iqtisadi təbiəti bazar yeniliyinin elmi-texniki yenilikdən üstün olması ilə əlaqədardır. Ona görə də investisiyalara və yeniliklərə müəssisənin məhsuluna bazarın tələbinin ödənilməsi mövqeyindən baxacağıq.

İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanununa görə investisiya – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Belə vəsait və sərvətlər aşağıdakılardır:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;
- daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);

- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu («nou-hau»);
- torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları;
- başqa sərvətlər.

İnvestisiya dedikdə, müəssisənin istehsal amilləri ilə təminatına yönəldilən (real investisiyalar) və ya qiymətli kağızların alınmasına sərf edilən (portfel investisiyaları) kapital qoyuluşları başa düşülür ki, bu da bir neçə vaxt dövrünü əhatə edir.

Maddi istehsaldakı investisiyaları (real) müxtəlif kriterilərə görə təsnifləşdirmək olar. Ən geniş yayılmış təsnifatı aşağıdakı sxemdə göstərmək olar (Şəkil 17.1.1.):

Şəkil 17.1.1. İnvestisiyaların təsnifatı

Müəssisədə investisiyalar planlaşdırılarkən real investisiyalar diqqət mərkəzində olur. Portfel investisiyaları bu halda tamamlayıcı xarakter daşıyır.

İnvestisiyalar uzunmüddətli və qısamüddətli olur. Lakin onlar arasında dəqiq sərhəd yoxdur. Qısamüddətli investisiyalar bir və ya bir neçə aylıq olur. Bu o deməkdir ki, həmin müddətlərdən sonra investisiyalar istehsal amilinə çevrilir və gəlir, mənfəət gətirməyə başlayır. Uzunmüddətli investisiyalar bir və ya bir neçə il (hətta on illiklər) üçün verilir (məsələn, təhsil sahəsi).

İnvestisiyalar mülkiyyət formaları və onların çevrilməsi ilə əlaqədardır. Müəyyən obyektə qoyulmuş vəsait bu vəsaiti qoyan və investor adlanan hüquqi və ya fiziki şəxsə həmin obyektin mülkiyyətçisi olmaq, bu obyektə sərəncam vermək hüqununu verir.

İnvestora obyektin idarə edilməsində iştirak etmək hüququ verən investisiyalara birbaşa investisiyalar deyilir (məsələn, şirkətlərin və s. səhmlərinin alınması).

Kapitalın kim tərəfindən investisiyalaşdırılmasından asılı olaraq dövlət, xüsusi və xarici investisiyaları fərqləndirmək lazımdır.

17.2. Kapital qoyuluşlarının strukturu və maliyyələşdirmə mexanizmi

Kapital qoyuluşları dedikdə, bina və tikililər inşa edilərkən tikinti-quraşdırma işləri üçün xərclər; maşın və avadanlığın alınması, quraşdırılması və sazlanması xərcləri; layihə-axtarış işləri üçün xərclər; tikilməkdə olan müəssisələrin müdiriyyətinin saxlanması xərcləri; kadrların hazırlanması və yenidən hazırlanması və s. xərclər başa düşülür. Uçot, təhlil və digər məqsədlər üçün kapital qoyuluşları bir sıra əlamətlərə görə təsnifləşdirilir.

İstifadə istiqamətlərinə görə istehsal və qeyri-istehsal kapital qoyuluşları mövcuddur.

Əsas fondların təkrar istehsalı formalarına görə kapital qoyuluşlarının aşağıdakı növlərini göstərmək olar:

- yeni tikinti üçün;
- mövcud müəssisələrin yenidən qurulması və texnika ilə yenidən silahlandırılması üçün;
- fəaliyyətdə olan müəssisələrin genişləndirilməsi üçün;
- avadanlığın modernləşdirilməsi üçün.

Maliyyələşdirmə mənbələrinə görə mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş kapital qoyuluşlarını göstərmək olar.

Kapital qoyuluşlarından istifadənin səmərəliliyi xeyli dərəcədə onların strukturundan asılıdır. Kapital qoyuluşlarının texnoloji, təkrar istehsal, sahə və ərazi strukturları mövcuddur.

Texnoloji struktur müəyyən bir obyektin inşası xərclərinin tərkibini və ümumi smeta dəyərində onların xüsusi çəkisini əks etdirir. Bunu aşağıdakı cədvəl şəklində göstərmək olar (Cədvəl 17.2.1.).

Cədvəl 17.2.1.Kapital qoyuluşlarının texnoloji strukturu

Xərclərin tərkibi	Dəyəri, mlrd man	Xüsusi çəkisi, %
Tikinti-quraşdırma işləri	2,0	40
Maşın və avadanlığın alınması	2,5	50
Quraşdırma işləri	0,1	2
Layihə-axtarış işləri	0,2	4
Sair xərclər	0,2	4
Ümumi smeta dəyəri	5,0	100

Kapital qoyuluşlarının təkrar istehsal strukturu əsas istehsal fondlarının təkrar istehsalı formaları üzrə onların bölüşdürülməsini və ümumi smeta dəyərində hər birinin payını əks etdirir.

Kapital qoyuluşlarının sahə strukturları sənaye və bütünlükdə xalq təsərrüfatı sahələri üzrə onların bölüşdürülməsini və nisbətləri əks etdirir.

Kapital qoyuluşlarının ərazi strukturu ölkənin ərazi vahidləri üzrə onların bölüşdürülməsini və nisbətlərini göstərir.

İnvestisiyalar, xüsusilə kapital qoyuluşları, ölkənin və hər bir müəssisənin iqtisadiyyatında son dərəcə mühüm rol oynayır. Lakin son illərdə kapital qoyuluşlarının və əsaslı tikintinin həcmi kəskin surətdə azalmışdır. Bu, bir sıra səbəblərlə əlaqədardır ki, onları da aşağıdakı kimi qruplaşdırmaq olar:

1) sənaye və bütünlükdə ictimai istehsalın azalması;
2) inflyasiya;
3) müəssisələrin ağır iqtisadi vəziyyəti.

Müasir şəraitdə ölkədə investisiya fəaliyyətini canlandırmaq üçün ilk növbədə aşağıdakılar təmin olunmalıdır:

- ölkədə iqtisadi vəziyyətin sabitləşdirilməsi;
- inflyasiya sürətinin azaldılması;
- vergiyə cəlbetmə sisteminin təkmilləşdirilməsi;
- xarici kapitalın cəlb olunması üçün ölkədə şəraitin yaradılması.

Kapital qoyuluşlarının maliyyələşdirilməsi üsulları və qaydası hər şeydən əvvəl onların səmərəliliyinin artırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Kapital qoyuluşları mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş üsullarla maliyyələşdirilir.

Kapital qoyuluşlarının mərkəzləşdirilmiş maliyyələşdirilməsinin mənbələrinə dövlət büdcəsi, ölkənin subyektlərinin büdcələri, mərkəzləşdirilmiş qeyri-büdcə investisiya fondları və s. aid edilir. Qeyri-mərkəzləşdirilmiş maliyyələşdirmədə isə əsas mənbələr müəssisələr və ayrı-ayrı şəxslərdir.

Müəssisədə maliyyələşdirmənin aşağıdakı mənbələrini göstərmək olar: müəssisənin sərəncamında qalan mənfəət; amortizasiya ayırmaları; səhmlərin buraxılması və satışından əldə edilən vəsait; kommersiya banklarının kreditləri; yuxarı təşkilatların mənbələri; xarici investorların vəsaiti və s. Müəssisədə kapital qoyuluşlarının maliyyələşdirilməsinin əsas mənbəyi yığıma yönəldilən mənfəət və amortizasiya ayırmalarıdır.

Kapital qoyuluşlarının maliyyələşdirilməsi sahəsində son illərdə xeyli dəyişikliklər baş vermişdir. Belə ki, mərkəzləşdirilmiş mənbələr kəskin şəkildə azalmış, qeyri-mərkəzləşdirilmiş mənbələrin xüsusi çəkisi isə artmışdır. Bu, bazar münasibətlərinə keçid zamanı qanunauyğun haldır.

Kapital qoyuluşlarının maliyyələşdirilməsi mənbələrinin strukturu da dəyişilir. Son illərdə amortizasiya ayırmalarının xüsusi çəkisinin artması meyli güclənməkdədir. Buna səbəb əsas istehsal fondlarının dəfələrlə yenidən qiymətləndirilməsi və sürətli amortizasiyanın tətbiqidir.

Dünyanın bir çox ölkələrində müəssisə mənfəətini istehsalın inkişafına yönəldirsə vergiyə cəlb olunmada xeyli güzəştlər nəzərdə tutulur.

17.3. Müəssisədə investisiyaların planlaşdırılması

Müəssisədə investisiyaların planlaşdırılması olduqca mühüm və mürəkkəb prosesdir. Bu prosesin mürəkkəbliyi ondadır ki, bir çox amilləri, o cümlədən gözlənilməz amilləri, eləcə də investisiya qoyuluşunda riskin dərəcəsini nəzərə almaq lazımdır.

Müəssisə üçün bu prosesin əhəmiyyəti ondadır ki, investisiyaları planlaşdırarkən o, gələcək fəaliyyətinin əsasını qoymuş olur. Əgər investisiya planı yaxşı tərtib olunmuş və həyata keçirilmişdirsə, müəssisə müvəffəqiyyətlə işləyəcəkdir, əks təqdirdə o, gələcəkdə müflisləşə bilər.

Müəssisənin investisiya planı iki bölmədən ibarətdir:

1) portfel investisiyaları planı;

2) real investisiya (kapital qoyuluşları) planı.

Portfel investisiyaları planı isə müəssisənin istehsal və qeyri-istehsal inkişafı üçün investisiyalar planıdır.

Müəssisədə investisiyaları planlaşdırmazdan əvvəl investisiya qoyuluşlarının iqtisadi əsaslandırılmasının dərin təhlili aparılmalıdır.

İnvestisiya qoyuluşu aşağıdakı hallarda əlverişli sayıla bilər:

- müəssisə pulların bankda saxlanması ilə müqayisədə çox səmərə əldə edərsə;
- investisiyaların rentabelliyi inflyasiya sürətindən üstün olarsa;
- daha rentabelli layihələr olarsa;
- ən az risklə daha çox iqtisadi səmərə təmin olunarsa.

Müəssisədə investisiyalar planı perspektivdə müəssisənin inkişafı üçün seçilmiş strategiya ilə sıx əlaqələndirilməlidir.

17.4. Əsaslı tikintinin mahiyyəti, layihələndirilməsi və planlaşdırılması

Kapital qoyuluşları əsaslı tikintinin mənbəyidir.

Əsaslı tikinti dedikdə, yeni obyektlərin tikilməsi, mövcud müəssisələrin, eləcə də istehsal və qeyri-istehsal xarakterli digər obyektlərin genişləndirilməsi, yenidən qurulması və texnika ilə yenidən silahlandırılması yolu ilə əsas fondların yaradılması prosesi başa düşülür.

Hər hansı obyektin inşasından qabaq onun iqtisadi əsaslandırılması və layihələndirilməsi aparılır.

Tikintinin layihəsi lazımi texniki və iqtisadi sənədlərin kompleksini əhatə edir. Sənaye müəssisəsinin tikintisi layihəsində onun məhsulunun nomenklaturası,

istehsal gücü, tikinti yeri, xammal, yanacaq və enerji bazası, təsərrüfat əlaqələri aydınlaşdırılır: istehsal texnologiyası, layihələndirilən müəssisənin texniki təchizatı, tikinti üçün ayrılmış ərazidən istifadə müəyyən edilir; inşa olunan müəssisənin tikintisi və istismarının iqtisadi göstəriciləri müəyyən edilir.

Layihənin texniki və iqtisadi hissələri qarşılıqlı əlaqədardır və vahid texniki-iqtisadi sənəd təşkil edir.

Layihələndirmə aşağıdakı mərhələləri əhatə edir:

1) texniki-iqtisadi əsaslandırma (TİƏ);

2) texniki layihə (bu, iqtisadi, texnoloji və inşaat hissələrindən, baş plan və nəqliyyatdan, tikintinin təşkilindən və smeta sənədlərindən ibarətdir);

3) iş cizgiləri.

Son illərdə bir çox hallarda TİƏ əvəzinə biznes-planlar tərtib edilir.

Əsaslı tikinti podrat və təsərrüfat üsulları ilə həyata keçirilir.

Əsaslı tikinti planı aşağıdakı bölmələrdən ibarətdir:

1. İstehsal güclərinin və əsas fondların istifadəyə verilməsi planı.
2. Kapital qoyuluşlarının həcmi və strukturu.
3. Tikintilərin və obyektlərin titul siyahıları.
4. Layihə-axtarış işləri planı.
5. Tikinti-quraşdırma işləri proqramı.
6. Kapital qoyuluşlarının iqtisadi səmərəliliyi.

Əsaslı tikinti planının mühüm göstəricilərinə istehsal güclərinin və əsas fondların istifadəyə verilməsi; smeta dəyəri; layihənin rentabelliyi; tikintinin müddəti və ödəmə müddəti daxildir.

17.5. İnvestisiyaların səmərəliliyi

İnvestisiyaların iqtisadi səmərəliliyini hərtərəfli əsaslandırmaq, onun artırılmasının konkret ehtiyatlarını

araşdırmaq məqsədilə göstəricilər sistemindən istifadə olunur. Bu göstəricilər sisteminə investisiyaların ödənməsi müddəti və xüsusi kapital qoyuluşları, əmək məhsuldarlığı, fondverimi, məhsulun maya dəyəri, məhsulun materialtutumu və enerjitutumu göstəriciləri daxildir.

İnvestisiya prosesinin uzunluğunu və sosial səmərəli xarakterizə edən göstəricilər ayrıca təhlil edilir. İnvestisiyaların səmərəliliyi müəyyən edilərkən kapital qoyuluşları ilə əldə olunan səmərə arasındakı vaxt müddəti nəzərə alınmalıdır.

İnvestisiyaların ümumi iqtisadi səmərəliliyi aşağıdakı kimi hesablanır:

a) bütünlükdə ölkənin xalq təsərrüfatı və ayrı-ayrı subyektləri üzrə:

$$Э_{XT} = \Delta D / K$$

burada ΔD - milli gəlirin artımı;

K- bu artıma səbəb olmuş kapital qoyuluşudur.

Bir qayda olaraq $Э_{XT}$ kapital qoyuluşlarının normativ səmərəlililyi əmsalı (E) ilə müqayisə edilir. Əgər $Э_{XT}$>E olarsa, qoyuluş səmərəli hesab olunur.

b) fəaliyyətdə olan ayrıca bir müəssisə üzrə:

$$Э_M = \Delta M / K,$$

burada ΔM -mənfəətin artımıdır (maya dəyərinin aşağı düşməsidir).

Bu halda kapital qoyuluşlarının səmərəli olması üçün $Э_M \geq E_N$ olmalıdır.

c) yeni tikilməkdə olan müəssisə, sex, obyekt üzrə:

$$Э_T = (Q - M_d) / K,$$

burada Q -müəssisə qiymətləri ilə illik məhsul buraxılışı;

M_d - istehsal gücləri tam mənimsənildikdən sonra illik buraxılışın maya dəyəridir.

Bu halda $Э_T \geq E_N$ olmalıdır.

Ödəmə müddəti uyğun olaraq:

$T_{öd} = K / \Delta M$ və ya $T_{öd} = K / (Q - M_d)$ düsturları ilə hesablanır.

İnvestisiyalaşdırma variantları seçilərkən (müqayisəli səmərəlilik) gətirilmiş xərclərdən istifadə olunur. Bu xərclərin minimumuna uyğun gələn variant əsas götürülür:

$$Z_G = S + EK \rightarrow \min .$$

Əgər kapital qoyuluşlarının müqayisə olunan variantları həcminə görə müxtəlifdirsə, investisiyalaşdırma müxtəlif aparılırsa, cari xərclər isə vaxta görə dəyişilirsə, onda ən uzaq illərin xərcləri cari ana gətirilir. Bunun üçün gətirilmə əmsalından istifadə olunur:

$$V = 1/(1 + E_d)^t,$$

burada t - gətirilmənin vaxt dövrü (illərlə);

E_d - müxtəlif vaxtların xərclərinin gətirilməsi üçün normativ (diskont normasıdır).

Diskont normasının ölçüsü inflyasiyanın sürətindən, kapital üçün minimal mənfəət normasından və risklərin qiymətləndirilməsindən asılıdır.

İnvestisiyaların səmərəliliyini aşağıdakı yollarla yüksəltmək olar:

- elm və texnika yeniliklərinə əsaslanan dəyişikliklərin aparılması;
- əsas fondların aktiv hissəsinin payının artırılması və texnoloji strukturda tərəqqinin təmin edilməsi;
- resurslara qənaət edən texnologiyadan istifadə;
- investisiyaların qoyulması dövründə maliyyə axınlarının optimallaşdırılması;
- investisiyalaşdırma obyektləri üzrə marketinqin fasiləsiz keçirilməsi.

FƏSİL 18. İCARƏ, LİZİNQ VƏ FRANÇAYZİNQ

18.1. İcarənin mahiyyəti və fəaliyyət mexanizmi

Bazar iqtisadiyyatına keçid təsərrüfat münasibətlərinin və idarəetmə strukturlarının yeni formalarının axtarılmasını tələb edir. Təsərrüfatçılığın elə formaları lazımdır ki, onlar müəssisələrə fəaliyyət müstəqilliyi versin, çünki bu, istehlak bazarını mallarla doldurmağa, geniş təkrar istehsala və sosial-iqtisadi inkişafa imkan verər. Belə formalardan biri icarədir.

İcarə – əmlakın müqavilə əsasında müvəqqəti istifadə üçün müəyyən haqq müqabilində verilməsidir. Müəssisənin icarəsi dedikdə, müstəqil müəssisənin, eləcə də onun tərkibinə daxil olan quruluş bölmələrinin (istehsal sahələri, qrupları, sexləri və s.) əmlakının icarəsi başa düşülür. İstehsal vasitələrinin kollektiv icarədarı kimi əmək kollektivi müqavilədə nəzərdə tutulan müddət ərzində onların mülkiyyətçisinə çevrilir. Dövlət müəssisələrinin icarəyə keçirilməsi zamanı mülkiyyət münasibətlərinin kökündən dəyişilməsi məhz bundan ibarətdir.

Müəssisənin icarəsinə mülkiyyətin dövlətsizləşdirilməsi formalarından biri kimi baxmaq olar. Lakin icarə obyekti dövlət mülkiyyəti olaraq qalır. Bu zaman iki hal ola bilər. Birincisi, icarəyə verilmiş dövlət müəssisəsində hazırlanan məhsul icarəyə verilmiş müəssisənin mülkiyyəti hesab olunur. İkincisi icarəçi icarə olunmuş müəssisəni gələcəkdə almaq hüququna malik olur, daha doğrusu, müəssisə kollektiv mülkiyyətə keçir.

İnkişaf etmiş icarə forması aşağıdakı əsas prinsiplərə əsaslanır:

1. Tərəflər arasındakı təsərrüfat münasibətlərinin uzun müddətli olması.

2. Tərəflərin qarşılıqlı təəhhüdlərini əks etdirən müqavilə.

3. Bütün icarə müddətində dövlət və təsərrüfat sistemi tərəfindən icarənin şərtlərinə uyğun olaraq icarə müəssisəsinin fəaliyyətinin nəticələrindən müəyyən hissəsinin mənimsənilməsi.

4. Müəssisənin müsabiqə əsasında icarəyə verilməsi.

İcarə müqaviləsində iki tərəf iştirak edir: icarədar və icarəçi. Müqavilə şərtlərinə əməl olunmadıqda o, pozula bilər.

İcarə müqaviləsində icarə haqqının formaları və ölçüsü, onun ödənilməsi müddətləri və şərtləri göstərilir. Adətən icarə haqqı icarəyə götürülmüş bütün əmlakın və ya onun hissələrindən hər birinin dəyərinə görə möhkəm məbləğ şəklində müəyyən olunur. Birdəfəlik ödəniş də mümkündür.

İcarə haqqının məbləği müəyyən edilərkən aşağıdakıları nəzərə almaq məqsədəuyğundur:

- icarəyə götürülmüş əmlakın dəyərinə hesablanmış amortizasiya ayırmalarının məbləği;
- verilən əmlakın bilavasitə istifadəsi zamanı əldə edilən gəlir;
- icarəyə götürülən əmlakın sığortası üçün xərclər;
- icarə müddəti bitdikdən sonra obyektin təmiri üçün xərclər;
- analoji obyektlər üçün regionda mövcud olan icarə haqqının orta səviyyəsi;.

Qeyd etmək lazımdır ki, icarə haqqının ölçüsü müqavilənin fəaliyyəti müddətində dəyişilməz qalmır, çünki müəssisənin fəaliyyəti şərtləri, ilk növbədə, avadanlığa bazar qiymətləri dəyişilir. Ona görə də icarə haqqının ölçüsünə ildə bir dəfə yenidən baxılmalıdır.

İcarə müqaviləsi həm müəyyən, həm də qeyri-müəyyən müddətə bağlana bilər. Sonuncu halda iştirakçılardan hər hansı biri tərəfindən 1 ay, daşınmaz

əmlakın icarəsi zamanı isə 3 ay əvvəl xəbərdarlıq etməklə müqavilə pozula bilər.

Müqavilə şərtlərinə əməl edilməyən hallarda müqavilə məhkəmə tərəfindən vaxtından əvvəl pozulur.

Müqavilənin müddəti bitdikdən sonra icarəçi əmlakı icarədara qaytarır. İcarə münasibətlərinin ayrıca bir növü əmlakın kirayəyə verilməsidir. İcarə müqaviləsinin müddəti qeyri-məhdud, kirayə müddəti isə 1 ilədək ola bilər.

Maliyyə resurslarının əmələ gəlməsinin iqtisadi əsası əmək kollektivinin təsərrüfat hesablı gəliridir. Təsərrüfat hesablı gəliri müəyyən etmək üçün məhsulun (işlərin, xidmətlərin) satılmasından əldə edilən məbləğdən bütün maddi və onlara bərabər götürülmüş xərclər tam çıxılır, icarə haqqı, bank və daxili kredit üçün faizlər ödənilir. Təsərrüfat hesablı gəlirə iqtisadi sanksiyalar üzrə saldo (ilk qalıq) daxil edilir.

Təsərrüfat hesablı gəlir kollektivin mülkiyyətidir və ona tam sərəncam verir. Təsərrüfat hesablı gəlir texnika ilə yenidən silahlandırma, yenidənqurma, avadanlığın modernləşdirilməsi, istehsalın inkişafı, işçilərin əməyinin ödənilməsi, sosial problemlərin həlli üçün başlıca mənbədir. Təsərrüfat hesablı gəlirin bölüşdürülməsini aşağıdakı kimi göstərmək olar:

Sosial proqramın həyata keçirilməsində təsərrüfat hesablı gəlir başlıca rol oynayır. İcarə şəraitində istehlak fondu üzrə əvvəllər mövcud olmuş qalıq prinsipi yararsızdır. Təsərrüfat hesablı gəlir əmək kollektivi

şurasının iştirakı ilə bölüşdürülür. Təsərrüfat hesablı gəlirdən istifadə məsələsini kollektiv özü həll edir. Bu isə kollektiv və ayrıca bir işçinin maraqlarını əlaqələndirir.

İcarəçilər kollektivi təsərrüfat hesablı gəliri elə optimal nisbətlərdə bölüşdürməlidir ki, istehsalın texniki bazasının, işçilərin maddi və sosial təminatının lazımi səviyyəsi təmin olunsun. Bu nişbətlərə əməl etmək üçün kollektiv öz normativlərini hazırlamalıdır. İstehsalın texniki səviyyəsi gəlirin həcminin artırılmasının əsas amili olduğundan əmək kollektivinin hər bir üzvü texniki səviyyənin həmişə təkmilləşdirilməsində maraqlı olmalıdır.

İnflyasiyanın sürəti yüksək olduqda icarə kollektivi üzvlərinin əmək haqqı da uyğun olaraq artmalıdır. Bunu təsərrüfat hesablı gəliri artırmaq yolu ilə əldə etmək olar. Müəssisədə bu məsələnin həlli aşağıdakılar hesabına əldə edilə bilər: istehsalın təşkilinin təkmilləşdirilməsi, marketinqin fəallaşdırılması, məhsulun texniki səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi, avadanlıqdan istifadənin yaxşılaşdırılması, bütün növ resurslara qənaət, məhsulun hazırlanmasının istehsal tsiklinin uzunluğunun ixtisar edilməsi, istehsalın maddi-texniki təminatının təkmilləşdirilməsi, elmi-texniki tərəqqi nailiyyətlərinin tətbiqi, əmək, istehsal və icra intizamının səviyyəsinin yüksəldilməsi.

Maddi həvəsləndirmənin səmərəliliyinin yüksəldilməsində əməyin ödənilməsi üçün vəsaitin əmələ gəlməsi başlıca rol oynayır. İcarə bölməsində əməyin ödənilməsinin faktiki fondu aşağıdakı düsturla müəyyən edilir:

$$FOT_{fakt} = KTV + S,$$

burada KTV - bölmənin əmək payı (əməkdə iştirak) əmsalı;

S - başqa bölmələrdən alınmış sanksiyaların (əməyin ödənilməsi fondu üzrə) məbləğidir.

Bölmənin əmək payı əmsalı aşağıdakı kimi hesablanır:

$$KTV = KTV_b \pm K,$$

burada KTV_b - hesabi baza əmək payı əmsalı;

K - bölmənin istehsal fəaliyyətinin faktiki nəticələrini xarakterizə edən düzəldici (hamarlaşdırıcı) əmsaldır.

Düzəldici əmsalın və onun qiymətinin müəyyən edilməsi üçün göstəricilərin tərkibini sexin kollektivi müəyyən edir. Eyni zamanda sanksiyalar da tətbiq edilir. Məsələn, sexin təqsirindən malların istehsalı üzrə tapşırıqlar yerinə yetirilmədikdə əməyin ödənilməsi fondundan mütəxəssislərin və fəhlələrin mükafatlandırılması üçün vəsaitin uyğun olaraq 100%-i və 50%-i çıxılır. Əmək intizamı pozulduqda və başqa hallarda rübün yekunlarına görə sexdə əməyin ödənilməsi fondundan itirilmiş iş vaxtının dəyəri (bir adam-saat üçün orta əmək haqqı hesabı ilə) ikiqat ölçüdə tutulur.

İcarə kollektivi üzvlərinin maddi həvəsləndirilməsinin yaxşılaşdırılmasında müəyyənedici amili məhsulun (işlərin, xidmətlərin) qiymətidir. Məhsulun, işlərin və xidmətlərin realaşdırılmasından əldə edilən gəlir, deməli, kollektivin təsərrüfat hesablı gəlir qiymətlərin düzgün təyin edilməsindən asılıdır. İcarəyə keçidin hələ başlanğıc mərhələsində aşağıdakı iqtisadi modeldən istifadə olunmalıdır:

18.2. Müəssisədə lizinqin təşkili xüsusiyyətləri

Bir çox hallarda müəssisələr məhsul istehsalı üçün hər cür imkanlara; yəni yüksək ixtisaslı kadrlara, ən yeni texnologiyalara, etibarlı malgöndərənlərə malik olur, lakin lazım olan əlavə avadanlığı almaq üçün kifayət qədər vəsaiti yoxdur. Başqa vəziyyət də mümkündür: müəssisənin müvəqqəti istismar olunmayan (və ya az yüklənən) avadanlığı vardır. Belə hallarda lizinqin tətbiqi məqsədəuyğundur.

Lizinq – müxtəlif maşınların, texnikanın, avadanlığın, nəqliyyat vasitələrinin, tikintinin, kompüterlərin, istehsal qurğularının və s. icarəyə verilməsinin xüsusi növüdür və bir qayda olaraq onlar lizinq alanın mülkiyyətinə verilir.

Lizinq haqqında Azərbaycan Respublikasının qanununa görə lizinq istehlakçının sifarişi əsasında əmlakı satın alınmaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədi ilə həyata keçirilən xidmət növüdür. Lizinq xidməti yönəldilən vəsaitin mənbəyinə, lizinq haqqının tərkibinə, lizinq müqaviləsi subyektlərinin iştirakına görə əsasən aşağıdakı formalarda həyata keçirilir:

1) lizinq xidmətinin həyata keçirilməsinə yönəldilən vəsaitin mənbəyinə görə:

- lizinq müəssisəsinin öz vəsaiti hesabına həyata keçirilən xidmət;
- lizinq müəssisəsinin öz vəsaiti və digər mənbələrdən cəlb olunmuş vəsait hesabına həyata keçirilən xidmət (bu halda lizinq müəssisəsinin öz vəsaiti xidmətin ümumi dəyərinin 30%-dən az olmamalıdır).

2) lizinq haqqının tərkibinə görə:

- əmlakın satınalma dəyəri, digər xidmət xərcləri, habelə lizinq müəssisəsinin mənfəəti daxil edilməklə lizinq haqqı ödənilən xidmət;

- əmlakın satınalma dəyəri və lizinq müəssisəsinin mənfəəti daxil edilməklə lizinq haqqı ödənilən xidmət.

3) lizinq müqaviləsi subyektlərinin iştirakına görə:

- üç müxtəlif tərəfin (satıcı, lizinq müəssisəsi və icarəçi) iştirakı ilə həyata keçirilən xidmət;

- iki tərəfin iştirakı ilə həyata keçirilən xidmət (bu halda maliyyə vəsaitinə ehtiyacı olan müəssisə öz mülkiyyətində olan əmlakı lizinq müəssisəsinə sataraq, onu icarəyə götürür).

Tərəflər arasında bağlanan lizinq müqaviləsində aşağıdakılar nəzərdə tutulmalıdır:

- tərəflərin hüquq və vəzifələri;

- icarəyə verilən əmlakın tərkibi və dəyəri;

- zəruri hallarda icarəçinin lizinq obyekti olan əmlak üçün təminatı;

- müqavilənin müddəti, lizinq haqqının məbləği, onun ödənilmə müddəti və qaydası;

- lizinq müddəti bitdiyi dövrə əmlakın qalıq dəyəri.

Lizinq müəssisəsi əmlakı icarəyə verməmişdən əvvəl ən azı müqavilə müddəti üçün həmin əmlakı sığorta etdirməlidir. Lizinq haqqının ödənilməməsi və gecikdirilməsi hallarında lizinq müəssisəsi icarəçidən penya tələb edə və ya müqaviləni poza bilər.

Lizinq hesabına müəssisələr iri kapital qoyuluşu olmadan zəruri istehsal vasitələrini götürmək imkanına malik olur. Lizinqin müxtəlif növləri vardır və o, həmişə inkişaf etməkdədir. Klassik sxemdə lizinqin üç iştirakçısı nəzərdə tutulur: avadanlığı istehsal edən müəssisə; icarəçi-lizinq firması və icarəçi-lizinqalan.

Bunlarla yanaşı lizinq bağlaşmalarında banklar, ixtisaslaşdırılmış lizinq şirkətləri iştirak edir.

Lizinqin əsas növləri aşağıdakılardır:

1. Maliyyə lizinqi.
2. Operativ lizinq.
3. Qaytarılan lizinq.

Maliyyə lizinqinin və ya tam ödənilən lizinqin mahiyyəti ondadır ki, müqavilə müddəti ərzində əmlak tamamilə amortizasiyaya uğrayır və lizinqverən lizinq tədiyyələri hesabına əmlakın dəyərini və ya onun əsas hissəsini geri qaytarır. Adətən maliyyə lizinqinə yüksək texnoloji avadanlıq verilir. Maliyyə lizinqində icarə müddəti bir qayda olaraq avadanlığın xidmət müddətinə bərabər olur.

Operativ lizinqdə müqavilənin fəaliyyət müddəti avadanlığın normativ xidmət müddətindən qısa olur. Bu lizinq qeyri-tam ödəməyə məruzdur. Belə lizinqi servis lizinqi də adlandırırlar, çünki icarədar lizinq alana əmlakı verərkən avadanlığın sazlanması, təmiri və xidməti üzrə öhdəlikləri öz üzərinə götürür. Bu xərclər icarədar tərəfindən ödənilir və lizinq tədiyyələrinə daxil edilir.

Qaytarılan lizinqdə əmlakın mülkiyyətçisi olan firma əmlakı maliyyə şirkətinə satır. Maliyyə şirkəti kimi bank, sığorta şirkəti və ya lizinq şirkəti çıxış edə bilər.

Eyni zamanda lizinq şərtlərilə əmlakın uzunmüddətli icarəyə verilməsinə dair müqavilə bağlanır. Nəticədə əmlakın əvvəlki mülkiyyətçisi icarədara çevrilir. Əmlakın əvvəlki sahibi olan firma onun satışından müəyyən pul vəsaiti əldə edir və onlardan icarə hüququ ilə istifadə edir.

Əmlakı alan icarədara çevrilir və lizinq tədiyyələrini müəyyən edir. Bu tədiyyələrin səviyyəsi əmlakın əldə edilməsi dəyərini ödəməyə və qoyulmuş kapital üçün orta səviyyəli gəlir əldə etməyə imkan verməlidir.

Qeyd etmək lazımdır ki, lizinq bağlaşmanın bütün iştirakçıları üçün sərfəlidir.

İcarənin müddətindən asılı olaraq lizinqin aşağıdakı növlərini fərqləndirmək olar:

- rentinq – bir neçə gündən bir ayadək olan müddətə icarə;

- xayrinq – bir neçə aydan bir ilədək olan müddətə icarə;

- bilavasitə lizinqin özü – bir ildən bir neçə ilədək olan müddətə icarə.

Ümumi halda lizinqin sxemini aşağıdakı kimi təsvir etmək olar:

Lizinq sövdələşmələrinin iştirakçılarının milli mənsubiyyətinə görə lizinq aşağıdakı növlərə bölünür:

1. Daxili lizinq (lizinq sövdələşməsinin bütün iştirakçıları bir ölkədəndir).

2. Beynəlxalq lizinq. Bu, öz növbəsində aşağıdakı növlərə bölünür:

a) ixrac lizinqi (istehsalçı və lizinqverən eyni bir ölkədən, lizinq alan isə xarici ölkədəndir);
b) idxal lizinqi (lizinqverən və lizinqalan eyni bir ölkədən, istehsalçı isə başqa ölkədəndir);
c) tranzit lizinqi (bütün iştirakçılar müxtəlif ölkələrdə yerləşir).

Beynəlxalq təcrübəyə görə lizinqin müddətləri avadanlığın amortizasiyası müddətindən asılıdır. Adətən lizinqin müddəti amortizasiya müddətindən az olur:

Amortizasiya müddəti, il	3	4	5	6-7	8	9-10
Lizinqin minimal müddəti, il	3	3	4	5	6	7

Maşın və avadanlığın icarə müddəti orta hesabla beş-səkkiz il, daşınmaz əmlakın icarə müddəti 10-20 il təşkil

edir. Müxtəlif ölkələrdə lizinqin müddətləri müxtəlif normativ sənədlərlə müəyyən edilir.

Xarici ədəbiyyatda təsdiq edirlər ki, lizinqin mahiyyəti icarənin və bank kreditinin elementlərinin əlaqələndirilməsidir. Yerdə qalan şərtlər vergi, mülki və ticarət qanunvericiliyinin xüsusiyyətlərindən asılıdır. Onlar lizinqin iqtisadi mahiyyətini dəyişmir, yalnız lizinqə milli xüsusiyyət verir.

Azərbaycanda lizinq formasındakı icarə çox az istifadə olunur. Yalnız bazar iqtisadiyyatına keçid lizinqdən istifadəni genişləndirəcəkdir.

18.3. Françayzinqin mahiyyəti və xüsusiyyətləri

Françayzinq – iri və kiçik sahibkarlığın qarışıq formasıdır. Bu, qarşılıqlı sərfəli partnyor münasibətləri sistemidir. O, icarə, alqı-satqı, podrat və müvəkkillik elementlərini birləşdirir, lakin bütünlükdə hüquqi şəxs statusuna malik təsərrüfat subyektlərinin müqavilə münasibətlərinin müstəqil forması olaraq qalır. İri (korporasiya, firma və s.) və kiçik müəssisələrin qarşılıqlı fəaliyyəti iri müəssisə – françayzer və kiçik müəssisə – françayzi (operator) arasında bağlanan françayzinq müqaviləsi əsasında həyata keçirilir.

Françayzer pul mükafatı hesabına müəyyən ərazidə işləyən françayzini və ya biznesmeni öz malları ilə təmin edə bilər, eyni zamanda müəyyən malların və xidmətlərin françayzerin adından və onun ticarət markası ilə həyata keçirmək üçün müstəsna hüququ verə bilər. Demək olar ki, həmişə françayzi bazarda françayzerin adından və ticarət markasından istifadə etmək üçün birdəfəlik haqq ödəyir. Bununla yanaşı françayzer ticarət markasının reklamı üçün müntəzəm haqq təyin edir.

İqtisadi ədəbiyyatda müqavilə münasibətlərinin iki tipini fərqləndirirlər. Birincisi, daha çox ticarət sahəsində

tətbiq olunur. Bunun mahiyyəti ondadır ki, françayzi firması bir növdən olan mal və xidmətlərin reallaşdırılması və satışın ümumi həcmindən müəyyən pay almaq üzrə ixtisaslaşır. Avtomobillərin, avtoservislərin və yanacaq doldurma məntəqələrinin satışı ilə məşğul olan françayzi firmaların əksəriyyəti bu müqavilə forması ilə işləyir.

Müqavilə münasibətlərinin digər tipi daha mürəkkəbdir. Kiçik françayzi – firma sadəcə françayzerin ticarət markası ilə işləmir, iri korporasiyanın tam istehsal-təsərrüfat tsiklinə qoşulur və bu halda françayzerlə bərabər texnoloji proseslərin keyfiyyətin və işçi heyətin təhsilinin tələblərini, satış planının doldurulmasını, operativ hesabatları yerinə yetirir. Bütün bunlar kiçik firmanı xüsusi məsuliyyətə gətirir, çünki bu halda kiçik firma da öz üzərinə bir sıra təəhhüdlər götürür. Məsələn, yerli şərait nəzərə alınmaqla marketinq və menecment sahəsində françayzerə müəyyən xidmətləri göstərir, öz kapitalının bir hissəsini həmin şirkətin investisiyasına yönəldir, françayzerlə işgüzar münasibətlər yaradır.

Françayzinqin həm müəyyən üstünlükləri, həm də nöqsanları vardır. Onun üstünlükləri aşağıdakılardır:

- françayzi –firma özünün mövcudluğu üçün müəyyən təminat əldə edir;
- marketinq tədqiqatları, məsləhətləşmələr və peşəkarların digər xidmətləri üçün vəsaitlərə qənaət edir;
- xammal, materiallar, yarımfabrikatlar göndərilməsində təminata malik olur;
- öz fəaliyyətini daha az risklə başlayır;
- françayzer – firmadan məsləhət və yardım alır.

Françayzinqin nöqsanlarına isə daxildir:

- françayzerin maraqlarının gözlənilməsi;
- əldə olunmuş mənfəətdən deyil, satışın həcmindən iri şirkətin hesabına müntəzəm ayırmaların köçürülməsinin zəruriliyi (bu françayzini çətin maliyyə vəziyyətinə sala bilər);

- françayzerin françayzinin maliyyə sənədlərini foxlamaq imkanına malik olması.

Bütün bunlar isə françayzinin təşəbbüslərini boğur və manevretmə imkanlarını məhdudlaşdırır.

Bazar iqtisadiyyatının ləng formalaşması, ağır vergi yükü, kifayət qədər inkişaf etməmiş hüquqi baza, məhsul və xidmətlər üçün borcların ödənilməməsi, sahibkarlığa dövlət yardımının zəif olması Azərbaycanda biznesin inkişafına mane olur. Buna baxmayaraq qərb françayzerləri Azərbaycan françayziləri ilə müqavilələr bağlamaq üçün təşəbbüs göstərirlər.

Ölkəmizdə françayzinq hələlik yalnız bir formada tətbiq olunur: xarici françayzer – Azərbaycanlı françayzi (operator).

İcarə və lizinqlə yanaşı françayzinqin inkişafı əhalinin məşğulluğu, istehsala inhisarın ləğv edilməsi, bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi olan rəqabətin inkişafı problemlərini daha sürətlə həll etməyə imkan verəcəkdir.

FƏSİL 19. MÜƏSSİSƏNİN TƏBİƏTİ MÜHAFİZƏ ÜZRƏ FƏALİYYƏTİ

19.1. Sənaye müəssisəsi ekoloji-iqtisadi sistem kimi

Təbiət insanın maddi və mənəvi tələbatlarının təmin edilməsinin başlıca mənbəyi, sənaye istehsalının iqtisadi artımı və inkişafının mühüm şərtidir. Lakin ətraf mühitin çirklənməsinin güclənməsi və bərpa olunmayan təbii resursların azalması, yeni-yeni ekoloji fəlakət zonalarının yaranması haqqında çox sayda məlumatlar cəmiyyətlə təbiətin qarşılıqlı münasibətlərindəki muasir meyli antropogen ekosid kimi, yəni Yer üzündə təbii həyat mühitinin insanlar tərəfindən dağıdılması kimi xarakterizə etməyə imkan verir. Maksimal mənfəət əldə etmək naminə resursların istehlakının və təbiətin dağıdılmasının sürətləndirilməsinə yönəlmiş müasir sosial-iqtisadi inkişaf qlobal ekoloji fəlakət təhlükəsini doğurur.

Ətraf mühit və inkişaf üzrə BMT-nin 1992-ci ildə Rio-de-Janeyro şəhərində (Braziliya) keçirilmiş konfransında etiraf olunmuşdur ki, ətraf mühit və iqtisadi inkişaf problemlərinə artıq təcrid olunmuş şəkildə baxıla bilməz. 179 dövlətin liderləri və hökumət başçıları tərəfindən tarixi bir sənəd – «XXI-əsrin gündəliyi» - növbəti yüzillikdə ümumdünya əməkdaşlığının qlobal proqramı qəbul edildi. Bu proqram iki qarşılıqlı əlaqədar məqsədin harmonik əldə edilməsinə yönəlmişdir: ətraf mühitin yüksək keyfiyyəti və dünyanın bütün xalqları üçün sağlam iqtisadiyyat.

Həmin konfransın başlıca nəticəsi dünya birliyinin inkişafın yeni modelinə - ekoloji təhlükəsiz dayanıqlı inkişaf modelinə keçidin zəruriliyi böyük karbohidrogen və digər təbii ehtiyatlarla zəngin olan Azərbaycan Respublikasına bilavasitə aiddir. Təəssüf ki, bu sərvətlər səmərəli istifadə

olunmur. Ölkənin ən çox əhalisi məskunlaşmış və sənayecə inkişaf etmiş şəhərlərində atmosfer havanın çirklənməsinin səviyyəsi mümkün normadan qat-qat yüksəkdir. Azərbaycan əhalisinin böyük əksəriyyəti keyfiyyətsiz içməli sudan istifadə edir. Hər il min tonlarla istehsal və istehlak tullantıları, o cümlədən toksik sənaye tullantıları əmələ gəlir.

Belə şəraitdə sosial-iqtisadi inkişafın düzgün strategiyasının seçilməsi son dərəcə mühüm rol oynayır. Geniş mənada dayanıqlı inkişaf strategiyası insan, cəmiyyət və təbiət arasında, iqtisadiyyat və ekologiya arasında harmoniyanın əldə edilməsinə yönəlmişdir. Dayanıqlı inkişaf ideyasının praktiki olaraq həyata keçirilməsi sosial-iqtisadi inkişafın gedişində, qlobal, milli, məhəlli və lokal səviyyələrdə resurslardan istifadə strategiyasında dərin dəyişiklikləri nəzərdə tutur.

1998-cı ildə Azərbaycan Respublikasının hökuməti ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Proqramını qəbul etmişdir.

Milli Fəaliyyət Proqramı ilə yanaşı inzibati-ərazi vahidləri, xalq təsərrüfatı sahələri, ayrı-ayrı müəssisələr və firmalar üçün də ekoloji təhlükəsiz inkişaf strategiyası hazırlanmalıdır. Ərazi təsərrüfat-təbiət kompleksləri və sənaye müəssisələri timsalında ekoloji təhlükəsiz inkişafın (ekoinkişaf) bəzi əsas prinsiplərinə baxaq:

1. Sosial-iqtisadi inkişaf adamların həyatının keyfiyyətinin yaxşılaşdırılması, ətraf təbii mühiti mühafizə etməklə indiki və gələcək nəsillərin əsas həyati tələbatlarının ödənilməsi.

2. Məhəlli və lokal vəzifələrin ekoinkişafın qlobal və milli məqsədlərinə tabe etdirilməsi («qlobal düşünüb lokal hərəkət etmək» prinsipi).

3. İnkişafın ekoloji təhlükəsizliyinin və sabitliyinin təmin edilməsi məqsədlərinin iqtisadi artım və iqtisadi səmərə məqsədlərindən üstün tutulması (ekoloji imperativ prinsipi).

4. İqtisadiyyatın və ekologiyanın qarşılıqlı əlaqələrinin gücləndirilməsi, səmərəli, ekoloji təhlükəsiz təsərrüfatçılıq və istehsal fəaliyyətinin təbii tsikllərə uyğunlaşdırılmasını təmin edən vahid ekoloji-iqtisadi sistemlərin formalaşdırılması. Maddi istehsalın yerləşdirilməsi və inkişafının təbii mühitin bərpası qabiliyyətinə uyğunluğu (ekoloji-iqtisadi balanslaşdırma prinsipi).

5. Bərpa olunan resurslardan qənaətlə istifadə, bərpa olunmayan resursların istehlakının azaldılması, tullantılardan maksimal dərəcədə təkrar istifadə edilməsi. Ekoloji təmiz məhsul buraxılışının genişləndirilməsi, aztullantılı, elmtutumlu, ekoloji təhlükəsiz istehsallara və texnologiyalara keçid (istehsalın ekologiyalaşdırılması prinsipi).

6. Ekoinkişafın və təbiəti mühafizə fəaliyyətinin tənzimlənməsinin səmərəli iqtisadi mexanizminin yaradılması: təbii resursların istehlakı və ətraf mühitin çirklənməsi üçün ödənişlər, ekoloji fondlar, vergi güzəştləri və s. (təbiətin və istehsalın iqtisadiləşdirilməsi prinsipi).

7. Ekoloji risklərin proqnozlaşdırılması, fövqəladə halların qarşısının alınması və operativ ləğv edilməsi, ziyanın azaldılması (xəbərdarlıq prinsipi).

Ekoinkişafın bu prinsipləri ekoloji-iqtisadi sistemi (EİS) təşkil edən təbiət-istehsal kompleksi hədlərində daha tam həyata keçirilə bilər. Ekoloji-iqtisadi sistem dedikdə, texnobiosferanın təbii, sosial və istehsal strukturlarının və proseslərinin maddələrin, enerjinin və informasiyanın qarşılıqlı dəstəklənən axınları ilə əlaqələndirildiyi müəyyən ərazi ilə məhdudlaşdırılmış hissəsi başa düşülür.

Təbii şəraitin, istehsalın miqyasının və formasının müxtəlifliyi EİS-nin tiplərinin müxtəlifliyi ilə müəyyən olunur. Bu, həm məhəlli təbii-təsərrüfat kompleksi, həm də iri sənaye şəhəri və ya təsərrüfat və emissiya zonasına malik

olan ayrıca bir müəssisə ola bilər. Burada biz yalnız EİS-in sənaye müəssisəsi tipinə baxacağıq.

Müəssisənin ətraf mühitlə qarşılıqlı fəaliyyəti prosesində müəssisədə maddələrin və enerjinin axınlarının sadə sxemi şəkil 19.1.1.-də verilmişdir. Bu EİS birgə fəaliyyət göstərən ekoloji və iqtisadi yarımsistemlərin uzlaşdırılmasını əks etdirir.

Şəkil 19.1.1. "Sənaye müəssisəsi" ekoloji-iqtisadi sistemində maddi və enerji axınları sxemi

Ekoloji yarımsistem mahiyyətinə görə ətraf təbii mühitdir. Bu mühitdən aldığımız təbii resurslar müəssisənin istehsal fəaliyyətinin zəruri şərtidir. Öz növbəsində iqtisadi yarımsistem təbii və istehsal resurslarının giriş maddi-istehsal axınlarını istehlak şeylərinin çıxış axınlarına – hazır məhsula çevirir. Beləliklə, ekoloji yarımsistemin bəzi komponentləri iqtisadi yarımsistemin resursları kimi istifadə olunur və istehsal-resurs tsiklinə cəlb edilir. Bir neçə texnoloji mərhələni keçdikdən sonra təbii resursların bir hissəsi hazır məhsula çevrilir. Təbii resursların əsas hissəsi

isə ətraf mühiti çirkləndirən müxtəlif tullantılar şəklində yenidən ekoloji yarımsistemə qayıdır.

Məlumdur ki, təbitədə maddələrin təbii dövranı qapalı tsikl üzrə baş verir. Bundan fərqli olaraq istehsal-resurs tsikli açıqdır, sonludur. Resurs tsiklinin hər bir mərhələsində resurs itkiləri şübhəsizdir ki, bu da ətraf mühitin çirkləndirilməsi mənbəyidir. Bundan əlavə texnogen dövriyyəyə canlı təbiətə yad olan daha çox miqdarda maddələr və materiallar cəlb olunur. Nəticədə çıxarılmış təbii resursların yalnız bir hissəsi real olaraq təzələnir. Sənaye çirklənmələrinin yalnız bir hissəsini təbiət özünün təmizlənmə mexanizmi vasitəsilə neytrallaşdıra bilər.

Ekoloji-iqtisadi balanslaşdırma prinsipinə uyğun olaraq təbii resursların çıxarılması onların təzələnməsi (bərpası) sürətindən yüksək olmamalıdır. Zərərli və çirkli tullantıların atılması ətraf təbii mühitdə onların parçalanması və assimilyasiyası sürətindən çox olmamalıdır. İstehsalın inkişafının ekoloji səmtlənməsi resurs tsikllərinin tədricən təbiətdə maddələrin qapalı dövranına yaxınlaşmasını nəzərdə tutur. Onların belə təşkili tullantısız (az tullantılı) istehsala uyğundur. Belə istehsalın mühüm elementi resurslardan və istehsal-məişət tullantılarından təkrar istifadə olunmasıdır.

Balanslaşdırılmış EİS-də məcmu texnogen yüklənmə təbii mühitin özünü bərpaetmə və assimilyasiya potensialından yüksək olmamalıdır. Sənaye müəssisəsinin ətraf mühitə mümkün yükünün ekoloji reqlamentləşdirmə atmosferə və su obyektlərinə çirkli maddələrin tullanmasının mümkün həddləri normativləri, tullantıların saxlanması limiti və s. ilə təmin edilir. Təbiətdən istifadənin balanslaşdırılması prinsipinin pozulması ekosistemlərin deqradasiyasına gətirib çıxarar, sonradan bu, EİS-in iqtisadiyyatına tamamilə bərpa olunmaz ciddi ziyan vura bilər.

Ekoloji və iqtisadi maraqların uzlaşdırılması ideyası yalnız iqtisadi artımın və sənaye inkişafının məhdudlaşdırılmasına gətirib çıxarır. Balanslaşdırma təkcə təbii ekosistemlər üçün deyil, həm də təsərrüfat kompleksləri, müəssisələri üçün də zəruridir. Həqiqətdə isə söhbət istehsalın təbiət tutumluğunun məhdudlaşdırılmasından gedir ki, bunun da təkcə ekoloji deyil, həm də iqtisadi əhəmiyyəti vardır.

Bütün bunlar nəzərə alınaraq 2000-ci ildə Azərbaycan Respublikasında iki Qanun qəbul edilmişdir: «Ətraf mühitin mühafizəsi haqqında» və «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında».

19.2. Ətraf mühitə və insanın sağlamlığına sənaye müəssisələrinin təsiri

Müxtəlif sahələrin müəssisələri istehsalın həcminə, zərərli maddələrin atmosferə atılması həcminə, çirkab sularının axıdılması və sənayenin bərk tullantılarının atılmasına görə bir-birindən fərqlənirlər.

Təsirin xüsusiyyətinə görə hasilat və emal sənayesinin müəssisələri xüsusilə fərqlənirlər.

Hasilat sənayesi müəssisələrinin ətraf mühitə əsas təsirləri dağ süxurları massivinin tamlığının dəyişilməsində; torpaqların dağılmasında, relyefin antropogen formalarının əmələ gəlməsində; ərazinin su balansının pozulmasında; açıq hasilat zamanı partlayış işləri ilə əlaqədar olaraq atmosferə tozların qalxmasında; bütün landşaftın dəyişilməsində, torpaq örtüyünün, bitki aləminin və mikroorqanizmlərin əmələ gəlməsində öz əksini tapır.

Hasilat sənayesi müəssisələrinin təbiət kompleksinə təsirləri ümumi olsa da hasilat üsullarından (açıq və ya qapalı), hasilat texnologiyasından, hasil edilən resursun növündən, hasilatın aparıldığı ərazinin təbii xüsusiyyətlərindən asılı olan müəyyən fərqləri görmək olar.

Emal sənayesinin müəssisələri üçün atmosferin vəziyyətinə və yerüstü sulara daha böyük təsir göstərir. Atmosferə atılan sənaye tullantılarının ümumi həcmində emal sənayesinin payı 80%-ə qədərdir, çirkab sularındakı payı isə təqribən 90%-dir. Emal sənayesinin müəssisələri onlarca sahəni təşkil edir ki, onlar təkcə texnoloji xüsusiyyətləri, ixtisaslaşmanın xarakteri, buraxılan məhsulun təyinatı ilə deyil, həm də atılan zərərli elementlərin çox böyük müxtəlifliyi ilə müəyyən edilən təsirlərin xüsusiyyətləri ilə fərqlənirlər.

Hasilat sənayesinin sahələri içərsinidə iri tonnajlı sahələrin fəaliyyəti daha çox tullantılarla əlaqədardır. Bu qrupa qara və əlvan metallurgiya, neftemalı, tikinti materialları sənayesinin müəssisələri daxildir. Bütün emal sənayesində atmosferə atılan zərərli tullantıların 80%-i məhz bu sahələrin payına düşür.

Emal sənayesinin bütün çirkab sularının 80%-dən çoxunu sellüloz-kağız, kimya və neft-kimya sənayesi, maşınqayırma, qara və əlvan metallurgiya müəssisələri axıdır.

Metallurgiya kombinatında 1 ton prokatın alınması üçün ekspertlərin qiymətlərinə görə bərk, qazşəkilli və maye məhsulların xüsusi çıxımı aşağıdakı kimi olmuşdur:

Şlaklar – 0,5-1,0 t

Quru toz – 80-120 kq

Okalina – 30-40 kq

Çirkab suları – 250-300 m^3

Texnoloji qazlar – 8,0-10,0 min m^3 və s.

Qara metallurgiya müəssisələrində tullantıların məcmusu qara metal buraxılışının həcmindən 2-4 dəfə çox olur.

Emal sənayesi sahələrinin müəssisələrinin spesifik xüsusiyyəti təbiətdə məlum olmayan xüsusi təhlükəli maddələrin istehsalı, eləcə də təbiət və insan üçün xüsusi

təhlükə yaradan bir çox toksik birləşmələrin atmosferə atılmasıdır.

Emal sənayesi müəssisələrindən hər biri təhlükəli və spesifik elementlər yığımına malikdir.

Emal sənayesi müəssisələrində çirkləndirmənin spesifik növləri sırasına səs-küyü, vibrasiyanı, elektromaqnit və istilik şüalanmanı aid etmək olar.

Maşınqayırma müəssisələrinin bütün texnoloji proseslərində, xüsusilə dəmirçi-pres, ştamplama və tökmə istehsalında intensiv səs-küy qeyd olunur. İş yerlərinə səsin təzyiqi səviyyəsi mümkün hədlərdən 10-30 gB çox olur. Yüksək səviyyəli aerodinamik və mexaniki səs-küyün və vibrasiyanın mənbəyi ventilyasiya sistemi, nasoslar və kompressor qurğularıdır. Şəhərdaxilində yerləşmiş sənaye müəssisələri xüsusilə güclü səs-küy yaradırlar.

Emal sənayesində mütərəqqi, yüksək texnologiyalı sahələr xüsusi qrup təşkil edir. Buraya yarımkeçiricilər, EHM-in element bazası, mikroelektronika məhsulları istehsalı daxildir. Onların zərərli tullantıları iritonnajlı sahələrlə müqayisədə çox azdır və buna görə də onları ekoloji təmiz sahələrə aid edirlər. Lakin bu heç də belə deyildir, çünki həmin istehsalların tullantıları çox sayda maddələrlə, adətən yüksək toksik maddələrlə xarakterizə olunur. Yarımkeçiricilər və EHM üçün element bazası istehsalının tullantılarında ağır metallar, silisium, germanium və arsen birləşmələri olur. Maddələrdən bir çoxunun təsiri hələ zəif öyrənilmişdir.

Yüksək texnoloji sahələrin müəssisələrində istehsalda çalışan fəhlələrə tamamilə qeyri-adi təsir aşkar olunur. Həmin müəssisələrin istehsal binalarının yüksək təmizliyi, hətta steril olması tələb olunur. Belə şəraitdə işləyənlərdə müxtəlif xəstəliklərə qarşı immunitet zəifləyir. Steril şəraitdən daha çirkli ətraf mühitə düşdükdə onlar adətən xəstələnirlər.

Ərazinin ekoloji vəziyyətinin yaxşılaşdırılması problemlərinin həlli hər bir konkret müəssisədə təbiəti mühafizə tədbirlərini həyata keçirmədən qeyri-mümkündür. Qərarların qəbul edilməsi üçün lazım olan informasiya müəssisənin ekoloji pasportundan götürülür.

19.3. Müəssisənin ekoloji pasportu

Müəssisənin ekoloji pasportu istehsal gücü və ixtisaslaşdırma, texniki təchizat, xammalın alınması və buraxılan məhsul haqqında dəqiq informasiyanı əks etdirməlidir. Müəssisənin istehsal fəaliyyətinə aid olan geniş informasiyada təbiəti mühafizə tədbirləri ilə əlaqədar olan hissəsini ayırmaq lazımdır. Əsas informasiya bloklarına baxaq.

Müəssisə haqqında ümumi məlumatlar. Müəssisənin adı, tabeçiliyi, sahə mənsubiyyəti, müəssisənin yeri, şəhərdən məsafəsi, yaxınlıqdakı nəqliyyat magistralı. Əgər müəssisənin sexləri müxtəlif yaşayış məntəqələrində yerləşərsə, hər bir sexin yeri ayrıca göstərilməlidir.

Müəssisənin coğrafi mövqeyi, yəni onun ətraf əraziyə, müxtəlif təsərrüfat və təbiət obyektlərinə, yaşayış məhəllələrinə, digər müəssisələrin sahələrinə, kənd təsərrüfatı müəssisələrinin torpaqlarına, meşə-park zonalarına münasibəti, sanitar-müdafiə zonasının olmasına və s. münasibəti xüsusi qeyd olunmalıdır. Eyni zamanda meteoroloji şərait, anomal təbii hadisələrin (qasırğa, toz tufanları, fəlakətli daşqınlar və s.) baş verməsi imkanları haqqında da məlumat verilməlidir.

Müəssisənin tərkibi. Əsas sexlər, sahələr və bölmələr. Avadanlığın yaş tərkibi. Sənaye müəssisəsi mürəkkəb qurum olub, çox sayda əsas və köməkçi sexlərdən ibarətdir. Müəssisənin ayrı-ayrı bölmələri ətraf mühitə təsiri dərəcəsinə görə də eyni deyildir. Ona görə də müəssisənin strukturunu, ixtisaslaşması və istehsal gücləri göstərilməklə

əsas sexlərin, istehsal sahələrinin və bölmələrinin siyahısını bilmək lazımdır.

Atılan zərərli maddələrin həcmi avadanlığın yaş tərkibindən də çox asılıdır. Köhnə avadanlıq, bir qayda olaraq, çox sayda qəza tullantılarının mənbəyi olur. 20 ildən artıq işləmiş, mənəvi və fiziki aşınmaya məruz qalmış avadanlıq xüsusilə təhlükəlidir.

Əsas məhsul növlərinin istehsalının texnoloji sxemi. İstehsalın seçilmiş texnoloji sxemi atılan maddələrin həcminə və təsirinin xüsusiyyətlərinə təsir göstərir. Ona görə də ekoloji təmiz, zərərsiz texnologiyaların seçilməsi müəssisənin təbiəti mühafizə problemlərinin həllində mühüm rol oynaya bilər. Məsələn, dağ-mədən işlərinin təsirini azaltmaq üçün geotexnologiyalar tətbiq edilir. Geotexnoloji metoddan istifadə zamanı hasilatı işçi reagentin (istilik daşıyıcısı, əridici) köməyilə quyu vasitəsilə aparılır. Geotexnoloji metodların bir növü də texniki mikrobiologiya metodlarıdır. Bu metodlar mikroorqanizmlərin bəzi növlərinin müəyyən şəraitdə mineral birləşmələri əritmək qabiliyyətinə əsaslanır.

Müəssisədə istehlak olunan xammalın, yarımfabrikatların və yanacağın əsas növləri. İstifadə olunmuş xammal və yanacaq ilə müxtəlif zərərli maddələrin atılması arasında birbaşa əlaqə mövcuddur. Yanacağın və ya xammalın hər hansı bir növünün hansı yataqdan götürüldyü məlum olarsa ətraf mühitə atılacaq mümkün elementlər yığımını müəyyən etmək olar. Ona görə də müəssisənin ekoloji pasportunda xammalı, yarımfabrikatları və yanacağı göndərənlər haqqında, xüsusi təhlükəli elementlərin olması barədə məlumatlar olmalıdır.

Müəssisənin ətraf mühitə təsirinin xüsusiyyətləri. Atmosferin çirklənməsi oraya bərk, maye və qazşəkilli maddələrin düşməsi və ətraf mühitə mənfi təsir göstərməsi nəticəsində baş verir. Bu təsir atmosferdə bilavasitə kimyəvi dəyişikliklərdən sonra, ya da başqa maddələrlə birləşərək

meydana gəlir. Atmosferə sənaye tullantıları fasiləsiz, dövri, birdən püskürmə və ya ani ola bilər. Fasiləsiz və dövri tullantılar istehsalın texnoloji xüsusiyyətləri ilə müəyyən edilir və texnoloji reqlamentdə nəzərə alınır. Birdən püskürmələr qəzalar, partlayış işləri, tezyanan istehsal tullantıları yandırılan zaman mümkündür. Belə hallarda çirkli maddələr çox qısa müddət ərzində xeyli yüksəkliyə atılır.

Müxtəlif çirkləndiricilərin təhlükəlilik dərəcəsi konsentratın mümkün həddi (KMH) göstəricisi ilə ifadə olunur. Bu, zərərli maddələrin daimi təsiri zamanı insana və ya ətraf mühitin komponentlərinə mənfi təsir göstərməyən zərərli maddələrin məzmunu normatividir.

Tullantıların mümkün həddi (TMH) – zərərli maddələrin yerüstü konsentrasiyasının KMH-dən artıq olmaması şərtilə atmosferi çirkləndirən hər bir mənbə üçün müəyyən edilən zərərli maddələr tullantısının normatividir.

Atmosferin çirklənməsini qiymətləndirərkən çirkləndirici maddələrin atmosferdə qaldığı müddət nəzərə alınmalıdır. Məsələn, atmosferdə helium 10^7 il, karbon dioksidi 5-10 il, azot oksidi 8-11 gün, kükürd dioksidi 2-4 gün qalır.

Sənaye istehsalının təsir etdiyi ikinci istiqamət yerüstü və yeraltı suların çirkləndirilməsidir. Burada sənayeinin bütün sahələri, xüsusilə sellüloz-kağız sənayesi suyu daha çox çirkləndirir. İstilik elektrik stansiyası yerüstü suları qızdırır. Suyun bu yolla çirklənməsi elektrik stansiyalarının vahid gücünün artması ilə daha da artmışdır.

İstehsal çirkab sularının miqdarı və keyfiyyəti müxtəlifdir və sənaye sahəsindən, onun texnoloji proseslərindən asılıdır. İstehsal çirkab suları iki əsas qrupa bölünür:

1. Qeyri-üzvi, o cümlədən toksik və zəhərli qatışıqlar olan çirkab suları. Bu qrupa soda, sulfat və əsas kimyanın digər müəssisələri daxildir. Həmin müəssisələrin çirkab

sularında turşular, ağır metalların ionları olur və əsasən suyun fiziki xassələrini dəyişir.

2. İkinci qrupun çirkab suları neftemalı və neft-kimya zavodlarına, üzvi sintez, koks-kimya və digər müəssisələrin payına düşür. Bu sularda neft məhsulları, amiak, aldehidlər, qətran, fenol və digər zərərli maddələr olur.

Çirkab sularının çirklənməsi səviyyəsini qiymətləndirmək üçün bir çox ekoloji normativlərdən, hava üçün olduğu kimi konsentratların mümkün həddi (KMH) göstəricisindən istifadə olunur.

Sənaye tullantılarının bitki örtüyünə və torpağa zərərli təsiri adətən bir neçə çirkləndirici maddənin kiçik konsentrasiyalarla oduncağın xroniki zədələnməsi şəklində üzə çıxır.

Atmosferin sənaye tullantıları ilə çirklənməsi torpağın üst qatının çirklənməsinə və dağıdılmasına gətirib çıxarır. Sənaye tullantıları mənbələrinin yaxınlığında yerləşən sahələrdə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı o dərəcədə aşağı düşə bilər ki, onların əkilməsi məqsədəuyğun sayılmır. Məsələn, belə halda məhsuldarılq qarğıdalıda 60%, yoncada 50%, arpada isə 37%-dək azalmışdır.

Ümumdünya səhiyyə təşkilatının məlumatlarına görə sənaye tullantıları insanın sağlamlığına ciddi təsir göstərir. Belə ki, ətraf mühitin əlverişsiz vəziyyəti əhalinin 20%-nin xəstələnməsinə səbəb olur. Təsiri qiymətləndirərkən peşə xəstəliklərini doğuran, eləcə də yaxın ərazilərdə yaşayan əhalinin sağlamlığının mümkün pisləşməsinə təsir edən təhlükəli elementlərə xüsusi diqqət vermək lazımdır.

Müəssisələrin təmizləyici və təbiəti mühafizə qurğuları. İstehsalın ətraf mühitə təsirini yumşaltmaq, zərərli maddələrin daxil olmasının həcmini texnoloji normativlərlə müqayisədə xeyli azaltmaq üçün ətraf mühiti

müdafiə texnikasından istifadə olunur. Pasportda təmizləyici avadanlığın əsas növləri, zərərli tullantılardan təmizlənmək üçün tətbiq olunan üsullar və təmizlənmə dərəcəsi haqqında məlumatlar verilməlidir.

Ətraf mühitin çirkləndirilməsinə görə müəssisələrin cərimələri. Ölkənin təbiəti mühafizə orqanları müəssisələrin stasionar və səyyar çirkləndirmə mənbələrindən tullantılara görə cərimələrin ölçülərini müəyyən etmişdir. Cərimənin ölçüsü tullantıların həcmindən və elementlərin toksikliyi dərəcəsindən asılıdır. Müəssisələr üçün təsir normativləri (tullantıların mümkün həddi), tullantıların yerləşdirilməsi və ətraf mühitə yük normaları müəyyən edilir.

FƏSİL 20. MÜƏSSİSƏNİN XARİCİ İQTİSADİ FƏALİYYƏTİ

20.1. Xarici iqtisadi fəaliyyətin əsas formaları

Xarici iqtisadi əlaqələr dövlətlər arasındakı istehsal, ticarət-iqtisadi, kooperasiya, valyuta-maliyyə və kredit münasibətlərinin məcmusudur. Onların xarakteri, strukturu və dinamikası ilk növbədə beynəlxalq əmək bölgüsü sistemində milli iqtisadiyyatın yeri, onun əmək məhsuldarlığı, məhsulun və xidmətlərin keyfiyyəti, məhsulun dəyəri, elmi-texniki potensial və reallaşdırılması imkanları, infrastrukturun inkişafı dərəcəsi və s. kimi xarakteristikaları ilə müəyyən edilir. Öz növbəsində beynəlxalq iqtisadi münasibətlər milli iqtisadiyyatın inkişafına neqativ (inkişaf etməkdə olan bir çox ölkələrin iqtisadi asılılığı) və ya pozitiv (ikinci dünya müharibəsindən sonra Yaponiyada, AFR-də, Cənubi Koreyada «iqtisadi möcüzə») təsir göstərə bilər.

Xarici iqtisadi fəaliyyətin (XİF) müxtəlif formaları mövcuddur: xarici ticarət; beynəlxalq istehsal ixtisaslaşması və kooperativləşdirilməsi; beynəlxalq lizinq; beynəlxalq turizm; beynəlxalq valyuta-maliyyə və kredit münasibətləri.

Xarici ticarət – məhsulların və xidmətlərin beynəlxalq mübadiləsindən ibarətdir. Xarici ticarət əməliyyatlarının həyata keçirilməsinin predmetindən və xarakterindən asılı olaraq aşağıdakı növlərini fərqləndirirlər:

1. Hazır məhsulun, daha doğrusu, bilavasitə son istehlak üçün nəzərdə tutulan və yararlı məhsulun satışı. Bu proses dünya və ya müqavilə qiymətləri ilə bilavasitə istehsalçı tərəfindən və ya vasitəçilər tərəfindən həyata keçirilir. İdxalçının maraqları nəzərə alınmaqla məhsulun satışdan qabaq tamamlanması, eləcə də satışdan sonrakı

xidmət də mümkündür. Hesablaşmalar ixracatçının, idxalçının və ya üçüncü ölkənin valyutası ilə aparıla bilər.

2. Quraşdırılmamış şəkildə olan məhsulun satışı. Onun idxalına adətən azaldılmış gömrük rüsumları müəyyən olunur. Əgər həmin məhsulun xaricdə yığılması daha ucuz iş qüvvəsi ilə həyata keçirilirsə, güzəştli vergiqoyma, torpağın icarəsi ucuz və s. olarsa, ticarətin bu forması çox sərfəlidir. Eyni zamanda qeyd etmək lazımdır ki, bəzi hallarda məhsulun yığılmış vəziyyətdə ixracı obyektiv səbəblərə görə qeyri-mümkündür (məsələn, reaktorlar, liman kranları və s.).

3. Qarşılıqlı mal göndərişləri. Bu halda ixracatçılar göndərilmiş məhsulun dəyəri müqabilində idxalçıdan ya bütünlükdə, ya da qismən məhsulla ödənilməsini öhdəsinə götürür. Bu halda barter əməliyyatlarından, köhnəlmiş məhsulun alınması və sifarişçinin xammalı ilə əməliyyatlardan istifadə olunur.

Bütün hallarda verilən məhsulun dəyərinin qiymətləndirilməsi zəruridir. Bu, gömrük uçotu, malların məhv olması halında veriləcək sığortanın təyin edilməsi üçün tələb olunur. Cərimə sanksiyaları isə malgöndərişlərinin azaldılması və ya artırılması yolu ilə həyata keçirilir.

4. Komplekt avadanlığın göndərilməsi. Bu halda texnoloji komplekslər onların layihələndirilməsi, quraşdırılması, sazlanması və yerli şəraitdə istismar üçün hazırlanması üzrə xidmətlərin tam komplekti ilə göndərilir.

5. Lisenziyalarla ticarət. Burada söhbət müəyyən şərtlər daxilində ixtiralardan «nou-hau»-dan və s. istifadə hüququnun razılaşdırılmış müddət ərzində müvafiq mükafat müqabilində hər hansı bir subyektə verilməsindən gedir. Əgər texniki yeniliklər patentlə mühafizə olunmursa, onda pulsuz lisenziya tətbiq olunur. Bütün hallarda lisenziya müqavilələri bağlanır. Bu müqavilələrdə «nou-hau» və digər xidmətlər göstərilməklə kompleks beynəlxalq texnoloji mübadilə nəzərdə tutulur. Lisenziya müqaviləsində lisenzi-

yanın növü (pulsuz və ya patentli), verilən texnologiyadan istifadə hüququnun həcmi (tam, sadə və ya müstəsna), hesablaşma formaları, texnologiyaların tətbiqi sahələri və sərhədləri, lisenziya müqaviləsinin fəaliyyət müddəti dəqiq göstərilməlidir. Bu müqavilənin fəaliyyəti müddətində texnologiyaları qəbul edən tərəf (lisenziat) texnologiyalardakı bütün dəyişikliklər haqqında satıcını (lisenziar) xəbərdar etməlidir.

6. İnjinirinq xidmətlərinin göstərilməsi. İnjinirinq – sənaye müəssisələrinin, elmi-texniki mərkəzlərin, infrastrukturun və s. layihələndirilməsi məsələlərinin tədqiq edilməsi üzrə kommersiya xarakterli xidmətlər kompleksidir. Burada layihəqabağı, layihə və layihədən sonrakı xidmətlər nəzərdə tutulur. Bu xidmətlər texniki-iqtisadi əsaslandırmanı, ilkin mühəndis tədqiqatlarını, idarəetmə və marketinq sistemlərinin təşkilini, malyeridilişinə yardımı və s. əhatə edir. İnjinirinq xidmətləri müqavilə əsasında ya vaxtamuzd, ya da işəmuzd ödənilir.

Beynəlxalq istehsal ixtisaslaşdırılması və kooperativləşdirilməsi müxtəlif ölkələrdən olan tərəfdaşların hər hansı bir məhsulun istehsalında bilavasitə əməkdaşlığını əks etdirir. Xarici iqtisadi fəaliyyətin bu forması üçün aşağıdakılar xasdır: müvafiq müqavilələrdə təsbit olunmuş istehsal əlaqələrinin müntəzəmliyi, uzunmüddətliliyi və sabitliyi. Hazır məhsul, texnoloji proses və s. kooperativləşdirmənin obyekti ola bilər. Kooperativləşdirmənin növlər, mərhələlər, ərazi dairəsi (əhatəsi), tərəfdaşların sayı, obyektlərin miqdarı, məhsulun xarakteri və s. təsnifləşdirilə bilər.

Beynəlxalq kooperativləşdirmənin əsas metodlarına aşağıdakılar daxildir:

- razılaşdırılmış birgə proqramların həyata keçirilməsi;
- müqavilə üzrə ixtisaslaşdırma;
- birgə istehsal müəssisələrinin yaradılması.

Beynəlxalq lizinq istehsal avadanlığının, nəqliyyat vasitələrinin, kompüter texnikasının, anbar binalarının uzunmüddətli (12 aydan uzun müddət üçün) icarəyə verilməsidir. Bununla da müvafiq obyekti tam mülkiyyəti üçün ala bilməyən icarədar həmin obyektin istismarı imkanını əldə edir. Beynəlxalq Valyuta Fondunun qaydalarına əsasən lizinq öhdəlikləri dövlətin xarici borclarının həcminə daxil edilmir. Ona görə də dövlətin dəstəyini alır. Bundan əlavə icarə ödənişləri adətən əməliyyat xərclərinə daxil edilir və ona görə də vergiyə cəlb olunmur. İcarədar icarə ödənişlərini xərc maddələri üzrə köçürür. İcarədar müqavilə müddəti bitdikdən sonra icarə predmetini qalıq dəyəri üzrə öz mülkiyyətinə götürə və yeni, daha mütərəqqi avadanlıq üçün yeni lisenziya müqaviləsini bağlaya bilər.

Beynəlxalq turizm – xarici iqtisadi fəaliyyətin ən dinamik formasıdır. Mehmanxanaların, nəqliyyat qovşaqlarının və arteriyalarının, istirahət yerlərinin və s. tikilməsi üçün bir dəfə sərf edilmiş investisiyalar çox tez ödənilir, sabit və yüksək gəlir gətirir. Burada həm xarici turistlərin qəbulu, həm də öz vətəndaşlarının xaricə göndərilməsi nəzərdə tutulur. Beynəlxalq turizm təkcə bilavasitə onunla bağlı sahələrdə deyil, həm də məşğulluğun kəskin surətdə artmasına səbəb olur.

Beynəlxalq valyuta-maliyyə və kredit münasibətləri. Kapital ixracı – sahibkarlıq fəaliyyətindən mənfəət əldə etmək və ya faizlər götürmək məqsədilə əmtəə və ya pul formasında vəsaitin yerləşdirilməsidir. Ssuda kapitalının hərəkəti beynəlxalq kredit formasında çıxış edir. Xarici borcalana ssuda qaytarılmaq, müddətli olmaq və müəyyən faizləri ödəmək şərtilə verilir. Burada portfel investisiyaları mühüm rol oynayır. Portfel investisiyaları gəlir əldə etmək məqsədilə xaricdə qiymətli kağızlara (istiqraz vərəqələri, səhmlər və s.) kapital qoyuluşlarını əks etdirir. Dünya kapital bazarını kredit bazarına və qiymətli kağızlar

bazarına bölmək olar. Dünya kapital bazarına daxil olan müəssisə valyuta məzənnələrinin dinamikasına, valyuta kreditlərinin verilməsi müddətlərinə və şərtlərinə, müvafiq təminatlar və sığortalar sisteminə xüsusi fikir verməlidir.

20.2. Azərbaycanda xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi və müəssisənin xarici bazara çıxışı

Azərbaycanda xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinin ümumi hüquqi bazasını Azərbaycan Respublikasının qanunları, ölkə Prezidentinin fərmanları, hökumətin qərarları, müvafiq nazirliklərin və təşkilatların müxtəlif normativ aktları təşkil edir.

Hazırda Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün aşağıdakı qanunlar fəaliyyət göstərir: Xarici investisiyanın qorunması haqqında (15 yanvar 1992-ci il, 5 noyabr 1996-cı ildə dəyişikliklər), Azərbaycan Respublikasında Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının və onlarla bağlı təşkilatların sazişlərinin və konvensiyalarının tətbiqi qaydası haqqında (19 avqust 1992-ci il), Gömrük tarifi haqqında (20 iyun 1995-ci il), Kredit ittifaqları haqqında (2 may 2000-ci il) və s.

Xarici iqtisadi fəaliyyətin təşkili və idarə edilməsində müxtəlif dövlət orqanları iştirak edir və özlərinin səlahiyyətləri hədlərində müvafiq normativ aktlarını tərtib və təsdiq edir.

Bu sahədə mühüm dövlət orqanları aşağıdakılardır: İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Milli Bank.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ölkənin xalq təsərrüfatında dövlət siyasətinin həyata keçirilməsi üzrə aparıcı təşkilatdır. Xarici iqtisadi fəaliyyət baxımından o, aşağıdakı funksiyaları yerinə yetirir:

- müvafiq idarə və təşkilatlarla birlikdə ölkənin xarici iqtisadi fəaliyyətinin formalaşdırılması;
- ölkəyə xarici investisiyaların cəlb edilməsi sahəsində təkliflərin hazırlanması;
- müvafiq nazirliklər və idarələrlə birlikdə xarici iqtisadi əlaqələr üzrə hökumətlərarası müqavilələrin bağlanması üzrə təkliflərin hazırlanması;
- ayrı-ayrı məhsul növlərinin ixracı üzrə kvotanın müəyyən edilməsi;
- xarici iqtisadi fəaliyyət sahəsində dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi, başqa dövlətlərlə valyuta-kredit münasibətlərinin tənzimlənməsi mexanizminin hazırlanmasında iştirakı və s.

İqtisadi İnkişaf Nazirliyi və Maliyyə Nazirliyi təşkilatlar və müəssisələr tərəfindən xarici ticarət əməliyyatlarının aparılması sahəsində ölkə qanunvericiliyinə əməl edilməsinə nəzarət edir; malların ixracı və idxalı üçün güzəştlərə və kvotaya nazirliklər, idarələr və müəssisələr tərəfindən necə əməl olunduğunu yoxlayır; müəssisələrin xarici iqtisadi sənədlərini yoxlamaq və təhlil etmək, kənarlaşmalar aşkar edildikdə cərimələr tətbiq etmək və müəssisələri lisenziyadan məhrum etmək hüququna malikdir.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi xarici iqtisadi fəaliyyətdə dövlət maraqlarının müdafiəsi üzrə aparıcı orqandır. Bu komitənin mühüm vəzifələri aşağıdakılardır:
- ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi;
- gömürk tənzimlənməsinin həyata keçirilməsi;
- malların sərhəddən keçirilməsinə nəzarət edilməsi;
- sərhəddən keçirilən malların həcmi üzrə faktların tərtib edilməsi və ümumiləşdirilməsi;
- gömrük sərhəddindən mal dövriyyəsinin sürətləndirilməsi üçün şəraitin yaradılması.

Azərbaycan Respublikasının Milli Bankı xarici iqtisadi fəaliyyət sahəsində aşağıdakı funksiyaları həyata keçirir:
- Azərbaycan Respublikasının qızıl-valyuta ehtiyatlarını idarə edir;
- başqa dövlətlərin pul vahidinə nəzərən milli valyutanın rəsmi məzənnəsini müəyyən edir və saxlayır.

Müəssisə səviyyəsində xarici iqtisadi fəaliyyətin idarə edilməsinin təşkili məsələləri ilə xarici iqtisadi əlaqələr şöbəsi məşğul olur. O, aşağıdakı funksiyaları həyata keçirir:
- xarici bazarlarda məhsula tələbat və onun qiymətləri haqqında informasiyanın yığılması və işlənməsi;
- tərəfdaş firmalar haqqında informasiyanın yığılması;
- əməkdaşlıq planlarının hazırlanması;
- ixrac üçün istehsalın planlaşdırılması və ona nəzarətin həyata keçirilməsi;
- xarici iqtisadi müqavilələrin bağlanması işlərinin təşkili;
- xarici iqtisadi fəaliyyət üzrə mütəxəssislərin seçilməsi, yerləşdirilməsi və ixtisasının artırılması.

Müəssisələrin xarici bazara çıxışı xarici iqtisadi əlaqələr şöbəsi ilə yanaşı xüsusi xarici ticarət firması vasitəsilə də təşkil oluna bilər.

Xarici ticarət firması bir qayda olaraq müəssisənin müstəqil bölməsi olur,lakin hüquqi şəxs sayılmır.Bu firmaya adətən müəssisə direktorunun müavini və ya baş direktorun xarici iqtisadi fəaliyyət üzrə müavini rəhbərlik edir.
Müəssisənin hesabında həmin firmanın subhesabı açılır ki, bu da ona ixrac-idxal əməliyyatlarını yerinə yetirmək üçün kreditlər götürməyə imkan verir. Lakin o, həmin vəsaiti müəssisənin rəhbərliyi ilə razılaşdırmadan sərf edə bilməz. İri müəssisəyə xidmət edən xarici ticarət firmasının nümunəvi təşkilati strukturu şəkil 20.2.1.-də göstərilir.

Xarici ticarət firmasının vəzifələri çox müxtəlifdir. Buraya xarici tərəfdaşların axtarışı, gömrük məsələlərinin həllindən əvvəl reklam işinin təşkili daxildir. Bununla əlaqədar olaraq marketinq, hüquq və maliyyə xidmətlərinin rolu xüsusilə artır.

Şəkil 20.2.1. Xarici ticarət firmasının strukturu

Xarici ticarət firmasından fərqli olaraq xarici iqtisadi əlaqələr şöbəsi ixracatçı müəssisənin idarə edilməsi sisteminin tərkib elementidir. Onun tərkibinə protokol şöbəsi, elmi-texniki əməkdaşlıq şöbəsi, marketinq şöbəsi və digərləri daxildir.

Müəssisələrin xarici bazarlara çıxışı vasitəçilərin köməyilə də həyata keçirilə bilər. Çünki vasitəçilər

aşağıdakıların hesabına xarici ticarət əməliyyatlarının səmərəliliyini artıra bilərlər:

- bazarın yaxşı təhlili və daimi müştərilərin olması;
- məhsulun daşınması və saxlanması xərclərinin azaldılması;
- malgöndərişləri və sənədlərin rəsmiləşdirilməsi müddətlərinin ixtisar edilməsi;
- satışdan əvvəlki servisin və satışdan sonrakı xidmətin təmin edilməsi;
- məhsulun rəqabət qabiliyyətinin və bütünlükdə bazarın vəziyyətinin dəyişilməsi haqqında operativ və dolğun informasiya ilə, real və potensial rəqibləri haqqında məlumatlarla mal istehsalçılarının təchiz edilməsi.

Əgər müəssisə-istehsalçı güclü rəqabətli və istehsalçılara yaxşı məlum olan mürəkkəb məhsullu xarici bazara çıxırsa, onda xarici vasitəçi firmalara müraciət etmək olar. Çünki həmin vasitəçilər yerli bazarı yaxşı tanıyır və burada müəyyən mövqeyə malik olurlar. Lakin nəzərə almaq lazımdır ki, xarici vasitəçilər ölkə vasitəçilərinə nisbətən baha başa gəlir. Ölkə vasitəçiləri içərisində xarici iqtisadi birliklər böyük rol oynayır.

Qarşılıqlı münasibətlərin təşkilindən asılı olaraq beynəlxalq vasitəçilərin aşağıdakı tiplərini fərqləndirirlər:

1. Brokerlər və ya sadə vasitəçilər öz kapitalı və adı ilə əgdlərdə (sövdələşmələrdə) iştirak etmirlər. Onların əsas funksiyası tərəfdaşları axtarmaq və onları bir-birilə calaşdırmaqdır. Bunun müqabilində əvvəlcədən razılaşdırılmış mükafatı alırlar.

2. Komissionerlər müştəriləri seçir, öz adından, lakin alıcı və ya satıcının hesabına onlarla müqavilələr bağlayır. Vasitəçiliyə görə müqavilə üzrə tərəflərdən birindən komissiya mükafatını alır.

3. Kənsiqnatorlar, yəni məhdud müddət ərzində (1 ildən 1,5 ilədək) bazarda reallaşdırmaq üçün ixracatçıdan (konsiqnantdan) mal alıb öz anbarında yerləşdirir. Mal

satıldıqca qarşılıqlı razılaşmaya əsasən vasitəçi müntəzəm surətdə müvafiq ödənişləri həyata keçirir. Faktiki olaraq ixracat müəssisəsi vasitəçini malların satılması müddətində kreditləşdirir. Konsiqnatorun mükafatı reallaşdırılan malın müəyyən faizini (6-8%) təşkil edir.

4. Səlahiyyətli vasitəçilər vəkil olunduqları müəssisənin adından və onun vəsaiti hesabına fəaliyyət göstərir. Marağı olan tərəflər arasındakı müqavilədə hər iki tərəfin öhdəlikləri göstərilir. Səlahiyyətli vasitəçiyə malların reallaşdırılması üçün onun xərcləri ödənilir və əlavə mükafat verilir.

5. Ticarət agenti – ixracat müəssisələrinin nümayəndəsi kimi çıxış edən müstəqil vasitəçilərdir. İxracatçı malgöndərişlərinin şərtlərini və müvafiq qiymətləri müəyyən edir. Agentlər ixracatçının hesabına işləyirlər. Onlar konyukturanı öyrənməli və texniki xidməti təmin etməlidirlər.

6. Dilerlər müstəqil vasitəçilər olub öz adından və öz hesabına malların yenidən satılması ilə məşğul olurlar. Alış və satış qiymətləri arasındakı fərq onların mənfəətini təşkil edir. Onlar özləri kommersiya riskinə məruz qalırlar. Bəzən dilerlər məhsulun satışdan qabaqkı tamamlanma işlərini və satışdan sonrakı servisi təşkil edir.

FƏSİL 21. MÜƏSSİSƏNİN KOMMERSİYA (TƏSƏRRÜFAT) HESABI VƏ KOMMERSİYA SİRRİ

21.1. Kommersiya və təsərrüfat hesabının mahiyyəti

Bazar iqtisadiyyatına keçid iqtisadiyyatın müəssisələrdən başlamış dövlət orqanlarınadək bütün səviyyələrdə təsərrüfat mexanizminin bütün elementlərinə (planlaşdırma, həvəsləndirmə, qiymət, maliyyə, kredit və s.) də öz təəsirini göstərmişdir. Mühüm iqtisadi problemlərin həllində təsərrüfat mexanizminin hər hansı bir elementinin rolunu azaltmadan qeyd etmək olar ki, iqtisadiyyatın ilkin özəklərinin – müəssisələrin fəaliyyətinin tam təsərrüfat hesabı və ya kommersiya hesabı prinsipləri əsasında təşkili xüsusilə böyük əhəmiyyət kəsb edir.

Kommersiya hesabının modifikasiyası kimi təsərrüfat hesabı XX əsrin 20-ci illərində yeni iqtisadi siyasətə keçidlə əlaqədar meydana gəlmişidr. O zaman dövlət müəssisələri təsərrüfat hesabına, daha doğrusu, mahiyyət etibarilə müəyyən dərəcədə kommersiya hesabına keçirilirdi.

Bazar iqtisadiyyatı şəraitində istənilən mülkiyyət formasından olan müəssisələrin yalnız xüsusi vəsaitlər hesabına,yəni təsərrüfat hesabı əsasında fəaliyyət mümkündür . Əgər müəssisə zərərlə işləyərsə və tədiyyə qabiliyyətli olmazsa, o, ləğv edilir, daha doğrusu, nə dövlət, nə də hər hansı bir təsərrüfat orqanı müəssisənin öhdəliklərinə görə məsuliyyət daşımır və onun borcları üçün cavabdeh deyildir. Tam təsərrüfat hesabı və ya müasir terminologiyaya görə kommersiya hesabı təsərrüfat fəaliyyəti xərclərinin və nəticələrinin tutuşdurulmasına, xərclərin öz gəlirləri hesabına ödənilməsinə əsaslanan səmərəli təsərrüfatçılıq metodudur. Başqa sözlə,

kommersiya hesabı müəssisə səviyyəsində əmtəə-pul münasibətlərini reallaşdıran təsərrüfatçılıq metodudur.

Qeyd etmək lazımdır ki, əmtəə-pul münasibətləri yalnız əmtəə istehsalçısı olan müəssisələr üçün ola bilər. Kommersiya fəaliyyəti nəticəsində istehsalçı müəssisə mənfəət, gəlir əldə etməlidir.

Bununla əlaqədar olaraq təmiz şəkildə kommersiya hesabı anlayışını qeyri-istehsal strukturları (idarəetmə orqanları, ərazilər, büdcə təşkilatları) üçün tətbiq etmək olmaz. Çünki qeyri-istehsal strukturları statusuna görə kommersiya təşkilatı hesab olunmur və son məqsədi mənfəət əldə etməkdir. Bu o demək deyildir ki, qeyri-istehsal strukturlarında kommersiya hesabı mexanizminin bu və ya başqa tamlıq dərəcəsində tətbiq oluna bilməz.

Kommersiya nəticəsini – mənfəəti – əldə etmək məqsədi qoyulmadan kommersiya hesabı mexanizmindən istifadə zamanı yalnız əmtəə-pul münasibətləri təsəvvürü yaradılır.

Kommersiya hesabı mexanizmi ayrı-ayrı elementlərdən (prinsiplərdən) ibarətdir və əmtəə istehsalçısı tərəfindən onların dərk olunub-olunmamasından asılı olmayaraq həmin prinsiplər müəssisədə həyata keçirilir.

Kommersiya hesabının əsas elementi (prinsipi) müəssisənin təsərrüfat müstəqilliyidir. Bu prinsipin həyata keçirilməsinin tamlığı mülkiyyət formasından birbaşa asılıdır. Dövlət mülkiyyətinin inhisarlığı şəraitində müəssisələrin rolu və əhəmiyyəti, onların təsərrüfat müstəqilliyi iqtisadiyyatın idarə edilməsi sistemində əhəmiyyətsiz idi (azaldılmışdı). Onların iqtisadi fəaliyyəti müvafiq nazirlik və baş idarənin çox sayda direktiv göstəricilərlə, təlimatlarla, müxtəlif göstərişlərlə və izahlarla məhdudlaşdırılırdı.
Bazar iqtisadiyyati şəraitində satış bazarı uğrunda rəqabət mübarizəsi mövcud olduğundan əmtəə istehsalçılarının təsərrüfat müstəqilliyi təbii haldır və onların təsərrüfat və-kommersiya

fəaliyyətinin məcburi elementidir. Təsərrüfat müstəqilliyi olmadan müəssisələr sadəcə mövcud ola bilməzlər.

Kommersiya (təsərrüfat) hesabının mühüm və müəyyənedici prinsiplərinə öz xərcini ödəmə və rentabelliyi aid etmək lazımdır. Bazar iqtisadiyyatına keçid dövrünün terminologiyasına özünümaliyyələşdirmə anlayışı daxil edilmişdir. Ona görə də öz xərcini ödəmə və mənfəətlilik özünümaliyyələşdirmənin zəruri və vacib təşkiledicisidir. Özünümaliyyələşdirmə anlayışı həm əsas etibarilə maya dəyərinə daxil edilən bütün xərclərin, həm də birdəfəlik (texnika ilə yenidən silahlandırma, yeindənqurma, müəsisələrin genişləndirilməsi və s. üçün) xərclərin özünü ödəməsi başa düşülür. Tam özünümaliyyələşdirməyə keçid, yəni müəssisələrə istehsalın təşkili üçün mərkəzləşdirilmiş mənbələr hesabına vəsaitlərin ayrılmaması əvvəllər mövcud olmayan özünümaliyyələşdirmə mənbələrinin təmin edilməsini tələb etmişdir. Bunun üçün amortizasiyanın və mənfəətin bölüşdürülməsi qaydası dəyişdirilmişdir. Əgər əvvəllər müəssisələrin mənfəətinin əsas hissəsi mərkəzləşdirilmiş kapital qoyuluşlarının fasiləsiz maliyyələşdirilməsini təmin etmək üçün büdcədə təmərküzləşirdisə indi təsərrüfatçılığın bazar şəraitinə keçilməsi zamanı mənfəətin kifayət qədər böyük hissəsi müəssisələrdə qalır.

Belə vəziyyət mənfəətin bölüşdürülməsi qaydasını dəyişərək qalıq və normativ metoddan vergi metoduna keçməyə imkan vermişdir.

Mərkəzləşdirilmiş planlı iqtisadiyyat şəraitində dövlət müəssisələrinin təsərrüfat fəaliyyətinin mühüm elementi (prinsipi) kollektivin hər bir üzvünün əməyin nəticəsində maddi marağı prisipi idi. Lakin bu prinsip müəssisənin kommersiya fəaliyyətinin nəticələri ilə bilavasitə uzlaşmırdı. Ona görə də müəssisənin fəaliyyətinin kommersiya nəticələrində əməyin ödənilməsinin müxtəlif sistemləri hazırlanırdı.

Bazar iqtisadiyyatında mülkiyyətçinin maddi marağı mənfəətin, daha doğrusu, kommersiya nəticəsinin olması ilə təmin olunur. Mənfəət nə qədər yüksək olarsa, mülkiyyətçinin maddi tələbatları daha yüksək dərəcədə təmin olunurdu. Muzdlu fəhlə isə əsasən işin natural göstəricilərinə görə stimullaşdırılmış və indi də bu qaydada stimullaşdırılmaqdadır. Buna əsasən təsdiq etmək olar ki, öz işini kommersiya hesabı əsasında quran müəssisələr səviyyəsində maddi həvəsləndirmə prinsipi işlənir. Maddi həvəsləndirmə prinsipi təsərrüfat (təsərrüfatdaxili) hesab əsasında işləyən struktur bölmələr səviyyəsində daha təsirli vasitədir.

Məhsulun kəmiyyəti və keyfiyyəti, onun vaxtında göndərilməsi üçün istehlakçılar qarşısında malgöndərənlər, banklar və dövlət qarşısında, digər öhdəliklər üzrə iqtisadi məsuliyyət prinsipi müəssisənin təsərrüfat-kommersiya fəaliyyətinin ayrılmaz elementidir. Qarşılıqlı və ciddi əməl olunan iqtisadi məsuliyyət olmadan bazar münasibətləri qeyri-mümkündür. İqtisadi məsuliyyətin tələblərini nəzərə almamaq iri itkilərə və ya müflisləşməyə gətirib çıxara bilər.

Kommersiya hesabı xərclərin və təsərrüfat fəaliyyətinin nəticələrinin dəyər ifadəsində ölçülməsini nəzərdə tutur. Buradan da manatla nəzarət prinsii irəli gəlir.

Əvvəllər müəssisənin təsərrüfat fəaliyyətinə manatla nəzarət sahə nazirlikləri, Dövlət Bankı, Maliyyə Nazirliyi tərəfindən həyata keçirilirdi və mahiyyətcə təsərrüfat hesabına heç bir dəxli yox idi. Lakin hazırda kommersiya hesabı anlayışı müəssisənin fəaliyyətinin bütün tərəflərinin dəyərcə qiymətləndirilməsini, deməli özünütənzimləyən, özünənəzarət edən sistemini təmsil edir.

Müəssisələrin tam təsərrüfat müstəqilliyi zamanı manatla nəzarət (köhnə anlamda) yalnız struktur bölmələrdə (sexlərdə, sahələrdə) istehsaldaxili təsərrüfat hesabı hədlərində həyata keçirilirdi.

Kommersiya və təsərrüfat hesabının mahiyyət xarakteristikalarına yekun vuraraq belə nəticəyə gəlmək olar ki, kommersiya hesabı – müəssisə-əmtəə istehsalçısı səviyyəsində əmtəə-pul münasibətlərini həyata keçirən təsərrüfatçılıq metodudur.

Bazar münasibətləri şəraitində təsərrüfat hesabı müəssisənin struktur bölmələri səviyyəsində həyata keçirilən kommersiya hesabının modifikasiyasıdır. Bu baxımdan təsərrüfat hesabı, təsərrüfatdaxili hesab və istehsaldaxili hesab anlayışları sinonimlərdir.

İstehsaldaxili təsərrüfat hesabının təşkilinin əsasını müəssisənin hər bir bölməsinin fəaliyyətinin planlaşdırılması, uçotu və həvəsləndirilməsi təşkil edir.

Kommersiya və təsərrüfat hesabı arasındakı qarşılıqlı əlaqələr şəkil 21.1.1.-də göstərilir.

21.2. Müəssisənin struktur bölmələrinin (istehsaldaxili) təsərrüfat hesabı

Struktur bölmələrin təsərrüfat hesabı müəssisənin kommersiya hesabının üzvi hissəsidir və sexlərin, şöbələrin, xidmətlərin, istehsal sahələrinin və briqadaların müəssisə ilə və bir-birilə iqtisadi münasibətlər sistemini əhatə edir.

Struktur bölmələrdə təsərrüfat hesabı prinsiplərinin həyata keçirilməsi aşağıdakılara imkan verir:

- hər bir bölmənin hüquq və vəzifələrinin reqlamentləşdirilməsi;
- bölmələrdə zəruri operativ-təsərrüfat müstəqilliyinin və istehsal resursları ilə manevr etməsi, plan tapşırıqlarının yerinə yetirilməsi yollarının seçilməsi, istehsaldaxili ehtiyatların səfərbər edilməsi imkanlarının verilməsi;

Şəkil 21.1.1. Kommersiya və təsərrüfat hesabı anlayışlarının və elementlərinin qarşılıqlı əlaqəsi

- müəssisə qarşısında duran vəzifələrin yerinə yetirilməsini təmin edən bölmələrə əsaslandırılmış plan tapşırıqlarının müəyyən edilməsi;
- bölmələrin kollektivlərinin maddi stimullaşdırılması sisteminin yaradılması;
- müəssisəyə və ya başqa bölmələrə dəyən maddi zərərə görə bölmələrin iqtisadi məsuliyyəti sisteminin hazırlanması.

İstehsalın təşkilinin xüsusiyyətləri, ayrı-ayrı bölmələrin funksional vəzifələri ilə əlaqədar olaraq təsərrüfat hesabı prinsiplərinin həyata keçirilməsi müəyyən xüsusiyyətlərə malik olur.

İstehsaldaxili təsərrüfat hesabının aşağıdakı növləri vardır:

- istehsal vahidlərinin təsərrüfat hesabı;
- əsas istehsal sexlərinin təsərrüfat hesabı;
- köməkçi istehsalın təsərrüfat hesabı;
- briqadaların və istehsal sahələrinin təsərrüfat hesabı;
- idarəetmə aparatının funksional şöbələrinin təsərrüfat hesabı.

İstehsaldaxili təsərrufat hesabının sxemi şəkil 21.2.1.-də verilmişdir.

İstehsal vahidlərinin təsərrüfat hesabı müəssisənin kommersiya hesabından az fərqlənir, çünki təsərrüfat münasibətləri təkcə istehsal mərhələsini deyil, həm də tədavül dairəsini (məhsulun yüklənib göndərilməsi və satışı) də əhatə edir.

Əsas və köməkçi istehsal sexlərinin təsərrüfat hesabının xüsusiyyəti yalnız bilavasitə istehsal prosesi mərhələsindəki təsərrüfat hesablı münasibətləri əhatə etməsidir.

Əsas istehsal sexlərinin təsərrüfat hesabı lazımi çeşiddə və müəyyən müddətlərdə məhsulun ahəngdar buraxılışına, əmək məhsuldarlığının artımına, məhsulun əmək tutumunun və materialtutumunun azaldılmasına və keyfiyyətinin yüksəldilməsinə yönəldilmişdir.

Köməkçi istehsal sexlərinin təsərrüfat hesabı əsas istehsal sexlərinin tələbatını tam və keyfiyyətlə təmin etməklə işlərin maya dəyərinin aşağı salınmasına yönəlmişdir. -

Şəkil 21.2.1. İstehsaldaxili təsərrüfat hesabı sistemi

Təsərrüfat hesablı istehsal bölmələrinin fəaliyyətinin planlaşdırılması müəssisədə qəbul olunmuş cari və operativ planlar sistemi əsasında həyata keçirilir.

İstehsaldaxili təsərrüfat hesabı zamanı sexlərin planlaşdırılmasının və fəaliyyətinin əsasını texniki-iqtisadi göstəricilər təşkil edir. Bu göstəricilər təsdiq olunan və qiymətləndirici göstəricilərə bölünür.

İstehsaldaxili təsərrüfat hesabında istifadə olunan göstəricilərin miqdarı minimal olmalıdır, lakin onlar

istehsal bölmələrinin uzlaşdırılmış fəaliyyətini təmin etmək üçün kifayət etməlidir.

Təsərrüfat hesablı göstəricilər sistemi müəyyən tələblərə cavab verməlidir:

- təsdiq olunmuş və qiymətləndirici göstəricilərlə uzlaşmalı, plan tapşırıqlarının yerinə yetirlməsinə kömək etməli, struktur bölmələrin işçilərinin maraqlarının bütünlükdə müəssisənin maraqlarına uyğunluğunu təmin etməli;
- bölmələrin göstəriciləri onların fəaliyyətini hərtərəfli xarakterizə etməli, istehsalın səmərəliliyinin yüksəldilməsinin onlardan asılı olan bütün amilləri nəzərə almalı və bununla da müəssisənin işinin ümumi nəticələrində bölmələrin işçilərinin xidmətini obyektiv qiymətləndirməyə imkan verməli;
- dinamikada müqayisə olunan və kəmiyyətcə tutuşdurulan olmalı;
- təsərrüfat hesablı bölmələrin yerinə yetirdikləri işlərin ümumi həcminə görə, daha doğrusu, həm kənara satılmaq üçün nəzərdə tutulan, həm də istehsaldaxili kooperasiya üzrə göndərilən məhsullar (işlər, xidmətlər) əsasında hesablanmalı.

Təsərrüfat hesablı bölmələrin plan-qiymətləndirici göstəricilər sistemi onların təşkilati-texniki xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilməli və göstəricilərin tərkibinə, ölçü vahidlərinə və hesablanma metodlarına görə fərqlənməlidirlər.

Təsərrüfat hesablı bölmələrin müəyyən etdikləri əsas plan-qiymətləndirici göstəricilərə məhsulun nomenklaturasını (çeşidini), həcmini və keyfiyyətini, son (əmtəəlik) məhsulun bir manatına düşən xərclərin son səviyyəsini, mənfəəti, maya dəyərini, əmək məhsuldarlığını aid edirlər.

Natural ifadədə (nomenlaturada, çeşiddə) məhsul buraxılışı bütün istehsal bölmələri üçün konkret məmulat (iş, xidmət) növlərinin siyahısı şəklində

planlaşdırılır. Bölmələr həmin məmulatları (iş, xidmət) miqdarı (həcmi), istehlakçıları və onların hazırlanmasının operativ-təqvim planlarında konkretləşdirilən müddətləri göstərilməklə planlaşdırılan dövrdə hazırlanmalıdırlar.

Buraxılış sexlərində son məhsulun həcmi tərkibinə görə əmtəəlik məhsula uyğun gəlməlidir. Müəssisələrə mənfəət planlaşdırıldıqda və məhsullar üçün müəssisədə istifadə olunan qiymətlər tətbiq edilmədikdə son məhsulun həcmi istehsaldaxili qiymətlər üzrə müəyyən olunur. İstehsaldaxili qiymətlər mənfəət əlavə olunmaqla plan maya dəyərinin kalkulyasiyası əsasında müəyyən edilir.

Buraxılan məhsulun (işin, xidmətin) keyfiyyəti sortluluq, zay məhsul hesabına itkilərin azalması, yararlı məhsulun çıxımı kimi göstəricilər və sahə xüsusiyyətləri nəzərə alınmaqla digər göstəricilərlə nəzərə alına bilər.

Əsas sexlərin təsərrüfat hesablı münasibətlərində son (əmtəəlik) məhsulun bir manatına düşən xərclərin son səviyyəsi kimi göstəricidən istifadə oluna bilər.

Xərclərin son səviyyəsi dedikdə, xərclərin mümkün maksimal kəmiyyəti başa düşülür və xərclərin bu həddən artıq olmasına yol verilmir.

Bazar münasibətləri şəraitində icarə podratı inkişaf etdikdə istehsaldaxili təsərrüfat hesabı hədlərində əsas sexlərə xərclərin son səviyyəsi göstəricisi əvəzinə mənfəəti planlaşdırmaq məqsədəuyğundur. Əgər istehsalın həcminin artırılmasının stimullaşdırılması aktual məsələ deyildirsə və az xərclərlə son məhsulun nəzərdə tutulan miqdarda buraxılmasını təmin etmək lazımdırsa maya dəyəri göstəricisindən istifadə etmək daha yaxşı olar.

Struktur bölmələrə çatdırılan maya dəyəri göstəricisi müxtəlif modifikasiyalarda müəyyən edilir: bölmənin bütün son məhsulunun maya dəyəri, hər bir məhsul növünün vahidinin maya dəyəri, ayrı-ayrı əməliyyatların maya dəyəri, hər bir sifarişin maya dəyəri, istehsal xərcləri smetası.

Bölmələrin məhsulunun maya dəyərinə elə xərclər daxil edilməlidir ki, onların əmələ gəlməsinə kollektiv təsir edə bilsin.

Əmək məhsuldarlığının plan-qiymətləndirici göstəricisi müvafiq ölçü vahidlərində (natural, dəyər, normasaat) hər bir işləyənə son məhsul buraxılışı göstəricisi şəklində planlaşdırılır və nəzərə alınır.

Briqada podratı çox spesifikdir və briqadanın növündən, üzvlərinin sayından və briqadanın yerinə yetirdiyi işlərdən asılıdır. Əksər hallarda briqada təsərrüfat hesablı münasibətlərin yalnız ayrı-ayrı elementləri reallaşa bilər. Uçot lazımi səviyyədə aparıldıqda xərclərlə nəticələrin tutuşdurulması və maddi məsuliyyət prinsipləri də qismən həyata keçirilə bilər.

Briqada təsərrüfat hesabı sexin (müəssisənin) təsərrüfat hesabının üzvi hissəsidir və nisbi operativ-istehsal müstəqilliyi, xərclərin nəticələrlə tutuşdurulması, əməyin ödənilməsinin işin son nəticələrindən birbaşa asılılığının müəyyən edilməsi, istehsal tapşırıqlarının yerinə yetirilməsi üçün briqadanın və müdiriyyətin qarşılıqlı məsuliyyətinin yüksəldilməsi, şəxsi və kollektiv maraqların vəhdəti əsasında qurulur.

İstehsal həcmi, işin əməktutumunun (əmək məhsuldarlığının artımı) azalıdması və keyfiyyətin yüksəldilməsi üzrə plan tapşırılqları ilə yanaşı əmək haqqı fondu, xammalın, materialın, yarımfabrikatların, yanacağın, enerjinin və istifadəsi bilavasitə briqadanın fəaliyyətindən asılı olan digər material resurslarının bir və ya bir neçə növü üzrə plan tapşırıqları müəyyən edilən briqada təsərrüfat hesablı briqada hesab olunur.

İstehsalın xüsusiyyətlərindən, material xərclərinin və yanacaq-enerji resurslarının uçotundan asılı olaraq briqada təsərrüfat hesabının ən səmərəli forması kollektiv, xüsusilə icarə podratıdır. Bu halda müdiriyyətin və təsərrüffat

hesablı briqadanın qarşılıqlı öhdəlikləri müqavilə şəklində rəsmiləşdirilir.

Xərclərin uçotunun təşkili xüsusiyyətlərindən asılı olaraq təsərrüfat hesablı briqada üçün maya dəyərinə aşağıdakı xərcləri daxil etmək olar: fəhlələrin əmək haqqı, xammalın, materialların, alətlərin dəyəri və xərclənməsi briqadadan asılı olan digər xərclər. Yaxud da planda xammalın, materialların, yarımfabrikatların, komplektləşdirici məmulatların, yanacağın, istilik və elektrik enerjisinin, alətlərin, texnoloji tərtibatların və sair material ehtiyatlarının natural və dəyər ifadəsində sərfi normalarını təsdiq etmək lazımdır. Təsərrüfat hesablı briqadaların kollektivlərinin material resursları sərfinin hər vasitə ilə azaldılmasında marağını gücləndirmək üçün həm ayrı-ayrı resurs növləri üzrə qənaəti, həm də xərclərin bütün növlərinə qənaətin cəmi məbləğini hesablamaq lazımdır. Bu məqsədlə briqadalarda «Şəxsi qənaət (qənaətcillik) hesablarından» istifadə etmək məsləhət görülür.

Şəxsi qənaət hesabı əsas və köməkçi materiallara, tərtibatlara və alətlərə, bütün növlərdən olan enerjiyə həm kəmiyyət (natural ifadədə), həm də dəyər ifadələrində qənaəti hər ay, zəruri hallarda isə hər dekadada hətta hər gün nəzərə alan sənəddir.

Şəxsi qənaət hesabı aşağıdakı kimi ola bilər:

Material resurslarının növləri	Ölçü vahidi	Vahidinin qiyməti	Normaya görə məsafir	Faktiki məsafir	Qənaət (artıq xərclənmə)			
					Ay ərzində		İlin əvvəlindən	
					Natural ölçülərdə	anatla	Natural ölçülərdə	Manatla

Təsərrüfat hesablı briqadada fəhlələrin əməyinin ödənilməsinin təşkili işdə yüksək son nəticələrin əldə edilməsində şəxsi və kollektiv marağı təmin etməli və briqadanın hər bir üzvünün ümumi nəticələrdəki real payını

əks etdirməlidir. Təsərrüfat hesablı briqadalar özlərinin kollektiv əmək haqqı hesabına briqadanın sosial-mədəni ehtiyacları üçün xüsusi fondları təşkil edə bilərlər.

Briqada kollektivinin və sex (müəssisə) müdiriyyətinin təsərrüfat hesablı münasibətləri müəssisənin istehsaldaxili təsərrüfat hesabı haqqında Əsasnamə, eləcə də kollektiv və ya icarə podratı müqaviləsi əsasında tənzimlənir.

Əgər müdiriyyət tərəfindən müqavilə öhdəliklərinin yerinə yetirilməməsi briqadanın plan tapşırıqlarının yerinə yetirilməməsinə, normalarla müqayisədə daha çox əmək, material, yanacaq, enerji və s. sərfinə gətirib çıxararsa, təsərrüfat hesablı briqada müdiriyyətə iradlarını bildirmək hüququna malikdir. Texnoloji zəncir üzrə təsərrüfat hesablı briqadalar təşkil edilərkən bağlanmış müqaviləyə uyğun olaraq onlar arasında qarşılıqlı məsuliyyət müəyyən edilir.

İdarəetmənin funksional şöbələrinin təsərrüfat hesabı təsərrüfat hesablı briqadalara nisbətən daha spesifikdir. Müəssisədə fəaliyyət göstərən funksional bölmələr çox müxtəlifdir. Adətən onları üç qrupa bölürlər:

1. Ümumi idarəetmə və təşkilati-iqtisadi təminat şöbələri: istehsal, plan-iqtisad, maliyyə, əməyin və əmək haqqının təşkili, mühasibatlıq, hüquq, kadrlar və s.

2. Texniki inkişaf şöbələri və xidmətləri: baş konstruktor, baş texnoloq, istehsala hazırlıq, metrologiya, texniki nəzarət şöbəsi və s.

3. Xidmətedici və köməkçi şöbələr: energetika, alət, nəqliyyat, maddi-texniki təchizat, satış, baş mexanik və s.

Funksional şöbələrin təsərrüfat hesabının spesifikliyi ondadır ki, həmin şöbələr maddi dəyərliləri istehsal etmirlər. Onlar müəssisənin bütün bölmələrinə müəyyən xidmətlər göstərirlər. Həmin xidmətlərsiz keçinmək mümkün deyildir və o, istehsaldaxili əmək bölgüsü hədlərində həyata keçirilir. Lakin bu xidmətlərin həcmini və keyfiyyətini, xüsusilə birinci qrupa daxil olan şöbələr üzrə

nəzərə almaq çətindir. Ona görə də funksional şöbələrin işinin kəmiyyətini və keyfiyyətini qiymətləndirmək üçün çox sayda hər cür göstəricilər daxil edirlər ki, onlar görülmüş işlərin həcmini birbaşa olmasa da dolayı yolla qiymətləndirirlər.

Məsələn, texniki inkişaf şöbələri qrupu üzrə aşağıdakılar nəzərdə tutulur:

- hər bir şöbəyə istehsal bölmələrində istehlak olunan material resurslarının konkret növləri üzrə xərc maddələri təhkim olunur. onlara həmin resursların sərfini normalaşdırmaq və təhlil etmək, faktiki xərclərin normativdən kənarlaşmasını aradan qaldırmaq üçün lazımi tədbirləri qəbul etmək vəzifəsi həvalə olunur:
- qeyri-məhsuldar xərclərə və işdə buraxılmış səhvlərə görə müəssisəyə və onun bölmələrinə dəyən digər zərərlər üçün iqtisadi məsuliyyət müəyyən edilir:
- bölmənin fəaliyyətinin nəticələrini xarakterizə edən göstəricilərin yerinə yetirilməsindən asılı olaraq maddi mükafat təşkil edilir.

Bu şöbələr qrupu üçün plan-qiymətləndirici göstəricilər kimi aşağıdakılar istifadə oluna bilər:

1. Şöbənin iş (tədbirlər) planı.
2. Texnoloji əməktutumunun, materialların və yanacaq-enerji resurslarının əsas növlərinin xüsusi sərfinin azaldılması üzrə tapşırıqlar.
3. Elmi-texniki tədbirlərin tətbiqindən əldə edilən iqtisadi səmərə (qənaət).
4. Əmək haqqı fondu.
5. Şöbənin saxlanması xərcləri limiti.

İstehsalın xüsusiyyətlərindən asılı olaraq başqa göstəricilərdən də istifadə oluna bilər.

İkinci qrupun şöbələrinə verilən belə tələblərdən əlavə xidmətedici və köməkçi sexlər (üçüncü qrup şöbələr) üzrə aşağıdakı tələblər də qoyulur:

- tabeliyində olan istehsal bölmələrində xərclərin azaldılması üçün bu şöbələrin birbaşa marağının və məsuliyyətinin müəyyən edilməsi. Bu qrupun şöbələrinin fəaliyyətinin və maddi mükafatlandırılmasının qiymətləndirilməsinin əsas kriterisi müəssisənin fasiləsiz və ahəngdar işinin təmin edilməsidir;
- dövriyyə vəsaitləri normativlərinin (alət, ehtiyat hissələri, quraşdırılmamış avadanlıq və s. normativləri) müəyyən edilməsi.

Üçüncü qrup şöbələrin plan-qiymətləndirmə göstəriciləri kimi aşağıdakılardan istifadə etmək olar:

1. Şöbənin iş (tədbirlər) planı.
2. Əməktutumunun aşağı salınması, material və yanacaq-enerji resurslarının xərcləri üzrə tapşırıqlar.
3. Elmi-texniki tədbirlərin tətbiqindən əldə edilən iqtisadi səmərə (qənaət).
4. Müəssisənin əmtəəlik məhsulun bir manatına düşən xidmət xərclərinin səviyyəsinin mümkün həddi.
5. Dövriyyə vəsaitləri normativi.
6. Əmək haqqı fondu.
7. Şöbənin saxlanması xərcləri limiti.

Başqa göstəricilərdən də istifadə oluna bilər.

Ümumi idarəetmə və təşkilati-iqtisadi təminat şöbələrinin fəaliyyətinin təsərrüfat hesabı şəraitində təşkili aşağıdakıları nəzərdə tutur:

- qeyri-məhsuldar xərclər və işdə olan səhvlər nəticəsində müəssisəyə və onun bölmələrinə dəyən zərərin digər növləri üçün iqtisadi məsuliyyətin müəyyən edilməsi;
- həm müəssisənin işinə, həm də şöbəyə həvalə olunmuş funksiyaların keyfiyyətlə yerinə yetirilməsinə görə işçilərin maddi mükafatlandırılması.

İstehsalın və əməyin təsərrüfat hesabı prinsipləri əsasında təşkilinin mütərəqqi forması struktur bölmələrin, briqadaların və istehsal sahələrinin kollektiv və icarə podratıdır.

21.3. Müəssisənin kommersiya sirri

Kommersiya sirri – elə məlumatlar və ya informasiyadır ki, onların bilərəkdən və ya bilməyərəkdən yayılması müəssisəyə və ya xüsusi şəxslərə birbaşa və ya dolayı yolla zərərlərə gətirib çıxara bilər. Belə informasiyaya ən yeni elmi-texniki tədqiqatlar və ixtiralar (nou-hau), müəssisənin maliyyə əməliyyatları və tədiyyə qabiliyyəti, firmanın strukturu və işçi heyəti və s. haqqında məlumatlar daxildir. Müdafiəyə ehtiyacı olan informasiyanın təxmini siyahısı 21.3.1.-ci cədvəldə verilir.

Cədvəl 21.3.1. Müdafiəyə ehtiyacı olan informasiya

Sənaye informasiyası	Kommersiya informasiyası
Hazırlanması və rəsmiləşdirilməsi mərhələsində olan elmi ixtiralar və patentlər haqqında informasiya	Kreditlər və bank əməliyyatları haqqında informasiya
Konstruktor sənədləri (şərhlər, sxemlər, aparılan ETLKİ-nin çertyojları)	Müqavilələr (kontraktlar, əqdlər) haqqında məlumatlar
Hər hansı bir qrupun elektron sistemi	Məhsulun satışı planları
EHM-in proqram təminatı	Müştərilərin siyahısı
Xörəklərin hazırlanması resepti	Rəqabət qabiliyyətinin təhlili
İstehsal prosesi və s.	Marketinq üzrə tədbirlər sistemi
	İşgüzar yazışmalar
	İşçilərin əmək haqqı

Bu və ya başqa məlumatın kommersiya dərəcəsinə aid edilməsi üçün əsas olaraq informasiyanın təhlili götürülə bilər. Bu təhlil əsasında bu və ya başqa məlumatın yayılmasının müəssisəyə zərər verə biləcəyi haqqında nəticə çıxarılır. Kommersiya sirrinə aid edilən məlumatları müəyyən etdikdən sonra onun müdafiəsi üzrə tədbirlər kompleksi həyata keçirilir.

İnformasiyanın müdafiəsi tədbirləri hazırlanarkən aşağıdakıları müəyyən etmək lazımdır:

- hansı informasiyanın müdafiəyə ehtiyacı vardır;
- həmin informasiya kimləri maraqlandıra bilər;
- informasiyanın hansı elementləri daha qiymətlidir;
- bu sirrlərin «həyat müddəti» nə qədərdir;
- onların müdafiəsi neçəyə başa gələcəkdir.

İnformasiyanın etibarlı müdafiə sisteminin təşkili üçün onun sızması (axması) kanalları haqqında dəqiq təsəvvürə malik olmaq lazımdır. İnformasiyanın sızmasının ən ehtimal olunan kanalları aşağıdakılardır:

- informasiyaya çıxışı olan işçilər;
- həmin informasiyanı əks etdirən sənədlər (informasiya daşıyıcılarının bütün növləri);
- informasiyanın işlənməsinin texniki vasitələri və sistemləri, o cümlədən informasiyanın ötürüldüyü rabitə xətləri.

Bu və ya başqa informasiyanı kommersiya sirri kateqoriyasına aid edərkən aşağıdakı iki amili nəzərə almaq lazımdır:

1. Təcrübədə elə hallar olur ki, kommersiya sirrinin müdafiəsi bəhanəsi ilə sui-istifadə, təsərrüfatsızlıq və digər pozuntu faktlarına dair məlumatlar və sənədlər gizlədilə bilər. Belə halların aradan qaldırılması üçün ümumdövlət səviyyəsində müəssisələr və onlara nəzarət edən orqanlar arasında qarşılıqlı münasibətləri tənzimləyən xüsusi sistem yaratmaq lazımdır.

2. Bazar şəraitində informasiyanın həddindən artıq məxfiləşdirilməsi iqtisadi nöqteyi-nəzərdən əlverişli olmur. Əksər hallarda informasiya müəyyən qiymətə və tələbə malik olan əmtəə kimi çıxış edir. Sənayecə inkişaf etmiş ayrı-ayrı ölkələrdə ümumi milli məhsulun təqribən yarısı müxtəlif növ informasiyanın hazırlanması, yayılması və işlənməsi hesabına əldə edilir.

Mütəxəssislərin rəyinə görə kommersiya sirri hesab olunan və müdafiəyə ehtiyacı olan məlumatlar qiymətləndirmənin aşağıdakı kriterilərini təmin etməlidir:

- onların açıq istifadəsi müəssisə üçün zərərlə əlaqədardır;
- onlar qanun əsasında ümumi məlum deyil və ya ümumi istifadə üçün nəzərdə tutulmayıb;
- müəssisə həmin məlumatların iqtisadi və digər səmərə baxımından məxfiliyini saxlamaq üzrə lazımi tədbirləri həyata keçirə bilər;
- bu məlumatlar müdafiəyə möhtacdır, çünki onlar dövlət sirri deyil, müəlliflik və patent hüquqları ilə müdafiə olunmayıb;
- bu məlumatların gizlin saxlanması cəmiyyətə ziyan vurmur.

Sənayecə inkişaf etmiş ölkələrin kommersiya sirlərinin müdafiəsi məsələləri üzrə qanunvericilik aktlarının təhlili məlumatların gizlədilməsi dövlətin və cəmiyyətin maraqlarına zidd olan müəyyən məcmusunu ayırmağa imkan verir. Ən ümumi halda buraya aşağıdakı informasiyalar daxil edilir;

- təbiətdən səmərəsiz istifadə haqqında;
- ətraf mühitin normativdən artıq çirklənməsi haqqında;
- adamların sağlamlığına və həyatına real təhlükə olan istehsalda təhlükəsizlik texnikasına əməl olunmaması haqqında;
- sahibkarların fəaliyyətini tənzimləyən xüsusi qanunvericiliyin (məhsulun keyfiyyəti və istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunlar və s.) pozulması haqqında;
- müəssisənin nizamnaməsində nəzərdə tutulmayan və ya ölkə qanunlarının qadağan etdiyi fəaliyyətlə məşğul olma haqqında;
- firma rəhbərlərinin və işçilərinin sui-istifadə və vicdansılığı haqqında;
- vergilərin düzgün ödənilməsindən yayınma imkanları və real halları haqqında;

- müqavilələrin yerinə yetirilməməsi səbəbləri və faktları haqqında və s.

Ölkəmizdə hazırda müəssisənin kommersiya sirrinin qanunvericiliklə müdafiəsi yoxdur, bu problemin həllində iqqtisadi təhlükəsizlik tədbirləri geniş tətbiq olunmur, müvafiq məhkəmə praktikası işlənməmişdir. Bəlkə də elə buna görədir ki, müəssisələrin real həyatında rəqiblərin intellektual mülkiyyətinin və kommersiya informasiyasının açıq və gizli surətdə təmənnasız mənimsəməsi halları geniş yayılmışdır.

Müəssisənin iqtisadi təhlükəsizliyi, hər şeydən əvvəl, onun əməkdaşları başqa yerlərdə əvəzçiliklə işlədikləri zaman əsas müəssisədə yaradılan, lakin hüquqi olaraq onun mülkiyyəti kimi təsdiq olunmayan sənədlərdən (metodikalar, çertyojlar, proqramlar və s.) istifadə etdikdə pozulur. Məhz bu intellektual məhsul (biliklər və texnologiya) əksər hallarda müəssisənin ən qiymətli kapitalını təşkil edir. Həmin informasiyadan istifadə edən təsərrüfat subyektlərindən hər hansı biri müəssisə ilə müqavilə bağlamalı və həmin müəssisənin nailiyyətlərindən istifadə nəticəsində əldə etdikləri mənfəətin bir hissəsini bu müəssisənin hesabına köçürməlidir. Lakin həmin məsələnin iqtisadi və hüquqi tərəflərinin hazırki vəziyyəti informasiya mülkiyyətçisi olan müəssisəyə şikayət etməyə və özünün iddialarını həyata keçirməyə imkan vermir.

Bu problemin həlli üçün ayrı – ayrı müəssisələrin təcrübəsinə pulsuz müraciəti qanunvericiliklə məhdudlaşdırmaq (bəzi hallarda isə tamamilə qadağan etmək) məqsədəuyğundur. Eyni zamanda prioritetli elmi tədqiqatların real bazar dəyəri nəzərə alınmaqla alqı – satqı qaydasını reqlamentləşdirmək lazımdır. Sahibkarlar sənaye mülkiyyətinin mühafizəsinin patent – lisenziya sistemi üçün daxili bazara keçidə hazırlaşmalıdırlar. Müəssisələrdə patent–lisenziya şöbələrinin müvafiq bölmələrini möhkəmləndirmək, marketinq xidmətinə lazımi mütəxəssisləri daxil

etmək, öz qüvvələri ilə informasiyanın müdafiəsinin səmərəli sistemini təşkil etmək məqsədəuyğundur.

Kommersiya sirrinin müdafiəsi sistemi yaradılarkən məxfi informasiyanın yayılmasının bütün mümkün kanallarını aşkar etmək və bağlamaq, bununla da informasiyanın müxtəlif daşıyıcıları (sənədlər, məmulatlar və s.) üçün eyni müdafiə dərəcəsini təmin etmək lazımdır. Bu məsələni həll etmək üçün çox vaxt hazırlıq işləri tələb olunur. Hazırlıq işlərinə informasiyanın konkret istehlakçılarının tam siyahısının tərtib edilməsi, müəssisədə informasiya axınlarının xüsusi sxemlərinin hazırlanması və nəhayət, belə informasiyanın büttün maddi daşıyıcılarının dəqiq müəyyən edilməsi daxildir.

İnformasiyanın müdafiəsi sistemi yaradılan zaman hər bir müəssisədə bütün bu deyilənlərə əlavə olaraq aşağıdakıları düzgün təşkil etmək lazımdır:

- materialların və hazır məhsulun (xüsusilə sınaq nümunələri) bir sıra növlərinin uçotu və mühafizəsi;
- kommersiya sirrini əks etdirən sənədlərlə işləmək (kargüzarlıq) qaydası (sənədlərin dövretmə, uçot, saxlanma, məhvetmə və s. qaydası);
- sənədlərin surətinin çıxarılması və çoxaldılması vasitələrinə nəzarət;
- rabitə və hesablama texnikası vasitələrində kommersiya informasiyasının müdafiəsi;
- müəssisə ərazisinin, onun əsas binalarının və qurğularının mühafizəsi;
- kənar şəxslərin müəssisəyə səfərlərinə nəzarət.

Bütün bu məsələlərin səmərəli şəkildə yerinə yetirilməsi idarə aparatında kommersiya sirrinin müdafiəsi ilə məşğul olan ixtisaslaşdırılmış xidmətin yaradılmasını nəzərdə tutur. Xaricdə bu işlərlə firmaların müvafiq şöbələri

məşğul olur. Onlar həm də rəqiblər haqqında informasiyanı axtarır və yığır. Müəssisədə kommersiya sirrinin müdafiəsinin əsas elementləri şəkil 21.3.1.-də verilmişdir.

Şəkil 21.3.1. Müəssisənin kommersiya sirrinin müdafiəsi mexanizminin əsas elementləri

Sənayecə inkişaf etmiş ölkələrdə kommersiya sirrinin mühafizəsi ilə həm ayrı-ayrı şəxslər, həm də firmadaxili bölmələr məşğul olur. Məsələn, müəssisənin sahibi, idarə heyətinin üzvləri, rəhbərlərin ümumi məsələlər üzrə müavinləri, kadr xidməti, xüsusi yaradılmış bölmələr, müəssisənin rejimli-məxfi orqanları və s. Buna əlavə olaraq müəssisəyə nəzərən çox sayda xarici strukturlar fəaliyyət

göstərir ki, onların fəaliyyəti də bilavasitə kommersiya sirrinin və intellektual mülkiyyətin mühafizəsi ilə əlaqədardır (məsələn, sahibkarlar və istehlakçılar ittifaqları, hüquq məsləhətxanaları, təşkilati-hüquqi və texniki məsələlərin həlli üzrə müxtəlif xüsusi bürolar və s.). Başqa müəssisələr haqqında lazım olan bütün kommersiya informasiyasının 90-95%-ni leqal (aşkar) metodlarla almaq olar. İnformasiyanın yerdə qalan hissəsini (bir qayda olaraq ən qiymətli və yaxşı mühafizə olunan) isə özünəməxsus metodlarla sənaye casusluğu əldə edir. Bu metodlara sənədlərin və yeni məhsul nümunələrinin oğurlanması, şantaj, rəqib firmanın əməkdaşlarının ələ alınması, danışıqlara qulaq asmaq, çəkilişlər və optik müşahidələr, qanunsuz olaraq rabitə sistemlərinə və hesablama şəbəkələrinə qoşulma, agentlərin göndərilməsi və ələ alınması, rəqiblərin və onların müəssisələrinin fiziki ləğv edilməsi və s. daxildir.

Sənaye casusluğunun inkişafı ilə bir vaxtda sahibkarlıq sirrinin müdafiəsinin müxtəlif vasitələri də daim təkmilləşdirilir. Məsələn, sənayecə inkişaf etmiş ölkələrdə xidməti binalara girişin müdafiəsinin xüsusi texniki vasitələrinin buraxılışının həcmi getdikcə artmaqdadır. Mütərəqqi yeniliklərdən, səsə, imzaya, barmaq izlərinə, göz qişasının qan damarlarının naxışlarına görə əməkdaşı müəyyən edən biometrik sistemlərdən və s. istifadə olunur.

Kommersiya sirrinin müdafiəsi qaydalarının pozulmasında təqsirli olan şəxslərə qarşı müvafiq təsir metodları mövcuddur.

Xidməti və ya kommersiya sirrini əks etdirən informasiyanı qeyri-qanuni yollarla əldə etmiş şəxslər zərəri ödəmyə borcludur. Xidməti və ya kommersiya sirrini vermiş işçilərin üzərinə də belə məsuliyyət düşür.

Sənayecə inkişaf etmiş ölkələrdə kommersiya sirrinin müdafiəsinin ümumi prinsiplərindən danışarkən onun müdafiəsinin təşkilati-hüquqi və iqtisadi tərəflərini də qeyd

etmək lazımdır. Məsələn, müvafiq qanunları pozanlara qarşı zərər çəkmiş tərəf əksər hallarda iddia qaldıra, cərimə sanksiyalarını tətbiq edə, qeyri-qanuni yolla əldə edilmiş məlumatlardan istifadə edilməsinə qadağa qoya bilər və s.

Sənayecə inkişaf etmiş ölkələrdə kommersiya sirrinin müdafiəsinə dair qanunvericiliyi pozanlara qarşı tətbiq edilən təşkilati-hüquqi və iqtisadi təsir metodları şəkil 21.3.2.-də göstərilir.

ABŞ-da xüsusi firmaların hüquq və patentlərlə müdafiə olunmayan əksər nailiyyətləri «istehsal sirri» kimi mühafizə olunur. Sirli informasiyaya müəyyən qiymətə malik və xüsusi mülkiyyətin müdafiəsinə dair qanunla mühafizə edilən əmtəə kimi baxılır. Əgər sahibkar istehsal sirlərinin müdafiəsi üzrə vaxtında təsirli tədbirlər görməzsə, onda o, məhkəmə hüququnu itirmiş olur. Almaniyada xüsusi sahibkarların sirlərinin müdafiəsinin hüquqi məsələləri xüsusi qanunlarla, o cümlədən haqsız rəqabət haqqında qanunla tənzimlənir. Bu ölkədə bilərəkdən qanunsuz yolla rəqiblərin kommersiya sirrini əks etdirən informasiyanın əldə edilməsi, həmin məlumatın kənar şəxslərə verilməsi və s. kimi pozuntular üçün cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Yaponiyanın qanunvericiliyində isə kommersiya sirrini əks etdirən məlumatların açıqlanması (yayılması) üçün məsuliyyətin xüsusi formaları nəzərdə tutulmamışdır. Lakin xüsusi firmaların əksəriyyətində fəhlə və qulluqçular üçün xüsusi kodekslər hazırlanır. Bu kodekslərdə məxfiliyə əməl olunmasının qaydaları şərh edilir. Müəssisə və təşkilatların kadr xidmətləri bu qaydaların yerinə yetirilməsinə ciddi nəzarət edirlər.

Göründüyü kimi müxtəlif ölkələrdə kommersiya sirlərinin müdafiəsi sistemləri bir-birindən fərqlənir. Bu məsələnin tənzimlənməsi üçün müasir beynəlxalq hüquq da dəqiq və birmənalı normaları vermir. Hər şeydən əvvəl bu, problemin mürəkkəbliyi və miqyası ilə, eləcə də bazar

münasibətlərinin, rəqabət mübarizəsinin inkişafı səviyyəsindən, tarixi və iqtisadi şərtlərin xüsusiyyətlərindən asılı olaraq müxtəlif yanaşmalarla izah olunur.

Qeyd etmək lazımdır ki, kommersiya sirrinin mühafizəsi intellektual mülkiyyətin mühafizəsi kimi ümumi problemin tərkib hissəsidir.

Şəkil 21.3.2. Kommersiya sirrinin müdafiəsinə dair qanunvericiliyin pozulmasında təqsirli olanlara təşkilati- hüquqi və iqtisadi təsir metodları

BÖLMƏ 4

MÜƏSSİSƏNİN MALİYYƏ NƏTİCƏLƏRİ VƏ TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİ

FƏSİL 22. MÜƏSSİSƏNİN MALİYYƏSİ

22.1. Müəssisənin maliyyə resursları

Müəssisənin təsərrüfat fəaliyyətində maliyyə xüsusi əhəmiyyət kəsb edir. Maliyyənin xüsusiyyəti ondadır ki, o, həmişə pul formasında çıxış edir. O, bölüşdürücü xarakterdə olub, maddi istehsal sahələrində təsərrüfat subyektlərinin, dövlətin və qeyri-istehsal sahəsi iştirakçılarının gəlirlərinin və yığımlarının formalaşmasını və istifadəsini əks etdirir.

Konkret təsərrüfat subyektinin sərəncamında olan pul vəsaitləri müəssisənin maliyyə resurslarını təşkil edir və onun gəlirlərinin əmələ gəlməsi, bölüşdürülməsi və istifadəsi prosesini əks etdirir.

Maliyyə – pul fondlarının yaranması və istifadə edilməsini ifadə edən pul münasibətləri sistemidir.

Ölkənin maliyyə sisteminə dövlət, ərazi və müəssisələrin maliyyəsi daxildir.

Müəssisənin maliyyəsi aşağıdakı prinsiplər əsasında təşkil olunur:

- maliyyə-təsərrüfat fəaliyyəti sahəsində müstəqillik;
- özünümaliyyələşdirmə;
- işin nəticələrində maraqlılıq;
- işin nəticələri üçün məsuliyyət;
- maliyyə ehtiyatlarının yaradılması;
- vəsaitlərin xüsusi və borc alınmış vəsaitlərə bölünməsi;

- büdcə, büdcədənkənar və dövlət fondlarına birinci növbəli ayırmalar;
- müəssisənin fəaliyyətinə maliyyə nəzarəti.

Təsərrüfat fəaliyyətini həyata keçirmək üçün müəssisənin müvafiq maliyyə təminatı olmalıdır. Müəssisənin maliyyə resurslarının əsas mənbələrindən biri ilkin kapitaldır. İlkin kapital müəssisənin təsisçilərinin payları hesabına formalaşır və nizamnamə kapitalı formasını alır.

Nizamnamə kapitalının əmələ gəlməsi üsulları müəssisənin təşkilati-hüquqi formalarından asılıdır. Nizamnamə kapitalının vəsaiti əsas fondların əldə edilməsinə və normal istehsal-təsərrüfat fəaliyyətinin aparılması üçün lazım olan ölçülərdə dövriyyə vəsaitlərinin formalaşdırılmasına yönəldilir. O, həmçinin lisenziyaların, patentlərin, nou-hauların və s. alınması üçün sərf oluna bilər.

İstehsala qoyulmuş ilkin kapital satılmış məhsulun qiymətində ifadə olunmuş dəyəri yaradır. Məhsul satıldıqdan sonra o, pul formasını – mədaxil (satış pulu) formasını alır.

Lakin mədaxil məhsulun istehsalına sərf olunmuş vəsaitlərin ödənilməsi, müəssisənin pul fondlarının və maliyyə nəticələrinin formalaşması mənbəyi olsa da hələ gəlir deyildir. İstifadə prosesində mədaxil keyfiyyətcə müxtəlif tərkib hissələrinə bölünür.

Mədaxildən istifadənin istiqamətlərindən biri amortizasiya fondudur. Amortizasiya fondu əsas istehsal fondlarının qeyri-maddi aktivlərin aşınması, pul formasını aldıqdan sonra amortizasiya ayırmaları şəklində təşkil olunur. Bu fondun əmələ gəlməsinin vacib şərti istehsal olunmuş malların istehlakçılara satılması və mədaxilin olmasıdır.

Müəssisə əmtəə yaradarkən xammalı, materialları, satın alınmış komplektləşdirici məmulatları və yarımfabrikatları sərf edir. Onların dəyəri digər maddi məsrəflərə, əsas istehsal fondlarının aşınması və işçilərin əmək haqqı ilə yanaşı məhsulun istehsalı üçün müəssisənin

xərclərini təşkil edir və maya dəyəri formasını alır. Satış pulu daxil olana qədər bu xərclər müəssisənin dövriyyə vəsaitləri hesabına maliyyələşir. Məhsul satıldıqdan sonra mədaxil hesabına dövriyyə vəsaitləri bərpa edilir, məhsulun istehsalı üzrə müəssisənin xərcləri isə ödənilir.

Xərclərin maya dəyəri şəklində xüsusiləşməsi məhsulun satışından əldə edilən mədaxili istehsal xərcləri ilə müqayisə etməyə imkan verir. Məhsul istehsalı üçün vəsaitin investisiyalaşdırılmasının mahiyyəti xalis gəlirin əldə edilməsidir və əgər mədaxil maya dəyərindən çox olarsa, onda müəssisə onu mənfəət şəklində alır.

Həm mənfəət, həm də amortizasiya ayırmaları istehsala qoyulmuş vəsaitlərin dövranının nəticəsidir və müəssisənin xüsusi maliyyə resursları adlanır. Bu resurslardan müəssisə müstəqil şəkildə istifadə edir.

Müəssisənin mənfəəti bütünlükdə onun sərəncamında qalmır və bir hissəsi vergilər şəklində büdcəyə daxil olur.

Müəssisənin sərəncamında qalan mənfəət onun tələbatlarının maliyyələşdirilməsinin başlıca mənbəyidir. Bu tələbatlar yığıma və istehlaka bölünür. Məhz mənfəətin yığıma və istehlaka bölünməsi müəssisənin inkişaf perspektivlərini müəyyən edir.

Yığıma yönəldilən vəsaitlər (amortizasiya ayırmaları və mənfəətin bir hissəsi) müəssisənin istehsal və elmi-texniki inkişafı üçün istifadə olunan pul vəsaitlərini təşkil edir. Bunun əsasında maliyyə aktivləri (qiymətli kağızların alınması, başqa müəssisələrdə payçı kimi iştirak və s.) formalaşır. Mənfəətin digər hissəsi müəssisənin sosial inkişafına, o cümlədən istehlaka yönəldilir.

Xüsusi vəsaitlərdən əlavə müəssisə borc alınmış maliyyə resurslarını – uzunmüddətli bank kreditləri, başqa müəssisələrin vəsaitləri, istiqrazları – cəlb edir. Borc alınmış vəsaitlərin geri qaytarılmasının (ödənilməsinin) mənbəyi də müəssisənin mənfəətidir.

Müəssisənin pul vəsaitlərinin investisiyalaşdırılması istiqamətləri həm məhsul (iş və xidmət) istehsalı üzrə müəssisə fəaliyyətinin əsas növləri, həm də xalis maliyyə qoyuluşları ilə əlaqədardır. Əlavə gəlir əldə etmək üçün müəssisə başqa müəssisələrin və dövlətin qiymətli kağızlarını ala bilər, yeni yaradılan müəssisələrin və bankların nizamnamə fonduna vəsait qoya bilər. Müəssisənin müvəqqəti sərbəst vəsaitləri bankda depozit hesabına qoyula bilər.

Özlərinə məxsus olan pul vəsaitindən istifadə edərkən müəssisələr cəmiyyət və dövlət qarşısındakı öhdəliklərdən tam azad ola bilməzlər. Təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq bütün müəssisələr büdcədənkənar sosial fondların və müxtəlif səviyyəli büdcə gəlirlərinin formalaşmasında iştirak edirlər.

Müəssisənin maliyyə sisteminin təsirliliyi hər şeydən əvvəl onun dəqiq və nizamlı işi ilə, eləcə də maliyyə xidmətinin fəaliyyətinin təşkili ilə müəyyən edilir.

Maliyyə xidməti aşağıdakı mühüm vəzifələri yerinə yetirir:

- istehsal, əsaslı tikinti, yeni texnikanın və elmi-tədqiqat işlərniin tətbiqi üzrə müəyyən olunmuş tapşırıqların və digər plan xərclərinin maliyyə resursları ilə təmin edilməsi;
- büdcə, banklar, malgöndərənlər, əmək haqqının ödənilməsi üzrə işçilər qarşısındakı maliyyə öhdəliklərinin və digər öhdəliklərin yerinə yetirilməsi;
- müəssisənin və onun tərkibinə daxil olan struktur vahidlərin istehsal-təsərrüfat fəaliyyətinin vaxtında və keyfiyyətli təhlilinin həyata keçirilməsi, mənfəətin artırılması və istehsalın rentabelliyinin yüksəldilməsi yollarının axtarılması;
- istehsal fondlarından və kapital qoyuluşlarından daha səmərəli istifadə olunmasına yardım göstərilməsi;

- maliyyə resurslarından düzgün istifadə olunmasına və dövriyyə vəsaitlərinin dövr etməsinin sürətləndirilməsinə nəzarət edilməsi.

22.2. Müəssisənin satış pulu (mədaxili), gəliri və mənfəəti

Bazar iqtisadiyyatı şəraitində mənfəətin əldə edilməsi müəssisənin bilavasitə məqsədidir. Mənfəət müəssisənin gələcək fəaliyyəti və mövcudluğu üçün müəyyən təminat yaradır, çünki müxtəlif ehtiyat fondları şəklində onun yığılması malların bazarda satışı ilə əlaqədar risklərin nəticələrinin aradan qaldırılmasına kömək edir.

Bazarda müəssisələr nisbətən xüsusiləşmiş mal istehsalçıları kimi çıxış edir. Məhsula qiyməti müəyyən edərək onlar məhsulu istehlakçılara satırlar və bu halda pul mədaxili əldə edirlər. Bu, hələ mənfəət deyildir. Maliyyə nəticəsini müəyyən etmək üçün bu pulu istehsal və satış üçün çəkilmiş xərclərlə, yəni maya dəyəri ilə müqayisə etmək lazımdır.

Əgər mədaxil maya dəyərindən çox olarsa maliyyə nəticəsi mənfəətin əldə olunduğunu təsdiq edir. Müəssisə həmişə mənfəət əldə etmək vəzifəsini qarşısına qoysa da, heç də həmişə buna nail olmur. Əgər mədaxil maya dəyərinə bərabərdirsə, onda yalnız məhsulun istehsalı və satışı ilə əlaqədar olan xərcləri ödəyə bilir. Əgər xərclər mədaxildən çox olarsa müəssisə mənfi maliyyə nəticəsinə – zərərlərə malik olur. Bu isə müəssisənin maliyyə vəziyyətini gərginləşdirir, hətta onu müflisləşməyə gətirib çıxarır.

Müəssisənin ümumi gəlirini aşağıdakı kimi əks etdirmək olar:

Satışdan əldə edilən mədaxil			
Maya dəyəri		Xalis mənfəət	Mənfəətdən vergi
Maddi xərclər	Əməyin ödənilməsi	Mənfəət	
	Ümumi gəlir		

Müəssisə üçün mənfəət daha çox əlavə dəyər əldə etmək imkanı verən sahələrin maliyyələşdirilməsi üçün maraq (stimul) yaradan göstəricidir. Bazar münasibətlərinin kateqoriyası kimi mənfəət aşağıdakı funksiyaları yerinə yetirir:

- müəssisənin fəaliyyəti nəticəsində əldə edilən iqtisadi səmərəni xarakterizə edir;
- müəssisənin maliyyə resurslarının əsas elementidir;
- müxtəlif səviyyəli büdcələrin formalaşması mənbəyidir.

Zərərlər də müəyyən rol oynayır. Onlar maliyyə vəsaitlərindən istifadə istiqamətlərində, məhsulun istehsalı və satışında müəssisənin səhvlərini və xətalarını üzə çıxarır.

Hər bir müəssisədə mənfəətin kəmiyyətinə, iqtisadi məzmununa və funksional təyinatına görə əhəmiyyətli dərəcədə fərqlənən dörd göstəricisi formalaşır. Bütün hesablamaların bazasını müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin , maliyyə göstəricisi olan balans mənfəəti təşkil edir. Vergitutma məqsədləri üçün xüsusi göstərici – ümumi mənfəət göstəricisi, bunun əsasında isə vergitutulan və vergitutulmayan mənfəət göstəriciləri hesablanır. Vergilər və büdcəyə digər ödənişlər keçirildikdən sonra balans mənfəətinin müəssisənin sərəncamında qalan hissəsi xalis mənfəət adlanır. Bu, müəssisənin fəaliyyətinin son maliyyə nəticəsini əks etdirir.

Balans mənfəəti üç əsas elementi əhatə edir: məhsulun satışından, işlərin görülməsindən, xidmət göstərilməsindən əldə edilən mənfəət (zərər); əsas vəsaitlərin satışından, onların sıradan çıxmasından, müəssisənin digər

əmlakının satılmasından əldə edilən mənfəət (zərər), qeyri-satış əməliyyatları hesabına maliyyə nəticələri.

Məhsulun (işlərin, xidmətlərin) satışından əldə edilən mənfəət müəssisənin nizamnamədə göstərilən və qanunun qadağan etmədiyi bütün formalarda həyata keçirdiyi əsas fəaliyyətdən əldə edilən maliyyə nəticəsidir. Məhsulun satışından əldə edilən mənfəət satışdan əldə edilən mədaxil (əlavə dəyər vergisi (ƏDV) və aksizlər nəzərə alınmadan) ilə məhsulun istehsalı və satışı ilə əlaqədar olan xərclər (maya dəyəri) arasındakı fərq kimi hesablanır.

Natural-əşya formasına malik məhsulun satışı üzrə mənfəət natural ifadədə məhsulun satışı həcmi üçün müəyyən edilən mədaxil və tam maya dəyərinə görə hesablanır:

$$M_S = M_{Qə} + M_ə + M_{QA},$$

burada M_S - məhsulun satışından əldə edilən mənfəət;

$M_{Qə}$ - müəyyən dövrün əvvəlinə satılmamış hazır məhsul qalığındakı mənfəət;

$M_ə$ - hesabat dövründə əmtəəlik məhsul buraxılışından mənfəət;

M_{QA} - ilin axırına satılmayan məhsul qalığındakı mənfəətdir.

İşlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən mənfəət də məhsul satışından əldə edilən mənfəət kimi hesablanır.

Müəssisənin əsas vəsaitlərinin və digər əmlakının satılmasından əldə edilən mənfəət (zərər) müəssisə fəaliyyətinin əsas növləri ilə əlaqədar olmayan maliyyə nəticəsidir. O, sair satışdan əldə edilən mənfəəti (zərəri) əks etdirir. Buraya müəssisənin balansında olan müxtəlif növ əmlakın kənara satılması daxildir.

Qeyri-satış əməliyyatlarından əldə edilən maliyyə nəticələri müəssisənin əsas fəaliyyətinə aid olmayan və müəssisə məhsulunun, əsas vəsaitlərinin, sair əmlakın satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə əlaqədar olmayan müxtəlif xarakterli əməliyyatlar üzrə mənfəətdir (zərərdir). Satışdankənar mənfəətin (zərərin) tərkibinə alınmış və ödənilmiş cərimələrin, penyaların, əlavələrin və digər sanksiya növlərinin qalığı, eləcə də aşağıdakı gəlirlər daxildir:

- ötən illərə aid olan, lakin hesabat ilində aşkar edilmiş mənfəət;
- malların yenidən qiymətləndirilməsindən gəlirlər;
- ötən illərdə silinmiş debitor borclarının ödənilməsi hesabına daxil olmuş məbləğ;
- valyuta hesabları və xarici valyuta əməliyyatları üzrə müsbət məzənnə fərqləri;
- müəssisənin hesablarında olan pul vəsaitlərinə görə alınmış faizlər.

Buraya həmçinin başqa müəssisələrin nizamnamə kapitalında payçı kimi iştiraka görə əldə edilən gəlir də daxildir. Bu gəlir təsisçilərə əvvəlcədən müəyyən olunmuş ölçüdə və ya səhmlər üzrə dividendlər şəklində alınır. Qiymətli kağızlar üzrə gəlirlərə istiqrazlar və qısamüddətli xəzinə öhdəlikləri üzrə faizlər daxildir. Müəssisənin səhmdar cəmiyyətlərinin qiymətli kağızları üzrə gəlir götürmək hüququ vardır, lakin həmin qiymətli kağızlar onlar üzrə ödənişlərin rəsmi elan olunmuş tarixdən azı 30 gün əvvəl alınmalıdır. Dövlətin qiymətli kağızları üzrə gəlirlərin götürülməsi hüququ və qaydası onların buraxılması və yerləşdirilməsi şərtləri ilə müəyyən edilir.

Borc verdiyi vəsaitlər üzrə müəssisə kreditor və borc götürən arasındakı müqavilə şərtlərinə görə gəlir götürür.

Əmlakın icarəyə verilməsindən əldə edilən gəlir icarəçinin icarədara ödədiyi icarə haqqından ibarətdir. İcarə olunmuş əmlakdan istifadə hesabına mənfəət icarə haqqının

məcburi hissəsidir və onun dəyərindən, müəssisənin rentabelliyindən və icarənin müddətindən asılıdır. Əgər icarədar əsas fondların bərpası üzrə müəyyən öhdəlikləri öz üzərinə götürürsə, müqavilə şərtlərindən asılı olaraq icarə haqqına amortizasiya ayırmaları və ya onların bir hissəsi daxil ola bilər. İcarə haqqına mənfəət əmlakın dəyərindən faiz kimi daxil edilir.

Bundan əlavə satışdankənar nəticələrə aşağıdakı xərclər və itkilər daxildir:

- ötən illərin əməliyyatları üzrə zərərlər;
- maddi dəyərlilərin inventarlaşdırılması zamanı aşkar edilən çatışmamazlığı;
- valyuta hesabları və xarici valyutalarla əməliyyatlar üzrə mənfi məzənnə fərqləri;
- təbii fəlakətlər nəticəsində yaranan və əvəzi ödənilməyən itkilər. Buraya həmçinin təbii fəlakətlərin qarşısının alınması və ləğv edilməsi və s. xərclər də daxildir.

Mənfəətin əmələ gəlməsi şəkil 22.2.1.-də göstərilir.

Mənfəətin kəmiyyətinə bir çox amillər təsir edir. Bu amillər daxili və xarici amillərə bölünür. Daxili amillərə istehsal (ekstensiv və intensiv) və istehsaldakənar amillər daxildir. Xarici amillər isə təbii şəraiti, qiymətin tənzimlənməsini, tarifləri, faiz vergi dərəcələrini və s. əhatə edir.

22.3. Mənfəətin planlaşdırılması və bölüşdürülməsi

Mənfəətin planlaşdırılması müəssisə fəaliyyətinin bütün növləri üzrə ayrı-ayrılıqda aparılır. Mənfəətin planlaşdırılması prosesində maliyyə nəticələrinə təsir göstərən bütün amillər nəzərə alınır.

Sabit qiymətlər və təsərrüfatçılıq şərtlərinin proqnozlaşdırılması imkanları şəraitində mənfəət planları bir qayda olaraq, bir il üçün tərtib edilir. Müəssisələr mənfəət planlarını rüb üçün də tərtib edə bilərlər.

Şəkil 22.2.1. Təsərrüfat subyektinin mənfəətinin formalaşması

Planlaşdırmanın obyekti kimi balans mənfəətinin elementləri götürülür. Bu halda məhsulun satışından, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilmiş mənfəətin planlaşdırılması da xüsusi əhəmiyyət kəsb edir.

Təcrübədə mənfəətin planlaşıdırılması üçün müxtəlif metodlar tətbiq olunur. Birbaşa hesab metodundan daha geniş istifadə olunur.

Birbaşa hesab zamanı növbəti dövrdə satılacaq məhsul üçün planlaşdırılan mənfəət mövcud qiymətlərlə (ƏDV, aksiz, ticarət və satış əlavələri nəzərə alınmadan) məhsulun satışından əldə ediləcək planlaşıdırılan mədaxil ilə

növbəti dövrdə satılacaq məhsulun tam maya dəyəri arasındakı fərq kimi müəyyən edilir. Hesablamanın bu metodu buraxılan məhsulun çeşidi böyük olmadıqda daha səmərəlidir.

Birbaşa hesab metodundan yeni müəssisənin yaradılması və ya mövcud müəssisənin genişləndirilməsi, ya da hər hansı bir layihənin həyata keçirilməsi zamanı istifadə olunur. Birbaşa hesab metodunun bir növü mənfəətin çeşid üzrə planlaşdırılması (daha doğrusu, hər bir çeşid qrupu üzrə mənfəətin müəyyən edilməsi) metodudur.

Birbaşa hesab metodunun əsas üstünlüyü onun sadəliyidir. Lakin ondan mənfəətin qısamüddətli planlaşdırılması zamanı istifadə etmək daha məqsədəuyğundur.

Mənfəət planının tərtib edilməsi üçün başqa metodlardan da istifadə olunur. Məsələn, rentabellik limitinin təhlili, rentabelliyin proqnozlaşdırılması, likvidliyin örtülməsinin təhlili, eləcə də digər analitik metodlar.

Rentabellik limitinin təhlili kapitalın dövrıyyəsı zamanı xərclər kəmiyyətinin dəyişməsinə nəzərən müəssisənin mənfəətinin və elastikliyin qarşılıqlı əlaqəsini qiymətləndirməyə imkan verir. Adətən bu asılılığı əks etdirən qrafiklər sistemi qurulur. Hesablamalar aşağıdakı düsturlarla aparılır:

$$M_{\partial} = \frac{X_c}{\frac{1-\alpha}{100}},$$

burada M_{∂} - minimal dövriyyə;

X_c - sabit xərclər;

α - sabit xərclərin faizidir.

Yaxud

$$M_{\partial} = \frac{X_c}{\frac{1-X_{\partial}}{K_{n\partial}}},$$

burada $X_д$ - dəyişən xərclər;

$K_{пд}$ - kapitalın plan dövriyyəsidir.

Xərclərin ödənilməsi üçün lazım olan minimal dövriyyə ilə planlaşdırılmış dövriyyə arasında mövcud olan fərq mühüm əhəmiyyət kəsb edir. Məhz bu fərq kapitalın dövriyyəsinin planlaşdırılmasında müəssisənin sərbəstlik dərəcəsini xarakterizə edir.

Sərf olunmuş (qoyulmuş) kapitalın rentabelliyinin proqnozu aşağıdakı kəmiyyətlərin nisbətlərinin təhlilinə əsaslanır:

$$Д_в + K_г = K_c,$$

$$K_д = \frac{Д_в}{K_c},$$

$$K_м = \frac{K_д}{M_д},$$

$$K_р = \frac{M}{K_д},$$

$$P_к = \frac{K_д}{K_c} \times \frac{M}{K_д} \times 100,$$

burada $Д_в$ - dövriyyə vəsaitləri;

$K_г$ - kapital qoyuluşu;

K_c - sərf olunmuş kapital;

$K_д$ - kapitalın dövretmə əmsalı;

$K_м$ - mənfəət əmsalı;

$K_р$ - rentabellik əmsalı;

M - mənfəət;

$P_к$ - kapitalın rentabelliyidir.

Likvidliyin örtülməsinin təhlili müəssisənin xərclərinin nisbətinə əsaslanır. Müəssisənin bu xərclərinə onun pul xərcləri və amortizasiya ayırmaları daxildir. Bu

halda müəssisənin likvidliyinin saxlanması üçün lazım olan kapitalın minimal dövriyyəsi müəyyən edilir (şəkil 22.3.1).

Müəssisənin sərəncamında qalan mənfəətin bölüşdürülməsi sisteminə hazırda qoyulan başlıca tələb ondan ibarətdir ki, o, istehlak və yığıma yönəldilən vəsaitlər arasında optimal nisbətlərin müəyyən edilməsi əsasında geniş təkrar istehsalın maliyyə resurslarına tələbatı təmin etməlidir.

Şəkil 22.3.1. Likvidlik nöqtəsinin təyin edilməsi

Mənfəətin bölüşdürülməsi, ondan istifadənin əsas istiqamətlərinin müəyyən edilməsi zamanı, hər şeydən əvvəl, rəqabət mühitinin vəziyyəti nəzərə alınmalıdır, çünki bu, müəssisənin istehsal potensialının əhəmiyyətli dərəcədə genişləndirilməsi və yeniləşdirilməsi zərurətini diqtə edir. Buna uyğun olaraq mənfəətdən istehsalın inkişafı fondlarına ayırmaların miqyası müəyyən edilir. Bu fondun resurslarından kapital qoyuluşlarının maliyyələşdirilməsi, dövriyyə vəsaitlərinin artırılması, elmi-tədqiqat fəaliyyətinin təmin edilməsi, yeni texnologiyaların tətbiqi, əməyin mütərəqqi metodlarına keçilməsi və s. üçün istifadə olunur. Müəssisənin mənfəətinin bölüşdürülməsinin ümumi sxemi şəkil 22.3.2-dəki kimidir.

Şəkil 22.3.2. Müəssisənin xalis mənfəətinin bölüşdürülməsi

Yığım fondu – istehsal və qeyri-istehsal təyinatlı əsas fondların alınması və inşası, habelə digər əsaslı vəsait qoyuluşu (qaytarılacaq) üçün istifadə olunur. Eyni zamanda bu fond hesabına qaytarılmamaq şərtilə aşağıdakı xərclər maliyyələşdirilir:

- elmi-tədqiqat işlərinin aparılması;
- təbiəti mühafizə tədbirləri;
- vergi ödənişi üçün maya dəyərinə daxil edilməsi normalarından artıq xərclərin ödənilməsi (ixtisasın artırılması, ezamiyyət xərcləri, kredit üçün faizlər və s.);
- qiymətli kağızların buraxılışı üçün xərclər;
- başqa müəssisələrin yaradılması üçün xərclər;
- mənfəətin gizlədilməsi üçün cərimə sanksiyalarının ödənilməsi və s.

İstehlak fondu – işçilərin sosial ehtiyaclarının ödənilməsinin və maddi həvəsləndirilməsinin maliyyələşdirilməsi üçün sərf olunur. Buraya istehsal göstəriciləri ilə əlaqədar olmayan (çoxillik əmək, yubiley və s.) mükafatların verilməsi; maddi yardımın göstərilməsi; putyovkaların, müalicənin, işçilər və onların ailə üzvləri üçün dərmanların dəyərinin, faizlərin və s. ödənilməsi daxildir.

İstehlak fondundan çəkilən xərclər qaytarılmır.

Ehtiyat fondu təbii fəlakətlər nəticəsində baş vermiş itkilərin və balans zərərlərinin ödənilməsi üçün istifadə olunur.

Müəssisənin hər bir təşkilati-hüquqi forması üçün onun sərəncamında qalan mənfəətin bölüşdürülməsinin qanuna müvafiq mexanizmi müəyyən edilmişdir.

Hər bir müəssisədə bölüşdürmə obyekti müəssisənin balans mənfəətidir. Mənfəətin bölüşdürülməsi dedikdə, mənfəətin büdcəyə yönəldilməsi və müəssisədə istifadənin

maddələr üzrə paylaşdırılması başa düşülür. Mənfəətin yalnız vergilər şəklində müxtəlif səviyyəli büdcələrə daxil olan və digər məcburi tədiyyələrin ödənilməsinə yönəldilən hissəsinin bölüşdürülməsi qanunla tənzimlənir. Müəssisənin sərəncamında qalan mənfəətin xərclənməsi istiqamətləri, ondan istifadə maddələrinin strukturu müəssisənin səlahiyyətindədir.

Mənfəətin bölüşdürülməsi üzrə dövlət heç bir normativ müəyyən etmir, lakin vergi güzəştlərinin verilməsi qaydası mənfəətin istehsal və qeyri-istehsal xarakterli kapital qoyuluşlarına, xeyriyyəçilik məqsədlərinə, təbiəti mühafizə tədbirlərinin maliyyələşdirilməsinə, qeyri-istehsal sferası obyektlərinin və təşkilatlarının saxlanması xərclərinin ödənilməsinə və s. yönəldilməsini stimullaşdırır. Qanunvericilik müəssisənin ehtiyat fondunu məhdudlaşdırır, şübhəli borclar üzrə ehtiyatın formalaşması qaydasını tənzimləyir.

Mənfəətin bölüşdürülməsi və istifadəsi qaydası müəssisənin nizamnaməsində qeyd olunur, iqtisadi və maliyyə xidmətlərinin müvafiq bölmələrinin hazırladıqları əsasnamə ilə müəyyən edilir və müəssisənin rəhbər orqanları tərəfindən təsdiq olunur.

22.4. Rentabellik və onun növləri

Sahibkarlıq fəaliyyətinin səmərəliliyinin iqtisadi göstəriciləri içərisində rentabellik göstəricisi xüsusi rol oynayır. Əgər mənfəət müəssisənnin mütləq gəlirliliyini əks etdirirsə, rentabellik nisbi gəlirliliyi göstərir və mənfəətin müəyyən bazaya nisbəti ilə ifadə olunur. Müəssisə o halda rentabelli hesab olunur ki, məhsulun satışından əldə edilən mədaxil məhsulun istehsalı və satışı xərclərini ödəməklə bərabər müəyyən mənfəəti də təmin etsin. Beləliklə rentabellik müəssisənin işinin səmərəliliyini səciyyələndirir,

müəssisənin kapitalı artırmaq qabiliyyəti haqqında təsəvvür yaradır.

Rentabellik müxtəlif qaydalarda hesablanır. Əsas göstərici ümumi rentabellik və ya aktivlərin rentabelliyi göstəricisidir və aşağıdakı düsturla hesablanır:

$$R_{üm} = (M_b : A) \cdot 100,$$

burada M_b - balans mənfəəti;

A - müəssisənin aktivlərinin (əsas istehsal fondları ilə dövriyyə vəsaitlərinin) dəyəridir.

Rentabelliyin bu göstəricisi qoyulmuş kapitalın bir manatına düşən mənfəətin məbləğini göstərir.

Aktivlərin rentabelliyi ilə yanaşı sahibkarlıq fəaliyyətinin təhlili prosesində məhsulun rentabelliyi göstəricisindən geniş istifadə olunur. Həmin göstərici aşağıdakı düsturla hesablanır:

$$P_м = (M_c : M_ə) \cdot 100,$$

burada M_c - məhsulun satışından əldə edilən mənfəət;

$M_ə$ - satılmış məhsulun tam maya dəyəridir.

Bu göstəricidən təsərrüfatdaxili analitik hesablamalarda, ayrı-ayrı məmulat növlərinin mənfəətliliyinə (zərərliliyinə) nəzarət edilməsi, istehsala yeni məhsul növlərinin tətbiqi və səmərəsiz məmulatların istehsaldan çıxarılması zamanı istifadə etmək daha səmərəlidir.

Müəssisələrin təsərrüfat fəaliyyətində hesabi rentabellik göstəricisindən də istifadə olunur:

$$R_h = (M_h : A) \cdot 100,$$

burada M_h - hesabi mənfəətdir.

Məlumdur ki, mənfəət həm məmulatın maya dəyəri, həm də onun satıldığı qiymətlə əlaqədardır. Belə halda məhsulun rentabelliyi mənfəətin sərbəst və ya tənzimlənən qiymətlərlə satılmış məhsulun dəyərinə, daha doğrusu, satışdan mədaxilin məbləğinə nisbəti kimi hesablana bilər.

Elə buna görə də rentabelliyin belə göstəricisi satışın rentabelliyi adlanır.

Məhsulun və satışın rentabelliyi göstəriciləri qarşılıqlı əlaqədardır və həm bütün məhsulun, həm də onun ayrı-ayrı növlərinin istehsalı və satışı üçün cari xərclərin dəyişilməsini əks etdirir. Ona görə də bütünlükdə istehsalın səmərəliliyini yüksəltmək və mənfəətin artırılmasının əlavə imkanlarını əldə etmək üçün böyük və kiçik rentabelliyə malik məhsulların xüsusi çəkilərinin dəyişilməsindən asılı olaraq məhsul buraxılışının strukturunu formalaşdırmaq olar.

Müəssisə kapitalının mülkiyyətçiləri üçün qoyulmuş kapitalın verimini, daha doğrusu, xüsusi kapitalın rentabellik səviyyəsini bilmək çox vacibdir. O, aşağıdakı kimi hesablanır:

$$R_{xk} = (M_b : K_x) \cdot 100,$$

burada K_x – müəssisənin xüsusi kapitalıdır.

Ümumi rentabellik səviyyəsinin xüsusi kapitalın rentabelliyi səviyyəsi ilə müqayisəsi xüsusi kapitalın kəmiyyətinin onun veriminə necə təsir etdiyini göstərir.

Müəssisənin maliyyə vəziyyətinin təhlili prosesində rentabelliyin digər göstəriciləri də hesablana bilər. Məsələn, müəssisənin bütün kapitalının rentabelliyi, dövriyyədənkənar aktivlərin rentabelliyi, dəyişən kapitalın rentabelliyi, investisiyaların rentabelliyi və s.

22.5. Müəssisənin vergiləri, büdcəyə və büdcədənkənar fondlara ödənişləri

Bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tərəfindən idarə edilməsinin ən təsirli metodlarından biri vergilərdir. Vergi – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi

şəklində dövlət büdcəsinə və yerli büdcələrə, habelə məqsədli dövlət fondlarına köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir [1].

Vergitutma sistemi müəyyən vəzifələri yerinə yetirməlidir: işgüzar fəallığa, istehsalın artımına və əməyin nəticələrində işçilərin marağının yüksəldilməsinə yardım etmək, müəssisələri əsas istehsal fondlarından səmərəli istifadə etməyə, istehsal ehtiyatlarını minimallaşdırmağa, qeyri-istehsal xərclərini ixtisar etməyə, dövlətin xərclərinin formalaşması və öz funksiyalarını yerinə yetirməsi üçün lazım olan həcmdə büdcə gəlirlərini formalaşdırmağı təmin etməyə həvəsləndirmək.

Azərbaycan Respublikasının vergi sistemi mürəkkəbliyi və dəyişkənliyi ilə xarakterizə olunur. Müstəqil Azərbaycanın vergi sistemi 1991-ci ildən başlayaraq bu günə qədər qəbul olunmuş 12 qanunla müəyyən olunur.

Qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində mövcud olan vergilər və yığımlar üç qrupa bölünür: dövlət, muxtar respublika və yerli (bələdiyyə). Azərbaycan Respublikasının Konstitusiyası yerlərdəki dövlət hakimiyyəti orqanlarının vergi hüquqlarını xeyli genişləndirmişdir. İndi onlara dövlət vergi qanunvericiliyində müəyyən edilən ümumi prinsiplər əsasında əlavə vergiləri və məcburi ayırmaları sərbəst müəyyən etmək hüququ verilmişdir.

Vergitutma obyektinə görə Azərbaycan Respublikasında aşağıdakı vergilər mövcuddur:

- gəlir vergisi;
- mənfəət vergisi;
- əmlak vergisi;
- torpaq vergisi;
- yol vergisi;
- mədən vergisi;
- aksizlər;

- əlavə dəyər vergisi;
- sadələşdirilmiş sistem üzrə vergi.

Qanunvericilikdə müəyyən olunmuşdur ki, eyni bir obyekt verginin bir növünə vergiqoyma müddətində yalnız bir dəfə cəlb oluna bilər. Azərbaycanın vergi sistemində həmçinin tədiyyəçilər tərəfindən ödənilməsinin məcburiliyinə görə vergi xarakterində olan, lakin büdcəyə deyil, həm də xüsusi büdcədənkənar fondalara (məsələn, dövlətin xüsusi fondlarına, təbiəti mühafizə fonduna, respublika torpaq fonduna və s.) yönəldilən məqsədli ödənişlər və rüsumlar da mövcuddur.

Müəssisələrdən tutulan birbaşa vergilər arasında mənfəətdən (gəlirdən) vergi aparıcı yeri tutur. Bu verginin fəaliyyəti sistemi bazar münasibətlərinə keçidlə əlaqədar olan bir sıra xüsusiyyətlərə malikdir.

Azərbaycan Respublikasının qanunvericiliyi əsasında hüquqi şəxs hesab olunan bütün müəssisə və təşkilatlar (büdcədən maliyyələşən təşkilatlar da daxil olmaqla), o cümlədən xarici investisiyalı müəssisələr, beynəlxalq birliklər və təşkilatlar mənfəət vergisinin ödəyiciləridir.

Müəssisə və təşkilatların ayrıca balansı və hesablaşma hesabı olan, lakin hüquqi şəxs statusuna malik olmayan filialları da bu verginin ödəyiciləri hesab olunur.

Vergitutma obyekti kimi müəssisə və təşkilatların ümumi mənfəətindən xərclərin məbləği çıxıldıqdan sonra yerdə qalan hissəsi götürülür.

Mənfəətdən verginin dərəcələri mənfəətin həcmindən və vergi ödəyicilərinin fəaliyyət sahələrindən asılı olaraq müxtəlif səviyyələrdə müəyyən olunmuşdur.

"Hüquqi şəxslərin mənfəətindən və gəlirlərinin ayrı-ayrı növlərindən vergilər" haqqında Azərbaycan Respublikasının qanununda mənfəət vergisinin ödənilməsindən azad olunan ödəyicilər və vergi güzəştləri göstərilmişdir.

Mənfəətin vergiyə cəlb olunan məbləğini müəyyən etmək üçün ümumi mənfəətdən digər fəaliyyət növlərindən

əldə edilən mənfəət; ehtiyat fonduna ayırmalar; güzəştlər və s. çıxılır. Bunu aşağıdakı sxemdən daha əyani görmək olar:

Vergi məbləği ödəyicilər tərəfindən müstəqil surətdə qanunvericilikdə müəyyən olunmuş müddətlərdə güzəştlər və vergi dərəcələri nəzərə alınmaqla ödənilir.

Əmlak vergisi ölkədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin mülkiyyətində olan əsas vəsaitlərə və bir sıra nəqliyyat vasitələrinə görə büdcəyə qanunda nəzərdə tutulmuş dərəcələrə uyğun olan ödəmələrdir. Əmlak vergisi üzrə münasibətlər «Əmlak vergisi haqqında» Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir.

Əmlak vergisinin obyektləri hüquqi şəxslər üçün onların balansında olan əsas vəsaitlər, fiziki şəxslər üçün isə binalar, su və hava nəqliyyatı vasitələridir.

Əmlak vergisinin məbləği yerli büdcələrə köçürülür.

İndiyədək dövlət gəlirlərinin ümumi həcmində bu verginin əhəmiyyəti o qədər də böyük olmamışdır. Lakin bazar mühiti formalaşdıqca, eləcə də müəssisələrin əsas

fondlarının əvvəllər aparılmış və gözlənilən yenidən qiymətləndirilməsi ilə əlaqədar olaraq bu verginin rolu əhəmiyyətli dərəcədə artacaqdır.

Əlavə dəyər vergisi əmtəələrin, işlərin, xidmətlərin istehsalı prosesində yaranan və onlar satıldıqca büdcəyə keçirilən dəyər artımının bir hissəsinin büdcəyə alınması formasıdır. Əlavə dəyər vergisi məhsulun qiymətinə əlavə kimi çıxış edərək müəssisənin gəlirinə deyil, alıcının xərclərinə tətbiq olunur və alıcıdan tutulur.

«Əlavə dəyər vergisi haqqında» Azərbaycan Respublikasının qanununda vergi ödəyiciləri, vergitutma obyektləri, bu vergidən azad olunan və verginin sıfır dərəcəsi tətbiq olunan vergi obyektləri müəyyən edilmişdir. Əlavə dəyər vergisi 18%-li vergi dərəcəsi ilə müəyyən olunur.

Aksiz vergisi məhsul və xidmətlərin qiymətinə daxil edilən və alıcı tərəfindən ödənilən vasitəli vergidir.

Aksiz vergisinin ödəyicilərinə aşağıdakılar daxildir:

- aksiz qoyulan məhsulları və xidmətləri istehsal edən müəssisə və təşkilatlar;
- xarici investisiyalı müəssisələr;
- ölkənin ərazisində olan müəssisələrin filialları və şöbələri.

Aksiz tutulan məhsulların siyahısı «Aksiz vergisi haqqında» Azərbaycan Respublikasının qanunu ilə müəyyən olunur. Azərbaycan Respublkasının Nazirlər Kabineti aksiz tutulmalı malların və xidmətlərin siyahısını və aksiz dərəcələrini dəyişdirə bilər.

Aksiz vergisi daimi tələbata malik olan yüksək rentabelli mallara qoyulur, onların istehsalçılarının əldə etdikləri yüksək mənfəətdən dövlət gəlirlərinə tutulur.

İstehlaka qoyulan vergilərin xüsusi, ən dinamik qrupunu gömrük rüsumları təşkil edir. İxrac – idxal rüsumları əsas etibarilə daxili mal bazarının dünya bazarı ilə qarşılıqlı əlaqələri tənzimləmək üçün istifadə olunur.

Onlar ixracı stimulaşdırmağa və analoji məhsulların xaricdən müdaxiləsindən daxili istehsalçını müdafiə etməyə imkan verir. Bu tədiyyələr dövlətin fiskal maraqları baxımından böyük əhəmiyyət kəsb edir, çünki onlar sabit xarakterdədir və kifayət qədər asanlıqla inzibatçılığa məruz qalır.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ölkə ərazisində olan bütün müəssisələr, birliklər və təşkilatlar (o cümlədən, xarici investisiyalı müəssisələr və daimi nümayəndəlikləri vasitəsilə fəaliyyəti həyata keçirən xarici hüquqi şəxslər) sosial müdafiə fonduna, sığorta fonduna, əhalinin məşğulluğu fonduna, eləcə də məcburi tibbi sığorta ayırmalarına vəsait köçürməlidirlər. Həmin tədiyyələr müvafiq büdcələrin gəlirlərinə bilavasitə daxil olmasa da bu və ya başqa sosial vəzifələrin həlli üçün məqsədli istiqamətə malikdir. Lakin onlar məcburi olduğundan ödəyicilər üçün vergi xarakterindədir. Bütün bunlar müəssisə və təşkilatların məhsulunun (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilir.

Vergi ödəyiciləri aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- maliyyə-təsərrüfat fəaliyyəti haqqında müəyyən olunmuş qaydada mühasibat uçotu və hesabat aparmalı, mühasibat hesabatlarını və balanslarını, vergilərə dair haqq hesabları, verginiin hesablanması və ödənilməsi ilə əlaqədar olan digər lazımi sənədləri və məlumatları vergi orqanlarına verməlidirlər:
- vergilər sahəsində güzəşt hüququnu təsdiq edən sənədləri təqdim etməlidirlər;
- vergiləri vaxtında və tam ödəməlidirlər;
- vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması haqqında vergi orqanının tələblərini müəssisələrin, təşkilatların və idarələrin rəhbərləri və vəzifəli şəxsləri yerinə yetirməlidirlər və s.

1994-cü ildən başlayaraq ölkənin vergi qanunvericiliyində aparılan dəyişikliklər iqtisadiyyatın dirçəlməsinə, vergi bazarının gəncləşməsi ilə yanaşı müəssisə və təşkilatların, habelə fiziki şəxslərin üzərinə düşən vergi yükünün azaldılmasına xidmət etmişdir. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi 2000-ci ildə beynəlxalq standartlara cavab verən və vergitutma ilə bağlı bütün qanunvericilik aktlarını özündə cəmləşdirən Azərbaycan Respublikası Vergi Məcəlləsinin qəbulu ilə yekunlaşmışdır.

İstehsalçıların vergi yükünün yüngülləşdirilməsinə yönəldilmiş siyasət müstəqilliyin birinci onilliyi ərzində əlavə dəyər vergisinin 28%-dən 18%-dək, mənfəətdən verginin 35%-dən 27%-dək, sosial sığorta ayırmalarının 40%-dən 30%-dək azaldılmasını və mənfəətdən verginin bütün ödəyiciləri üçün vahid vergi dərəcəsinin tətbiqini təmin etmişdir. Bilavasitə vətəndaşların gəlirindən tutulan verginin dərəcəsi əhəmiyyətli dərəcədə aşağı salınmışdır. Vergiyə cəlb olunmayan gəlirin məbləği 16,5 min manatdan 100 min manatadək (6 dəfə) qaldırılmış, verginin maksimum dərəcəsi 55%-dən 35%-dək azaldılmışdır [2].

Son illər iqtisadi baxımdan səmərəliliyini itirmiş vergi güzəştləri ləğv edilmiş, onların əvəzinə iqtisadiyyatın inkişafına təkan verən yeni vergi güzəştləri müəyyən edilmişdir. Məsələn, invesitisiyaya yönəldilən mənfəətin məbləğinin vergidən azad edilməsi, əmək haqqının maya dəyərinə daxil edilməsindəki məhdudiyyətlərin ləğv edilməsi, amortizasiya ayırmalarının hesablanması qaydasının beynəlxalq standartlara uyğunlaşdırılması və .

Vergi borclarının ödənilməsini stimullaşdırılmaq və dövlət büdcəsinin icrasını yaxşılaşdırmaq məqsədilə müəssisələrin borclarının ödənilməsinə güzəştli şərtlərin tətbiqi nəticəsində büdcəyə 350 milyard manat əlavə vəsait cəlb olunmuşdur [2].

Vergi qanunvericiliyi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi Azərbaycan dövlətinin vergi

siyasətinin əsas istiqamətlərindən biri sayılır. Son beş il ərzində 20-dən artıq dövlətlə ikiqat vergitutmanın qarşısının alınması barədə dövlətlərarası müqavilələr imzalanmışdır ki, bu da Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin möhkəmlənməsinə xidmət edir.

Düzgün əsaslar üzərində formalaşan vergi siyasəti 1997-ci ildən başlayaraq büdcə gəlirlərinin və xərclərinin yerinə yetirilməsini təmin etmişdir.

22.6. Müəssisənin maliyyə planı

Maliyyə planı müəssisənin iqtisadi və sosial inkişafı planının digər bölmələri əsasında hazırlanır. Öz növbəsində maliyyə planının hazırlanması maya dəyəri planının formalaşmasına, maddi və digər resurslardan istifadə olunmasına əhəmiyyətli təsir göstərir. Maliyyə planı tərtib edilərkən mövcud istehsal ehtiyatları mütləq nəzərə alınmalıdır, çünki həmin planda resurslardan istifadənin yaxşılaşdırılması, istehsalın rentabelliyinin yüksəldilməsi üzrə tapşırıqlar müəyyən edilir. Ona görə də maliyyə planını tərtib etməzdən əvvəl istehsal planının yerinə yetirilməsi üzrə hesabat və digər materialları hərtərəfli təhlil etmək lazımdır.

Maliyyə planı gəlirlər və xərclər balansı şəklində tərtib edilir ki, bu da pul formasında təsərrüfat-maliyyə fəaliyyətinin nəticələrini, büdcə, banklar və yuxarı təşkilatlarla münasibətləri ifadə edir. Müəssisənin maliyyə planı (gəlirlər və xərclər balansı) dörd bölmədən ibarətdir: gəlirlər və vəsaitlərin mədaxili; xərclər və ayırmalar; qarşılıqlı kredit münasibətləri; büdcə ilə qarşılıqlı münasibətlər. Plan gəlirləri və xərclərinin ölçüsü əsaslandırılmış hesablamalar əsasında müəyyən edilir. Həmin hesablamalar balansın hər bir maddəsi üzrə aparılır.

«Gəlirlər və vəsaitlərin mədaxili» bölməsində mənfəət, amortizasiya ayırmaları, müəssisənin digər daxili gəlirləri şəklində gəlir, eləcə də xarici mənbələrdən müxtəlif

növ mədaxil əks etdirilir. Mənfəətin tərkibində əsas hissəni əmtəəlik məhsulun satışından əldə edilən mənfəət təşkil edir. Müəssisənin balans mənfəətinə sair məhsulun və qeyri-sənaye xarakterli xidmətlərin satışından əldə edilən mənfəət də daxildir. Amortizasiya ayırmalarının planlaşdırılması müəssisənin balansında olan əsas fondların hər bir növü və ya qrupu üzrə həyata keçirilir. Amortizasiya ayırmalarının məbləği həmin fondların orta illik dəyərini amortizasiya ayırmalrının müvafiq normasına vurmaqla müəyyən edilir.

«Xərclər və ayırmalar» bölməsində mərkəzləşdirilmiş kapital qoyuluşları, əsaslı təmir üçün xərclər, xüsusi dövriyyə vəsaitləri normativinin artımı üçün xərclər, mənzil-kommunal təsərrüfatının istismarından dəyən zərərlər, binaların və qurğuların saxlanması xərcləri, iqtisadi həvəsləndirmə fondlarının yaradılmasına ayırmalar, ETLKİ, kadrların hazırlanması, yeni texnikanın yaradılması və tətbiqi üçün işçilərin mükafatlandırılması, maliyyə yardımının göstərilməsi üçün xərclər, digər xərclər və ayırmalar daxildir.

Maliyyə planının nümunəvi məzmununu gəlirlərin və xərclərin aşağıdakı əsas maddələri kimi göstərmək olar:

I. Gəlirlər və vəsaitlərin mədaxili.

1. Məhsulun, işlərin, xidmətlərin satışından mənfəət.

2. Sair satışdan (əsas vəsaitlər, digər aktivlər) mənfəət.

3. Planlaşdırılan satışdankənar gəlirlər, o cümlədən:

- digər müəssisələrin nizamnamə kapitalında payçı kimi iştirakdan gəlir;
- banklarda və digər maliyyə-kredit təşkilatlarında depozit hesablarında pul vəsaitlərinin saxlanmasından əldə edilən gəlirlər;
- qiymətli kağızlardan əldə edilən gəlirlər;
- əmlakın icarəyə verilməsindən əldə edilən gəlirlər.

4. Əsas fondların və qeyri-material aktivlərin tam bərpası üçün amortizasiya ayırmaları.

5. Digər müəssisələrdən vəsaitlərin mədaxili.

II. Xərclər və vəsait ayırmaları.

1. Mənfəətdən ödənilən vergilər (vergilərin növləri üzrə).

2. Xalis mənfəətin bölüşdürülməsi, o cümlədən:

- yığıma (istifadənin istiqamətləri üzrə);
- istehlaka (istifadənin istiqamətləri üzrə).

3. Uzunmüddətli investisiyalaşdırma (investisiyaların formaları üzrə), o cümlədən:

- amortizasiya ayırmaları hesabına;
- maliyyələşdirmənin digər mənbələri hesabına (mənbələrin növləri üzrə).

4. Sair xərclər.

Plan tərtib edilərkən kapital qoyuluşlarının maliyyə mənbələrinin düzgün hesablanmasına xüsusi diqqət verilir. Maliyyələşdirmə mənbələri yaranmanın xarakterinə görə dörd qrupa bölünür: tikintinin daxili resursları, əsas (sənaye) fəaliyyətin vasitələri, büdcədən təxsisatlar və bankın uzunmüddətli kreditləri.

Kapital qoyuluşlarının maliyyələşdirilməsinə plan tələbatı ilk növbədə təsərrüfat üsulu ilə həyata keçirilən əsaslı tikintinin daxili resurslarının, əsas fondların bərpasına yönəldilən amortizasiyaların və əsas fəaliyyətdən əldə edilən mənfəətin bir hissəsinin cəlb edilməsi təmin olunmalıdır.

Fəaliyyətdə olan istehsalın texnika ilə yenidən təchiz edilməsinə yönəldilən istehsalın inkişafı fondu və sosial-mədəni tədbirlər və mənzil tikintisi fondu (mənzil fondunun tikintisinə sərf edilən) müəssisənin kapital qoyuluşlarının maliyyələşdirilməsinin əsas mənbəyi hesab olunur.

Digər xərclərin və ayırmaların ödənilməsi mənbəyi kimi müəssisənin mənfəətindən istifadə olunur.

Müasir şəraitdə dövriyyə vəsaitlərinin iqtisadi əsaslandırılmış normativlərinin müəyyən edilməsinə mühüm əhəmiyyət verilir. Çünki dövriyyə vəsaitlərinin ayrı-ayrı

maddələri üzrə plan normativlərinin müəyyən edilməsi istehsalın fasiləsiz və ahəngdar işini təmin edir.

Maliyyə planının tərtib edilməsində olduqca vacib məsələ maddi mükafatlandırma fondunun, sosial-mədəni tədbirlər və mənzil tikintisi fondunun, eləcə də istehsalın inkişafı fondunun ölçülərinin müəyyən edilməsidir.

«Qarşılıqlı kredit münasibətləri» bölməsi planlaşdırılan zaman müəssisənin və onun tərkibinə daxil olan bölmələrin səmərəli istehsal-təsərrüfat fəaliyyətinin təmin edilməsi üçün cəlb olunan uzunmüddətli kreditlərin (növlər üzrə) ölçüsü hesablanır.

Kommersiya banklarından götürülən kredit istehsalın inkişafı və digər fondlar hesabına işlər başa çatdıqdan sonra ödənilir. Əgər vəsait çatışmazsa, kredit hesabına həyata keçirilmiş tədbirlərdən əldə edilən mənfəət hesabına ödənilir.

Bazar iqtisadiyyatı şəraitində kommersiya bankları həm qısamüddətli, həm də əsaslı tikinti üçün uzunmüddətli kreditləri verir. Kapital qoyuluşlarının təmənnasız (əvvəllər olduğu kimi) maliyyələşdirilməsi əvəzinə bank kreditlərindən istifadə edilməsi müəssisələrin məsuliyyətini artırır, xərclərin iqtisadi cəhətdən məqsədəuyğunluğunun daha ətraflı əsaslandırılmasını və vəsaitlərə həqiqi tələbatın təyin edilməsinə daha realist yanaşmanı tələb edir, kapital qoyuluşlarının ödənilməsinin sürətləndirilməsində maraq yaradır.

Müəssisələrin büdcə ilə qarşılıqlı münasibətləri təyin edilərkən tədiyyələrin (istehsal fondları üçün haqq, qeyd olunmuş tədiyyələr, mənfəətin sərbəst qalığı, vergilər) və bütünlükdə və ayrı-ayrı istiqamətlər üzrə büdəcədən təxsisatların ölçüsü hesablanır.

Hazırda müəssisənin mənfəətinin bölüşdürülməsinin ümumi qaydası mövcuddur ki, bu da büdcə ilə qarşılıqlı münasibətlərin xarakterini təyin edir.

Ümumi qaydaya görə müəssisənin plan mənfəəti məcburi ödənişlər çıxıldıqdan sonra müəssisənin fondlarının formalaşmasına yönəldilir.

Gəlirlər və xərclər balansının hesablanması başa çatdıqdan sonra maliyyə planının maddələrinin tam qarşılıqlı əlaqəsinin təmin edilməsi və dövlət büdcəsi ilə yekun qarşılıqlı münasibətlərin təyin edilməsi üçün yoxlama (şahmat) cədvəli tərtib edilir. Bu cədvəldə sətirlərdə maliyyələşdirmə mənbələri («Gəlirlər və mədaxil» bölməsində), sütunlarda isə xərc maddələri («Xərclər və ayırmalar» bölməsində) göstərilir. Yekuna görə onların ümumi məbləği bərabər olmalıdır.

Beləliklə, müəssisənin gəlirlər və xərclər balansında (maliyyə planında) müəssisələrin maliyyə-kredit sistemi ilə, digər müəssisələr və təşkilatlar ilə maliyyə münasibətlərinin kompleksi öz əksini tapır. Müəssisənin vəziyyəti, onun maliyyə dayanıqlığı, büdcəyə ödənişlərin vaxtında yerinə yetirilməsi, malgöndərənlərlə hesablaşmalar, planda nəzərdə tutulan digər xərclər üzrə ödənişlərinin vaxtında yerinə yetirilməsi maliyyə planının iqtisadi cəhətdən əsaslandırılmasından və yerinə yetirilməsindən çox asılıdır.

FƏSİL 23. MALİYYƏ-KREDİT TƏŞKİLATLARI İLƏ MÜƏSSİSƏNİN QARŞILIQLI MÜNASİBƏTLƏRİ.

23.1. Müəssisənin banklarla qarşılıqlı əlaqələri

Təsərrüfat fəaliyyətinin həyata keçirilməsi prosesində müəssisələr maliyyə-kredit sisteminin müxtəlif qurumlarının (banklar, investisiya təşkilatları, birjalar, sığorta təşkilatları və s.) xidmətlərindən istifadə edirlər. Bu qurumların fəaliyyətinin xüsusiyyətlərini bilmək müəssisələrə həmin qurumlarla münasibətlərini optimallaşdırmağa imkan verir və müəssisənin təsərrüfat fəaliyyətinin ümumi səmərəliliyinin yüksəldilməsini təmin edir.

Pul hesablaşmaları müəssisənin təsərrüfat münasibətlərinin bütün sahələrinə nüfuz etmişdir. Pul dövriyyəsinin əsas hissəsi nağdsız tədiyyə dövriyyəsi formasında həyata keçirilir. Bu zaman vəsaitlərin hərəkəti kredit təşkilatlarında hesablar üzrə köçürmələr şəklində baş verir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəssisələr pul vəsaitlərini mütləq banklarda saxlamalıdırlar. Pul vəsaitlərini saxlamaq və hesablaşmaları həyata keçirmək üçün banklar müəssisələrə müxtəlif hesablar açır.

Müəssisələr özlərinin hesab-kassa xidməti üçün bankları sərbəst şəkildə seçirlər. Əgər müəssisə bankın yerləşdiyi ərazidədirsə, onda bank hökmən müəssisə üçün hesab açmalıdır, digər hallarda isə bankın razılığı tələb olunur.

Müqaviləyə uyğun olaraq bank müəssisəyə müştəri kimi hesablaşma və digər hesabları açır; həm müəssisədən, həm də müəssisəyə daxil olan pul vəsaitlərini mədaxil edir; müəssisənin ödəniş tələbnaməsinə uyğun məbləği

hesabından malgöndərənlərin, kreditorların, müvafiq büdcə və büdcədənkənar fondların hesabına köçürür. Bank müştəri-müəssisədən nağd pulları götürməyi, müəssisəyə və ya tapşırığı ilə nağd pulları verməyi, hesablarda pulların saxlanmasına görə faizləri ödəməyi öhdəsinə götürür.

Hesablaşma hesabı mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxs statusuna malik olan hər bir müəssisə üçün açıla bilər. Hesablaşma hesabı müəssisənin əsas hesabıdır. Bu hesab müəssisənin əsas fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olaraq onun başqa müəssisələrlə və banklarla hesablaşmalarını aparmaq üçün lazımdır. Müəssisə yalnız bir hesablaşma hesabı açа bilər. Cari, ssuda və valyuta hesablarını isə müxtəlif banklarda və istənilən sayda aça bilər. Müəssisələrə valyuta hesablarının açılması üçün bank müvafiq lisenziyaya malik olmalıdır.

Başqa ərazilərdə ayrı-ayrı struktur bölmələrinə (filiallar, maqazinlər, anbarlar və s.) malik olan müəssisələr həmin bölmələrin yerləşdikləri ərazidəki banklarda müəssisənin adına hesablaşma subhesabını açа bilərlər. Hesablaşma subhesabı tabeli xarakterdədir, çünki burada struktur bölmələrdən daxil olan və sonradan müəssisənin əsas hesablaşma hesabına köçürüləcək vəsaitlər toplanır.

Cari hesablar müəssisələr, onların filialları, şöbələri və digər bölmələri üçün açılır. Cari hesablar üzrə məhdud hesablaşma əməliyyatları aparılır. Buraya əsasən əməyin və inzibati-təsərrüfat xərclərinin ödənilməsi ilə əlaqədar olan əməliyyatlar daxildir.

İqtisadiyyatda hesablaşmaların əsas kütləsi bank idarələri vasitəsilə nağdsız qaydada həyata keçirilir. Lakin müəssisələr vəsaitlərinin müəyyən hissəsini nağd pul şəklində istifadə edə bilərlər. Bu halda bankın verdiyi nağd pullar yalnız həmin pulların alındığı məqsədlər üçün sərf olunmalıdır. Nağd pullar əmək haqqı, əməyin ödənilməsi üzrə digər xərclər, təqaüdlərin, pensiyaların ödənilməsi, eləcə də kənd təsərrüfatı məhsullarının alınması üzrə

hesablaşmaların həyata keçirilməsi üçün verilir. Müəssisələrə onların hesablarından nağd pulların verilməsi pul çekləri ilə həyata keçirilir.

Hesablaşma-kassa xidməti prosesində müəssisələrlə banklar arasında müəyyən maliyyə münasibətləri yaranır. Bu münasibətlər pul vəsaitlərinin hərəkəti və müəssisələrlə bankların gəlirlərinin formalaşması ilə müşayiət olunur.

Müəssisələrin hesablarının açılması, hesablaşma və kassa əməliyyatlarının həyata keçirilməsi üçün bir çox banklar onların aparılması ilə əlaqədar olan xərcləri ödəmək məqsədilə müəyyən haqq tuturlar.

Digər banklar isə müştəriləri cəlb etmək üçün hesablaşma hesablarını pulsuz açırlar. Hər bir bank müəssisələrin pul vəsaitlərini saxladığına görə müəssisələrə müəyyən haqq (faiz) ödəyir.

Əgər söhbət hesablaşma hesabından gedirsə haqqın ölçüsü qarşılıqlı razılaşmaya görə müəyyən edilir. Müəssisələr müddətli depozit (əmanət) hesablarına müvəqqəti sərbəst pul vəsaitlərini bankın şərtlərinə uyğun olaraq yerləşdirirlər. Bank pulların saxlanması müddətindən asılı olaraq əmanətlər üzrə faizləri müəyyən edir.

Bankın xidmətlərinin ödənilməsi üzrə müəssisənin xərcləri məhsulun (işin, xidmətlərin) maya dəyərinə daxil edilir. Bank hesablarında saxlanılan vəsaitlər, o cümlədən qarşılıqlı hesablar üzrə məzənnə fərqləri hesabına gəlirlər müəssisənin balans mənfəətində satışdankənar gəlirlər kimi nəzərə alınır.

Bankın fəaliyyətində kreditlərin verilməsi də mühüm yer tutur. Bank kreditləşdirilməsi müəssisənin tələbatlarının ödənişli, müddətli və qaytarılma şərtləri ilə maliyyələşdirilməsidir.

Kredit münasibətləri müxtəlif formalarda ola bilər. Kredit münasibətləri bank krediti və kommersiya krediti formasında təşkil oluna bilər. Kommersiya kreditləşdiril-

məsi zamanı müəssisələr (borcalan və kreditor) arasındakı münasibətlər veksellə rəsmiləşdirilir. Kommersiya krediti sonradan vekselin girov qoyulması və ya vekselin uçotu vasitəsilə bankdan ssuda alınması yolu ilə bank kreditinə çevrilə bilər.

Adətən birbaşa və dolayı bank kreditləşdirilməsini fərqləndirirlər. Birbaşa bank kreditləşdirilməsi zamanı müəssisənin kredit münasibətləri əvvəlcədən bank ilə münasibətlər kimi meydana gəlir. Dolayı bank kreditləşdirilməsi zamanı əvvəlcə kredit münasibətləri müəssisələr arasında baş verir, sonra isə onlar veksel üzrə pulların vaxtından əvvəl alınması üsulunun axtarılması məqsədilə banka müraciət edirlər.

Kredit əməliyyatları bank biznesinin ən gəlirli maddəsidir, çünki bankların xalis mənfəətinin əsas hissəsi məhz onların hesabına formalaşır. Lakin bankların əsas riskləri, o cümlədən əsas borcun və kredit üçün faizlərin borclu tərəfindən ödənilməməsi ilə əlaqədar risklər də kredit əməliyyatları ilə əlaqədardır.

Kreditləşdirmə adətən iriləşdirilmiş obyektlər üzrə həyata keçirilir. Sənaye, nəqliyyat, rabitə, tikinti, məişət xidməti kimi belə iriləşdirilmiş obyektlərə normalaşdırılmış dövriyyə vəsaitlərinə daxil edilən material ehtiyatları və istehsal xərcləri; yüklənib göndərilmiş, lakin ödənilməsi müddəti çatmamış mallar; təqdim olunan akkreditivlər və s. daxildir. İriləşdirilmiş obyektlər üzrə kreditləşdirmə müəssisələrin hüquqlarını xeyli genişləndirir, borc alınmış vəsaitlərlə xüsusi tələbatları nəzərə almaqla verilmiş kreditin ümumi məbləği hədlərində manevr etməyə imkan verir. Lakin müəssisənin zərərlər, mal-material qiymətlilərinin azalmayan ehtiyatları və istehsal xərcləri hesabına yaranmış maliyyə ehtiyacları (bu ehtiyac müəssisənin xüsusi vəsaiti hesabına ödənilməlidir), plandan əlavə istehsal olunmuş və məhdud satışı olan məhsul, mal-material dəyərlilərinin

plandan artıq və istifadə olunmayan ehtiyatlar bank krediti hesabına ödənilə bilməz.

Müəssisələr həm hesablaşma hesabının açıldığı bankdan, həm də istənilən digər bankdan kredit ala bilərlər. Belə qayda müəssisələrə imkan verir ki, öz maraqlarına uyğun olaraq daha çevik kredit siyasəti ilə fərqlənən, əməliyyatları tez və dəqiq yerinə yetirən, yaxşı informasiyaya, göstərilən xidmətlərin geniş siyahısına malik olan bankı seçsin.

Müəssisələrin kreditləşdirilməsi kredit müqaviləsi əsasında həyata keçirilir. Müqavilədə verilən kreditin xarakteri və müəssisənin maliyyə vəziyyəti nəzərə alınmaqla borcalan müəssisənin və bankın hüquq və vəzifələri, müqavilə şərtlərinin pozulmasına görə tərəflərin məsuliyyəti müəyyən edilir. Kredit müqaviləsində zəruri şərtlər kimi aşağıdakılar müəyyən edilir: kreditləşdirmənin məqsədləri, kreditin ölçüsü; ssudanın verilməsi və qaytarılması müddətləri və əsas şərtləri; kredit öhdəliklərinin təmin edilməsi üsulları; kredit üçün faiz stavkası; kreditləşdirmə üçün zəruri olan hesablamaların və məlumatların siyahısı, eləcə də həmin məlumatların verilməsi müddətləri.

Verilən ssudanın müddətindən asılı olaraq qısamüddətli (1 ilədək), orta müddətli (1 ildən 3 ilədək) və uzunmüddətli (3 ildən yuxarı) kreditləri fərqləndirirlər.

Kreditin verilməsi haqqında qərar qəbul etməzdən əvvəl bank müəssisənin kredit qabiliyyətini təhlil edir.

Müəssisənin kredit qabiliyyəti dedikdə, kreditin alınması və onun vaxtında qaytarılması üçün müəssisədə müvafiq zəminin olması başa düşülür. Müəssisənin kredit qabiliyyəti əvvəllər alınmış kreditlər üzrə hesablamalar zamanı onun səliqəliliyi, cari maliyyə vəziyyəti və lazım olduqda müxtəlif pul vəsaitlərini səfərbər etmək imkanları ilə müəyyən edilir.

Hər bir bank müəssisənin kredit qabiliyyətini qiymətləndirmək üçün öz sistemindən istifadə edir ki, bu da

bankın kommersiya sirridir. Adətən qiymətləndirmə sistemi kredit qabiliyyətinin üç kateqoriyasından istifadə olunur: etibarlı (kredit qabiliyyətli), dayanıqsız (məhdud kredit qabiliyyətli), etibarsız (kredit qabiliyyəti olmayan).

Etibarlı hesab edilən borcalan ümumi şərtlərlə kreditləşdirilir. Bu halda güzəştli kreditləşdirmə qaydası da tətbiq oluna bilər. Əgər borcalan dayanıqsız müştəridirsə, onda kredit müqaviləsi bağlanarkən onun fəaliyyətinə və kreditin qaytarılmasına əlavə nəzarət normaları nəzərdə tutulur (məsələn, girovun, təminatın, zaminin zəruriliyi, təminatın hər ay yoxlanması, yüksək faiz stavkalarının tətbiqi və s.). Əgər ssuda alan müəssisə etibarsız müştəri hesab olunarsa, onda onu kreditləşdirmək məqsədəuyğun deyildir. Bu halda bank pul vəsaitlərini yalnız kredit müqaviləsində xüsusi nəzərdə tutulmuş xüsusi şərtlərlə verə bilər.

Müəssisənin kredit qabiliyyətinin təmin edilməməsinin başlıca səbəbləri debitor borclarının olması, öhdəliklərin yığılması, təsərrüfat fəaliyyətinin aşağı səmərəliliyi, dövriyyə vəsaitlərinin dövr etməsinin yavaşıması və s. ola bilər.

Bank kredit müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə, müəssisənin götürdüyü kreditdən istifadəsinə, kreditin vaxtında və tam ödənilməsinə nəzarəti həyata keçirir. Bu məqsədlə müəssisənin təsərrüfat fəaliyyəti, onun maliyyə vəziyyəti təhlil edilir, zəruri hallarda pul və hesablaşma sənədləri, mühasibat yazılışları, hesabat materialları yoxlanılır.

Müəssisə kreditləşdirmə şərtini pozduqda bank ona qarşı sanksiya – kredit təsiri vasitələrini tətbiq edir. Məsələn, bank tam və ya qismən kreditləşdirməni dayandıra, borcun təmin edilməsi hallarında verilmiş vəsaitlərin məqsədli təyinatı üzrə istifadə olunmadıqda və ya müəyyən olunmuş kreditləşdirmə qaydalarının pozulması ilə istifadə olunduqda, girov qoyulmuş

qiymətlilərin bankın borcunu ödəmək üçün aldığı məbləğin dövriyyəyə buraxmadan satıldıqda və ya sərf olunduqda, bankın ssudasının təminatçısı olan mal-material qiymətliləri qeyri-qənaətbəxş saxlandıqda, bank nəzarətindən yayındıqda ssudanı vaxtından əvvəl geri götürə bilər.

Ssudaların ödənilməsi müddətlərinin müntəzəm pozulması zamanı müəssisə yeni kredit almaq hüququnu itirir və yalnız ayrı-ayrı hallarda xüsusi təminatla (zaminliklə) ssudadan istifadə edə bilər. Əgər müəssisənin vaxtı keçmiş borcları vardırsa və onun sərbəst pul vəsaitləri yoxdursa, bank kreditləşdirməni dayandırır. Bank girov qoyulmuş mal-material qiymətlilərindən ssudalar üzrə borcların ödənilməsi üçün istifadə edə bilər. Əgər ssuda başqa bir təşkilatın təminatına əsasən verilmişdirsə, onda borcalan müəssisənin hesablaşma hesabında ssudanın ödənilməsi üçün vəsaiti yoxdursa, borc qeyd şərtsiz təminatçı təşkilatın hesabından tutulacaqdır.

Bankın təşəbbüsü ilə alınmış kreditin vaxtında qaytarılması öhdəliklərini pozan borcalan müəssisəyə cəza tədbirlərini tətbiq edə bilər:

- operativ idarəetmənin kreditor-bankın iştirakı ilə təyin olunmuş müdiriyyətə həvalə olunması;
- yenidən təşkil etmə;
- müəssisənin müflisləşməsinin tanınması haqqında iqtisad məhkəməsində məsələnin qaldırılması.

Müəssisələrin valyuta əməliyyatlarının həyata keçirilməsində Azərbaycan Respublikası Milli Bankının lisenziyasına malik kommersiya bankları xüsusi rol oynayır.

Xarici iqtisadi fəaliyyəti həyata keçirən müəssisələr valyuta hesablarını açırlar. Valyuta hesabını açmaq üçün müəssisə banka ərizə ilə müraciət edir. Ərizəyə nizamnamənin və dövlət qeydiyyatı, vergi orqanlarında uçota götürülməsi haqqında sənədlərin surətləri və qanunla nəzərdə tutulan digər sənədlər əlavə olunur.

Bankla razılaşdırdıqdan sonra müəssisə hesabların valyutasını müəyyən edir. Valyutanın dönərliyi əməliyyatın baş verdiyi anda beynəlxalq valyuta bazarında mövcud olan məzənnə ilə həyata keçirilir. Valyutaların dəyişdirilməsi zamanı məzənnədəki fərq hesabın sahibi olan müəssisənin hesabına köçürülür. 1995-ci ilin yanvarında Azərbaycan Respublikasının Milli Bankı xarici valyuta ilə hesablar üzrə valyuta əməliyyatlarının həyata keçirilməsi sahəsindəki məhdudiyyətləri ləğv etmişdir. Xarici valyuta üzrə xüsusi hesablar ləğv edilmiş, tranzit və cari valyuta hesabları bərpa olunmuşdur. İmzalanmış xarici ticarət müqavilələrinə uyğun olaraq idxaldan valyuta mədaxili valyuta tranzit hesabına köçürülür. İxrac mədaxilinin mütləq satışından sonra müəssisənin sərəncamında qalan vəsait cari valyuta hesabında saxlanılır.

Malların və xidmətlərin ixracından müəssisəyə daxil olmuş valyuta vəsaitlərinin 50%-i bank vasitəsilə Azərbaycanın daxili bazarında manatın bazar məzənnəsinə görə satılmalıdır.

Valyutanın satışı üçün müəssisədən tapşırıq alan bank satılacaq valyutanı müəssisənin tranzit hesabından valyuta bazarında məcburi qaydada satılacaq valyuta vəsaitinin nəzərə alındığı ayrıca şəxsi bank hesabına köçürür. Valyuta vəsaitlərinin yerdə qalan hissəsi tranzit hesabından silinir və cari valyuta hesabına köçürülür. Müəssisələr həmin vəsaitdən mövcud qanunverigiliyə uyğun olaraq istənilən məqsəd üçün istifadə edə bilər.

Ölkənin hüquqi şəxslərindən (onların valyuta hesablarından) ödənişlər şəklində müəssisənin aldığı valyuta vəsaitlərinə, eləcə də ölkənin valyuta bazarından müəssisənin aldığı valyuta vəsaitlərinə məcburi 50%-lik satış şamil edilmir.

Müəssisənin tapşırığı ilə valyuta ödənişlərini bank yalnız müəssisənin valyuta hesabındakı vəsait qalığı hədlərində həyata keçirir. Zəruri hallarda xaricdən mal və

xidmətlərin alınması üçün valyuta vəsaitlərini köçürən müəssisələrdən bank belə tədiyyələrin qanuniliyinə dair müvafiq informasiyanı və sənədləri tələb edə bilər.

Əgər valyuta mədaxilinin müəyyən hissəsinin məcburi satışından sonra müəssisənin lazım olduğu qədər valyuta vəsaiti olmazsa, onda müəssisə ölkənin bankı vasitəsilə valyuta bazarında yalnız cari valyuta əməliyyatlarının aparılması və valyuta kreditləri üzrə borcların ödənilməsi üçün manatla valyuta ala bilər.

Azərbaycanın və xarici müəssisələrin arasındakı hesablaşmalar adətən sərbəst dönərli valyuta ilə aparılır. Xarici müəssisələrlə, müstəsna hallarda isə Azərbaycanın hüquqi şəxslərilə hesablaşmalar üçün ölkəmizin müəssisələri və təşkilatları valyutanı daxili valyuta bazarında ala bilər. Müəssisənin aldığı valyuta alınmış mallar və xidmətlər, eləcə də beynəlxalq daşımalarda daşınma, sığortalanma və müşayiət olunması; əsas borcların və əvvəllər alınmış valyuta kreditləri üzrə faizlərin ödənilməsi; xarici investisiyadan əldə edilən gəlirlərin xarici investorlara köçürülməsi üçün xaricdəki firmalara köçürülür.

Ayrı-ayrı hallarda Azərbaycanın hüquqi şəxsləri arasındakı hesablaşmalar valyuta ilə aparılır. Məsələn, rabitə müəssisələrinin xidmətlərinin ödənilməsi (Azərbaycan müəssisələri üçün beynəlxalq rabitə kanalları icarəyə götürüldükdə); ölkə ərazisindən tranzit daşımaları üçün hesablaşmalar; ixrac olunan məhsulu göndərənlər və submalgöndərənlər arasındakı hesablaşmalar; daxili valyuta bazarında valyuta əməliyyatlarının həyata keçirilməsi və s.

Valyuta ehtiyatına malik, lakin hesablaşma hesabında manatla vəsaiti çatışmayan müəssisələr mal və xidmətlər üçün hesablaşmaların vaxtında təmin edilməsi, əməyin ödənilməsi, büdcə və sosial müdafiə fondu ilə hesablaşmalar üçün valyuta vəsaitlərini manata satmalıdırlar. Yalnız beləliklə onlar həmin öhdəliklər üzrə tədiyyələri həyata keçirə bilər.

Azərbaycanın müəssisələri ölkənin banklarında cari valyuta hesablarının açılmasının qeyri-mümkünlüyü və zəruri valyuta əməliyyatlarının aparılmasının xüsusiyyətləri nəzərə alınmaqla Milli Bankın razılığı ilə müəssisələr xaricdə valyuta hesablarını açа bilər. Müəssisələr belə hesablarda vəsait qalıqları, hesablanmış və Azərbaycana köçürülmüş faizlər haqqında məlumatları verməlidirlər.

Müəssisələrin həyata keçirdikləri valyuta əməliyyatlarına kommersiya bankları tərəfindən nəzarət edilir. Xarici iqtisadi fəaliyyəti həyata keçirən və valyuta hesablarına malik müəssisələrin rəhbərliyi valyuta vəsaitlərindən səmərəli istifadəyə görə cavabdehdir. Valyuta sövdələşmələrinin aparılması qaydalarının pozulması zamanı ölkənin müəssisələri maddi məsuliyyət daşıyır. Onlar həmin əməliyyatların aparılması üçün lisenziyadan və icazədən məhrum edilə, eləcə də onlara qarşı digər sanksiyalar tətbiq edilə bilər.

Xarici ticarət əməliyyatlarını maliyyələşdirmək üçün banklar müəssisələrə məcburi məqsədli təyinatlı valyuta krediti (təminatlı, girovla və s.) verə bilər. İlk növbədə kreditlər müəssisələrin idxal-ixrac sövdələşmələri ilə əlaqədar olan cari fəaliyyətin maliyyələşdirilməsi, ixrac üçün istehsalın yaradılması və inkişafı, bağlanmış ixrac müqavilələrindən gələcəkdə əldə ediləcək valyuta gəlirləri üçün verilir. Valyuta kreditləri üzrə faiz stavkaları müqavilə əsasında müəyyən edilir.

Valyuta krediti üzrə borc müəssisənin valyuta hesabında olan vəsaitlər hesabına ödənilir. Müəssisə tərəfindən kredit müqaviləsi şərtlərinin yerinə yetirilməsinə bank nəzarət edir. Bu şərtlərin pozulması halında gələcək kreditləşdirməni dayandıra və ya verilmiş kreditin vaxtından əvvəl ödənilməsini tələb edə, yaxud əvvəllər verilmiş ssuda üzrə faiz stavkalarını artıra bilər.

Müasir şəraitdə lizinq əməliyyatları da müəssisələr üçün mühüm əhəmiyyət kəsb edir (lizinq əməliyyatları haqqında 18-ci fəsildə ətraflı məlumat verilmişdir).

Malgöndərən tərəfindən alınmasını sürətləndirmək məqsədilə faktorinq və ya ticarət-komissiya əməliyyatları həyata keçirilir. Malgöndərən – müəssisələr göndərilmiş mallar, görülmüş işlər və göstərilmiş xidmətlər üçün tədiyyə sənədləri üzrə ödənişləri tələb etmək hüququnu banka verirlər. Malgöndərənə məbləğin müəyyən hissəsini bank dərhal ödəyir, qalan hissəsi isə alıcıdan vəsait daxil olduqdan sonra malgöndərənin hesabına köçürülür. Müqavilədə həmçinin alıcıdan alınacaq məbləğin malgöndərən müəssisənin hesabına dərhal və tam keçirilməsi də nəzərdə tutula bilər. Adətən belə əməliyyatların həyata keçirilməsinə görə bank müəssisələrdən əlavə haqq alır.

Faktorinq əməliyyatları malgöndərən müəssisələrdə dövriyyə vəsaitlərinin kreditləşdirilməsini təmin edir, vaxtı keçmiş tədiyyələrdən itkiləri minimumlaşdırır, normal istehsal fəaliyyəti üçün şərait yaradır. Malgöndərən müəssisə tədiyyələrin daxil olmasının dəqiq vaxtını bilir və öz xərclərini planlaşdıra bilər. Faktorinq xidməti xüsusilə kiçik və orta müəssisələr üçün daha sərfəli olur.

Trast (vəkalətli) əməliyyatlarını bank müştərinin adından və onun tapşırığı ilə onların hesabına və xeyrinə həyata keçirir. İnkişaf etmiş ölkələrdə trast əməliyyatları bütün bank xidmətlərinin böyük hissəsini təşkil edir. Vəkalətli əməliyyatların bir hissəsini müştərilərin investisiya portfelinin idarə edilməsi, əmlakın, daşınmaz əmlakın və digər mülkiyyətin idarə edilməsi təşkil edir.

23.2. Müəssisənin birjalarla qarşılıqlı əlaqələri

Birja topdan bazarın xüsusi forması olub, burada əmtəələr kimi istehsal vasitələri və əmək predmetləri (əmtəə

birjası), qiymətli kağızlar (fond birjası), xarici valyuta (valyuta birjası) iştirak edir.

Tələb və təklifin vaxta və məkana görə təmərküzləşdirilməsini təmin etməklə birja qiymət rəqabəti üçün əlverişli şərait yaradır, ayrıca bir satıcıdan və alıcıdan asılı olmayan və birjada baş vermiş bütün sövdələşmələrin nəticələrini nəzərə alan bazar qiymətlərinin (kotirovka qiymətləri) əmələ gəlməsinə yardım göstərir. Eyni zamanda birja mexanizmi satıcıya və alıcıya tələb və təklifin dəyişilməsinə operativ cavab verməsini təmin edir.

Birja müəyyən malların müntəzəm alqı-satqı yeridir, xammalın, valyutanın, qiymətli kağızların satıcısı və alıcısı arasında sövdələşmələrə kömək edən vasitəçidir; bu alqı-satqını təşkil edən və onun aparılması qaydalarını hazırlayan hüquqi və fiziki şəxslərin birliyidir; xüsusi qiymət əmələ gətirici mexanizmdir ki, bu ölkənin iqtisadi infrastrukturunda birjaların yerini təyin edən başlıca əlamətdir.

Birja ticarətinin təşkili müəyyən xüsusiyyətlərə malikdir:

- alqı-satqı prosesi həmişə eyni bir yerdə və əvvəlcədən müəyyən edilmiş vaxtda baş verir;
- bütün sövdələşmələr müəyyən, adətən qanunvericiliklə təsdiq olunmuş qaydalar üzrə aparılır. Onlar satıcıların, alıcıların və vasitəçilərin qarşılıqlı münasibətlərini, birja əmtəələrinin xarakteristikalarını, müqavilələrin icrası qaydasını və s. reqlamentləşdirirlər;
- alqı-satqı proseslərini sadələşdirmək üçün malların keyfiyyəti, alınması və təhvil verilməsi yeri və müddətləri, qiymətlərin hesablanması və sövdələşmələrin başqa şərtləri üzrə birja standartları sistemindən geniş istifadə olunur.

Birja mallarının başlıca fərqləndirici cəhəti sadəliyi və standartlaşmasıdır. Əməliyyatları sadələşdirmək üçün bir müqavilə üzrə satılacaq malların həcmi də standartlaşdırılır. Malların belə minimal miqdarı birja vahidi adlanır. Mal

göndərilməsinin müqavilədə nəzərdə tutulan faktiki həcmi (lot) birja vahidlərinə bölünən olmalıdır.

Birja sövdələşmələri brokerlərin köməyilə həyata keçirilir. Brokerlər birjada satıcıların və alıcıların maraqlarını təmsil edir. Birjada sövdələşmələrin alqı-satqı müqaviləsinin müxtəlif modifikasiyalarından ibarət olan dörd növü həyata keçirilir:

- real əmtəənin alqı-satqısı, eləcə də əmtəələrin dərhal verilməsi və göndərilməsi və ya onlara mülkiyyət hüququnu təsdiq edən sənədlərin verilməsi ilə sövdələşmələr;
- forvard əqdləri – göndərilməsi müddətləri geri çəkilmiş malların alqı-satqısı üzrə sövdələşmələr;
- fyüçers əqdləri – standart müqavilələrin malların alqı-satqısı sövdələşmələri;
- opsion əqdləri – malların və ya müəyyən olunmuş qiymətlər üzrə malların göndərilməsi müqavilələrinin gələcək alqı-satqısı üçün hüquqların alqı-satqısı üzrə sövdələşmələr.

Forvard əqdləri biznesin müxtəlif sahələrində, o cümlədən əmtəə birjalarında həyata keçirilən və əmtəələrin gələcəkdə, daha doğrusu, müəyyən müddət keçəndən sonra göndərilməsinə dair öhdəlikləri nəzərdə tutan müddətli sövdələşmələrdir.

Müasir birja ticarətində fyüçerslər və opsionlar xüsusi əhəmiyyət kəsb edir. Fyüçers əqdləri – müəyyən müddətdən sonra müqavilədə göstərilən qiymətlə icra olunacaq standart müqavilələrin alqı-satqısı üzrə sövdələşmələri əks etdirir. Fyüçers müqaviləsinin mahiyyəti malların verilməsində deyil, sövdələşmənin bağlanması və müqavilənin icrası anlarında bazar qiymətlərindəki fərqlərin alınması və ya ödənilməsidir. Fyüçerslər bazar qiymətlərinin kəskin tərəddüd etməsi şəraitində birja ticarəti iştirakçıları üçün xüsusilə cəlbedicidir. Qiymətlər qalxanda alıcı, aşağı

düşəndə isə satıcı qazanır. Bazar konyukturasından daha yaxşı hali olanlar müvəffəqiyyət əldə edirlər.

Fyüçerslər müqavilənin həqiqi icrası zamanı həqiqətən baş verəcəyi zərərlərin ölçüsünü xeyli azaldır.

Fyüçers müqavilələrindən zərərlərin qarşısını almaq üçün onlarla paralel olaraq forvard sövdələşmələri və nağd mal üçün də sövdələşmələr bağlanır. Əgər birja ticarətinin iştirakçısı fyüçers müqaviləsində uduzarsa, o, nağd qiymətliləri satmaqla zərəri ödəmiş olur və əksinə. Birja qaydaları əvvəllər satılmış fyüçers müqaviləsi üzrə malları geri almaq yolu ilə öhdəlikləri dayandırmağı nəzərdə tutur.

Opsion mala, onun kəmiyyətinə, keyfiyyətinə, ödənilməsi üsullarına və s. görə nəzərdə tutula bilər. Opsionun mahiyyəti tərəflərdən birinə (opsion alıcısına) müəyyən mükafat müqabilində müəyyən dövr ərzində istənilən gün (Amerika opsionu) və ya müqavilənin icrası müddətində (Avropa opsionu) əvvəlcədən razılaşdırılmış mal almaq (satmaq) hüququnun verilməsindən, yaxud da müəyyən olunmuş müddətlərdə digər tərəfin itkilərini ödəməkdən azad olunmaqla öz hüquqlarından imtina etməsini bəyan etməkdən ibarətdir. Malların alınması üçün opsion sövdələşmələri fyüçers müqavilələrini əldə etmək hüququnu da nəzərdə tutur.

Müasir əmtəə birjası – malların göndərilməsi üçün müqavilələrin bazarı olub, real mal göndərişlərinin ölçüləri nisbətən kiçik olur. Birja müqavilələr bazarı kimi tələblə təklifi bərabərləşdirsə də, böyük mal kütləsinin hərəkəti ilə əlaqədar deyildir və qiymətə görə maksimal elastik permanent tələbi və permanent təklifi yaradır. Əmtəə birjasında məhsulun satılması nümunələr və mallar əvvəlcədən qəbul edilmiş standarta uyğun xırda partiyalarla nümayiş etdirilmədən həyata keçirilir.

Əmtəə birjası faktiki olaraq sövdələşmə zamanı mala malik olmur. Bu sövdələşmə 6 aydan 14 ayadək müddətə malın xüsusiyyəti, o cümlədən malın istehsalının mövsümü

nəzərə alınaraq bağlanır. Müddətli sövdələşmələrin ləğv edilməsi üçün normativ müddətlər müəyyən edilir.

Qanuna görə birjanın əsas vəzifəsi birja ticarətinin həyata keçirilməsi üçün şərait yaratmaqdan, birja üzvlərinə və iştirakçılarına təşkilati və digər xidmətlər göstərməkdən, onların tələbi ilə birjada alqı-satqı obyekti olan real əmtəənin keyfiyyətinin ekspertizasını təşkil etməkdən ibarətdir.

Bu vəzifələri yerinə yetirmək üçün birja aşağıdakı hüquqlara malikdir:

- birja ticarətinin qaydalarını müəyyənləşdirmək;
- dövlət standartlarını nəzərə almaqla nümunəvi kontraktlar işləyib hazırlamaq;
- gün ərzində birja əqdlərinin qiyməti birja komitəsi (birja şurası) tərəfindən müəyyənləşdirilmiş həddən çox dəyişərsə, birja ticarətini müvəqqəti dayandırmaq;
- birja əqdlərində mübahisələri həll etmək üçün münsiflər məhkəməsi səlahiyyətində arbitraj komissiyası yaratmaq;
- digər birjalarda, o cümlədən xarici ölkə birjalarında öz nümayəndəsini saxlamaq;
- birja bülleteni və reklam informasiyaları dərc etdirmək.

Fond birjası müəyyən şəkildə təşkil olunmuş bazar olub, vasitəçi kimi çıxış edən birja üzvləri vasitəsilə qiymətli kağızların sahibləri alqı-satqı sövdələşmələri həyata keçirirlər.

Qiymətli kağızlar və fond birjaları haqqında Azərbaycan Respublikasının Qanunua görə fond birjası, qiymətli kağızların ticarəti, normal tədavülünün təmin olunması, onların məzənnəsinin (bazar qiymətinin) müəyyənləşdirilməsi və maraqlanan şəxslərin hamısının tanış olmasından ötrü dərc edilməsi üçün qiymətli kağız bazarının peşəkar iştirakçılarına lazımi şərait yaratmaq, qiymətli kağız bazarı iştirakçılarının fəaliyyətini

tənzimləmək məqsədilə yaradılan, hüquqi şəxs hüququna malik olan təşkilatdır.

Fond birjası qapalı səhmdar cəmiyyəti şəklində təsis edilməli və azı 10 üzvdən ibarət tərkibdə olmalıdır. Onun təsisçiləri ancaq hüquqi şəxslər ola bilər.

Birjanın təsis edilməsi şərtləri aşağıdakılardan ibarətdir:

- səhmdar cəmiyyəti qüvvədə olan qanunvericiliyə müvafiq surətdə qeydiyyatdan keçməli və öz funksiyalarını yerinə yetirmək hüququ üçün Maliyyə Nazirliyindən lisenziya almalıdır. Lisenziya verilməsi məsələsinə 30 gün ərzində baxılmalıdır:

- birjanın nizamnaməsi və qaydaları birjada qiymətli kağızlar bazarını nəzərdə tutmalı, bazar iştirakçıları arasında ədalətli rəqabət prinsiplərinə əməl olunmasını, birja üzvlərinin və qulluqçularının qanuna zidd hərəkətlərindən investorların qorunmasını təmin etməlidir.

Dövlət hakimiyyəti və idarəetmə orqanları, hüquq mühafizə orqanları, onların vəzifəli şəxsləri və mütəxəssisləri fond birjasının üzvü ola bilməzlər.

Fond birjası ticarət salonunda əqdlərin, əqdlər üzrə hesablaşmaların və uçotun həyata keçirilməsi qaydasını, birjanın fəaliyyəti ilə bağlı olan müxtəlif qaydaları və başqa sənədləri qiymətli kağızlar və fond birjaları haqqında Azərbaycan Respublikasının Qanununun tələblərinə müvafiq surətdə müstəqil hazırlayır və təsdiq edir.

Fond birjasının kommersiya fəaliyyəti ilə məşğul olmasına yol verilmir, onun fəaliyyəti mənfəət əldə etmək məqsədi güdmür və birja səhmdarlarına dividend ödənmir.

Fond birjası qiymətli kağızların öz auksionuna buraxılması və qiymətləndirilməsi qaydalarını hazırlayır və dərc edir. O, eyni zamanda qiymətli kağızların ticarətə buraxılması (listinq) və çıxarılması (delistinq) qaydalarını müəyyən edir.

Fond birjasının fəaliyyəti onun səhmlərinin birjaya üzv olmaq hüququ verən satışı, birjada həyata keçirilən hər əqddən alınan birja rüsumu və birjanın fəaliyyətindən götürülən başqa gəlirlər hesabına maliyyələşdirilir.

Qiymətli kağız mülkiyyət hüququnu və ya borc münasibətlərini ifadə edən pul sənədidir. Bütün qiymətli kağızlar iki növə bölünür: payçı və borc.

Payçı qiymətli kağızlar – səhmlər onların sahiblərinin real mülkiyyətdə payını əks etdirir. Səhm sahibinin əldə etdiyi gəlir dividend adlanır. Tədavülünün xarakterindən asılı olaraq səhmlər adlı və tələb edənə səhmlərinə bölünür. Tələb edənə səhmləri qiymətli kağızlar bazarında sərbəst dövr edə bilər. Adlı səhmlər isə ya tədavüldə iştirak etmir, ya da onun başqa sahibə keçməsi bu sövdələşmənin qeydiyyatı ilə əlaqədardır. Səhm gəlir götürmək və bir qayda olaraq səhmdar cəmiyyətinin idarə edilməsində iştirak etmək hüququ verir. Səhmdarların ümumi iclasında səslərin sayı səhmdarlarda olan səhmlərin sayına düz mütənasibdir.

Borc qiymətli kağızlar adətən onların sahiblərinə möhkəm, qeyd olunmuş gəlir - faiz stavkasını mənimsəmək və borc verdiyi məbləğin müəyyən müddətə qaytarılmaq hüququnu verir. Borc qiymətli kağızlara istiqrazlar, dövlətin xəzinədarlıq öhdəlikləri, depozit (əmanət) sertifikatları və veksellər daxildir.

İstiqraz – qiymətli kağız olub, qeyd olunmuş və ya sürüşkən faiz şəklində illik gəlir verməklə razılaşdırılmış müddətdə borcun nominal dəyərini kreditora ödəmək haqqında borclunun öhdəliyini əks etdirir. İstiqraz ciddi müəyyən olunmuş müddətdə fəaliyyət göstərir. Fəaliyyət müddətinə görə istiqrazlar adətən qısamüddətli (10 ilədək) və uzunmüddətli (10 ildən yuxarı) olur. İstiqrazları dövlət orqanları və müəssisənin yerli özünüidarə orqanları buraxa bilər. İstiqrazlar adlı və tələb edənə, sərbəst tədavül olunan və məhdud tədavül dairəsinə malik, faizli və faizsiz

(məqsədli) ola bilər. İstiqrazların ödənilməsi (satın alınması) illik tirajlarla həyata keçirilir.

Dövlət xəzinədarlıq öhdəlikləri onların sahibləri tərəfindən büdcəyə pul vəsaitlərinin ödənilməsini təsdiq edən qiymətli kağızlardır. Onlar müxtəlif müddətlər üçün buraxılır, onlara görə gəlirin ödənilməsi hər il kuponlar üzrə və ya faizlərin ödənilməsi yolu ilə öhdəliklərin ödənilməsi zamanı həyata keçirilir.

Depozit (əmanət) sertifikatı – pul vəsaitlərinin ödənilməsi haqqında kredit müəssisəsinin (bankın) yazılı şəhadətnaməsidir. Bu, əmanətçinin depoziti və müəyyən müddət keçəndən sonra ona görə faiz almaq hüququnu təsdiq edir. Sertifikatlar tələb edənə və adlı ola bilər.

Fond birjalarında həyata keçirilən sövdələşmələr kassa və müddətli olur. Kassa sövdələşməsinə görə hesablaşma bilavasitə onlar bağlandıqdan sonra həyata keçirilir. Kassa sövdələşməsinin yerinə yetirilməsi müddəti adətən 1-3 gün təşkil edir.

Müddətli sövdələşmələr üzrə qiymətli kağızları satıcı verir, alıcı isə dərhal deyil, müəyyən olunmuş müddət keçdikdən sonra onları ödəyir. Birjalarda sövdələşmənin ləğv edilməsi müddəti ayın son günü hesab olunur. Müddətli sövdələşmələr bir aydan bir neçə ayadək müddətə bağlana bilər. Öz növbəsində onlar möhkəm və şərti (mükafatlı sövdələşmə) olur. Sövdələşmənin birinci növünə görə müddət başa çatanadək tərəflər sövdələşmənin şərtlərini yerinə yetirməlidirlər.

Şərti (mükafatlı) sövdələşmələr nəzərdə tutur ki, tərəflərdən biri nəzərdə tutulmuş mükafatı ödəyərək sövdələşməni yerinə yetirməkdən imtina edə bilər. Alıcının belə davranışı onun alacağı qiymətli kağızların qiymətinin təyin edilməsi (kotirovkası) şərtlərinin dəyişilməsi ilə əlaqədardır.

Mükafatlı sövdələşmənin digər növü opsionlu sövdələşmədir. Bu halda müəyyən olunmuş müddətin

istənilən günü satıcıdan əvvəlcədən razılaşdırılmış qiymətlə müəyyən miqdarda səhmlərin alınması hüququnun alıcıya verilməsi mükafat sayılır.

22.3. Müəssisənin fəaliyyətində sığorta təşkilatlarının rolu

Sığortalaşdırma – xüsusi hadisələrin baş verməsi zamanı fiziki və hüquqi şəxslərin əmlak maraqlarının xüsusi yaradılmış pul fondları ilə müdafiəsi üzrə münasibətlərdir.

Sığortalaşdırma sahəsindəki münasibətlər «Sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Sığortalaşdırma iki tərəfin (və ya iki subyektin) iştirak etdiyi iqtisadi münasibətlərdir. Onlardan biri sığorta cəmiyyəti (xüsusi və ya dövlət) və ya sığortaçıdır. Onlar sığortalaşdırma şərtlərini hazırlayır və müştərilərinə – hüquqi və fiziki şəxslərə təklif edir. Əgər şərtlər müştəriləri qane edirsə, onlar müəyyən olunmuş formadakı müqaviləni imzalayır və müqaviləyə uyğun olaraq sığortaçıya pul formasında üzvlük haqqını müntəzəm ödəyirlər. Bu üzvlük haqlarından sığortaçıda xüsusi pul fondu yaranır.

Bu iqtisadi münasibətlərin digər tərəfi (subyekti) hüquqi və ya fiziki şəxslər, yəni sığorta olunanlardır.

Əgər sığorta halının (təbii fəlakət, bədbəxt hadisə və s) nəticəsində sığorta olunana zərər dəyərsə (iqtisadi və sağlamlığına), onda sığortaçı müqavilənin şərtlərinə görə sığorta əvəzini ödəyir.

Sığortaçı və sığorta olunan sığorta münasibətlərini xüsusi müqavilə ilə tənzimləyirlər. Dünya təcrübəsində bu müqavilə sığorta polisi adlanır. Həmin sənəd (adlı və ya tələb edənə) sığorta müqaviləsinin bağlandığını təsdiq edir və sığorta hadisəsinin baş verdiyi hallarda sığortaçının sığorta olunana müəyyən məbləğdə pulun ödənilməsinə dair öhdəliyi əks etdirir.

Sığortalanma müqaviləsinin bağlanması üçün (bu, həm sığorta polisi, həm də sığorta şəhadətnaməsi ola bilər) sığorta olunan sığortaçıya müəyyən sənədlər yığımını təqdim edir.

Sənədlərin təqdim edilməsinin əsas məqsədi sığorta riski dərəcəsinin müəyyən edilməsidir. Müştərini öyrəndikdən sonra sığortaçı sığorta məbləğinə faizlə sığorta mükafatını (haqqını) müəyyən edir. Bu haqq sığortalanma müddətindən asılı olaraq diferensiallaşdırılır.

Mükafat ödənildikdən sonra müqavilə qüvvəyə minir. Əgər sığorta müqaviləsinə görə nəzərdə tutulmuş məbləğdən az vəsait daxil olarsa, belə müqavilələr baş tutmamış hesab olunur. Ödənilmiş məbləğ isə sığortalanana qaytarılır.

Sığolrtalanmanın ən əhəmiyyətli anları aşağıdakılardır: sığortaçının üzərinə götürdüyü məsuliyyətin ölçüsü; sığorta hadisəsinin müəyyən edilməsi və zərərlərin ödənilməsi.

Sığorta müqaviləsində sığorta hadisəsinin baş verməsi haqqında sığorta təşkilatına ərizə ilə müraciət olunması müddətləri dəqiq müəyyən olunmalıdır. Adətən baş vermiş hadisə haqqında xəbər vermək üçün 5 günlük müddət nəzərdə tutulur. Sığorta ödənişinin ölçüsü kredit müqaviləsində müəyyən olunmuş müddətdə ödənilməmiş məbləğdən və sığortaçının məsuliyyətinin ölçüsündən asılı olaraq müəyyən edilir.

Sığortalaşdırma şərtləri zərərlərin ödənilməsi qaydasını nəzərdə tutur. Eyni zamanda sığorta təşkilatı sığorta ödənişlərinin ödənilməsindən imtina etmək hüququnu özündə saxlayır. Sığorta təşkilatı öz imtinasını aşağıdakılarla əlaqələndirir:

1) sığorta olunanın verdiyi məlumatların kifayət qədər əsaslandırılması;

2) sığorta olunanın sığortalanma şərtləri üzrə öz öhdəliklərini yerinə yetirməməsi. Müqavilənin bağlanması

anında həmin şərtlər sonrakı mübahisələrin qarşısını almaq üçün tərəflər dəqiq müəyyənləşdirilməlidir.

Ənənəvi sığortalaşdırma şəxsi, əmlak və mülki məsuliyyətin sığortalanmasına bölünür.

Şəxsi sığorta fiziki şəxslərin həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə bağlı olan əmlak mənafelərinin sığortasıdır. Sığorta məbləğini sığorta olunan sığortaçı ilə razılaşmaqla müəyyən edir.

Əmlak sığortası fiziki və hüquqi şəxslərin əmlakının, yaxud sahibkarlıq, bank və başqa kommersiya fəaliyyəti üçün risklə bağlı əmlak mənafelərinin sığortalanmasıdır.

Mülki məsuliyyət sığortası fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına, həmçinin hüquqi şəxsə sığorta olunanın vurduğu zərərin ödənilməsi ilə bağlı olan əmlak mənafelərinin sığortasıdır.

Sığortanın müxtəlif növləri müəssisənin təsərrüfat fəaliyyətində müxtəlif əhəmiyyətə malikdir.

Sığorta haqqı sığorta müqaviləsinə və ya qanuna uyğun olaraq sığorta olunanın sığortaçıya verməli olduğu pul məbləğidir.

Sığorta tarifi sığorta haqqının sığorta məbləği vahidindən götürülmüş dərəcəsidir. Könüllü sığorta zamanı sığorta tarifləri sığortaçı tərəfindən müstəqil hesablanır və sığorta müqaviləsində tərəflərin razılaşmasına əsasən müəyyənləşdirilir. İcbari sığorta zamanı sığorta tarifləri icbari sığorta haqqında qanunlarda müəyyən edilir.

Qanunun sığorta fəaliyyətinin əsaslarına həsr olunmuş bölməsində sığorta müqaviləsinin bağlanması, sığorta ödənişinin verilməsi, sığorta olunanın və sığortaçının vəzifələri kimi məsələlər öz əksini tapmışdır.

Sığorta müqaviləsinin bağlanması üçün sığorta olunan müqavilə bağlamaq niyyəti barədə sığortaçıya yazılı ərizə verir, yaxud şifahi bildirir. Müqavilə sığorta olunanın ilk sığorta haqqı ödədiyi andan qüvvəyə minir. Sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları əlavə

edilməklə, sığorta olunana müəyyənləşdirilmiş formada verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir.

Sığorta ödənişini sığortaçı sığorta müqaviləsinə və ya qanuna müvafiq surətdə sığorta olunanın ərizəsinə və sığorta aktına əsasən verir. Sığortaçının sığorta ödənişi verməkdən imtina etməsi üçün aşağıdakılar əsas ola bilər:

- sığorta olunanın və ya xeyrinə sığorta müqaviləsi bağlanmış başqa şəxsin sığorta hadisəsi yaranmasına yönəldilən qərəzli hərəkətləri və ya sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayətlər törətməsi;
- sığorta obyekti barəsində sığorta olunanın sığortaçıya qəsdən yanlış məlumat verməsi;
- sığorta olunanın əmlak sığortası üzrə zərərin əvəzini zərər dəyməsində təqsiri olan şəxsdən alması və s.

Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

- müqavilənin qüvvədə olduğu müddət qurtardıqda;
- sığortaçı sığorta olunanın qarşısında öz öhdəliklərini tamamilə yerinə yetirdikdə;
- qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, hüquqi şəxs ləğv edildikdə və ya fiziki şəxs vəfat etdikdə;
- məhkəmə sığorta müqaviləsinin etibarsız olduğu barədə qərar qəbul etdikdə və s.

Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermək barədə tərəflər bir-birini azı 30 gün əvvəl xəbərdar etməlidirlər.

Sığorta müqaviləsinə sığorta olunanın tələbi ilə vaxtından əvvəl xitam verildikdə sığortaçı çəkilmiş xərcləri çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır. Əgər bu tələb sığortaçının sığorta qaydalarını pozması ilə bağlıdırsa, o, sığorta haqlarını sığorta olunana bütünlükdə qaytarır.

Sığorta ödənişini müqavilədə müəyyən edilən müddətdə ödəmədikdə sığortaçı sığorta olunana ilk 5 gün

ərzində sığorta ödənişinin 0,2%-i məbləğində, sonra isə ötürülmüş hər bir gün üçün 1%-i məbləğində cərimə ödəyir.

Sığortalanmış əmlak satıldıqda, dəyişdirildikdə, bağışlandıqda, icarəyə verildikdə sığorta olunanın hüquq və vəzifələri sığortaçının razılığı ilə həmin əmlakı qəbul edən şəxsə keçir.

Qanuna görə sığortaçının maliyyə sabitliyinin əsasını onun ödənilmiş nizamnamə kapitalı, sığorta ehtiyatları və fondları, habelə təkrar sığorta sistemi təşkil edir.

Sığortaçılar qəbul etdikləri sığorta öhdəlikləri üzrə gözlənilən sığorta ödənişlərini təmin etmək üçün sığorta haqlarının hesabına sığorta ehtiyatları yaradırlar. Onlar vergiləri ödədikdən sonra qalan gəlir hesabına öz fəaliyyətini təmin etmək üçün əlavə fondlar yarada bilərlər. Sığorta ehtiyatlarının və fondlarının vəsaiti tutulub büdcəyə keçirilə bilməz.

Sığortaçılar öz ödəniş qabiliyyətini təmin etmək üçün təkrar sığortaya verdikləri məbləğləri çıxmaqla, aktivlərin məbləği ilə sığorta öhdəliklərinin məbləği arasında normativ nisbətləri gözləməlidirlər. Bu nisbətlərin hesablanması üsulunu və göstərilən məbləğlərin normativ miqdarını Dövlət Sığorta Nəzarəti müəyyən edir.

Sığortaçının öz vəsaiti və ehtiyatları hesabına öhdəlikləri yerinə yetirmək imkanı olmadıqda o, bu öhdəliklərin müvafiq hissəsinin təkrar sığorta yolu ilə yerinə yetirilməsini təmin etməyə borcludur. Əks təqdirdə sığortaçı göstərilən normativ nisbətləri gözləmək üçün ya nizamnamə kapitalını və ehtiyat fondunu tamamlamalı, ya da sığorta əməliyyatlarını müvafiq surətdə azaltmalıdır.

Azərbaycan Respublikasında sığorta fəaliyyətinə nəzarət Dövlət Sığorta Nəzarəti tərəfindən həyata keçirilir.

Müəssisələrdə yüklənib göndərilmiş məhsulun daşınması - müddəti üçün sığortalanmasından, kompensasiya sığortalanmasından, tibbi sığortadan və kreditin sığortalanmasından istifadə olunur.

Yüklənib göndərilmiş məhsul ya istehsalçı-müəssisənin özünün, ya da alıcının xahişi ilə sığortalanır. Bir qayda olaraq, sığorta məbləği malın nominal dəyərinə və ya nəqliyyat şərtləri mürəkkəb olduqda isə malın nominal dəyərindən 10-30% çox ola bilər.

Kompensasiya sığortalanması adətən istehsalatda bədbəxt hadisələr, ölüm və xəstəlik nəticəsində əmək qabiliyyətini qismən və ya tam itirdiyinə görə fəhlə və qulluqçulara müəyyən məbləği ödəmək üçün nəzərdə tutulur.

Fərdi sahibkarlar və kommersiya müəssisələri öz gəlirlərindən sığorta fonduna müəyyən məbləğ köçürürlər, lakin sığorta şirkətində müəssisə işçilərinin kompensasiya sığortasını təşkil etmək daha sərfəlidir. Sığortanın bu növündən istifadə müəssisənin müdiriyyətini əmək şəraitinin yaxşılaşdırılması, zədələrin və xəstəliklərin səviyyəsinin aşağı salınması üçün səmərəli tədbirləri tətbiq etməyə məcbur edir. Əgər əmək şəraiti müəyyən olunmuş standartlara, normalara və tələblərə cavab vermirsə, onda müəssisələr sığorta şirkətlərinə daha yüksək sığorta haqlarını ödəməli olacaqdır. Təbiidir ki, bu, müəssisənin maliyyə vəziyyətinin pisləşməsinə, bazarda rəqabət qabiliyyətinin aşağı düşməsinə gətirib çıxaracaqdır.

Tibbi sığorta fondunun vəsaitini müəssisələr tibbi sığorta polisi əsasında müəssisənin işçilərinə tibbi xidməti həyata keçirən müxtəlif müalicə müəssisələrinə yönəldirlər. Səhiyyə sahəsində sığorta adətən müəssisə işçisinin xəstəxanada olması, müalicə edən həkimlərin və cərrahiyyə əməliyyatlarının hesablarının ödənilməsi üzrə xərclərin böyük hissəsini ödəyir.

Kreditin sığortalanması könüllülük əsasında aşağıdakı formalarda həyata keçirilir:

- krediti ödəmədikdə borcalanın məsuliyyətinin könüllü sığortalanması;

- kreditin ödənilməməsi ilə bağlı riskin könüllü sığortalanması.

Birinci halda sığortaçı qismində borcalan çıxış edir. Bu halda sığortanın obyekti kredit aldığı bank qarşısındakı kreditin vaxtında və tam ödənilməsi haqqında borcalanın faizlər də daxil olmaqla öhdəliyidir. İkinci halda isə sığortaçı bank müəssisəsidir. Sığorta obyekti isə bank qarşısında bütün və ya ayrı-ayrı borcalanların krediti vaxtında və tam ödəməsi (kreditdən istifadə üçün faizlər də daxil olmaqla) üzrə məsuliyyətidir.

FƏSİL 24. MÜƏSSİSƏNİN KOMMUNİKASİYA SİYASƏTİ

24.1. Kommunikasiya siyasətinin əsas müddəaları

Kommunikasiya siyasəti qarşılıqlı informasiya fəaliyyətinin köməyilə müəssisənin xarici və daxili mühitinə təsir vasitəsi olub, tələbin formalaşmasına və satışın stimullaşdırılmasına yönəlmişdir.

Kommunikasiya siyasətinin müəssisə üçün əhəmiyyəti bazar həqiqətləri ilə müəyyən olunur. Dünya inkişafının müasir mərhələsində bazarın vəziyyətinin aşağıdakı xüsusiyyətləri qeyd olunur:

- bazarın yüksək dərəcədə zənginliyi. Burada tələb əsasən istehlak olunmuş malların dəyişdirilməsinin zəruriliyi ilə müəyyən olunur;
- prinsipcə yeni məhsulların yaradılması;
- keyfiyyətə və ya qiymətə görə məhsulların differensiallaşdırılmasını çətinləşdirən yüksək standatlar (məhsula verilən məcburi tələblər);
- müəssisələrin iqtisadi artımının zəruriliyi alıcıların səyləri və yığımları ilə ziddiyyət təşkil edir.

Kommunikasiya siyasətinin tədqiqinin və hazırlanmasının obyekti marketinq kommunikasiyalarıdır.

Marketinq tədqiqatları dedikdə, informasiya əlaqələri məcmusundan (bazar informasiya axtarışından, müəssisənin missiyasının seçilməsindən, bazarın seqmentindən, satış kanallarından, məhsulun reallaşdırılması üzrə optimal şərtlərin müəyyən edilməsindən tutmuş xüsusi reklama və müəssisənin və onun fəaliyyətinin müsbət surətinin yaradılmasına qədər) müntəzəm kombinələşdirilmiş istifadə başa düşülür.

Müasir müəssisə mürəkkəb marketinq kommunikasiyası sistemini ifadə edir (Şəkil 24.1.1).

Şəkil 24.1.1. Marketinq kommunikasiyaları sistemi

Müəssisənin vasitəçilərlə, istehlakçılarla, müxtəlif səviyyəli əlaqədar auditoriyalarla kommunikasiyası vardır. İstehlakçılar da xahişlər, şayiələr, bir-birilə və əlaqədar auditoriyalarla danışıqlar şəklində şifahi kommunikasiya rolunu oynayır. Eyni zamanda həmin zəncirdəki hər bir qrup kommunikasiyanın bütün digər iştirakçıları ilə əks kommunikasiya əlaqəsini saxlayır.

Məhsulun bazardakı uğuru məsələlər kompleksinin həlli ilə əldə edilir. Məhsulun yüksək keyfiyyəti, əla dizayn, səmərəli qiymət, malların yayılması üçün düşünülmüş şəbəkə məqsədli bazarın müəyyən hissəsində məhsulun yayılması və möhkəm yer tutması üçün hələ kifayət deyildir. Məhsulun üstünlüklərinin olmasına maksimal sayda istehlakçıları inandırmaq lazımdır. Bundan əlavə təklif edilən malın alınması üçün alıcıda fikir formalaşdırmaq və gücləndirmək lazımdır. Alıcıları məlumatlandırmaq, inandırmaq və onların meylini dəyişdirmək müəssisədə kommunikasiya siyasətinin məqsədləridir.

Bu məqsədləri əldə etmək üçün təşkilatlar kommunikasiyanın qeyri-şəxsi (reklam, ictimaiyyətlə əlaqə, satışın müdafiə edilməsi) və şəxsi (marketinq) vasitələrindən fəal istifadə edirlər.

Kommunikasiya prosesi müəyyən tərkib elementlərindən ibarətdir (Şəkil 24.1.2).

Şəkil 24.1.2. Kommunikasiya modeli

Kommunikasiyanın əsas iştirakçıları informasiyanı göndərən və onu alandır. Müraciət və informasiyanın yayılması vasitələri kommunikasiyanın alətidir. Kodlaşdırma, kodun açılması, cavab reaksiyası və əksrabitə kommunikasiya modelinin funksional təşkilediciləridir. Göndərən (mənbə) xəbəri göndərən tərəfdir. Kodlaşdırma fikirlərin simvollar formasında təsvir olunması prosesidir. Kodlar ideyanı alıcı üçün anlaşıqlı olan dilə keçirən simvollardır. Kodlar kimi şifahi və yazılı nitqin sözlərindən (leksika, temp, nitqin üslubu), vizual təsvirlərdən (adamlar, mallar) və onların hərəkətindən, səslərdən (melodiyalar, intonasiya, səsin tembri), rəngdən (parlaq, boğuq) və jestlərdən istifadə oluna bilər.

Müraciət – göndərənin ötürdüyü simvolların yığınıdır.

İnformasiyanın yayılması vasitələri – məlumatların göndərəndən alana ötürüldüyü kommunikasiya kanallarıdır.

Dekodlaşdırma (kodun açılması) – məlumatı göndərən simvollara alıcının qiymət verməsi prosesidir.

Məlumatı alan – xəbəri qəbul edən tərəfdir.

Cavab reaksiyası – müraciətlə kontakt nəticəsində alıcıda yaranan rəylər yığınıdır.

Əks rabitə – cavab reaksiyasının məlumatı alanın onu göndərənin nəzərinə çatdırdığı bir hissəsidir.

Maneələr – mühitin planlaşdırılmayan müdaxiləsinin və təhriflərin nəticəsində kommunikasiya prosesində baş verir.

Kommunikasiya modeli müvəffəqiyyətli kommunikasiya siyasətinin əsas amillərini müəyyən edir.

Təşkilatın tərəfdaşlarla, istehlakçılarla, işçi heyəti ilə optimal informasiya əlaqələrinin formalaşdırılması kommunikasiya planı əsasında həyata keçirilməlidir.

Kommunikasiyanın planlaşdırılması hərəkətlərin müəyyən ardıcıllığını əks etdirir (Şəkil 24.1.3).

Kommunikator işə başlayarkən kommunikasiyanın məqsədlərini dəqiq müəyyən etməlidir.

Kommunikasiyanın məqsədləri müəssisənin məqsədlərinin reallaşdırılmasını təmin etməlidir.

Malların potensial alıcıları, hazırda maldan istifadə edənlər, malların alınması haqqında qərar qəbul edən və ya onun qəbul edilməsinə təsir edən şəxslər məqsədli auditoriyanı təşkil edir. Sonra isə kommunikator məqsədli auditoriyanın gözlənilən cavab reaksiyasını öyrənməlidir. Müraciəti alıcıya etibarlı şəxs, daha doğrusu, peşəkarlıq və vicdanlılıq kimi xassələrə malik şəxs çatdırmalıdır. Nəhayət kommunikator əks rabitə kanalı ilə daxil olan

informasiyanı yığmalı və kommunikasiya proqramının səmərəliliyini qiymətləndirməlidir.

Şəkil 24.1.3. Kommunikasiyanın planlaşdırılması prosesi

24.2. Müəssisədə reklam fəaliyyətinin təşkili və onun səmərəliliyinin qiymətləndirilməsi

Reklam müəyyən sifarişçilər tərəfindən həyata keçirilən və şəxsi olmayan ideyanın, məhsulun və xidmətin təqdimatı və hərəkət etdirilməsinin pullu formasıdır.

Reklamın çox saylı tərifləri içərisində aşağıdakı tərif daha tam və dolğun olmaqla reklamın mahiyyətini bütünlükdə əks etdirir. Reklam – maliyyələşdirmə mənbəyinə malik olan, pullu informasiyanın qeyri-güc vasitələrinin köməyi ilə, məlum olan konkret sponsorun adından məhsulların (xidmətlərin, ideyaların) müsbət keyfiyyətlərinin istehlakçılara aşılanmasına və bunlara qarşı onlarda maraq və həvəsin oyadılmasına, həm də müəssisənin nüfuzunun artırılmasına istiqamətləndirilmiş fəaliyyətdir, kommunikasiya formasıdır [24].

Reklam təşkilatın məqsədlərinin əldə edilməsinə müəyyən töhvə verməlidir. Reklamın məqsədləri iqtisadi və qeyri-iqtisadi (kommunikativ) məqsədlərə bölünür. İqtisadi məqsədlər malların alınması ilə birbaşa əlaqədardır, kommunikativ məqsədlər buna müəyyən vasitələrlə yönəldilir. İqtisadi məqsədlərə satış həcminin, mənfəətin və bazarın payının dəyişilməsini aid etmək olar. Bununla əlaqədar olaraq həmin məqsədlər marketinqin bütün vasitələrinin kombinasiyası ilə əldə edilir. Fəaliyyətin son nəticələrində reklamın iştirakının payını ayırmaq çox çətindir.

Reklamın qeyri-iqtisadi məqsədlərinə daxildir: istehlakçıların məlumatlandırılması, müəssisənin yaradılması, malın əldə edilməsi marağının və fikirlərin yaranması.

Reklamın növləri onun qarşısında duran vəzifələrlə müəyyən edilir.

İnformasiya xarakterli reklam əsasən malın bazara çıxarılması mərhələsində üstünlük təşkil edir, çünki bu zaman ilkin tələbin yaradılması vəzifəsi qarşıda durur.

Nəsihətverici reklam istehsalın artımı mərhələsində xüsusi əhəmiyyət kəsb edir və seçmə tələbin formalaşmasına yönəlmişdir.

Xatırladıcı reklam yetkinlik mərhələsində vacibdir, çünki istehlakçıya malı xatırlatmaq lazımdır.

Sənaye təyinatlı malların reklamı istehlak mallarının reklamından təsir vasitələrinə, formalarına və metodlarına görə fərqlənir.

Bu fərqləri müəyyən edən amillər cədvəl 24.2.1.-də verilmişdir.

Cədvəl 24.2.1. Sənaye təyinatlı malların və istehlak mallarının reklamının xüsusiyyətləri

Amillər	Sənaye təyinatlı malların reklamı	İstehlak mallarının reklamı
1. Malın məqsədli auditoriyaya peşəkarlıqla tanıdılması	Məcburi	Qeyri-məcburi
2. Malın alıcıları	Az sayda	Çox sayda
3. Reklam müraciətlərinin ünvanları	Müxtəlif cinsli	Eyni cinsli
4. Mal nümunəsinin əsası	Faktiki istehlak xassələri	Simvol
5. Arqumentləşdirmənin üstün tipi	Səmərəli	Emosional
6. Reklam təsirinin əsası	İnandırma	Təminetmə
7. Malın alınması haqqında qərarın qəbul edilməsi	Kollektiv	Fərdi
8. Satın alma prosesi	Mürəkkəb	Nisbətən sadə

Ölkəmizdə müəssisələrin reklam siyasətinin hüquqi həddləri «Reklam haqqında» Azərbaycan Respublikasının Qanunu ilə reqlamentləşdirilir. Qanun istehlakçıların maraqlarını müdafiə etməklə yanaşı, vicdansız, yalan, qeyri-etik, qapalı və s. reklamı qadağan edir.

Təsirli, səmərəli reklam həmişə ciddi planlaşdırmanın nəticəsidir. Reklam kompaniyasının planlaşdırılması çoxpilləli prosesdir və kommunikasiyaların planlaşdırılmasının ümumi sxeminə uyğun olaraq həyata keçirilir (Şəkil 24.1.3).

Reklam kompaniyasının planlaşdırılmasının mühüm hissəsi reklam büdcəsinin planlaşdırılmasıdır. Reklam büdcəsinin müəyyən edilməsində iki fərdi yanaşmanı fərqləndirirlər: analitik və qeyri-analitik.

Qeyri-analitik metodlar təcrübəyə və ya qərarların qəbul edilməsinin sadələşdirilmiş qaydalarına əsaslanır. Buraya aşağıdakı metodlar daxildir:

1) əvvəlki il metodu. Bu metodun mahiyyəti ondadır ki, reklam büdcəsi ötən ilin səviyyəsində (inflyasiya nəzərə alınmaqla) müəyyən edilir;

2) maliyyə imkanları metodu. Bu halda reklam büdcəsi qalıq kəmiyyəti olub, bütün zəruri sayılan marketinq xərcləri ilə marketinqin ümumi büdcəsi arasındakı fərqi əks etdirir. Metod uzunmüddətli planlaşdırma ilə ziddiyyət təşkil edir və reklamın tam faydasızlığına gətirib çıxarır. Çünki müxtəlif vəziyyətlərdə müəyyən nəticəni əldə etmək üçün müxtəlif minimal reklam xərcləri lazımdır.

3) «dövriyyədən faizlərin» hesablanması metodu. Bu zaman satışın həcmi artdıqca reklam xərcləri də artır. Faizin kəmiyyəti, öz növbəsində, müəssisə üçün ənənəvidir, ya da fərdi qaydada müəyyən edilir. Metod məhsulun həyat tsiklinin mərhələlərini nəzərə almır və göstəricilərin qarşılıqlı əlaqəsi məntiqilə ziddiyyət təşkil edir. Həqiqətdə isə dövriyyə reklama deyil, məhz reklam dövriyyəyə təsir etməlidir.

4) rəqiblərlə paritet metodu göstərir ki, təşkilatlar büdcəni müəyyən etmək üçün miqyas kimi konkret olaraq müvafiq xərclərdən istifadə edirlər. Bu metodun nöqsanı

rəqiblər haqqında tam informasiyanın olmaması və bazardakı mövqeyinin zəif nəzərə alınmasıdır.

Biznes təcrübəsi göstərir ki, ABŞ, İngiltərə və AFR sahibkarlarının 80%-ə qədəri «dövriyyədən faizlər» metodundan istifadə edir. Bu ölkələrin müəssisələrinin 15%-ə qədəri qalıq prinsipinə üstünlük verir, 5%-i isə rəqəm modellərinə əsaslanan metodları tətbiq edirlər.

Qeyri-analitik metodlar planlaşdırmanı xeyli sadələşdirir. Lakin onların marketinqin məqsədləri ilə praktiki olaraq heç bir əlaqəsi yoxdur. Analitik metodlar və modellər bu nöqsanları aradan qaldırır.

Analitik yanaşma reklam büdcəsi ilə təşkilatın məqsədlərinin əldə edilməsi səviyyəsi arasındakı funksional asılılığa əsaslanır. Bu baxımdan Vayrfberq modeli reqressiya tənliyinin köməyilə reklam büdcəsinin kəmiyyətinin təşkilatın bazardakı payının dəyişilməsindən asılılığını tədqiq etməyə imkan verir. Bazarın payının (U) əldə edilməsi üçün lazım olan reklam büdcəsini (W) aşağıdakı düsturla hesablamaq olar:

$$W = tU \cdot W_K / U_K,$$

burada W - təşkilatın reklam büdcəsi;

t - müəssisənin satış həcmində reklam xərcləri payının rəqibin müvafiq göstəricisinə nisbəti;

U - təşkilatın bazarının payı;

U_K - rəqibin bazarının payı;

W_K - rəqibin reklam büdcəsidir.

«Məqsədlərdən və vəzifələrdən» asılı olaraq reklam büdcəsinin hesablanması metodundan istifadə zamanı əvvəlcə reklam şirkətinin məqsədləri xüsusiləşdirilir, sonra isə həmin məqsədlərin əldə edilməsi üçün lazım olan tədbirlər şərh edilir. Reklam büdcəsi bütün tədbirlər üçün xərclərin məbləği kimi müəyyən olunur.

Reklam büdcəsinin artırılması müəssisəyə imkan verir:

a) hakim qiymət zamanı daha çox **məhsul satmağa;**
b) həmin məhsulun həcmini daha **yüksək qiymətlə** satmağa;
c) daha yüksək qiymətlə daha çox **məhsul satmağa (24.2.1)**

Şəkil 24.2.1. Reklam hesabına tələb funksiyasının dəyişilməsi

Reklam büdcəsinin (W) artırılması hesabına tələb funksiyası sağa tərəf irəliləmişdir (Şəkil 24.2.2).

Şəkil 24.2.2. Təşkilatın birbaşa uyğunlaşması

Reklam büdcəsi nə qədər çox artarsa, reklam hesabına tələb funksiyasının irəliləyişi (dəyişilməsi) bir o qədər böyük olur. Məlumdur ki, hər bir tələb funksiyası üçün malın qiymətinin (P) və onun həcminin (X) maksimal mənfəətli kombinasiyası mövcuddur. Əgər tələb funksiyası dəyişilərsə, baxılan parametrlərin maksimal mənfəətli nisbəti də dəyişilir. Müxtəlif reklam büdcələri üçün malın qiyməti ilə miqdarının maksimal mənfəətli kombinasiyasının növbəliliyinə təşkilatın bazar konyukturasına birbaşa uyğunlaşması (A) kimi baxmaq olar (Şəkil 24.2.3).

Şəkil 24.2.3. Ümumi mənfəətin dinamikası

Lakin satışın əldə edilmiş funksiyasının sağ tərəfində yerləşən sonrakı hər bir kəmiyyətinin satışının maksimal mənfəətli həcmi yalnız böyük nisbətlərdə artan reklam büdcəsi ilə satıla bilər. Alıcıların sayı nə qədər çox olarsa əlavə bir alıcını qazanmaq bir o qədər çətin olur (Şəkil 24.2.4).

Bu halda reklam büdcəsinin optimallığı kriterisi kimi xalis mənfəətin maksimal kəmiyyəti, daha doğrusu, ümumi mənfəətin reklam xərclərindən çox olması götürülür. Maksimal xalis mənfəətə uyğun gələn satış həcmi qrafikdə ümumi mənfəət ilə (Şəkil 24.2.3) reklam xərcləri funksiyası (Şəkil 24.2.4) kimi təsvir oluna bilər. Malın miqdarı X_3

olduqda təşkilat maksimal xalis mənfəət əldə edir (Şəkil 24.2.5).

Şəkil 24.2.4. Reklam xərcləri funksiyası

Səmərəli reklam müraciəti diqqəti cəlb etməli, marağı saxlamalı, malı almaq arzusunu oyatmalıdır. Bunun üçün aşağıdakı ümumi qaydalardan istifadə olunur:

- reklam müraciəti marketinqin məqsədlərinə və strategiyasına tabe olmalıdır;

Şəkil 24.2.5. Xalis mənfəətin dinamikası

- reklam müraciəti alıcılara məhsulun faydasını açmalı və onu əsaslandırmalıdır. Reklam müraciəti

tələbatın təmin edilməsi baxımından məhsulun təkrar olunmazlığını ifadə etməlidir;

- reklam müraciəti müstəsna olan bir şeyi təklif etməlidir;

- reklam müraciətinin mətni parlaq, ifadəli, düzgün, ədəbli olmalı və ən mühüm arqumentləri əks etdirməlidir.

Reklam müraciətinə reklam şüarını (devizini) daxil etmək lazımdır. Reklam şüarında müəssisənin mövqeyi əks olunmalıdır, çünki bu, müəssisəni müştərilər üçün cəlbedici edir. Bir çox uğurlu reklam devizləri yaxşı məlumdur. Məsələn, «Tefal – sən həmişə bizim haqqımızda düşünürsən» (Tefal), «Etibar edə biləcəyiniz keyfiyyət» (Proktor ənd Qembl) və s.

Reklamın uğuru onun daşıyıcılarından da çox asılıdır. Reklamın yayımlanması vasitələri reklam müraciəti ideyalarının əşya transformasiyasından ibarətdir. Bu vasitələr məzmun (ifadəlilik) və formal (təsəvvür) komponentləri bir tam halında birləşdirir.

Reklamın yayımlanması vasitələrinin və daşıyıcılarının təsnifatı 24.2.2. cədvəlində verilmişdir.

Reklam şirkətinin strategiyası reklam büdcəsi hədlərində informasiyanın yayımlanması üçün səmərəli vasitələrin seçilməsini, onlardan müəyyən ardıcıllıqla və müəyyən vaxtlarda istifadə edilməsini nəzərdə tutur.

Bir çox sahibkarların reklam üçün çox yüksək xərcləri və təşkilat üçün onun əhəmiyyəti kommunikasiya siyasətinin bu vasitəsinin səmərəliliyinin yüksəldilməsini zəruri edir. Ona görə də reklamın səmərəliliyinin qiymətləndirilməsi və ona nəzarət sahəsində müəyyən çətinliklər yaradır. Müəssisə reklamdan hər şeydən əvvəl pozitiv iqtisadi nəticələri gözləyir. Reklamın iqtisadi nəticələri bazarın reaksiyasının modelləşdirilməsi əsasında müəyyən oluna bilər. Modelin asılı parametrləri kimi hər şeydən əvvəl dövriyyədən, mənfəətdən və bazarın payından istifadə olunur.

Cədvəl 24.2.2. Reklamın yayımlanmasının əsas vasitələri

Reklamın yayımlanması vasitələri	Reklam daşıyıcıları
1. Mətbuatda reklam	a) qəzetlər (beynəlxalq,milli və yerli yayım – populyar, ümumişgüzar,ixtisaslaşdırılmış); b) jurnallar (beynəlxalq, milli və yerli yayım – populyar, ümumişgüzar, ixtisaslaşdırılmış)
2. Çap reklamı	a) prospektlər, kataloqlar; b) sorğu kitabçaları; c) vərəqələr, informasiya məktubları; d) sair
3. Yayım vasitələri ilə reklam	a) radio (beynəlxalq, milli, yerli); b) televiziya (beynəlxalq, milli, yerli)
4. Poçt reklamı	a) çap reklam materiallarının poçtla göndərilməsi; b) video kassetlərin birbaşa poçtla göndərilməsi
5. Xarici reklam	a) iri ölçülü plakatlar; b) kiçik ölçülü plakatlar; c) qaz-işıq qurğuları
6. Kino reklamı	a) kino (video) filmlər b) slayd filmlər
7. Nəqliyyatda reklam	a) nəqliyyatın xarici səthində yazılar və lövhələr; b) salonlarda yerləşdirilmiş plakatlar və lövhələr
8. Satış yerlərindəki reklam	a) vitrinlər; b) diqqəti cəlb edən lövhələr, yazılar və işarələr; c) qablaşdırma, tara; d) etiketlər

Ekonometrik metodlar, xüsusilə statistik reqressiya modelləri daha geniş istifadə olunur. Bazarın reaksiyasının ən sadə funksiyası aşağıdakı kimidir:

$$X = a + bW,$$

burada X - asılı dəyişən (satış, bazarın payı);

W - reklam xərcləri;

a, b - funksional parametrlərdir.

Bu modelin nöqsanı ondadır ki, reklamın təsirinin vaxta görə dəyişməsini nəzərə almır.

Rəqiblərin təsirini nəzərə alan bazar reaksiyası funksiyası aşağıdakı şəkildədir:

$$X = X_0 + (X_t - X_o)[1 + (W_k / W)a],$$

burada X_0 - satışın reklamsız əldə edilən ölçüləri;

W_k - rəqiblərin reklam xərcləridir.

Bazar reaksiyasının dinamik modeli belə bir faktı nəzərə alır ki, reklam kompaniyasının başlanması ilə bir vaxtda satışın həcminin artımı başlanmır və bu kompaniyanın qurtarması ilə bir vaxtda başa çatmır. Reklamın ekonometrik tədqiqatlarında modelin aşağıdakı şəkli daha geniş yayılmışdır:

$$X_t = a + bW_t + CX_{t-1},$$

burada X_t - t dövründə asılı dəyişən (satış, bazarın payı);

W_t - t dövründə reklam xərcləri;

X_{t-1} - ötən dövrdə asılı dəyişənin qiyməti;

C - əvvəlki dövrlərdə reklam xərclərinin orta qiymətidir.

Reklamın qeyri-iqtisadi nəticələri yaddaqalmanın qiymətləndirilməsi əsasında müəyyən olunur. Reklam vasitələri ilə təmas şüurlu dərketmə halında baş verir. Bu cür dərketmə və alqı aktı vaxta görə ayrılır. Alqı zamanı davranışa təsir etmək üçün informasiya yadda qalmalıdır. Ona görə də yaddaqalma kommunikasiyanın müvəffəqiyyətinin mərkəzi göstəricisi hesab olunur. onu təyin etmək üçün tanınma və xatırlamaya əsaslanan metodlardan istifadə olunur.

Alıcılar reklam vasitələrinə müsbət yanaşdıqda (məsələn, kuponları, cavab poçt açıqçaları qaytarır və s.) reklamın səmərəsinə bölgü müvəffəqiyyətinin dəyişilməsi ilə nəzarət oluna bilər:

$$У = З / А,$$

burada $У$ - bölgünün müvəffəqiyyəti;

$З$ - müəyyən reklam vasitələri hesabına mal alınması üçün həvəsləndirilmiş adamların sayı (sifarişçilər);

$А$ - reklamın həmin vasitələri ilə əhatə olunmuş adamların sayıdır (ünvan).

Reklamdan əldə edilən gəlir bölgünün müvəffəqiyyəti ilə sıx əlaqədardır:

$$Д = П_з - Р_а,$$

burada $П_з$ - hər bir sifarişdən əldə edilən mənfəət;

$Р_а$ - hər bir ünvan üçün reklam xərcləridir.

Bölgünün kritik müvəffəqiyyəti halında $Д = 0$ olur. Deməli:

$$З / А = Р / П.$$

Bu, onu göstərir ki, bölgünün müvəffəqiyyəti xüsusi reklam xərcləri və xüsusi mənfəət nisbətindən çox olmalıdır.

Satışın dəstəklənməsi və ya satışın stimullaşdırılması malın (xidmətin) alınmasının və ya satışının həvəsləndirilməsi üçün qısamüddətli qıcıqlandırıcı tədbirlərdir.

Stimullaşdırmanın məqsədi potensial alıcının davranışını dəyişməkdir.

Stimullaşdırıcı təsir vasitələri aşağıdakı xarakteristikalara malikdir:

1. Cəlbedicilik və məlumatlılıq. Onlar diqqəti cəlb edir və adətən, istehlakçını mala yönəldə biləcək informasiyanı əks etdirir.

2. Malı almaq üçün qıcıqlandırma. O, istehlakçı üçün əhəmiyyətli olan güzəşti və yardımı nəzərdə tutur.

3. Alqının baş verməsinə dəvət. Bu, dərhal alqının həyata keçirilməsi üçün dəqiq təklifi əks etdirir.

Satışın dəstəklənməsi məqsədilə müxtəlif müsabiqələr və oyunlar təşkil edilir, alıcılara güzəştlər və prizlər verilir, kreditlə mal satılır, təminat imkanları yaradılır və s. Satışın dəstəklənməsi reklam ilə əlaqələndirildikdə daha böyük səmərə verir.

İctimaiyyətlə iş və ya pablik rileyşnz təşkilatla ictimaiyyət arasında xeyirxah münasibətlərin və qarşılıqlı anlaşmanın yaradılmasına və saxlanmasına yönəldilmiş uzunmüddətli planlaşdırılmış səylərdir. Qarşılıqlı fəaliyyətin obyekti təşkilatın daxili və xarici mühitidir (dövlət, yerli idarəetmə orqanları, malgöndərənlər, müştərilər, istehlakçılar ittifaqları, kütləvi informasiya vasitələri və s.).

Əgər təşkilat ictimaiyyətin onu maraqlandıran qruplarında özü və fəaliyyəti haqqında pozitiv təsəvvür yarada bilirsə, qarşıya qoyulmuş məqsədə daha asanlıqla çatmaq olar. Təşkilatda pablik rileyşnzin əsas istiqamətlərinə pablisiti, imicin yaradılması və saxlanması, böhran anında imicin qorunub saxlanması daxildir. Pablisiti – təşkilatın, onun heyətinin və fəaliyyətinin pozitiv məşhurluğunun və tanınmasının formalaşdırılmasıdır.

Təşkilatın ictimaiyyətlə iş metodları aşağıdakılardır: kütləvi informasiya vasitələri ilə münasibətlər, xüsusi tədbirlərdə iştirak etmək, ictimai həyatda iştirak etmək.

Birbaşa marketinq istehsalçılarla fərdi qaydada məlum olan istehlakçılar arasında uzunmüddətli, qarşılıqlı sərfəli və inkişaf etmiş tərəfdaşlığın yaradılmasından ibarətdir. Birbaşa marketinq konsepsiyası real və potensial istehlakçıların kommunikasiyaya cəlb edilməsi, əks rabitə kanalları vasitəsilə istehlakçılardan onların tələbatları, zövqləri haqqında informasiyanın alınması məqsədilə təşkilatın fəal və məqsədyönlü fəaliyyətini nəzərdə tutur. Birbaşa marketinqin əsas formalarına daxildir: mağaza ticarəti (kataloqlar üzrə və aşağı qiymətlərlə satış əsasında); fərdiləşdirilmiş və ya qeyri-maqazin ticarəti; şəxsi satış (satışın baş tutması məqsədilə potensial alıcı ilə söhbətin gedişində malın şifahi təqdimatı).

Müxtəlif mal bazarlarında kommunikasiya siyasəti vasitələrinin səmərəliliyi eyni deyildir. İstehlak mallarını buraxan firmalar, bir qayda olaraq, əvvəlcə reklama, sonra isə şəxsi satışa üstünlük verirlər. Sənaye təyinatlı malları

istehsal edən müəssisələr vəsaitlərin əsas hissəsini birbaşa marketinqə yönəldirlər, yerdə qalan hissəni isə stimullaşdırmaya, reklama və ictimaiyyətlə işə yönəldirlər.

Çoxillik tədqiqatlar və məşhur şirkətlərin təcrübəsi təsdiq edir ki, yalnız marketinq kommunikasiyasının bütün vasitələrinin məqsədli bazara kompleks təsiri strategiyası ən çox səmərə əldə etməyə və kommunikasiya siyasətinin məqsədlərinin az xərclərlə əldə edilməsinə imkan verir.

FƏSİL 25. İSTEHSALIN İQTİSADİ VƏ SOSİAL SƏMƏRƏLİLİYİ

25.1. İstehsalın iqtisadi səmərəliliyinin mahiyyəti, kriteriləri və göstəriciləri

Bazar iqtisadiyyatı mahiyyət etibarilə əmək məhsuldarlığının artımını, istehsalın səmərəliliyinin yüksəldilməsini stimullaşdıran vasitədir. Lakin belə bir şəraitdə də istehsalın səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərini, onun artımı amillərini və səmərəliliyin müəyyən edilməsi metodlarını təyin etmək çox vacibdir.

İctimai istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinin mühüm istiqamətlərini düzgün təyin etmək üçün səmərəliliyin kriterilərini və göstəricilərini müəyyən etmək lazımdır.

İctimai istehsalın iqtisadi səmərəliliyinin ümumiləşdirici kriterisi kimi ictimai əmək məhsuldarlığının səviyyəsi götürülür.

İctimai əmək məhsuldarlığı (P_{ict}) yaradılmış milli gəlirin (MG) maddi istehsal sahələrində çalışan işçilərin orta sayına (C_m) nisbəti ilə ölçülür:

$$P_{ict} = MG/S_m .$$

Məlumdur ki, milli gəlir maddi istehsal sahələrində yeni yaradılmış dəyəri əks etdirir. Başqa sözlə, o, ümumi ictimai məhsuldan istehsal prosesində istehlak olunmuş xammal, yanacaq, enerji və digər istehsal vasitələri çıxıldıqdan sonra yerdə qalan hissədir. Milli gəlir bütün maddi istehsal sahələrinin xalis məhsulu kimi hesablanır. Öz növbəsində ayrıca bir sahənin xalis məhsulu ümumi məhsulla maddi istehsal məsrəfləri arasındakı fərq kimi müəyyən edilir.

Maddi istehsalın müəyyən sahələrində məhsuldarlıq ümumi məhsula görə hesablanır. İctimai əmək

məhsuldarlığının artım sürətləri müqayisə edilərkən göstəricilərin müqayisə olunanlığını gözləmək lazımdır. Bu halda milli gəliri müqayisə olunan qiymətlərlə hesablamaq lazımdır.

İctimai istehsalın iqtisadi səmərəliliyinin mühüm göstəricilərinə əməktutumu, materialtutumu, kapitaltutumu və fondtutumu daxildir.

Məhsulun əməktutumu canlı əməyin məhsuldarlığı göstəricisinə tərs kəmiyyətdir və maddi istehsalda sərf olunmuş əməyin (T) istehsal olunmuş məhsulun ümumi həcminə (Q) nisbəti kimi müəyyən edilir:

$$t = T/Q,$$

burada t - məhsulun əməktutumudur.

İctimai məhsulun materialtutumu xammal, material, yanacaq, enerji və digər əmək predmetləri xərclərinin ümumi ictimai məhsula nisbəti kimi hesablanır. Sahənin məhsulunun materialtutumu maddi məsrəflərin (M) buraxılmış məhsulun ümumi həcminə (O) nisbəti kimi müəyyən edilir:

$$m = M/O,$$

burada m - məhsulun materialtutumudur.

Materialtutumunun aşağı salınması bütün xalq təsərrüfatı üçün sərfəlidir. Çünki sənaye məhsulunun maya dəyərinin 3/5 hissəsini xammalın, əsas və köməkçi materialların, yanacağın və enerjinin dəyəri təşkil edir.

Məhsulun kapitaltutumu və fondtutumu göstəriciləri müəyyən dərəcədə bir-birinə yaxındır. Məhsulun kapitaltutumu göstəricisi kapital qoyuluşu məbləğinin buraxılan məhsulun həmin qoyuluş hesabına artımına nisbəti kimi hesablanır:

$$K_Q = K/\Delta Q,$$

burada K_Q - məhsulun kapital tutumu;

K - kapital qoyuluşlarının ümumi həcmi;

ΔQ - buraxılan məhsulun həcminin əlavə artımıdır.

Kapitaltutumunu yaradılmış milli gəlirin əlavə artımına nisbəti kimi də hesablamaq olar.

Məhsulun fondtutumu əsas istehsal fondlarının orta dəyərinin istehsal olunmuş məhsulun ümumi həcminə nisbəti kimi hesablanır:

$$f = F / Q,$$

burada F - əsas istehsal fondlarının orta dəyəri;

Q - istehsal olunmuş məhsulun ümumi həcmidir.

Fondtutumunu da milli gəlirə nisbəti kimi hesablamaq olar.

Xalq təsərrüfatında, onun ayrı-ayrı sahələrində, o cümlədən sənayedə fondverimi göstəricisindən də istifadə olunur. O, fondtutumunun tərsi olub, istehsal olunmuş məhsulun əsas istehsal fondlarının dəyərinə nisbəti kimi hesablanır.

25.2. Xərclərin ümumi və müqayisəli səmərəliliyi

Yuxarıda baxdığımız göstəricilər məhdud istifadə xarakterindədir. Bütün onlar istehsal və xərclərin iqtisadi səmərəliliyi haqqında tam, hərtərəfli təsəvvür yaratmır, yalnız müəyyən növ resurslardan istifadəni xarakterizə edir.

Xərclərin ümumi səmərəliliyi haqqında tam təsəvvür yaratmaq üçün dəyər və natural göstəricilərin ümumiləşdirilmiş xarakteristikası lazımdır. Bu məqsəd üçün xərclərin ümumi və müqayisəli iqtisadi səmərəlilik göstəricilərindən istifadə olunur.

Planlaşdırmada və layihələndirmədə ümumi iqtisadi səmərəlilik səmərənin kapital qoyuluşlarına nisbəti kimi, müqayisəli iqtisadi səmərəlilik isə cari xərclərin fərqinin variantlar üzrə kapital qoyuluşlarının fərqinə nisbəti kimi müəyyən olunur. Ümumi və müqayisəli səmərəlilik göstəriciləri bir-birini tamamlayır. Xərclərin ümumi iqtisadi

səmərəliliyi xərclərin tətbiqi yeri nəzərə alınmaqla hesablanır. Xalq təsərrüfatı üzrə xərclərin ümumi iqtisadi səmərəliliyi yaradılmış milli gəlirin (müqayisəli qiymətlərlə) əlavə artımının (ΔMG) həmin əlavə artımı yaratmış istehsal kapital qoyuluşuna (K) nisbəti kimi müəyyən edilir:

$$Э_{xm} = \Delta MG / K.$$

Xalq təsərrüfatı kompleksləri, ayrı-ayrı sahələr, eləcə də əsas fondların təkrar istehsalının formaları (texnika ilə yenidən silahlandırma, müəssisə və təşkilatların yenidən qurulması və genişləndirilməsi) üzrə xərclərin ümumi iqtisadi səmərəliliyi mənfəətin (istehsal xərclərinin aşağı salınmasının) və ya təsərrüfat hesablı gəlirin əlavə artımının ($\Delta\Pi$) kapital qoyuluşlarına nisbəti kimi hesablanır:

$$Э_{nn} = \Delta\Pi / K.$$

Yeni tikilən müəssisələr, sexlər, başqa obyektlər və ayrı-ayrı tədbirlər üzrə səmərəlilik göstəricisi ($Э_n$) planlaşdırılan mənfəətin kapital qoyuluşlarına (smeta dəyərinə) nisbəti kimi hesablanır:

$$Э_n = (\Gamma - M) / K,$$

burada K - tikilməkdə olan obyektin tam smeta dəyəri (layihə üzrə);

Γ - layihə üzrə müəssisə topdan satış qiymətlərilə illik məhsul buraxılışı;

M - tikintini tam başa çatdırdıqdan sonra və istifadəyə verilmiş güclərin mənimsənilməsindən sonra illik məhsul buraxılışının istehsal xərcləridir (maya dəyəridir).

Hər bir halda ümumi iqtisadi səmərəliliyin hesablanması nəticəsində əldə edilmiş göstəricilər normativ göstəricilərlə və əvvəlki dövrlərin oxşar göstəriciləri ilə, eləcə də digər müəssisə və firmalarda istehsalın səmərəliliyi göstəriciləri ilə müqayisə edilir.

Təsərrüfat və ya texniki qərarların, müəssisələrin və onların komplekslərinin yerləşdirilməsinin, yeni müəssi-

sələrin tikilməsi və ya mövcud müəssisələrin yenidən qurulması variantlarının müqayisəsi, qarşılıqlı əvəz olunan məhsulların seçilməsi, yeni texnika növlərinin tətbiqi və s. hallarda xərclərin müqayisəli iqtisadi səmərəlilik göstəriciləri hesablanır. Müqayisəli iqtisadi səmərəliliyin hesablanması nəticəsində müəyyən olunan ən optimal variant gətirilmiş xərclərin minimumudur.

Hər bir variant üzrə gətirilmiş xərclər cari xərclərin (maya dəyərinin) və kapital qoyuluşlarının səmərəlilik normativinə uyğun olaraq eyni ölçüyə gətirilmiş məbləğindən ibarətdir:

$$GX_i = M_i + E_H K_i \rightarrow \min,$$

burada M_i - i-ci variant üzrə cari xərclər (maya dəyəri);

K_i - i-ci variant üzrə kapital qoyuluşları;

E_H - kapital qoyuluşlarının müqayisəli iqtisadi səmərəliliyinin normativ əmsalıdır. Bütünlükdə xalq təsərrüfatı (iqtisadiyyat) üzrə bu əmsal $E_{XT} = 0{,}16$, ayrı-ayrı sahələr və rayonlar üzrə isə o, müxtəlif ola bilər. Belə diferensiallaşdırma elmi-texniki tərəqqini həvəsləndirmək, əmək haqqının zona və sahə üzrə səviyyələrini, qiymətlərin səviyyələrindəki fərqləri, tikinti proqramlarının müddətlərini və rayon fərqlərini nəzərə almaq üçün lazımdır.

Xərclərin həyata keçirilməsinin ayrı-ayrı mərhələləri və istiqamətləri üzrə səmərəliliyin təyin edilməsinin xüsusiyyətlərini qeyd etmək lazımdır. Məsələn, maddi istehsalın təkmilləşdirilməsinə yönəldilmiş elmi-tədqiqat və layihə-konstruktor işlərinin maddi-texniki bazasının yaradılması üçün xərclərin səmərəliliyi qiymətləndirilərkən iqtisadi nəticələrlə yanaşı, sosial və ekoloji nəticələr də aşkar edilir. Belə nəticələri dəyər ifadəsində tam əks etdirmək mümkün deyildir və aşağıdakıları əhatə edə bilər: ağır fiziki əməyin ləğv edilməsi, əmək şəraitinin hərtərəfli sağlam-

laşdırılması və yüngülləşdirilməsi; texniki təhlükəsizlik səviyyəsinin yüksəldilməsi, istehsalat zədələrinin və peşə xəstəliklərinin aradan qaldırılması; işləyənlərin əmək və məişət şəraitlərinin yaxşılaşdırılması; ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması; elmi-texniki tərəqqinin, eləcə də bazara keçidin sürətləndirilməsinin bütün əmək qabiliyyətli əhalinin optimal məşğulluğu ilə əlaqələndirilməsi.

Məqsədli kompleks proqramlar üzrə xərclərin səmərəliliyi müəyyən edilərkən ümumi səmərəlilik və ayrı-ayrı tədbirlərin və tapşırıqların səmərəliliyi hesablanır. Bu halda ümumi səmərəlilik göstəriciləri səmərənin alınmasının və xərclərin həyata keçirilməsinin hesabi dövrlərindən asılı olaraq müəyyən edilir. Son nəticəsi xalq təsərrüfatı üzrə son məhsulun əlavə artımı olan məqsədli kompleks proqramlar üzrə isə mühüm səmərəlilik göstəricisi proqramın dəyər və ya natural ifadədə son nəticəsinin proqramın yaradılması üçün çəkilmiş tam xərclərə nisbətidir.

Əsas fondların təkrar istehsalının ən səmərəli formaları olan texnika ilə yenidən silahlandırma və yenidənqurma üçün xərclərin səmərəliliyi hesablanarkən əlavə göstəricilər kimi aşağıdakılar tətbiq olunur: işləyənlərin şərti azad olunması; maddi və yanacaq-enerji resurslarına qənaət. Mövcud müəssisələrin genişləndirilməsi zamanı yeni tikinti üçün xərclərin səmərəliliyi mövcud müəssisələrin texnika ilə yenidən silahlandırılması və yenidən qurulmasının səmərəliliyi ilə müqayisəli şəkildə hesablanmalıdır. Bu halda sosial infrastruktur obyektlərinin yaradılması üçün xərclər də daxil olmaqla bütün xərclərin cəmi nəzərə alınır. Eyni zamanda mövcud müəssisələrin texnika ilə yenidən silahlandırılması və yenidən qurulması ilə müqayisədə vaxt itkiləri də nəzərə alınmalıdır. Yeni tikinti və ya mövcud müəssisələrin genişləndirilməsi üzrə tədbirlərin sosial nəticələri (əmək şəraitinin yaxşılaşması və

yüngülləşməsi, ətraf mühitin çirklənməsinin qarşısının alınması və s.) qiymətləndirilir.

Ölkənin xalq təsərrüfatında istehsal infrastrukturu mühüm yer tutur. Buraya nəqliyyat və rabitənin, elektrik, qaz, neft və su təchizatı, maddi-texniki təminat sistemlərinin bütün növlərdən olan obyektləri daxildir. İnformasiyanın işlənməsi və hesablama texnikası sistemləri, mühəndis şəbəkələri və kommunikasiyaları kompleksləri də buraya daxildir.

İstehsal infrastrukturunun inkişafı üçün xərclərin səmərəsi kimi istehsal səmərəsi, eləcə də xalq təsərrüfatında əldə edilən səmərə götürülür. Buraya daxildir: infrastruktura sahələrinin inkişafı nəticəsində maddi istehsalın baza sahələrinin inkişafı üçün xərclərin aşağı salınması; istehsalın kooperativləşdirilməsi və ixtisaslaşdırılmasının yaxşılaşdırılması; rabitə və informasiyanın işlənməsi vasitələri ilə təminat hesabına istehsalın idarə edilməsinin etibarlılığının və operativliyinin yüksəlməsi; dövriyyə vəsaitlərinin və maddi resursların dövretməsinin sürətləndirilməsi və bunun nəticəsində baza sahələrində ehtiyatların ixtisar edilməsi; infrastrukturun təsiri ilə baza sahələrində məhsulun maya dəyərinin aşağı salınması; materialların və avadanlığın itkilərinin, eləcə də hər cür maddi ziyanın azaldılması və ləğv edilməsi; əhaliyə xidmətlərin çeşidinin genişləndirilməsinə, xidmətin keyfiyyətinin və mədəniyyətinin yaxşılaşdırılmasına, əhalinin vaxtına qənaət edilməsinə və digər sosial iqtisadi nəticələrə infrastruktur sahələrin təsiri şəklində sosial səmərə.

Qeyri-istehsal sferasına xərclərin səmərəliliyini qiymətləndirərkən əldə edilən sosial və iqtisadi nəticələr həmin nəticələrin əldə edilməsi üçün lazım olan xərclərlə müqayisə edilir.

Nəhayət, təbiəti mühafizə obyektlərinə xərclərin iqtisadi səmərəliliyi təbiətin təbii (ilkin) vəziyyətinin

saxlanması (yeni rayonlar mənimsənilərkən), ətraf mühitin ekoloji vəziyyətinin yaxşılaşdırılması və onun çirklənməsindən zərərlərin azaldılması (mənimsənilmiş rayonlarda) eləcə də təbiəti mühafizə obyektlərinin yaradılması və inkişafı üçün xərcləri nəticəsində əldə edilmiş təbiəti mühafizə səmərəsinin ölçülməsi ilə müəyyən edilir.

Xərclərin həm ümumi, həm də müqayisəli iqtisadi səmərəliliyi yuxarıdakı ümumiləşdirici göstəricilərlə məhdudlaşmamalıdır. Xərclərin iqtisadi səmərəliliyinin hərtərəfli əsaslandırılması və təhlili, yekun qərarlar qəbul edilərkən onların səmərəliliyinin yüksəldilməsi ehtiyatlarının aşkar edilməsi üçün əldə edilən səmərənin ayrı-ayrı tərəflərini xarakterizə edən əlavə göstəricilərdən də istifadə edilməlidir. Belə göstəricilərə aşağıdakıları aid etmək olar: əmək məhsuldarlığı, fondverimi, xüsusi kapital qoyuluşları, xammal, material, yanacaq, enerji resurslarına qənaət, istehsal xərclərinin aşağı salınması, sosial nəticələr.

Bazar iqtisadiyyatı şəraitində müəssisələrin, firmaların təsərrüfat fəaliyyətinin qiymətləndirilməsinin əsas kriterisi kimi mənfəət və fondlara görə hesablanmış rentabellik götürülür. Sivil bazar münasibətləri formalaşdıqca, defisit və ayrı-ayrı istehsalçıların inhisarı ləğv edildikcə müəssisələrdə mənfəətin artırılmasının bir yolu qalacaqdır – məhsul buraxılışının həcminin artırılması və onun istehsalı üçün xərclərin aşağı salınması.

25.3. İstehsalın səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri

Bazar münasibətlərinə keçid iqtisadiyyatda dərin dəyişiklikləri tələb edir. İstehsalın intensivləşdirilməsinə, hər bir müəssisənin, təşkilatın və firmanın iqtisadi artımın keyfiyyət amillərindən tam və ilk növbədə istifadəyə səmtləndirilməsinə sərt dönüşünü həyata keçirmək lazımdır. Hərtərəfli inkişaf etmiş məhsuldar qüvvələrə və istehsal

münasibətlərinə, yaxşı nizamlanmış təsərrüfat mexanizminə malik yüksək mütəşəkkil və səmərəli iqtisadiyyata keçid təmin olunmalıdır.

İstehsalın səmərəliliyinin yüksəldilməsi amilləri kimi aşağıdakıları göstərmək olar:

1. Elmi-texniki tərəqqi. Son dövrlərə qədər ETT demək olar ki, təkamül yolu ilə getmişdir. Mövcud texnologiyaların təkmilləşdirilməsinə, maşın və avadanlığın qismən modernləşdirilməsinə üstünlük verilirdi. Belə tədbirlər müəyyən, lakin əhəmiyyətsiz səmərə verirdi.

Yeni texnikanın yaradılması və tətbiqi üçün kifayət qədər maraq yox idi. Müasir bazar münasibətləri şəraitində inqilabi, keyfiyyət dəyişiklikləri - prinsipcə yeni texnologiyalara, ən yeni texnikaya keçid lazımdır. Daha doğrusu, elm və texnikanın ən yeni nailiyyətləri əsasında xalq təsərrüfatının bütün sahələrinin tamamilə yenidən silahlandırılması lazımdır.

2. Qənaət rejimi. Resursu mühafizə yanacağa, enerjiyə, xammala və materiallara artan tələbatın təmin edilməsinin həlledici amilinə çevrilməlidir. Bu məsələlərin həllində sənaye mühüm rol oynayır. Konstruksiya və digər materiallardan, xammaldan, yanacaq-enerji resurslarından yüksək səmərə ilə istifadə olunmasına imkan verən maşın və avadanlığı yaratmaq və onunla xalq təsərrüfatını təchiz etmək, aztullantılı və tullantısız texnoloji proseslərin yaradılması və tətbiqini təmin etmək lazımdır.

3. İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi. Elmi-texniki tərəqqini və sosial məsələlərin həllini təmin edən sahələri inkişaf etdirmək, istehsal vasitələri istehsalı ilə istehlak şeyləri istehsalı arasında, aqrar-sənaye kompleksinin sahələri arasında nisbətlərin yaxşılaşdırılmasına çalışmaq lazımdır.

4. İdarəetmə də daxil olmaqla təşkilati-iqtisadi amillər. İctimai istehsalın miqyaslarının artması və təsərrüfat əlaqələrinin mürəkkəbləşməsi ilə onların rolu

xüsusilə artır. Hər şeydən əvvəl istehsalın təşkilinin səmərəli formalarının (təmərküzləşmə, ixtisaslaşma, kooperativləşdirmə və kombinələşdirmə) inkişafı və təkmilləşdirilməsi çox vacibdir.

5. İstehsal-sosial infrastrukturanın daha da inkişafı və təkmilləşdirilməsi. Bu, istehsalın səmərəliliyi səviyyəsinə əhəmiyyətli təsir edir.

6. İnvestisiya siyasəti kapital qoyuluşlarının səmərəliliyinin yüksəldilməsini təmin etməlidir. Sosial tələbatı, elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə vəsaitin yenidən bölüşdürülməsi həyata keçirilməlidir. Yeni tikintiyə nisbətən mövcud müəssisələrin texnika ilə yenidən silahlandırılmasına və yenidən qurulmasına daha çox vəsait yönəldilməlidir.

7. Səmərəli təsərrüfatçılıq, resursu mühafizə texnikasının və texnologiyasının yaradılması və tətbiqi məsələlərinin həllində elm böyük rol oynamalıdır. İstehsalın əmək tutumunun, materialtutumunun və enerjitutumunun azaldılması, qənaət rejiminin güclənməsi və məhsulun keyfiyyətinin yüksəldilməsi məqsədilə elmi-texniki tərəqqinin sürətləndirilməsinin aktual problemləri üzrə fundamental və tətbiqi tədqiqatlar fəallaşdırılmalıdır.

Bazar münasibətlərinin formalaşması şəraitində istehsalın səmərəliliyinin yüksəldilməsinin bütün amillərinin təsiri imkanları əhəmiyyətli dərəcədə genişlənir. Xalq təsərrüfatının strukturu yenidən qurulur. Bütün bunların nəticəsində tənzimlənən, sivil bazar təsərrüfatı formalaşır.

Tövsiyyə olunan ədəbiyyat siyahısı

Azərbaycan dilində:

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı, 2000.
2. Azərbaycan Respublikası 1991-2001. Bakı, XXİ-Yeni Nəşrlər Evi, 2001.
3. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2000 və 2001.
4. Banklar və bank fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
5. Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1993.
6. Əmtəə birjası haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
7. Əhalinin məşğulluğu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1991.
8. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
9. İcarə haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992.
10. Qiymətli kağızlar və fond birjaları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
11. Lizinq xidməti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
12. Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında Əsasnamə. Bakı, 1996.
13. Müəssisələr haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
14. Mülkiyyət haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1991.
15. Müflisləşmə və iflas haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
16. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1991.
17. Səhmdar cəmiyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.

18. Sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1993.
19. Abbasov F.H., Quliyev R.A. Sahibkarlığın əsasları. Bakı, 1995.
20. Azərbaycanın iqtisadiyyatı. Bakı, Ağrıdağ, 1998.
21. Aslanzadə İ.A. İnvestisiya layihələrinin təşkili və idarə olunması. Bakı, Çaşıoğlu.2000.
22. Cümşüdov S.Q. Avtomobil nəqliyyatının iqtisadiyyatı., Bakı. Maarif, 2000.
23. Axundov Ş.Ə., Axundov M.Ə. Bazar iqtisadiyyatının əsasları. Bakı, Əbilov, Zeynalov və oğulları, 2001.
24. Axundov Ş.Ə. Marketinqin əsasları. Bakı, Əbilov, Zeynalov və oğulları, 2001.
25. Əlirzayev Ə.Q. Azərbaycan iqtisadi inkişafının konsepsiyası və proqramı. Bakı, 1999.
26. Əlirzayev Ə.Q. İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar. Bakı, Elm, 1997.
27. Əliyev T.N. Menecmentin iqtisadi və təşkilati mexanizmi. Bakı, 1995.
28. Həsənov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı. Elm, 1998.
29. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Bakı, Azərnəşr, 2000.
30. Quliyev T.Ə. Menecmentin əsasları. Bakı, Nağıl evi, 2001.
31. Məmmədov F.Ə., Musayev A.F. və b. Vergitutmanın nəzəri və metodoloji əsasları. Bakı, «Ozan», 2001.
32. Musayev V.R., Seyfullayev İ.Z. Sahibkarlığın əsasları. Bakı, 2000.
33. Novruzov V.T. və b. Audit. Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2001.

34. Rəhimov M. Azərbaycan Respublikasında iqtisadi inkişafı tənzimləyən qanunlar (1991-1995-ci illər). Bakı, 1996.
35. Səmədzadə Ş.Ə. Cəmiyyət və kompüterləşdirmə. Bakı, Azərnəşr, 1992.
36. Tağıyev A.H. Bazar iqtisadiyyatının əsasları. Bakı, Maarif, 2000.
37. Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti. Bakı, Elm, 2000.
38. Yahudov X.M. «Sənaye istehsalının təşkili, planlaşdırılması və idarə edilməsi» fənnindən praktikum. Bakı, Elm, 1997.
39. Yahudov X.M. Maşınqayırma müəssisələrinin idarə edilməsinin təşkili. Bakı, AzTU, 1996.

Rus dilində:

1. Агаев Г.С. Конкуренция: анализ, стратегия, практика. М., 1996.
2. Ахундов М.А. Машиностроительный комплекс: Проблемы управления и развития. М., Машиностроение, 1991.
3. Внешнеэкономическая деятельность предприятия (под ред. Л.Е.Стровского). М., Закон и право, ЮНИТИ, 1996.
4. Ворст И., Ревентлоу П. Экономика фирмы. М., Высшая школа, 1994.
5. Герчикова И.Н. Менеджмент (3-е изд.). М., Банки и биржи, 1997.
6. Герчикова И.Н. Практикум по менеджменту. М., Банки и биржи, 1998.
7. Глухов В.В. Экономика малого предприятия. СПб., «Специальная Литература» 1997.
8. Гончаров В.В. Новые прогрессивные формы организации в промышленности. М., МНИИПУ, 1998.
9. Грузинов В.П., Грибов В.Д. Экономика предприятия. Изд. 2-е, М., Финансы и статистика, 2001.

10. Грузинов В.П. Экономика предприятия и предпринимательства. М., СОФИТ, 1999.
11. Грузинов В.П. и др. Экономика предприятия. М., Банки и биржи. ИНФРА-М, 1998.
12. Жиделева В.В., Каптейн Ю.Н. Экономика предприятия. 2-е изд. М., ИНФРА-М, 2000.
13. Зайцев Н.Л. Экономика промышленного предприятия. М., ИНФРА-М, 1998.
14. Зайцев Н.Л. Экономика организации. М., «Экзамен», 2000.
15. Казаков А.П., Минаев Н.В. Экономика. М. Изд. ЦИПКК АП, 1996.
16. Кейлер В.А. Экономика предприятия. Курс лекций. М., ИНФРА-М, 1998.
17. Клод Менар. Экономика организаций. М., ИНФРА-М, 1996.
18. Кныш М.И. и др. Стратегическое планирование инвестиционной деятельности. СПб, Изд.Дом «Бизнес-Пресса», 1998.
19. Ковалев Г.Д. Основы инновационного менеджмента. М., ЮНИТИ-ДАНА, 1999.
20. Кожекин Г.Я., Синица Л.М. Организация производства. Минск, ИП «Экоперспектива», 1998.
21. Кузмина Т.И. Экономика малого бизнеса. М., МГУ, 1992.
22. Кураков Л.П. и др. Бизнес-план. М., Финансы и статистика, 1995.
23. Курс экономики (под ред. .А.Райзберга). м., ИНФРА-М, 1997.
24. Летенко В.А., Туровец О.Г. Организация машиностроительного производства (Теория и практика) М., 1982.
25. Мазур И.И. и др. Реструктуризация предприятий и компаний. М., Высшая школа, 2000.

26. Майкл Бромвич. Анализ экономической эффективности капиталовложений. М., ИНФРА-М, 1996.
27. Макконел К.Р., Брю С.Л. Экономикс: Принципы, проблемы и политика. 2 тома. М., Республика, 1992.
28. Мокий М.С. и др. Экономика предприятия. ИНФРА-М, 2000.
29. Организация и планирование машиностроительного производства (под ред. М.И.Ипатова и др.). М., 1988.
30. Организация, планирование и управление машиностроительным производством (под ред. Б.Н.Роди-онова). М., 1989.
31. Покропивный С.Ф. Экономика предприятия: Задачи, Ситуации, Решения. К., Знания-прес, 2001.
32. Раицкий К.А. Экономика предприятия. М., ИВЦ «Маркетинг», 1999.
33. Самуэльсон П. Экономика (2 тома). М., НПО «Алгон», 1992.
34. Семенов В.М. и др. Экономика предприятия. 2-е изд. М., Центр экономики и маркетинга, 1998.
35. Сергеев И.В. Экономика предприятия. М., Финансы и статистика, 1997.
36. Словарь-справочник менеджера (под ред. М.Г.Лапусты), М., ИНФРА-М, 1996.
37. Современная экономика (под ред. О.Ю.Мамедова). Ростов на Дону, Феникс, 1997.
38. Справочник директора предприятия (под ред. М.Г.Лапусты) М., ИНФРА-М, 1996.
39. Турбан Г.В. Внешнеэкономическая деятельность. Минск, Высшая школа, 1997.
40. Фатхуддинов Р.А. Производственный менеджмент. М., Банки и биржи, 1997.
41. Фатхуддинов Р.А. Организация производства. М., ИНФРА-М ,2000.

42. Хрипач В.Я и др. Экономика предприятия. Мн., Экономпресс, 2001.
43. Швандар В.А., Прасолова В.П. Экономика предприятия. Тесты, задачи, стиуация. 2-е изд. М., Банки и биржи, ЮНИТИ, 1997.
44. Шеремет А.Д., Сайфулин Р.С. Финансы предприятия. М., ИНФРА-М, 1997.
45. Шмален Г. Основы и проблемы экономики предприятия. М., Финансы и статистика, 1996.
46. Ценообразование (под ред. И.К.Салимжанова). М., Финанстатинформ, 1995.
47. Шепеленко Г.И. Экономика, организация и планирование производства на предприятии. 2-е изд. Ростов на Дону. Изд.центр «МарТ», 2000.
48. Экономические реформы в России и Китае глазами российских и китайских экономистов. Сб. статей. СПб., Изд СПб университета, 2000.
49. Экономика (под ред. А.С.Булатова). М., БЕК, 1997.
50. Экономика предприятия (под ред. Н.А.Сафронова). М., Юристь, 1998.
51. Экономика предприятия (под ред. Ф.К.Беа и др). М., ИНФРА-М, 1999.
52. Экономика предприятия (под ред. А.Б.Карлика). СПб, Изд. СПб ГУЭФ, 1999.
53. Экономика предприятия и отрасли промышленности. 3-е изд. (под ред. А.С.Пелика). Ростов на Дону, Феникс. 1999.
54. Экономика предприятия (конспект лекций). М., Изд.ПРИОР, 1999.
55. Экономика предприятия (под ред. О.И.Волкова). Изд. 3-е, М., ИНФРА-М, 2002.
56. Экономика предприятия (под ред. В.Я.Горфинкеля и В.А.Швандара), Изд. 3-е, М., Банки и биржи, 2000.

MÜNDƏRİCAT

Giriş. Fənnin predmeti, məzmunu və metodları..... 3

BÖLMƏ 1. MÜƏSSİSƏ VƏ ONUN İQTİSADİ RESURSLARI

Fəsil 1. Müəssisə bazar iqtisadiyyatı şəraitində..... 14

1.1. Ölkə iqtisadiyyatının inkişafında sənayenin rolu... 14

1.2. Müəssisənin növləri və təşkilati-hüquqi formaları. 22

1.3. Müəssisənin yaradılması və inkişafının məqsədi, vəzifələri və əsas funksiyaları..... 31

1.4. Kiçik müəssisələr və onların inkişafı..... 40

1.5. Bazar şəraitində müəssisələrin fəaliyyətinin səmərəliliyinə təsir edən amillər..... 48

Fəsil 2. Müəssisənin əsas fondları (vəsaitləri)..... 50

2.1. Əsas fondların (vəsaitlərin) mahiyyəti, onların tərkibi və strukturu..... 50

2.2. Əsas fondların qiymətləndirilməsi metodları..... 55

2.3. Əsas fondların aşınması və amortizasiyası..... 57

2.4. Əsas fondların təkrar istehsalı..... 63

2.5. Müəssisədə əsas fondlardan istifadə göstəriciləri və istifadənin yaxşılaşdırılması yolları..... 64

Fəsil 3. Müəssisənin dövriyyə vəsaitləri..... 70

3.1. Dövriyyə vəsaitlərinin mahiyyəti, tərkibi və strukturu..... 70

3.2. Dövriyyə vəsaitlərinin dövranı və normalaşdırılması..... 74

3.3. Dövriyyə vəsaitlərindən istifadə göstəriciləri və onların dövr etməsinin sürətləndirilməsi yolları..... 77

Fəsil 4. Müəssisənin əmək resursları..... 80

4.1. Müəssisənin kadrları, onların tərkibi vuə strukturu..... 80

4.2. Əməyin təşkili və normalaşdırılması..... 85

4.3. Əmək məhsuldarlığı, onun artırılması amilləri və ehtiyatları..... 90

4.4. Əhalinin məşğulluğu problemi..... 95

BÖLMƏ 2. MÜƏSSİSƏNİN İSTEHSAL VƏ TƏŞKİLAT STRUKTURU

Fəsil 5. Müəssisədə istehsalın təşkilinin əsasları..... 97

5.1. İstehsal və istehsal prosesi anlayışı..... 97

5.2. İstehsal proseslərinin vaxta görə təşkili (istehsal tsikli)..... 98

5.3. İstehsal proseslərinin məkana görə təşkili (istehsal strukturu)..... 100

Fəsil 6. İstehsalın təşkili formaları, tipləri və metodları..... 107

6.1. İstehsalın təşkili formaları..... 107

6.2. İstehsalın təşkili tipləri..... 117

6.3. İstehsalın təşkili metodları..... 121

Fəsil 7. İstehsala texniki hazırlığın təşkili..... 132

7.1. İstehsala texniki hazırlığın və elmi-tədqiqat işlərinin mahiyyəti..... 132

7.2. İstehsalın konstruktor hazırlığı..... 135

7.3. İstehsalın texnoloji hazırlığı..... 140

7.4. İstehsalın təşkilati-iqtisadi hazırlığı..... 148

Fəsil 8. İstehsal infrastrukturunun təşkili..... 151

8.1. Alət təsərrüfatının təşkili..... 151

8.2. Təmir təsərrüfatının təşkili..... 153

8.3. Enerji təsərrüfatının təşkili..... 155

8.4. Nəqliyyat və anbar təsərrüfatlarının təşkili..... 156

Fəsil 9. Müəssisənin təşkilat strukturları..... 158

9.1. Təşkilat strukturlarının formalaşması və növləri... 158

9.2. Təşkilat strukturlarının layihələndirilməsi..... 168

BÖLMƏ 3. MÜƏSSİSƏ FƏALİYYƏTİNİN İQTİSADİ MEXANİZMİ

Fəsil 10. Müəssisənin iqtisadi strategiyası..... 177

10.1. İqtisadi strategiyanın formalaşdırılması..... 177

10.2. Müəssisənin iqtisadi strategiyasının hazırlanması mərhələləri..... 186

10.3. Müəssisənin əmtəə strategiyası. Məhsul istehsalı və satışı planı..... 190

10.4. Müəssisənin istehsal proqramı və istehsal gücü... 200
10.5. Müəssisənin biznes planı..... 205
Fəsil 11. İşçilərin əməyinin ödənilməsi..... 214
11.1. Əməyin ödənilməsinin sosial-iqtisadi maliyyəti və onun təşkilinin əsasları..... 214
11.2. Əməyin ödənilməsinin formaları və sistemləri ... 217
11.3. Əməyin ödənilməsinin tarifsiz və qarışıq sistemləri 226
11.4. Əmək haqqı fondunun müəyyən edilməsi..... 232
11.5. Əməyin motivasiyası..... 237
11.6. Əməyin maddi stimullaşdırılması sahəsində xarici ölkələrin təcrübəsi..... 241
Fəsil 12. İstehsal xərcləri və məhsulun maya dəyəri..... 246
12.1.Müəssisənin istehsal xərcləri və onların təsnifatı... 246
12.2. Məhsulun maya dəyəri və onun növləri..... 250
12.3. Maya dəyərinə daxil edilən xərclərin tərkibi və quruluşu..... 255
12.4. Maya dəyərinin aşağı salınması ehtiyatları və amilləri..... 266
12.5. Maya dəyərinin planlaşdırılması..... 273
Fəsil 13. Müəssisənin qiymət siyasəti..... 276
13.1. Qiymətin mahiyyəti və qiymətlərin təsnifatı..... 276
13.2. Müəssisədə qiymət siyasətinin vəzifələri və mexanizmləri..... 283
13.3. Müxtəlif bazar modellərində qiymətin əmələ gəlməsi xüsusiyyətləri 299
Fəsil 14. Müəssisədə təchizat və loqistika..... 303
14.1. Müəssisədə maddi-texniki təminatın təşkili və idarə edilməsi..... 303
14.2. Maddi-texniki təminatın planlaşdırılması 310
14.3. Təchizatda və loqistikada planlaşdırma metodları..... 315
Fəsil 15. Məhsulun keyfiyyəti, standartlaşdırılması,sertifikatlaşdırılması və rəqabət qabiliyyəti..... 321
15.1. Keyfiyyət anlayışı, onun göstəriciləri və keyfiyyətə nəzarətin təşkili..... 321
15.2. Məhsulun keyfiyyətinin idarə edilməsi sistemi..... 329
15.3. Məhsulun standartlaşdırılması..... 337
15.4. Məhsulun sertifikatlaşdırılması..... 344
15.5. Məhsulun rəqabət qabiliyyəti və onun göstəriciləri..... 353

Fəsil 16. Müəssisənin innovasiya fəaliyyəti..... 359
16.1. İnnovasiya anlayışı, onun növləri və həyat tsikli.. 359
16.2. Texniki səviyyə göstəriciləri və yeni texnika və texnologiyanın səmərəliliyi..... 367
16.3. Yeni texnika və texnologiyanın müqayisəli iqtisadi səmərəliliyi..... 375
16.4. İnnovasiya layihəsinin səmərəliliyi..... 382
Fəsil 17. Müəssisənin investisiya siyasəti..... 386
17.1. İnvestisiya proseslərinin əsas xarakteristikası..... 386
17.2. Kapital qoyuluşlarının strukturu və maliyyələşdirmə mexanizmi..... 388
17.3. Müəssisədə investisiyaların planlaşdırılması..... 391
17.4. Əsaslı tikintinin mahiyyəti, layihələndirilməsi və planlaşdırılması..... 392
17.5. İnvestisiyaların səmərəliliyi..... 393
Fəsil 18. İcarə, lizinq və françayzinq..... 396
18.1.İcarənin mahiyyəti və fəaliyyət mexanizmi..... 396
18.2. Müəssisədə lizinqin təşkili xüsusiyyətləri 401
18.3. Françayzinqin mahiyyəti və xüsusiyyətləri..... 405
Fəsil 19. Müəssisənin təbiəti mühafizə üzrə fəaliyyəti.... 408
19.1. Sənaye müəssisəsi ekoloji-iqtisadi sistem kimi..... 408
19.2. Əiraf mühitə və insanın sağlamlığına sənaye müəssisələrinin təsiri..... 413
19.3. Müəssisənin ekoloji pasportu..... 416
Fəsil 20. Müəssisənin xarici iqtisadi fəaliyyəti..... 421
20.1. Xarici iqtisadi fəaliyyətin əsas formaları..... 421
20.2. Azərbaycanda xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi və müəssisənin xarici bazara çıxışı..... 425

Fəsil 21. Müəssisənin kommersiya (təsərrüfat) hesabı və kommersiya sirri 432
21.1. Kommersiya və təsərrüfat hesabının mahiyyəti... 432
21.2. Müəssisənin struktur bölmələrinin (istehsaldaxili) təsərrüfat hesabı 436
21.3. Müəssisənin kommersiya sirri..... 447
BÖLMƏ 4. MÜƏSSİSƏNİN MALİYYƏ NƏTİCƏLƏRİ VƏ TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİ
Fəsil 22. Müəssisənin maliyyəsi..... 456
22.1. Müəssisənin maliyyə resursları..... 456
22.2. Müəssisənin satış pulu (mədaxili), gəliri və mənfəəti..... 460
22.3. Mənfəətin planlaşdırılması və bölüşdürülməsi..... 464
22.4. Rentabellik və onun növləri..... 470
22.5. Müəssisənin vergiləri, büdcəyə və büdcədənkənar fondlara ödənişləri..... 472
22.6. Müəssisənin maliyyə planı..... 479
Fəsil 23. Maliyyə-kredit təşkilatları ilə müəssisənin qarşılıqlı münasibətləri..... 484
23.1. Müəssisənin banklarla qarşılıqlı əlaqələri..... 484
23.2. Müəssisənin birjalarla qarşılıqlı əlaqələri..... 494
23.3. Müəssisənin fəaliyyətində sığorta təşkilatlarının rolu..... 502
Fəsil 24. Müəssisənin kommunikasiya siyasəti..... 509
24.1. Kommunikasiya siyasətinin əsas müddəaları..... 509
24.2. Müəssisədə reklam fəaliyyətinin təşkili və onun səmərəliliyinin qiymətləndirilməsi..... 513
Fəsil 25. İstehsalın iqtisadi və sosial səmərəliliyi..... 527
25.1. İstehsalın iqtisadi səmərəliliyinin mahiyyəti, kriteriləri və göstəriciləri..... 527
25.2. Xərclərin ümumi və müqayisəli səmərəliliyi..... 529
25.3. İstehsalın səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri..... 534
Tövsiyyə olunan ədəbiyyat siyahısı..... 537

XALIQ MƏCİD OĞLU YAHUDOV

MÜƏSSİSƏNİN İQTİSADİYYATI

Dərslik

Yığılmağa verilib: 05.09.2002. Çapa imzalanıb: 08.10.2002.
Format 60x84 1/16. F.ç.v 34,25. Kağız əla növ. Sayı 500 nüsxə.
Sifariş № 66. Qiyməti miqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi.